# KİTABİ-DƏDƏ QORQUD

***Əsil və sadələşdirilmiş mətnlər***

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*"Kitabi-Dədə Qorqud Ensiklopediyası"* (*II cilddə, I cild, Bakı, XXI–Yeni Nəşrlər Evi, 2000*) *kitabı əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Samət Əlizadə**
*filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi*

Nəşrə hazırlayanı və redaktoru: **Tofiq Hacıyev**
*AMEA-nın müxbir üzvü, Türk Dil Qurumunun həqiqi üzvü, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi*

**894.36 - dc 21**
**AZE**
**Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər.** Bakı, "Öndər nəşriyyat", 2004, 376 səh.

Qədim söz sənətimizi şöhrətləndirən böyük insanpərvərlik duyğuları, mənəvi ucalığa, qəhrəmanlıq və mərdliyə çağıran fikirlər, yüksək bəşəri ideyalar öz başlanğıcını tükənməz Dədə Qorqud nəhrindən götürür.

"Kitabi-Dədə Qorqud" dilimizin, ədəbiyyatımızın, dastan yaradıcılığımızın, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməkdə böyük əhəmiyyətə malikdir.

Bu nəşrdə Dədə Qorqud iki variantda – orijinala tam uyğun və müasirləşdirilmiş şəkildə verilir.

**ISBN 9952-416-08-2**

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# “DƏDƏ QORQUD KİTABI” İLK YAZILI YADDAŞIMIZDIR

Ümumi bəşəri keyfiyyətləri ilə bərabər, dünyanın məşhur dastanlarının hər birini səciyyələndirən fərdi əlamətləri də olur. Məsələn, türk dastanlarından qırğızların “Manas”ı yüksək bədii dəyəri ilə yanaşı, həm də həcminə görə xüsusi seçilir. İran dastanı “Şahnamə” 60 min beytdir (120 min misra). “Manas” 250 min misradır. Deməli, o, “Şahnamə”dən “2 dəfə + 10 min misra” çoxdur. V.M.Jirmunskinin hesabına görə, “Manas” dünyanın adlı-sanlı dastanı “İliada”dan 16 dəfə böyükdür (“Тюркский героический эпос”, M., 1974, c.5). Oğuz bahadırlarının qəhrəmanlıq anketini nəzərə alsaq, əlimizdə olmayan Dədə Qorqud boyları “Kitab”dakından qat-qat artıq olur. Məsələn, İlək Qoca oğlu Alp Ərənin 57 qalanın açarını alması (bu, 57 səfər – boy deməkdir), 37 bəy qızını qaçırması (bu, 37 səfər – boy deməkdir) söylənir (94 boy). “Kitab”dakı Bamsı Beyrəyin adına ayrıca “Alpamış” dastanı var ki, məlum Dədə Qorqud boylarından bir neçə dəfə həcmlidir. Və beləliklə, “94 boy + “Alpamış” + başqa Oğuz igidlərinin boyları” şəklində cəmləşdirsək, Dədə Qorqud Oğuznaməsi “Manas”dan iki dəfə böyük olar. Bu, mülahizədir, gəlişi gözəl iddiadır, ancaq bunun elmi fikir kimi qorqudşünaslıqda tərəfdarları var (Bax: T.Hacıyev. “Dədə Qorqud kitabı” Oğuz tarixinin yazılı dərsliyi kimi, yaxud dastanımızın həcmi haqqında. “Dədə Qorqud” toplusu, 2001, №1, s.9-24). Əlbəttə, qəhrəmanlıq dastanları millətin tarixi yaddaşıdır – o cümlədən “Dədə Qorqud kitabı”. Ancaq türk dastançılığında yeganə “Dədə Qorqud kitabı”dır ki, oğuzların, birinci növbədə, Azərbaycan türklərinin yazılı yaddaşıdır. Şifahi yaddaş əsrə görə, söyləyicidən söyləyiciyə improvizə olunur. Deməli: dəyişir, böyüyür, ən pisi də, subyektiv müdaxilələr olur. Məsələn, Qırğızıstan Rusiya imperiyasına girəndən sonra manasçı “Manas”a “ruslarla dostluq” bəhsini əlavə etdi. Beləliklə, “Dədə Qorqud kitabı” yazılı yaddaşımızdır və heç bir dəyişikliyə uğramadan yaddaşımıza necə daxil olubsa, elə də qalıb.

Dədə Qorqud və onun adı ilə bağlı olan kitab – “Dədə Qorqud kitabı” düşüncə tariximizdə əfsanəvi bir anlayışa dönüb. “Dədə Qorqud kitabı” Ana kitabımız adlandırılıb, bütün türk bədii ədəbiyyatının ağırlığından da ağır gələn bir əsər sayılıb, türkün tarixində Mete, Atilla, Əmir Teymur, Osmanlı imperatorluqları, Orxon-Yenisey əbədi daş (bəngü taş) kitabələri, M.Qaşqarlının “Divanü lüğat-it türk”ü ilə bir sırada yeddi möcüzədən biri

kimi qiymətləndirilib. Bu "Kitab" bugünkü dünya mədəniyyətinə "Kül tiqin" və "Bilqə kağan" dastan-dilogiyaları ilə yanaşı yazılı şəkildə çatan türk eposudur. "Dədə Qorqud kitabı" gövdəsində müxtəlif meyvə calaqları yetirən nəhəng ağaca bənzəyir – mükəmməl sinkretik tarix sənədidir: salnamədir (oğuzun tarixidir) və bədii əsərdir, şifahi yaradıcılıq nümunəsidir və yazılı ədəbiyyatdır.

Bütün bu təyinatlarla yanaşı, ona bir təşbeh də yaraşır: "Dədə Qorqud kitabı" dilimizə bənzəyir. O da ana türkcəmiz kimi qədim və müasirdir, mükəmməl və yetkindir, gözəl və şairanədir. Dilimiz qədər heç nəyi sevmirik, ona görə "Dədə Qorqud kitabı"nı da bütün həmcinslərindən – dastanlarımızdan və başqa bədii sənət abidələrimizdən çox sevirik. Və maraqlıdır ki, bütün kompozisiya kamilliyi, obrazlarının orijinallığı, hadisələrinin dramatikliyi ilə yanaşı, "Kitab"ımızın ən böyük ucalığı onun dilindədir – dilinin ifadə gücündə, zənginliyində, şairanəliyində və ən əsası müdrikliyindədir. Məlumdur ki, müqəddəs kitabların ən böyük sirri onların dilinin təsir gücündədir. Məsələn, "Quran"ın tərcüməsində onun məzmununa vaqif olmaq olur, ancaq orijinaldakı təlqin, nüfuzedicilik görünmür. Bizim müqəddəs "Dədə Qorqud kitabı"mız da, birinci növbədə, dilinin gözəlliyi ilə insanı heyran qoyur. Səsindən, sözündən başlamış cümlə təşkilinə qədər bu dil harmoniya nümunəsidir. Onun dili ilə bu təsəvvürü alırıq ki, min üç yüz il əvvəlki dilimiz bugününə çox yaxınmış – lüğəti və qrammatikası ilə:

*Dilin üçün öləyim, gəlincigim!*
*Yolına qurban olayım, gəlincigim!*

Həmin dil öz obraz gözəlliyi ilə bu şeiri düzüb-qoşan ozanın ustadlığına borcludursa, həmin ozan da xalq dilimizin istedadına, o vaxtkı kamilliyinə minnətdardır:

*Qar üzərinə qan dammış kimi*
*Al yanaqlım…*
*Qurulu yaya bənzər*
*Çatma qaşlım.*
*Qoşa badam sığmayan*
*Dar ağızlım.*

Bu dil o gücdə olmasa, Allahın sifətini göstərən əlamətləri (İxlas surəsi əsas götürülür) Qurandan bu dolğunluqda, bu aydınlıqda və bu sadəlikdə tərcümə edə, özünə çevirə bilməzdi:

*Yucalardan yucasan,*
*Kimsə bilməz necəsən,*
*Görkli Tanrı!*
*Sən atadan olmadın,*
*Anadan doğulmadın.*
*Kimsə rizqin yemədin,*
*Kimsəyə güc etmədin,*
*Qamu yerdə əhədsən,*
*Allahu səmədsən.*
*Adəmə sən tac urdun,*
*Şeytana lənət qıldın.*
*Ulılığına həddin,*
*Sənin boyun-qəddin yoq!*
*Ya cisimlə cəddin yoq!*
*Urduğun ulıtmayan*
*Ulu Tanrı!*
*Basdığın bəlirtməyən*
*Bəlli Tanrı!*
*Götürdüyün Gögə yetirən*
*Görkli Tanrı!*
*Qaqdığın qəhr edən*
*Qəhhar Tanrı!*
*Birliyinə sığındım,*
*Çələbim, qadir Tanrı.*

"Kitab"ımız elə etibarlı salnamədir ki, çox tarixçilər Oğuzun tarixi haqqında məlumat verərkən ona dönə-dönə müraciət etmişlər. Görkəmli qorqudşünas M.Ergin mötəbər şəkildə inandırır ki, Rəşidəddin, Osman Bayburdlu, Əli Yazıçıoğlu, Əbülqazi Xivəli və başqa görkəmli oğuzşünas tarixçilər "Dədə Qorqud kitabı"na tarixi mənbə kimi baxmışlar. Adətən qəhrəmanlıq dastanlarını tarixin şifahi dərsliyi sayırlar. Dədə Qorqudun hadisələri bizə oğuznamə halında, yəni yazılı şəkildə gəlib yetdiyi üçün mən onu Oğuz tarixinin yazılı dərsliyi kimi təqdim etmişəm ("Dədə Qorqud", 2001, №1).

Dediyimiz kimi, "Dədə Qorqud kitabı" Oğuzun tarixidir, dövlətçiliyidir, Azərbaycanın tarixi coğrafiyasıdır. Hər elm adamı bu "Kitab"da öz axtardığını tapa bilər, ancaq, əlbəttə, əlimizdə olan "Dədə Qorqud kitabı", birinci növbədə, ədəbi-bədii əsərdir (Dədə Qorqud: dilimiz, düşüncəmiz, 1999, s.115).

"Kitab"da hər boyun öz qəhrəmanı var, bununla belə, bu boylar bir bütöv bədii abidənin, bütün bir kitab-dastanın tərkibidir, indiki təbirlə, bir əsərin fəsilləridir. Boyların hamısında iştirak edən, daha doğrusu, adı çəkilən, adı keçən Qorquddur ki, görünür, məhz buna görə də yazıya alan tərəfindən "Kitab" onunla adlandırılmışdır. Ancaq Qorqud bu əsərin qəhrəmanı deyil, heç əslində ona obraz da demək olmaz. O, bir rəmzdir – türkün ağsaqqala, müdrik söz sahibinə hörmətinin rəmzidir. Boyların hamısı üçün ümumi qəhrəman surəti Böyük Oğuz Elidir. Oğuz qəhrəmanlarının həm parçalanaraq üz-üzə gəldiyi, həm də ümumi qayə yolunda birləşərək bir bütöv kimi iştirak etdiyi on ikinci boy dastanın bütövlüyünü, boy-boy cəmlənə-cəmlənə gələn Oğuzun dövlətçilik taleyinin bölünməzliyini əyaniləşdirir – Böyük Oğuz Eli (dövləti) bir obraz – qəhrəman kimi qalib gəlir.

Deyildiyi kimi, bu əsər həm dastandır, həm də kitab. Əsərin süjetində və quruluşunda, obrazlarının psixoloji təkamülündə, dilinin bədii ifadə tərzində şifahi və yazılı ədəbiyyatın əlamətləri birləşir. Dəli Domrul və Təpəgözlə

bağlı boylar mifoloji təfərrüat üstündə durur, hadisələr bəşərüstü hakimiyyətlə idarə olunur – bu, xalis dastan tipologiyasıdır. Bamsı Beyrək boyunda isə yazılı ədəbiyyat boyaları ön plana keçir. Bamsının ən çıxılmaz məqamında, hətta qeyri-adi çətinlik anında düyünün açılmasında bir inandırıcılıq var, realist, ağılabatan bir mümkünlük baş verir.

Bədii əsər obrazları ilə tanınar. “Kitab”ımız ədəbiyyata kamil bədii obrazlar, klassik müsbət və klassik mənfi tiplər verib. Qazan xan, Bamsı Beyrək bəşəri müsbət insan surətləridir. Aruz Qoca dünya ədəbiyyatında yaqoçuluğu (müsbətlik pərdəsi altında hiyləgərliyi) Şekspirin Yaqosundan min il əvvəl başlayıb. Burla xatun, Dirsə xanın xanımı, Banıçiçək dünya ədəbiyyatının nadir qadın təsvirlərindəndir. “Kitab”ın obrazları nəinki səviyyəcə uyğun gəldikləri dünya ədəbiyyatının bədiilik etalonu sayılan personajları sırasına daxil olmayıblar, hətta heç Azərbaycan ədəbiyyatının özündə, məsələn, Qazan xan Koroğlu kimi, Burla xatun Nigar qədər təhlil edilməyiblər. Fövqəladə gücü ilə də, yeyib-içmə həcminə görə də Qazanı Koroğlu obrazı ilə müqayisə etmək olar. Qazan da Koroğlu kimi qılınc və saz (qopuz) qəhrəmanıdır. Koroğlu Qıratının, Qazan xan Qonur atının üstündə yenilməzdir. Qazan da düşmənə qarşı həm amansızdır, həm də səmimidir. Türkün həmişə sülhə – barışa meyilli olması Qazanın simasında bir daha aydın görünür. Səmimiliyinə və sülhsevərliyinə görə Qazan xan düşmənlə danışığa girir ki, qoca anasını geri alsın, ancaq aldanmır. Çünki Qazanın xarakterində dövlətçilik düşüncəsi qəhrəmanlıq – bahadırlıq keyfiyyəti ilə qoşa yaşayır. Koroğlu sadəlövhdür, onu Keçəl Həmzə də aldadır. Qazanda bir insanda nə qədər müsbət keyfiyyətlər mümkündürsə, var; bir döyüşçü, sərkərdə üçün nə lazımdırsa, var; bir dövlət başçısı nələri bilməlidirsə, bilir, eyni zamanda o, valideyndir – oğul atasıdır, ailə başçısıdır – təkarvadlıdır. İran şahları kimi hərəmxana sahibi deyil, ona görə də qadını onun namusu yolunda oğlunun ölümündən keçməyə hazırdır.

Bütün bunlarla yanaşı, əlbəttə, dastan-kitabın ən kamil bədii obrazı Bamsı Beyrəkdir. Beyrək bütün Oğuz igidləri kimi, təbii ki, birinci növbədə, məhz qəhrəmandır. Ancaq görünür, qol gücü ilə yanaşı, o həm də xüsusi ağıl-düşüncə sahibidir ki, Qazan xanın inağı (ən yaxın, ən inanılmış adamı) sayılır. Dastanın bədii hadisələrlə, təsvirlərlə, emosiyalarla ən zəngin boyları üçüncü və on ikinci boylardır ki, hər ikisinin qəhrəmanı məhz Beyrəkdir. O, boy-buxunca, sifətcə də gözəldir. O qədər gözəldir ki, bədnəzərdən qorunmaq üçün niqab gəzdirir. Gözəlliyindən aldığı zövqün xatirinə kafər qızı onun əsirlikdən qaçmasını təşkil edir. On altı il kafər qızının cazibəsində yaşayan Beyrək Şeyx Sənan ola bilərdi, ancaq Məcnun olaraq qalır. Nizami, Füzuli Məcnunu əslində qılıncından əl çəkmiş Beyrəkdir. Dastanda Beyrək ən incə cizgilərlə sifətlənmiş insan təcəssümüdür. O ən lirik igid-qəhrəmandır. O, qəhrəmanlıq dastanından çox məhəbbət dastanının qəhrəmanına bənzəyir.

Qalın Oğuz elinin fiziki və estetik tərbiyə məktəbinin üslubu Oğuz qəhrəmanlarının hamısında görünür: Qazan xan ölçüyə gəlməz güc sahibidir, həm də qopuz çalır, şeir deyir; Əgrək və Səgrək qardaşları düşmən ordusunun önündə duran ərlərdir, ancaq qopuz melodiyası üstündə həzin sözləri ilə, niskil süzülən söhbətləri ilə insana – oxuyana, dinləyənə bədii mühit ovqatı təlqin edirlər və s.

“Dədə Qorqud kitabı”nın ulu adı, böyük şöhrəti qədər də mübahisələri, problemləri var.

Diqqəti çəkən problemlərdən biri budur ki, Azərbaycanınkı sayılan bu dastan xalqın içində yoxdur, şənliklərdə, toy-mağarlarda, dastan auditoriyalarında iştirak etmir. “Bəs bu, haradan bizim oldu?” sualının cavabını tapmaqda qırğızların “Manas” dastanı yardımçımız olur. Belədir ki, qırğız bahadırları Manas, oğlu Semetey, nəvəsi Seytekin ana vətəni qoruyarkən göstərdikləri qəhrəmanlıqların tərənnümü olan “Manas” dastanını hər aşıq-akın ifa edə bilmir. Onun məxsusi ifaçıları var ki, bunlara manasçılar deyirlər. Manasçılıq nəsildə irsən keçir – müəyyən zaman kəsiyində manasçı ailəsində bu peşə bir və ya iki nəfərin şəxsində üzə çıxa bilir. 1989-cu ildə Bişkəkdəki türkoloji qurultayda bildik ki, Qırğızıstanda cəmi üç manasçı qalıb. Onlardan ikisini məclisə gətirmişdilər. Dedilər ki, üçüncüsü yorğan-döşək xəstəsidir, bugün-sabahlıqdır. Deməli, manasçı nəsli kəsilə bilər (o, başqa məsələdir ki, birdən bu iki nəslin hərəsindən ikisi, onun da hərəsindən ikisi çıxar və manasçının sayı artar. Bununla belə zamanın birində nəslin bitib-qurtarması bir məntiq olaraq qalır). Bu faktı bildikdən sonra mən belə qənaətə gəldim ki, vaxtilə bizdə də qorqudçu ozanlar olublar. Dədə Qorqud haqqında ilk məlumatları verən tarixçilər bu dastanın hər aşıq tərəfindən ifa edilə bilmədiyini söyləyirlər: “Bu masalları (nağılları – T.H.) oğuzlar içində ağıllı, elmli kimsələr əzbərlər və qopuzlarını çalaraq söylərlər” (Bax: M.Ergin. Dede Korkut kitabı, 1 c., Ankara, 1994, s.36). Deməli, Dədə Qorqud dastanının da xüsusi ifaçıları – qorqudçular olmuşlar. Və görünür, bir zamanlar onların nəsli kəsildiyi üçün dastanımız xalq arasında söylənməkdən dayanmışdır. Onu elə belə, məsələn, “Koroğlu” dastanı kimi, yəni hadisələrin məzmununu nəsrlə danışıb, arada şeirləri əzbər demək şəklində ifa etmək olmaz. Bu dastan başdan-başa şeirdir. Deməli, onu əzbərləmək üçün yüz minlərlə beytləri bir nəfəsə əzbər söyləyən xüsusi manasçı yaddaşı gərəkdir. O biri dastanlarda şeiri oxumayıb, onu ancaq nəsrlə danışsan, məzmuna xələl gəlməz. Çünki məzmun nəsrlə verilir, şeir parçaları emosional ricətlərdir, onları atmaqla süjetdə çatışmazlıq yaranmır. Ancaq Qorqud eposunda bir cümləni də buraxmaq olmaz. Çünki hər cümlə şeir misrasıdır və o cümlə-misra ifadan çıxsa, süjetin söylənməsində qırıqlıq yaranacaqdır. Burada soylama adı ilə verilən şeir parçalarında da süjet danışılır. Dastanın qalan hissələri də soylamalar kimi nəzmdir, şeirdir və eyni zamanda soylamalar da qalan hissələr kimi məzmunun – süjetin nəqlinə xidmət edir. Həm də Qorqud şeiri bugünkü şeirimiz

kimi heca vəznində, müəyyən düzümdə misralardan və qafiyələrdən ibarət deyil. Təbii ki, bu tip şeiri əzbərləməyin öz çətinlikləri var. Demək, bu quruluş da şeirlə yazılmış dastanı əzbərləyən, əvvəlindən axırına qədər bir sözü də dəyişmədən, unutmadan söyləyən, tarixçinin dediyi kimi, xüsusi "ağıllı, elmli kimsələr", fövqəladə yaddaşlı ozanlar olmuşlar. Həmin ozanlar qorqudçu adlanırmışlar və bir zaman onların nəsli kəsilib. Bu səbəbə görə də bizim olan dastanın el içində şifahi ifası dayanmış və bu nadir sənət abidəsini itirməmək üçün müdrik ulu babalarımız onu sonuncu qorqudçu ozanın dilindən yazıya almışlar.

"Dədə Qorqud kitabı" öyrənildikcə, sözün geniş mənasında, türk tarixinin ayrı-ayrı tutqun səhifələri üzərinə işıq düşür. Türkün yaratdığı dünyəvi təsərrüfatlara, qurduğu saysız-hesabsız şəhərlərə, xariqə sayılan dövlətçilik tarixinə göz yumaraq bəzən onu, sadəcə, köçəri etnos kimi səciyyələndirənlər olublar. Bu iddiada söykənəcəklərdən biri bu olub ki, türklər çadırda yaşayıblar. "Dədə Qorqud kitabı"nda **çadır** sözü hansı məqamlarda işlənir: "Qazan gög-ala çəmənə **çadır** dikdirdi. Yeddi gün, yeddi gecə toy-dügin edüb, yemə-içmə oldı"; "Təkur çərisin dəyişirüb meydana gəldi. **Çadır** dikdirdi"; "Xanlar xanı xan Bayındır… bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ qurdurmışdı". Göründüyü kimi, bu çadırlar müəyyən məqsədlər üçün qurulur, bir mərasimə xidmət edir. Və müvəqqətidir, mərasim qurtaran kimi bu qurğunun ömrü qurtarır. Ancaq bu çadırlar çox mükəmməl quruluşa malik olurmuş, otaq rahatlığı ilə tikilirmiş. Hətta **çadır-otaq** söz-forması işlənir. Hətta "otaq qurdurdu" və "çadır tikdirdi" ifadələri söylənir. Deməli, burada "otaq" sözü şərtidir, sadəcə, çadırın mükəmməlliyinə işarə olunurmuş. Beləliklə, xüsusi mərasimləri keçirmək üçün türk öz daimi yaşayış evlərindən kənarda, müəyyən olunmuş sahələrdə əski olimpiya qurğularının tipində qurğular qururmuş. Bunlar, həqiqətən, çadırlar idi. Ancaq türkün ömürlük, gecə-gündüz yaşayış yerləri deyildi. Heç olmasa, buna da diqqət edək ki, Təkur da çadır tikdirir və bu da müvəqqətidir – bunu döyüş səhnəsini seyr etmək üçün tamaşa yeri, müasir mənada, yüksək rütbəli komandirlərin durub baxdığı hərbi istehkam kimi qururlar. Başqa bir çadıra diqqət yetirək: "Oğuz zamanında bir yigit evlənsə, ox atardı. Oxı nə yerdə düşsə, anda gərdək dikərdi. Beyrək xan dəxi oxın atdı, dibinə gərdəgin dikdi". Bu da çadırdır, gərdək kimi istifadə olunmaq üçün qurulur – tikilir. Təbii ki, bu çadır-gərdək toy mərasiminin öz etnik ayinlərinə görə üç gündən qırx günə qədər yaşayış yeri kimi istifadə olunur. Göründüyü kimi, bütün bunlar qaraçı çadırları deyil. Bunlar bugünkü yas və toy çadırları da deyil, bugünkü olimpiya tikintilərinin, qurğularının analoqudur. Bu, dövrün mərasim mədəniyyətini nümayiş etdirən tarixi faktlardandır.

At türkün dostudur, silahdaşıdır. Bunu da türkün ayağına köçərilik göstəricisi kimi yazırlar. Doğrudan da, türk ancaq atın üstündə özünü türk sayır,

özünü rahat bilir. Dastanda belə bir səhnə var: "Uruzun qırq yigidi atdan endi. Ala qalqan bağını qısa dügdilər. Qılıç sıyırdılar. Uruzun üzərinə çox savaşdılar. Yayanın umudı olmaz". Bəli, yayanın – piyadanın ümidi yoxdur və Uruzun qırx igidi məğlub olur. Çünki türk piyada vuruşa bilmir. Ancaq bu, niyə türk üçün eyib sayılsın? Bu döyüşlər böyük dövlətlərin ordularının üz-üzə durmasıdır. Türk ordu olaraq "qırmaqla, məhv etməklə yox, sənətkarlıqla, hərb mədəniyyəti ilə ölkələri ram edib. Atla davranış mədəniyyətinin ustadı türkdür. Türk cilovun, ram etməyin ustalığını atın üstündə kəşf etdi – sonra asanlıqla ölkələri cilovladı. Eynən sevgili atındakı kimi, cilovdan idarə vasitəsi, yönəltmə aləti kimi istifadə etdi – əzab vermək, incitmək üçün yox" (bizim: "Qıpçaq çölü haqqında elmi ballada". Murad Adcının "Qıpçaq çölünün yovşanı" kitabına son söz – Bakı, 1997, s.192). Türk ata minəndə Mete, Atilla, Ər Tonqa, Əmir Teymur, atdan düşəndə Fərabi, Əhməd Yəsəvi, İbn Sina, Nəsimi olur.

"Dədə Qorqud kitabı" ilə bağlı mübahisələrdən biri boylarının sayı məsələsidir. Qorqudşünaslıqda belə bir qəti qənaət var ki, bu gün bizə məlum olan on iki boy mövcud olmuşlardan ancaq bir qismidir. Bu mülahizəni, birinci növbədə, "Kitab"ın öz qəhrəmanlarını təqdim etmə üslubu diktə edir. Məsələn, 2-ci boyun sonunda döyüşə çıxan oğuz bahadırlarından Bamsı Beyrək bu şəkildə tanıdılır: "Parasarın Bayburt hasarından pırlayıb uçan, apalaca gərdəgünə qarşu gələn, yeddi qızın umudı, Qalın Oğuz imrəncisi, Qazan bəgin inağı, Boz ayğırlu Beyrək çapar yetdi". "Kitab"da "Qam Börənin oğlı Bamsı Beyrək boyını bəyan edər, xanım hey" hekayətində boyun qəhrəmanı Boz ayğırlı Bamsı Beyrək göstərilən həmin əlamətlərlə görünür: yəni Bamsı Beyrək Boz ayğırlı bahadırdır, onun yeddi bacısı – qız qardaşı var, toy gecəsi yağı onu gərdəyindən götürür, o, Parasarın Bayburt hasarında (qalasında) 15 il əsir qalır və oradan xilas olub, başqasına ərə köçürülən gəlininə qovuşur. Deməli, başqa Oğuz sərkərdələrinin də qəhrəmanlıq təyinatını bu tipdə qəbul etməliyik. Həmin bahadırlar sırasında Dəli Dondar belə təqdim olunur: "Dəmir qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndərinün ucında ər bögürdən Qıyan Səlcuk oğlı Dəli Dondar çapar yetdi". Başqa qəhrəmanlar da bu modellə verilirlər. Göründüyü kimi, bu, eynən Bamsı Beyrəyin təqdim olunduğu üslubdur. Bu üslubu görkəmli qorqudşünasların hamısı birmənalı şəkildə belə qiymətləndirir ki, həmin qəhrəmanların da təqdimat anketindəki əlamətləri əks etdirən məzmunda boy-hekayətləri olmuşdur. Deməli, boyların sayı, ən azı, qəhrəmanların sayı qədər təsəvvür edilir. Hətta bir qəhrəman bir neçə yürüşün qəhrəmanı kimi göstərilirsə, deməli, onun adına bir neçə boy olmalı idi.

"Dədə Qorqud kitabı" öyrənildikcə onu dastan kimi düzüb-qoşan ozanın şəxsiyyəti aydınlaşır. Dastanı ifa edən xüsusi qorqudçu olduğu kimi, onu düzüb-qoşan ozan da xüsusi sənətkar keyfiyyəti ilə seçilmişdir, o da yaradıcı

qorqudçu ozan olmuşdur. Aydın olur ki, məsələn, "Koroğlu", ya başqa dastanlarda olan kimi, hər qolu – boyu istənilən bir şəxs (aşıq) deyib-qoşmur. Bu dastan başqa dastanlar kimi müxtəlif əsrlərdə dəyişikliklərə məruz qala bilməz. Əgər Dədə Qorqud boyları ayrı-ayrı əsrlərdə törəyibsə, yenini düzüb-qoşan kəs – bu ozan mütləq Dədə Qorqud məktəbi keçib, qorqudçu dərsi alıb, ilk şeirin texnologiyasına yiyələnib. O dərəcədə yiyələnib ki, yeni və əski mətnlər məzmununa və dil üslubuna görə fərq verməsin – bu, qorqudçu ozan deməkdir. Məhz həmin ozan əlimizdəki on iki boylu "Kitab"ın on birinci boyunu nə vaxtsa dastana anomaliya kimi əlavə edib. Bu qorqudçu ozan dastanın məntiqini nəzərə alıb və bu boyu əlavə qoşub. Məntiq çox sadədir: dastanda oğuz qəhrəmanlarının hər birinin igidliyini göstərən boy var. Bu igidlərdən biri Uruzdur. Uruzun qəhrəmanlıq göstərməsi bəylər bəyi, Oğuzun baş komandanı Qazan xanın arzusudur. Təsəvvür edək ki, bu boy yoxdur. Deməli, Oğuz elinin sərkərdəsi oğlunun igid yetkinliyini görmədən niskillə dünyasını dəyişmişdir. Hətta dastanda belə səhnə var: adlı-sanlı Oğuz qəhrəmanlarına baxıb qah-qah gülən, ancaq oğluna baxıb onu ünvansız görən Qazan xan hönkür-hönkür ağlayır. O, oğlunu Oğuz igidlərinin sırasında görmək istəyir. Oğlu da gileylənir ki, atası şərait yaratmayıb, meydan verməyib ki, özünü göstərsin. Sınaq döyüşündə ata oğlunu itirir, Uruz qəhrəmanlıq göstərmək əvəzinə, əsir düşür. Beləliklə, dördüncü boy "Qazan xan oğlu Uruz boyunu bəyan edər, xanım hey" yox, "Qazan bəg oğlı Uruz bəgin tutsaq oldığı boyı bəyan edər, xanım hey" olmalı olur. Halbuki Uruzun Beyrək, Qanturalı, Yegnək, Səgrək, Bəkil oğlu Əmran cərgəsində durması üçün onun adına boy olmalı idi. Hətta Beyrək boyunda yürüşdə atası Qazan xanla və başqa Oğuz igidləri ilə bir sırada onun adı bahadır kimi çəkilir: "Beyrək, Yegnək, Qazan bəg, Tondar, Qazan oğlu Uruz bəg – bunlar hasara yüriş etdilər". On birinci boy həmindir. Əslində bu boyun yaranmasında dəhşətli bir məntiqsizlik var. Əvvələn, ikinci və dördüncü boylarda Uruz hədd-buluğa çatıb, on birinci boyda isə hələ körpədir. İkincisi, bu boyda Qazan xanın on altı il əsir qalması göstərilir. Bu müddətdə Oğuz elinin baş komandanı, dövlətin başçısı kimdir? Boyda Bayındır xan da yoxdur. Ola bilərmi ki, Oğuz dövləti on altı il padşahsız yaşasın? Qazanın əsirliyi, olsa-olsa, 4-cü boyda Uruzun əsirliyi kimi ani ola bilərdi. Oğuzun padşahı 16 il əsir qalsa, Oğuz dövləti bu qədər padşahsız yaşaya bilməzdi. Bu dediyimiz məntiq real dövlətçilik, həqiqi tarix baxımından məntiqsizlikdir. Halbuki burada həlledici olan ədəbi-bədii məntiqdir. Bədii məntiq Uruz boyunu tələb edir. Burada başqa gerçəklik də aydınlaşır: dünya qəhrəmanlıq dastançılığının nəzəriyyəsinə görə bu oğuznamə salnamə kimi yaranmalıydı və yəqin ki, elə də yaranıbmış. Ona görə də ilk yaradılış mərhələsində Uruz boyuna ehtiyac olmayıb. Uruz qəhrəman olaraq ya Yegnək kimi atasını, ya da Səgrək kimi qardaşını xilas etməliydi. Uruzun qardaşı yoxdur, atası da dövlətçilik məntiqi

ilə əsir düşə bilməzdi. Çünki dastan-salnamənin məntiqi ilə dövlət 16 il başçısız qalmamalıydı. Salnamə əslindən və dövründən uzaqlaşdıqca, bədiilik tarixiliyi özünə tabe etdikcə, bədii məntiq tarixi məntiqə hakim kəsildikcə Uruz boyunun boş yeri daha aydın görünür. Və sonuncu qorqudçu ozan həmin boşluğu tamamlayır. Sadəcə olaraq, "Dədə Qorqud"u "Kitab" halında tərtib edən tarixi şəxsiyyət onu boyların sırasında düzgün yerləşdirməyib.

Dədə Qorqud süjetindəki hadisələrin tarixi haqqında fikir birliyi yoxdur. Bu tarixin bizə tərəf amplitudu XI-XV əsrləri əhatə edir. O tərəfə rəqsi hüdudsuz olaraq eramızdan əvvələ gedir. Mənə görə bu düsturu mövcud mübahisələr üçün ortaq məxrəc saymaq olar: "Dədə Qorqud dünənimizin keçmişidir" (İsmayıl Hacıyev). Bu düsturun canı odur ki, "Dədə Qorqud kitabı"nda dastanın yaranması haqqında bizə məlum olan tarixdən çox-çox qədimlərin nəbzi vurur. Bayram etdiyi 1300 illik yubileylə dünya bu süjetin tamamlanma tarixi kimi eramızın VII əsrini qəbul etdi. Həmin düstura görə VII əsr dünənimizdir və deməli, "Kitab" onaqədərki tarixi əks etdirir.

"Dədə Qorqud kitabı"nda "dünənimizdən" (VII əsrdən) daha dərinə gedən bir neçə örnəyə diqqət yetirək:

1. Türkün ailə quruculuğunda belə bir ayin olub: qız ərə getdiyi oğlanı fiziki cəhətdən yoxlarmış, yalnız məğlub olduğuna ərə gedərmiş. M.Baştunun "Şan qızı" bulqar dastanında belə bir səhnə var: Boyan-İmenin oğlu İcik Barısın qızı Samar üçün elçiliyə gəlir. Samar o alp qızı alpdır ki, əfsanəvi güc sahibi alplardan Əjdahanın yalını qoparıb, Albastının üç dişini salıb, Cinin bir qanadını sındırıb, Qubarın iki qabırğasını qırıb. İndi insan oğlu İcik belə bir qızla qarşılaşmalıdır. Qız oğlana elə beləcə də deyir: "Gəl tutaşaq, görüm mənə layiqsənmi?". Böyük çətinliklə İcik qalib gəlib, Samarla evlənir. Bulqarlar islamı qəbul etdikdən sonra bu ayində belə bir dəyişiklik olur ki, bəy olacaq şəxslə qızın özü yox, onun kişi qohumlarından biri qarşılaşır. Dastanın sonunda islamı qəbul etmiş bulqarların toy mərasimində belə bir epizod öz bədii əksini tapır. Bu adət türkün tarixində matriarxat mərhələsinə gedən bir hadisə olmalıdır. Bu, matriarxatın ata kultuna döyüşə-döyüşə təslim olmasını göstərən tarixi mənzərənin ədəbi-bədii səhnə şəklində əks olunmasıdır. "Dədə Qorqud kitabı"nda Bamsı Beyrəklə Banıçiçəyin qarşılaşması səhnəsi aşkarca həmin adətə işarə edir. Bu səhnədə açıq-açığına Banıçiçək Beyrəyi yoxlayır, məğlub olduqdan sonra onu qəbul edir. "Kitab"da bu qarşılaşma guya bir təsadüfün nəticəsidir. Guya Banıçiçək onun zonasına naməhrəm kişinin daxil olmasını özünə sığışdırmır, guya bir ərköyün qız şıltaqlığını büruzə verib oğlana qarşı meydan sulayır. Ancaq Banıçiçəyin bu aksiyasında həmin qədim adətə bir işarə var: o bu adamın beşikkərtmə nişanlısı olduğunu bilə-bilə, özünü Banıçiçəyin dadısı (dayəsi) kimi təqdim edir və Beyrəyi yoxlanışa çəkir. Təbii ki, bu, "Kitab"da islam redaktəsidir. Deməli, dastanı-

mızdakı bu hadisə islamdan əvvəlki türk evlənmə adətinin özünəməxsus şəkildə inikasıdır.

2. Başqa bir epizod. Dastanımızın əhalisi qımız içir, at əti yeyir. Ancaq tariximizin bizə məlum dövrlərindən bəri heç yerdə Azərbaycan türklərinin qımız içməsi, at əti yeməsi faktı qeydə alınmayıb. Qımızda müəyyən alkoqol dərəcəsi var, insanı dəmləndirir, xoşhal edir. Ancaq hesab etmək olmaz ki, bu xüsusiyyətinə görə, islamın qəbulundan sonra Azərbaycan türkləri qımızdan imtina etmişlər. Göründüyü kimi, dastanda qımız içilməsinə qarşı heç bir yasaq işarəsi yoxdur. Bu gün də o, Türküstan türklərinin süfrəsinin ən koloritli nemətidir. Türküstanlılar onu ramazanda da işlədirlər. Maraqlıdır: qımız şərab qədər xumarlandırır; şərabın verə biləcəyi fikir azadlığını, hərəkət sərbəstliyini, vaxt xoşhallığını, insanın dərdsizlik içində yaşamasını qımız da verir. Ancaq şərabı yasaq buyurduğu halda, islam qımızı rədd etmir. Çünki qımız türkün tarixi yaradıcılıqlarından biridir. Türk bu xumarlığı düşüncə ilə yaradıb. Bu xumarlıq məhz sözün poetik mənasında xumarlıqdır – o, günaha çəkmir, cinayət törətmir, vəhşiləşdirmir, xoşagəlməz heç nəyə sövq etmir, yalnız rahatlıq və xoşluq mənbəyidir – onu normadan artıq qəbul etmək heç mümkün də deyil. Bu şərab türkün bəşəriyyətə bəxş etdiyi, türkü türk edən atın yelinindən sağılan saf, gözəl Allah neməti olan süddür, onun yaratdığı xumarlıqda o südün ağlığı var. Qımızı bizə islam unutdurmayıb. Qımız içilməsi at ətinin yeyilməsi ilə məqbul sayılmışdır. Folklor materialımız göstərir ki, bizdə vaxtilə at əti yeyilmişdir.

Bir yumoristik qədim xalq şeirində buna işarə var:– Ay adam, kimsən?– Həsən.– Nə Həsən, hansı Həsən?– Göy atı kəsən.– Dəlisən, nəsən?– Səhər görərsən.

Bu misralar ən qədim türk şeirinin əlamətlərini özündə əks etdirir Burada *adam*, *Həsən*, *səhər* kimi qeyri-türk sözlərinin işlənməsi şeirin qədimliyini, islamdan əvvəlki dövrə aid olmasını şübhə altına almır. Şeir xalq ağzında, şifahi gəldiyindən zaman-zaman onda leksik dəyişmə gedib, deyək ki, arxaikləşən *kişi, danla* sözünün yerində *adam*, *səhər* işlənməyə başlayıb (məsələn, misraların qeyri-bərabər hecalı olması). Deməli, hadisə də həmin qədimlikdə olmalıdır (Göy at yeyilmək üçün kəsilib). Nə vaxtsa, nə səbəbdənsə (iqlimdənmi, təsərrüfatdanmı asılı olaraq) bizdə at əti yeyilməməyə başlanır. Təbii ki, qımızın hazırlanmaması, içilməməsi də onunla bağlıdır. “Dədə Qorqud kitabı”nda bu faktı Türküstandan gəlmə də saymaq olar (Alpamış – Bamsı Beyrək əlaqəsini yada salaq). Ancaq bir məsələ var ki, at əti bizdə murdar sayılmır, məkruhdur: yeyə də bilərsən, yeməyə də. Bu da, Azərbaycan coğrafiyasında cərəyan edən Dədə Qorqud hadisələri və misal gətirdiyimiz əski xalq şeiri də göstərir ki, bizdə at əti yeyilmiş, qımız içilmişdir. Sadəcə, bunu çox qədim, unudulmuş bir hadisə saymaq daha məntiqlidir. Dədə Qorqud süjetləri həmin qədimliyə gedir.

3. “Dədə Qorqud kitabı”nın şeir texnologiyası lazımınca öyrənilməyib. “Kitab”ı müxtəlif dövrlərdə tərtib və nəşr edənlər onun mətnində müxtəlif miqdarda şeir nümunələri vermişlər. Ucdantutma şeir olan dastanın içində ara-sıra şeir görən bu şəxslərdən hərəsi bir-iki nümunə artıq verməklə əsərin boynuna, bir növ, minnət qoymuşlar. Bu barədə çox deyilib, çox yazılıb. İndi Dədə Qorqud şeirinin misra texnikası məsələsinə toxunmaq istəyirəm. Dastanda şeir nümunələri verənlərin hamısı misraların həcmi ilə bağlı bir mövqedə durur – hamısında uzun-uzun sətirlər misra təyinatı ilə alt-alta düzülür. Halbuki “Dədə Qorqud kitabı”nda türk şeirinin çox qədim dövrlərinin, hətta başlanğıc mərhələsinin nümunələri görünür. “Kitab”da üçhecalı misralar var. Üstünə düşmən ordusu yeridiyini eşidən Bəkil bir xalq məsəlini düşünür:

*Gög iraq,*
*Yer qatı.*

Bu məsəl “neylim, necə eliyim” məqamında, insan özünü köməksiz hiss etdikdə, heç nəyə əli yetmədiyi zaman söylənər. Bu gün xalqda çıxılmazlıq vəziyyətində eyni məzmunda, eyni misra ölçüsü ilə belə məsəl-şeir işlənir:

*Yer qar,*
*Göy boran.*

Bu şeir ölçüsü

*Az getdi,*
*Uz getdi,*
*Dərə, təpə*
*Düz getdi.*

– şeirinin yarandığı dövrün, türkcədə ancaq birhecalı sözlərin mövcud olduğu zamanın məhsuludur, ən qədim türk şeirində qafiyə könüllüdür, işlənər də, işlənməz də, heca qafiyədən vacib faktordur.

Bu mərhələnin daha işlək nümunəsi dördhecalı misralardır. “Kitab” belə misralarla doludur. Bütün nəşrlərdə nəsr nümunəsi kimi verilən bu misralar həmin qəbildəndir:

*Baqsa-görsə,*
*Bir dərənin içinə*
*Qarğa-quzğun*
*Enər-çıqar,*
*Qonar-qalqar.*
*Bədəvi atın*
*Öncələdi.*
*Ol tərəfə yüridi.*

Birinci mərhələnin ən uzun misrası beşhecalıdır. Bu həm də ikihecalı söz dövrünün başlanğıc misrasıdır. İkinci mərhələnin son misra həcmi 8-9 hecadır. “Dədə Qorqud kitabı”nda hər iki mərhələnin şeiri birləşir. Maraqlıdır ki, “Kitab”da üçhecalı söz dövrünün şeiri – on bir və ondan yuxarı hecalı misralar yoxdur. Deməli, Dədə Qorqud süjetlərinin yaşı həmin tarixə qədər uzanır, yaxud oradan başlanır.

4. “Kitab”ın dili nə qədər günümüzlə səsləşsə də, onda məlum yazılı dil nümunələrimizdə rast gəlmədiyimiz xüsusiyyətlər də müşahidə olunur. Məsələn, utanmaq felinin kökü olan *ut-* hissəsi müstəqil söz kimi ancaq burada işlənir: ut+suz (həyasız, utanmaz). Yaxud *uzun, uzaq, uzat* (maq) sözlərinin *uz* kökünə yenə bu abidənin dilində rast gəlinir: qara polad *uz* qılıc (“az getdi, *uz* getdi” misralarındakı “uz”la müqayisə edin). “Kitab”ın dilində ən tipik arxaik fakt *l<ş* hadisəsidir. Bu əvəzlənmə Azərbaycan türkcəsi üçün çox qədim olub. Müasir dilimizdə iki sözdə qalır: *bələk – beşik*, *dəlik – deşik* (“bələk” və “beşik” sözlərinin ilkin kökü *bəl*, “dəlik” və “deşik” sözününkü *dəl* morfemidir). “Dədə Qorqud kitabı”nın dilində başlı (yaralı) məqamında *balkır* sözü işlənir. Burada *-kır* şəkilçisi də *-lı* şəkilçisinin qədim qarşılığıdır (müasir dilimizdə *donqar* və *dılqır* sözlərində daşlaşıb: *don* “şiş”+*qar<kır*; *dıl* “dil”+*qır<kır* “dilli, boş-boşuna danışan”). Yegnək boyunda belə bir cümlə gedir: *Altı-başı balkır bir ər gördüm* – “alnı-başı yaralı bir ər gördüm” (etimologiya Vahid Zahidoğlunundur). Buradakı t-n uyğunluğu da arxaik faktdır. “Baş” sözünün “yara” mənasında işlənməsi orta əsr oğuzcalarında, məsələn, Azərbaycan və Türkiyə türkcələrində müşahidə olunur: Bağrı *başlı*, gözü yaşlı (Yunus Əmrə). “Kitab”ın dilində, ümumiyyətlə, orta əsr Azərbaycan və Türkiyə oğuzcalarına meyl güclüdür. Hadisələr Azərbaycan coğrafiyasında cərəyan etdiyi üçün, görünür, qədim dastanın dilinin Azərbaycan türkcəsinə uyğunlaşdırılması ciddi məqsəd kimi izlənmişdir. Hesab etmək olar ki, “alnı-başı” ifadəsi ilə yanaşı bir “baş” (yara) sözünün işlənməsi də üslub baxımından münasib bilinməmiş və onun arxaik sinonimi “balkır” götürülmüşdür. Və həmin arxaizm *alnı* mənasında *altı* arxaizmini də önə çəkmişdir. Hər halda “Kitab”ın dilinin norma sayıldığı tarixi mərhələdə bu arxaizmlər ünsiyyət üçün tam unudulmayıbmış. Təbii ki, bu, dünənimizdən əvvəlki tarixin izidir.

Öyrənildikcə, tədqiq olunduqca həm “Dədə Qorqud kitabı”nın öz sirləri zaman-zaman açılır, həm də dünya dastanşünaslıq mədəniyyəti daha da zənginləşir, dünya dastançılıq nəzəriyyəsi daha da dolğunlaşır.

Bu öyrənilmə işinə Azərbaycan Respublikasının mərhum prezidenti H.Əliyevin 20 aprel 1997-ci il fərmanı xüsusi sürəklilik verdi. Həmin fərmanla keçən möhtəşəm 1300 illik yubileyi milli atmosferimizdə bir Dədə Qorqud havası yaratdı. Ancaq Dədə Qorqud ən çox radio-televiziya ilə

evlərimizə girdi. Hələ Azərbaycanda elə evlər var ki, Dədə Qorqud onların qapılarını açmayıb, onların kitab rəflərində “Dədə Qorqud kitabı” yoxdur. Biz o zaman babalarımızın, türk əcdadımızın əsil övladları olmağa layiq olacağıq ki, “Dədə Qorqub kitabı” həm həqiqi, həm də məcazi mənada bütün azərbaycanlı evlərinin sakini olsun, ailə üzvü olsun. Yəni: bu “Kitab” hər evdə olsun, hər ailədə onu oxusunlar və hər ailə öz yetirmələrini onunla tərbiyə etsin. Bu arzu Azərbaycan Respublikası prezidenti İ.Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı ilə gerçəkləşəcəkdir. Həmin sərəncama görə Dədə Qorqudla bağlı hazırlanmış bu kitab, inanırıq ki, on ildən çox kitab üzü görməyən bütün kitabxanalarımızda, evlərimizdə məskunlaşacaqdır.

***Tofiq Hacıyev***

# Kitabi-Dədə Qorqud

Əsil mətn

## BİSMİLLAH İR-RƏHMAN İR-RƏHİM
## VƏ BİHİ NƏSTƏİN

D2[*] [2**]Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından, Qorqut ata [3] deyərlər[***], bir ər qopdı. Oğuzuñ ol kişi tamam bilicisiydi. Nə dersə, [4] olurdı. Qayibdən dürlü xəbər söylərdi. Haq Taala anıñ köñlünə [5] ilham edərdi.

Qorqut ata ayıtdı: “Axır zamanda xanlıq gerü – [6] Qayıya dəgə, kimsənə əllərindən almaya axır zaman olub qiyamət [7] qopınca. Bu dedügi Osman nəslidür, işdə sürilüb gedə-yürir”. [8] Və daxı neçə buña bəñzər söz söylədi.

Qorqut ata Oğuz qövminüñ [9] müşkilini həll edərdi. Hər nə iş olsa, Qorqut ataya [10] danışmayınca işləməzlərdi. Hər nə ki buyursa, qəbul edərlərdi, [11] sözin tutub tamam edərlərdi.

Dədə Qorqut soylamış:

[12] Allah-Allah diməyincə işlər oñmaz.
Qadir Tañrı verməyincə ər bayımaz.
[13] Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
D3 Əcəl vədə irməyincə [1] kimsə ölməz.
Ölən adam dirilməz.
Çıxan can gerü gəlməz.
Bir yigidüñ [2] qara dağ yumrısınca malı olsa,
yığar-dərər, tələb eylər,
nəsibindən [3] artuğın yiyə bilməz.
Ulaşuban sular daşsa, dəñiz dolmaz.
Təkəbbürlik [4] eyləyəni Tañrı sevməz.
Köñlin yuca tutan ərdə dövlət olmaz.
[5] Yad oğulı saqlamaqla oğul olmaz, –
böyüyəndə salur gedər, [6] gördüm diməz.

---

[*] Bu rəqəm Drezden nüsxəsinin səhifəsini bildirir. – Red.
[**] Bu rəqəm Drezden nüsxəsinin hər səhifəsindəki sətirləri göstərir. Burada birinci sətir “Bismillah ir-rəhman ir rəhim və bihi nəstəin”dir. – Red.
[***] Ensiklopediyada “derlər” gedib. – Red.

Kül dəpəcik olmaz.
Güyəgü oğul olmaz.
Qara eşək başına uyan [7] ursan, qatır olmaz.
Qaravaşa don geyürsəñ, qadın olmaz.
[8] Yapa-yapa qarlar yağsa, yaza qalmaz.
Yapağlu gögcə çəmən güzə [9] qalmaz.
Əski panbuq bez olmaz.
Qarı düşmən dost olmaz.
[10] Qarağuca qıymayınca yol alınmaz.
Qara polad uz qılıcı çalmayınca [11] qırım dönməz.
Ər malına qıymayınca adı çıqmaz.
Qız anadan görməyincə [12] ögüt almaz.
Oğul atadan görməyincə süfrə çəkməz.
Oğul [13] atanıñ yetiridir, iki göziniñ biridir.
D4 Dövlətlü oğul [1] qopsa, ocağınıñ közidir.
Oğul daxı neyləsün baba ölüb [2] mal qalmasa,
Baba malından nə faidə, başda dövlət olmasa...
Dövlət [3]siz şərrindən Allah saqlasun, xanım, sizi!
Dədə Qorqut [4] bir dəxi soylamış:
Sarp yürirkən Qazılıq ata namərd yigit [5] binə bilməz,
binincə, binməsə, yeg!
Çalub-kəsər uz qılıcı müxənnətlər [6] çalınca, çalmasa, yeg!
Çala bilən yigidə
oq ilə qılıcdan bir çomaq [7] yeg!
Qonuğı gəlməyən qara evlər yıqılsa, yeg!
At yeməyən acı otlar bitincə, [8] bitməsə, yeg!
Adam içməz acı sular sızınca, sızmasa, yeg!
[9] Ata adını yüritməyən xoyrad oğul
ata belindən enincə, enməsə, yeg;
[10] ana rəhminə düşüncə, doğmasa, yeg!
Ata adın yüridəndə dövlətlü [11] oğul yeg!
Yalan söz bu dünyada olunca, olmasa yeg!
[12] Gerçəkləriñ üç otuz on yaşını doldursa yeg!
On otuz [13] on yaşıñız dolsun!
Haq sizə yaman gətürməsün!
D5 Dövlətiñiz [1] payəndə olsun, xanım, hey!

Dədə Qorqut bir daxı soylamış, görəlüm, [2] xanım, nə soylamış:

Getdikdə yeriñ otlaqların keyik bilür.
[3] Geñəz yerlər çəmənlərin qulan bilür.
Ayru-ayru yollar izin dəvə bilür.
[4] Yedi dərə qoxuların dülkü bilür.
Dünlə karvan köçdügin turğay [5] bilür.
Oğul kimdən olduğın ana bilür.
Əriñ ağzın yeynisin [6] at bilür.
Ağır yüklər zəhmin qatır bilür.
Nə yerdə sırılur varsa, [7] çəkən bilür.
Qafil başıñ ağrısın beyni bilür.
Qolca qopuz [8] götürüb,
eldən-elə, bəgdən-bəgə ozan gəzər.
Ər comərdin, ər nakəsin [9] ozan bilür.
İləyünüzdə çalub-ayıdan ozan olsun.
Azub [10] gələn qəzayı Tañrı savsun, xanım, hey!

Dədə Qorqut genə [11] soylamış, görəlim, xanım, nə soylamış:

Ağız açub ögər [12] olsam, üstümüzdə Tañrı görkli,
Tañrı dostı, din sərvəri [13] Məhəmməd görkli.
Məhəmmədiñ sağ yanında namaz qılan
Əbubəkr Siddıq görkli.
D6 [1]Axır sipara başıdur "əmmə" görkli.
Hecasınlayın düz oqunsa, [2] yasin görkli.
Qılıc çaldı, din açdı şahi-mərdan Əli [3] görkli.
Əliniñ oğulları, – peyğəmbər nəvalələri –
Kərbəla yazısında [4] yezidilər əlində şəhid oldı
Həsən ilə Hüseyn iki qardaş [5] bilə görkli.
Yazılıb-düzilib gögdən endi
Tañrı elmi Quran [6] görkli.
Ol Quranı yazdı-düzdi,
üləmalar ögrənincə köydi- 7 biçdi
alimlər sərvəri Osman Üffan oğlı görkli.
Alçaq [8] yerdə yapılubdur Tañrı evi Məkkə görkli.
Ol Məkkəyə sağ [9] varsa, əsən gəlsə
sidqı bütün hacı görkli.

Sağış [10] günündə ayna görkli.
Ayna güni oquyanda xütbə görkli.
Qulaq [11] urub dinləyəndə ümmət görkli.
Minarədə bañlayanda fəqih görkli.
[12] Dizin basub oturanda halal görkli.
Dölümündən ağarsa, baba [13] görkli.
Ağ südin doya əmzirsə, ana görkli.
D7 Yanaşub [1] yola girəndə qara buğur görkli.
Sevgili qardaş görkli.
Yañal ala [2] ev yanında dikilsə, gərdək görkli.
Uzunca tənəfi görkli. Oğul [3] görkli.
Qamusına bəñzəmədi cümlə aləmləri yaradan
Allah-Tañrı [4] görkli.
Ol ögdügüm yuca Tañrı dost oluban
mədəd [5] irsün, xanım, hey!

Ozan aydır*:

Qarılar dört dürlüdür:
[6] Birisi solduran sopdur.
Birisi dolduran topdur**.
Birisi eviñ [7] dayağıdır,
Birisi necə söylərsəñ, bayağıdır.

Ozan, eviñ dayağı [8] oldur ki, yazıdan-yabandan evə bir qonuq gəlsə, ər adam evdə olmasa,[9] ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə[10] soyıdır, xanım. Anuñ bəbəkləri yetsün. Ocağıña buncılayın övrət[11] gəlsün. Gəldik, ol kim, solduran sopdur, sabadanca[12] yerindən uru durar, əlin-yüzin yumadan doquz bazlammac ilən[13] bir küvlək
D8 yoğurd gəvəzlər, doyunca tıqa-basa yer, əlin bögrinə [1]urar, aydır: "Bu evi xarab olası! Ərə varalıdan bərü[2] daxı qarnım doymadı, yüzüm gülmədi; ayağım başmaq, yüzüm[3] yaşmaq görmədi", – deyər*. "Nolaydı, bu öləydi, birinə dəxi[4] varay-

* Ensiklopediyada "Dədə Qorqut dilindən ozan aydır" getmişdir. – Red.
** Ensiklopediyada 2-ci və 3-cü misraların yeri dəyişik getmiş və "soy" sözü "sop", "toy" sözü "top" kimi verilmişdir. – Red.

dım, umarımdan yaxşı-uyar olaydı", – deyər[*]. Anuñ kibi[5]niñ,
xanım, bəbəkləri yetməsün. Ocağıña buncılayın övrət
gəlməsün.[6] Gəldik, ol kim, dolduran topdur, dəpidincə ye-
rindən uru[7] durdı, əlin-yüzin yumadan obanıñ ol ucından bu
ucına, [8] bu ucından ol ucına çarpışdırdı, quv quvaladı, diñ[9]
diñlədi, öylədəncə gəzdi; öylədən soñra evinə gəldi, [10] gördi
kim, oğrı köpək, yekə dana evini bir-birinə qatmış,[11] tavuq
komasına, sığır damına dönmiş; qonşularına çağırar ki,[12]
Yetər! Zəlihə! Zübeydə! Ürüveydə-can, qız-can! Paşa! Ayna
Mələk! [13] Qutlu Mələk! Ölməgə-yitməgə getməmişdim, ya-
D9 tacaq yerim genə bu xarab [1] olasıydı; nolaydı bənim evimə bir
ləhzə baqaydıñız! "Qoñşu haqqı – [2] Tañrı haqqı" deyü söylər.
Bunuñ kibiniñ, xanım, bəbəkləri yetməsün. [3] Ocağıña bunuñ
kibi övrət gəlməsün. Gəldik, ol kim, [4] necə söylərsən, baya-
ğıdır: ötə yazıdan-yabandan [5] bir udlu qonuq gəlsə, ər adam
evdə olsa, aña disə ki, dur [6] ətmək gətir, yiyəlim, bu da yisün;
disə bişmiş ətməgiñ bəqası olmaz, [7] yimək gərəkdir, övrət
aydar: "Neyləyəyim, bu yıqılacaq evdə un yoq, [8] ələk yoq,
dəvə dəgirməndən gəlmədi" – deyər[*]. "Nə gəlürsə, bənim
sağrıma [9] gəlsün", – deyü əlin götinə urur, yönin añaru,
sağrısın ərinə [10] döndürür. Biñ söylərsəñ, birisini quymaz, əriñ
sözini qulağına [11] qoymaz. Ol, Nuh peyğəmbəriñ eşəgi əsli-
dür. Andan dəxi sizi, [12] xanım, Allah saqlasun! Ocağıñıza
buncılayın övrət gəlməsün.

[*] Ensiklopediyada: "der". – Red.

# [13]DİRSƏ XAN OĞLI BUĞAC XAN BOYINI BƏYAN EDƏR, XANIM, HEY!

D10 Bir gün Qamğan oğlı xan Bayındır yerindən durmışdı. [2] Şami günlügi yer yüzinə dikdirmişdi. Ala sayvanı gög [3] yüzinə aşanmışdı. Biñ yerdə ipək xalıçası döşənmişdi.

[4] Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, Oğuz [5] bəglərin qonaqlardı. Genə toy edib atdan ayğır, dəvədən[6] buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə [7] qızıl otaq, bir yerə qara otaq qurdırmışdı. “Kimiñ ki,[8] oğlı-qızı yoq, qara otağa qonduruñ, qara keçə altına [9] döşəñ, qara qoyun yaxnısından öñinə gətürüñ, yer isə, yesün,[10] yeməzsə, dursun, getsün” – demişdi. “Oğlı olanı ağ [11] otağa, qızı olanı qızıl otağa qonduruñ, oğlı-[12]qızı olmayanı Allah Taala qarğayıbdır, biz dəxi qarğarız; [13] bəllü bilsün!” – demiş idi.

D11 Oğuz bəgləri birin gəlüb, yığnaq [1] olmağa başladı. Məgər Dirsə xan deyərlərdi*, bir bəgüñ, oğlı- [2] qızı yoq idi. Soylamış, görəlim, xanım, nə soylamış:

Salqum- [3] salqum dañ yelləri əsdigində,
Saqallu bozac turğay sayra[4]dıqda,
Saqalı uzun tat əri bañladıqda,
Bədəvi atlar issini [5] görüb oğradıqda
Ağlı-qaralı seçilən çağda,
Köksi gözəl qaya [6] dağlara gün dəgəndə,

Bəg yigitlər-cılasınlar bir-birinə qoyulan çağda [7] alar sabah Dirsə xan qalqubanı yerindən uru durub, qırq yigidin [8] boyına alıb, Bayındır xanıñ söhbətinə gəlür idi.

Bayındır xanıñ [9] yigitləri Dirsə xanı qarşuladılar. Gətürüb qara otağa qondurdılar. [10] Qara keçə altına döşədilər. Qara qoyun yaxnısından öñinə gətürdilər. [11] Bayındır xandan buyruq böylədir, xanım, dedilər. Dirsə xan [12] aydır: “Bayındır xan bənim nə əksüklügüm gördi? Qılucumdanmı gördi, [13] süfrəm-
D12 dənmi gördi? Bəndən alçaq kişiləri ağ otağa, qızıl [1] otağa

* Ensiklopediyada “derlərdi” getmişdir. – Red.

qondurdı; bənim suçum nə oldı kim, qara otağa qondurdı? – [2] dedi.

Ayıtdılar: "Xanım, bu gün Bayındır xandan buyruq şöylə[3]dir kim, oğlı-qızı olmayanı Tañrı Taala qarğayıbdır, biz dəxi [4] qarğarız, demişdir" – dedilər.

Dirsə xan yerindən uru durdı, [5] aydır: "Qalqubanı, yigitlərim, yerüñizdən uru duruñ, bu qərayib baña [6] ya bəndəndir, ya xatundandır", – dedi.

Dirsə xan evinə gəldi. [7] Çağırıb xatunına soylar, görəlim, xanım, nə soylar?

Soylama.
[8] Aydır:

Bərü gəlgil, başum baxtı, evüm taxtı,
Evdən çıqub yüriyəndə [9] səlvi boylum!
Topuğında sarmaşanda qara saçlum,
Qurulu [10] yaya bəñzər çatma qaşlum!
Qoşa badam sığmayan dar ağızlum,
Güz [11] almasına bəñzər al yanaqlum,
Qavunum, verəgim, döləgüm,
Görürmisin, [12] nələr oldı?!

Qalqubanı xan Bayındır yerindən durmış, bir yerə [13] ağ
D13 otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq dikdirmiş; "[1] Oğulluları ağ otağa, qızluyı qızıl otağa, oğlı-qızı [2] olmayanı qara otağa qonduruñ, qara keçə altına döşəñ, qara qoyun [3] yaxnısından öñinə gətürüñ, yersə yesin, yeməzsə, dursun [4] getsün; anuñ kim, oğlı-qızı olmaya, Tañrı Taala anı [5] qarğayıbdır, biz dəxi qarğarız," – demiş.

Bən varıcaq gəlübəni qarşuladılar, [6] qara otağa qondurdılar, qara keçə altuma döşədilər, qara qoyun [7] yaxnısından öñümə gətürdilər; "Oğlı-qızı olmayanı Tañrı [8] Taala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilgil," – dedilər. Səndənmi[9]dir, bəndənmidir, Tañrı Taala bizə bir yetman[*] oğul verməz, nədəndir, – [10] dedi, soyladı.

---

[*] Ensiklopediyada "batman" getmişdir. – Red.

Soylama.
Aydır:

Xan qızı, yerimdən durayınmı?
[11] Yaqañ ilə boğazıñdan tutayınmı?
Qaba öñcəm[*] altına salayınmı?
Qara polat [12] uz qılıcum əlümə alayınmı?
Öz gövdəñdən başuñı kəsəyinmi?
Can [13] tatlusın saña bildirəyinmi?
Alca qanuñ yer yüzinə dökəyinmi?
D14 Xan [1] qızı, səbəbi nədir, degil maña!
Qatı qəzəb edərəm şimdi saña! – [2] dedi.

Dirsə xanı xatunıñ soylamış, görəlim, nə soylamış; [3] aydır:

Hay Dirsə xan, baña qəzəb etmə!
İncinib acı sözlər [4] söyləmə! Yeriñdən uru durğıl!
Ala çadırıñ yer yüzinə dikdirgil!
Atdan ayğır[**], dəvədən buğra, qoyundan qoç öldürgil!
[6] İç Oğuzuñ, Daş Oğuzuñ bəglərin üstüñə yığnaq etgil!
[7] Ac görsəñ, doyurğıl, yalıncaq görsəñ, donatğıl!
Borcluyı [8] borcından qurtarğıl!
Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!
[9] Ulı toy elə, hacət dilə!
Ola kim, bir ağzı dualınıñ [10] alqışıyla
Tañrı bizə bir yetman[***] əyal verə, – dedi.

Dirsə [11] xan dişi əhliniñ söziylə ulu toy eylədi, hacət [12] dilədi. Atdan-ayqır, dəvədən buğra, qoyundan qoç qırdırdı.
D15 [13] İç Oğuz, Daş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac [1] görsə, doyurdı; yalıñ görsə, donatdı. Borcluyı borcından [2] qurtardı. Dəpə kibi ət yığdı, göl kibi qımız sağdırdı. [3] Əl götürdilər, hacət dilədilər. Bir ağzı dualınıñ alqışıyla [4] Allah Taala bir əyal verdi: xatunı hamilə oldı, bir neçə [5] müddətdən soñra bir

[*] Ensiklopediyada "ökcəm" getmişdir. – Red.
[**] Ensiklopediyada "atdan-ayğırdan" getmişdir. – Red.
[***] Ensiklopediyada "batman" getmişdir. – Red.

oğlan doğurdı. Oğlancuğını dayələrə [6] verdi, saqlatdı. At ayağı
külük, ozan dili çevik olur. [7] İyəgülü ulalur, qapurğalı böyür.
Oğlan on beş yaşına [8] girdi. Oğlanıñ babası Bayındır xanıñ or-
dusına qarışdı.

[9] Məgər xanım, Bayındır xanıñ bir buğası vardı, bir dəxi buğ-
rası [10] vardı. Ol buğa qatı daşa buynuz ursa, un kibi ügidərdi. [11]
Bir yazın, bir güzin buğayla buğrayı savaşdırarlardı. Bayındır [12]
xan Qalın Oğuz bəgləriylə tamaşaya baqardı, təfərrüc edərdi.

[13] Məgər, sultanım, genə yazın buğayı saraydan çıqardılar.
D16 Üç kişi sağ [1] yanından, üç kişi sol yanından dəmür zəncirlə
buğayı tutmışlar[2]dı. Gəlüb meydan ortasında qoyu verdilər.
Məgər, sultanım, Dirsə [3] xanıñ oğlancığı üç dəxi ordı uşağı
meydanda aşuq [4] oynarlardı. Buğayı qoyu verdilər, oğlancıq-
lara "qaç!" dedilər. [5] Ol üç oğlan qaçdı. Dirsə xanıñ oğlancuğı
qaçmadı, [6] ağ meydanıñ ortasında baqdı durdı. Buğa dəxi oğ-
lana [7] sürdi gəldi. Dilədi ki, oğlanı həlak qılaydı. Oğlan yum-
ruğıyla [8] buğanıñ alnına qıya tutub çaldı; buğa götin-götin [9]
getdi. Buğa oğlana sürdi, gerü gəldi. Oğlan yenə buğanıñ [10] al-
nına yumruğıyla qatı urdı. Oğlan bu qatla buğanıñ alnına [11] yu-
mruğını dayadı, sürdi meydanıñ başına çıqardı.

[12] Buğa ilə oğlan bir həmlə çəkişdilər. İki dalusınıñ üstinə
[13] buğanıñ köpük durdı. Nə oğlan yeñər, nə buğa yeñər. Oğlan
D17 fikr eylədi, [1] aydır: "Bir dama dirək ururlar, ol dama dayaq
olur. Bən [2] bunuñ alnına niyə dayaq olurın dururın," – dedi.
Oğlan [3] buğanıñ alnından yumruğın gedərdi, yolından savuldı.
[4] Buğa ayaq üstinə duramadı, düşdi; dəpəsiniñ üstinə [5] yıqıldı.
Oğlan bıçağına əl urdı, buğanıñ başını kəsdi.

[6] Oğuz bəgləri gəlüb oğlan üstinə yığnaq oldılar, [7] təhsin
dedilər. "Dədəm Qorqut gəlsün, bu oğlana ad qosun, [8] bilə-
sincə alub babasına varsun, babasından oğlana bəglik [9] istə-
sün, taxt alı versün," – dedilər.

Çağırdılar, Dədəm Qorqut [10] gəlür oldı. Oğlanı alıb baba-
sına vardı. Dədəm Qorqut [11] oğlanıñ babasına soylamış, görə-
lim, xanım, nə soylamış – [12] aydır:

Hey Dirsə xan, bəglik vergil bu oğlana
Taxt vergil, [13] ərdəmlidir!

Boynı uzun bədəvi at vergil,
D18 Binər olsun [1] hünərlidir!
Ağayıldan tümən qoyun vergil bu oğlana,
Şişlik [2] olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil bu oğlana,
[3] Yüklət olsun hünərlidir!
Altun başlu ban ev vergil [4] bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çigin quşlu cübbə [5] don vergil bu oğlana,
Geyər olsun, hünərlidir!

Bayındır xanıñ [6] ağ meydanında bu oğlan cəng etmişdür.
Bir buğa öldürmüş [7] səniñ oğluñ, adı Buğac olsun! Adını bən
verdüm, [8] yaşını Allah versün! – dedi. Dirsə xan oğlana bəglik
[9] verdi, taxt verdi. Oğlan taxta çıqdı, babasınıñ [10] qırq yigidin
añmaz oldı. Ol qırq yigit həsəd eylədilər, bir-birinə [11] söylə-
dilər: "Gəlüñ, oğlanı babasına quvlayalım, ola kim, öldürə, [12]
genə bizim izzətimiz-hörmətimiz anuñ babası yanında xoş ola,
artıq [13] ola, – dedilər.
D19 Vardı bu qırq yigidiñ yigirmisi bir yaña, [1] yigirmisi dəxi bir
yaña oldı. Əvvəl yigirmisi vardı, Dirsə xana [2] bu xəbəri
gətürdi. Aydır: "Görürmisin, Dirsə xan, nələr oldı? [3] Yarıma-
sun-yarçımasun, səniñ oğluñ kür qopdı, ərcəl qopdı: [4] qırq yi-
gidin boyına aldı, Qalın Oğuzuñ üstinə yüriş [5] etdi; nə yerdə
gözəl qopdısa, çəküb aldı; ağ saqallu [6] qocanıñ ağzın sögdi, ağ
birçəklü qarınuñ südin dartdı. [7] Aqan durı sulardan xəbər keçə,
arqurı yatan Ala dağdan [8] təbər aşa, xanlar xanı Bayındıra xə-
bər vara, "Dirsə xanıñ oğlı [9] böylə bidət işləmiş" deyələr.
Gəzdigüñdən öldügüñ yeg ola: [10] Bayındır xan səni çağıra, sa-
ña qatı qəzəb eyləyə. Böylə oğul səniñ nəñə gərək, böylə oğul
olmaqdan olmamaq yegdir, öldürsəñə!" – [12] dedilər. Dirsə xan:
"Varıñ, gətürüñ, öldürəyim!" – dedi. [13] Böylə digəc, xanım, ol
D20 namərdləriñ yigirmisi dəxi çıqa gəldi [1] və bir quv dəxi gətür-
dilər. Aydır: "Qalqubanı, Dirsə xan, səniñ [2] oğluñ yerindən uru
durdı, köksi gözəl qaba dağa ava [3] çıqdı. Sən var ikən av avladı,
quş quşladı; anasınıñ [4] yanına alub gəldi, al şərabıñ itisindən
aldı içdi; [5] anasıyla söhbət eylədi, atasına qəsd eylədi. Səniñ [6]

oğluñ kür qopdı, ərcəl qopdı. Arqurı yatan Ala [7] dağdan xəbər keçə, xanlar xanı Bayındıra xəbər vara; “Dirsə [8] xanıñ oğlı böylə bidət eyləmiş” deyələr, səni çağırdalar, [9] Bayındır xanıñ qatında səñə qəzəb ola. Böylə oğul nəñə [10] gərək, öldürsəñə!” – dedilər.

Dirsə xan aydır: “Varıñ gətürüñ, [11] öldürəyim; böylə oğul maña gərəkməz!” – dedi.

Dirsə xanıñ [12] nökərləri aydır: “Biz səniñ oğluñı necə gə-
türəlim? Səniñ [13] oğluñ bizim sözümüz almaz, bizim sözü-
D21 müzlə gəlməz. Qalqubanı yerindən [1] uru durğıl, yigitləriñ ox-
şağıl, boyıña alğıl, oğluña uğrağıl, [2] yanıña alub, ava çıqğıl;
quş uçurub, av avlayub, oğluñı [3] oxlayub, öldürə görgil! Əgər
böylə öldürməzsəñ bir dürlü [4] dəxi öldüriməzsən, bəllü bil-
gil!” – dedilər.

Soylama:

Salqum-salqum [5] dañ yelləri əsdigində,
Saqallu bozac turğay sayradıqda,
[6] Bədəvi atlar issin görüb oqradıqda,
Saqalı uzun [7] tat əri bañladıqda,
Aqlı, qaralı seçilən çağda,
Qalın [8] Oğuzuñ gəlini-qızı bəzənən çağda,
Köksi gözəl qaba dağlara [9] gün dəgəndə,
Bəg yigitlər – cılasınlar bir-birinə qoyulan çağda

[10] alar sabah Dirsə xan yerindən uru durdı. Oğlancuğın [11] yanına alub qırq yigidin boyına saldı, ava çıqdı.

Av [12] avladılar, quş quşladılar. Ol qırq namərdiñ bir qaçı
oğlanıñ [13] yanına gəldi, aydır: “Babañ dedi, keyikləri qovsun
D22 gətürsün, [1] bənim öñümdə dəpələsün; oğlumuñ at səgirdişin,
qılıc [2] çalışın, oq atışın görəyim, sevinəyim, qıvanayım- [3] gü-
vənəyim, dedi” – dedilər.

Oğlandır, nə bilsün? Keyigi [4] qovardı gətirürdi, babasınıñ öñində siñirlərdi: “[5]Babam at səgirdişimə baqsun, qıvansun; ox atışıma baqsun, [6] güvənsün; qılıc çalışıma baqsun, sevinsin!”

Ol qırq [7] namərdlər aydırlar: “Dirsə xan, görürmisin oğlanı, yazıda – [8] yabanda keyiki qovar, səniñ öñüñə gətürər. Keyikə atarkən [9] oqla səni urar öldürər. Oğluñ səni öldürmədin sən [10] oğluñı öldüri görgilə!” dedilər.

Oğlan keyiki qovarkən [11] babasınıñ öñindən gəlüb-gedər-
di. Dirsə xan [12] Qorqut sıñırlı qatı yayın əlinə aldı. Üzəngüyə
D23 qalqıb, [13] qatı çəkdi, uz atdı: oğlanı iki dalusınıñ arasında [1]
urub-çıqdı, yıqdı. Uc toqundı, alca qanı şorladı, [2] qoynı doldı.
Bədəvi atınıñ boynın qucaqladı, yerə düşdi.

[3]Dirsə xan istədi kim, oğlancuğınıñ üstinə kövrəlib [4] düşəydi. Ol qırq namərd qomadı. Atınıñ cilavısın [5] döndərdi, ordusına gəlür oldı.

Dirsə xanıñ xatunı “oğlancığımıñ ilk avıdır” deyü, atdan-ayğırdan, [7] dəvədən buğra, qoyundan qoç qırdırdı, “Qanlu Oğuz bəglərin [8] toylayayım,” – dedi. Yumurlanıb yerindən uru durdu, qırq incə [9] qızı boyına aldı, Dirsə xana qarşu vardı. Qapaq [10] qaldırdı. Dirsə xanıñ yüzinə baqdı. Sağ ilən solına [11] göz gəzdirdi, oğlancuğını görmədi. Qara bağrı sarsıldı, [12] düm yürəgi oynadı, qara qıyma gözləri qan-yaş doldı. [13] Çağırıb Dirsə xana soylar, görəlim, xanım, nə soylar:

D24 Bərü [1] gəlgil başım baxtı, evim taxtı
Xan babamıñ göygisi,
[2] Qadın anamıñ sevgisi.
Atam-anam verdigi,
Göz açuban [3] gördügim,
Könül verib sevdigim
A Dirsə xan,
Qalqubanı [4] yerindən uru durduñ.
Yelisi qara Qazılıq atuñ butun [5] bindiñ.
Köksi gözəl qaba dağa ava çıqdıñ.
İki vardıñ [6] bir gəlirsən; yavrum qanı?
Qara* bulduğum oğul [7] qanı?
Çıqsun bənim kor gözüm, a Dirsə xan,
yaman səgrər.

* Ensiklopediyada “qaranu dündə” verilmişdir. “Qaranqudündə” gecə vaxtı, qaranlıq bir gecədə övladın dünyaya gəldiyinə işarə ola bilir. Bu sözü məhz övlad anası deyir – Red.

[8] Kəsilsün oğlan əmən süd damarım
yaman sızlar.
[9] Saru yılan soqmadın ağca tənim qalqub şişər.
Yalñuzca [10] oğul görünməz, bağrım yanar.
Quru-quru çaylara suçu saldım.
[11] Qara donlu dərvişlərə nəzirlər verdim.
Ac görsəm doyurdum,
[12] yalıncaq görsəm donatdım.
Dəpə kibi ət yığdım, göl kibi [13] qımız sağırdım.
Dilək ilə bir oğul güclə buldum.
D25 Yalñız [1] oğul xəbərin, a Dirsə xan, degil maña!
Qarşu yatan Ala dağdan
[2] bir oğul uçurduñsa, degil maña!
Qamın aqan yügrək [3] sudan
bir oğul aqıtdınsa, degil maña!
Aslan ilə qaplana
[4] bir oğul yedirdinsə, degil maña!
Qara tonlu, azğun dinlü [5] kafirlərə
bir oğul aldırdınsa, degil maña!
Xan babamıñ [6] qatına bən varayım,
Ağır xəzinə, bol ləşkər alayın,
Azğun [7] dinlü kafirə bən varayım.
Paralanub Qazılıq atımdan enməyincə,
[8] Yeñümlə alca qanım silməyincə,
Qol-bud olub yer üstinə [9] düşməyincə
Yalñuz oğul yollarından dönməyəyim!
Yalñuz oğul [10] xəbərin, a Dirsə xan, degil maña!
Qara başım qurban olsun [11] bu gün saña! – dedi,

zarılıq eylədi, ağladı. Böylə digəc [12] Dirsə xan xatunına cavab vermədi. Ol qırq namərd [13] qarşu gəldi, aydır: “Oğluñ sağdır –
D26 əsəndir, avdadır: [1] bu gün-yarın qanda isə, gəlür; qorqma-qayırma, bəg sərxoşdur, [2] cavab verəməz” – dedilər.

Dirsə xanıñ xatunı qayıtdı, gerü [3] döndi. Qatlanmadı, qırq incə qızı boyına aldı, bədəvi ata binüb, [4] oğlancuğın istəyü getdi. Qışda-yazda qarı-buzı [5] ərinməyən Qazılıq dağına gəldi çıqdı. Alçaqdan yuca yerlərə [6] çapub çıqdı. Baqsa görsə bir

dərəniñ içinə qarğa-quzğun [7] enər-çıqar, qonar-qalqar. Bədəvi atın ökcələdi, ol tərəfə [8] yüridi.

Məgər sultanım, oğlan ol arada yıqılmışdı. [9] Qarğa-quz-
ğun qan görüb, oğlanıñ üstinə qonmaq istərdi. [10] Oğlanıñ iki
kəlbcügəzi vardı, qarğayı-quzğunı qovardı, [11] qondurmazdı.
Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana [12] hazır oldı, üç
qatla yarasın əliylə sığadı: “Saña bu yaradan [13] qorxma, oğlan,
D27 ölüm yoqdur; dağ çiçəgi anañ südiylə səniñ [1] yaraña məlhəm-
dir,” – dedi, qayib oldı.

Oğlanıñ anası [2] oğlanıñ üstinə çapub çıqa gəldi. Baqsa görsə oğlancığı [3] alca qana bulaşmış yatur. Çağıruban oğlancuğına soylar, [4] görəlim, xanım, nə soylar:

Aydır:

Qara qıyma gözləriñ uyxu almış, açğıl axı,
[5] Ol ikicə süñücügüñ uzun olmış, yığşur axı,
Tañrı verən [6] tatlu canıñ seyranda imiş, endi dəxi,
Üz-gözüñdə canuñ [7] varsa, oğul, xəbər maña!
Qara başım qurban olsun, oğul saña!
[8] Aqar səniñ sularıñ Qazılıq dağı
Aqar kibi, aqmaz olsun!
Bitər [9] səniñ otlarıñ, Qazılıq dağı,
Bitər ikən bitməz olsun!
Qaçar səniñ [10] keyikləriñ, Qazılıq dağı,
Qaçar ikən qaçmaz olsun, daşa dönsün!
[11] Nə biləyin, oğul arslandanmı oldı,
Yoxsa qaplandanmı oldı?
[12] Nə biləyin oğul, bu qəzalar saña
nerədən gəldi?!
Ol gövdəñdə canıñ [13] varsa, oğul, xəbər maña!
Qara başım qurban olsun, oğul saña!
D28 Ağız- [1] dildən bir qaç kəlmə xəbər maña! – dedi.

Böylə digəc oğlanıñ qulağına [2] səs toqındı. Başın qaldırdı, yalabıdaq gözin açdı. [3] Anasınıñ yüzinə baqdı. Soylamış, görəlim, xanım, nə soylamış:

[4] Aydır:

Bərü gəlgil, aq südin əmdigim qadunım ana!
Ağ birçəklü, izzətlü [5] canım ana!
“Aqar” ayıda sularına qarğamağıl,
Qazlıq dağınıñ günahı [6] yoqdur.
Bitərlidə otlarına qarğamağıl,
Qazlıq dağınıñ suçı [7] yoqdur.
Qaçar keyiklərinə qarğamağıl,
Qazlıq dağınıñ günahı yoqdur.
[8] Arslanla qaplanına qarğamağıl,
Qazlıq dağınıñ suçı yoqdur.
[9] Qarğar isəñ, babama qarğa,
Bu suç, bu günah babamdandır, – dedi.

[10] Oğlan yenə aydır: “Ana, ağlamağıl, maña bu yaradan ölüm yoqdur, qorxmağıl! [11] Boz atlu Xızır maña gəldi, üç kərrə yaramı sığadı, “Bu yaradan [12] saña ölüm yoqdur; dağ çiçəgi, anañ südi saña mərhəmdir,” – [13] dedi.

Böylə digəc qırq incə qız yayıldılar, dağ çiçəgi divşürdilər.
D29 [1] Oğlanıñ anası əmcəgin bir sıqdı, südi gəlmədi; iki sıqdı, [2] südi gəlmədi; üçüncidə kəndüyə zərb eylədi, qatı doldı, [3] sıqdı südlə qan qarışıq gəldi. Dağ çiçəgiylə südi [4] oğlanıñ yarasıña urdılar. Oğlanı ata bindirdilər, alubanı [5] ordusına getdilər. Oğlanı həkimlərə ısmarlayub Dirsə xandan [6] saqladılar.

At ayağı külük, ozan dili çevik olur. Xanım, [7] oğlanıñ qırq gündə yarası oñaldı, sapasağ oldı. [8] Oğlan ata binər, qılıc quşanar oldı, av avlar, quş quşlar [9] oldı. Dirsə xanıñ xəbəri yoq, oğlancuğın öldi [10] bilür.

Ol qırq namərdlər bunı duydılar; “nə eyləyəlim?” – deyü danışdılar. “[11] Dirsə xan əgər oğlancığın görərsə, oturmaz, bizi həb qırar,” – [12] dedilər. “Gəlüñ, Dirsə xanı tutalım, ağ əllərin ardına bağlayalım, [13] qıl sicim ağ boynına taqalım, alubanı kafir ellərinə yönələlim,” deyü [1] Dirsə xanı tutdılar.
D30

Ağ əllərin ardına bağladılar, qıl sicim boynuna [2] taqdılar, ağ ətindən qan çıqınca dögdilər. Dirsə xan yayan, [3] bunlar atlu yüridilər, alubanı qalın kafir ellərinə yönəldilər. Dirsə [4] xan tutsaq oldı gedər.

Dirsə xanıñ tutsaq olduğından [5] Oğuz bəgləriniñ xəbəri yoq. Məgər, sultanım, Dirsə xanıñ xatunı [6] bunı duymış. Oğlancuğına qarşu varub soylamış görəlim, [7] xanım, nə soylamış.

Aydır:

Görürmisin, ay oğul, nələr oldı?!
[8] Sarp qayalar oynanmadı, yer obrıldı.
Eldə yağı yoq ikən səniñ [9] babañıñ üstinə yağı gəldi.
Ol qırq namərd-babañıñ yoldaşları [10] babañı tutdılar.
Ağ əllərin ardına bağladılar.
Qıl sicim ağ boynına [11] taqdılar.
Kəndülər atlu, babañı yayaq yüritdilər.
Alubanı qalın kafir [12] ellərinə yönəldilər.
Xanım oğul, qalqubanı yerindən uru durğıl!
[13] Qırq yigidiñ boyuña alğıl!
Babañı ol qırq namərddən qurtarğıl.
D31 [1] Yüri, oğul! Babañ saña qıydısa, sən babaña qıymağıl! – dedi.

[2] Oğlan anasınıñ sözin sımadı. Buğac bəg yerindən uru [3] durdı, qara polat uz qılıcın belinə quşandı, ağ tozluca [4] qatı yayını əlinə aldı, altun cidasın qolına aldı, bədəvi [5] atını tutdurdı, butun bindi. Qırq yigidin boyına aldı, [6] babasınıñ ardınca yortub getdi.

Ol namərdlər dəxi bir yerdə [7] qonmuşlardı, al şərabıñ itisindən içərlərdi. Buğac xan [8] çapub yetdi. Ol qırq namərd dəxi bunı gördilər. Ayıtdılar: "[9] Gəlün, varalım, şol yigidi tutub gətürəlim, ikisini bir yerdə [10] kafirə yetürəlim!" – dedilər. Dirsə xan aydır: "Qırq yoldaşım, [11] aman! Tañrınıñ birliginə yoqdur güman!

Mənim əlümi şeşiñ, qolça [12] qopuzım əlümə veriñ, ol yigidi döndərəyim. Gərək bəni [13] öldürüñ, gərək dirgürüñ, qoyu veriñ", – dedi.

D32 Əlini şeşdilər[1] qolça qopuzın əlinə verdilər. Dirsə xan, oğlancuğı idügin [2] bilmədi; qarşu gəldi. Soylar, görəlim, xanım, nə soylar:

Aydır:

[3] Boynı uzun bədəvi atlar gedərsə, mənim gedər.
Səniñ də [4] içində binədiñ varsa, yigit, degil maña,

Savaşmadın, uru[5]şmadın alı verəyim, döngil gerü!
Ağayıldan tümən qoyun gedərsə, [6] mənim gedər.
Səniñ də içində şişligiñ varsa, degil maña,
[7] Savaşmadın, uruşmadın alı verəyim, döngil gerü!
Qaytabandan [8] qızıl dəvə gedərsə, mənim gedər.
Səniñ də içində yüklətiñ, [9] varsa, degil maña.
Savaşmadın, uruşmadın alı verəyim, [10] döngil gerü!
Altun başlu ban evlər gedərsə, bənim gedər.
[11] Səniñ də içində odañ varsa, yigit, degil maña,
Savaşmadın, [12] uruşmadın alı verəyim, döngil gerü!
Ağ yüzlü, ala gözlü [13] gəlinlər gedərsə, bənim gedər.
D33 Səniñ də içində nişanlıñ varsa, [1] yigit, degil maña,
Savaşmadın, uruşmadın alı verəyim, döngil [2] gerü!
Ağ saqallu qocalar gedərsə, mənim gedər.
Səniñ də içində [3] ağ saqallu babañ varsa, yigit, degil maña,
Savaşmadın, uruşmadın [4] qurtarayım, döngil gerü!
Mənim içün gəldüñsə, oğlancığım öldürmişəm,
[5] Yigit, saña yazığı yoq, döngil gerü! – dedi.

Oğlan burada [6] babasına soylamış, görəlim, xanım, nə soylamış:

Boynı uzun [7] bədəvi atlar gedərsə, səniñ gedər
Mənim də içində binədim var,
[8] qomağım yoq qırq namərdə!
Qaytabanda qızıl dəvə səniñ gedər.
[9] Mənim də içində yüklətim var,
qomağım yoq qırq namərdə!
Ağayılda [10] tümən qoyun səni gedər.
Mənim də içində şişligim var,
qomağım yoq [11] qırq namərdə!
Ağ yüzlü, ala gözlü gəlin səniñ gedərsə,
Mənim dəxi [12] içində nişanlım var,
qomağım yoq qırq namərdə!
Altun başlu [13] ban evlər səniñ gedərsə,
Mənim də içində odam var,
D34 qomağım yoq [1] qırq namərdə!
Ağ saqallu qocalar səniñ gedərsə,

Mənim dəxi [2] içində bir aqlı şaşmış,
biligi yetmiş qoca babam var,
[3] qomağım yoq qırq namərdə! – dedi.

Qırq yigidinə dilbənd saldı, [4] əl eylədi. Qırq yigit bədəvi atın oynatdı, oğlanıñ [5] üzərinə yığnaq oldı.

Oğlan qırq yigidin boyına aldı, [6] at dəpdi, cəng və savaş etdi. Kiminüñ boynın urdı, [7] kimini tutsaq eylədi. Babasını qurtardı, qayıtdı, gerü [8] döndi.

Dirsə xan burada oğlancuğı sağ idügin [9] yenə bildi...

Xanlar xanı xan Bayındır oğlana bəglik verdi, taxt verdi. [10] Dədəm Qorqut boy boyladı, soy soyladı; bu oğuz[11]naməyi düzdi-qoşdı, böylə dedi:

Anlar dəxi bu dünyaya [12] gəldi, keçdi.
Karvan kibi qondı, köçdi.
Anları dəxi [13] əcəl aldı, yer gizlədi.
Fani dünya yenə qaldı.
Gəlimlü-gedimlü dünya,
Son ucı ölümlü dünya.

D35 Qara ölüm gəldigində [1] keçit versün!
Sağlıq ilə sağıncın, dövlətiñ Haq artırsun!
[2] Ol ögdügim yuca Tañrı dost olubanı mədəd irsün!
[3] Yum verəyin, xanım:
Yerlü qara dağlarıñ, yıqılmasun!
Kölgəlicə [4] qaba ağacıñ kəsilməsün!
Qamın aqan görkli suyuñ qurımasun!
[5] Qanadlarıñ ucları qırılmasun!
Çaparkən ağ-boz atıñ büdrəməsün!
[6] Çalışanda qara polat uz qılıcıñ gedəlməsün!
Dürtişərkən [7] ala göndəriñ ufanmasun!
Ağ birçəklü anañ yeri behişt [8] olsun!
Ağ saqallu babañ yeri uçmağ olsun!
Haq [9] yandıran çırağıñ yana dursun!
Qadir Tañrı səni [10] namərdə möhtac eyləməsün,
xanım, hey!

## SALUR QAZANIÑ EVİ YAĞMALANDIĞI [11] BOYI BƏYAN EDƏR

Bir gün Ulaş oğlı, Tulu quşuñ [12] yavrısı, bizə miskin umudı,
Amit soyınıñ aslanı,[13] Qaracuğıñ qaplanı, qoñur atıñ iyəsi, xan
D36 Uruzuñ [1] ağası, Bayındır xanıñ güyəgisi, Qalın Oğuzuñ dövləti,
qalmış [2] yigit arxası Salur Qazan yerindən durmışdı. Toqsan [3]
başlu ban evlərin qara yeriñ üzərinə dikdirmişdi. Toqsan [4] yer-
də ala qalı-ipək döşəmişdi. Səksən yerdə badyalar [5] qurılmış-
dı. Altun ayaq sürahilər düzilmişdi. Doquz qara [6] gözlü, xub
yüzlü, saçı ardına örilü, köksi qızıl dügməli, [7] əlləri biləgindən
qınalı, barmaqları nigarlı məhbub kafir qızları [8] Qalın Oğuz
bəglərinə sağraq sürüb içərlərdi.

İçüb-içüb [9] Ulaş oğlı Salur Qazanıñ alnına şərabıñ itisi
çıqdı. [10] Qaba dizi üzərinə çökdi, ayıtdı: "Ünüm añlañ bəglər,
sözüm diñləñ bəglər! Yata-yata yanımız ağrıdı, dura-dura
belimiz qurıdı; [12] yüriyəlim, a bəglər, av avlayalım, quş quş-
layalım, sığın-keyik yıqalım, [13] qayıdalım otağımıza düşəlim,
D37 yeyəlim-içəlim, xoş keçəlim!" Qıyan Selcük [1] oğlu Dəlü
Dondar aydır: "Bəli, xan Qazan, məsləhətdir". Qaragünə [2]
oğlı Qarabudaq aydır: "Ağam Qazan, məsləhətdir".

Anlar eylə digəc [3] At ağızlu Aruz qoca iki diziniñ üstinə
çökdi, [4] aydır: "Ağam Qazan, sası dinlü Gürcüstan ağzında
oturarsan, [5] orduñ üstinə kimi qorsan?"

Qazan aydır: "Üç yüz yigidlən [6] oğlum Uruz mənim evim
üstinə dursun!" – dedi. Qoñur atın [7] çəkdirdi, butun bindi.
Təpəl-qaşqa ayqırına Dondar bindi. [8] Gög bədəvisin tutdurdı,
Qazan bəgiñ qarındaşı Qaragünə [9] bindi. Ağ bədəvisin çəkdirdi.
Bayındır xanıñ yağısın [10] basan Şir Şəmsəddin bindi. Barasarıñ
Bayburd hasarından [11] parlayub uçan Beyrək Boz ayğırına bin-
di. Qoñur atlu Qazana "keşiş" deyən [12] bəg Yegnək Turı ay-
ğırına bindi. Saya varsam, dükənsə olmaz, [13] Qalın Oğuz
D38 bəgləri bindi. Ala dağa ala ləşkər ava çıqdı. [1] Kafiriñ casusı ca-
susladı, vardı kafirlər azğunı [2] Şökli Məlikə xəbər verdi. Yedi
biñ qaftanınıñ ardı yırtıxlu, [3] yarımından qara saçlu, sası dinlü
din düşməni, alaca atlu [4] kafir bindi yılğadı, dün bucuğında
Qazan bəgiñ ordusına [5] gəldi. Altun ban evlərin kafirlər çapdı-

lar. Qaza bəñzər qızı-[6]gəlini çığırışdırdılar. Tövlə-tövlə şahbaz atlarını bindilər. Qatar-[7]qatar qızıl dəvələrini yetdilər. Ağır xəzinəsini, bol aqçasını [8] yağmaladılar. Qırq incə bellü qızla Boyı uzun Burla xatun [9] yesir getdi. Qazan bəyiñ qarıcıq olmış anası qara dəvə [10] boynında asılu getdi. Xan Qazanıñ oğlı Uruz bəg [11] üç yüz yigidlən əli bağlu, boynı bağlu getdi. İlək qoca [12] oğlı Saru Qalmaş Qazan bəgiñ evi üzərinə şəhid [13] oldı.

Qazanıñ bu işlərdən xəbəri yoq.

D39 Kafir aydır: "Bəglər, [1] Qazanıñ tövlə-tövlə şahbaz atlarını binmişüz, altun-aqçasını [2] yağmalamışuz, qırq yigidlən oğlı Uruzı dutsaq etmişüz, [3] qatar-qatar dəvələrini yetmişüz, qırq incə bellü qızlan Qazanıñ [4] halalını tutmışuz; bu hayıfları biz Qazana etmişüz", – dedi.

[5] Kafiriñ biri aydır: "Qazan bəgdə bir hayfımız qaldı".

Şöklü Məlik aydır: "[6] Mərə aznavur, nə hayfımız qaldı?" Kafir aydır: "Qazanıñ qapulu Dərvənddə [7] on biñ qoyunı vardır. Şol qoyunları dəxi götürsək, Qazana [8] ulu heyf edərdik," – dedi. Şöklü Məlik aydır: "Altı yüz [9] kafir varsun, qoyunı gətürsin!" – dedi.

Altı yüz kafir atlandı, [10] qoyunuñ üzərinə alqar vardı. Gecə yatırkən [11] Qaracıq çoban qara qayğulu vaqiə gördi. Vaqiəsindən sərmərdi uru durdı. [12] Qıyan güci, Dəmir güci – bu iki qardaşı yanına aldı, ağılıñ qapusını bərkitdi.Üç yerdə dəpə
D40 kibi daş yığdı, ala [1] qollu sapanın əlinə aldı.

Nagahandan Qaracıq çobanıñ [2] üzərinə altı yüz kafir qoyıldı.

Kafir aydır:

Qaranqu axşam [3] olanda qayğulu çoban,
Qarla yağmur yağanda çaqmaqlu çoban,
[4] Südi-peniri bol qaymaqlu çoban!
Qazan bəgüñ dünlügi [5] altun ban evlərini
biz yıqmışuz.
Tövlə-tövlə şahbaz atlarını [6] biz binmişüz.
Qatar-qatar qızıl dəvəsini biz yetmişüz.
Qarıcıq [7] anasını biz gətirmişüz.
Ağır xəzinə, bol aqçasını biz yağmalamışuz.

[8] Qaza bəñzər qızı-gəlini biz yesir etmişüz.
Qırq yigidlən Qazanıñ [9] oğlını biz gətürmişüz.
Qırq incə bellü qızla Qazanıñ halalını [10] biz gətürmişüz.
Bərə çoban, irağından-yaqınından bərü gəlgil!
Baş [11] endirüb bağır basğıl!
Biz kafirə salam vergil!
Öldürməyəlim,
[12] Şökli Məlikə səni ilətəlüm,
Saña bəglik alı verəlim!

Çoban aydır:

[13] İlaqırdı söyləmə, mərə itüm kafir!
D41 İtümlə bir yalaqda yundım içən [1] azğun kafir!
Altındağı alaca atıñ nə ögərsin,
Ala başlu [2] keçimcə gəlməz maña!
Başındağı tuğulğañı nə ögərsən, [6] mərə kafir,
Başımdağı [3] börkümcə gəlməz maña!
Altmış tutam göndəriñi nə ögərsin, murdar kafir,
[4] Qızılcıq dəgənəgimcə gəlməz maña!
Qılıcuñı nə ögərsən, mərə kafir,
Əgri [5] başlu çovkanımca gəlməz maña!
Biləgüñdə doqsan oquñ nə ögərsən, mərə kafir.
Ala qollu sapanımca gəlməz maña!
İrağıñdan-yaqınıñdan bərü [7] gəlgil!
Yigitləriñ zərbini görgil, andan ötgil!

- dedi. Bitəkəllüf [8] kafirlər at dəpdilər, ox səpdilər. Ərənlər əvrəni Qaracuq [9] çoban sapanınıñ ayasına daş qodı, atdı. Birin atanda [10] ikisin-üçin yıqdı, ikisini atanda üçin-dördin yıqdı.

[11] Kafirləriñ gözinə qorxu düşdi. Qaracıq çoban kafiriñ [12]
üç yüzini sapan daşıyla yerə bıraqdı. İki qardaşı [13] oxa düşdi,
D42 şəhid oldı. Çobanıñ daşı dükəndi;[1] qoyun deməz, keçi deməz,
sapanıñ ayasına qor atar, kafiri yıqar.

[2] Kafiriñ gözi qorqdı. Dünya-aləm kafiriñ başına qarañu oldı; [3] aydır: "Yarımasun-yarcımasun bu çoban bizim həpimiz qırar olamı?!" – [4] dedilər; daha durmayıb qaçdılar. Çoban şəhid olan qardaşların [5] Haqına qodı, kafirlər leşindən bir böyük

dəpə yığdı, çaqmaq [6] çaqub od yaqdı; dəxi kəpənəgindən qu-
rumsı edüb yarasına [7] basdı, yoluñ qıyısın alub oturdı, ağladı-
sıqladı, [8] aydır: “Salur Qazan, bəg Qazan! Ölümisin, dirimisin,
bu işlərdən [9] xəbəriñ yoqmıdır?” – dedi.

Məgər, xanım, ol gecə Qalın Oğuzuñ [10] dövləti, Bayındır
xanıñ güyəgisi Ulaş oğlı Salur Qazan [11] qara qayğılu vaqiə
gördi. Sərmərdi uru durdı, aydır: [12] “Bilürmisin, qarındaşım
Qaragünə, düşümdə nə görindi? Qara qayğulu [13] vaqiə gör-
düm, yumruğumda talbınan şahin bənim quşumı alur gördüm,
D43 [1] gögdən ıldırım ağ-ban evim üzərinə şaqır gördüm, düm qara
[2] pusarıq ordumuñ üzərinə tökilür gördüm, quduz qurtlar [3] evi-
mi dələr gördüm, qara dəvə əñsəmdən qarvar gördüm, qarğu
kibi [4] qara saçım uzanır gördüm, uzanuban gözümi örtər gör-
düm, [5] biləgimdən on barmağımı qanda gördüm. Necə kim bu
düşi gördüm, [6] şundan bərü ağlım-ussum dərə bilmən. Xanım
qardaş, mənim bu düşümi [7] yorğıl maña!” – dedi.

Qaragünə aydır: “Qara bulut dedigiñ səniñ [8] dövlətiñdir.
Qar ilə yağmur dedigiñ ləşkəriñdir. Saç [9] qayğudur. Qan qara-
dır. Qalanısın yora bilmən, Allah yorsun!” – [10] dedi.

Böylə digəc Qazan aydır: “Mənim avımı bozma, ləşkəri-
mi dağıtma. [11] Bən bu gün Qonur ata qaqaram, üç günlik yolı
bir gündə aluram, [12] öylə olmadın yurdum üstinə varıram;
əgər sağdır-əsən[13]dir, axşam olmadın genə bən saña gəlürəm.
D44 Ordum sağ-əsən [1] degil isə, başıñuza çarə ediñ; mən dəxi get-
dim,” – dedi[2]. Qoñur atın mahmuzladı, Qazan bəg yola getdi.
[3] Gəli-gəli yurdınıñ üzərinə gəldi. Gördi kim, uçarda quzğun
qalmış, [4] tazı dolaşmış, yurtda qalmış. Qazan bəg burada yurd-
lan [5] xəbərləşmiş, görəlim, xanım, nə xəbərləşmiş:

Qazan aydır:

Qovm-qəbilə mənim [6] quma yurdum,
Qulanla sığın-keyikə qoñşı yurdum,
Səni yağı [7] nerədən darımış, gözəl yurdum?!
Ağ-ban evim dikiləndə yurdı [8] qalmış,
Qarıcıq anam oluranda yeri qalmış,
Oğlum Uruz ox [9] atanda buta qalmış,
Oğuz bəgləri at çapanda meydan qalmış,
[10] Qara mudbaq dikiləndə ocaq qalmış...

Bu halları gördügində [11] Qazanıñ qara qıyma gözləri qan-
yaş doldı, qan damarları [12] qaynadı, qara bağrı sarsıldı. Qoñur
atını ökcələdi, [13] kafir keçdigi yola düşdi, getdi. Qazanıñ öñinə
D45 bir su [1] gəldi.

Qazan aydır: "Su Haq dizarın görmüşdür, bən bu su ilə [2] xəbərləşəyim," – dedi. Görəlim, xanım, necə xəbərləşdi:

Qazan aydır:

[3] Çağnam-çağnam qayalardan çıqan su,
Ağac gəmiləri oynadan [4] su,
Həsənlə Hüseyniñ həsrəti su,
Bağ və bostanıñ ziynəti [5] su,
Ayişə ilə Fatiməniñ nigahı su,
Şahbaz atlar gəlüb içdigi [6] su,
Qızıl dəvələr gəlüb keçdigi su,
Ağ qoyunlar gəlüb [7] çevrəsində yatduğı su,
Ordumuñ xəbərin bilürmisin, [8] degil maña!
Qara başım qurban olsun, suyum, saña! – dedi.

Su [9] qaçan xəbər versə gərək?! Sudan keçdi, bu gəz bir qurda tuş [10] oldı. "Qurd yüzi mübarəkdir, qurdlan bir xəbərləşəyim," – dedi.

[11] Görəlim, xanım, nə xəbərləşdi:

Qazan aydır:

Qaranqu axşam [12] olanda güni doğan,
Qar ilə yağmur yağanda ər kibi duran,
[13] Qaraquc atları gördügində kişnəşdirən,
Qızıl dəvə gördügində bozlaşdıran,
D46 [1] Ağca qoyun gördügində quyruq çırpub qamçılayan,
Arqasını [2] urub bərk ağılıñ ardın sökən,
Qarma-bükəc səmüzin [3] alub tutan,
Qanlu quyruq üzüb çap-çap yudan,
Avazı [4] qaba köpəklərə ğavğa salan,
Çaqmaqluca çobanları dünlə [5] yügürdən,
Ordumuñ xəbərin bilürmisin, degil maña!
Qara başım [6] qurban olsun, qurdum, saña! – dedi.

Qurd qaçan xəbər versə [7] gərək?! Qurtdan dəxi keçdi, Qaraca çobanıñ qara köpəgi Qazana [8] qarşu gəldi. Qazan qara köpəkləm xəbərləşdi; görəlim, xanım, nə [9]xəbərləşdi. Aydır:

Qaranqu axşam olanda vaf-vaf ürən,
[10] Acı ayran tökiləndə çap-çap içən,
Gecə gələn xırsızları [11] qorqudan,
Qorquduban şamatasıyla ürküdən,
Ordumuñ xəbərin [12] bilürmisin, degil baña!
Qara başım sağlığında eyiliüklər edəm, [13] köpək, saña!

D47 dedi. Köpək qaçan xəbər versə gərək? Köpək Qazanıñ [1] atınıñ ayağına çap-çap düşər, siñ-siñ siñlər. Qazan [2] bir tumar ilə köpəgi urdı. Köpək çəkildi, gəldügi [3] yola getdi. Qazan köpəgi qovlayı, Qaraca çobanıñ üzərinə [4] gəldi. Çobanı gördügində xəbərləşdi, görəlim, xanım, nə [5] xəbərləşdi:

Qazan aydır:

Qaranqu axşam olanda qayğulu çoban!
[6] Qarla yağmur yağanda çaqmaqlu çoban!
Ünüm añla, sözüm diñlə:
[7] Ağ-ban evim şundan keçmiş gördüñmi, degil maña
Qara başım qurban [8] olsun, çoban, saña! – dedi.

Çoban aydır:

Ölmüşmiydiñ, yitmişmiydiñ, [9] a Qazan!
Qanda gəzərdiñ, nerədəydiñ, a Qazan!
Dün yoq, ötəki [10] gün eviñ bundan keçdi,
Qarıcıq anañ qara dəvə boynında [11] asılu keçdi.
Qırq incə bellü qızıyla halalıñ, –
Boyı uzun [12] Burla xatun ağlayuban şundan keçdi.
Qırq yigidlən oğluñ [13] Uruz başı açuq, yalın ayaq
D48 kafirləriñ yanınca tutsaq [1] getdi.
Tavla-tavla şahbaz atlarıñ kafir binmiş,
Qatar-qatar qızıl [2] dəvələriñ kafir yetmiş,
Altun-aqça, bol xəzinəñi kafir [3] almış!

Çoban böylə digəc Qazan ah etdi, ağlı başından [4] getdi, dünya-aləm gözinə qarañu oldı; aydır:

Ağzıñ qurusun, [5] çoban!
Dilün çürisün, çoban!
Qadir səniñ alnıña qada yazsın, [6] çoban! – dedi.

Qazan bəg böylə digəc çoban aydır:

Nə qaqırsan [7] baña, ağam Qazan,
Yoxsa köksüñdə yoqmıdır iman?

Altı [8] yüz kafir dəxi mənim üzərimə gəldi. İki qardaşım şəhid [9] oldı. Üç yüz kafir öldürdüm, ğəza etdim; səmüz qoyun, [10] arıq toqlı səniñ qapuñdan kafirlərə vermədim. Üç yerdə [11] yaralandım, qara başım buñaldı, yalñuz qaldım; suçum bumıdır? – [12] dedi.

Çoban aydır:

Qoñur atın vergil maña,
Altmış tutam [13] göndərüñi vergil maña,
Ap-alaca qalqanıñı vergil maña.
D49 [1] Qara polat uz qılıcıñ vergil maña,
Sadağıñda səksən oquñ [2] vergil maña.
Ağ tozluca qatı yayıñ vergil maña,
Kafirə mən [3] varayın,
Yenidən toğanın öldürəyin,
Yeñümlə alnum qanın [4] bən siləyin,
Ölürsəm, səniñ uğruña bən öləyim,
Allah Taala [5] qorsa, eviñi bən qurtarayın! – dedi.

Çoban böylə digəc Qazana [6] qəhər gəldi, aldı yüriyü verdi. Çoban dəxi Qazanıñ [7] ardından yetdi. Qazan döndi baqdı, “Oğul çoban, qanda [8] gedərsin?” – dedi.

Çoban aydır: “Ağam Qazan, sən eviñ [9] almağa gedərsəñ, mən dəxi qarındaşım qanın almağa gedərəm,” – dedi.

[10] Böylə degəc Qazan aydır: “Oğul çoban, qarnım acdır; heç nəsnəñ [11] varmıdır yeməgə?” – dedi. Çoban aydır: “Bəli, ağam Qazan, gecədən [12] bir quzı bişürüb dururam. Gəl bu ağac dibində enəlüm, yiyəlim!” – dedi.

[13] Endilər; çoban dağarcığı çıqardı, yedilər. Qazan fikr
D50 eylədi, [1] aydır: “Əgər çobanla varacaq olursam, Qalın Oğuz

bəgləri [2] bənim başıma qaqınc qaxarlar; çoban bilə olmasa, Qazan kafiri alamazdı,” [3] deyərlər”, – dedi.

Qazana qeyrət gəldi. Çobanı bir ağaca sara-[4]sara möhkəm bağladı; eyləndi, yüriyü verdi. Çobana aydır: [5] “Mərə çoban! Qarnıñ acıqmamışkən, gözüñ qararmamış ikən bu [6] ağacı qoparı gör, yoxsa səni bunda qurtlar-quşlar [7] yer,” – dedi.

Qaraca çoban zərb eylədi, qaba ağacı yeriylə – [8] yurdıyla qopardı, arqasına aldı, Qazanıñ ardına düşdi.

[9] Qazan baqdı gördi çoban ağacı arqasına almış, [10] gəlür. Qazan aydır: “Mərə çoban, bu ağac nə ağacdır?” Çoban [11] aydır: “Ağam Qazan, bu ağac ol ağacdır kim, sən kafiri basarsan, [12] qarnıñ acığar, mən saña bu ağacla yemək bişürərin,” – dedi.

D51 [13] Qazana bu söz xoş gəldi. Atından endi, çobanıñ əllərin [1] çözdi, alnında bir öpdi, aydır: “Allah mənim evimi qurtaracaq [2] olursa, səni əmiraxur eyləyəyin,” – dedi. İkisi bilə yola [3] girdi.

Bu yana Şökli Məlik kafirlərlə şin-şadman yeyüb-[4]içüb oturmurdı. Aydır: “Bəglər, bilürmisiz, Qazana necə heyf [5] eyləmək gərək? Boyı uzun Burla xatunını gətürüb, sağraq [6] sürdürmək gərək!” – dedi.

Boyı uzun Burla xatun bunı eşitdi, [7] yürəgiylə canına odlar düşdi. Qırq incə bellü qızıñ [8] içinə girdi; ögüt verdi, aydır: “Qanqıñuza yapışurlarsa, [9] “Qazan xatunı qanqıñızdır” deyü, qırq yerdən avaz verəsiz,” – [10] dedi.

Şökli Məlikdən adam gəldi, “Qazan bəgiñ xatunı [11] qanqıñuzdur?” – dedi. Qırq yerdən avaz gəldi, qanqısıdır [12] bilmədilər. Kafirə xəbər verdilər: “Birinə yapışdıq, qırq yerdən [13] avaz gəldi; bilmədik, qanqısıdır,” – dedilər.

D52 Kafir aydır: “Mərə, [1] varıñ, Qazanıñ oğlı Uruzı dartıñ, çəngələ asuñ. Qıyma-[2]qıyma ağ ətindən çəküñ, qara qavurma bişürüb, qırq bəg qızına [3] ilətüñ; hər kim yedi, ol degil; hər kim yemədi, oldur. Aluñ gəlüñ, [4] sağraq sürsün!” – dedi.

Boyı uzun Burla xatun oğlınuñ [5] yamacına gəldi; çağırub oğlına soylar, görəlim, xanım, nə soylar?

[6] Aydır:

Oğul, oğul, ay oğul,
Bilürmisin, nələr oldı:

[7] Söyləşdilər fısıl-fısıl,
Kafiriñ felin duydum.
Dünlügi altun [8] ban evimiñ qəbzəsi oğul,
Qaza bəñzər qızımıñ-gəlinimiñ [9] çiçəgi oğul,
Oğul, oğul, ay oğul,
Doquz ay dar [10] qarnımda götürdügüm oğul,
On ay deyəndə dünyaya gətürdügim [11] oğul,
Dolması altun beşikdə bələdügim oğul,

kafirlər tərs danışmışlar:[12]"Qazan oğlı Uruzı həbsdən çıqaruñ,
boğazından orğanla [13]asuñ, iki dalusından çəngələ sancuñ,
D53 qıyma-qıyma ağ ətindən [1] çəküñ. Qara qavırma edüb, qırq bəg
qızına ilətüñ; hər kim yedi, [2] ol degil; hər kim yemədi, ol
Qazan xatunıdır; çəküñ döşəgimizə [3] gətirəlim, sağraq sürdü-
rəlim!" – demişlər. Səniñ ətüñdən, oğul, [4] yiyəyinmi, yoxsa
sası dinlü kafiriñ döşəginə girəyinmi? Ağañ [5] Qazanıñ namu-
sını sındırayınmı? Necədəyin, oğul, hey?! – dedi.

[6] Uruz aydır: "Ağzuñ qurısun, ana! Dilüñ çürisün, ana! [7]"
Ana haqqı-Tañrı haqqı" deñilməsəydi, qalqubanı yerimdən
duraydım, [8] yaqañla boğazıñdan tutaydım, qaba ökcəm altına
salaydım, ağ [9] yüzüñi qara yerə dəpəydim, ağzuñ ilə burnuñ-
dan qan şorla[10]daydım, can datlusın saña göstərəydim! Bu nə
sözdür? Saqın, [11] qadın ana! Mənim üzərimə gəlməyəsin, mə-
nim içün ağlamayasan. [12] Qo bəni qadın ana, çəngələ ursun-
lar, qo ətimdən çəksünlər, [13] qara qavurma etsünlər, qırq bəg
D54 qızınıñ öñinə ilətsünlər. [1] Anlar bir yedigində sən iki yegil!
Səni kafirlər bilməsünlər-duymasunlar; [2] ta kim, sası dinlü
kafirüñ döşəginə varmayasan, sağrağın [3] sürməyəsən, atam
Qazan namusını sımayasan. Saqın!" – dedi.

[4] Oğlan böylə digəc buldur-buldur göziniñ yaşı rəvan [5]
oldı. Boyı uzun, beli incə Burla xatun boynıyla qulağın [6] aldı
düşdi; güz alması kibi al yanağın dartdı yırtdı; [7] qarğu kibi qara
saçını yoldı; "oğul, oğul!" deyübən zarılıq [8] qıldı, ağladı.

Uruz aydır:

Qadın ana! Qarşum alub, nə [9] bögrərsən?
Nə bozlarsan, nə ağlarsan?

Bağrımla yürəgim nə [10] dağlarsan?
Keçmiş mənim günimi nə andırarsan?
Hey, ana! Ərəbi [11] atlar olan yerdə
Bir qulunı olmazmı olur?
Qızıl dəvələr [12] olan yerdə
Bir köşəgi olmazmı olur?
Ağca qoyunlar olan [13] yerdə
Bir quzıcığı olmazmı olur?
D55 Sən sağ ol, qadın [1] ana, babam sağ olsun,
Bir mənim kibi oğul bulınmazmı olur? – [2] dedi.

Böylə digəc anasınıñ qərarı qalmadı; yüriyü [3] verdi, qırq incə bellü qızıñ içinə girdi.

Kafirlər [4] Uruzı alub, qənarə dibinə gətürdilər, Uruz aydır:

[5] "Mərə kafir, aman! Tañrınıñ birliginə yoqdur güman! Qoñ məni bu [6] ağacla söyləşəyim," – dedi. Çağırub ağaca soylamış, [7] görəlim, xanım, nə soylamış:

"Ağac, ağac!! Dersəm saña, ərlənmə [8] ağac!
Məkkə ilə Mədinəniñ qapusı ağac!
Musa Kəlimüñ [9] əsası ağac!
Böyük-böyük sularıñ köprisi ağac!
[10] Qara-qara dəñizləriñ gimisi ağac!
Şahi-mərdan Əliniñ [11] Düldüliniñ əyəri ağac!
Zülfiqarıñ qınıyla qəbzəsi [12] ağac!
Şah Həsənlə Hüseynüñ beşigi ağac!
Əgər ərdir, [13] əgər övrətdir, qorxusı ağac!
D56 Başıñ ala baqar olsam, [1] başsız ağac!
Dibiñ ala baqar olsam, dibsüz ağac!
Məni saña [2] asarlar, götürməgil ağac!
Götürəcək olursañ, yigitligüm səni tutsun, [3] ağac!
Bizim eldə gərək idiñ, ağac!
Qara hindu qullarıma buyuraydım,
[4] Səni para-para doğrayalardı, ağac!

Andan ayıtdı:

Tavla-tavla [5] bağlananda atuma yazıx!
Qartaş deyü; saqlayanda yoldaşıma yazıx!

Yumruğında [6] talbınanda şahin quşuma yazıx!
Yetər ilə tutanda tazıma yazıx!
[7] Bəgligə doymadın özümə yazıx!
Yigitliginə usanmadın canıma [8] yazıx! – dedi,
yumru-yumru ağladı, yanıq cigərcigini dağladı.

[9] Bu məhəldə, sultanım, Salur Qazanlam Qaraca çoban çapar [10] yetdi. Çobanıñ üç yaşar dana dərisindən sapanınıñ [11] ayasıydı; üç keçi tüyindən sapanınıñ qollarıydı. [12] Bir keçi tüyindən çatlağucıydı. Hər atanda on iki [13] batman daş atardı. Atdığı daş yerə düşməzdi.

D57 Yerə dəxi [1] düşsə, toz kibi savrılırdı, ocaq kibi obrılur idi. Üç [2] yıladaq daşı düşdügi yeriñ otı bitməzdi. Semiz qoyun, aruq [3] toqlı bayırda qalsa, qurt gəlib yeməzdi sapanıñ [4] qorqusından. Eylə olsa, sultanım, Qaraca çoban sapan [5] çatlatdı. Dünya-aləm kafiriñ gözinə qarañũ oldı.

Qazan [6] aydır: "Qaracıq çoban, anamı kafirdən diləyəyim, at ayağı [7] altında qalmasun," – dedi.

At ayağı külük, ozan dili [8] çevik olur. Qazan kafirə çağırub soylamış, görəlim, xanım, [9] nə soylamış:

Aydır:

Mərə Şökli Məlik!
Dünlügi altun ban [10] evlərimi gətürüb durursan,
saña kölgə olsun!
Ağır xəzinəm, [11] bol aqçam gətürüb durursan,
saña xərclıq olsun!
Qırq incə [12] bellü qızla Burla xatunı gətürüb durursan,
saña yesir olsun!
[13] Qırq yigidlən oğlum Uruzı gətürüb durursan,
D58 quluñ [1] olsun!
Tavla-tavla şahbaz atlarım gətürüb durursan,
[2] saña binət olsun!
Qatar-qatar dəvələrim gətürüb durursan,
[3] saña yüklət olsun!
Qarıcıq anamı gətürüb durursan,
Mərə kafir, [4] anamı vergil maña,
Savaşmadın, uruşmadın qayıdayım – gerü dönəyim,
[5] gedəyim, bəllü bilgil! – dedi.

Kafir aydır:

- Mərə Qazan!
Dünlügi [6] altun ban evini gətürmişiz, – bizimdir!
- Qırq incə bellü qızla
[7] Boyı uzun Burla xatunı gətürüb durur, – bizimdir!
- Qırq [8] yigidlən oğluñ Uruzı gətürmiş, – bizimdir!
Tavla-[9]tavla şahbaz atların,
qatar-qatar dəvələrin gətürmişiz, – bizimdir.
[10] Qarıcıq anañı gətürmişiz, – bizimdir!
Saña verməziz, Yayxan [11] Keşiş oğlına verəriz,
Yayxan Keşiş oğlından oğlı [12] doğar,
Biz anı saña ğarım qoruz, – dedilər.

Böylə digəc Qarıcıq [13] çobanıñ acığı tutdı, dodaqları təpsərdi.

D59 Çoban [1] aydır:

Mərə dini yoq, ağılsız kafir!
Ussı yoq, dərnəksiz kafir!
[2] Qarşu yatan qarlı qara dağlar
qarıyubdur otı bitməz.
Qanlu-[3]qanlu ırmaqlar
qarıyubdur suyı gəlməz.
Şahbaz-şahbaz [4] atlar
qarıyubdur qulun verməz.
Qızıl-qızıl dəvələr
qarıyubdur [5] köşək verməz.
Mərə kafir, Qazanıñ anası
qarıyubdur oğul [6] verməz.

Dölin almaqdan səfañ varsa, Şökli Məlik, qara [7] gözlü qızıñ varsa, gətür Qazana ver! Mərə kafir, səniñ qızıñdan [8] oğlı doğsun, siz anı Qazan bəgə qədim qoyasız, – dedi.

[9] Bu məhəldə Qalın Oğuz bəgləri yetdi. Xanım, görəlim, kimlər yetdi:

[10] Qara Dərə ağzında Qadir verən, qara buğa dərisindən beşiginiñ yapuğı [11] olan, acığı tutanda qara daşı kül eyləyən, bığın əñsə[12]sində yedi yerdə dügən, ərənlər əvrəni Qazan bə-

giñ qar[13]daşı Qaragünə çapar yetdi "Çal qılıcıñ, qardaş Qazan,
D60 [1] yetdim!" – dedi.

Bunuñ ardınca, görəlim, kimlər yetdi:

Dəmir [2] qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam [3] ala göndəriniñ ucında ər bögürdən Qıyan Selcik oğlı [4] Dəli Dondar çapar yetdi: "Çal qılıcıñ, ağam Qazan, yetdim!" – [5] dedi.

Bunuñ ardınca, xanım, görəlim, kimlər yetdi: Həmidlən [6] Mərdin qalasın dəpüb yıqan, dəmür yaylı Qıpcaq Məlikə [7] qan qusduran, gəlübən Qazanıñ qızın ərliklə alan, Oğuzuñ [8] aq saqallu qocaları görəndə ol yigidi təhsin[9]ləyən, al mahmuzı şalvarlı, atı bəhri xotazlı [10] Qaragünə oğlı Qara Budaq çapar yetdi: "Çal qılıcıñ, [11] ağam Qazan, yetdim!" – dedi.

Bunuñ ardınca, görəlim, xanım, [12] kimlər yetdi: Dəstursuzca Bayındır xanıñ yağısın [13] basan, altmış biñ kafirə qan
D61 qusduran, ağ-boz atınıñ [1] yelisi üzərində qar durduran Qəflət qoca oğlu Şir [2] Şəmsəddin çapar yetdi: "Çal qılıcıñ, ağam Qazan, yetdim!" – dedi.

[3] Bunuñ ardınca görəlim, xanım, kimlər yetdi: Parasarıñ Bayburd [4] hasarından parlayub uçan, apalaca gərdəginə qarşu gələn, [5] yedi qızıñ umudı, Qalın Oğuz imrəncəsi, Qazan bəgüñ [6] inağı, Boz ayğırlu Beyrək çapar yetdi: "Çal qılıcıñ, ağam [7] Qazan, yetdim!" – dedi.

Bunuñ ardınca, xanım, görəlim, kimlər yetdi: [8] Çaya baqsa çalımlu, çal qaraquş ərdəmlü, qurqurma quşaqlu, [9] qulağı altun kübəli, Qalın Oğuz bəglərini bir-bir atından yıqıcı [10] Qazlıq qoca oğlı bəg Yegnək çapar yetdi: "Çal [11] qılıcıñ, ağam Qazan, yetdim!" – dedi.

Bunuñ ardınca görəlim, [12] xanım, kimlər yetdi: Altmış ögəc dərisindən kürk eyləsə, topuqlarını [13] örtməyən, altı ögəc dəri-
D62 sindən külah etsə, qulaqlarını örtməyən, [1] qolı-budı xaranca, uzun baldırları incə, Qazan bəgüñ [2] dayısı At ağızlu Aruz qoca çapar yetdi: "Çal qılıcıñ, [3] bəgüm Qazan, yetdim!" – dedi.

Bunuñ ardınca, görəlim, kimlər yetdi:

Varıban Peyğəmbəriñ yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan, [5] acığı tutanda bıqlarından qan çıqan, Bığı qanlu Bügdüz Əmən [6] çapar yetdi: "Çal qılıcıñ, ağam Qazan, yetdim!" – dedi.

Bunuñ [7] ardınca, görəlim, kimlər yetdi:
Kafirləri it ardına bıraqıb [8] xorlayan, eldən çıqub Ayğır
gözlər suyından at yüzdürən, [9] əlli yedi qalanıñ kilidin alan,
Ağ Məlik Çeşmə qızına [10] nikah edən Sofi Sandal Məlikə qan
qusduran, qırq cübbə [11] bürinüb otuz yedi qala bəginiñ məh-
bub qızlarını çalub [12] bir-bir boynın qucan, yüzində-dodağın-
da öpən İlək [13] qoca oğlı Alp Ərən çapar yetdi: “Çal qılıcıñ,
D63 ağam [1] Qazan, yetdim!” – dedi.

Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz. [2] Həp yetdilər.
Arı sudan abdəst aldılar. Ağ alınların [3] yerə qodılar. İki rükət
namaz qıldılar. Adı görklü Məhəmmədə [4] salavat gətürdilər.
Bitəkəllüf kafirə at saldılar, qılıc çaldılar. [5] Gumbur-gumbur
naqaralar dögildi. Burması altun tuc [6] borılar çalındı.

Ol gün cigərində olan ər yigitlər bəlürdi. [7] Ol gün müxən-
nətlər sapa yer gözətdi. Ol gün bir qiyamət [8] savaş oldı, mey-
dan dolu baş oldı. Başlar kəsildi [9] top kibi. Şahbaz-şahbaz at-
lar yügürdi, nalı düşdi. Ala-[10]ala göndərlər süsildi. Qara polat
uz qılıclar çalındı, [11] yalmanı düşdi. Üç yeləkli qayın oqlar
atıldı, dəmrəni [12] düşdi. Qiyamətiñ bir güni ol gün oldı. Bəg
nökərindən, [13] nökər bəgindən ayrıldı.

D64 Daş Oğuz bəgləriylə Dəli Dondar [1] sağdan dəpdi. Cılasun
yigitlərlə Qaragünə oğlı Dəli [2] Budaq soldan dəpdi. İç Oğuz
bəgləriylə Qazan dopa [3] dəpdi, Şökli Məlikə həvala oldı,
Şökli Məliki bögür[4]dübəni atdan yerə saldı, ğafillücə qara ba-
şın alub [5] kəsdi, qaxışdın alca qanın yer yüzinə dökdi. Sağ [6] tə-
rəfdə Qara Tükən Məlikə Qıyan Selcük oğlı Dəli Dondar [7]
qarşu gəldi. Sağ yanını qılıcladı, yerə saldı. Sol [8] tərəfdə Bu-
ğacıq Məlikə Qaragünə oğlı Dəli Budaq qarşu [9] gəldi. Altı
bərli gürz ilə dəpəsinə qatı tuta urdı. [10] Dünya-aləm gözinə
qarañu oldı. At boynın qucaqladı, [11] yerə düşdi.

Qazan bəgüñ qardaşı kafiriñ tuğıyla [12] sancağı qılıcladı,
yerə saldı. Dərələrdə, dəpələrdə [13] kafirə qırğun girdi, leşinə
D65 quzğun üşdi. On [1] iki biñ kafir qılıcdan keçdi. Beş yüz Oğuz
yigitləri [2] şəhid oldı. Qaçanını Qazan bəg qomadı, aman deyə-
ni [3] öldürmədi. Qalın Oğuz bəgləri toyum oldı.

Qazan [4] bəg ordısını, oğlanını-uşağını, xəzinəsini aldı, ge-
rü [5] döndi altun taxtında. Yenə evini dikdi. Qaracıq çobanı [6]

əmiraxur eylədi. Yedi gün, yedi gecə yimə-içmə oldı. [7] Qırq baş qul, qırq qırnaq oğlı Uruz başına azad [8] eylədi. Cılasun qoç yigitlərə qalaba ölkə verdi; şalvar, [9] cübbə, çuqa verdi.

Dədəm Qorqut gəlübən boy boyladı, [10] soy soyladı. Bu oğuznaməyi düzdi-qoşdı, böylə [11] dedi:

Qanı dedigim bəg ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, [12] yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimlü-gedimlü dünya
[13] Axır soñ ucı ölümlü dünya!
Yum verəyim, xanım:
D66 Qarlı [1] qara dağlaruñ yıqılmasun!
Kölgəlicə qaba ağacıñ kəsilməsün!
[2] Qamın aqan görklü suyuñ qurımasun!
Qadir Tañrı səni [3] namərdə möhtac etməsün!
Çaparkən ağ-boz atıñ büdrəməsün!
[4] Çalışanda qara polat uz qılıcıñ gedilməsün!
Dürtüşərkən [5] ala göndəriñ avanmasun!
Ağ saqallu babañ yeri uçmaq olsun!
Ağ birçəklü anañ yeri behişt olsun!
Axır-sonı arı [7] imandan ayırmasun!
"Amin!" deyənlər dizar görsün!
Ağ [8] alnuñda beş kəlmə dua qılduq, qəbul olsun!
Allah verən [9] umuduñ üzülməsün!
Yığışdırsun-durışdursun günahınızı
[10] Adı görklü Məhəmməd Mustafa yüzi suyına
bağışlasun, [11] xanım, hey!..

# QAM BÖRƏNİÑ OĞLI BAMSI BEYRƏK BOYINI [12] BƏYAN EDƏR, XANIM, HEY...

Qam Ğan oğlı xan Bayındır [13] yerindən durmışdı. Qara ye-
D67 riñ üstinə ağ ban evin [1] dikdirmişdi. Ala sayvan gög yüzinə aşanmışdı. Biñ [2] yerdə ipək xalıcası döşənmişdi. İç Oğuz, Daş [3] Oğuz bəgləri Bayındır xanıñ söhbətinə dərilmişdi. Bay[4]börə bəg dəxi Bayındır xanıñ söhbətinə gəlmişdi. Bayındır [5] xanıñ qarşusında Qaragünə oğlı Qarabudaq bay dayanub dur[6]mışdı. Sağ yanında Qazan oğlı Uruz durmışdı. [7] Sol yanında Qazılıq qoca oğlı bəg Yegnək durmışdı. [8] Baybörə bəg bunları gördügində ah eylədi. Başından [9] aqlı getdi. Dəstmalın əlinə aldı, bögürü-bögür ağladı.

... [10] Böylə edicək Qalın Oğuz arqası, Bayındır xanıñ göygisi [11] Salur Qazan qaba diziniñ üzərinə çökdi. Qıya tikübən [12] Baybörə bəgüñ yüzinə baqdı, aydır:

"Baybörə bəg, nə [13] ağlayub bozlarsan?" Baybörə bəg ay-
D68 dır: "Xan Qazan, [1] necə ağlamayayın, necə bozlamayayın? Oğulda ortacım yoq, qardaşda [2] qədərim yoq! Allah Taala məni qarğayıbdır. Bəglər, tacım-taxtım [3] içün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdımda [4] kimsə qalmaya", – dedi.

Qazan aydır: "Məqsuduñ bumudur, [5] Baybörə bəg?" Aydır: "Bəli, budur. Mənim dəxi oğlum olsa, [6] xan Bayındırıñ qarşusın alsa-dursa, qulluq eyləsə, [7] mən dəxi baqsam, sevinsəm, qıvansam, güvənsəyim!.." – dedi. Böylə digəc [8] Qalın Oğuz bəgləri yüz gögə tutdılar. Əl qaldırıb, dua [9] eylədilər. "Allah Taala saña bir oğul versün!" – dedilər.

Ol [10] zamanda bəgləriñ alqışı alqış, qarğışı qarğış idi. [11] Duaları müstəcab olurdı. Baybican bəg dəxi [12] yerindən uru durdı, aydır:

"Bəglər, mənim dəxi haqqıma bir dua [13] eyləñ. Allah
D69 Taala maña da bir qız verə", – dedi. Qalın Oğuz [1] bəgləri əl qaldırdılar, dua eylədilər: "Allah Taala saña da [2] bir qız verə", – dedilər.

Baybican bəg aydır: "Bəglər, Allah Taala [3] maña bir qız verəcək olursa, siz tanıq oluñ, mənim qızım [4] Baybörə bəg oğlına beşikkərtmə yavuqlı olsun!" – dedi.

[5] Bunuñ üzərinə bir qaç zaman keçdi. Allah Taala
Bay[6]börə bəgə bir oğul, Baybican bəgə bir qız verdi. Qalın [7]
Oğuz bəgləri bunı eşitdilər, şad olub sevindilər.
[8] Baybörə bəg bazirganlarını yanına oxıdı, buyuruq [9] etdi:
“Mərə bazirganlar! Allah-Taala maña bir oğul verdi. [10] Varıñ
Rum elinə, mənim oğlum içün yaxşı ərmağanlar gətürüñ [11]
mənim oğlım böyüyincə”, – dedi.
Bazirganlar dəxi gecə-gündüz [12] yola girdilər. İstanbula
gəldilər. Dan-dansux ilə yaxşı [13] ərmağanlar aldılar. Baybörə-
D70 niñ oğlıyçun bir dəñiz [1] qulunı boz ayğır aldılar. Bir ağ tozlu
qatı yay aldılar. Bir dəxi [2] altı pərli gürz aldılar. Yol yarağın
gördilər.
Baybörəniñ [3] oğlı beş yaşına girdi, beş yaşından on yaşına
[4] girdi... On yaşından on beş yaşına girdi... Çaya [5] baqsa ça-
lımlu, çal qaraquş ərdəmlü, bir gözəl yaxşı yigit [6] oldı.
Ol zamanda bir oğlan baş kəsməsə, qan [7] dökməsə, ad
qomazlardı. Baybörə bəgiñ oğlı atlandı, [8] ava çıqdı. Av avlar-
kən babasınıñ tavlası üzərinə [9] gəldi. Əmiraxurbaşı qarşuladı,
endirdi, qonaqladı. [10] Yiyüb-içüb otururlardı.
Bu yañadan dəxi bazirganlar [11] gəlübəni Qara Dərvənd
ağzına qonmışlardı. Yarımasun-yarçımasun [12] Evnik qalasınıñ
kafirləri bunları casusladı.
Ba[13]zirganlar yatur ikən ğafillə beş yüz kafir qoyuldılar,
D71 çapdılar, [1] yağmaladılar. Bazirganıñ ulusı tutuldı, kiçisi qaça-
raq [2] Oğuza gəldi. Baqdı gördi Oğuzuñ ucında bir ala [3] sayvan
dikilmiş, bir imirzə xub yigit qırq yigid ilən sağında və [4]
solında otururlar. Oğuzuñ bir yaxşı yigidi ancaq... “yüriyəyim,
[5] mədəd diyəyim”, – dedi.
Bazirgan aydır: “Yigit, yigit, bəg yigit! [6] Sən bənim ünüm
añla, sözüm diñlə! On altı yıldır kim, Oğuz [7] içindən getmiş idik.
Dan-danışux kafir malın Oğuz bəglərinə [8] gətürür idik. Pasnik
Qara Dərvənd ağzına düş vermiş [9] idik. Evnik qalasınıñ beş yüz
kafiri üzərimizə qoyıldı. [10] Qardaşım tutsaq oldı. Malımızı, riz-
qimizi yağmaladılar, gerü [11] döndilər. Qara başım götürdüm,
saña gəldim. Qara başıñ sədəqəsi, [12] yigit, mədəd maña!” – dedi.
Bu gəz oğlan şərab içərkən [13] içməz oldı. Altun ayağı
əlindən yerə çaldı.

D72 Aydır: [1] “Nə dedigimi yetürüñ, geyünimlən mənim şahbaz
atımı gətürüñ! Hey, məni [2] sevən yigitlər binsünlər!” – dedi.
Bazirgan dəxi öñlərinə [3] düşdi, qulağız oldı.
Kafir dəxi düşübən bir yerdə aqça [4] ülüşməkdəydi. Bu mə-
həldə ərənləriñ meydanı arslanı, [5] pəhlivanlarıñ qaplanı Boz
oğlan yetdi. Bir-iki dimədi, [6] kafirlərə qılıc urdı. Baş qalduran
kafirləri öldürdi, [7] ğəza eylədi. Bazirganlarıñ malını qurtardı.
Bazirganlar [8] aydır: “Bəg yigit, bizə sən ərlik işlədiñ. Gəl
imdi bəgəndigiñ [9] maldan al!” – dedilər.
Yigidiñ gözi bir dəñiz qulunı boz [10] ayğırı tutdı, bir də altı
pərli güzi, bir də ağ tozlu [11] yayı tutdı. Bu üçini bəgəndi. Ay-
dır: “Mərə bazirganlar, [12] bu ayğırı və dəxi bu yayı və bu gürzi
maña veriñ!” – dedi. [13] Böylə digəc bazirganlar səxt oldı.
D73 Yigit aydır: “Mərə [1] bazirganlar, çoqmı istədim?!” – dedi.
Bazirganlar ayıtdılar: [2] “Nə çoğ olsun? Amma bizim bir bəgü-
miz oğlı vardır, bu üç [3] nəsnəyi aña ərmağan aparsavuz gərək
idi!” – dedilər.
Oğlan [4] aydır: “Mərə, bəgüñüz oğlı kimdir?” Ayıtdılar:
“Baybörəniñ oğlı [5] vardır, adına Bamsı derlər”, – dedilər.
Baybörəniñ oğlı [6] olıdığın biləmədilər. Yigit barmağın ısırdı,
aydır: “[7] Bunda minnətlə almaqdan isə, anda babam yanında
minnətsiz [8] almaq yegdir!” – dedi. Atın qamçıladı, yola girdi.
Bazirganlar [9] ardından baqa qaldı: “Vallah, yaxşı yigit, mürüv-
vətlü yigit!” – [10] dedilər.
Boz oğlan babasınıñ evinə gəldi. “Bazirganlar [11] gəldi”
deyü babası sevindi. Çətir otağ, ala sayvan dikdirdi. [12] İpək
xalıcalar saldı. Keçdi, oturdı. Oğlunı [13] sağ yanına aldı. Oğ-
D74 lan bazirganlar xüsusından [1] bir söz söyləmədi. Kafirləri qır-
duğın añmadı.
Nagahi [2] bazirganlar gəldilər. Baş endirüb, salam verdilər.
[3] Gördilər kim, ol yigit kim baş kəsübdür, qan dökübdür, [4]
Baybörə bəgiñ sağında oturar. Bazirganlar yüridilər, [5] yigidiñ
əlin öpdilər.
Bunlar böylə edicək Baybörə [6] bəgiñ acığı tutdı. Bazir-
ganlara aydır: “Mərə, qavat oğlı [7] qavatlar! Ata dururkən oğul
əlinmi öpərlər?” Ayıtdılar: “Xanım, [8] bu yigit səniñ oğluñmı-
dır?” “Bəli, mənim oğlumdur”, – dedi. [9] Ayıtdılar: “İmdi in-

cinmə, xanım, əvvəl anuñ əlin öpdügümüzə. [10] Əgər səniñ oğluñ olmasaydı, bizim malımuz Gürcüstanda [11] getmişdi, həpümiz tutsaq olmuşdı”, – dedilər.

Bay[12]börə bəg aydır: “Mərə, bənim oğlum başmı kəsdi, qanmı dökdi?”

D75 [13] “Bəli, baş kəsdi, qan dökdi, adam axtardı!” – dedilər. [1] “Mərə, bu oğlana ad qoyasınca varmıdır?” – dedi. “Bəli, sultanım, [2] artıqdır!” – dedilər.

Baybörə bəg Qalın Oğuz bəglərini çağırdı, qonaqladı. [3] Dədəm Qorqut gəldi, oğlana ad qodı. Aydır:

Ünüm anla, sözüm [4] diñlə, Baybörə bəg!
Allah Taala saña bir oğul vermiş, [5] tuta versün!
Ağır sancaq götürəndə müsəlmanlar arxası [6] olsun!
Qarşu yatan qara qarlu dağlardan aşar [7] olsa,
Allah Taala səniñ oğluña aşut versün!
Qanlu[8]-qanlu sulardan keçər olsa, keçit versün!
Qalabalıq [9] kafirə girəndə
Allah Taala səniñ oğluña fürsət versün!
[10] Sən oğluñı “Bamsam” deyü oxşarsan;
Bunuñ adı [11] Boz ayğırlıq Bamsı Beyrək olsun!
Adını bən verdim, [12] yaşını Allah versün! – dedi.

Qalın Oğuz bəgləri [13] əl götürdilər, dua qıldılar: “Bu ad bu
D76 yigidə qutlu olsun!” – [1] dedilər.

...Bəglər həb ava bindi. Boz ayğırın çəkdirdi, [2] Beyrək bindi. Ala dağa ala ləşkər ava çıqdı.

Nagahandan Oğuzuñ üzərinə bir süri [3] keyik gəldi. Bamsı Beyrək birini qova getdi. Qova-qova bir yerə [4] gəldi. Nə gördi, sultanım?! Gördi gög çayırıñ üzərinə [5] bir qırmızı otaq dikilmiş. “Yarəb, bu otağ kimüñ ola?!” – [6] dedi. Xəbəri yoq ki, alacağı ala gözli qızıñ otağı [7] olsa gərək. Bu otağıñ üzərinə varmağa ədəbləndi. Ayıtdı:

[8] “Nə olursa-olsun, hələ mən avımı alayın!” – dedi. Otağıñ [9] öñində irişi gəldi, keyiki siñirlədi. Baqdı gördi [10] bu otağ Banıçiçək otağıymış ki, Beyrəgiñ beşikkərtmə [11] nişanlısı-adaxlusıydı.

Banıçiçək otaxdan [12] baqırdı. “Mərə dayələr, bu qavat oqlı
qavat bizə ərlikmi [13] göstərir?” – dedi. Varıñ, bundan pay
D77 diləñ, görüñ nə der!” – [1] dedi.
Qısırca Yengə derlər, bir xatun vardı. İlərü [2] vardı, pay
dilədi: “Hey, bəg yigit, bizə dəxi bu keyikdən [3] pay ver!” –
dedi. Beyrək aydır: “Mərə dadı, mən avçı degiləm, [4] bəg oğlı
bəgəm həp sizə”, – dedi; amma sormaq eyib [5] olmasun, bu
otağ kimündür?” – dedi.
Qısırca yengə aydır: [6] “Bəg yigidim, bu otağ Baybican bəg
qızı Banıçiçəgiñ[7]dir”, – dedi.
Eylə olsa, xanım, Beyrəgiñ qanı qaynadı. Ədəblə [8] yab-
yab gerü döndi. Qızlar keyiki götürdilər. Gözəllər [9] şahı
Banıçiçəgiñ öñinə gətürdilər. Baqdı gördi [10] ki, bir sultan
simüz sığın-keyikdir. Banıçiçək aydır: [11] “Mərə qızlar, bu
yigit nə yigitdir?” Qızlar aydır: “Vallah, sultanım, [12] bu yigit
yüzi niqablu yaxşı yigitdir. Bəg oğlı bəg [13] imiş”, – dedilər.
Banıçiçək aydır: “Hey, hey, dayələr, babam maña bən səni
D78 [1] yüzi niqablu Beyrəgə vermişəm”, – derdi; olmaya kim, bu
ola. [2] “Mərə, çağırıñ, xəbərləşəyim”, – dedi.
Çağırdılar, Beyrək gəldi. [3] Banıçiçək yaşmaqlandı, xəbər
sordı. Aydır: “Yigit, [4] gəlişiñ qandan?” Beyrək aydır: “İç
Oğuzdan!” “İç Oğuzda [5] kimüñ nəsisən?” – dedi. “Bayböra
bəg oğlı Bamsı [6] Beyrək dedikləri mənəm”, – dedi. Qız aydır:
“Ya nə məsləhətə [7] gəldiñ, yigit?” – dedi. Beyrək aydır:
“Baybican bəgüñ [8] bir qızı varmış, anı görməgə gəldim! –
dedi. Qız aydır: [9] “Ol öylə adam degildir kim, saña görinə! –
dedi. Amma mən [10] Banıçiçəgiñ dadısıyam. Gəl, imdi sənüñ-
lə ava çıqalım. [11] Əgər səniñ atuñ mənim atumı keçərsə, onuñ
atını dəxi [12] keçərsən. Həm sənüñlə ox atalım. Məni keçər-
səñ, anı dəxi [13] keçərsən və həm səniñlə gürəşəlim. Məni ba-
D79 sarsañ, anı dəxi [1] basırsan”, – dedi.
Beyrək aydır: “Xoş, imdi atlanıñ!” [2] İkisi atlandılar, mey-
dana çıqdılar. At dəpdilər. Beyrək [3] atı qızıñ atını keçdi. Ox
atdılar. Beyrək qızıñ [4] oqın yardı.
Qız aydır: “Mərə yigit, mənim atumı kimsə [5] keçdügi yoq.
Oxımı kimsə yardığı yoq. İmdi gəl, [6] sənüñlə gürəş tutalım!”
– dedi. Həman Beyrək atdan endi. [7] Qarvaşdılar. İki pəhləvan

olub, bir-birinə sarmaşdılar. [8] Beyrək götürər qızı yerə urmaq
istər, qız götürər [9] Beyrəgi yerə urmaq istər. Beyrək buñaldı.
Aydır: "Bu qıza [10] basılacaq olursam, Qalın Oğuz içində başu-
ma [11] qaxınc, yüzimə toxınc edərlər", – dedi. Qeyrətə gəldi. [12]
Qavradı, qızıñ bağdamasın aldı. Əmcəgindən tutdı. [13] Qız
D80 qucandı. Bu gəz Beyrək qızıñ incə belinə girdi; [1] bağdadı,
arxası üzərinə yerə urdı.

Qız aydır: "Yigit, [2] Baybicanıñ qızı Banıçiçək mə-
nəm!" – dedi. Beyrək üç [3] öpdi, bir dişlədi. "Dügün qanlu
olsun, xan qızı!" [4] deyü barmağından altun yüzügi çıqardı,
qızıñ parmağına [5] keçürdi. "Ortamızda bu, nişan olsun, xan
qızı!" – dedi.

[6] Qız aydır: "Çün böylə oldı, həman imdi ilərü durmaq [7]
gərək, bəg oğlı!" – dedi. Beyrək dəxi: "Nola, xanım, baş
üzərinə!" – [8] dedi.

Beyrək qızdan ayrılub, evlərinə gəldi. Ağ saqallu [9] babası
qarşu gəldi. Aydır: "Oğul, dan-dansux bu gün [10] Oğuzda nə
gördüñ?"

Aydır: "Nə görəyim, oğlı olan evə[11]rimiş, qızı olan
köçürmiş..." Babası aydır: "Oğul, ya səni [12] evərmaxmı
gərək?" "Bəli, bəs ağ saqallu əziz baba. Evərmax [13]
gərək!" – dedi.

D81 Babası aydır: "Oğuzda kimiñ qızın alı verərin?" – [1] dedi.
Beyrək aydır: "Baba, maña bir qız alı ver kim, mən yerimdən
durmadın [2] ol durgəc gərək! Mən qarağuc atıma binmədin ol
binmax gərək! Mən qırıma [3] varmadın ol maña baş gətürmək
gərək! Bunuñ kibi qız alı [4] ver, baba, maña" – dedi.

Babası Baybörə xan aydır: "Oğul, sən [5] qız diləməzsən,
kəndüñə bir hampa istərmişsən. Oğul, məgər sən [6] istədigiñ
qız Baybican bəg qızı Banıçiçək ola?!" – dedi. [7] Beyrək aydır:
"Bəli, pəs, əvət, ağ saqallu əziz baba, mənim dəxi [8] istədügüm
oldur", – dedi.

Babası aydır: "Ay oğul, Banıçiçəgiñ [9] bir dəli qardaşı var-
dır, adına Dəli Qarçar derlər; qız diləyəni [10] öldürər". Beyrək
aydır: "Ya pəs nedəlim?" Baybörə bəg aydır: [11] "Oğul, Qalın
Oğuz bəglərini odamıza oxıyalım, necə məsləhət [12] görər-
lərsə, aña görə iş edəlim", – dedi.

Qalın Oğuz bəglərini [13] həb oxıdılar, odalarına gətürdilər.
D82 Ağır qonaqlıq eylədilər. [1] Qalın Oğuz bəgləri ayıtdılar: "Bu
qızı istəməgə kim vara [2] bilür?" Məsləhət gördilər ki, Dədə
Qorqut varsun. [3] Deyənlərə Dədə Qorqut aydır: "Yaranlar,
çünki məni göndərirsiz, [4] bilürsiz kim, Dəlü Qarçar qız
qardaşını diləyəni öldürər. [5] Bari Bayındır xanıñ tavlasından
iki şahbaz yügrək [6] at gətürüñ: bir Keçi başlu Keçər ayğırı, bir
Toğlı başlu [7] Turı ayğırı. Nagah qaçma-qoma olarsa, birisini [8]
binəm, birisini yedəm", – dedi.

Dədə Qorquduñ sözi məqbul [9] gəldi. Vardılar, Bayındır
xanıñ tavlasından ol iki [10] atı gətürdilər. Dədə Qorqut birin
bindi, birin yetdi. [11] "Yaranlar, sizi Haqqa ısmarladım!" –
dedi, getdi.

Məgər, sultanım, [12] Dəlü Qarçar dəxi ağ ban evini, ağ ota-
ğını qara yeriñ [13] üzərinə qurdurmış idi. Yoldaşlar ilə buta atub
D83 [1] oturardı. Dədəm Qorqut ötədən bəri gəldi. Baş [2] endirdi, ba-
ğır basdı. Ağız-dildən görkli salam verdi. [3] Dəlü Qarçar ağzın
köpükləndirdi. Dədə Qorquduñ yüzinə [4] baqdı. Aydar: "Əleyk-
əssalam! Ay əməl azmış, feli dönmüş, [5] Qadir Allah ağ alnına
qada yazmış! Ayaqlılar buraya gəldigi [6] yoq. Ağızlılar bu su-
yumdan içdigi yoq. Sañа noldı? Əməliñmi [7] azdı? Feliñmi dön-
di? Əcəliñmi gəldi? Bu aralarda [8] neylərsən?" – dedi.

Dədə Qorqut aydır:

Qarşu yatan qara dağıñı [9] aşmağa gəlmişəm.
Aqındılı görklü suyuñı keçməgə gəlmişəm.
[10] Geñ ətəgüñə, dar qoltuğuña qısılmağa gəlmişəm.
Tañrınıñ buyuruğıyla, Peyğəmbəriñ qövliylə
Aydan arı, gündən görkli qız qardaşıñ [12] Banıçiçəgi
Bamsı Beyrəgə diləməgə gəlmişəm! – dedi.

Dədə Qorqut [13] böylə digəc Dəlü Qarçar aydır:
D84 Mərə, nə dedigim yetürüñ, Qara [1] ayğırı yarağla gətürüñ! –
dedi. Qara ayğırı yarağla gətürdilər. [2] Dəli Qarçarı bindirdilər.

Dədə Qorqud göstəgi üzdi; [3] durmadı, qaçdı. Dəli Qarçar
ardına düşdi. Toqlı [4] başlu Turı ayğır yoruldı. Dədə Qorqud
Keçi başlu [5] Keçər ayğıra sıçradı, bindi.

Dədəyi qova-qova Dəli Qarçar [6] on yelək yer aşurdı. Dədə Qorquduñ ardından [7] Dəli Qarçar irdi. Dədəniñ anısı anıtdı. Tañrıya sıqındı. [8] İsmi-əzəm oqıdı.

Dəli Qarçar qılıcın əlinə aldı. [9] Yuqarısından öykə ilə həmlə qıldı. Dəli bəg dilədi ki, [10] Dədəyi dəpərə çala. Dədə Qorqut ayıtdı: "Çalırsañ, [11] əlüñ qurısun!" – dedi.

Haq Taalanıñ əmriylə Dəli [12] Qarçarıñ əli yuqaruda asılu qaldı. Zira Dədə [13] Qorqut vilayət issi idi, diləgi qəbul oldı.

D85 Dəlü [1] Qarçar aydır: "Mədəd, aman, əlaman! Tañrınıñ birligInə yoqdır güman! [2] Sən mənim əlümi sağaldı gör, Tañrınıñ buyruğıyla, Peyğəmbəriñ [3] qövliylə qız qarındaşımı Beyrəgə verəyin!" – dedi.

Üç kərrə ağzından [4] iqrar eylədi. Günahına tövbə eylədi. Dədə Qorqut dua eylədi. [5] Dəliniñ əli Haq əmriylə sapasağ oldı. Döndi, aydır: [6] "Dədə, qız qarındaşımıñ yolına bən nə istərsəm, verərmisin?"

Dədə [7] aydır: "Verəlim!" Dedi, görəlim, nə istərsən? Dəlü Qarçar aydır: "Biñ [8] buğra gətürüñ kim, maya görməmiş ola. Biñ dəxi ayğır gətürüñ [9] kim, heç qısrağa aşmamış ola. Biñ dəxi qoyun görməmiş qoç [10] gətürüñ. Biñ də quyruqsız-qulaqsız köpək gətürüñ. Biñ dəxi [11] bürə gətürüñ maña", – dedi. Əgər bu dedigim nəsnələri gətürərsiñüz, [12] xoş, verdim. Amma gətürməyəcək olursañ, bu qatla öldürmədim, [13] ol vaqtın öldürərin!" – dedi.

D86 Dədə döndi, Baybörə bəgün [1] evlərinə gəldi. Baybörə bəg aydır:

"Dədə, oğlanmısan, qızmı[2]san?" Dədə: "Oğlanam!" – dedi. "Ya pəs necə qurtulduñ Dəli Qarçarıñ [3] əlindən?" – dedi. Dədə aydır: "Allahıñ inayəti, ərənləriñ himməti [4] oldı; qızı aldım", – dedi.

Beyrəgə və anasına və qız qardaşlarına [5] muştçı gəldi. Sevindilər, şad oldılar. Baybörə bəg [6] aydır: "Dəlü nə qədər mal istədi?" Dədə aydır: "Yarımasun-[7]yarçımasun, Dəlü Qarçar eylə mal istədi ki, heç bitməsün!" – [8] dedi. Baybörə bəg aydır: "Hələ nə dilədi?" Dədə aydır: [9] "Biñ ayğır diləyübdür kim, qısrağa aşmamış ola. Biñ dəxi [10] buğra dilədi kim, maya görməmiş ola. Biñ də qoç diləyübdür, [11] qoyuna girməmiş ola.

Biñ də quyruqsız-qulaqsuz köpək dilədi. [12] Biñ dəxi xaraca-
qaraca bürələr dilədi. Bu nəsnələri [13] gətürəcək olursañız, qız
D87 qarındaşımı verərəm. Gətürməyəcək [1] olursañ, gözümə gö-
rünməyəsən, yoxsa səni öldürərəm!" – dedi.

[2] Baybörə bəg aydır: "Dədə, mən üçini buluramsa, ikisini
[3] sən bulurmısan?" – dedi. Dədə Qorqud "Bəli, xanım, bula-
sıyam" – [4] dedi. Baybörə bəg ayıtdı: "İmdi, dədə, köpəklə bü-
rəyi [5] sən bul", – dedi. Dəxi kəndüsi tavla-tavla atlarına vardı.
Biñ [6] ayğır seçdi. Dəvələrinə vardı, biñ buğra-nər seçdi. Qo-
yunlarına [7] vardı, biñ qoç seçdi.

Dədə Qorqud dəxi biñ quyruqsız-[8]qulaqsız köpəklə biñ
dəxi bürə buldı. Alub bunları Dəlü [9] Qarçara getdi. Dəli
Qarçar eşitdi, qarşu gəldi. "Görəyim, dedigimi gətürdilərmi?"
– [10] dedi. Ayğırları göricək bəgəndi. Dəvələri gördigində bə-
gəndi. [11] Qoçları bəgəndi. Köpəkləri göricək qas-qas güldi,
aydır: [12] "Dədə, ya qanı mənim bürələrim?" Dədə Qorqud:
"Hey, oğul Qarçar, [13] adama uş bögələk kibi buñludar. Ol bir
D88 yavuz canvərdir. [1] Həb bir yerdə dərib dururam. Gəl gedəlim,
simüzin al, aruğın [2] qo", – dedi.

Aldı Dəli Qarçarı bir birəli yerə gətürdi. [3] Dəli Qarçarı
yalınçaq eylədi, ağıla qoydı. Birələr [4] Dəli Qarçara üşdilər.
Gördi bacarı bilməz, aydır: "Mədəd, [5] Dədə! Kərəm eylə, Allah
eşqinə! Qapuyı aç, çıqayın!" – dedi. [6] Dədə Qorqud: "Oğul,
Qarçar, nə qarğaşa edərsən? Götür, [7] bu ısmarladuğıñ nəsnədir.
Nolduñ, böylə buñaldıñ? Simüzin [8] al, aruğın qo!" – dedi.

Dəli Qarçar aydır: "Hay Dədə [9] Sultan, Tañrı bunuñ
simüzin də alsun, aruğın da [10] alsun! Haman bəni qapudan
tışarı eylə, mədəd!" – dedi. [11] Dədə qapuyı açdı. Dəlü Qarçar
çıqdı. Dədə gördi kim, [12] Dəlüniñ canına keçmiş başı qopusı
olmuş, gövdəsi birə[13]dən görünməz. Yüzi-gözi bəlürməz.
D89 Dədəniñ ayağına düşdi: [1] "Allah eşqinə, bəni qurtar!" –
dedi. Dədə Qorqut "Var, oğul, [2] kəndüñi suya ur!" – dedi. Dəlü
Qarçar səgirdərək vardı, [3] suya düşdi. Bürədir, suya aqdı, getdi.
Gəldi geyəsi[4]sin geydi, evinə getdi. Ağır dügün yarağın gördi.

Oğuz zamanında bir yigit [5] ki evlənsə, ox atardı. Oxı nə
yerdə düşsə, anda gərdək [6] dikərdi. Beyrək xan dəxi oxın atdı,
dibinə gərdəgin [7] dikdi. Adağlusından ərgənlik bir qırmızı

qaftan gəldi. [8] Beyrək geydi. Yoldaşlarına bu iş xoş gəlmədi.
Səxt [9] oldılar. Beyrək aydır: “Niyə səxt olduñuz?” – dedi.
Ayıtdılar: [10] “Necə səxt olmayalum? Sən qızıl qaftan geyər-
sən, biz ağ qaftan [11] geyəriz!” – dedilər. Beyrək aydır: “Bu
qədər nəsnədən ötri niyə [12] səxt olursız? Bu gün bən geydim,
yarın naibim geysün. Qırq [13] günə dəkin sıravardı geyəgüz.
D90 Andan soñra bir dərvişə [1] verəlim!” – dedi. Qırq yigid ilən ye-
yüb-içüb otururlardı.

[2] Yarımasun-yarçımasun, kafiriñ casusı bunları casusladı.
[3] Varıb Bayburd hasarı bəginə xəbər verdi. Aydır: “Nə oturar-
san, [4] sultanım, Baybican bəg ol saña verəcəgi qızı Beyrəgə [5]
verdi. Bu gecə gərdəgə girür”, – dedi.

Yarımasun-yarçımasun, [6] ol məlun yedi yüz kafirlə
yılğadı. Beyrək ap-alaca [7] gərdəgi içində yeyüb-içüb bixəbər
otururdı. Dün [8] uyxusında kafir otağa qoyuldı. Naibi qılıcın
sıyırdı, [9] əlinə aldı. “Mənim başım Beyrəgiñ başına qurban
olsun!” – [10] dedi. Naib paralandı, şəhid oldı.

Dərin olsa, [11] batırdır, qalabalıq qorxudır. At işlər, ər ögi-
nür. Yayan [12] əriñ umurı olmaz. Otuz doquz yigidlən Beyrək
dutsaq [13] getdi.

D91 Dañ ötdi, gün doğdı. Beyrəgiñ atası-[1]anası baqdı-gördi
kim, gərdək görünməz olmış. Ah etdilər, [2] ağılları başlarından
getdi. Gördilər kim, uçarda quzğun [3] qalmış, tazı dolaşmış
yurtda qalmış. Gərdək paralanmış, [4] naib şəhid olmış. Beyrə-
giñ babası qaba sarıq götürüb [5] yerə çaldı. Dartdı, yaqasın yırt-
dı. “Oğul! Oğul!” deyübən [6] bögürdi, zarlıq qıldı. Ağ bircəklü
anası buldır-buldır [7] ağladı, göziniñ yaşın dökdi, acı dırnaq ağ
yüzinə [8] aldı-çaldı. Al yañağın dartdı, qarğu kibi qara saçını [9]
yoldı. Ağlayıbanı-sıqlayıbanı evinə gəldi.

Baybörə [10] bəgiñ dünlügi altun ban evinə şivən girdi.
Qızı-gəlini qas-[11] qas gülməz oldı. Qızıl qına ağ əlinə yaqmaz
oldı. Yedi [12] qız qardaşı ağ çıqardılar, qara donlar geydilər.

“Vay, bəgim [13] qardaş! Muradına-məqsudına irməyən
D92 yalñuz qardaş!” – deyib [1] ağlaşdılar-bögürişdilər.

Beyrəgiñ yavuqlusına xəbər oldı. Banı[2]çiçək qaralar gey-
di, ağ qaftanını çıqardı. Güz alması kibi al [3] yanağını dartdı,
yırtdı. “Vay, al duvağım iyəsi! Vay, alnum-[4]başım umurı!

Vay, şah yigidim, vay, şahbaz yigidim! Doyınca [5] yüzinə baqmadığım, xanım yigit! Qanda getdiñ, bəni yañluz qoyub, canım [6] yigit?! Göz açuban gördigim, köñül ilə sevdigim, bir yasduqda baş [7] qoduğım! Yolunda öldügim! Qurban olduğım! Vay, Qazan bəgiñ inağı! [8] Vay, Qalın Oğuzuñ imrəncəsi Beyrək!" – deyüb zarı-zarı [9] ağladı. Bunı eşidüb Qıyan Selcük oğlı Dəlü Dondar [10] ağ çıqardıb, qara geydi. Beyrəgiñ yarü yoldaşları ağı [11] çıqarıb, qaralar geydilər. Qalın Oğuz bəgləri Beyrək içün əzim [12] yas tutdılar. Umud üzdilər.

Bunuñ üzərinə on altı yıl [13] keçdi. Beyrəgiñ ölüsin-dirisin
D93 bilmədilər. Bir gün qızıñ [1] qardaşı Dəli Qarçar Bayındır xanıñ
divanına gəldi. Dizin [2] çökdi, aydır: "Dövlətlü xanıñ ömri uzun
olsun! [3] Beyrək diri olsa, on altı yıldan bərü gəlürdi. Bir yigit [4]
olsa, dirisi xəbərin gətürsə, çırğab çuxa, altun-aqça [5] verərdim.
Ölüsi xəbərin gətürənə qız qardaşım verərdim", – dedi.

[6] Böylə digəc, yarımasun-yarçımasun, Yalançı oğlı Yırtacuq [7] aydır: "Sultanım, bən varayın, ölüsi-dirisi xəbərin gətürəyin!" – [8] dedi.

Məgər Beyrək buna bir kömlək bağışlamışdı; geyməz idi, [9] saqlardı. Vardı, könləgi qana-quna baturdı, Bayındır [10] xanıñ öñinə gətürüb bıraqdı.

Bayındır xan aydır: "Mərə, bu nə [11] kömləkdir?.." "Beyrəgi Qara Dərvənddə öldürmişlər, uş da nişanı, [12] sultanım!" – dedi.

Kömləgi göricək bəglər ökür-ökür ağlaşdılar, [13] zarlıqlara girdilər.

D94 Bayındır xan aydır: "Mərə, niyə ağlarsız? Biz bunı [1] tanı-
mazız. Adaqlusına apariñ, görsün. Ol yaxşı bilür. Zira [2] ol di-
kübdür, yenə ol tanır", – dedi.

Vardılar kömləgi Banı[3]çiçəgə ilətdilər. Gördi, tanıdı: "Oldur!" – dedi.

Dartdı, yaqa[4]sın yırtdı. Acı dırnaq ağ yüzinə aldı-çaldı. Güz alması [5] kibi al yañağını yırtdı:

Vay, göz açub gördigim!
Köñül verib [6] sevdigim!
Vay, al duvağum iyəsi!

Vay, alnum-başım umudı,
[7] xan Beyrək! – deyü ağladı.

Babasına-anasına xəbər oldı. Ap-[8]alaca ordusına şivən girdi. Ağ çıqardılar, qara geydilər. Qalın [9] Oğuz bəgləri Beyrəkdən umud üzdilər. Yalançı oğlı Yalancuq kiçi [10] dügünin eylədi. Ulu dügüninə vədə qodı.

Beyrəgiñ babası [11] Baybörə bəg dəxi bazirganları qağırdı, yanına gətürdi, [12] aydır: "Mərə, bazirganlar varıñ iqlim-iqlim arañ, Beyrəgiñ ölüsi-dirisi [13] xəbərin gətürib deñiz, ölümidir?"

D95 Bazirganlar yaraq gördilər. Gecə-[1]gündüz deməyüb yüridilər. Nagah Parasarıñ Bayburd hasarına [2] gəldilər.

Məgər ol gün kafirləriñ ağır günləriydi: hər biri yeməkdə-[3]içməkdəydi. Beyrəgi dəxi gətürüb, qopuz çaldırırlardı. Beyrək [4] yuca çardağdan baqdı, bazirganları gördi. Bunları gördigində [5] xəbərləşdi. Görəlim, xanım, nə xəbərləşdi.

Aydır:

Alañ-alçaq[6] hava yerdən gələn arğış!
Bəg babamıñ, qadın anamıñ sovqatı [7] arğış!
Ayağı uzun şahbaz ata binən arğış!
Ünüm añla, [8] sözüm diñlə, arğış!
Qalın Oğuz içində Ulaş oğlı Salur [9] Qazanı
sorar olsam, sağmı, arğış?
Qıyan Selcük oğlı [10] Dəlü Dondar
sorar olsam, sağmı, arğış?
Qaragünə oğlı Qarabudağı
sorar olsam, sağmı, arğış?
Ağ saqallu babamı, [11] ağ bürçəklü anamı
sorar olsam, sağmı, arğış?
Bənüm yedi qız qarındaşım
sorar olsam, sağmı, arğış?
Göz açuban [12] gördügim, köñüllə sevdigim
Baybican qızı Banıçiçək evdəmi, [13] arğış,
yoxsa gordamı, arğış?
Degil maña,
D96 Qara başım [1] qurban olsun, arğış, saña! – dedi.

Bazirganlar aydır:

Sağ[2]mısan-əsənmisən, canım Bamsı!
On altı yilin həsrəti, xanım Bamsı!
Qalın Oğuz içində
Qazan bəgi sorar olsañ, sağdır, Bamsı!
Qıyan Selcük oğlı Dəli Dondarı [3] sorarsañ,
sağdır, Bamsı!
Qaragünə oğlı Budağı sorar [4] olsañ,
sağdır, Bamsı!
Ol bəglər ağ çıqardı, qara geydi
[5] səniñçün, Bamsı!
Ağ saqallu atanı, ağ birçəklü anañı
sorar [6] olsañ, sağdır, Bamsı!
Ağ çıqarıb qara geydilər səniñçün, Bamsı!
[7] Yedi qız qardaşıñ yedi yol ayırdında
ağlar gördüm, Bamsı!
[8] Güz alması kibi al yañaqların
yırtar gördüm, Bamsı!
"Vardı, [9] gəlməz qardaş!" – deyü.
Zarılıq edər gördüm, Bamsı!
Göz açuban [10] gördigiñ,
Köñül verib sevdigiñ
Baybican qızı Banı[11]çiçək
Kiçik dügünin eylədi,
ulu dügüninə vədə qodı;
Yalançı [12] oğlı Yırtıcuğa varır gördüm,
xan Beyrək!
Parasaruñ [13] Bayburd hasarından uça görgil!
D97 Ap-alaca gərdəgüñə [1] gələ görgil!
Gəlməz olsañ, Baybican qızı Banıçiçəgi
[2] aldırdıñ, bəllü bilgil" – dedi.

Beyrək qalqdı, ağlayu-ağlayu [3] qırq yigidiñ yanına gəldi. Qaba sarıq götürdi, yerə çaldı. [4] Aydır: "Hey, mənim qırq yoldaşım! Bilürmisiz, nələr oldı? Yalançı [5] oğlı Yalancuq mənim ölüm xəbərin ilətmiş, dünlügi altun [6] ban evinə babamıñ şivən girmiş. Qaza bəñzər qızı-gəlini [7] ağ çıqarmış qara geymiş.

Göz açuban gördigim, köñül verüb [8] sevdigim Banıçiçək Ya-
lançı oğlı Yalancuğa varar olmış”.

[9] Böylə digəc, qırq yigidi qaba sarıqların götürdilər, yerə
çaldılar, [10] bögürü-bögürü ağlaşdılar, zarılıq qıldılar.

Məgər kafir bəginiñ [11] bir bikr qızı vardı. Hər gün Beyrəgi
görməgə gəlürdi. Ol [12] gün genə görməgə gəldi. Baqdı gördi,
Beyrək səxt olmış. [13] Qız aydır: “Neçün səxtsən, xanım yigit?
D98 Gəldigimcə səni şən [1] görərdim. Gülərdiñ, oynardıñ. Şimdi
nolduñ?” – dedi.

Beyrək [2] aydır: “Necə səxt olmayayım? On altı yıldır kim,
babañıñ tutsaqıyam. [3] Ataya-anaya, qavuma-qardaşa həsrə-
təm; və həm bir qara gözlü yavuqlum [4] vardı. Yalançı oğlı Ya-
lancuq derlər, bir kişi vardı; [5] varmış, yalan söyləmiş, bəni öldi
demiş; aña varar olmış”, – [6] dedi.

Böylə digəc, qız – Beyrəgi aşıqlamışdı – aydır: “Əgər səni
[7] hasardan aşağa orğanla salındıracaq olursam, babaña-[8]anaña
sağlıqla varacaq olursañ, bəni bunda gəlüb halallığa [9] alur-
mısan?” – dedi. Beyrək and içdi: “Qılıcıma doğranayın! Oxı-
ma [10] sancılayın! Yer kibi kərtiləyin, topraq kibi savrılayın!
Sağlıqla [11] varcaq olursam, Oğuza gəlüb, səni halallığa almaz
isəm!” – [12] dedi. Qız dəxi orğan gətürüb Beyrəgi hasardan
aşağı [13] salındırdı. Beyrək aşağa baqdı. Kəndözin yer yüzində
D99 [1] gördi. Allaha şükr eylədi. Yola düşdi. Gedərək kafiriñ [2] ilqı-
sına gəldi. “Bir at bularsam, tutayım binəyim!” – dedi. Baqdı
[3] gördi kəndüniñ dəñiz qulunı [4] Boz ayğır bunda otlanub durar.
[4] Boz ayğır dəxi Beyrəgi görüb tanıdı, iki ayağınıñ üzərinə [5]
durdı, kişnədi. Beyrək dəxi bunı ögmiş, görəlim, xanım, [6]
necə ögmiş.

Aydır:

Açuq-açuq meydana bəñzər səniñ alıncuğıñ,
[7] İki şəbçırağa bəñzər səniñ gözcigəziñ,
Əbrişimə bəñzər səniñ [8] yəlicigiñ,
İki qoşa qardaşa bəñzər səniñ qulacığıñ,
Əri [9] muradına yetürər səniñ arxacığıñ.
At deməzəm saña, qardaş deyərəm,
[10] qardaşımdan yeg!

Başıma iş gəldi, yoldaş derəm,
yoldaşımdan [11] yeg! – dedi.

At başını yuqarı tutdı, bir qulağın qaldırdı, [12] Beyrəgə qar-
şu gəldi. Beyrək at köksin qucaqladı. İki gözin [13] öpdi. Sıçradı,
D100 bindi. Hasarıñ qapusına gəldi. Otuz doquz [1] yoldaşın ısmarla-
dı, görəlim, xanım, necə ısmarladı.

Beyrək aydır:

[2] Mərə sası dinlü kafir!
Mənim ağzuma sögüb durarsan, duyamadım.
[3] Qara doñuz ətindən yaxnı yedirdiñ doyamadım.
Tañrı maña yol [4] verdi, gedər oldum,
mərə kafir!
Otuz doquz yigidim əmanəti, [5] mərə kafir!
Birin əksik bulsam yerinə on öldürəyim,
Onın əksik [6] bulsam, yerinə yüzin öldürəyim,
mərə kafir!
Otuz doquz yigidim [7] əmanəti, mərə kafir! –
dedi, dəxi aldı yürüyü verdi.

Qırq nəfər [8] kafirlər atlandılar, ardına düşdilər. Qova getdilər, yetmədilər. Döndilər.

[9] Beyrək Oğuza gəldi. Baqdı gördi bir ozan gedər, aydır:
“Mərə [10] ozan, nerəyə gedərsən?” Ozan aydır: “Bəg yigit,
dügünə gedərəm”. [11] Beyrək aydır: “Dügün kimüñ?” “Ya-
lançı oğlı Yalancuğuñ”, – dedi. [12] “Mərə, kimüñ nəsin alur?”
– dedi. Ozan aydır: “Xan Beyrəgiñ [13] adaxlusın alur”, – dedi.
D101 Beyrək aydır: “Mərə ozan, qopuzuñ maña [1] vergil, atumı
saña verəyim. Saqla gələm, bəhasın gətürəm, alam”, – dedi.
[2] Ozan aydır: “Avazım gödəlmədin, ünüm boğulmadın bir
atdır, əlümə [3] girdi, ilətəyim saqlayayım”, – dedi. Ozan qo-
puzı Beyrəgə verdi.

[4] Beyrək qopuzı aldı, babasınıñ ordusına yaqın gəldi. Baqdı [5] gördi bir qaç çobanlar yoluñ qıyısın almışlar, ağlarlar; həm [6] durmayıb, daş yığarlar. Beyrək aydır: “Mərə çobanlar, bir kişi yolda [7] daş bulsa, yabana atar. Siz bu yolda bu daşı neçün yığarsız?”

[8] Çobanlar aydır: “Mərə, sən səni bilürsən, bizim halımızdan xəbəriñ yoq”, – [9] dedilər. “Mərə, nə halıñuz vardır?” Çobanlar aydır: “Bəgümiziñ bir oğlı [10] vardı, on altı yıldır kim, ölüsi-dirisi xəbərin kimsə bilməz. [11] Yalançı oğlı Yalancuq derlər, ölüsi xəbərin gətürdi. Adaxlusın [12] aña verər oldılar. Gəlür bundan keçər. Uralım anı, aña varmasun, [13] təkinə-tuşına
D102 varsun”, – dedilər. Beyrək aydır: “Mərə, yüzüñüz ağ [1] olsun! Ağañuzuñ ətməgi sizə halal olsun!” – dedi. [2] Andan babasınıñ ordusına gəldi. Məgər evləri öñində [3] bir böyük ağac vardı. Dibində bir yaxşı biñar vardı. [4] Beyrək baqdı gördi kim, kiçi qız qarındaşı biñardan su almağa [5] gəlür, “qardaş Beyrək! deyü ağlar-bozlar. “Toyuñ-dügünüñ qara [6] oldı” deyü ağlar.

Beyrəgə qatı fəraq gəldi, qatlanmadı, buldır-[7]buldır gözünüñ yaşı rəvan oldı. Çağırubanı burada [8] soylar, görəlim, xanım, nə soylar:

Beyrək aydır:

Mərə qız, [9] nə ağlarsan, nə bozlarsan, “ağa” deyü?!
Yandı bağrım, göynədi içim.
[10] Məgər səniñ ağañ yoq olubdur?
Yürəgiñə qaynar yağlar [11] qoyulubdur?
Qara bağrıñ sarsılubdur?
“Ağa” deyü nə ağlarsın, [12] nə bozlarsan?
Yandı bağrım, göynədi içim.
Qarşu yatan [13] qara tağı sorar olsam,
yaylaq kimüñ?
D103 Sovuq suların sorar [1] olsam,
içət kimüñ?
Tavla-tavla şahbaz atları sorar [2] olsam,
binət kimüñ?
Qatar-qatar dəvələrini sorar olsam,
[3] yüklət kimüñ?
Ağ ayılda ağca qoyun sorar olsam,
şülən kimüñ?
[4] Qaralu-göglü otağı sorar olsam,
kölgə kimüñ?
Ağız-dildən, [5] qız kişi, xəbər maña!
Qara başım qurban olsun bu gün saña! – dedi.

[6] Qız aydır:

Çalma, ozan, ayıtma, ozan!
Qaraluca mən qızıñ [7] nəsinə gərək, ozan?!
Qarşu yatan qara dağı sorar olsañ,
Ağam [8] Beyrəgiñ yaylasıydı;
Ağam Beyrək gedəli yaylarım yoq.
[9] Sovuq-sovuq suları sorar olsañ,
Ağam Beyrəgiñ içədiydi;
[10] Ağam Beyrək gedəli içərim yoq.
Tavla-tavla şahbaz atlarını [11] sorar olsañ,
Ağam Beyrəgiñ binədiydi;
Ağam Beyrək gedəli [12] binərim yoq.
Qatar-qatar dəvələri sorar olsañ,
Ağam [13] Beyrəgiñ yüklədiydi;
Ağam Beyrək gedəli yüklədim yoq.
D104 [1] Ağ ayılda ağca qoyunı sorar olsañ,
Ağam Beyrəgiñ şüləniydi;
[2] Ağam Beyrək gedəli şülənim yoq.
Qaralu-göglü otağı sorar [3] olsañ,
Ağam Beyrəgiñdir;
Ağam Beyrək gedəli köçərim yoq.

[4] Yenə qız aydır:

Mərə ozan! Qarşu yatan qara dağdan
Aşub [5] gəldigiñdə-keçdigiñdə
Beyrək adlu bir yigidə bulışmadıñmı?
Daşqun-[6]daşqun suları
Aşub gəldigiñdə-keçdigiñdə
Beyrək [7] adlu bir yigidə bulışdıñmı?
Ağır-adlu şəhərlərdən gəldügiñdə
[8] Beyrək adlu bir yigidə bulışmadıñmı?
Mərə ozan, gördüñsə, [9] degil maña!
Qara başım qurban olsun, ozan, saña! – dedi.

Qız [10] genə aydır:

Qarşu yatan qara dağım yıqılubdur,
Ozan, səniñ [11] xəbəriñ yoq.

Kölgəlicə qaba ağacım kəsilübdür,
Ozan, [12] səniñ xəbəriñ yoq.
Dünyəlikdə bir qardaşım alınubdur,
Ozan, [13] səniñ xəbəriñ yoq.
Çalma, ozan, ayıtma, ozan,
D105 Qaraluca [1] mən qızıñ nəsinə gərək, ozan?
İləyündə dügün var,
Dügünə [2] varub ötgil! – dedi.

Beyrək bundan keçdi. Ulu qız [3] qarındaşları yanına gəldi. Baqdı gördi qız qardaşları [4] qaralu-göglü oturarlar. Çağırıb Beyrək soylar, görəlim, xanım, [5] nə soylar. Aydır:

Alan sabah yerindən duran qızlar!
Ağ otağı [6] qoyuban qara otağa girən qızlar!
Ağ çıqarıb qara geyən qızlar!
[7] Bağır kibi ögnəndə yoğurtdan nə var?
Qara saqac altında göməc[8]dən nə var?
Kəndirikdə ətməkdən nə var?
Üç gündür, yoldan [9] gəldim, doyuruñ məni
Üç günə varmasun, Allah sevindirsün [10] sizi! – dedi.

Qızlar vardılar, yemək gətürdilər. Beyrəgiñ [11] qarnın doyurdılar. Beyrək aydır: “Ağañızıñ başı və gözi [12] sədəqəsi, köhnə qaftanıñuz var isə, geyəyin, dügünə varayın. [13] Dügündə əlümə qaftan verür, gerü qaftanıñuz verəyim”, – dedi.

D106 [1] Vardılar, Beyrəgiñ qaftanı varmış, buña verdilər. Aldı, [2] geydi. Boyı boyına, beli belinə, qolı qolına yaqışdı. [3] Ulu qız qardaşı bunı Beyrəgə bəñzətdi. Qara qıyma gözləri [4] qan-yaş doldı. Soylamış, görəlim, xanım, nə soylamış:

[5] Qara qıyma gözləriñ çöngəlməsəydi,
“Ağam Beyrək” deyəydim, [6] ozan, saña!
Yüziñi qara saç örtməsəydi,
“Ağam [7] Beyrək” deyəydim, ozan, saña!
Qunt-qunt biləkləriñ sol[8]masaydı,
“Ağam Beyrək” deyəydim, ozan, saña!
Apul-apul [9] yürüşüñdən,

Aslan kibi duruşuñdan,
Qañrıluban [10] baqışıñdan,
Ağam Beyrəgə bəñzədürəm, ozan, səni!
Sevindirdiñ, [11] yerindirmə, ozan, məni! – dedi.

Qız bir dəxi soylamış, [12] aydır:

Çalma ozan, bir zaman ayıtma, ozan!
Ağam Beyrək gedəli bizə [13] ozan gəldügi yoq,
Əgnimüzdən qaftanımuz alduğı yoq,
D107 [1] Başımızdan gecəligümiz alduğı yoq,
Buynuzı burma qoçlarımız [2] alduğı yoq, – dedi.

Beyrək aydır: "Gördüñmi, qızlar bu qaftanla [3] məni
tanıdılar. Qalın Oğuz bəgləri dəxi tanırlar", – dedi. [4] "Görəyim,
Oğuzda mənim dostum, düşmənim kimdir?" – dedi. Qaftanı [5]
sıyırdı, götürdi, qızlarıñ üstinə atı verdi: "Nə siz oluñ, [6] nə
Beyrək qalsun! Bir əski qaftan verdiñüz bənim başım-beynim
[7] aldıñuz", – deyüb vardı. Bir əski dəvə çuvalı buldı, [8] dəldi,
boynına keçürdi. Kəndüyi dəlüligə bıraqdı, [9] sürdi dügünə gəl-
di. Gördi dügündə göygü [10] ox atar. Qaragünə oğlı Budaq, Qa-
zan bəg oğlı Uruz, [11] Bəglər başı Yegnək, Qəflət qoca oğlı Şir
Şəmsəddin, [12] qızıñ qardaşı Dəli Qarcar bilə ox atarlardı.[13] Qa-
D108 çan kim Budağ atsa, Beyrək "Əlüñ var olsun!" dedi. [1] Uruz
atsa, "Əlüñ var olsun!" derdi. Yegnək atsa, [2] "Əlüñ var olsun!"
derdi. Şir Şəmsəddin atsa, "Əlüñ [3] var olsun!" derdi. Göygü at-
sa, "Əlüñ qurısun, [4] parmaqlarıñ çürisün, hey, doñuz oğlı do-
ñuz, – derdi, – [5] göygülərə qurban ol!" – derdi.

Yalançı oğlı Yalancuğıñ [6] acığı tutdı, aydır: "Mərə, qavat oğlı dəli qavat, saña [7] düşərmi maña bunuñ kibi söz söyləmək? Gəl, mərə qavat, [8] mənim yayımı çək, yoxsa şimdi boynuñ ururam!" – dedi.

[9] Böylə digəc Beyrək yayı aldı, çəkdi. Qəbzəsindən [10] yay iki para oldı. Götüri öñinə bıraqdı: "Daz [11] yerdə turğay atmağa yaxşı!" – dedi.

Yalançı oğlı [12] Yalancıq yay ufanduğına qatı qaqıdı. Aydır:
"Mərə, [13] Beyrəgiñ yayı vardır, gətürüñ!" – dedi. Vardılar,
D109 gətürdilər. [1] Beyrək yayı gördigində yoldaşların andı, ağladı.

Aydır:

[2] Tol-tolara girdigim,
Tolar əri, doxarlıyı qodığım.
Yağı [3] yordı əlümdə qıl kişlim,
ayğır malı.
Ayğır verüb alduğım,
ağ [4] tozlu qatı yayım.
Buğa verüb alduğum boğma kirişim.
Buñlu [5] yerdə qodım-gəldim
Otuz doquz yoldaşım, iki arğışım! – [6] dedi.

Andan Beyrək aydır: “Bəglər, sizüñ eşqiñizə çəkəyim [7] yayı, atayım oxı” – dedi. Məgər göyginiñ yüzigine nişan [8] atarlardı. Beyrək oqla yüzügi urdı, paraladı. [9] Oğuz bəgləri bunı göricək əl ələ çaldılar, gülüşdilər.

[10] Qazan bəg baqub tamaşa edərdi. Adam göndərdi, Beyrəgi [11] qağırdı.

Dəlü ozan gəldi; baş endirdi, bağır basdı, [12] salam verdi. Beyrək aydır:

Alar sabah sapa yerdə dikiləndə [13] ağ-ban evli,
Atlasla yapılanda gög sayvanlu,
D110 Tavla-[1]tavla çəkiləndə şahbaz atlu,
Çağıruban dad verəndə yol [2] çavuşlu,
Yayqanduğında yağ dökülən bol nemətlü!
Qalmış [3] yigit arxası! Bizə miskin umudı!
Bayındır xanıñ [4] göygüsi!
Tülü quşuñ yavrısı!
Türkistanıñ dirəgi!
[5] Amit soyınıñ aslanı, Qaraçuğuñ qaplanı!
Qoñur atıñ [6] ayası,
Xan Uruzuñ babası,
Xanım Qazan, ünüm añla, [7] sözüm diñlə:
Alan sabah durmışsan, ağ ormana [8] girmişsən.
Ağ qovağıñ budağından yırğayuban keçmişsən.
[9] Can bacuğın əgmişsən,
Oq cığırın qurmışsan,
[10] Adın gərdək qomışsan.

Sağda oturan sağ [11] bəglər!
Sol qolda oturan sol bəglər!
Eşikdəki inaqlar!
[12] Dibdə oturan xas bəglər!
Qutlu olsun dövlətiñüz! – [13] dedi.

D111 Böylə digəc Qazan bəg aydır: “Mərə dəlü ozan! [1] Məndən nə dilərsən? Çətirli otaqmı dilərsən? Qul-qaravaşmı dilərsən? [2] Altun-aqçamı dilərsən, verəyim!” – dedi. Beyrək aydır: “Sultanım, [3] məni qosañ da şülən yeməgiñ yanına varsam. Qarnım acdur, [4] doyursañ”, – dedi.

Qazan aydır: “Dəlü ozan, dövlətiñ dəpdi. [5] Bəglər, bugünki bəgligim bunuñ olsun. Qoñ nerəyə gedərsə-[6]getsün, neylərsə eyləsün”, – dedi.

Beyrək şülən yeməginiñ [7] üzərinə gəldi. Qarnın doyurduqdan soñra qazanları dəpdi-[8]dökdi, çevirdi. Yaxnınıñ kimini sağına, kimini solına [9] atar. Sağdan gedəni sağ alur, soldan gedəni sol [10] alur. Haqluya haqqı dəgə, haqsuza yüzi qaraluğı dəgə.

Qazan [11] bəgə xəbər oldı: “Sultanım, dəlü ozan həp yeməgi dökdi, – [12] dedilər, – şimdi qızlar yanına varmaq istər”. Qazan aydır: “Mərə [13] qon-a, qızlar yanına da varsun!” – dedi.
D112 Beyrək qalqdı, [1] qızlar yanına vardı. Surnaçıları qovdı, naqaraçuları [2] qovdı. Kimini dögdi, kiminiñ başın yardı. Qızlar oturan [3] otağa gəldi; eşigin aldı, oturdı.

Bunı gördi [4] Qazan bəgiñ xatunı Boyı uzun Burla qaqıdı, aydır: [5] “Mərə, qavat oğlı dəlü qavat, saña düşərmi bitəkəllüf [6] bənim üzərimə gələsən?” – dedi. Beyrək aydır: “Xanım, Qazan bəgdən [7] maña buyruq oldı. Maña kimsə dolaşmaz”, – dedi. Burla xatun [8] aydır: “Çünkim Qazan bəgdən buyruq olubdur, qoñ [9], otursun!” – dedi. Yenə döndi, Beyrəgə aydır: “Mərə dəlü ozan, [10] ya məqsuduñ nədir?” Aydır: “Xanım, məqsudım oldur ki, ərə varan [11] qız qalqa oynaya, mən qopuz çalam”, – dedi. Qısırca yengə [12] derlər, bir xatun vardı, aña ayıtdılar: “Mərə Qısırca yengə, [13] dur sən oyna, nə bilür dəli
D113 ozan”, – dedilər. Qısırca yengə [1] durdı, aydır: “Mərə dəli ozan, ərə varan qız mənəm!” – dedi. [2] Oynamağa başladı. Beyrək qopuz çaldı, soyladı, görəlim, [3] xanım, nə soyladı.

Aydır:

And içmişəm qısır qısrağa bindigim [4] yoq.
Binübəni qazavata varduğım yoq.
Eviñiz ardında sarvanlar
Saña [5] baqar onlar,
Buldır-buldır gözləriniñ yaşı aqar.
Sən anlaruñ [6] yanına varğıl,
Muradıñı anlar verər, bəllü bilgil!
Səniñlə mənim [7] işim yoq!
Ərə varan qız qalqa,
Qol saluban oynaya,
[8] Mən qopuz çalam, – dedi.

Qısırca yengə: “Buy, bu zavala gələcək [9] dəlü bəni görmiş kibi söylər”, – dedi. Vardı, yerində oturdı.

[10] Boğazca Fatma derlər, bir xatun vardı. “Qalq, sən [11] oyna!” – dedilər. “Hey, şu dəli məğmun mənə də şayəd ancılayın olmaz sözlər söylər”, – dedi. Qızıñ qaftanını geydi: “Çal, mərə, dəlü ozan! [12] Ərə varan qız mənəm, oynayayım”, – dedi. Dəlü ozan aydır:

[13] And içəyim bu gəz boğaz qısrağa bindigim yoq
D114 Binübəni qazavata varduğım [1] yoq.
Eviñiz ardı dərəcik degilmiydi?
İtüñiz adı Bıraq [2] degilmiydi?
Səniñ adıñ Qırq oynaşlu Boğazca Fatma [3] degilmiydi?
Dəxi eybiñ açaram, bəllü bilgil! – dedi.
Səniñlə [4] mənim oyunum yoq.
Var yerinə oturğıl!
Ərə varan yerindən dura,
[5] bən qopuz çalam,
qol saluban oynaya, – dedi.

Böylə digəc [6] Boğazca Fatma aydır: “Buy, dəli boğma çıqaracaq olanca [7] eybimizi qaqdı. Dur, qız, oynarsañ-oynamazsañ, cəhənnəmdə [8] oyna! Beyrəkdən soñra başıña bu hal gələcəgin bilürdüñ”, – [9] dedi.

Burla xatun aydır: “Qız, qalq oyna, əlündən nə [10] gəlür?” – dedi. Banıçiçək qırmızı qaftanın geydi. Əllərin [11] yeninə çəkdi gözükməsün deyü; oyuna girdi, ayıtdı: “Mərə [12] Dəlü ozan, çal, di!” Dəlü ozan çaldı aydır:

Mən bu yerdən gedəli dəlü olmış[13]san*,
Dəlim ağca qarlar yağmış, dizə yetmiş.
D115 Xan qızınıñ evində [1] qul-xəlaiq dükənmiş...
Məşrəbə almış, suya varmış –
Biləgindən [2] on parmağını sovuq almış.
Qızıl altun gətirüñ,
Xan qızına [3] dırnaq yonuñ.
Eyiblücə, xan qızı, ərə varmaq eyib olar, – dedi.

[4] Bunı eşidcək Banıçiçək qaqıdı: “Mərə dəlü ozan, mən eyib[5]lümiyəm kim, maña eyib qoşarsan?” – dedi. Gümüş kibi ağ biləgin açdı, [6] əlin çıqardı. Beyrəgiñ keçürdügi yüzük görindi. Beyrək [7] yüzügi tanıdı. Burada soylamış, görəlim, xanım, nə soylamış, [8] aydır:

Beyrək gedəli Bam-bam dəpə başına çıqdıñmı, qız?!
Qarılatıb [9] dört yanıña baqdıñmı, qız?!
Qarğu kibi qara saçıñ yoldıñmı, qız?!
[10] Qara gözdən acı yaş dökdüñmi, qız?!
Güz alması kibi al [11] yanağıñ yırtdıñmı, qız?!
Sən ərə vararsan, altun yüzük mənim[12]dir**,
ver maña, qız! – dedi.

Qız aydır:

Beyrək gedəli Bam-bam dəpə [13] başına çıqdığım çoq,
Qarğu kibi qara saçum yolduğum çoq.
D116 [1] Güz alması kibi al yañağım yırtdığım çoq.
Gələnlə gedəndən [2] sorduğum çoq.
“Vardı, gəlməz bəg yigidim,
xan yigidim [3] Beyrək” – deyü ağladığım çoq.
Sevişdigim Bamsı Beyrək sən [4] degilsən,

---

* Olmışsan.

** Mənimdir.

Altun yüzük səniñ degildir.
Altun yüzükdə [5] çoq nişan vardır.
Altun yüzügi istərsəñ, nişanın [6] söylə! – dedi.

Beyrək aydır:

Alan sabah, xan qızı, yerimdən [7] durmadımmı?
Boz ayğırıñ belinə binmədimmi?
Səniñ evüñ üzərinə [8] sığın-keyik yıqmadımmı?
Sən məni yanıña qağırmadıñmı?
Sənüñlə [9] meydanda at çapmadıqmı?
Səniñ atuñı mənim atım keçmədimi?
Ox [10] atanda mən səniñ oxuñı yarmadımmı?
Gürəşdə mən səni [11] basmadımmı?
Üç öpüb bir dişləyüb, altun yüzügi [12]
barmağıña keçürmədimmi?
Sevişdigiñ Bamsı Beyrək mən degilmiyəm? – [13] dedi.

Böylə digəc qız tanıdı-bildi kim, Beyrəkdir. Cübbəsiylə-
D117 [1]çuxasıyla Beyrəgiñ ayağına düşdi. Beyrəgə dayələr qaftan [2]
geyürüb donatdılar. Haman qız sıçradı, ata bindi. Beyrəgiñ [3]
atasına-anasına muştuluğa çapar getdi.

Qız aydır:

[4] Arğab-arğab qara dağıñ yıxılmışdı, yucaldı, axır!
[5] Qanlu-qanlu sularıñ sovğulmışdı, çağladı, axır!
Qaba ağacıñ [6] qurımışdı, yaşardı, axır!
Şahbaz atıñ qarımışdı, [7] qulun verdi, axır!
Qızıl dəvələriñ qarımışdı, köşək [8] verdi, axır!
Ağ qoyunuñ qarımışdı, quzı verdi, axır!
[9] On altı yıllıq həsrətiñ-oğuluñ Beyrək gəldi, axır!

Qayın [10] ata, qayın ana, muştuluq maña nə verərsiz? – dedi. Beyrəgiñ atası-[11]anası aydır:

Dilüñ içün öləyin, gəlincigüm!
Yoluña qurban [12] olayın, gəlincigüm!
Yalansa bu sözləriñ, gerçək ola, gəlincigüm!
[13] Sağ-əsən çıqub gəlsə,

D118 Qarşu yatan qara dağlar saña [1] yaylaq olsun!
Sovuq-sovuq suları saña içət olsun!
[2] Qulum-xəlayığım saña qırnaq olsun!
Şahbaz atlarım saña [3] binət olsun!
Qatar-qatar dəvələrim saña yüklət olsun!
[4] Ağayılda ağca qoyunum saña şülən olsun!
Altun-aqçam [5] saña xərclıq olsun!
Dünlügi altun ban evim saña [6] kölgə olsun!
Qara başım qurban olsun saña, gəlincigüm! – [7] dedi.

Bu məhəldə bəglər Beyrəgi gətürdilər. Qazan bəg aydır: [8]
“Muştuluq, Baybörə bəg! Oğluñ gəldi!” – dedi. Bay[9]börə bəg
aydır: “Oğlum idigin andan biləyim, sırça parmağını [10] qanat-
sun, qanını dəstmala dürtsün, gözümə sürəyin, [11] açılacaq
olursa, oğlum Beyrəkdir!” – dedi. Zira ağlamaqdan [12] gözləri
görməz olmış idi. Dəstmalı gözinə silcək [13] Allah Taalanıñ
D119 qüdrətiylə gözi açıldı. Atası-anası [1] güldilər. Beyrəgiñ aya-
ğına düşdilər. Aydır:

Oğul! Dünlügi [2] altun ban evimiñ qəbzəsi oğul!
Qaza bəñzər qızumuñ-[3]gəlinimiñ çiçəgi oğul!
Görər gözüm aydını oğul!
Tutar belüm [4] qüvvəti oğul!
Qalın Oğuz imrəncəsi, canım oğul!” -deyübən
çoq [5] ağladı,
Allahına şükrlər eylədi.

Yalançı oğlı Yalancuq [6] bunı eşitdi. Beyrəgiñ qorqusından
qaçdı, özini [7] Dana sazına saldı. Beyrək ardına düşdi, qova-
qova saza [8] düşürdi. Beyrək aydır: “Mərə, od gətürüñ!” Gə-
türdilər. Sazı [9] oda urdılar.

Yalançıq gördi kim, yanar, sazdan çıqdı. [10] Beyrəgiñ ayağına
düşdi. Qılıcı altından keçdi. Beyrək [11] dəxi suçından keçdi.
Qazan bəg aydır: “Gəl muradıña yetiş!” [12] Beyrək aydır: “Yoldaş-
larımı çıqarmayınca, hasarı almayınca [13] murada irməzəm!” –
D120 dedi. Qazan bəg Oğuzuna: “Bəni sevən yetsün!” – [1] dedi.

Qalın Oğuz bəgləri atlandılar. Bayburd hasarına [2] çapar
yetdilər. Kafirlər dəxi bunları qarşuladılar.

Qalın [3] Oğuz bəgləri arı sudan abdəst aldılar. Ağ alınların [4] yerə qodılar. İki rükət namaz qıldılar. Adı görklü Məhəmmədi [5] yad gətürdilər. Gumbur-gumbur naqaralar dögüldi. Bir qiyamət [6] savaş oldı, meydan dolu baş oldı.

Şökli Məliki [7] bögürdübəni Qazan bəg atdan yerə saldı. Qara Təküri Dəli [8] Dondar qılıcladı, yerə saldı. Qara Arslan Məliki [9] Qarabudaq yerə saldı. Dərələrdə kafirə qırğun girdi. [10] Yedi kafir bəgi qılıcdan keçdi.

Beyrək, Yegnək, Qazan bəg, [11] Qarabudaq, Dəli Dondar,
Qazan oğlı Uruz bəg – bunlar [12] hasara yürüş etdilər. Beyrək
otuz doquz yigidiniñ üzərinə gəldi. Anları sağ və əsən gördi.
D121 Allaha [1] şükr eylədi. Kafiriñ kəlisasın yıqdılar, yerinə məscid
yapdılar. [2] Keşişlərdən öldürdilər. Bañ bañlatdılar. Əziz Tañrı
adına qudbə [3] oqıtdılar. Quşuñ ala qatını, qumaşıñ arusını, qızıñ gögçəgini, [4] doquzlama çırğab çuxa xanlar xanı Bayındıra pəncik [5] çıqardılar.

Baybörə bəgiñ oğlancuğı Beyrək Baybican bəgiñ [6] qızın aldı. Ağ-ban evinə, ağ otağına gerü döndi. Dügünə [7] başladı. Bu qırq yigidiñ bir qaçına xan Qazan, bir qaçına [8] Bayındır xan qızlar verdilər. Beyrək dəxi yedi qız qarındaşını [9] yedi yigidə verdi. Qırq yerdə otaq dikdi. Otuz doquz [10] qız “talelü” “tale”inə birər ox atdı. Otuz doquz yigit oxınıñ [11] ardınca getdi. Qırq gün-qırq gecə toy-dügün eylədilər. Beyrək [12] yigitləriylə murad verdi, murad aldı.

D122 Dədəm Qorqud gəldi, şadlıq [13] çaldı. Boy boyladı, soy
soyladı. Qazı ərənlər [1] başına nə gəldügin söylədi. “Bu Oğuz-
namə Beyrəgiñ olsun!” – [2] dedi. Yum verəyin, xanım:

Yerlü qara dağlarıñ yıqılmasun!
Kölgəlicə [3] qaba ağacıñ kəsilməsün!
Ağ saqallu babañ yeri uçmaq olsun!
[4] Ağ birçəklü anañ yeri behişt olsun!
Oğulla qarındaşdan [5] ayırmasun!
Axır vaqtında arı imandan ayırmasun!
“Amin! Amin!” [6] deyənlər didar görsün!
Yığışdırsun, durışdırsun [7] günahıñızı
Adı görklü Məhəmməd Mustafa yüzi suyına
bağışlasun, xanım, hey!..

## [8] QAZAN BƏG OĞLI URUZ BƏGİÑ TUTSAQ OLDIĞI BOYI [9] BƏYAN EDƏR, XANIM, HEY!

Bir gün Ulaş oğlı Qazan bəg [10] yerindən durmışdı. Qara
yeriñ üzərinə otaxların tikdirmişdi. [11] Biñ yerdə ipək xalıcası
döşətmişdi. Ala sayvan gög [12] yüzinə aşanmışdı. Doqsan tü-
mən gənc oğuz söhbətinə dərilmişdi. [13] Ağzı böyük xümrələr
D123 ortalığa salınmışdı. Doquz yerdə badyalar [1] qurılmışdı. Altun
ayaq, surahilər dizilmişdi. Doquz [2] qara gözli, örmə saçlı, əl-
ləri biləgindən qınalı, parmaqları [3] nigarlı, boğazları birər qa-
rış kafir qızları al şərabı [4] altun ayağla Qalın Oğuz bəglərinə
gəzdirirlərdi. Hər birindən [5] Ulaş oğlı Salur Qazan içmüşdi.
Çırğab-çırğab [6] çadır, otaq bağışlardı. Qatar-qatar dəvələr ba-
ğışlardı. [7] Oğlı Uruz qarşusında yay söykənib durardı. [8] Sağ
yanında qardaşı Qaragünə oturmışdı. Sol yanında [9] dayısı Aruz
oturmışdı.

Qazan sağına baqdı, qas-[10]qas güldi. Solına baqdı, çoq se-
vindi. Qarşusına [11] baqdı, oğlancığını – Uruzı gördi. Əlin əlinə
çaldı, [12] ağladı. Oğlı Uruza bu iş xoş gəlmədi; ilərü [13] gəldi,
D124 diz çökdi. Babasına çağırub soylar, görəlim, [1] xanım, nə soy-
lar. Aydır:

Ünüm añla mənim, sözüm diñlə, ağam [2] Qazan.
Sağıña baqdıñ, qas-qas güldüñ.
Soluna baqdıñ, [3] çoq sevindiñ.
Qarşuña baqdıñ, bəni gördüñ, ağladıñ.
Səbəb [4] nədir, degil maña,
Qara başım qurban olsun, babam, saña! – dedi.
[5] Diməz olursañ,
Qalqubanı yerimdən mən duraram.
Qara gözli [6] yigitlərimi boyuma aluram.
Qan Abqaz elinə mən gedərəm,
Altun [7] xaça mən əlümi basaram,
Pilon geyən keşişiñ əlin öpərəm,
[8] Qara gözlü kafir qızın mən aluram.
Dəxi səniñ yüzüñə mən [9] gəlməzəm.

Ağladuğuña səbəb nə, degil maña!
Qara başım qurban olsun, [10] ağam, saña! – dedi.

Qazan bəg alaldı. Oğlanıñ yüzinə [11] baqdı. Çağırıb soylar, görəlim, xanım, nə soylar.

Qazan aydır:

[12]Bərü gəlgil, qulunum oğul!
Sağım ələ baqduğumda
qardaşım Qara[13]günəyi gördüm, –
Baş kəsübdür, qan dökübdür,
D125 Çöndi alubdur, [1] ad qazanubdur.
Solum ələ baqduğumda
dayım Aruzı gördüm, –
[2] Baş kəsübdür, qan döküpdür,
Çöldi alubdur, ad qazanıbdır.
[3] Qarşum ələ baqduğumda səni gördüm,
On altı yaş yaşladıñ.
[4] Bir gün ola, düşəm öləm, sən qalasan –
Yay çəkmədüñ, ox [5] atmadıñ,
Baş kəsmədiñ, qan dökmədiñ,
Qanlu Oğuz içində [6] çöldi almadıñ.

Yarınkı gün zaman dönüb, bən ölüb sən [7] qalıcaq tacım-taxtım saña verməyələr, – deyü soñumı añdım, ağladım, [8] oğul! – dedi. Uruz burada soylamış, görəlim, xanım, nə soylamış; [9] aydır:

A bəg baba!
Dəvəcə böyümişsən, köşəkcə aqlıñ yoq!
[10] Dəpəcə böyümişsən, darıca beyniñ yoq!
Hünəri oğul [11] atadanmı görər, ögrənər,
yoxsa atalar oğuldanmı ögrənür?
[12] Qaçan sən məni alub
kafir sərhəddinə çıqardıñ,
qılıc çalub [13] baş kəsdiñ?
Mən səndən nə gördüm, nə ögrənim? – dedi.

D126 Qazan [1] bəg əlin əlinə çaldı, qas-qas güldi. Aydır: “A bəglər! [2] Uruz xub söylədi, şəkər yedi. Bəglər, siz yegüñüz-

içüñüz, [3] söhbətiñüz dağıtmañuz. Mən bu oğlanı alayın, ava gedəyin. [4] Yedi günlik azuğla çıqayın. Ox atduğum yerləri, qılıc [5] çalub baş kəsdügüm yerləri göstərəyim. Kafir sərhəddinə, [6] Cızığlara, Ağlağana, Gögcə dağa aluban çıqayın. Soñra [7] oğlana gərək olur, a bəglər!" – dedi.

Qoñur atın çəkdirdi, [8] butun bindi. Üç yüz mürəssə donlu yigit soyladı, [9] boyına aldı. Qırq ala gözlü yigidin Uruz boyına aldı. [10] Qazan oğlını alub qara dağlar üzərinə ava çıqdı. [11] Av avladı, quş quşladı. Sığın-keyik yıqdı. Gög [12] alañ görklü çəmənə çadır tikdi. Bir qaç gün bəglər ilə [13] yedi-içdi.

D127 Məgər Başı açuq Tatyan qalasından, [1] Aqsaqa qalasından kafiriñ casusı vardı. Bunları [2] görüb, təkürə gəldi. Aydır: "Hay, nə oturarsan, itüñi [3] ulatmayan, çətügiñi molatmayan! Alpanlar başı Qazan oğlancuq [4] ilə sərxoş olub yaturlar", – dedi.

On altı biñ qara donlu [5] kafir ata bindi. Qazanıñ üzərinə alğar yetdi. [6] Baqdılar gördilər altı bölük toz endi. Kimi aydır: "Keyik [7] tozıdır". Kimi aydır: "Yağı tozıdır". Qazan aydır: "Keyik olsa, [8] bir ya iki bölük olurdı. Bu gələn, bilmiş oluñ, yağıdır", – [9] dedi. Toz yarıldı, gün kibi şıladı, dəñiz kibi [10] yayqandı, meşə kibi qarardı. On altı biñ ip üz[11]əngili, keçə börkli, azğun dinli, quzğun dilli kafir [12] çıqa gəldi. Qazan Qoñur atın çəkdirdi, butun bindi. [13] Oğlı Uruz cilavısını çəkdirdi.
D128 Bədəvi atın [1] oynatdı, qarşu gəldi.

Aydır:

Bəri gəlgil, ağam Qazan!
Dəñiz [2] kibi qararub gələn nədir?
Od kibi şılayub, ıldız kibi parlayub
[3] gələn nədir?
Ağız-dildən beş kəlmə xəbər maña!
Qara başım qurban [4] olsun, babam, saña! – dedi.

Qazan aydır:

Bəri gəlgil, arslanım [5] oğul!
Qara dəñiz kibi yayqanıb gələn
kafiriñ ləşkəridir.
[6] Gün kibi şılayub gələn

Kafiriñ başında aşıqıdır.
Ildız [7] kibi parlayıb gələn
kafiriñ cidasıdır.
Azğun dinlü [8] yağı kafirdir, oğul, – dedi.

Oğlan aydır: "Yağı" deyü nəyə [9] derlər?" Qazan aydır: "Oğul, anuñçun yağı derlər ki, biz anlara [10] yetsəvüz, öldürəriz. Anlar bizə yetsə, öldürər" – dedi.

Uruz [11] aydır: "Baba, içində bəg yigitlər öldürsələr, qan
sorularmı, [12] dəvilərlərmi?" Qazan aydır: "Oğul, biñ kafir öl-
dürsəñ, [13] kimsə səndən qan dəviləməz. Amma azğun dinlü
D129 kafirdir, [1] xub yerdə tuş oldı. Vəli maña sən yaman yerdə du-
şaq [2] olduñ, oğul! – dedi. Uruz burada soylamış, görəlim, [5] xa-
nım, nə soylamış.

Uruz aydır:

Bərü gəlgil, ağam Qazan!
Qalqubanı [4] yerimdən
Bədəvi atım saqlardım bu gün içün.
Güni gəldi, ağ [5] meydanda səgirdərin
səniñ içün.
Ala uran sür cidamı [6] saqlardım
bu gün içün.
Güni gəldi, qaba qarın, gen köksdə [7] oynadam
səniñ içün.
Qara polat uz qılıcım saqlardım
bu [8] gün içün.
Güni gəldi, sası dinlü kafir başın
kəsdirəyim [9] səniñçün.
Əgni bəg dəmür donum saqlardım bu gün içün.
[10] Güni gəldi, yeñ-yaqalar dikdürəyim səniñçün.
Başımda [11] qunt işıqlar saqlardım səniñçün.
Güni gəldi, qaba çomaq [12] altında yoğradım
səniñ içün.
Qırq yigidim saqlardım [13] bu gün içün.
Güni gəldi, kafir başın kəsdürəyim sənüñçün.
D130 [1] Aslan adım saqlardım səniñ içün.

Yaqa tutub kafirlə [2] uğraşayım səniñ içün.
Ağız-dildən bir qaç kəlmə xəbər maña!
[3] Qara başım qurban olsun, ağam, saña! – dedi.

Qazan burada soylamış, [4] görəlim, xanım, nə soylamış.

Qazan aydır:

Oğul, oğul, ay [5] oğul!
Mənim ünüm añla, sözüm diñlə!
Ol kafiriñ
üçin [6] atub birin yarmaz oqçısı olur.
"Hı!" demədin başlar [7] kəsən cəlladı olur.
Adam ətin yaxnı qılan aşbazı [8] olur.
Sən varası kafir degil.
Qalqubanı yerimdən mən [9] durayım.
Qoñur atıñ belinə mən binəyim,
Gələn kafir mənimdir, mən [10] varayım.
Qara polat uz qılıcım çalayın,
Azğun dinlü [11] kafirdir, başların kəsəyin.
Dönə-dönə savaşayın, [12] dönə-dönə çəkişəyin,
Qılıc çalub baş kəsdügüm görgil, [13] ögrəngil,
Qara başıña düşəndə gərəklüdür, – dedi.

D131 Uruz [1] burada soylamış, görəlim, xanım, nə soylamış. Aydır:

A bəg [2] baba, eşidürəm.
Amma Ərafatda erkək quzı qurban içün,
[3] Baba oğul qazanur ad içün.
Oğul da qılıc quşanur baba [4] ğeyrətiyçün.
Mənim də başım qurban olsun səniñçün, – dedi.

[5] Qazan burada soylamış, görəlim, xanım, nə soylamış. Qazan [6] aydır:

Oğul, oğul, ay oğul!
Yağıya girüb baş kəsmədiñ,
[7] Adam öldürüb qan dökmədiñ.
Ala gözlü qırq yigidi boyıña [8] alğıl,

Köksi gözəl qaba dağlar başına çıqğıl.
Mənim [9] savaşdığım mənim dögüşdügüm,
Mənim çəkişdügim, mənim qılıclaşdığım
[10] görgil, ögrəngil!
Və həm bizə pusu olğıl, oğul! – dedi.

Uruz [11] babasınıñ sözin sımadı, qayıdub gerü döndi. [12]
Yerdən yuca dağlar başına yoldaşların alub çıqdı. [13] Ol zaman-
D132 da oğul ata sözin iki eləməzdi. İki [1] eyləsə, ol oğlanı qəbul
eləməzlərdi. Uruz geñ [2] yaqadan sügüsin sancdı durdı.

Qazan bəg gördi [3] ki, kafir qatı yaqlandı. Atından endi, arı
sudan abdəst aldı. [4] Ağ alnın yerə qodı, iki rikət namaz qıldı.
Adı görklü [5] Məhəmmədi yad gətürdi. Qara dinlü kafirə göz
qarartdı. [6] Hayqırdı, at saldı. Qarşu vardı, qılıc urdı.

[7] Gumbur-gumbur tavıllar çalındı.
Burması altun tuc [8] borular çalındı.
Ol gün cilasun bəg ərənlər dönə-[9]dönə savaşdı.
Ol gün qara polat uz qılıclar çalındı.
[10] Ol gün qarğu dillü qaim oxlar atıldı.
Ala uran [11] sür cidalar süsəldi.
Ol gün namərdlər, muxannətlər [12] sapa yer gözətdi.
Ol gün baqa-baqa
Qazan oğlı Uruzuñ [13] eşqi gəldi.

D133 Aydır: "Bərü gəlüñ, qırq yoldaşım! Sizə qurban [1] olsun
mənim başım! Görərmisiz, ağam Qazan baş kəsdi, [2] qan dök-
di. "Oğlan-uşaq yimək yiməkcə gəlməz bana!" – dedi. [3] Ba-
bam bu kafirləri əsirgəmiş kibi; məni sevən yigitlərim, nə du-
rarsız, [4] kafiriñ bir ucına dəpəlim!" – dedi. Qaraqucın oynaddı,
Uruz [5] kafiriñ sağına at dəpdi. Sağlı-sollı kafiri xub [6] dağıtdı.
Sanasan kim, dar yolda dolu düşdi. Ya qara [7] qazıñ içinə şahin
girdi. Kafiriñ ucını basdı, [8] dağıtdı. Azğun dinlü kafir buñaldı,
oxa girdi. [9] Qovulan kimsə oğlanıñ bədəvi atın oxlatdılar. At
yıxıldı. [10] Kafirlər Uruzuñ üzərinə çovuxdı. Uruzuñ qırq [11]
yigidi atdan endi. Ələ qalqan baqını qısa dügdilər. [12] Qılıc sı-
yırdılar. Uruzuñ üzərinə çoq savaşdılar. [13] Qalaba qorxudar,
D134 dərin olsa, baturar. Yayanıñ umudı [1] olmaz. Sağın-solun Uru-

zuñ çevirdilər. Qırq yigidin [2] şəhid etdilər. Oğlanıñ üzərinə
düşdilər, tutdılar. [3] Qarusından ağ əllərin bağladılar. Qıl orqan
ağ boynına [4] taqdılar. Yüzi üzərinə saluban sürdilər. Ağ ətin-
dən [5] qan çıqınca dögdilər. “Baba” deyü ağlatdılar, “ana” de-
yü bozlatdılar. [6] Əli bağlu, boynı bağlu yüzi üzərinə salıb al-
dılar, yürüyü [7] verdilər. Uruz tutsaq oldı.

Qazanıñ xəbəri yoq. [8] Eylə sandı ki, yağı basıldı. At cilavı-
sın döndərdi, [9] gerü döndi; gəldi, oğlını qoduğı yerdə bulımadı.
[10] “A bəglər, oğlan qancaru getdi, ola?” – dedi. Bəglər aydır: [11]
“Oğlan quş yürəkli olur. Qaçub anasına getmişdir”, – [12] de-
dilər. Qazan qarardı, döndi. Aydır: “Bəglər, Tañrı bizə [13] bir
D135 kür oğul vermiş. Varayın, anı anası yanından alayın, [1] qılıcla
paralayayın, altı bölük edəyin, altı yoluñ ayırdında [2] bırağayın.
Bir dəxi kimsə yazı yerdə yoldaş qoyub qaçmaya!” – [3] dedi.

Daxı Qoñur atın ökcələdi, yola girdi. Evinə gəldi.

[4] Xan qızı boyı uzun Burla xatun Qazanıñ gəldügin [5] eşitdi,
atdan – ayqırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. [6]
“Oğlancığımıñ ilk avıdır; Qanlu Oğuz bəglərin toylayayım!” –
[7] dedi. Xan qızı gördi kim, Qazan gəlür; yumurlanub yerindən
[8] uru durdı. Samur cübbəsin əgninə aldı. Qazana qarşu gəldi. [9]
Qabaq qaldırdı. Qazanıñ yüzinə doğrı baqdı. Sağlan [10] solına
göz gəzdirdi. Oğlancuğını – Uruzı görmədi. Qara [11] bağrı sar-
sıldı, düm yürəgi oynadı, qara qıyma gözləri [12] qan-yaş doldı.
Qazana soylamış, görəlim, xanım, nə [13] soylamış; aydır:

Bərü gəlgil, Salur bəgi, Salur görgi
D136 Başım [1] baxtı, evim taxtı!
Xan babamıñ göygüsi,
Qadın anamıñ [2] sevgisi,
Atam-anam verdügi,
Göz açuban gördügim
Köñül verüb sevdügim.
Bəg yigidim Qazan!
Qalqubanı yerindən [4] uru durdıñ,
Oğluñla yelisi qara Qazılıq atın
butun [5] bindiñ.
Köksi gözəl qaba dağlar öñinə ava bindin

Boynı uzun bədəvi keyikin alub yıqdıñ.
Semiz [6] atuñ yüklətdiñ, gerü döndüñ.
İki vardıñ, bir gəlürsən, [7] yavrım qanı?
Qarañu dündə bulduğum oğlum qanı?
Bir bəgüm [8] görünməz, bağrım yanar.
Asılan-asılan qayalardan
Qazan, [9] oğlan uçurdıñmı?
Talı sazıñ aslanına yedirdiñmi?
Yoxsa qara dinlü kafirə uğratdıñmı?
[10] Ağ əllərin qarusından bağlatdıñmı?
Kafir öñincə yüritdiñmi?
[11] Dili-damağı quruyıb dört yanına baqdırdıñmı?
Qara [12] gözdən acı yaşın dökdürdüñmi?
“Qadun ana, bəg baba” [13] deyü bozlatdıñmı? -dedi.

Genə soylamış, aydır:

D137 Oğul, oğul, [1] ay oğul! Ortacım oğul!
Qarşu yatan qara dağım yüksəgi [2] oğul!
Qarañulıca gözlərim aydını oğul!
Sam yelləri [3] əsmədin, Qazan, qulağım çınlar.
Sarımsaq otın yemədin, [4] Qazan, içüm göynər.
Sarı yılan soqmadan ağca tənüm [5] qalqar-şişər.
Qurumışca köksümdə südüm oynar.
Yalñuzca [6] oğul görünməz, bağrım yanar.
Yalñuz oğul xəbərin, Qazan, degil [7] maña!
Diməz olursañ, yana-göynə qarğaram, Qazan, saña! -dedi.[8]

Anası bir soy dəxi soyladı; aydır:

Qarğu cida [9] oynadanlar vardı, gəldi,
Altun cida oynadana, ya Rəb, [10] noldı?
Qaraquc ata binənlər vardı, gəldi,
Bədəvi [11] atlu bir oğula, ya Rəb, noldı?
Nökər gəldi, nayib [12] gəldi.
Yalñuz bir oğula, ya Rəb, noldı?
Yalñuz oğul [13] xəbərin, Qazan, degil maña!
D138 Diməz olsañ, yana-yana qarğaram,[1] a Qazan, saña! -dedi.

Bir dəxi soylamış:

Quru-quru çaylara su [2] saldım,
Qara donlı dərvişlərə nəzir verdim.
Yanıma, ala [3] baqduğımda qonşuma eyü baqdım.
Umanına-usanana aş [4] yedirdim.
Ac görsəm, doyurdım,
Yalıncıq görsəm, donatdım.
[5] Dilək ilə bir oğulı güclə buldum.
Yalñuz oğul xəbərin, [6] a Qazan, degil maña!
Diməz olsañ, yana-göynə qarğaram, Qazan, [7] saña! -dedi.

Bir dəxi soylamış:

Qarşu yatan qara dağdan
[8] Bir oğul uçurduñsa, degil maña,
Külünglə yıqdırayım!
[9] Qamın aqan yügrək sudan
Bir oğul uçurduñsa, [10] degil maña,
Damarların tuğladayım!
Azğun dinlü kafirlərə
[11] Bir oğul tutdurduñsa, degil maña,
Xan babamıñ yanına [12] mən varayın,
Ağır ləşkər, bol xəzinə alayın,
Paralanub [13] Qazılıq atımdan enməyincə,
Yeñümlə alca qanım silməyincə,
D139 Qol-[1]put olub yer yüzinə düşməyincə,
Yalñuz oğul xəbərin almayınca
[2] Kafir yollarından dönməyəyin! – dedi.
Yoxsa, a Qazan, ayağımdan [3] sərmüzə atayınmı?
Qara dırnaq ağ yüzümə çalayınmı?
Güz alması [4] kibi al yañaqlarım yırtayınmı?
Çənbərümə alca qanım dökəyinmi?
Ağır [5] şivən səniñ orduña qomayınmı?
“Oğul, “oğul” deyübəni [6] bozlayayınmı?
Qaytabanda qızıl dəvə bundan keçdi;
Torumları [7] bundan bozlayıb belə keçdi.
Torumcuğum aldırmışam, bozlayayınmı?
[8] Qaraqucda Qazılıq at bundan keçdi.

Quluncuğı kişnəyüb [9] belə keçdi.
Quluncuğum aldırmışam, kişnəyəyinmi?
Ağayılda ağca [10] qoyun bundan keçdi,
Quzucuğı məñrişib belə keçdi.
Quzucağım [11] aldırmışam məñriyəyinmi?
"Oğul" deyü bozlayayınmı? – dedi.

Bir dəxi [12] soylamış:

Qalqubanı yerimdən duram, derdim.
Yelisi qara [13] Qazılıq atuma binəyim, derdim.
Qalın Oğuz içinə girəm, derdim.
D140 [1] Ala gözlü gəlin alam derdim.
Qara yerdə ağ otaqlı... dikəm, derdim.
[2] Yürüyübəni oğulı ulu gərdəkə keçürəm, derdim.
Murad ilə məqsuda [3] irgürəm, derdim.
Murada yetürmədiñ məni,
Qara başım qarışı tutsun, [4] Qazan, səni!
Bir bəgim görünməz, bağrım yanar.
Neylədiñ, degil maña!
[5] Dimməz olsañ, yana-göynə qarğaram,
Qazan, saña! – dedi.

Anası oğlanıñ [6] böylə digəc Qazanıñ aqlı başından getdi; qara bağrı sarsıldı, [7] düm yürəgi oynadı. Qaraññulı gözləri qan-yaş doldı.

[8] Aydır: "Görklüm, oğul gəlsə, səndənmi sorardım? Qorxma-qayırma, [9] avdadır. Avda qalan oğul içün qayırmağıl! Yedi gün bən [10] Qazana möhlət vergil! Yerdə isə, oğulı çıqarayım; gögdə [11] isə, endürəyim. Bulursam, buldum; bulmaz isəm, Tañrı verdi, [12] Tañrı aldı, neyləyəyin? Gəlübəni qara şivən sənüñlə bilə eyləyəyin", – [13] dedi.

D141 Xan qızı aydır: "Qazan, oğlan avda idügin [1] andan biləyin kim, yorğun atuñla, gedilmiş cidañla ardına [2] düşəsən", – dedi. Qazan gerü döndi. Gəldügi yolı [3] əlinə alub yortdı. Dün qatdı. Anası duymadın [4] əl altından buyurdı: "Doqsan tümən gənc oğuz ardımca [5] gəlsün! Oğlan tutsaqdır, bəglər bilsün", – dedi.

[6] Ol yerə gəldi ki, yağı basılmışdı. Gördi oğlanıñ ala [7] gözlü qırq yigidi qırılmış. Bədəvi atı oğlanıñ oxlanmış [8] yatur.

Leş arasında oğlancığı leşin bulmadı. Altunluca [9] qamçısın buldı. Yəqin bildi kim, oğlı kafirə tutsaqdır, [10] ağladı:

Qara dağım yüksəgi oğul!
Qanlu suyum daşqunı [11] oğul!
Qocalığım vaqtı aldırduğım
yalñuz oğul! – dedi.
[12] Bozladı. Kafiriñ izin izlədi.

Qanlu qara Dərvənddə [13] kafir dəxi qonmış idi. Oğlana qa-
D142 ra kəpənək geydirmişlərdi. [1] Qapu eşigi üzərində arqurı bıraqmışlardı. Girən basar, [2] çıqan basardı: "Qarı düşmən tatar oğlı əlümizə [3] girmişkən cəza ilə öldürəlim!" [4] Qapu eşigi üzərində arqurı qomışlardı ki, bu məhəldə [5] xan Qazan yetdi. Qoñur atın oynatdı. Kafir, Qazanuñ [6] gəldügin gördi, ürkdi. Kim atın binər, kim cövşən geyər. [7] Oğlan başını qaldırdı. Aydır: "Mərə kafir, nə haldır?" [8] Kafir aydır: "Babañ gəldi, "tutalım" deriz". Oğlan aydır: "Aman, [9] mərə kafir, aman! Tañrınıñ birliginə yoqdur güman!" Kafirlər oğlana [10] aman verdilər, əlin çözdilər, gözin açdılar. Babasına [11] oğlan qarşu gəldi; soylar, görəlim, xanım, nə soylamış. [12] Uruz aydır:

Bərü gəlgil, a bəg baba!
Nerədə bildiñ bənim tutsaq [13] olduğum?
Ağ əllərim ardumda bağlanduğın?
D143 Qıl sicim ağ [1] boynuma taqıldığın?
Qara gözlü yigitlərim qırılduğın?
Sən gəlmədin, [2] baba, kafirlər danışdılar:
"Qoñur atlu Qazanı tutuñ,
Qarusından [3] ağ əllərini bağlañ,
Ğafillücə görklü başın kəsiñ,
Alca [4] qanın yer yüzinə döküñ,
Oğlıyla ikisini bir yerdən öldürüñ.
[5] Ocağını söyündürüñ" – deyü söyləşdilər.
Xanım baba, qorxuram [6] səgirdərkən
Qoñur atıñ sürücdirəsən.
Savaşdügin vaqtın [7] kəndüñi tutdurasan.
Ğafillücə gözəl başıñ kəsdürəsən.

[8] Ağ bürçəklü anam "oğul" derkən,
"Başım baxtı Qazan" deyü [9] ağladasan.
Qayıduban, baba, gerü döngil!
Altun ban eviñə [10] sürüb varğıl!
Qarıcıq olmış anama umud olğıl!
[11] Qara gözlü qız qardaşumı ağlatmağıl!
Qarıcıq olmış anamı [12] sızlatmağıl!
Oğul içün ata ölmək eyb olur,
Yaradan [13] haqqı içün, baba
Qayıda döngil, evə varğıl!
D144 Qarıcıq anam [1] qarşu gəlsə,
məni saña sorsa,
Baba, doğrı xəbər vergil!
Gördüm [2] səniñ oğluñ tutsaq, degil!
Qarusından ağ əlləri [3] bağlu, degil!
Qara qıldan sicim boynına taqılu, degil!
Qara doñuz [4] damında yatur, degil!
Qıl kəpənək boyuncuğın sürər, degil!
[5] Ağır buqağu topucağın dögər, degil!
Yanmış arpa ətməgi, acı [6] soğan öyni, degil!
Mənim anam mənim içün qayırmasun!
[7] Bir ay baqsun, –
Bir ayda varmazsam, iki ay baqsun!
İki [8] ayda varmazsam, üç ay baqsun!
Üç ayda varmazsam, [9] öldügimi ol vaqt bilsün!
Ayğır atım boğazlayub aşum [10] versün!
Yad qızı halalıma dəstur versün!
Baña [11] tutan gərdəgə ayrıq girsün!
Anam mənim içün gög geyüb, [12] qara sarınsun!
Qalın Oğuz elində yasım tutsun!
Mənim [13] başım səniñ yoluña qurban olsun!
Gerü dön, baba! – dedi.

D145 Oğlan [1] bir dəxi soylamış, görəlim, xanım, nə soylamış:

[2] Qarşu yatan qara dağlar istər olsa,
el yaylar,
Qanlu-[3] qanlu sular əsən olsa, qanın düşər.

Qaraquc atlar əsən [4] olsa, qulun doğar.
Qaytabanda qızıl dəvə əsən olsa, torum [5] verür.
Ağayılda ağca qoyun əsən olsa, quzı verür.
[6] Bəg ərənlər əsən olsa, oğlı doğar.
Sən əsən ol, [7] anam əsən olsun
Məndən yegrək Qadir sizə oğul verə.
[8] Ağ südini anam maña halal eyləsün.
Savaşmağıl, qayıda [9] döngil, baba, gerü, -dedi.

Xan Qazan burada soylamış, görəlim, [10] xanım, nə soylamış. Aydır:

Oğul, oğul, ay oğul!
Qarşu [11] yatan qara dağım yüksəgi oğul!
Güclü belim qüvvəti, [12] canım oğul!
Qarañulu gözlərim aydını oğul!
Alar dañla [13] yerimdən durduğım səniñçün.
Qoñur atım yorultmışam səniñ içün.
D146 [1] Ağ donuma kir əgləndi səniñçün.
Mənim başım qurban olsun,
[2] canım oğul, səniñçün.
Sən gedəli ağlamağım gögdə ikən
[3] yerə endi.
Gumbır-gumbır tavullar dögülmədi.
Ağır-ulu [4] divanım sürülmədi.
Səni bilən bəg oğulları
ağ çıqardı, [5] qara geydi.
Qaza bəñzər qızım-gəlinüm
ağ çıqardı, qara geydi.
[6] Qarıcuq anañ qan-yaş dökdi.
Ağ saqallu babañ [7] buñlu oldı.
Qayıduban buradan, oğul, evə varsam;
[8] Ağca yüzlü anañ qarşu gəlüb oğul desə,
Ağ əlləri [9] ardına bağlu, deyəyinmi?
Ağ boynında qıl orğan taqılu, [10] deyəyinmi?
Kafir yanınca yayaq yürür, deyəyinmi?
Mənim namusım [11] qanda vara, oğul? – dedi.

Qıl kəpənək boyuncuğın sürər, [12] deyəyinmi?
Ağır buqağu topucağın dögər, deyəyinmi?
Arpa ətməgi, [13] acı soğan öynəcigi, deyəyinmi?

Qazan genə aydır:

D147 Qarşu [1] yatan qara dağlar qarısa,
otı bitməz, el yaylamaz.
Aqındılı [2] görklü sular qarısa,
qara daşmaz.
Qaytabanlar qarısa, [3] kürüm verməz.
Qaraquclar qarısa, qulun verməz.
Ər yigitlər [4] qarısa, oğlı doğmaz.
Babañ qarı, anañ qarı,
Səndən [5] yegrək Qadir bizə oğul verməz.
Versə dəxi səniñ yeriñ tuta [6] bilməz.
Asmanlu gögdə qara bulut oluban
kafiriñ üzərinə [7] gurlayayım.
Ağ yıldırım olup şaqıyayım.
Kafiri qamış kibi [8] od oluban yandırayım.
Doquzını bir yerinə saydurayım.
Uruşmadan, [9] dögüşmədən aləmi doldurayım.
Yaradan Allahdan mədəd! – dedi.

[10] Qoñur atından yerə endi, aqub gedən arı sudan abdəst [11] aldı. Ağ alnını yerə qodı; namaz qıldı, ağladı. Qadir Tañrıdan [12] hacət dilədi. Yüzin yerə sürdi. Məhəmmədə salavat gətürdi.
D148 [13] Dəvə kibi kükrədi, arslan kibi añradı. Nərə urub [1] hayqırdı. Baba yalñuz kafirə at dəpdi, qılıc urdı. [2] Dönə-dönə bir zaman yaxşı savaş eylədi, kafir alam [3] dedi, alamadı. Bir saatda kafirə üç kərrə at dəpdi. [4] Nagah gözi qapağına qılıc toqundı. Qara qanı şorladı, [5] gözinə endi. Özin sarb yerlərə saldı. Görəlim, imdi [6] Yaradan neylər.

Məgər xanım, Boyı uzun Burla xatun oğlancuğını [7] añdı, qərarı qalmadı. Qırq incə bellü qız oğlanla [8] Qara ayğırın dartdırdı, butun bindi. Qara qılıcın quşandı. [9] "Başım tacı Qazan gəlmədi" deyü izin izlədi, getdi. Gəlü-[10]gəlü, Qazana yaqın gəldi. Qazan halalını tanımadı. Xan [11] qızınıñ Qazan üzərinə gəldi. Aydır:

Qara ayğırıñ cilavısını [12] maña dartğıl, yigit!
Təkyə tutub yüzümə baqğıl yigit!
Altundağı [13] qara ayğırı maña vergil, yigit!
Əlüñdəki sür cidañı,
D149 [1] Yanıñdağı gög poladıñı maña vergil, yigit!
Bu günümdə umud [2] olğıl maña!
Qala-ölkə verəyin saña! – dedi.

Xatun aydır:

[3] Qarşım ala, yigit, məni nə məñlərsən?
Keçmiş mənim günümi nə añdırarsan?
[4] Qalqubanı yerindən duran Qazan!
Qaragöz atıñ belinə yatan [5] Qazan!
İlğıyuban qara dağım yıqan Qazan!
Kölgəsicə qaba ağacım [6] kəsən Qazan!
Bıçaq alub, qanadlarım qıran Qazan!
Yalñuzca [7] oğlum Uruza qıyan Qazan!
At üstində əglənməyüb [8] yortan, Qazan,
səniñ beliñ olmuş.
Üzəngiyə dərmiyən [9] diziñ olmuş,
Xan qızı halalıñı tanımayan gözüñ olmuş!
[10] Buñalmışsan, saña nolmuş?
Çal qılıcıñ, yetdim, Qazan! – dedi.

[11] Bu məhəldə Oğuz ərənləri bir-bir yetdi. Görəlim, xanım, kimlər yetdi. [12] Qara dərə ağzında Qadir verən, qara buğa dərisindən beşiginiñ [13] yapuğı olan, acığı tutanda qara
D150 daşı kül eyləyən, qara [1] bığın yedi yerdə əñsəsində dügən Qazan qardaşı [2] Qaragünə çapar yetdi: "Çal qılıcıñ, qardaş Qazan, yetdim!" – [3] dedi.

Anuñ ardınca, görəlim, xanım, kimlər yetdi. Dəmür [4] qapu Dərvəndəki dəmür qapuyı qapub alan, altmış tutam [5] ala göndəriniñ ucında ər bögürdən, Qazan kibi pəhlivanı [6] bir savaşda üç kərrə atından yıqan Qıyan Selcik oğlı [7] Dəlü Dondar çapar yetdi: "Çal qılıcıñ, ağam Qazan, yetdim" – [8] dedi.

Anuñ ardınca, görəlim, xanım, kimlər yetdi.

Varıban dəstur[9]sızca Bayındır xanıñ yağısın basan, altmış biñ [10] kafirə qan qusduran Ğəflət qoca oğlı Şir Şəms[11]əddin çapar yetdi: "Çal qılıcıñ, ağam Qazan, yetdim!" – [12] dedi.

Anuñ ardınca, görəlim, kimlər yetdi.
D151 Parasarıñ [13] Bayburd hasarından parlayıb uçan, at alaca [1]
gərdəginə qarşu gələn Qalın Oğuz imrəncəsi, Qazan bəgiñ yı-
nağı Boz [2] ayğırlu Beyrək çapar yetdi: "Çal qılıcıñ, xanım Qa-
zan, yetdim!" – [3] dedi.

Anuñ ardınca, görəlim, kimlər yetdi. Çayıñ baqsa [4] çal-
malu, çal qara quş ərdəmlü, qur qurma quşaqlı, qulağı altun [5]
küpəli, Qalın Oğuz bəglərini bir-bir atdan yıqan Qazılıq [6]
qoca oğlı bəg Yegnək çapar yetdi: "Çal qılıcıñ, ağam [7] Qazan,
yetdim!" – dedi.

Anuñ ardınca, görəlim, kimlər yetdi. Yigirmi [8] dört boyın
oxşayan Dəli Dondar yetdi. Anuñ [9] ardınca biñ qövm başları
Dügər yetdi. Anuñ ardınca [10] biñ Bəgdiz başları Əmən yetdi.
Anuñ ardınca doquz [11] qoca başları Aruz yetdi. Saydığımca Oğuz
bəgləri [12] dükənsə olmaz.

Qazanıñ bəgləri həb yetdi, üzərinə [13] yığnaq oldı. Arı su-
dan abdəst aldılar.
D152 İki [1] rikət namaz qıldılar. Adı görklü Məhəmmədə salavat
gətürdilər. [2] Bitəkəllüf kafirə at saldılar, qılıc urdılar. Ol [3] gün
cigərində olan ər yigitlər bəlürdi. Ol gün [4] namərdlər sapa yer
gözətdi. Bir qiyamət savaş oldı, [5] meydan dolu baş oldı.
Qiyamətiñ bir güni oldı. [6] Bəg nökərdən, nökər bəgdən ayrıldı.

Daş Oğuz bəgləri ilə [7] Dondar sağa dəpdi. Cılasun yigit-
ləriylə Qarabudaq [8] sola dəpdi. Qazan kəndü dopa dəpdi. Tə-
kür ilə [9] Şökli Məlikə həvala oldı. Bögürdübəni atdan yerə
saldı. [10] Alca qanın yer üzərinə dökdi.

Sağ tərəfdə Qara [11] Tükən Məlikə Dondar qarşu gəldi, qı-
lıcladı yerə [12] saldı. Sol tərəfdə Buğacıq Məlikə Qarabudaq
qarşu [13] gəldi. Sancubanı yerə çaldı, dəpərtmədin başın kəsdi.
D153 [1] Boyı uzun Burla xatun qara tuğın kafiriñ qılıcladı, [2] yerə saldı.

Təkür alındı, kafir qaçdı. Dərələrdə [3] kafirə qırğun girdi.
On beş biñ kafir: kimi qırıldı, [4] kimi tutuldı.

Qazan, oğlı üzərinə gəldi. Endi, əlin [5] çözdi. Quca-quca
ata ilə oğul görüşdi.

Üç [6] yüz yigit Oğuzdan şəhid oldı. Qazan oğlancuğın [7] qur-
tardı, gerü döndi. Ğəza mübarək oldı. Oğuz [8] bəgləri toyum oldı.

Ağca qala Sürməlüyə gəlüb, Qazan [9] qırq otaq dikdirdi.
Yedi gün yedi gecə yemə-içmə [10] oldı. Qırq evli qulla qırq ca-

riyə oğlı başına [11] çevirdi, azad eylədi. Cılasun ərənlərə qara ölkə [12] verdi, cübbə-çuqa verdi.

Dədəm Qorqut gəlübən [13] şadlıq çaldı. Bu oğuznaməyi düzdi-qoşdı.

D154 [1] Böylə dedi:

İmdi qanı dedügim bəg ərənlər!?
Dünya [2] mənim deyənlər!
Əcəl aldı, yer gizlədi;
Fani dünya kimə [3] qaldı?
Gəlimli-gedimli dünya,
Axirət-soñ ucı [4] ölümli dünya!..
Yum verəyim, xanım:
Yerlü qara dağıñ yıqılmasun!
[5] Kölgəlicə qaba ağacıñ kəsilməsün!
Qamın aqan [6] görklü suyuñ qurımasun!
Qanadlaruñ ucı qırılmasun!
[7] Qadir səni namərdə möhtac etməsün!
Çaparkən ağ-boz atıñ [8] büdrəməsün!
Çalışanda qara polat uz qılıcıñ [9] gedilməsün!
Allah verən umızıñ üzülməsün!
Axır-soñı [10] arı imandan ayırmasun!
Ağ alnuñda beş kəlmə dua qıldıq,
[11] qəbul olsun!
Yığışdırsun-duruşdursun günahıñızı,
[12] Adı görklü Məhəmmədə bağışlasun!
Xanım, hey!

## [13]DUXA QOCA OĞLI DƏLİ DOMRUL BOYINI
D155 BƏYAN [1] EDƏR, XANIM HEY!

Məgər xanım, Oğuzda Duxa qoca oğlı Dəli [2] Domrul
deyərlərdi, bir ər var idi. Bir quru çayıñ üzərinə [3] bir köpri
yapdırmışdı. Keçənindən otuz üç aqça [4] alurdı, keçməyənin-
dən dögə-dögə qırq aqça alurdı. Bunı [5] neçün böylə edərdi?
Anuñçun ki, "Məndən dəli, məndən [6] gücli ər varmıdır ki, çı-
qa mənümlə savaşa, – derdi; [7] mənim ərligim, bəhadirligim,
cılasunligim, yigitligim Ruma, Şama [8] gedə çavlana", – derdi.

Məgər [9] bir gün köprisiniñ yamacında bir bölük oba qon-
muş idi. Ol obada bir yaxşı-xub [10] yigit sayru düşmüş idi. Al-
lah əmriylə ol yigit öldi. [11] Kimi "oğul" deyü, kimi "qardaş"
deyü ağladı. Ol yigit [12] üzərinə möhkəm qara şivən oldı. Na-
gahandan Dəli Domrul [13] çapar yetdi; aydır: "Mərə, qavatlar,
D156 nə ağlarsız? Mənim köprüm [1]yanında bu qovğa nədir, niyə şi-
vən edirsiz?" – dedi. Ayıtdılar: [2] "Xanım, bir yaxşı yigidimiz
öldi, ana ağlarız" – dedilər. Dəli [3] Domrul aydır: "Mərə, yigi-
diñizi kim öldürdi?" Ayıtdılar: "Vallah, [4] bəg yigit, Allah
Taaladan buyruq oldı. Al qanatlu [5] Əzrayil ol yigidiñ canın
aldı". Dəli Domrul aydır: [6] "Mərə, Əzrayil dedügüñiz nə ki-
şidir kim, adamıñ canın alur? [7] Ya Qadir Allah, birligiñ, varlı-
ğıñ haqqıyçun, Əzrayili mənim [8] gözümə göstərgil, savaşa-
yım, çəkişəyim, dürişəyim, – yaxşı [9] yigidiñ canın qurtarayım.
Bir dəxi yaxşı yigidiñ canın [10] almaya", – dedi. Qayıtdı-dön-
di Dəli Domrul, evinə gəldi.

"Haq Taalaya Domruluñ sözi xoş gəlmədi: "Baq, baq, [12]
mərə dəli qavat mənim birligim bilməz, birligümə şükr qıl-
maz. [13] Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?" –
D157 dedi. Əzrayilə [1] buyuruq eylədi kim, ya Əzrayil, var, ol dəxi
dəli qavatıñ [2] gözinə görüngil, bəñzini sarartğıl, – dedi; canını
xırlatğıl, [3] alğıl, – dedi.

Dəli Domrul qırq yigid ilən yeyüb-içüb [4] oturarkən naga-
handan Əzrayil çıqa gəldi. Əzrayili [5] nə çavuş gördi, nə qapuçı.
Dəli Domrulu görər gözi [6] görməz oldı, tutar əlləri tutmaz oldı.

Dünya-aləm [7] Dəli Domruluñ gözinə qarañu oldı. Çağırıb Dəli Domrul [8] soylar, görəlim, xanım, nə soylar-aydar:

Mərə, nə heybətlü qoca[9]san?
Qapuçılar səni görmədi.
Çavuşlar səni duymadı,
[10] Mənim görər gözlərim
görməz oldı.
Tutar mənim əllərim
tutmaz [11] oldı.
Ditrədi mənim canım
cuşə gəldi.
Altun ayağım [12] əlimdən yerə düşdi.
Ağzım içi buz kibi,
Süñüklərim [13] duz kibi oldı.
Mərə saqalcığı ağca qoca,
D158 Gözcügəzi [1] çöngə qoca.
Mərə nə heybətlü qocasan, degil maña!
Qadam-bəlam [2] toqınar bu gün saña! – dedi.

Böylə digəc Əzrayiliñ acığı [3] tutdı. Aydır:

Mərə, dəli qavat!
Gözüm çöngə idigin nə bəgənməzsən?
[4] Gözü gögçək qızlarıñ-gəlinləriñ
canın çoğ almışam!
[5] Saqalım ağarduğın nə bəgənməzsən?
Ağ saqallu, qara saqallu yigitləriñ
[6] canın çoğ almışam!
Saqalım ağarduğınıñ mənası budur! – [7] dedi.

Mərə dəli qavat, öginürdüñ, derdiñ, "al qanatlu [8] Əzrayil mənim əlümə girsə, öldürəydim; yaxşı yigidiñ canın [9] onuñ əlindən qurtaraydım" – derdiñ. İmdi, mərə dəli, gəldim ki, [10] səniñ canıñ alam; verərmisən, yoxsa mənimlə cəng [11] edərmisən?" – dedi.

Dəli Domrul aydır: "Mərə, al qanatlu [12] Əzrayil, sənmisən?" – dedi.

“Əvət, mənəm!” – dedi. “Bu yaxşı [13] yigitləriñ canını sənmi
alursın?” – dedi.
D159 “Əvət, mən [1] aluram”, – dedi. Dəli Domrul aydır: “Mərə
qapuçılar, qapunı [2] qapañ!” – dedi. Mərə Əzrayil, mən səni geñ
yerdə istərdim, [3] dar yerdə eyü əlümə girdiñ, olamı? – dedi. –
Mən səni öldürəyim, [4] yaxşı yigidiñ canın qurtarayım!” – dedi.
Qara qılıcın sıyırdı, [5] əlinə aldı. Əzrayili çalmağa həmlə qıldı.
Əzrayil bir [6] gögərçin oldı; pəncərədən uçdı getdi.

Adəmilər əvrəni [7] Dəli Domrul əlin əlinə çaldı, qas-qas
güldi. Aydar: [8] “Yigitlərim, Əzrayiliñ gözini eylə qorxutdum
ki, geñ qapuyı [9] qodı, dar bacadan qaçdı. Çünki mənim əlüm-
dən gögərçin [10] kibi quş oldı uçdı, mərə, mən anı qormıyam
toğana [11] aldırmayınca?!” – dedi. Durdı atına bindi. Toğanın
əlinə [12] aldı, ardına düşdi. Bir-iki gögərçin öldürdi, döndi [13]
D160 evinə; gəli yürürkən Əzrayil atınıñ gözinə göründi. At [1] ürkdi.
Dəli Domrulı götürdi, yerə urdı. Qara başı [2] buñaldı, buñlu
qaldı. Ağ köksiniñ üzərinə Əzrayil [3] basub qondı. Baya mır-
lardı. Şimdi xırlamağa başladı. [4] Aydır:

Mərə Əzrayil, aman!
Tañrınıñ birliginə yoqdur güman!
[5] Mən səni böylə bilməz idim.
Oğurılayın can alduğıñ [6] duymaz idim.
Dügməsi böyük bizim dağlarımız olur,
Ol [7] dağlarumızda bağlarumız olur,
Ol bağlarıñ qara salqumları, [8] üzümi olur.
Ol üzümi sıqırlar, al şərabı olur.
[9] Ol şərabdan içən əsrük olur.
Şərabluydım, duymadım,
[10] nə söylədim, bilmədim.
Bəgligə usanmadım, yigitligə doymadım.
Canım [11] alma, Əzrayil, mədəd! – dedi.

Əzrayil aydır: “Mərə dəli [12] qavat, maña nə yalvararsan,
Allah Taalaya yalvar.

Mənim də [13] əlümdə nə var. Mən dəxi bir yumuş oğlanı-
D161 yam”, – dedi. Dəli [1] Domrul aydır: “Ya pəs can verən, can alan

Allah Taala[2]mıdır?” “Bəli, oldur!” – dedi. Döndi Əzrayilə: “Ya pəs [3] sən nə eyləməkluqdasan? Sən aradan çıqğıl, mən Allah [4] Taala bilə xəbərləşim”, – dedi.

Dəli Domrul burada [5] soylamış, görəlim, xanım, nə soylamış-aydır:

Yuca[6]lardan yucasan,
Kimsə bilməz necəsən.
Görklü Tañrı,
[7] Neçə cahillər səni gögdə arar,
yerdə istər.
Sən xud [8] möminlər köñlindəsən.
Daim duran cabbar Tañrı,
[9] Baqi qalan səttar Tañrı,
Mənim canımı alur olsañ,
[10] sən alğıl!
Əzrayilə almağa qomağıl! – dedi.

Allah [11] Taalaya Dəli Domruluñ burada sözi xoş gəldi. [12]
Əzrayilə nida eylədi kim, çün dəli qavat mənim birligim [13] bildi,
D162 birligümə şükr qıldı, ya Əzrayil, Dəli [1] Domrul can yerinə can
bulsun. Anuñ canı azad [2] olsun! – dedi. Əzrayil aydır: “Mərə
Dəli Domrul, [3] Allah Taalanıñ əmri böylə oldı kim, Dəli Dom-
rul [4] can yerinə can bulsun, onuñ canı azad olsun!” – [5] dedi.

Dəli Domrul aydır: “Mən necə can bulayım? Məgər [6] bir qoca babam, bir qarı anam var; gəl gedəlim, ikisindən [7] biri bolay ki, canın verə, alğıl, mənim canumı qoğıl!” – [8] dedi.

Dəli Domrul sürdi, babası yanına gəldi. [9] Babasınıñ əlin öpüb soylamış, görəlim, xanım, nə [10] soylamış-aydır:

Ağ saqallu əziz, izzətlü, canım baba!
[11] Bilürmisən, nələr oldı?
Küfr söz söylədim, –
Haq Taalaya [12] xoş gəlmədi.
Gög üzərində al qanatlu Əzrayilə
əmr [13] eylədi, uçub gəldi.
Ağca mənim köksüm basub qondı.
D163 [1] Xırıldadıb datlu canım alur oldı.

Baba, səndən can [2] dilərəm, verərmisən?
Yoxsa "oğul, Dəli Domrul!" [3] deyü
ağlarmısan?

Babası aydır:

Oğul, oğul, ay [4] oğul!
Canım parası oğul!
Doğduğında doquz [5] buğra öldürdigim, aslan oğul!
Dünlügi altun ban [6] evimiñ qəbzəsi oğul!
Qaza bəñzər qızımıñ-gəlinimiñ [7] çiçəgi oğul!
Qarşu yatan qara dağım gərəksə,
Söylə, [8] gəlsün, – Əzrayiliñ yaylası olsun!
Sovuq-sovuq [9] biñarlarım gərəksə,
aña içət olsun!
Tavla-tavla [10] şahbaz atlarım gərəksə,
aña binət olsun!
Qatar-[11]qatar dəvələrim gərəksə,
aña yüklət olsun.
Ağa[12]yılda ağca qoyunım gərəksə,
Qara mudbaq altında anuñ [13] şüləni olsun!
Altun-gümüş, pul gərəksə,
D164 aña [1] xərclıq olsun!
Dünya şirin, can əziz,
Canımı qıya [2] bilmən, bəllü bilgil!
Məndən əziz, məndən sevgülü anañdır,
[3] oğul, anaña var! – dedi.

Dəli Domrul babasından [4] yüz bulmayub sürdi, anasına gəldi. Aydır:

Ana, [5] bilürmisən, nələr oldı?
Gög yüzindən al qanatlu [6] Əzrayil
uçub gəldi,
Ağca mənim köksümi basub [7] qondı,
Xırladıb canım alur oldı.
Babamdan can [8] dilədim, amma vermədi.
Səndən can dilərəm, ana,
canıñ [9] maña verərmisən,

Yoxsa "oğul, Dəli Domrul!" – deyü
[10] ağlarmısan?
Acı dırnaq ağ yüziñə çalarmısan?
[11] Qarğu kibi qara saçıñ
yolarmısan, ana? – dedi.

Anası [12] burada soylamış, görəlim, xanım, nə soylamış. Anası [13] aydır:

Oğul, oğul, ay oğul!
D165 Doquz ay dar [1] qarnımda götürdügim oğul!
Dolma beşiklərdə bələdügim [2] oğul!
On ay deyəndə dünya yüzinə gətürdügim oğul!
[3] Dolab-dolab ağ südümi əmzirdigim oğul!
Ağca [4] burclu hasarlarda tutılaydıñ, oğul!
Sası [5] dinlü kafir əlində tutsaq olaydıñ, oğul!
Altun-[6]aqça gücinə salubanı
səni qurtaraydım, oğul!
Yaman [7] yerə varmışsan, vara bilmən.
Dünya şirin, can əziz!
[8] Canımı qıya bilmən, bəllü bilgil! – dedi.

Anası daxı canın [9] vermədi. Böylə digəc Əzrayil gəldi Dəli Domrulun [10] canın almağa. Dəli Domrul aydır:

Mərə Əzrayil, aman!
[11] Tañrınıñ birliginə yoqdur güman!

Əzrayil aydır: "Mərə, dəli [12] qavat! Dəxi nə aman dilərsən? Ağ saqallu babañ yanına [13]vardıñ, can vermədi.
D166 Ağ birçəklü anañ yanına [1] vardıñ, can vermədi. Dəxi kim versə gərək?" – dedi. [2] Dəli Domrul aydır:

"Həsrətim vardır, bulışayım", – dedi. Əzrayil [3] aydır: "Mərə dəli, həsrətiñ kimdir?" Aydır: "Yad qızı halalım var, [4] andan mənim iki oğlancığım var, əmanətim var, ısmarlaram [5] anlara, andan soñra mənim canım alasan", – dedi. Sürdi, [6] halalı yanına gəldi. Aydır:

Bilürmisən, nələr oldı?
Gög [7] yüzindən al qanatlu Əzrayil uçub gəldi.

Ağca mənim [8] köksümi basub qondı.
Datlu mənim canımı alur oldı.
[9] Babama "ver" dedim, can vermədi,
Anama vardım, can [10] vermədi,
"Dünya şirin, can datlu!" dedilər:
İmdi yüksək-[11]yüksək qara dağlarım
saña yaylaq olsun!
Sovuq-sovuq [12] sularım
saña içət olsun!
Tavla-tavla şahbaz atlarım
[13] saña binət olsun!
Dünlügi altun ban evim
D167 saña [1] kölgə olsun!
Qatar-qatar dəvələrim
saña yüklət [2] olsun!

Ağayılda ağca qoyunum
saña şülən olsun!
[3] Gözüñ kimi tutarsa,
Köñlüñ kimi sevərsə,
sən aña [4] varğıl!
İki oğlancığı öksüz qomağıl! – dedi.

Övrət [5] burada soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Nə [6] dersən, nə soylarsan,
Göz açub gördügim,
Köñül verüb [7] sevdügim!
Qoç yigidim, şah yigidim,
Datlu damağ verüb [8] soruşduğım,
Bir yasdıqda baş qoyub əmişdigim.
Qarşu [9] yatan qara dağları
Səndən soñra mən neylərəm?
Yaylar [10] olsam, mənim gorum olsun!
Sovuq-sovuq sularuñ [11] içər olsam,
mənim qanım olsun!

Altun-aqçañ xərcləyür [12] olsam,
mənim kəfənim olsun!
Tavla-tavla şahbaz atuñ [13] binər olsam,
mənim tabutum olsun!
D168 Səndən soñra bir [1] yigidi sevib varsam,
bilə yatsam,
Ala yılan olub, [2] məni soqsun!
Səniñ ol müxənnət anañ-babañ
[3] Bir canda nə var ki, saña qıymamışlar?
Ərş tanığ olsun, [4] kürsi tanığ olsun,
Yer tanığ olsun, gög tanığ [5] olsun,
Qadir Tañrı tanığ olsun,
Mənim canım səniñ [6] canıña qurban olsun, – dedi, razı oldı.

Əzrayil [7] xatunıñ canın almağa gəldi. Adəmilər əvrəni yoldaşına [8] qıyamadı. Allah Taalaya burada yalvarmış, görəlim, [9] necə yalvarmış. Aydır:

Yucalardan yucasan,
Kimsə [10] bilməz necəsən!
Görklü Tañrı,
Çoq cahillər səni
[11] gögdə arar, yerdə istər.
Sən xud möminləriñ köñlündə[12]sən.
Daim duran cabbar Tañrı
Ulu yollar üzərinə
[13] İmarətlər yapayım səniñ içün.
D169 Ac görsəm, doyurayım [1] səniñçün,
Yalıncaq görsəm, donadayım səniñ içün!
[2] Alursañ, ikimüzüñ canın bilə alğıl!
Qorsañ, ikimüzüñ [3] canın bilə qoğıl!
Kərəmi çoq Qadir Tañrı! – dedi.

Haq [4] Taalaya Dəli Domruluñ sözi xoş gəldi. Əzrayilə [5] əmr eylədi: “Dəli Domruluñ atasınıñ-anasınıñ canın [6] al! Ol iki halala yüz qırq yıl ömr verdim”, – dedi. [7] Əzrayil dəxi babasınıñ-anasınıñ dəfi canın aldı. [8] Dəli Domrul yüz qırq yıl dəxi yoldaşıyla yaş [9] yaşadı.

Dədəm Qorqut gəlübən boy boyladı, soy [10] soyladı. "Bu boy Dəli Domruluñ olsun. Məndən [11] soñra alb ozanlar söyləsün! Alnı açuq comərd ərənlər [12] diñləsün!" – dedi.

Yum verəyim, xanım!
Yerlü qara dağlarıñ [13] yıqılmasun!
Kölgəlicə qaba ağacıñ kəsilməsün!
D170 Qamın [1] aqan görklü suyuñ qurımasun!
Qadir Tañrı səni [2] namərdə möhtac etməsün!
Ağ alnunda beş kəlmə dua [3] qıldıq,
qəbul olsun!
Yığışdırsun, duruşdursun,
[4] Günahıñızı adı görklü Məhəmmədə
bağışlasun! Xanım, hey!

## [5] QAÑLI QOCA OĞLI QANTURALI BOYINI BƏYAN [6] EDƏR, XANIM, HEY-HEY!

Oğuz zamanında Qañlı qoca, deyərlərdi, [7] bir gürbüz ər vardı. Yetişmiş bir cılasun oğlı vardı. [8] Adına Qanturalı derlərdi. Qañlı qoca aydır: [9] "Yaranlar, atam öldi, mən qaldım. Yerin-yurdın tutdım. [10] Yarınkı gün mən öləm, oğlum qala. Bundan yegrəgi yox[11]dur ki, gözüm görərkən, oğul, gəl səni evərəyim!" – dedi. [12] Oğlan aydır: "Baba, çün məni evərəyim dersən, maña [13] layiq qız necə olur?"

D171 Qanturalı aydır: "Baba, mən yerimdən [1] durmadın ol durmış ola! Mən qaraquc atıma binmədin ol [2] binmiş ola! Mən qanlu kafir elinə varmadın ol varmış, [3] maña baş gətürmiş ola!" – dedi.

Qañlı qoca aydır: "Oğul, [4] sən qız istəməzmişsən, bir cılasun-bahadır istərmiş[5]sən, anuñ arqasında yeyəsən-içəsən, xoş keçə[6]sən!" Aydır: "Bəli, canım baba, eylə istərəm! Pəs varasın, [7] bir cici-bici türkman qızını alasan, nagahandan tayınam, [8] üzərinə düşəm, qarnı yırtıla?" – dedi. Qañlı qoca [9] aydır: "Oğul, qız görmək səndən, mal-rizq vermək [10] bəndən!" – dedi.

Böylə digəc ərənlər əvrəni Qanturalı [11] yerindən durdı. Qırq yigidin yanına aldı. İç Oğuzı [12] gördi, qız bulımadı, qayıtdı gerü döndi. Evlərinə [13] gəldi. Babası aydır:

D172 "Oğul, qız bulduñmı?" Qanturalı [1] aydır: "Yıqılsun Oğuz elləri, maña yararu qız bulımadum, baba", – [2] dedi. Babası aydır: "Hey, oğul! Qız diləyü varan böylə [3] varmaz". Qanturalı aydır: "Ya necə varar, baba?" – dedi.

[4] Qañlı qoca aydır: "Oğul, sabah varub, öylən [5] gəlmək olmaz. Öylən varub axşam gəlmək olmaz. [6] Oğul, sən mala becid ol yığ, mən saña qız arayı [7] gedəyim!" – dedi.

Qañlı qoca sevini-qıvanı urı [8] durdı. Ağ saqallu pir-qocalar yanına bıraqdı. [9] İç Oğuza girdi. Qız bulımadı. Dolandı. [10] Daş Oğuza girdi, bulımadı. Dolandı, Trabuzana [11] gəldi. Məgər Trabuzan təküriniñ bir əzim-görklü [12] məhbub qızı vardı. Sağına-soluna iki qoşa [13] yay çəkərdi. Atduğı ox yerə düş-məzdi.

D173 Ol [1] qızıñ üç canvər qalıñlığı-qaftanlığı vardı. "Hər kim [2] ol üç canvəri basa-yeñsə, öldürsə, qızımı [3] aña verirəm" deyü

vədə eyləmişdi. Basamasa, başın [4] kəsərdi. Böyləliklə, otuz
iki kafir bəginüñ [5] oğlunuñ başı bürc bədənində kəsilüb asıl-
mış idi. [6] Ol üç canvəriñ biri qağan aslandı, biri qara [7] buğaydı,
biri dəxi qara buğra idi. Bularıñ hər birisi [8] bir əjdərhaydı. Bu
otuz iki baş kim bürcdə asılmış [9] idi, qağan aslanla qara buğ-
ranıñ yüzin görməmişlərdi, [10] ancaq buğa buynuzında həlak
olmuşlardı.

Qañlı qoca [11]bu başları və bu canvərləri gördi, başında
olan [12] bit ayağına dərildi. Aydır: “Varayım, oğluma doğrı [13]
D174 xəbər verəyim, hünəri varsa, gəlsün alsun, yoxsa [1] evdəki qıza
razı olsun”, – dedi.

At ayağı [2] külük, ozan dili çevik olur. Qañlı qoca gedərək
[3] gəldi, Oğuza çıqdı. Qanturalıya xəbər oldı. [4] “Babañ gəldi”
dedilər. Qırq yigidlə babasına qarşu [5] vardı. Əlin öpdi. Aydır:
“Canım baba, maña yarar [6] qız bulduñmı?” Aydır: “Buldum,
oğul, hünəriñ var isə”, – [7] dedi. Qanturalı aydır: “Altun-aqça-
mı istər? [8] Qatır-bəsərəkmi istər?” Babası aydır: “Oğul, hünər
gərək, hünər!” – [9] dedi. Qanturalı aydır: “Baba, yelisi qara
Qazılıq atuma [10] əyər salayım, qanlu kafir elinə aqın çapayım.
Baş [11] kəsim, qan dökim. Kafirə qan qusdurayım. Qul-[12]qara-
vaş gətürəyim, hünər göstərəyim”.

Qañlu qoca aydır: [13] “Hay, canım oğul! Hünər dedigim ol
D175 degil; ol qız [1] içün üç canvər saqlamışlar. Hər kim ol üç can-
vəri [2] basa, ol qızı aña verirlər; basub öldürməsə, [3] anuñ başını
kəsirlər, bürcə asarlar”.

Qanturalı [4] aydır: “Baba, bu sözi sən maña dimək gərək
idiñ. Çünki [5] dediñ, əlbətdə varsam gərək. Başıma qaxınc, yü-
zümə toxınc [6] olmasun. Qadun ana, bəg baba, əsən qaluñ!” –
dedi. Qañlı [7] qoca aydır: “Gördüñmi mən maña netdim? Oğlana
qorxunc xəbərlər [8] verəyim, ola kim getməyə, dönə”, – dedi.

Qañlı qoca bu arada [9] soylamış, görəlim, xanım, nə soylamış,
aydır:

Oğul, sən [10] varacaq yerüñ
Dolamac-dolamac yolları olur.
Atlu [11] batub çıqamaz
anuñ balçığı olur.

Ala yılan sökəməz
[12] anuñ ormanı olur.
Göglə pəhlu uran
anuñ qalası [13] olur.
Göz qaquban köñül alan
anuñ görklüsi olur.
D176 [1] “Hay!” dedin baş götürən
cəlladı olur.
Yağrınında [2] qalqan oynar
yiyəsi olur.
Yavuz yerlərə yeltəndiñ,
qayıda [3] döngil!
Ağ saqallu babañı,
Qarıcıq olmuş anañı bozlatmağıl! – [4] dedi.

Qanturalı qaqıdı, aydır:

Nə söylərsən, nə [5] aydarsan, canım baba?
Bu qədər işdən qorxan yigitmi olur?
[6] Alp ərə qorxu vermək eyib olur.
Dolamac yollarını
[7] Qadir qorsa, dünlə yortam.
Atlu batub anuñ balçığına
[8] qumlar döşəyim.
Ala yılan sökəməz ormanını
çaqmaq çaqub [9] oda uram.
Göglə pəhlu uran qalaların
Qadir qorsa, [10] yapam-yıqam.
Göz qaçuban köñül alan görklüsiniñ
boynın [11] öpəm.
Yağrınında qalqan oynar babasınıñ
Qadir qorsa, [12] başın kəsəyim!
Ya varmıyam? Ya gələm, ya gəlməyəm,
Ya qara buğranıñ
[13] köksi altında qalam!
Və ya buğanıñ buynuzında ilişəm.
D177 [1] Ya qağan aslanıñ qaynağında didiləm.
Ya varam, ya varmayam,

[2] Ya gələm, ya gəlməyəm!..
Yenə görüncə bəg baba, xatun ana,
əsən qaluñ! – [3] dedi.

Gördilər ki, namus içün yenilməz, ayıtdılar: "Oğul, [4] uğuruñ açıq olsun! Sağ-əsən varub gələsən!" – [5] dedilər.

Atasınıñ-anasınıñ əllərin öpdi. Qırq [6] yigidin yanına bıraqdı. Yedi gün yedi gecə yortdılar. [7] Kafiriñ sərhədinə irdilər. Çadır dikdilər. Yügrək atın [8] yügürdüb Qanturalı gürzin gögə atar, enüb yerə [9] düşmədin qarvar-tutar.

Hey qırq eşim, qırq yoldaşım!
Yügrək [10] olsa, yarışsam.
Güclü olsa, gürəşsəm.
Haq Taala [11] inayət eyləsə,
Üç canvəri öldürsəm.
Gözəllər [12] sərvəri Sarı donlı Selcan xatunı alsam.
[13] Atam-anam evinə dönsəm.
Hey qırq eşim, qırq yoldaşım!
D178 [1] Qırqıñuza qurban olsun mənim başım! – deyü söylərdi.

[2] Bunlar bu sözdə ikən məgər, xanım, təkürə xəbər vardı. [3] "Oğuzdan Qanturalı derlər, bir yigit var imiş, qızıñ [4] diləyü gəli yürür", – dedilər. Kafirlər yedi ağac yer qarşu [5] gəldilər. "Niyə gəldiñüz, yigit, yenil", – dedilər. "Verişməgə-alışmağa [6] gəldik", – dedilər. İzzət-hörmət eylədilər. Aq çadır dikdilər, [7] ala qalı döşədilər, ağca qoyun qırdılar, yedi yıllıq [8] al şərab içürdilər. Aluban bunları təkürə gətürdilər. [9] Təkür taxt üzərində oturmışdı. Yüz kafir için [10] geyinmişdi. Yedi qat meydanı dolandı gəldi.

[11] Məgər qız meydanda bir köşk yapdırmış idi. Cəmi [12] yanında olan qızlar al geymişlərdi, kəndü saru [13] geymiş idi. Yuqarıdan tamaşa edərdi.

D179 Qanturalı [1] gəldi, qara şayqalu təkürə salam verdi. Təkür [2] "əleyk" aldı. Ala qalı döşədilər, oturdı. Təkür [3] aydır: "Yigit, nə yerdən gəlürsin?" Qanturalı yerindən [4] durı gəldi. Apul-apul yürüdi, ağ alnını açdı. [5] Ağ biləklərini sığadı, ayıtdı kim:

Qarşu yatan qara dağıñı [6] aşmağa gəlmişəm!
Aqındılı suyıñı keçməgə gəlmişəm!
Dar [7] ətüñə*, geñ qoltuğıña sığınu gəlmişəm!
Tañrı buyuruğıyla, Peyğəmbər 8 qövliylə
Qızuñı almağa gəlmişəm! – dedi.

Təkür aydır: [9] "Bu yigidiñ sözi yügrək, əgər əlində hünəri var isə", [10] dedi. Təkür aydır: "Bu yigidi anadan doğma soyuñ!" [11]Soydılar. Qanturalı altunlu incə kətan bezin [12]belinə sardı. Qanturalıyı alub meydana gətürdilər.

D180 [13] Qanturalı camal və kamal iyəsi yigit idi. Oğuzda [1] dört yigit niqabla gəzərdi. Biri Qanturalı, biri [2] Qaraçəkür və oğlı Qırqqınuq və Boz ayğırlu Beyrək. [3] Qanturalı niqabın sərpdi. Qız köşkdən baqardı. [4] Daraqlığı boşaldı, kedisi mavladı. Avsal olmış [5] dana kibi ağzınıñ suyı aqdı. Yanındağı qızlara [6] aydır: "Haq Taala atamıñ köñlinə rəhmət eyləsə, kəbin [7] kəsüb məni ol yigidə versə. Bunuñ kibi yigit heyf [8] ola ki, canvərlər əlində həlak ola! – dedi.

Bu məhəldə [9] dəmür zəncirlə buğayı gətürdilər. Buğa dizin çökdi, [10] buynuzıyla bir mərmər daşı yoğurdı, penir kibi ditdi. [11] Kafirlər aydır: "Şimdi yigidi atar-yıqar, sərər-pırtar. [12] Yıqılsun Oğuz elləri! Qırq yigit bir bəg oğlıyla [13] bir qızdan ötri ölmək nolur", – dedilər.

D181 Bunı eşidicək [1] qırq yigit ağlaşdılar. Qanturalı sağına baqdı, qırq [2] yigidin ağlar gördi. Solına baqdı, eylə gördi. Aydır: [3] "Hey, qırq eşüm, qırq yoldaşım, niyə ağlarsız? Quruluça qopuzum [4] gətürüñ, ögüñ məni!" – dedi. Burada qırq yigit [5] Qanturalıyı ögmişlər. Görəlim, xanım, necə ögmişlər. Aydır:

[6] Sultanım Qanturalı, qalqubanı yerindən durmadıñmı?
Yelisi [7] qara Qazılıq atu binmədiñmi
Arqu mili Ala dağı avlayuban-[8]quşlayuban?
Babañıñ ağ-ban eşigində
qaravaşlar inək [9] sağar görmədiñmi?
"Buğa, buğa!" dedikləri
qara inək buzağısı [10] degilmidir?

---

* Yəqin ki, katib "ətəgüə" yazmaq istəmişdir.

Alp ərənlər qırımından qayururdı.
Oldur, Sarı [11] donlu Selcan xatun köşkdən baqar,
Kimə baqsa, eşqiylə [12] oda yaqar!

Qanturalı Sarı donlu qız eşqinə [13] bir "hu!" dedi. "Mərə, bu-
D182 ğañızı qoyu veriñ, gəlsün!" – dedi. Buğanıñ [1] zəncirin aldılar, sa-
lı verdilər. Buynuzı almas cida kibi [2] Qanturalınıñ üzərinə sürdi.

Qanturalı adı [3] görklü Məhəmmədə salavat gətürdi. Buğa-
nıñ alnına bir yumruq [4] eylə urdı kim, buğayı göti üzərinə çö-
kürdi. Alnına [5] yumruğın dayadı, sürdi meydanıñ başına çıqar-
dı. [6] Çoq çalışdılar: nə buğa yeñər, nə Qanturalı yeñər. [7] Küt-
küt buğa solmağa başladı. Ağzı köpükləndi. [8] Qanturalı aydır:
"Bu dünyayı ərənlər aqlla bulmışlardır. [9] Bunuñ öñindən
sıçrayayım, nə hünərim varsa, ardından [10] göstərəyim!" – de-
di. Adı görklü Məhəmmədə salavat gətürdi. [11] Buğanıñ öñin-
dən savıldı, buğa buynuzı üzərinə [12] dikəldi. Quyruğından üç
kərrə götürüb yerə saldı. [13] Süñükləri xurd oldı. Basdı, boğaz-
D183 ladı. Pıçaq [1] çıqarıb dərisini yüzdi. Ətin meydanda qoyub, də-
risini [2] Təkürüñ öñinə gətürüb aydır: "Dañla qızıñı maña
verərsən", – [3] dedi.

Təkür aydır: "Mərə, qızı veriñ! Şəhərdən sürüñ, [4] çıqsun-gətsün!" – dedi. Təkürüñ qardaşı oğlı vardı, [5] aydır: "Canvərlər sərvəri aslandır, onuñla dəxi oyun [6] göstərsün, qızı andan soñra verəlüm!" – dedi.

Vardılar, [7] aslanı çıqardılar, meydana gətürdilər. Aslan hayqırdı, [8] meydanda nə qədər at varsa, qan qaşındı. Yigitləri [9] aydır: "Buğadan qurtuldı, aslandan necə qurtula?" – dedilər. [10] Ağlaşdılar. Qanturalı yigitlərin ağlar gördi. Aydır: [11] "Marə, alca qopuzum ələ aluñ, məni ögüñ! Sarı donlu [12] qız eşqinə bir aslandan dönəyimmi?" – dedi. Yoldaşları [13] burada soylamış, görəlim, xanım, nə soylamış, aydır:

D184 Sultanım [1] Qanturalı,
Ağca sazlar içində
Sarı gönlər görübən [2] taylar basan,
Öñ damarın dəlübən qanın soran,
Qara [3] polad uz qılıcdan qayıtmayan,

Ağca tozlu qatı yaydan dərsinməyən.
[4] Ağ yeləklü ötkün oxdan qayıqmayan
Canvərlər sərvəri [5] qağan aslan qıran
Ala köpək itinə kəndözin taladarmı?
[6] Alp yigitlər savaş güni
qırımından qayurırmı? – dedilər.
[7] Sarı donlı Selcan xatun köşkdən baqar,
Kimə [8] baqsa, eşqiylə oda yaqar!

Sarı donlu qız eşqinə [9] bir “hu!” dedi Qanturalı: “Mərə ka-
fir, aslanıñı qoy-ver [10] gəlsün!” – dedi. Qara polad uz qılıcım
yoq kim, qarvaşduğı [11] dəm iki biçəydim. Saña sığındım co-
mərdlər comərdi, ğəni [12] Tañrı, mədəd!” – dedi. Aslanı qoyu
verdilər. Sürdi [13] gəldi. Qanturalı bir kəpənəgi qapağına dola-
D185 dı, aslanıñ [1] pəncəsinə sunı verdi. Adı görklü Məhəmmədə
salavat [2] gətürdi. Aslanıñ alnın gözədüb bir yumruq eylə [3] urdı
kim, yumruq çənəsinə toqundı, ovatdı. Sügsünindən [4] tutdı,
belini üzdi. Andan götürüb yerə urdı. [5] Xurd oldı. Təkür öñinə
gəldi. Ayıtdı: “Yarın qızıñı [6] maña vergil!” – dedi.

Təkür aydır: “Qızı gətürüñ verüñ, bu [7] yigidi gözüm gördi,
köñlüm sevdi. Gərək dursun, [8] gərək getsün!” – dedi. Yenə
qardaşı oğlı aydır: “Canvərlər [9] sərhəngi dəvədir. Anuñla dəxi
oyunın oynasun, – dedi. [10] Andan soñra qızı verəvüz!” – dedi.

Çün inayət [11] Tañrıdan oldı, bəgüñ, paşanıñ himməti Qan-
turalıya[12] oldı. Təkür “Dəvəniñ ağzın yedi yerdən bağlañ!” – [13]
D186 dedi. Həsud kafirlər bağlamadılar, yülərin sıyırıb salı [1] ver-
dilər. Qanturalı qızlar, dəvəniñ qoltuğından girər, [2] fırlar-çıqar.
Sərxoş yigit həm iki canvərlə savaşmışdı. [3] Tayındı, düşdi. Altı
cəllad əñsəsinə gəldilər. [4] Yalıñ qılıc tutdılar. Burada yoldaş-
ları soylamış, [5] görəlim, xanım, nə soylamış:

Qalqubanı, Qanturalı, [6] yerindən durı gəldiñ,
Yelisi qara Qazılıq atıñ butun [7] bindiñ.
Ala gözlü yigitləriñ yanıña aldıñ.
Arxu beli [8] Ala dağı dünin aşdıñ,
Aqındılı suyın dünin keçdiñ,
[9] Qanlu kafir elinə dünin girdiñ.
Qara buğa gəldügində [10] xurd-xaş eylədiñ.

Qağan aslan gəldügində belini [11] bükdüñ.
Qara buğra gəldügində nə keçdiñ?
Qara-qara dağlardan [12] xəbər aşa.
Qanlu-qanlu sulardan hənir keçə.
Qalın Oğuz [13] elinə xəbər vara,
D187 Qañlı qoca oğlı Qanturalı [1] netmiş deyələr:
Qara buğa gəldügində qılçatmamış,
Qağan [2] aslan gəldügində belin bükmiş,
Qara buğra gəldigində [3] nə kiçikmiş?! –
deyələr.
Ulu-kiçi qalmaya, – söz aydına,
Qarı-qoca [4] qalmaya, – qu aydına.
Ağ saqallu babañ buñlu ola,
Qarıcıq olmuş [5] anañ qan-yaş dökə.
Xanım, qalqubanı yeriñdən durmaz [6] olsañ,
Altı cəllad əñsəñdə yalıñ qılıc tutar.
[7] Ğafillicə görklü başıñ kəsər.
Aşağadan yuqarı [8] baqmazmısan?
Qarşuña ala qaz gəldi, şahiniñ atmazmı[9]san?
Sarı donlu Selcan xatun
işarət edər [10] görməzmisən?
Səni dəvə burnından zəbun olur [11] dedilər,
bilməzmisən?
Sarı donlu Selcan xatun [12] köşkdən baqar,
Kimsə baqar, eşqlə oda yaqar!

D188 Sarı [13] donlu qız eşqinə bir “hu!” dedi. Qanturalı uru [1] durdı. Aydır: “Mərə, mən bu dəvəniñ burnına yapışcaq, [2] ol qız söziylə yapışdı, – derlər. Yarın Oğuz elinə [3] xəbər vara, dəvə əlində qalmışdı, qız qurtardı, – deyələr. [4] Mərə, qolca qopuzum çaluñ, ögüñ məni! Yaradan Qadir Tañrıya [5] sığundum. Bir buğradan dönəyinmi? İnşaallah, bunuñ dəxi [6] başın kəsəyim!” – dedi.

Yigitləri Qanturalıyı ögüp [7] soylamış, görəlim, xanım, nə soylamış:

Qab qayalar başında [8] yuva tutan,
Qadir, ulu Tañrıya yaqın uçan,

Mancılığı [9] ağır daşdan ğızıldayub
qatı enən,
Arı gölüñ [10] ördügin şaqıyub alan,
Qaba öykə dib yürürkən [11] dartub üzən,
Qarıncığı ac olsa, qalqub uçan,
[12] Cümlə quşlar sultanı çal qaraquş
Qanadıyla saqsağana [13] kəndözin şaqıdarmı?
D189 Alb yigitlər qırış güni qırımından [1] qayırırmı? – dedilər.
Sarı donlu Selcan xatun köşkdən [2] baqar
Kimə baqsa, eşqiylə oda yaqar!
Sarı donlı [3] qız eşqinə bir "hu!" – dedi.

Qanturalı adı görklü [4] Məhəmmədə salavat gətürdi. Dəvəyə bir dəpmə urdı. [5] Dəvə bağırdı. Bir dəxi urdı, dəvə ayağı üzərinə [6] durımadı, yıqıldı. Basub iki yerdən boğazladı. [7] Arqasından iki qayış çıqardı. Təkürüñ öñinə bıraqdı. [8] Aydır: "Aqınçılarıñ tirkəşi bağı, üzəngüsi qayışı [9] üzülür, dikməgə gərək olur", – dedi.

Təkür aydır: "Vallah, [10] bu yigidi gözüm gördi, köñlüm sevdi", – dedi. Qırq [11] yerdə otaq dikdirdi. Qırq yerdə qızıl ala gərdək [12] dikdirdi. Qanturalıyla qızı gətürüb, gərdəkə [13] qoydılar.

D190 Ozan gəldi, yelətmə çaldı. Oğuz yigidiniñ [1] öykəni qapardı, qılıcın çıqardı, yeri çaldı–[2]kərtdi. Ayıtdı kim, yer kibi kərtiləyin, topraq kibi [3] savrılayın, qılıcıma doğranayın, oxuma sancılayın, [4] oğlum doğmasun, doğarsa, on günə varmasun, [5] bəg babamıñ, qadın anamıñ yüzin görmədin bu gərdəkə [6] girərsəm!" – dedi. Evini çözdi. Qaytabanın bozlatdı, [7] qaraquçın kişnətdi. Dün qatdı, köçdi.

Yedi [8] gün yedi gecə yortdı. Oğuzuñ sərhədinə çıqdı. [9] Çadır dikdi. Qanturalı aydır:

Hey qırq eşüm, [10] qırq yoldaşım!
Qurban olsun sizə mənim başım!
Haq [11] Taala yol verdi, vardım.
Ol üç canvəri [12] öldürdüm.
Sarı donlı Selcan xatunı aldım–[13]gəldim.
Xəbər eyləñ, babam maña qarşu gəlsün! – dedi.

D191 [1] Qanturalı baqdı gördi bu qonduğı yerdə quğı [12] quşları,
durnalar, turaclar, kəkliklər uçarlar. Sovuq-[3]sovuq sular,
çayırlar-çəmənlər... Selcan xatun bu yeri [4] görklü gördi,
bəgəndi. Düşdilər, işrətə məşğul oldılar. [5] Yedilər, içdilər.

Ol zamanda Oğuz yigitlərinə nə qəza [6] gəlsə, uyxudan
gəlürdi. Qanturalınıñ uyxusı [7] gəldi, uyudı. Uyurkən qız aydır:
“Mənim möhüblərim çoqdur. [8] Nagah alğarla gəlməsün, tutu-
ban yigidim öldürməsünlər! [9] Ağca yüzlü mən gəlini tutub,
atam-anam evinə ilətməsünlər! – [10] dedi. Qanturalınıñ atını
için tutdı, geydirdi. [11] Kəndü dəxi için tutdı, geyindi. Sügüsin
əlinə aldı, [12] bir yüksək yerə çıqdı, gözlədi.

Məgər, xanım, təkür peşiman [12] oldı. “Üç canvər öldürdi-
D192 giçün bir qızcığazımı [1] aldı-getdi”, – dedi. İçin qara donlı, gög
dəmürli [2] altı yüz kafir seçdi. Gecə-gündüz yortdılar. Naga-
handan yetdilər. [3] Qız hazır idi. Baqdı gördi, ilğar yetdi. Atın [4]
oynatdı, Qanturalınıñ üzərinə gəldi. Soylamış, görəlim, [5] xa-
nım, nə soylamış, aydır:

Ğafil olma, qara başıñ qaldır, yigit!
[6] Ala qıyma görklü gözüñ açğıl, yigit!
Qarularıñdan ağ əlləriñ [7] bağlanmadın,
Ağ alnuñ qara yerə dəpilmədin,
Ğafillə görklü başıñ [8] kəsilmədin,
Alca qanıñ yer yüzinə dökülmədin,
Yağı yetdi, [9] düşmən irdi,
Nə yatursan, qalqğıl!
Qab qayalar oynamadın, [10] yer obruldı.
Qarı bəglər ölmədin el boşaldı.
Qurcuşuban-[11]uğraşuban dağdan endi.
Yasanuban üzəriñə yağı [12] yetdi.
Yatacaq yermi bulduñ, yurtmı bulduñ,
noldı saña? – [13] deyü çağırdı.

D193 Qanturalı sərmərdi, oyandı; uru [1] durdı. Aydır: “Nə söy-
lərsən, görklüm?” – dedi. Aydır: “Yigidim, [2] üzəriñə yağı gəl-
di. Oyarmaq bəndən, savaşuban hünər [3] göstərmək səndən!”
– dedi. Qanturalı gözin açdı, [4] qapaqların qaldırdı. Gördi gəlin

at üzərində geyinmiş, [5] sügüsi əlində. Yer öpdi. Aydır:
“Amənna və səddəqna! Məqsudımız [6] Haq Taala dərgahında
hasil oldı” deyüb, arı sudan [7] abdəst aldı. Ağ alnını yerə qodı.
İki rikət namaz qıldı, [8] atına bindi. Adı görklü Məhəmmədə
salavat gətürdi. Qara [9] donlı kafirə at saldı. Qarşu vardı.

Selcan [10] xatun at oynatdı. Qanturalınıñ öñinə keçdi. [11]
Qanturalı aydır: “Görklüm, qanda gedərsən?” – dedi. Aydır: [12]
“Bəg yigit, baş əsən olsa, börk bulınmazmı olur? [13] Bu gələn
D194 kafir çoq kafirdir. Savaşalım, dögüşəlim: ölənimiz [1] ölsün, diri
qalanımız odaya gəlsün!” – dedi. Burada [2] Selcan xatun at sal-
dı, qırımın basdı. Qaçanın [3] qovmadı. “Aman” deyəni öldür-
mədi. Eylə sandı ki, [4] yağı basıldı. Qılıcınıñ balçağı qan oda-
ya gəldi. [5] Qanturalıyı bulımadı.

Ol məhəldə Qanturalınıñ [6] babası-anası çıqa gəldi. Gördi-
lər kim, bu gəlin [7] kişiniñ qılıcınıñ balçağı qanlu, oğlı görün-
məz. [8] Xəbər sordılar, görəlim, necə sordılar. Anası aydır:

Anam [9] kişi, qızım kişi,
Ala dañla yeriñdən durı gəldiñ,
                    oğulı [10] tutdurduñmı?
Ğafillə görklü başın kəsdirdiñmi?
“Qadın [11] ana, bəg baba” deyü
                    bozlatdıñmı?
Sən gəlürsən, bir bəbəgüm [12] görünməz.
                    Bağrım yanar, –
Ağız-dildən bir qaç kəlmə xəbər maña!
[13] Qara başım qurban olsun, gəlin, saña!

D195 Qız bildi kim, [1] qayın anası, qayın atasıdır. Qamçıyla işarət
qılub: [2] “Odaya düşüñ. Nə yerdə enir-qarışur toz varsa [3] və nə
yerdə qarğa-quzğun oynarsa, anda istəyəlüm!” – dedi. [4] Atına
mahmuz urdı. Bir yüksək yerə çıqdı, gözlədi; [5] gördi kim, bir
dərəniñ içində toz gah dərilür, gah dağılur. Üzərinə gəldi,
gördi kim, Qanturalınıñ [7] atını oxlamışlar. Göziniñ qapağın ox-
şamışlar, yüzini [8] qan bürimiş. Durmaz qanın silər. Kafirlər
üyişər, qılıcın [9] yalın eylər, kafiri öñinə qatub qovar.

Selcan xatun [10] bunı böylə gördi, içinə od düşdi. Bir bölük
qaza [11] şahin girmiş kibi kafirə at saldı. Bir ucından [12] qırub ka-

firi, ol bir ucına çıqdı. Qanturalı [13] baqdı gördi kim, bir kimsənə
D196 yağıyı öñinə qatmış, qovar. [1] Selcan idügin bilmədi, qaqıdı. Bu arada soylamış, [2] görəlim, xanım, nə soylamış, aydır:

Qalqubanı yerindən duran [3] yigit, nə yigitsən?
Yelisi qara Qazılıq atına binən yigit, [4] nə yigitsən?
Qafillücə başlar kəsən,
Dəstursızca mənim [5] yağıma girən yigit, nə yigitsən?
Dəstursızca yağıya girmək
[6] bizim eldə eyib olur.
Mərə, yüri!
Toğan quş oluban [7] uçayınmı?
Saqalıñla boğazıñdan tutayınmı?
Ğafillücə [8] səniñ başıñ mən kəsəyinmi?
Alca qanıñ yer yüzinə tökəyinmi?
[9] Qara başıñ tərkiyə asayınmı?
Mərə, qəzası yetmiş yigit, nə yigit[10]sən,
qayıda döngil! – dedi.

Selcan xatun burada soylamış, [11] görəlim, xanım, nə soylamış, aydır:

Hey, yigidim, bəg yigidim!
[12] Qaytabanlar torumından dönərmi olur?
Qaraqucda Qazılıq [13] atlar
quluncığın dəpərmi olur?
Ağ ayılda ağca qoyun
D197 quzıcığın [1] süsərmi olur?
Alp yigitlər, yeg yigitlər
görklüsinə [2] qıyarmı olur?
Yigidim, bəg yigidim!
Bu yağınıñ bir ucın [3] maña,
bir ucın saña! – dedi.

Qanturalı bildi kim, bu yağı [4] basub dağıdan Selcan xatundur. Bir tərəfinə dəxi [5] kəndü girdi, qılıc dartub yüridi. Kafir başın [6] kəsdi. Yağı basıldı, düşmən sındı.

Selcan xatun [7] Qanturalıyı at ardına aldı, çıqdı. Gedərək Qan[8]turalınıñ fikrinə bu gəldi kim:

Qalqubanı, Selcan xatun, [9] durduğıñda,
Yelisi qara Qazılıq atuñ bindügiñdə,
Babamıñ [10] ağ-ban eşiginə düşdügiñdə,
Oğuzuñ ala gözli qızı-[11]gəlini bildıqda,
Hər kişi sözin söylədikdə,
Sən orada [12] durasan, ögyəsən,
“Qanturalı zəbun oldı,
At [13] ardına aldım çıqdım” deyəsən.
Gözüm döndi, köñlüm getdi.
D198 [1] Öldürürəm səni! – dedi.

Selcan xatun hal nə [2] idügin bilüb, soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Bəg yigit, [3] ögünərsə, ər ögünsün-aslandır!
Ögünməklik övrətlərə [4] böhtandır.
Ögünməklə övrət ər olmaz.
Ala yorğan içində [5] səniñlə dolaşmadım.
Datlu damaq tutubanı soruşmadım.
[6] Al duvağım altından söyləşmədim.
Tez sevdiñ, tez usandıñ, qavat [7] oğlı, qavat!
Qadir Allah bilür, mən saña
munisəm, yaram, qıyma [8] maña! – dedi.

Qanturalı aydır: “Yoq, əlbətdə öldürsəm gərək[9]dir”, – dedi. Qız qaqıdı aydır: “Mərə, qavat oğlı, qavat! [10] Mən aşağa qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. [11] Mərə, qavat oğlı, oxiñlamı, qılıcıñlamı? Gəl bərü, söyləşəlim!” – [12] dedi. Atın dəpdi. Bir yüksək yerə çıqdı. Sadaqından [13] doqsan oxın
D199 yerə dökdi. İki oxiñ dəmrənin [1] çıqardı: birin gizlədi, birin əlinə aldı. Dəmrənlü oxla [2] atmağa qıyamadı. Aydır: “Yigit, at oxuñı!” Qanturalı [3] aydır: “Qızlarıñ yolı əvvəldir, əvvəl sən at!” – dedi. Qız [4] bir oxla Qanturalıyı atdı şöylə kim, başında olan [5] bit ayağına endi. İlərü gəlib Selcan xatunını qucaqlayıb

[6] barışmışlar-soruşmışlar. Qanturalı soylamış, görəlim, [7] xanım, nə soylamış, aydır:

Yalab-yalab yalabıyan incə donlum!
[8] Yer basmayıb yüriyən
Qar üzərinə qan dammış
kibi qızıl [9] yañaqlım!
Qoşa badam dar ağızlum!
Qələmçilər çaldığı [10] qara qaşlım!
Qurması qırq tutam qara saçlım!
Aslan [11] uruğı, sultan qızı,
öldürməgə mən səni qıyarmıdım?!
[12] Öz canıma qıyam, mən saña qıymayam;
Mən səni sınardım, – dedi.

[13] Selcan xatun dəxi bu arada soylamış, görəlim, xanım, nə
D200 [1] soylamış, aydır:

Qalqubanı yerimdən durar idim,
Yelisi [2] qara Qazılıq atuma binərdim.
Babamıñ ağ-ban evindən [3] çıqardım.
Arqu beli, Ala dağı avlar idim.
Ala-geñ sığın-[4]keyik qovar idim.
Darıyanda bir oxla nəmlərdim
Dəmrənsüz [5] oxla, yigit, səni sınar idim!
Öldürməgə, yigidim,
mən [6] səni qıyarmıdım?! – dedi.

Irağından-yaqınından gəlişdilər. [7] Gizlü yaqa tutuban yiləşdilər. Datlu damağ verübən soruşdılar, [8] ağ-boz atlar binübən yortuşdılar, bəg babası yanına [9] irişdilər.

Babası oğlancuğın gördi, Allaha şükrlər [10] eylədi. Oğlıyla, gəlinlə Qañlı qoca Oğuza girdi. [11] Gög ala görklü çəmənə çadır dikdi. Atdan aygır[*], [12] dəvədən buğra, qoyundan qoç qırdırdı. Dügün etdi. Qalın [13] Oğuz bəglərin ağırladı. Altunluca günlü-
D201 gin dikübən, [1] Qanturalı gərdəginə girüb, muradına-məqsudına

---

[*] Ensiklopediyada "atdan-ayğırdan" getmişdir. – Red.

irişdi.[2] Dədəm Qorqut gəlüb şadlıq çaldı. Boy boyladı, [3] soyı soyladı. Ğazi ərənlər başına nə gəldügin [4] söylədi:

İmdi qanı dedigim bəg ərənlər?
Dünya mənim deyənlər?
[5] Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli, [6] gedimli dünya,
Soñ ucı ölümli dünya?
Əcəl gəldügində [7] arı imandan ayırmasun!
Qadir səni namərdə möhtac [8] etməsün!
Allah verən ümidiñ üzülməsin!
Ağ alnuñda [9] beş kəlmə dua qıldıq, qəbul olsun!
"Amin" deyənlər didar [10] görsün!
Yığışdırsun, duruşdursun günahıñızı
[11] Adı görklü Məhəmməd Mustafaya bağışlasun,
xanım, hey!!!

# [12] QAZILIQ QOCA OĞLI YEGNƏK BOYINI BƏYAN EDƏR, [13] XANIM, HEY!

D202 Qam Ğan oğlı xan Bayındır yerindən durmışdı, [1] qara ye-
riñ üzərinə ağ-ban evin dikmişdi. Ala sayvan gög [2] yüzinə
aşanmışdı. Biñ yerdə ipək xalıcası döşənmişdi. [3] İç Oğuz, Daş
Oğuz bəgləri söhbətə dərilmişdi. Yemə-içmə idi.

Qazılıq [4] qoca, deyərlərdi, bir kişi var idi. Bayındır xanıñ
vəziri [5] idi. Şərabıñ itisi başına çıqdı. Qaba diziñ üzərinə [6]
çökdi. Bayındır xandan aqın dilədi. Bayındır xan [7] dəstur verdi:
“Nerəyə dilərsəñ, var!” – dedi.

Qazılıq [8] qoca iş görmiş, iş yarar adam idi. Yarar qocaların
[9] yanına cəm eylədi. Yadığı-yarağıyla yola girdi. Çoq [10] dağ-
lar, dərə-təpə keçdi. Günlərdə bir gün Düzmürd qalasına [11]
gəldi. Qara dəniz kənarında idi. Aña irübən qondılar.

Ol [12] qalanıñ bir təküri var idi. Adına Arşun oğlı Dirək [13]
D203 təkür deyərlərdi*. Ol kafiriñ altmış arşun qaməti [1] vardı. Alt-
mış batman gürz salardı. Qatı-möhkəm yay [2] çəkərdi.

Qazılıq qoca qalaya yetdüginləyin cəngə [3] başladı. Pəs ol
təkür qaladan daşra çıqdı. [4] Meydana girdi, ər dilədi. Qazılıq
qoca anı gördüginləyin [5] yel kibi yetdi, yeləm kibi yapışdı.
Kafiriñ ənsəsinə [6] bir qılıc urdı. Zərrə qədər kəsdirəmədi.
Növbət kafirə [7] dəgdi. Ol altmış batman gürzlə Qazılıq qocaya
dəpərə [8] tutub çaldı. Yalan dünya başına dar oldı. [9] Düdük kibi
qan şorladı. Qazılıq qocayı qarmalayıb-[10]tutub qalaya qoy-
dılar. Yigitləri durmayıb qaçdılar.

[11] Qazılıq qoca tamam on altı yil hasarda tutsaq [12] oldı. Soñ-
ra Əmən deyərlərdi, bir kişi altı kərrə varub [13] hasarı alımadı.
D204 Məgər, xanım, Qazılıq qoca tutsaq [1] olduğı vaqt bir oğlancığı
vardı, bir yaşında [2] idi. On beş yaşına girdi, yigit oldı. Babasın
[3] öldi bilürdi. Yasaq eyləmişlərdi. Tutsaq olduğın [4] oğlandan
sıqlarlardı. Ol oğlanıñ adına Yegnək der[5]lərdi*. Günlərdə bir
gün Yegnək oturub bəglər ilə söhbət [6] edərkən Qaragünə oğlı
Budağ ilə uz düşmədi. Bir-birinə [7] söz atışdılar.

---

* Ensiklopediyada “derlərdi” getmişdir. – Red.

Budaq aydar: “Bunda laf urub nedirsən? [8] Çünki ər dilərsin, varub babañı qurtarsaña! Nə on [9] altı yıldır, tutsaqdır?” – dedi.

Yegnək bu xəbəri eşidcək [10] yürəgi oynadı, qara bağrı sarsıldı. Qalqdı, [11] Bayındır xanıñ nəzərinə vardı. Yüz yerə qodı, aydır:

[12] Alan sabah sapa yerdə dikiləndə
ağ-ban evli!
Atlas ilə [13] yapılanda
gög sayvanlı!
Tövlə-tövlə çəkiləndə
şahbaz atlı!
D205 [1] Çağıruban dad verəndə
yola çavuşlı!
Yağ töküləndə bol [2] nemətlü!
Qalmış yigit arxası,
Bizə miskin umudı!
[3] Türküstanıñ dirəgi!
Tülü quşuñ yavrısı!
Amit soyınıñ [4] aslanı!
Qaracığıñ qaplanı!
Dövlətlü xan, mədəd!
Maña ləşkər [5] ver,
məni babam tutsaq olduğı qalaya göndər! – dedi.

Bayındır [6] xan buyurdı: “Yigirmi dörd sancaq bəgi gəlsün!” [7] dedi. Əvvəl Dəmür qapu Dərvəndində bəg olan, qarğu sügü [8] ucında ər bögürdən, qırıma yetdügində kimsən deyü sormayan [9] Qıyan Selcik oğlı Dəli Dondar səniñlə bilə varsun! – [10] dedi. Ayğır gözlər yüzdürən, əlli yeddi qalanıñ kəlidin [11] alan İlək qoca oğlı Dülək Uran bilə varsun! – [12] dedi. Qoşa bürcdən qayın oqı əglənməyən Yağrıncı oğlı [13] İlalmış
D206 səniñlə bilə varsun! – dedi. Üç kərrə yağı görməsə, [1] qan ağlayan Toğsun oğlı Rüstəm bilə varsun! – dedi. [2] Əjdəhalar ağzından adam alan Dəlü Əvrən bilə varsun! [3] “Yeriñ bir ucından bir ucına yetim!” deyən Savqan Sarı [4] bilə varsun! Sayılmağla Oğuz ərənləri dükənsə olmaz. [5] Bayındır xan yigirmi

dört bahadır sancaq bəgini Yegnəgə [6] yoldaşlığa bilə qoşdı.
Bəglər cəm olub, yaraqların gördilər. [7] Məgər ol gecə Yegnək
düş gördi. Düşin yoldaşlarına [8] soyladı, görəlim, xanım, nə
söylədi. Aydır: "Bəglər, ğafillücə [9] qara başım gözüm uyxuda
ikən düş gördi. Ala gözüm açuban, [10] dünya gördüm. Ağ-boz
atlar çapdırır [11] alpanlar gördüm. Ağ aşıqlı alpları yanıma sal-
dım. Ağ saqallu Dədə Qorqutdan ögüt [12] aldım. Ala yatan qara
dağları aşdım. İlərü yatan Qara dəñizə [13] girdim. Gəmi yapub,
D207 kömləgim çıqardım, yelkən qurdum. İlərü [1] yatan dəñizi dəl-
dim-keçdim. Ötəgi qara dağıñ bir yanında [2] altı başı balqar* bir
ər gördüm. Qalqubanı yerimdən uru durdum. [3] Qarğu dillü uz
sügümi qapdım, qarşulayu ol ərə vardum. Qarşusından ol əri
sancasum vaqt dikdim, göz ucıyla [5] ol ərə baqdım. Dayım
Əmən imiş, anı bildim. Döndüm ol ərə [6] salam verdim. Oğuz
ellərində kimsən, dedim. Qapaqların qaldırıb [7] yüzümə baqdı:
"Oğul, Yegnək, qanda gedərsən?" – dedi-söylədi. [8] Mən ayıt-
dım: "Düzmürd qalasına gedərəm. Babam anda tutsaq imiş",
– [9] dedim. Burada dayım maña soyladı, aydır:

Yettügimdə yel [10] yetməzdi yedi urğunum,
Yeni Bayırıñ qurdına bəñzərdi [11] yigitlərim.
Yedi kiş ilə qurulurdı mənim yayım!
Qayın dalı yeləgindən [12] sum altunlu mənim oxum!
Yel əsdi, yağmur yağdı, buñı [13] qopdı,
Yedi qatla vardım, ol qalayı alımadım,
gerü döndüm.
D208 [1] Məndən dəxi ər qopmayasan, Yegnəgüm, dön! – dedi

Yegnək düşində [2] dayısına soylamış, aydır:

Qalqubanı yerindən durduğında
Ala gözlü bəg [3] yigitləri yanına salmadıñ.
Adı bəllü bəglərlə sən yortmadıñ.
Beş aqçalu [4] əlüfəçilər yoldaş etdiñ.
Anunçun ol qalayı sən alımaduñ! – [5] demiş.

---

* Bu sözləri "alnı-başı balqır" oxumaq münasibdir. "Balqır"ın qədim türkcədə "yaralı" mənasını nəzərə aldıqda "alnı-başı yaralı bir ər gördüm" cümləsi aydın fikir bildirir. – Red.

Yegnək genə aydır:

Kəsə-kəsə yeməgə yəxni yaxşı.
Kəsər gündə [6] sərçeşmə yügrək yaxşı.
Daim gəldügində dursa, dövlət yaxşı.
[7] Bildügin unutmasa, aqıl yaxşı.
Qırımından dönməsə-qaçmasa, [8] ərlik yaxşı, – dedi.
Bu düşi Yegnək yoldaşlarına hekayət [9] eylədi.

Məgər dayısı Əmən ol arada yaqın idi. Cümlə [10] bəglərlə
yoldaş olub getdilər. Ta ki, Düzmürd qalasına yetdilər. [11] Çev-
rə alub getdilər, qondılar. Çünki kafirlər bunları gördilər. [12]
Arşun oğlı Dirək təkürə xəbər verdilər. Ol məlun [13] dəxi qa-
D209 ladan taşı gəlüb, bunlara müqabil oldı, ər dilədi. [1] Qıyan Sel-
cik oğlı Dəli Dondar yerindən durı gəldi. Altmış [2] tutam sür
cidasın qoltuq qısub, ol kafiri qarşusından [3] süsəm dedi, süsə-
mədi. Kafir təkür qarmalayıb zərb etdi. [4] Sügüsin çəkdi, əlin-
dən aldı. Ol altmış batman gürz ilə [5] Dondarı dəpərə tutub çal-
dı. Geñ dünya başına dar oldı. [6] Qazılıq atın döndərdi, qayıda
döndi. Andan Dönə bilməz Dülək Uran [7] altı pərlü çomağıyla
at dəpüb, gəlüb yuqarıdan aşağa kafiri [8] qatı urdı, alımadı. Tə-
kür qarmalayıb əlindən çomağın aldı; [9] anı dəxi gürz ilə urdı.
Ol dəxi Qazılıq atın döndərdi, [10] qayıda döndi. Xanım, yigirmi
dört sancaq bəgi təkür əlində [11] zəbun oldı.

Pəs Qazılıq qoca oğlı Yegnək-tazə [12] yigitcik Yaradan Al-
laha sığındı. Bizəval məbudı ögdi. [13] Aydır:

Yucalardan yucasan,
Kimsə bilməz necəsən, əziz Tañrı!
D210 [1] Anadan toğmadıñ sən, atadan olmadıñ.
Kimsə rizqin yemədüñ.
[2] Kimsəyə güc etmədiñ.
Qamu yerdə əhədsən, Allahu səmədsən!
Adəmə sən [3] tac urduñ,
Şeytana lənət qıldıñ.
Bir suçdan ötüri [4] dərgahdan sürdüñ.
Nəmrud gögə ox atdı,
Qarnı yarıq [5] balığı qarşu tutduñ.

Ululuğuña həddiñ,
səniñ boyuñ-qəddiñ [6] yoq!
Ya cismlə cəddiñ yoq!
Urduğın ulatmayan ulu Tañrı!
[7] Basduğın bəlürtməyən bəllü Tañrı!
Götürdügin gögə [8] yetürən görklü Tañrı!
Qaqıduğın qəhr edən qəhhar Tañrı!
[9] Birligünə sığındım, çəlabım,
Qadir Tañrı!
Mədəd səndən!
[10] Qara donlu kafirə at dəpərəm,
işümi sən oñar! – dedi.

[11] Həman dəm at saldı. Yel kibi yetdi, yeləm kibi yapışdı. [12] Kafiriñ çigninə bir qılıc urdı. Geyimini-keçimini doğradı. [13]
D211 Altı parmaq dərinligi zəxm irişdirdi. Qara qanı şorladı. [1] Qara sığırı soqmanı dolu qan oldı. Qara başı buñaldı, [2] buñlu oldı. Haman döndi, qalaya qaçdı. Yegnək ardından [3] yetdi. Hasar qapusına girmişkən qara polat uz qılıca [4] əñsəsinə eylə çaldı kim, başı tob kibi yerə düşdi. [5] Andan Yegnək atın döndərdi, ləşkərə gəldi...

Tutsaq olan [6] Qazılıq qocayı salı vermişlər. Çıqub gəldi. “Hay, [7] bəg yigitlər, kafiri kim öldürdi?” deyü soylamış, görəlim, xanım, [8] nə soylamış, aydır:

Qaytabanıñ mayasını yüklü qodum,
Nərmidir, [9] mayamıdır, anı bilsəm.
Qara ayılum qoyunını yüklü qodum,
Qoçmıdır, [10] qoyunmıdır, anı bilsəm.
Ala gözlü görklü halalım yüklü qodum.
[11] Erkəkmidir, qızmıdır, anı bilsəm.
Mərə, bəg yigitlər, xəbər [12] maña,
Yaradanıñ eşqinə! – dedi.

Yegnək burada soylamış, [13] görəlim, xanım, nə soylamış, aydır:

D212 Qaytabanıñ mayasını yüklü [1] qoduñ, –
nər oldı!

Qara ayıllu qoyunıñı yüklü qoduñ, –
qoç oldı!
[2] Ala gözlü görklü halalıñ yüklü qoduñ, –
aslan oldı! – dedi.

[3] Yegnək babasıyla görüşdi. Əldən qalan bəglər görüşdi. Pəs bir [4] uğurdan bəglər hasara yüriş etdilər, yağmaladılar.

Babasıyla Yegnək [5] gizlü yaqa tutuban yiləşdilər. İki həsrət bir-birinə buluşdılar; issüz [6] yeriñ qurdı kibi ulaşdılar. Tañrıya şükrlər qıldılar. Qalanıñ [7] kəlisasın yıqub, yerinə məscid yapdılar. Əziz Tañrı adına qudbə [8] oqıtdılar. Quşuñ ala qatını, qumaşıñ arusını, qızıñ gögçəgini, [9] doquzlama çırğab çuqa Bayındır xana pəncik çıqardılar. [10] Baqisin ğazilərə bəxş etdilər. Döndilər, evlərinə gəldilər.

[11] Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı. [12] Bu oğuznamə Yegnəgiñ olsun! – dedi. Yum verəyin, xanım:

[13] Yerlü qara dağlaruñ yıqılmasun!
D213 Kölgəlicə qaba ağacıñ [1] kəsilməsün!
Ağ saqallu babañ yeri uçmaq olsun!
Ağ [2] birçəklü anañ yeri behişt olsun!
Axır-soñı arı [3] imandan ayırmasun!
Ağ alnunda beş kəlmə dua qıldıq,
qəbul [4] olsun!
Günahıñızı adı görklü
Məhəmməd Mustafa yüzi [5] suyına bağışlasun!
Xanım, hey!!!

## BASAT DƏPƏ[6]GÖZİ ÖLDÜRDÜGİ BOYI BƏYAN EDƏR, XANIM, HEY!

[7] Məgər, xanım, bir gün Oğuz oturarkən üstinə yağı gəldi. [8] Dün içində ürkdi, köçdi. Qaçub gedərkən Aruz [9] qocanıñ oğlancığı düşmiş, bir aslan bulup götürmiş, [10] bəsləmiş. Oğuz genə əyyamla gəlüb, yurdına qondı. Oğuz [11] xanıñ ilqıçısı gəlüb xəbər gətürdi. Aydır: “Xanım, sazdan [12] bir aslan çıqar, at urar, apul-apul yüriyişi adam kibi. [13] At basuban, qan sümürər”.

D214 Aruz aydır: “Xanım, ürkdigimiz [1] vaqtın düşən mənim oğlancığımdır, bəlkə?” – dedi. Bəglər bindilər. [2] Aslan yatağı üzərinə gəldilər. Aslanı qaldırıb oğlanı [3] tutdılar. Aruz oğlanı alub evinə gətürdi. Şadılıq [4] etdilər. Yemə-içmə oldı. Amma oğlanı nə qədər götürdilərsə, durmadı, [5] gerü aslan yatağına vardı. Gerü tutub gətürdilər.

Dədəm Qorqud [6] gəldi. Aydır: “Oğlanım, sən insansan. Heyvanla müsahib [7] olmağıl! Gəl, yaxşı at bin. Yaxşı yigitlər ilə eş yort! – [8] dedi. – Ulu qardaşıñ adı Qıyan Selcikdir. Səniñ [9] adıñ Basat olsun! Adıñı mən verdim, yaşuñı Allah [10] versün!” – dedi. Oğuz bir gün yaylaya köçdi. Aruzuñ [11] bir çobanı vardı. Adına Qoñur qoca Sarı çoban [12] deyərlərdi*. Oğuzuñ öñincə bundan əvvəl kimsə köçməzdi.

D215 [13] Uzun biñar diməklə məşhur bir biñar vardı. Ol biñara [1] pərilər qonmışdı. Nagahandan qoyun ürkdi. Çoban ərkəcə [2] qaqıdı, ilərü vardı. Gördi kim, pəri qızları qanat [3] qanada bağlamışlar, uçarlar. Çoban kəpənəgini üzərlərinə [4] atdı. Pəri qızınıñ birini tutdı. Tama edüb, dərhal [5] cima eylədi. Qoyun ürkməgə başladı. Çoban qoyunuñ [6] öñinə səgirtdi. Pəri qızı qanat urub uçdı. [7] Aydır: “Çoban, yil tamam olıcaq məndə əmanətiñ var, gəl, al! – [8] dedi. – Amma Oğuzuñ başına zaval gətürdüñ”, – dedi.

[9] Çobanıñ içinə qorxu düşdi. Amma qızıñ dərdindən [10] bəñizi sarardı.

Zamanla Oğuz genə yaylaya köçdi. [11] Çoban genə bu biñara gəldi. Genə qoyun ürkdi. Çoban ilərü [12] vardı. Gördi kim,

---

* Ensiklopediyada “derlərdi” getmişdir. – Red.

bir yığanaq yatur, yıldır-yıldır yıldırır. [13] Pəri qızı gəldi. Ay-
D216 dır: "Çoban, əmanətiñ gəl, al! Amma [1] Oğuzuñ başına zaval
gətürdüñ!" – dedi. Çoban bu [2] yığanağı görcək ibrət aldı. Ge-
rü döndi. Sapan [3] daşına tutdı. Urduqca böyüdi. Çoban yığana-
ğı [4] qodı qaçdı, qoyun ardına düşdi.

Məgər ol dəm Bayındır [5] xan bəglər ilə seyrana yetmişlərdi.
Bu biñarıñ üzərinə gəldilər. [6] Gördilər kim, bir ibrət nəsnə ya-
tur, başı-göti bəlürsiz. [7] Çevrə aldılar. Endi bir yigit bunı dəpdi.
Dəpdikcə böyüdi. [8] Bir qaç yigit dəxi endilər, dəpdilər. Dəp-
diklərincə böyüdi. [9] Aruz qoca dəxi enüb dəpələdi, mahmuzı to-
qundı. [10] Bu yığanaq yarıldı, içindən bir oğlan çıqdı. Gövdəsi [11]
adam, dəpəsində bir gözi var. Aruz aldı bu oğlanı [12] ətəginə sar-
dı. Aydır: "Xanım, munı maña veriñ, oğlum Basatla [13] yaşlı-
yayın!" – dedi. Bayındır xan "Səniñ olsun!" – dedi.

D217 [1] Aruz Dəpəgözi aldı, evinə gətürdi. Buyurdı, bir dayə [2]
gəldi. Əmcəgini ağzına verdi. Bir sordı, olanca südin [3] aldı. İki
sordı, qanın aldı. Üç sordı, canın [4] aldı. Bir qaç dayə gətürdi-
lər, həlak etdi. Gördilər [5] olmaz, "Süd ilə bəsliyəlim" – dedi-
lər. Gündə bir qazan süd yetməzdi. [6] Bəslədilər, böyüdi, gəzər
oldı. Oğlancıqlarla oynar oldı. [7] Oğlancıqlarıñ kiminüñ burnın,
kiminüñ qulağın yeməgə başladı. [8] Əlhasili, ordı bunuñ ucın-
dan qatı incindilər. Aciz [9] qaldılar. Aruza şikayət edüb ağlaş-
dılar. Aruz, Dəpə[10]gözi dögdi-sögdi, yasaq eylədi, esləmədi.
Axır [11] evindən qodı.

Dəpəgöziñ pəri anası gəlüb oğlınıñ [12] parmağına bir yüzük keçür-
di. "Oğul, saña ox batmasun, [13] tənüñi qılıc kəsməsün!" – dedi.

D218 Dəpəgöz Oğuzdan çıqdı, [1] bir yuca dağa vardı. Yol kəsdi,
adam aldı, böyük [2] hərami oldı. Üzərinə bir qac adam göndər-
dilər. Ox atdılar, [3] batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə
sancdılar, [4] ilmədi. Çoban-çoluq qalmadı, həb yedi. Oğuzdan
[5] dəxi adam yeməgə başladı. Oğuz yığılub üzərinə vardı. [6]
Dəpəgöz görüb qaqıdı. Bir ağacı yerindən qopardı. [7] Atub
əlli-altmış adam həlak eylədi. Alplar başı Qazana [8] zərb urdı,
– dünya başına dar oldı.

Qazanıñ qardaşı [9] Qaragünə Dəpəgöz əlində zəbun oldı.
Dözən oğlı [10] Alp Rüstəm şəhid oldı.

Uşun qoca oğlı kibi [11] pəhlivan əlində şəhid oldı. Aruq
candan iki [12] qarındaşı Dəpəgöz əlində həlak oldı. Dəmür donlı
D219 [13] Mamaq əlində həlak oldı. Bığı qanlu Bügdüz Əmən [1] əlində
zəbun oldı. Ağ saqallu Aruz qocaya qan qusdurdı. [2] Oğlı Qıyan
Selcügüñ ödi yarıldı. Oğuz Dəpəgözə [3] kar qılmadı, ürkdi qaç-
dı. Dəpəgöz çevürüb, öñin [4] aldı. Oğuzı salı vermədi, gerü ye-
rinə qondurdı. [5] Əlhasil, Oğuz yedi kərrə ürkdi. Dəpəgöz öñin
alub, [6] yedi kərrə yerinə gətürdi. Oğuz Dəpəgöz əlində tamam
zəbun [7] oldı. Vardılar, Dədə Qorqutı çağırdılar. Anuñla danış-
dılar. [8] "Gəlüñ, kəsim kəsəlüm!" – dedilər.

Dədəm Qorqudı Dəpəgözə göndərdilər. [9] Gəldi, salam ver-
di. Aydır: "Oğul, Dəpəgöz, Oğuz əlüñdə [10] zəbun oldı, buñal-
dı. Ayağıñ toprağına məni saldılar. [11] Saña kəsim verəlim, de-
yərlər"*, – dedi. Dəpəgöz aydır: "Gündə [12] altmış adam veriñ
yeməgə!" – dedi. Dədə Qorqut aydır:

"Bu vəchlə [13] sən adam qomaz, dükədərsən, – dedi. –
D220 Amma gündə iki adam ilə [1] beş yüz qoyun verəlim!" – dedi.

Dədə Qorqud böylə digəc [2] Dəpəgöz aydır: "Xoş, öylə ol-
sun! Əvət, həm maña iki [3] adam veriñ, yeməgüm bənim bişür-
sün, mən yiyəyim!" – dedi.

Dədə [4] Qorqud döndi, Oğuza gəldi. Aydır: "Buñlu qoca ilə [5]
Yapağlu qocayı Dəpəgözə verüñ, aşın pişürsün!" – dedi. [6] "Və
həm gündə iki adam ilə beş yüz qoyun istədi", – dedi. Bunlar
[7] dəxi razı oldı. Dört oğlı olan birin verdi, [8] üçi qaldı. Üç olan
birin verüb iki qaldı. [9] İki olan birin verdi, biri qaldı.

Qapaqqan derlər, [10] bir kişi var idi. İki oğlı var idi. Bir
oğlın verüb, [11] biri qalmış idi. Gerü növbət dolanub, aña gəl-
mişdi. Anası [12] fəryad edüb ağladı, zarlıq eylədi. Məgər, xa-
nım, Aruz oğlı [13] Basat ğəzaya getmiş idi. Ol məhəldə gəldi.
D221 Qarıcıq aydır: [1] "Basat şimdi aqından gəldi. Varayın, bolay ki,
maña bir [2] əsir verəydi, oğlancığım qurtaraydım", – dedi.

Basat altunlu [3] günlügin tiküb oturur ikən gördilər ki, bir
xatun kişi [4] gəlür. Gəldi içəri Basata; girdi, salam verdi,
ağladı. [5] Aydır:

Avcına sığmayan əlüklü oğlı,
Ərdil təkə buynuzından [6] qatı yaylı,

İç Oğuzda, Daş Oğuzda adı bəllü,
Aruz [7] oğlı xanım Basat, maña mədəd! – dedi.

Basat aydır: “Nə dilərsən?” [8] Qarıcıq aydır: “Yalancı dün-
ya yüzində bir ər qopdı. Yaylamında [9] Oğuz elin qondurmadı.
Qara polad uz qılıclar kəsən [10] qılını kəsdirmədi. Qarğu cida
oynadanlar ildirəmədi. [11] Qayın oxı atanlar kar qılamadı. Alp-
lar başı Qazana bir zərb [12] urdı. Qardaşı Qaragünə əlində zə-
bun oldı. Bığı [13] qanlu Bügdüz Əmən əlində zəbun oldı. Ağ
D222 saqallu babañ [1] Aruza qan qusdurdı. Meydan yüzində qardaşıñ
Qıyan [2] Selcik ödi sındı, can verdi. Qalın Oğuz bəglərin [3]
dəxi-kimini zəbun edüb, kimini şəhid eylədi. Yedi [4] qatla
Oğuzı yerindən sürdi. “Kəsim” dedi, kəsdi. [5] Gündə iki adam,
beş yüz qoyun istədi. Buñlu qoca [6] ilə Yapağlu qocayı aña xiz-
mətkar verdilər. Dört oğlı [7] olan birin verdi. Üç olan birin ver-
di. İki [8] olan birin verdi. İki oğlancığım vardı. Birin [9] verdim,
biri qaldı. Çevrildi, növbət gerü – maña gəldi. [10] Anı dəxi is-
tərlər. “Xanım, maña mədəd!” – dedi.

[11] Basatıñ qarañŭulu gözləri yaşla doldı. Qarındaşıyçun soy-
lamış, [12] görəlim, xanım, nə soylamış, aydır:

Qırañ yerdə tikilmiş [13] otaxlarıñ
O zalım yıqdırdı ola, qardaş!
D223 Yügrək [1] olan atlaruñ tavlasından
O zalım seçdirdi ola, [2] qardaş!
Bisərək-bisərək dəvələriñ qatarından
O zalım [3] ayırdı ola, qardaş!
Şüləniñdə qırduğuñ qoyunuñ
O zalım [4] qırdı ola, qardaş!
Güvəncimlə gətürdügüñ gəlincügüñ
O zalım [5] səndən ayırdı ola, qardaş!
Ağ saqallu babamı
“Oğul” deyü ağlatdıñ ola, qardaş!
Ağca yüzlü anamı
sızlatdıñ [7] ola, qardaş!
Qarşu yatan qara dağım yüksəgi, qardaş!
[8] Aqındılı görklü suyumuñ daşqunı qardaş!
Güclü [9] belim qüvvəti,
qarañŭu gözlərümüñ aydını, qardaş!

“Qardaşımdan [10] ayrıldım!” deyü çoq ağladı, zarlıq qıldı. Ol xatun [11] kişiyə bir əsir verdi. “Var, oğluñı qurtar!” – dedi.

[12] Xatun aldı gəldi, oğlı yerinə verdi. Həm “oğluñ [13] gəldi!” deyü Aruza muştladı. Aruz sevindi. Qalın Oğuz bəglər ilə
D224 [1] Basata qarşu gəldi. Basat babasınıñ əlin öpdi. [2] Ağlaşdılar, bozlaşdılar.

Anasınıñ evinə gəldi. [3] Anası qarşu gəldi. Oğlancuğını qucdı. Basat anasınıñ əlin [4] öpdi. Görüşdilər, bozlaşdılar. Oğuz bəgləri dərildi. [5] Yemələr-içmələr oldı. Basat aydır: “Bəglər, qardaş uğrına [6] Dəpəgöz ilə buluşuram. Nə buyurursız?” – dedi.

Qazan bəg [7] burada soylamış, görəlim, xanım, nə soylamış! Aydır:

[8] Qara əvrən qopdı Dəpəgöz,
Ərş yüzində çevirdim, alımadım, [9] Basat!
Qara qaplan qopdı Dəpəgöz,
Qara-qara dağlarda [10] çevirdim, alımadım,
Basat!
Qağan aslan qopdı Dəpəgöz,
[11] Qalıñ sazlarda çevirdim, alımadım, Basat!
Ər olsañ, [12] yeg.
Olsañ, mərə, mən Qazanca olmayasan, Basat! – dedi.
[13] Ağ saqallu babañı ağlatmağıl!
Ağ birçəklü anañı bozlatmağıl!

D225 [1] Basat aydır: “Əlbətdə, varıram!” Qazan aydır: “Sən bilürsən”.

[2] Babası ağladı, aydır: “Oğul, ocağım issüz qoma, kərəm [3] eylə, varma!” – dedi.

Basat aydır: “Yoğ, ağ saqallu əziz [4] baba, varıram”, – dedi. Esləmədi, biləgindən bir tutam ox [5] çıqardı, belinə soqdı. Qılıcın həm quşandı. [6] Yayın qarusına bıraqdı. Ətəklərin qıvırdı. Babasınıñ-[7]anasınıñ əlin öpdi, halallaşdı, “xoş qaluñ!” – dedi. [8] Dəpəgöz olduğı Salaxana qayasına gəldi. Gördi [9] Dəpəgöz günə qarşu arxasın vermiş. Yalñuz çəkdi [10] belindən bir ox çıqardı. Dəpəgözüñ yağrına bir ox [11] urdı. Ox keçmədi, paralandı. Bir dəxi atdı. Ol [12] dəxi para-para oldı. Dəpəgöz qocalara ayıtdı: “Bu [13] yeriñ siñəgi bizi üşəndirdi!” – dedi.

D226 Basat bir dəxi [1] atdı. Ol dəxi paralandı, bir parası Dəpəgö-
züñ [2] öñinə düşdi. Dəpəgöz sıçradı baqdı: Basat gördi. [3] Əlin-
əlinə çaldı, qas-qas güldi. Qocalara aydır: “[4] Oğuzdan yenə
bizə bir türfəndə quzı gəldi”, – dedi. Basatı [5] öñinə qatdı, tut-
dı. Boğazdan salındırdı. Yatağına [6] gətürdi. Ədüginiñ quncına
soqdı. Aydır: “Mərə qocalar, [7] ikindü vaqtı munı maña çevi-
rəsiz, yiyəm”, – dedi. Yenə uyıdı.
[8] Basatıñ xəncəri vardı. Ədügini yardı, içindən çıqdı. [9] Ay-
dır: “Mərə qocalar, munıñ ölümi nədəndir?” Ayıtdılar: “Bil-
məziz. [10] Amma gözündən ğeyri yerdə ət yoqdur”, – dedilər.
Basat Dəpə[11]gözüñ başı ucına gəldi. Qapaq qaldırdı. Baqdı [12]
gördi kim, gözi ətdir. Aydır: “Mərə qocalar, sügüligi ocağa [13]
D227 qoñ, qızsun!” – dedi. Sügüligi ocağa bıraqdılar, qızdı. [1]
Basat əlinə aldı. Adı görklü Məhəmmədə salavat gətürdi. [2]
Sügüligi Dəpəgözüñ gözinə eylə basdı kim, Dəpəgözüñ [3] gözi
həlak oldı. Şöylə nərə urdı, hayqırdı [4] kim, dağ və daş yangu-
landı. Basat sıçradı, qoyun [5] içinə mağaraya düşdi. Dəpəgöz bil-
di kim, Basat mağara[6]dadır. Mağaranıñ qapusın alub, bir ayağın
qapunıñ bir yanına, [7] birin dəxi bir yanına qodı. Aydır: “Mərə
qoyun başları ərkəc, [8] bir-bir gəl, keç!” – dedi. Bir-bir gəlüb
keçdi. Hər biriniñ başların [9] sığadı. “Toğlıcıqlar, dövlətim saqar
qoç, gəl, keç!” – dedi. Bir [10] qoç yerindən qalqdı, gərinüb sündi.
Dəfi Basat qoçı [11] basub boğazladı, dərisini yüzdi, quyruğıyla
başını [12] dəridən ayırmadı: içinə girdi. Basat Dəpəgözüñ öñinə
D228 [13] gəldi. Dəpəgöz də bildi kim, Basat dəri içindədir. [1] Aydır:
“Ay saqar qoç, mənim nerədən həlak olacağım bildiñ? [2] Şöylə
çalayım səni mağara divarına kim, quyruğuñ mağarayı [3] yağla-
sun!” – dedi. Basat qoçuñ başını Dəpəgözüñ [4] əlinə sundı. Də-
pəgöz buynuzından bərk tutdı. Qaldırıcaq [5] buynuz dəriylə
əlində qaldı. Basat Dəpəgözüñ budı [6] arasından sıçrayub çıqdı.
Dəpəgöz buynuzı götürüb [7] yerə çaldı. Aydır: “Oğlan qurtul-
duñmı?” Basat aydır: “Tañrım [8] qurtardı”. Dəpəgöz aydır:
“Mərə oğlan, al şol barmağımda[9]kı yüzügi, parmağıña taq, saña
ox və qılıc kar eyləməsün” [10] Basat aldı, yüzügi parmağına ke-
çürdi. Dəpəgöz aydır: [11] “Oğlan, yüzügi alub taqındıñmı?” Ba-
sat aydır: “Taqındım”. [12] Dəpəgöz Basatıñ üzərinə qodı, xən-
cərlə çaldı-kəsdi, [13] sıçradı geñ yerdə durdı. Gördi kim yüzük
D229 genə [1] Dəpəgözüñ ayağı altında yatur.

Dəpəgöz aydır: “Qurtulduñmı?” [2] Basat aydır: “Tañrım qurtardı”.

Dəpəgöz aydır: “Oğlan, [3] şol günbədi gördüñmi?” Aydır: “Gördüm”. Dəpəgöz aydır: “Mənim [4] xəzinəm var. Ol qocalar almasunlar. Var, möhürlə!” – dedi. Basat [5] günbəd içinə girdi. Gördi kim, altun-aqça yığılmış. Baqaraq [6] kəndözin unıtdı. Dəpəgöz günbədiñ qapusın aldı. Aydır: [7] “Günbədə girdiñmi?” Basat aydır: “Girdim”. Dəpəgöz aydır: “Şöylə çalayım [8] ki, günbədlə dardağan olasan”, – dedi. Basatıñ dilinə [9] bu gəldi kim, “La ilahə illallah, Məhəmməd rəsulallah!” – dedi. Dedi, [10] həman dəm günbəd yarıldı, yedi yerdən qapu açıldı. Birindən [11] daşra gəldi.

Dəpəgöz günbədə əlin soqdı. Eylə [12] qaçdı kim, günbəd
zirü zəbər oldı. Dəpəgöz aydır: “Oğlan, [13] qurtulduñmı?” Basat
D230 aydır: “Tañrım qurtardı”, – dedi. Dəpəgöz [1] aydır: “Saña ölüm
yoğ imiş! Şol mağarayı gördüñmi?” Basat [2] aydır: “Gördüm”.
Aydır: “Anda iki qılıc var; biri qınlu, biri [3] qınsuz. Ol qınsuz
kəsər mənim başımı. Var, gətür, mənim başumı [4] kəs!” – dedi.
Basat mağara qapusına vardı. Gördü bir [5] qınsuz qılıc durmaz:
enər, çıqar. Basat aydır: “Mən muña bi[6]təkəllüf yapışmayım”,
– deyüb kəndü qılıcın çıxardı, tutdı. İki [7] para böldi. Vardı, bir
ağac gətürdi, qılıca tutdı. [8] Anı dəxi iki para eylədi. Pəs yayını
əlinə aldı. Oxla [9] ol qılıc asılan zənciri urdı. Qılıc yerə düşdi,[10]
kömüldi. Kəndü qılıcın qınına soqdı. Balçağından ol [11] qılıcı
bərk tutdı. Gəldi, aydır: “Mərə Dəpəgöz, necəsən?” – [12] dedi.
Dəpəgöz aydır: “Mərə oğlan, daxı ölmədiñmi?” Basat [13] aydır:
D231 “Tañrım qurtardı”. Dəpəgöz aydır: “Saña ölüm yoğ imiş!” – [1]
dedi. Çağırub Dəpəgöz soylamış, görəlim, nə soylamış, [2] aydır:

Gözüm, gözüm yalñuz gözüm!
Sən yalñuz gözlə
mən [3] Oğuzı sındırmışdım.
Ala gözdən ayırdıñ, yigit məni!
Datlu [4] candan ayırsun Qadir səni!
Eylə kim mən çəkərəm göz buñını,
[5] Hiç yigidə verməsün Qadir Tañrı
göz bu güni! – dedi.

[6]Dəpəgöz genə aydır:

Qalarda-qoparda yigit,
yeriñ nə yerdir?
[7] Qaranñu dün içində yol azsañ,
umuñ nədir?
Qaba ələm [8] götürən xanıñuz kim
qırış güni öñdin?
Ağ saqallu babañ [9] adı nədir?
Alp ərən ərdən adın
yaşurmaq eyib olur,
[10] Adıñ nədir, yigit, degil maña! – dedi.

Basat Dəpəgözə soylamış, [11] görəlim, xanım, nə soylamış:

Qalarda-qoparda yerim Günortac!
[12] Qarañu dün içrə yol azsam,
umum Allah!
Qaba aləm götürən [13] xanımız –
Bayındır xan!
Qırış güni öñdin dəpən alpımız
D232 Salur [1] oğlı Qazan![*]
Atam [2] adın sorar olsañ, – Qaba Ağac!
Anam adın deyərsəñ, – Qağan Aslan!
Mənim adım sorarsañ, –
Aruz [3] oğlı Basatdır, – dedi.

Dəpəgöz aydır: "Əmdi qardaşuz, [4] qıyma maña!" – dedi.
Basat aydır:

Mərə qavat! Ağ saqallu babamı [5] ağlatmışsan,
Qarıcıq ağ birçəklü anamı bozlatmışsan.
Qarındaşım [6] Qıyanı öldürmişsən.
Ağca yüzlü yengəmi dul eyləmişsən.
[7] Ala gözlü bəbəklərin öksüz qomışsan.
Qormıyam səni,
Qara [8] polad uz qılıcım dartmayınca,

[*] Katib "Ulaş oğlu Salur Qazan" yazmaq istəmişdir.

Qafalu-börklü başıñ kəsməyincə,
[9] Alca qanıñ yer yüzinə tökməyincə,
Qardaşım Qıyanıñ qanın almayınca?
[10] Qomazam! – dedi.

Dəpəgöz dəxi burada soylamış, aydır:

Qalqu[11]banı yerimdən duram, deyərdim.
Qalın Oğuz bəglərindən əhdim [12] bozam, deyərdim.
Yeñidən toğanın qıram, deyərdim.
Bir gəz adam [13] ətinə doyam, deyərdim.
Qalın Oğuz bəgləri üzərimə
D233 yığılub gələ, [1] deyərdim.
Qaçubanı Salaxana qayasına girəm, deyərdim.
Ağır mancılaq [2] daşla atam, deyərdim.
Enüb daş başıma düşübən öləm, [3] deyərdim.
Ala gözdən ayırdıñ, yigit, məni!
Datlu candan [4] ayırsun Qadir səni! – dedi.

Dəpəgöz bir dəxi soylamış, aydır:

[5] Ağ saqallu qocaları çoq ağlatmışam.
Ağ saqalı, qarışı [6] tutdı ola, gözüm, səni?
Ağ birçəklü qarıcıqları [7] çoq ağlatmışam.
Gözi yaşı tutdı ola, gözüm, səni?
Bığçağı [8] qararmış yigitcikləri çoq yemişəm.
Yigitlikləri tutdı ola, [9] gözüm, səni?
Əlcügəzi qınalı qızcığazları çoq yemişəm.
[10] Qarışçuları tutdı ola, gözüm, səni?
Eylə kim çəkərəm mən [11] göz buñını,
Heç yigidə verməsün Qadir Tañrı göz yükini!
[12] Gözüm, gözüm, ay gözüm!
Yalñuz gözüm! – dedi.

Basat qaqıb [13] yerindən durı gəldi. Buğra kibi Dəpəgözi dizi
D234 üzərinə [1] çökürdi. Dəpəgözüñ kəndü qılıcıyla boynını urdı. [2] Dəldi, yay kirişin taqdı. Süriyi-süriyi mağara [3] qapusına gəldi. Buñlı qoca ilə Yapağlu qocayı Oğuza [4] muştçı göndərdi. Ağ boz atlar binübən yortışdılar. [5] Qalın Oğuz ellərinə xəbər gəldi.

At ağızlu Aruz qoca [6] evinə çapar gəldi. Atasına Basatıñ sevinc verdi: [7] "Muştuluq! Oğluñ Dəpəgözi dəplədi!" – dedi.

Qalın Oğuz [8] bəgləri yetdilər. Salaxana qayasına gəldilər. Dəpəgöziñ [9] başını ortaya gətürdilər.

Dədəm Qorqud gəlübən şadlıq [10] çaldı. Ğazi ərənlər başına nə gəldigin aydı verdi. [11] Həm Basata alqış verdi:

Qara dağa yetdügiñdə aşıt [12] versün!
Qanlu-qanlu sulardan keçit versün! – dedi.

[13] Ərliklə qardaşıñ qanın aldıñ. Qalın Oğuz bəglərini buñ-
D235 dan [1] qurtardıñ. Qadir Allah yüzüñ ağ etsün, Basat!" – dedi.

[2] Ölüm vaqtı gəldügində arı imandan ayırmasun!
Günahıñızı [3] adı görklü Məhəmməd Mustafaya
bağışlasun, xanım, hey!

## [4] BƏKİL OĞLI ƏMRANIÑ BOYINI BƏYAN EDƏR

[5] Qam Ğan oğlı xan Bayındır yerindən durmışdı. [6] Ağ ban evini qara yeriñ üzərinə dikdirmişdi. Ala sayvan [7] gög yüzinə aşanmışdı. Biñ yerdə ipəg xalıcası [8] döşətmişdi. İç Oğuz Daş Oğuz bəgləri yığnaq [9] olmışdı.

Doquz tümən Gürcüstanıñ xəracı gəldi: [10] bir at, bir qılıc, bir çomaq gətirdilər. Bayındır xan qatı [11] səxt oldı. Dədəm Qorqud gəldi, şadlıq çaldı. [12] "Xanım, niyə səxt olursan?" – dedi. Aydır: "Necə səxt olmayam? [13] Hər yil altun-aqça gə-
D236 lürdi, yigidə-bəgə verirdiñ, xatirləri [1] xoş olurdı. Şimdi bunı kimə verər kim, xatiri xoş [2] ola?" – dedi.

Dədə Qorqud aydır: "Xanım, bunuñ üçini daxı [3] bir yigidə verəlim, – dedi, – Oğuz elinə qaravul olsun!" – dedi. [4] Xan Bayındır "Kimə verəlim?" – dedi, sağına-solına baqdı. [5] Kimsə razı olmadı. "Bəkil" derlərdi, bir yigit vardı. Aña [6] baqdı, aydır: "Sən nə dersən?" Bəkil razı oldı. Qalqdı, [7] yer öpdi. Dədəm Qorqud himmət qılıcın belinə bağladı. Çomağı [8] omuzına bıraqdı. Yayı qarusına keçürdi. Şahbaz [9] ayğırı çəkdirdi, buda bindi. Xəsmini, qövmini ayırdı, [10] evini çözdi. Oğuzdan köç eylədi. Bərdəyə, Gəncəyə [11] varub vətən tutdı. Doquz tümən Gürcüstan ağzına [12] varub qondı, qaravullıq eylədi. Yadkafir gəlsə, başın [13] Oğuza ərməğan göndərdi. Yılda bir kərrə
D237 Bayındır xan [1] divanına varardı.

Yenə Bayındır xandan adam gəldi, "tez [2] gələsən" deyü; pəs Bəkil gəldi, pişkeşin çəkdi. Bayındır [3] xanıñ əlin öpdi. Xan dəxi Bəkili qonaqladı. Yaxşı [4] at, yaxşı qaftan, vafir xərclıq verdi. Üç gün tamam [5] ağırladı. "Üç gün dəxi Bəkili av-şikar ətilə qonaqlayalım, [6] bəglər!" – dedi.

Av çığırtdılar. Çün av yarağı oldı, kim atın [7] ögər, kim qılıcın, kim çəküb ox atmağın ögər. Salur Qazan [8] nə atın ögdi, nə kəndin ögdi; amma bəgləriñ hünərin [9] söylədi.

Üç yüz altmış altı alp ava binsə, qanlu [10] keyik üzərinə yüriş olsa, Bəkil nə yay qurardı, [11] nə ox atardı. Haman yayı biləgindən çıqarardı, [12] buğanıñ-sığınıñ boynına atardı, çəküb durğuzardı. [13] Arıq olsa, qulağın dələrdi, avda bəllü olsun

D238 deyü; [1] amma semüz olsa, boğazlardı. Arıq olsa, qulağın dələrdi, [2] avda bəllü olsun deyü; amma semüz olsa, boğazlardı. [3] Əgər bəglər keyik alsa, qulağı dəlük olsa, "Bəkül sünicidir" [4] deyü Bəkilə göndərərlərdi.

Qazan bəg aydır: "Bu hünər atıñmıdır, [5] əriñmidir?" "Xanım, əriñdir", – dedilər. Xan aydır: "Yoq, at işləməsə, [6] ər ögünməz. Hünər atıñdır", – dedi. Bu söz Bəkilə xoş gəlmədi. [7] Bəkil aydır: "Alplar içində bizi qusqunumuzdan balcığa baturduñ", – [8] dedi. Bayındır xanıñ bəxşişin öñinə dökdi. Xana [9] küsdi. Divandan çıqdı. Atın çəkdilər. Ala gözlü [10] yigitlərin alub evinə gəldi. Oğlancıqları qarşu gəldi, [11] oxşamadı. Ağ yüzlü xatunına söyləmədi. Xatun [12] burada soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Altun [13] taxtım ayası, bəgim yigit!
Göz açuban gördügüm,
D239 Köñül [1] verüb sevdügüm.
Qalqubanı yeriñdən durı gəldiñ.
Ala gözlü [2] yigitləriñ yanıña saldıñ.
Arqu beli Ala dağdan dünin aşdıñ.
[3] Aqındılı görklü sudan dünin keçdiñ.
Ağ alınlu Bayındır [4] xanıñ divanına
dünin vardıñ,
bəglərlə yedüñ-içdiñ.
Qövmlü [5] qövmiylə gənəşdimi?
Ğərib başıñ ğovğada qaldımı?
Qanı xanım, [6] altuñda yaxşı atı yoq!
Alnuñda altun aşıq cübbəsi yoq!
[7] Ala gözlü bəgləriñ oxşamazsan.
Ağca yüzlü görklüñlə [8] söyləşməzsən,
nədir halıñ? – dedi.

Bəkil soylamış, görəlim, [9] xanım, nə soylamış, aydır:

Qalqubanı yerimdən durı gəldim.
Yelisi [10] qara Qazılıq atın butun bindim.
Arqu beli Ala dağdan [11] dünin aşdım.
Aqındılı görkli suyı dəlüb dünin keçdim.

[12] Ağ alınlu Bayındırıñ divanına çapar vardım.
Ala gözlü bəglərlə [13] yedim-içdim.
Qövmlü qövmiylə görklü gördüm.
D240 Xanımızıñ nəzəri bizdən [1] dönmüş gördüm.
Eli-güni köçürüñ,
doquz tümən Gürcüstana [2] gedəlim!
Oğuza asi oldum, bəllü biliñ! – dedi.

Xatun [3] aydır: “Yigidim, bəg yigidim! Padşahlar Tañrınıñ kölgəsidir. [4] Padşahına asi olanıñ işi rast gəlməz. Arı köñüldə [5] pas olsa, şərab açar. Sən gedəli, xanım, arqurı yatan [6] Ala dağlaruñ avlanmamışdır. Ava bingil, köñlüñ açılsun!” – dedi.

[7] Bəkil gördi, xatun kişiniñ aqlı-kələcisi eyüdür. Qazılıq [8] atın çəkdirüb, butun bindi. Ava getdi.

Av avlayu gəzərkən [9] öñindən bir yaralu keyik çıqdı. Bə-
kil buña at saldı. [10] Buğanıñ ardından irdi. Yay kirişin boynına
atdı. Buğa [11] acmışdı, kəndüyi bir yuca yerdən atdı. Bəkil at
cilavısın [12] yeñimədi, bilə uçdı. Sağ oyluğı qayaya toqındı,
sındı. [13] Bəkil aru durdı, ağladı. Aydır: “Ulu oğlum, ulu qar-
D241 daşım [1] yoq. Haman biləgindən gəz çıqarub, atınıñ tərkilərini
dartdı [2] urdı. Qaftanı altından ayağın bərk sardı, var [3] qüvvə-
tiylə atınıñ yelisinə düşdi. Avçılardan ayru dilbəndi [4] boğazına
keçdi. Ordusı ucına gəldi. Oğlancuğı [5] Əmran bahadır babası-
na qarşu gəldi. Gördi bəñzi sararmış, [6] dilbəndi boğazına keç-
miş. Yoldaşlarını sorub, oğlan burada [7] soylamış, görəlim, xa-
nım, nə soylamış:

Qalqubanı yeriñdən durı [8] gəldiñ,
Yelisi qara Qazlıq atıñ butun bindiñ.
Arqurı [9] yatan ala dağlar ətəginə ava vardıñ.
Qara donlu kafirlərə [10] uğradıñmı?
Ala gözlü yigitləriñ qırdırdıñmı?
Ağız-dildən bir qac [11] kəlmə xəbər maña,
Qara başım qurban olsun, ağam, saña! – dedi.

Bəkil [12] oğlına soylamış, görəlim, xanım, nə soylamış; aydır:

Oğul, ay [13] oğul!
Qalqubanı yerimdən durı gəldim.

D242 Qara dağlar öñinə [1] ava bindim.
Qara donlu kafirlərə uğramadım.
Ala gözlü yigitlərim [2] qırdırmadım.
Sağdır-əsəndir yigitlərim,
oğul, qayurma!
Üç [3] gündür qoşluğum yox!
Oğul, at üzərindən məni qap, döşəgimə [4] çıqar", – dedi.

Aslan ənigi yenə aslandır; atası at üzərindən [5] qarvadı, tutdı döşəginə çıqardı. Cübbəsin üzərinə büridi. [6] Qapusın örtdi.

Bu yaña yigit bəglər gördilər kim, av bozılmış, hər [7] biri evlü evinə gəldi.

Bəkil beş gün oldı, divana çıqmadı. [8] Ayağınıñ sınduğını kimsəyə demədi. Bir gecə döşəgində [9] qatı-qatı iñlədi, ah etdi. Xatunı ayıtdı: "Bəg yigidim, qalaba[10]lıq yağı gəlsə, qayıtmaz idiñ. Butuña ala ox toxunsa, [11] əgilməz idiñ. Kişi qoynında yatan halalına sirrin deməzmi olur? [12] Nədir halıñ?" – dedi. Bəkil aydır: "Görklüm, atdan düşdüm, ayağım [13] sındı", – dedi.

D243 Övrət əlin əlinə çaldı, qaravaşa söylədi. [1] Qaravaş çıqub qapuçıya söylədi. Otuz iki dişdən [2] çıqan bütün orduya yayıldı, "Bəkil atdan düşmiş, [3] ayağı sınmış" deyü.

Məgər kafiriñ casusı vardı. Bu xəbəri [4] eşidüb vardı, təkürə xəbər verdi. Təkür aydır: "Qalqubanı [5] yerüñüzdən uru duruñ, yatur yerdə bəg Bəkili tutuñ! Ağ [6] əllərin qarusından bağlañ. Ğafillücə görklü başın kəsiñ. [7] Alca qanın yer yüzinə döküñ. Elin-günin çapıñ. Qızın-gəlinin [8] yesir ediñ!" – dedi.

Məgər Bəkiliñ də anda casusı hazırdı; [9] Bəkilə xəbər göndərdi. Aydır: "Baş yarağın eyləñ, üzəriñüzə [10] yağı gəlür", – dedi. Bəkil yuqaru baqdı. "Gög ıraq, yer qatı", – [11] dedi. Oğlancuğın yanına gətürüb soylamış; görəlim, xanım, [12] nə soylamış, aydır:

Oğul, oğul, ay oğul!
Qaraññuluca [13] gözlərim aydını oğul!
Güclü belim qüvvəti oğul!
D244 Gör [1] axır nələr oldı,
nələr qopdı mənim başıma, – dedi.
Qalqubanı [2] oğul, yerimdən durı gəldim.

Boynı sınsun Al ayğırı, butun [3] bindim.
Av avlayub, quş quşlayub gəzərkən buñaldı,
süricdi, [4] məni yerə çaldı.
Sağ oyluğum sındı.
Mənim qara başıma nələr [5] gəldi.
Qara-qara dağlardan xəbər aşmış,
Qanlu-qanlu sulardan [6] xəbər keçmiş,
Dəmür qapu Dərvəndindən xəbər varmış,
Alca [7] atlu Şökli Məlik qatı pusmış.
Pusduğından qara dağlara [8] duman düşmiş,
"Yatduğı yerdə bəg Bəkili tutuñ", – demiş,
[9] "Qarusından ağ əllərin bağlañ", – demiş.
"Qan alaca ordusını [10] çapıñ", – demiş.
"Ağca yüzlü qızını-gəlinini yesir eyləñ", – demiş.
[11] Qalqubanı oğul, yerindən durı gəlgil!
Yelisi qara Qazılıq [12] atuñ butun bingil!
Arqurı yatan Ala dağı dünin aşğıl!
[13] Ağ alınlu Bayındır xanıñ divanına
dünin varğıl!
D245 Ağız-dildən [1] Bayındıra salam vergil!
Bəglər bəgi olan Qazanıñ əlin öpgil!
[2] "Ağ saqallu babam buñlu", – degil!
"Əlbətdə və əlbətdə Qazan bəg
maña [3] yetişsün dedi", – degil!
Gəlməz olsañ, məmləkət bozılub
xarab [4] olur,
Qızım-gəlinim əsir getdi, bəllü bilgil! – dedi.

Bu arada [5] oğlan babasına soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Baba nə [6] söylərsən, nə aydarsan?
Bağrımla yürəgim nə dağlarsan?
Qalqubanı [7] yerimdən durmağım çoq,
Yelisi qara Qazılıq atıma binməgim [8] çoq.
Arqubeli Ala dağı avlayuban aşmağım yoq.
Ağ [9] alınlu Bayındırıñ divanına varmağım yoq.

Qazan kimdir? Mən anuñ [10] əlin öpməgim yoq.
Altundağı Al ayğırı maña vergil!
Qan [11] dərlədi çapdırayım səniñ içün.
Əgni bəg dəmür donuñ [12] maña vergil
Yeni yaqa dikdirəyim səniñçün!
Qara polad uz [13] qılıcıñ maña vergil,
Ğafillücə başlar kəsim səniñçün!
D246 Qarğu [1] dalı sügüñi maña vergil,
Köksindən ər sancayım səniñ [2] içün!
Ağ yeləklü ötkün oxıñ maña vergil,
Ərdən ərə [3] keçürəyim səniñ içün!
Ala gözlü üç yüz yigidiñ
maña [4] vergil yoldaşlığa,
Dini-Məhəmməd yolına
dürişəyim səniñçün! – dedi.

[5] Bəkil aydır: "Öləyim ağzıñ içün, oğul! Ola kim, mənim keçmiş günümi [6] añdırtmayasan", – dedi. "Mərə, geyimim gətürüñ, oğlum geysün! Al [7] ayğırım gətürüñ, oğlum binsün! El ürkmədin oğlum meydana [8] varsun-girsün!" – dedi.

Oğlanı donatdılar. Atasıyla-[9]anasıyla gəldi görüşdi. Əllərin öpdi. Üç yüz [10] yigidi yanına bıraqdı, meydana vardı.

Al ayğır qaçan kim [11] yağı qoxusın alsa, ayağın yerə dögərdi, tozı gögə [12] çıqardı.

Kafirlər aydır: "Bu at Bəkiliñdir, biz qaçırız". Təkür [13] aydır: "Mərə, oñat görüñ. Bu gələn Bəkilsə, sizdən öñdən mən
D247 qaçaram", – [1] dedi.

Gözçi gözlədi. Gördi kim, at Bəkiliñ, Bəkil üzərində [2] degil, amma bir quş dəklü oğlandır. Gəlüb təkürə xəbər [3] verdi. Aydır: "At, yaraq və işıq Bəkiliñ, Bəkil içində degil!" – [4] dedi. Təkür aydır: "Yüz adam seçilüñ, taraqa çatladıñ, oğlanı [5] qorquduñ. Oğlan quş yürəklü olur, meydanı qor [6] qaçar", – dedi.

Yüz kafir seçilüb oğlanıñ üzərinə gəlmiş. [7] Oğlana kafir soylamış, görəlim, nə soylamış, aydır:

Oğlan, [8] oğlan, ay oğlan,
Haramzada oğlan!
Altında Al [9] ayğırı arıq oğlan,

Qara polad uz qılıcı gödək oğlan!
[10] Əlindəki sügüsi sınıq oğlan!
Ağ tozlu yayı gedə [11] oğlan!
Biləgində doqsan oqı seyrək oğlan!
Yanındağı [12] yoldaşları çıplaq oğlan!
Qaranñulıca gözləri çöngə [13] oğlan!
Şökli Məlik saña qatı pusdı.

D248 Meydandakı [1] şol oğlanı tutuñ,
Qarusından ağ əllərin bağlañ,
[2] Ğafillicə görklü başın kəsiñ.
Alca qanın yüzinə töküñ, – [3] dedi.
Ağ saqallu babañ varsa, ağlatmağıl,
Ağ birçəklü [4] anañ varsa, bozlatmağıl.
Yalñuz yigit alp olmaz.
Yovşan [5] dibi bərk olmaz.
Qadası yetmiş, qavat oğlu qavat,
Qayıda [6] dön buradan! – dedi.

Oğlan dəxi burada soylamış, görəlim, [7] nə soylamış, aydır:

Hərzə-mərzə söyləmə, mərə itim kafir!
Altımda Al [8] ayğırım nə bəgənməzsən, –
səni gördi, oynar.
Əgnimdəki dəmür donum [9] çignüm qısar.
Qara polad uz qılıcum qının doğrar.
Qarğı [10] dalı sügüm nə bəgənməzsən,
Köksün dəlüb gögə pırlar.
Ağca [11] tozlu qatı yayım zarı-zarı iñlər.
Sadaqda oxum kişin [12] dələr.
Yanımda yigitlərim savaş dilər.
Alp ərə qorqu vermək [13] eyib olur.
Bərü gəlgil mərə kafir dürişəlim! – dedi.

D249 Kafir aydır: [1] "Oğuzuñ arsızı türkmanıñ dəlüsinə bəñzər! Bağ-a, şuña", – dedi.

[2] Təkür aydır: "Varuñ soruñ, oğlan Bəkiliñ nəsidir?" – dedi.
[3] Kafir gəlüb oğlana soylamış, görəlim, necə soylamış; aydır:

[4] Altuñdağı Al ayğırı bilürüz Bəkiliñdir,
Bəkil qanı?
Qara polad [5] uz qılıcuñ Bəkilüñdür,
Bəkil qanı?
Əgnuñdağı dəmür donuñ [6] Bəkiliñdir,
Bəkil qanı?
Yanuñdağı yigitlər Bəkiliñdir,
Bəkil qanı?
Əgər [7] Bəkil bunda imiş isə,
Gecəyədəkin cəng edəydik,
Ağca tozlu [8] qatı yaylar dartışaydıq.
Ağ yeləklü ötkün oxlar [9] atışaydıq.
Sən Bəkilüñ nəsisən, oğlan,
degil mizə! – dedi.

[10] Bəkil oğlı burada soylamış; görəlim, xanım, nə soyla-
mış, aydır: [11] "Mərə kafir, sən məni bilməzmisin? Ağ alınlu
Bayındır xanuñ [12] bəglərbəgisi Salur Qazan, qardaşı Qaragünə
çapar yetdi. [13] Dönəbilməz Dülək Uran, Dözən oğlı Alp Rüs-
D250 təm, Boz atlu [1] Beyrək bəg Bəkilüñ evində içərlərdi, səndən
casus gəldi. [2] Altındağı Al ayğıra Bəkil məni bindirdi; qara
polad uz [3] qılıcın qüvvət verdi; qarğu dalı sügüsin himmət ver-
di; [4] yanındağı üç yüz yigidin maña yoldaşlığa qoşdı. [5] Mən
Bəkiliñ oğlıyam, mərə kafir! Bərü gəl, dögüşəlim!" – dedi.

Kafir [6] təkür aydır: "Qatlan, mərə qavat oğlı, mən saña va-
rayım! – dedi. [7] Altı pərlü gürzini ələ aldı, oğlanuñ üzərinə
sürdi. [8] Oğlan qalqanını gürzə qarşu tutdı. Yuqarudan aşağa [9]
kafir oğlanı qatı urdı. Qalqanını avatdı, tuğulqasını [10] yoğurdı,
qapaqların sıyırdı, oğlanı alımadı. Gürzlə [11] dögişdilər, qara
polad uz qılıc ilə dartışdılar, sərpə-[12]sərpə meydanda qılıclaş-
dılar, çiginləri doğrandı, qılıc[13]ları avandı, bir-birin alımadı.
D251 Qarğu dalı sügülər ilə [1] qırışdılar, meydanda buğa kibi süsəş-
dilər; köksləri dəlindi, [2] sügüləri sındı, bir-birin alımadılar. At
üzərindən ikisi [3] qarvaşdılar, dartışdılar. Kafirüñ güci ziyadə,
oğlan zəbun [4] oldı. Allah Taalaya yalvarub soylamış, görəlim,
necə soylamış, [5] aydır:

Yucalardan yucasan,
yuca Tañrı!
Kimsə bilməz necəsən,
[6] görklü Tañrı!
Sən Adəmə tac urduñ,
Şeytana lənət qılduñ
[7] Bir suçdan ötri
dərgahdan sürdüñ.
İbrahimi tutdurduñ,
[8] Xam gönə çulğaduñ,
Götürüb oda atdurduñ.
Odı bustan [9] qılduñ.
Birligüñə sığındım, əziz Allah,
xocam, maña mədəd! – dedi.

[10] Kafir aydır: "Oğlan, alınduñsa, Tañrıñamı yalvarursan? Sənüñ [11] bir Tañrıñ varsa, mənüm yetmiş iki bütxanam var!" – dedi.

Oğlan [12] aydır: "Ya asi məlun, sən pütlərüñə yalvarırsan, mən [13] aləmləri yoqdan var edən Allahıma sığındım", – dedi.

D252 Haq [1] Taala Cəbrayilə buyurdı kim: "Ya Cəbrayil, var, şol quluma [2] qırq ərcə qüvvət verdim", – dedi.

Oğlan kafiri götürdi, [3] yerə urdı. Burnından qanı düdük kibi şorladı. Sıçrayub [4] şahin kibi kafiriñ boğazın ələ aldı.

Kafir aydır: "Yigit, [5] aman, sizüñ dinə nə derlər, dinüñə girdim", – dedi. Parmaq [6] götürüb, şəhadət gətürüb müsəlman oldı. Qalan [7] kafirlər bilüb, meydanı salub qaçdı.

Aqınçılar kafiriñ [8] elin-günin urub qızın-gəlinin əsir etdilər. Oğlan [9] babasına muştçı göndərdi, "qırımım aldum", – dedi. Ağ saqallu [10] babası qarşu gəldi. Oğlınıñ boynını qucdı. Dönüb [11] evlərinə gəldilər.

Qarşu yatan qara dağdan oğlana yaylaq [12] verdi. Qaraqucı yügrək atdan təvləverdi. Ağca [13] yüzlü oğlına ağca qoyun şülən verdi.
D253 Ala gözlü oğlına [1] al duvaxlu gəlin aldı. Ağ alınlu Bayındır xana pəncik çıqardı. [2] Oğlın aldı, Bayındır xanıñ divanına vardı. Əl öpdi.

[3] Padşah Qazan oğlı Uruzuñ sağ yanına aña yer [4] göstərdi. Cübbə-çuğa çırğab geyürdi.

Dədəm Qorqud [5] gəlübən, şadlıq çaldı. Bu oğuznaməyi düzdi-qoşdı, [6] "Bəkil oğlı Əmranıñ olsun!" – dedi. Ğazilər başına [7] nə gəldügin söylədi:

Yum verəyin, xanım!
Yerlü qara dağlarıñ [8] yıqılmasun!
Kölgəlicə qaba ağacıñ kəsilməsün!
Allah verən [9] ümidiñ üzülməsün!
Günahıñızı adı görklü Məhəmmədə [10] bağışlasun,
xanım, hey!!!

# UŞUN QOCA OĞLI SƏGRƏK BOYINI [11] BƏYAN EDƏR

Oğuz zamanında, Uşun qoca [12] deyərlər*, bir kişi vardı.
Ömründə iki oğlı vardı. Ulu [13] oğlınıñ adı Əgrək idi. Bahadır,
D254 dəlü, yaxşı yigid [1] idi. Bayındır xanıñ divanına qaçan istəsə
varır-gəlür[2]di. Bəglərbəgi olan Qazan divanında buña heç
qapu-baca [3] yoğdı. Bəgləri basub, Qazan öñində oturardı.
Kimsəyə [4] iltifat eyləməzdi.

Məgər xanım, genə bir gün bəgləri basub [5] oturıcaq Tərsuzamış derlərdi, Oğuzda bir yigit [6] vardı, aydır: "Mərə Uşun qoca oğlı, bu oturan bəglər [7] hər biri oturduğı yeri qılıcıyla-ətməgiylə alubdur. Mərə, sən [8] başumı kəsdiñ, qanmı tökdüñ, acmı doyurduñ, yalıncaqmı [9] donatdıñ?!" – dedi.

Əgrək aydır: "Mərə Tərsuzamış, baş [10] kəsüb-qan tökmək hünərmidir?" – dedi. Aydır: "Bəli, hünərdir [11] ya".

Tərsuzamışıñ sözi Əgrəgə kar eylədi. Durdı, [12] Qazan
bəgdən aqın dilədi. Aqın verdi, çağırtdı. Aqınçı [13] dərildi. Üç
D255 yüz say cidalu yigit bunuñ yanına cəm [1] oldı. Meyxanədə beş
gün yemə-içmə oldı. Andan Şiröküz [2] ucından Gögcə dəñizə
dəkin el çarpdı. Ğalaba toyum oldı. [3] Yolı Əlincə qalasına uğramışdı. Qara təkür orada bir qorı [4] yapdırmışdı. Uçardan qaz, tavuq; yürürdən keyik, tavşan [5] bu hovlaya doldurub, Oğuz yigitlərinə bunı dam etmişdi.

Uşun [6] qoca oğlınıñ bu qorıya uğradı. Qorınıñ qapusın ovatdılar.[7]Sığın-keyik, qaz-tavuq qırdılar; yedilər-içdilər. Atlarınıñ [8] əyərlərin aldılar, geyimlərin çıqardılar.

Məgər Qara Təkürüñ casusı [9] vardı, bunları gördi. Gəlüb aydır: "Mərə, Oğuzdan [10] bir bölük atlı gəldi. Qorunıñ qapusın ovatdılar, atlarınıñ [11] əyərin alub, geyimlərin çıqardılar. Mərə, nə durarsız?" – dedi.

Altı [12] yüz qara donlu kafir bunlarıñ üzərinə qoyuldılar. Yigitləri [13] qırdılar, Əgrəgi tutdılar. Əlincə qalasına zindana bıraqdılar.

---

* Katib "Ulaş oğlu Salur Qazan" yazmaq istəmişdir.

D256 [1] Qara-qara dağlardan xəbər aşdı. Qanlu-qanlu sulardan xəbər [2] keçdi. Qalın Oğuz ellərinə xəbər vardı. Uşun qocanıñ [3] ağ-ban evi öñində şivən qopdı. Qaza bəñzər qızı-[4]gəlini ağ çıqarub qara geydi. Uşun qoca "Oğul, oğul!" – deyü ağca [5] yüzlü anasıyla ağlaşdılar, bozlaşdılar.

İyəgülü ulalur, [6] qabırqalu böyür. Məgər xanım, Uşun qocanıñ kiçi oğlı Səgrək [7] eyü, bahadır, alp, dəlü yigit qopdı. Bir gün yolı bir dərnəgə [8] uğradı, qondılar. Yemək-içmək etdilər. Səgrək məst oldı. [9] Dışra ayaq yolına çıqdı. Gördi kim, öksüz oğlan bir [10] qız anı çəkişür. "Mərə, noldıñız?" deyü bir şillə birinə, bir şillə [11] birinə urdı. Əski donuñ biti, öksüz oğlanıñ dili [12] acı olur. Biri aydır: "Mərə, mizim öksüzligimiz yetməzmi, bizi [13] niyə urarsan? Hünəriñ var isə, qardaşıñ
D257 Əlincə qalasında əsirdir, [1] var, anı qurtar!" – dedi.

Səgrək ayıtdı: "Mərə, qardaşımıñ adı [2] nədir?" Ayıtdı: "Əgrəkdir". Ayıtdı imdi: "Əgrəgə Səgrək yaraşur, [3] qardaşım sağmış, qayurmazam; qardaşsız Oğuzda durmazam. [4] Qarañulu gözüm aydını qardaş!" deyü ağladı. İçərü – söhbətə [5] girdi. Dəstur dilədi. "Bəglər, xoş qaluñ!" – dedi. Atın [6] çəkdilər, bindi. Çapdı, atasınıñ evinə gəldi. Atından [7] endi. Anasınıñ dilin aradı. Səgrək burada söyləmiş, [8] görəlim, xanım, nə soylamış, aydır:

Qalqubanı, ana, yerimdən durdı
[9] Yelisi qara Qazılıq atıma butun bindim.
Arqurı yatan Ala [10] dağ ətəginə vardım.
Qanlu Oğuz ellərində dərnək var imiş,
[11] anda vardım.
Yemək-içmək arasında
ağ-boz atlu bir çapar [10] gəldi.
Çoq zamanmış, "Əgrək" deyərlər*,
bir yigit tutsağmış.
[13] Qadir Tañrı yol vermiş, çıqub gəlmiş.
D258 Ulu-kiçi qalmadı, [1] ol yigidə qarşu getdi.
Ana, mən də varayınmı, nə dersin? – [2] dedi.

Anası burada soylamış, görəlim, xanım, nə soylamış. [3] Aydır:

Ağzıñ içün öləyim, oğul!
Dilüñ içün öləyim, oğul!
[4] Qarşu yatan qara dağıñ yıqılmış idi,
yucaldı, axır!
Aqındılı [5] görklü suyuñ sovğulmışdı,
çağladı, axır!
Qaba ağacda [6] dal-budağıñ qurımışdı,
yaşarıb-gögərdi, axır!
[7] Qalın Oğuz bəgləri izinə varsa,
sən varğıl!
Ol yigidə [8] yetdügiñdə
ağ-boz atıñ üzərindən yerə engil!
Əl qavşırıb, [9] ol yigidə salam vergil!
Əlin öpüb, boynın quçğıl!
[10] Qara dağım yüksəgi qardaş degil!
Nə durarsan, oğul, [11] yortğıl! – dedi.

Oğlan anasına soylamış, görəlim, [12] nə soylamış, aydır:

Ana, ağzıñ qurısun!
Ana, diliñ çürisün!
[13] Mənim xud qardaşım varmış,
qayursam, olmaz!
D259 Qardaşsuz [1] Oğuzda dursam, olmaz!
Ana haqqı Tañrı haqqı olmasaydı,
[2] Qara polad uz qılıcım tutaydım,
Ğafillücə görklü başıñ [3] kəsəydim,
Alca qanıñ yer yüzinə tökəydim,
Ana, zalım ana! – dedi.

[4] Babası aydır: "Yañlış xəbərdir, oğul. Qaçan-gedən səniñ ağañ [5] degil, ayrıdır. Ağ saqallu mən babañı ağlatmağıl! Qarıcıq olmış [6] anañı bozlatmağıl!" – dedi. Oğlan burada soylamış, aydır:

[7] Üç yüz altmış altı alp ava binsə,
Qanlu keyik üzərinə [8] qovğa qopsa,
Qardaşlu yigitlər qalqar-qopar olur.
Qardaşsız [9] miskin yigit əñsəsinə
yumruq toqunsa,

Ağlayuban dört [10] yanına baqar olur.
Ala gözdən acı yaşın dökər olur...
Ala [11] gözlü oğluñuzı görüncə
Bəg baba, xatun ana, əsən [12] qaluñ! – dedi.

Ata-ana "yañlış xəbərdir, getmə, oğul!" – dedilər. [13]
D260 Oğlan aydır: "Məni yolımdan ayırmañ! Ağam tutulan qalaya [1] varmayınca, ağamıñ ölüsin-dirisin bilməyincə, öldisə, [2] qanın almayınca Qalın Oğuz elinə gəlməgim yox!" – dedi.

Ata-[3]ana ağlaşub, Qazana adam saldılar. "Oğlan qardaşın [4] añdı gedər; bizə nə ögüt verərsən?" – dedilər. Qazan aydır: [5] "Ayağına ət tuşağın uruñ!" – dedi. Yavuqlusı vardı, [6] tez dügün-diring etdilər. Atdan-ayğırdan, dəvədən buğra, [7] qoyundan qoç qırdırdılar.

Oğlanı gərdəgə qoydılar. Qızla [8] ikisi bir döşəgə çıqdılar. Oğlan qılıcıñ çıqardı. [9] Qızla kəndü arasına bıraqdı. Qız aydır: "Qılıcıñ geydir, yigit, [10] murad ver, murad al, sarılalım!" – dedi. Oğlan aydır: "Mərə qavat [11] qızı, mən qılıcıma doğranayım, oxuma sancılayım! Oğlum doğmasun, [12] doğarsa, on yaşına varmasun, ağamıñ yüzin görməyincə, [13] ölmiş isə, qanın almayınca bu gərdəgə girərsəm!" – dedi.

D261 Uru [1] durdı, tavladan bir şahbaz at çıxardı, əyərlədi, geyimin [2] geydi. Dizcik, qarucıq bağlandı. Aydır: "Qız, sən maña [3] bir yıl baqğıl! Bir yildə gəlməzsəm, iki yil baqğıl! İki yildə [4] gəlməzsəm, üç yil baqğıl. Gəlməzsəm, ol vaqt mənim öldügimi biləsən. [5] Ayğır atum boğazlayub, aşum vergil! Gözüñ kimi tutarsa, [6] köñlüñ kimi sevərsə, ana varğıl!" – dedi. Qız burda soylamış, [7] görəlim, xanım, nə soylamış, aydır:

Yigidim, mən saña bir yil baqam.
[8] Bir yildə gəlməzsəñ, iki yil baqam.
İki yildə gəlməzsəñ, [9] üç-dört yil baqam.
Dört yildə gəlməzsəñ, beş yil, [10] altı yil baqam.
Altı yol ayırdına çadır dikəm.
Gələndən-gedən[11]dən xəbər soram.
Xeyir xəbər gətürənə at, don verəm,
qaftanlar [12] geydürəm.

Şər xəbər gətürəniñ başın kəsəm.
Ərkəg siñəgi [13] üzərimə qondurmayam.
D262 Murad ver, murad al, andan get, yigidim! – [1] dedi.

Oğlan aydır: “Mərə qavat qızı, ağam başına and [2] içmişəm, dönməgim yox!” – dedi. Qız aydır: “Qədəmi qutsuz gəlin [3] deyincə, udsuz gəlin desünlər. Qayın atama, qayın anama aydayım”, – [4] dedi.

Soylamış, qız aydır:

Atamdan yegrək qayın ata!
Anamdan [5] yegrək qayın ana!
Qaytabanıñ buğrası ürkdi gedər,
[6] Sarvanlar öñin aldı, döndərəməz.
Qaraquc ayğırıñ ürkdi, [7] gedər,
Ilqıçılar öñin aldı, döndəriməz.
Ağayılıñ qoçları [8] ürkdi, gedər,
Çoban öñin aldı, döndəriməz.
Ala [9] gözlü oğluñ qardaşını añdı, gedər,
Ağca yüzlü gəlinüñ [10] döndəriməz;
sizə məlum olsun! – dedi.

Ata-ana ah etdilər. [11] Yerlərindən qalqdılar “oğul, getmə”
deyü. Gördilər, çarə olmadı. [12] “Əlbətdə, ol ağam tutulan
qalaya varmayınca olmazam”, – dedi.
D263 [13] Atası-anası: “Yort, oğul! Uğuruñ açuq olsun, [1] sağ-əsən
varub gələsən, gələcəgiñ varsa!” – dedilər. Atasınıñ-[2]anasınıñ əlin öpdi. Qaraquc atına sıçrayub bindi.

[3] Dün qatdı, yort eylədi. Üç gün dünli-günli [4] yortdı. Dərəşam ucından keçdi, ol qardaşı tutılan [5] qorıya gəldi. Gördi kim, ilqıçı kafirlər yund güdərlər. Qılıc [6] çəküb altı kafir dəplədi, tovlanbaz urub yundları [7] ürkitdi. Gətürüb ol qorıya qoydı. Dün qatmış, [8] üç gün-dünli yortmış yigit, qarañulı gözin [9] uyxu almış yigit, atınıñ çilbərini biləginə bağladı, yatdı-[10]uyudı.

Məgər kafiriñ casusı vardı. Gəlüb təkürə [11] aydır:
“Oğuzdan bir dəlü yigit gəldi. İlqıçıları öldürdi.[12] Yundları ürkitdi, gətürüb qorıya qoydı” Təkür [13] aydır: “Yaraqlu altmış
D264 adam seçiñ, varsunlar, tutub gətürsünlər”, – [1] dedi.

Altmış yaraqlu adam seçdilər, vardılar. Nagahandan altmış
[2] dəmir donlu kafir oğlanıñ üzərinə gəldilər. Geyim qılcıdısın-
dan, [3] at çığırmasından (məgər yigit ayğır binərdi), xanım, at [4]
qulağı sağ olur, çəkübəni oğlanı oyardı. Oğlan [5] gördi kim, bir
alay atlu gəlür, sıçradı. Adı görklü [6] Məhəmmədə salavat gə-
türdi. Atına bindi. Qara donlu kafirə [7] qılıc urdı. Basdı qalaya
qoydı. Yenə uyxusın [8] yeñməyüb, yerinə varub yatdı-uyıdı.
Genə atınuñ [9] çilbərin biləginə keçürdi.

Kafirlər, sağ olanları, [10] qaçaraq təkürə gəldilər. Təkür ay-
dır: "Tu yüzüñüzə, altmış kişi! [11] Bir oğlanı tutamadıñuz!" –
dedi. Bu kərrə yüz kafir [12] oğlanıñ üzərinə gəldilər. Ayğır ye-
nə oğlanı oyardı. [13] Gördi, kafirlər alay bağlamış gəlürlər.
D265 Oğlan durdı, [1] atına bindi. Adı görklü Məhəmmədə salavat
gətürdi. Kafirə [2] qılıc qoydı, basdı qalaya tıqadı. Atını dön-
dərdi. [3] Genə mənzilinə gəldi. Uyxusın yeñəmədi, gerü yatdı-
uyıdı. [4] Atınıñ çilbərin yenə biləginə keçürdi. Bu kərrə at oğ-
lanıñ [5] biləgindən boşandı, qaçdı.

Kafirlər yenə təkürə gəldilər. [6] Təkür aydır: "Bu qatla üç
yüz varıñ!" – dedi.

Kafirlər aydır: "Varmazuz, [7] kökümüz kəsər, həpümiz qı-
rar!" – dedilər. Təkür aydır: "Ya necə eyləmək gərək? [8] Va-
rıñ, ol tutsaq yigidi çıqarıñ-gətürüñ. Dəpəgən köbini [9] süsə-
gən yırtar. At veriñ, don veriñ!" – dedi.

Gəldilər. Əgrəgə [10] ayıtdılar: "Yigit, saña təkür himmət
eylədi. Şunda bir dəlü yigit [11] yolçınıñ-yolıqçınıñ, çobanıñ-
çolığıñ ətməgin alur. [12] Tut ol dəlüyi öldür, səni qoyu verəlim,
var-get!" – dedilər. [13] "Xoş ola!" – dedi. Əgrəgi zindandan çı-
D266 qardılar. Saçı-[1] saqalını yüldilər. Bir at, bir qılıc verdilər. Üç
yüz kafir [2] aña yoldaşlığa verdilər. Oğlanıñ üzərinə gəldilər.
Üç [3] yüz kafir geñ yerdə durdılar.

Əgrək aydır: "Qanı ol dəlü yigit?". [4] Iraqdan göstərdilər.
Əgrək aydır: "Gəlüñ varalım, [5] tutalım!" Kafirlər aydır: "Tə-
kürdən buyruq saña oldı, sən var!" – [6] dedilər. Əgrək aydır:
"Uşda uyur, gəlüñ varalım!" – dedi. [7] Kafirlər aydır: "Hay, nə
uymaq, qoltuğı altından baqar, qalqar, bizə [8] geñ yazuyı dar
göstərər", – dedi. Aydır: "İmdi mən varayım, [9] əlin-ayağın
bağlayayım, andan siz gələsiz", – dedi. Sıçradı, kafirlər [10]
arasından çıqdı. At sürüb, bu yigidiñ üzərinə gəldi. [11] Atından

endi, çilbərini bir dala ilişdirdi. Baqdı gördi kim, [12] ayuñ on dördinə bəñzər bir məhbub, ala gözlü gənc yigit burçuq-[13]burçuq dərləmiş, uyur. Gələndən-gedəndən xəbəri yoq. Dolandı,
D267 [1] başı ucına gəldi. Gördi kim, belində qopuzı var. Çıqarub, [2] əlinə aldı. Soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Qalqubanı yerindən [3] duran yigit,
Yelisi qara Qazlıq atın butun binən,
Arqubeli [4] Ala dağdan dünin aşan,
Aqındılı görkli suyı dəlüb [5] keçən,
Qarıplığa gələn yaturmı olur?
Bənciləyin qarusından ağ əllərin [6] bağladuban,
doñuz damında yaturmı olur?
Ağ saqallu babasını, [7] ağ birçəklü anasını
ağladuban bozladurmı olur?
Niyə yatursan, [8] yigit?
Ğafil olma, görklü başıñ qaldır, yigit!
Ala gözüñ açğıl, [9] yigit!
Qadir verən dadlu canıñ uyxu almış,
Yigit, qarusından [10] qollarıñı bağlatmağıl!
Ağ saqallu babañı, qarıcıq anañı ağlatmağıl!
[11] Nə yigitsən, Qalın Oğuz elindən gələn yigit?
Yaradan haqqıyçun [12] durı gəlgil!
Dörd yanıñı kafir bağladı, bəllü bilgil! – dedi.

D268 [13] Oğlan sərmərdi uru durdı. Qılıncınıñ belçağına yabışdı [1] kim, bunı çırpa, gördi kim, əlində qopuz var. Aydır: "Mərə kafir, dədəm Qorqud [2] qopuzı hörmətinə çalmadım, – dedi, – əgər əlündə qopuz olmasaydı, [3] ağam başıyçun, səni iki para qılurdum", – dedi. Çəkdi qopuzı [4] əlindən aldı oğlan burada. Soylamış, görəlim, xanım, nə soylamış:

[5] Alan sabah yerindən durduğum qardaş içün.
Ağ-boz atlar yorultmışam [6] qardaş içün.
Qalañızda tutsaq varmıdır, kafir, degil maña?
[7] Qara başım qurban olsun, kafir, saña! – dedi.

Ulu qardaşı Əgrək [8] burada soylamış, görəlim, xanım, nə soylamış. Aydır:

Ağzıñ içün [9] öləyim, qardaş!
Dilüñ içün öləyim, qardaş!
Qalarda-qoparda [10] yeriñ sorar olsam, nə yerdir?
Qara gərdun içində yol arasañ,
[11] azsañ, umuñ nədir?
Qaba aləm götürən xanlar kim?
Ğovğa güni [12] öñdin dəpən alpıñuz kim?
Yigit, səniñ babañ kim?
Alp ər ərdən [13] adın yaşurmaq eyib olur,
adıñ nədir, yigit? – dedi.

D269 Bir dəxi [1] soylamış, aydır:

Qaytabanım güdəndə sarvanımmısan?
Qaragücim güdəndə [2] ılqıçımmısan?
Ağayılım güdəndə çobanımmısan?
Qulağımda şırşıyan [3] naibimmisən?
Beşikdə qoyub getdigim qardaşcığımmısan?
Yigit, [4] degil maña!
Qara başım qurban olsun bu gün saña! – dedi.

Səgrək [5] burada ulu qardaşına soyladı. Aydır:

Qara gərdun içində [6] yol azsam,
umum, – Allah!
Qaba ələm götürən xanımız, – Bayındır xan!
Qırış [7] güni öñdin dəpər alpımız, – Salur Qazan!
Babam adın sorarsañ, – Uşun [8] qoca!
Mənim adım sorar olsañ, – Səgrək!
Qardaşım varmış, adı [8] Əgrək! – dedi.

Bir dəxi soyladı, aydır:

Qaytabanda güdəndə sarvanıñam.
[10] Qaraquçıñ güdəndə ılqıçıñam.
Beşikdə qoyub getdigiñ qardaşıñam, – [11] dedi.

Ulu qardaşı Əgrək burada soylamış, görəlim, xanım, necə [12] soylamış, aydır:

Ağzıñ içün öləyim, qardaş!
Dilüñ içün öləyim, [13] qardaş!
Ərmi olduñ, yigitmi olduñ, qardaş!
D270 Qəriblığa qardaşıñ [1] istəyü
sənmi gəldiñ, qardaş!

Qalqubanı iki qardaş quca-[2]quca görüşdilər. Əgrək kiçi qardaşıñ boynın öpdi. [3] Səgrək daxı ağasınıñ əlin öpdi.

Qarşu yaqadan [4] kafirlər baqışurlar, aydırlar: "Gürəşdilər, olamı? Bolay ki, bizimki [5] yeñə", – dedilər. Gördilər kim, qucışdılar-görüşdilər; Qazılıq atlar [6] binişdilər. Qara donlu kafirə at saldılar, qılıc yüritdilər. [7] Kafiri basdılar-qırdılar, qalaya dökdilər. Gəlüb yenə ol qorıya [8] girdilər. Yundları daşra çıqardılar. Tavlanbaz urub, yundları [9] öñlərinə bıraqdılar. Dərəşam suyını dəlüb keçdilər. Dün qatdılar. [10] Oğuzuñ sərhəddinə yetdilər.

Qanlu kafir əlindən qardaşcuğın dartub [11] aldı. Ağ saqallu babasına muştçı göndərdi. "Babam maña qarşu [12] gəlsün!" – dedi.

Uşun qocaya çapar gəldi. "Muştluq! Gözüñ [13] aydın!
D271 Oğullaruñ ikisi bilə sağ-əsən gəldi", – dedilər. Qoca [1] eşidüb
şad oldı. Gumbur-gumbur davullar çalındı. Altun-[2]tuc borılar
ağrıldı. Ol gün ala bargah otaqlar dikildi. [3] Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırıldı. Qoca bəg [4] oğullarına qarşu gəldi. Atından endi, oğlanlarıyla quca-quca [5] görüşdi: "Xoşmısız, əsənmisiz, oğullar?" – dedi. Günligi altunluca [6] odasına gəldilər. Şadlıq, yemək-içmək oldı. Ulu oğlına [7] dəxi görklü gəlin gətürdi. İki qardaş bir-birinə sağdıc oldılar, [8] gərdəklərinə çapub düşdilər. Murada-məqsuda irişdilər.

Dədəm Qorqud [9] gəlübən boy boyladı, soy soyladı:

Əvvəl-axır uzun [10] yaşıñ ucı ölüm!
Ölüm vaqtı gəldügində arı imandan ayırmasun!
[11] Günahıñuzı Məhəmməd Mustafa yüzi suyına
bağışlasun!
"Amin" [12] deyənlər didar görsün!
Xanım, hey!

## SALUR QAZAN [13] TUTSAQ OLUB OĞLI URUZ
D272 ÇIQARDIĞI BOYI [1] BƏYAN EDƏR

Məgər xanım, Tırabuzan təküri bəglər bəgi [2] olan xan Qa-
zana bir şahin göndərmişdi. Bir gecə yeyüb [3] oturarkən şahin-
çibaşına aydır: “Mərə, sabah şahinləri [4] al, xəlvətcə ava binə-
lim!” – dedi.

Erkən bindilər, av yerinə vardılar. [5] Gördilər, bir süri qaz
oturar. Qazan şahini saldı, [6] alımadı. Şahin pərvaza ağdı. Göz-
lədilər, şahin Tumanın [7] qalasına endi. Qazan ğayət səxt oldı.

Şahiniñ ardına [8] düşdi, dərə-dəpə aşdı. Kafir elinə gəldi.
Gedərkən Qazanıñ [9] qaranñulu gözüni uyxu aldı. Bəglər ayıt-
dılar: “Xanım, dönəlim!” [10] Qazan aydır: “Birəz dəxi ilərü va-
ralım!” – dedi.

Baqdı, bir qala [11] gördi. Aydır: “Bəglər, gəliñ yatalum!” – dedi.

Qazanı küçicik [12] ölüm tutdı, uyudı. Məgər xanım, Oğuz
bəgləri yedi gün [13] uyurdı. Anuñçun “küçicik ölüm” derlərdi.
D273 Məgər ol [1] gün Tumanın qalasınıñ təküri ava binmişdi.
Casus [2] gəldi, aydır: “Bir bölük atlu gəldi, içində bəgləri yat-
dı-[3]uyudı”. Təkür adam saldı, “Kim idügin bilüñ!” – dedi.

Gələnlər [4] bildi kim, bunlar Oğuz ərənlərindəndir. Gəlib
təkürə xəbər verdilər. [5] Təkür dəxi haman çərisini dərdi, bun-
larıñ üzərinə gəldi. [6] Qazanıñ bəgləri baqdılar, gördilər kim,
yağı gəlür, ayıtdılar: “Qazanı [7] bırağur gedərsəvüz, evində bizi
qovarlar. Yegrəgi budur ki, [8] bunda qırılavuz!” – dedilər. Ka-
firi qarşuladılar, cəng etdilər. [9] Qazanıñ üzərinə yigirmi beş
bəgini şəhid etdilər. Qazanıñ üzərinə [10] düşdilər. Uyuduğı
yerdə tutdılar. Əlin-ayağın bərk bağladılar, [11] bir ərəbəyə
yüklətdilər. Ərəbəyə möhkəm orğanla sardılar. Ərəbəyi
çəkdilər, [12] yürüyü verdilər.

Gedərkən ərəbə qıcırdısından Qazan oyandı, [13] gərindi, bu
D274 əlindəki orğanları həb qırdı. Ərəbəniñ [1] üzərinə oturdı. Əlin
əlinə çaldı, qas-qas güldi. [2] Kafirlər aydırlar ki, “gülürsən?!”
Qazan aydır: “Mərə kafirlər, bu ərəbəyi [3] beşigim sandım.
Sizi yamrı-yumrı dadım-dayəm sandım”, – [4] dedi.

Helə Qazanı gətürdilər, Tumanın qalasında bir quyuya [5]
bıraqdılar. Quyunuñ ağzına bir dəgirman daşı qodılar. Yemə-
gini-suyını [6] dəgirmən daşı dəlügindən verərlərdi.

Bir gün təkürüñ övrəti [7] aydır: "Varayın, Qazanı görəyin,
nə hallu kişidir, bunca adamlara [8] zərb urarmış?!" – dedi. Xa-
tun gəlüb zindançıya qapuyı açdırdı. [9] Çağırdı, aydır: "Qazan
bəg, nədir halıñ? Dirligiñ yer altındamı [10] xoşdur, yoxsa yer
yüzindəmi xoşdur? Həm şimdi nə yersən, [11] nə içərsən və
nəyə binərsən?" – dedi. Qazan aydır: "Ölüləriñə aş verdigiñ [12]
vaqt əllərindən aluram. Həm ölüləriñiziñ yorğasın binərəm,
kahillərin [13] yedərəm", – dedi. Təkür övrəti aydır: "Diniñ
D275 içün, Qazan bəg, [1] yedi yaşında bir qızçuğazım ölmüşdür, kə-
rəm eylə, aña, binmə!" – [2] dedi.

Qazan aydır: "Ölüləriñizdə andan yorğa yoqdur, həp [3] aña
binərəm!" – dedi. Övrət aydır: "Vay, səniñ əlüñdən nə yer [4]
yüzində dirimiz və nə yer altında ölümüz qurtulurmış!" –
dedi. [5] Gəldi, təkürə aydır: "Kərəm eylə, ol tatarı quyudan çı-
qar. [6] Qızcığazıñ belini üzər, yer altında qızçuğazıma binər-
miş. [7] Qalan ölülərimizi cəm edərmiş, həm ölülərimiz içün
verdügimiz [8] aşı əllərindən çəküb, alub yer imiş. Anuñ əlin-
dən nə ölümiz, nə [9] dirimiz qurtulurmış! Diniñ eşqinə, ol əri
quyudan çıqar", – [10] dedi.

Təkür bəglərini cəm eylədi. Aydır: "Gəlüñ Qazanı
quyudan [11] çıqaruñ, bizi ögsün, Oğuzı sındırsun. Andan soñra
[12] şərt eyləsün, bizim elümizə yağılığa gəlməyə", – dedi.

Vardılar, [13] Qazanı quyudan çıqarub gətürdilər. Ayıtdılar:
D276 "And iç kim, [1] bizim elümizə yağılığa gəlməyəsən. Həm bizi
ög, Oğuzı sındırğıl, [2] səni qoyu verəlim, var-get!" – dedilər.
Qazan aydır: "Vallah, billah, [3] doğrı yolı görər ikən əgri yol-
dan gəlməyəyin!" – dedi. Ayıtdılar: [4] "Vallah, Qazan eyü and
içdi", – dedilər. "İmdi Qazan bəg, di, [5] bizi ög!" – dedilər. Qa-
zan aydır: "Mən yer yüzində adam ögməzin. [6] Bir adam gətü-
rüñ, binəyim, sizi ögəyim!" – dedi. Vardılar, bir ər kafir [7] gə-
türdilər. "Bir əyər, bir uyan" – dedi, gətürdilər. Kafiriñ arxa-
sına [8] əyər saldı, ağzına uyan urdı. Qolanını çəkdi, sıçradı, [9]
arqasına bindi. Ökcəsin ökcəsinə qaqdı, qapurğasın [10] qarnına
qavşurdı. Uyanın çəkdi, ağzın ayırdı, kafiri [11] öldürdi. Çökdi,

üzərinə oturdı. Aydır: “Mərə kafirlər, [12] qopuzum gətürüñ, sizi ögəyin!” – dedi. Vardılar, qopuzı [13] gətürdilər.

Əlinə alub, burada soylamış, görəlim, xanım, nə soylamış,
D277 [1] aydır:

Biñ-biñ ərdən yağı gördümsə, “oyunum” dedim.
Yigirmi [2] biñ ər yağı gördümsə, yiləmədim.
Otuz biñ ər yağı gördümsə, [3] ota saydım.
Qırq biñ ər yağı gördümsə, qıya baqdım.
Əlli [4] biñ ər gördümsə, əl vermədüm.
Altmış biñ ər gördümsə, aytışmadım.
[5] Səksən biñ ər gördümsə, səksənmədim.
Doqsan biñ yağı [6] gördümsə, donanmadım.
Yüz biñ ər gördümsə, yüzüm dönmədim.
[7] Yüzi dönməz qılıcum ələ aldım.
Məhəmmədiñ dini eşqinə qılıc urdım.
[8] Ağ meydanda yumrı başı topca kəsdim.
Anda dəxi “ərəm-bəgəm” [9] deyü ögünmədim.
Ögünən ərənləri xoş görmədim!
Əlüñə girmiş [10] ikən, mərə kafir, öldür məni,
Qara qılıcıñ sal boynuma, kəs başım.
[11] Qılıcıñdan saparım yoq!
Kəndü əslim, kəndü köküm sımağım yoq! – dedi.

[12] Bir soy dəxi soylamış, aydır:

Yüksək-yüksək qara dağdan [13] daş yuvalansa,
Qaba ökcəm-oyluğum qarşu tutan Qazan ər idim.
D278 [1] Firon şişlər yükəlib yerdən çıqsa,
Qaba ökcəmlə pərçin [2] qılan Qazan ər idim.
Qaba-qaba bəglər oğlı ğovğa qılsa,
Qamçı [3] salub tökdürən Qazan ər idim.
Yuca dağları duman [4] dursa,
qara pusarıq dolı qopsa,
Qaraqucumuñ qulağı [5] görinməz olsa,
Qayırı ərən qılağuzsız yol yañılsa,
Qılağuzsız [6] yol başaran Qazan ər idim.
Yedi başlu əjdərhaya yetüb [7] vardım.

Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd [8] gözüm, müxənnət gözüm,
Bir yılandan nə var ki, qorxduñ! – dedim.
[9] Anda dəxi "ərəm, bəgəm" deyü ögünmədim.
Ögünən ərənləri xoş [10] görmədim.
Əlüñə girmişkən, mərə kafir, öldür məni,
yetür məni!
Sal [11] qılıcıñ, kəs başım,
Qılıcıñdan saparım yoq!
Kəndü əslim, kəndü [12] köküm sımağım yoq!
Oğuz ərənləri durarkən səni ögməgim yoq! – [13] dedi.

Qazan burada bir dəxi soylamış:

D279 Arqıc qırda yıqanır [1] Əmman dəñizində
Sarb yerlərdə yapılmış kafir şəhri,
Sağa-[2]sola çırbındı urar yüzgüçiləri,
Su dibində dönər bəhriləri,
[3] "Tañrı mənəm" deyü su dibində çığrışur asiləri.
Öñin qoyub [4] tərsin oqur qızı-gəlini.
Altun aşıq oynar Sancıdanıñ [5] bəgləri.
Altı qatla Oğuz vardı, alımadı.
Ol qalayı, altı [6] baş ərlə mən Qazan vardım,
altı günə qomadım, anı aldım.
[7] Kəlisasın yıqub, yerinə məscid yapdım,
bañ bañlatdım.
Qızını-[8]gəlinini ağ köksümdə oynatdım.
Bəglərin qul etdim.
Anda dəxi [9] "ərəm, bəgəm" deyü ögünmədim.
Ögünən ərənləri xoş görmədim.
[10] Əlüñə girmişkən, mərə kafir, öldür məni,
yetür məni!
Qılıcıñdan [11] saparım yoq!
Kəndü əslim, kəndü köküm sımağum yoq! – dedi.

Qazan [12] genə soylamış, aydır:

Arqıc qırda döndərdigim,
mərə kafir, səniñ [13] babañ.

Şəqaqına imrəndügim səniñ qızıñ-gəliniñ.
D280 Ağca qala Sürməlidə [1] at oynatdım.
Atla Qarun elinə çapqun yetdim.
Aq hasar [2] qalasınıñ bürcin yıqdım.
Ağ aqça gətürdilər, "puldur" dedim.
[3] Qızıl-altun gətürdilər, "baqırdır" dedim.
Ala gözlü qızın-gəlinin [4] gətürdilər, aldanmadım;
kəlisasın yıqdım, məscid yapdım.
Altunı-[5]gümüşi yağmalatdım.
Anda dəxi "ərəm, bəgəm" deyü ögünmədim.
Ögünənləri [6] xoş görmədim.
Əlüñə girmişkən, mərə kafir, öldür məni,
yetür məni!
[7] Kəndü əslim-köküm sımağım yoq!
Səni ögməgim yoq! – dedi.

[8] Qazan bəg burada bir dəxi soylamış, aydır:

Aq qayanıñ qaplanınıñ [9] erkəgində
bir köküm var,
Ortac qırda siziñ keyikləriñüz dur[10]ğurmaya.
Aq sazıñ aslanında bir köküm var,
Qaz alaca yunduñı [11] durğurmaya,
Əzvay qurd ənügi erkəgində bir köküm var,
Ağca [12] bəkil tümən qoyunuñ gəzdirməyə,
Ağ sunqur quşı erkəgində [13] bir köküm var,
Ala ördək, qara qazuñ uçurmaya.
D281 Qalın Oğuz [1] elində bir oğlum var, – Uruz adlu;
Bir qardaşım var – Qaragünə adlu.
[2] Yeñidən toğanıñı dirgürməyələr.
Əlüñə girmişkən, mərə kafir, [3] öldür məni,
yetür məni.
Qılıcıñdan saparım yoq!
Kəndü əslim sımağım [4] yoq! – dedi.

Bir dəxi soylamış, aydır:

İt kibi gu-gu edən çərkəz [5] xırslı,
Küçicik doñuz şülənli,

Bir torba saman döşəkli,
[6] Yarım kərpic yasdıqlı,
Yonma ağac tañrılı.
Köpəgim kafir,
Oğuzı [7] görərkən səni ögməgim yoq!
Andan öldürərsəñ, mərə kafir, öldür [8] məni,
Öldürməzsəñ, Qadir qorsa,
öldürəyim, kafir, səni! – [9] dedi.

Kafirlər aydır: “Bu bizi ögmədi. Gəlüñ, bunı öldürəlim!” – [10] dedilər. Kafir bəgləri dərildilər, gəldilər. Yenə ayıtdılar: “Bunuñ [11] oğlı var, qardaşı var; bunı öldürmək olmaz”, – dedilər. [12] Gətürdilər, doñuz damına həbsə saldılar.

At ayağı külük, [13] ozan dili çevik olur. Qazanıñ ölüsini –
D282 dirisini kimsə [1] bilmədi.

Məgər, xanım, Qazanıñ bir oğlancığı vardı; böyüdi, [2] yigitcik oldı. Bir gün ata binüb divana gəlürkən bir kişi [3] aydır: “Məgər sən xan Qazanıñ oğlı degilsən?” – dedi. Uruz [4] qaqıdı, aydır: “Mərə qavat, mənim babam Bayındır xan degilmidir?” [5] Ayıtdı: “Yox, ol, anañıñ babasıdır, səniñ dədəñdir”. Uruz: “Mərə, [6] ya bənim babam ölümidir, dirimidir?” – dedi. Ayıtdı: “Diridir, [7] Tumanın qalasında tutsaqdır”, – dedi. Böylə digəc oğlan [8] ağladı, məlul oldı, atını qayıtdı; gerü döndi, [9] anasına gəldi. Burada anasına soylamış, görəlim, xanım, [10] nə soylamış, aydır:

Mərə ana, mən xan oğlı degilmişəm.
Xan [11] Qazan oğlı imişəm.
Mərə qavat qızı, munı maña neçün diməzdiñ?
[12] Ana haqqı Tañrı haqqı degilmişsə,
Qara polad uz qılıcum [13] dartaydım,
Ğafillicə görklü başıñ kəsəydim,
D283 Alca qanıñ [1] yer yüzinə dökəydim, – dedi.

Anası ağladı, aydır: “Oğul, babañ [2] sağdır, amma söyləməyə qorxudum, kafirə varasan, kəndözüñi [3] urasan həlak olasan. Anuñçun saña diməzdim, canım, oğul, – [4] dedi, – amma əmmiñə adam sal, gəlsün; görəlim, nə der”, – dedi.

[5] Adam saldı, əmmisini oxudı. Gəldi. Uruz aydır: “Mən babam [6] tutsaq olduğı qalaya gedirəm”. İttifaqla danışıq qıldılar. Cəmi [7] bəglərə xəbər oldı: “Uruz babasına gedər, yarağla gəlüñ!” – dedilər.

[8] Ləşkər dərildi, gəldi. Alp Uruz çadırların açdırdı, [9] cəbbəxanasın yüklətdi. Qaragünə çəribaşı oldı. Borı [10] ağardıb köçdilər. Yola girdilər.

Yol üzərində kafiriñ Ayasofyası [11] vardı. Keşişlər bəklərdi. Ğayət sarb kəlisaydı. [12] Atdan enüb, tacir donın geydilər. Bazirgan surətində [13] qatır-dəvə çəkdilər, gəldilər.

D284 Kafirlər gördilər, gələnlər tacirə [1] bəñzəməz; qaçdılar, qalaya girdilər, qapuların yapdılar. Bürcə çıqub [2] “Kimlərsiz?” dedilər. Bunlar ayıtdı: “Bazirganlarız”, – dedilər.

Kafirlər [3] “yalan söylərsiz” deyü daşa tutdılar. Uruz atdan endi, [4] aydır: “Hay, atamıñ altun qədəhindən şərab içən, məni sevən [5] atdan ensün! Bunuñ qapusına birər gürz uralım!” – dedi. On [6] altı yigit sıçrayub atdan endilər. Qalqan yapındılar. Gürzlərin [7] umuzlarına urdılar, qapuya gəldilər; birər gürz urub qapuyı [8] ovatdılar, içərü girdilər. Bulduqları kafiri qırdılar. Dil [9] çıqartmadılar. Malını yağmaladılar. Çəri üzərinə gəldilər, qondılar.

[10] Məgər bir sığırtmacları vardı. Gördi kim, qalayı aldılar.

Qaçdı [11] təkürə vardı, Ayasofya alunduğın xəbər verdi. “Nə oturarsız, [12] üzəriñizə yağı gəldi, başıñuz yarağın görüñ!” – dedi.

Təkür [13] bəgləri cəm eylədi. “Bunlarla nə müdara qıla-
D285 lum?” – dedi. Bəglər ayıtdılar: [1] “Bunuñ müdarası oldur kim, Qazanı çıqaravuz, anlara bərabər edəvüz”. [2] Bu sözi məsləhət gördilər. Vardılar, Qazanı çıqarub, [3] təkür öñinə gətürdilər. Təkür aydır: “Qazan bəg, üzərimizə yağı gəldi. [4] Bu yağıyı üzərimizdən ayırarsañ, səni qoyu verəlim! – dedilər. Həm [5] xəraca müti olalım. Sən dəxi and iç kim, bu bizim elə yağılığa [6] gəlməyəsən”, – dedilər. Qazan aydır: “Vallah, billah, doğrı yolı görərkən [7] əgri yoldan gəlməyəlim!” – dedi. Kafirlər “Qazan eyü and içdi” deyü [8] sevindilər. Təkür çərisin dəvşürüb meydana gəldi. Çadır [9] tikdirdi. Kafir ləşkəri Qazanıñ üzərinə yığıldı. Qazana [10] geyim gətürdilər. Qılıc və sügü və çomaq və sair cəng alətin [11] geydirüb donatdılar.

Bu məhəldə Oğuz ərənləri alay-alay [12] gəldi. Köpür-
köpür tavıllar, nəqarələr çalındı. Qazan [13] gördi kim, ləşkər
D286 öñincə bir ağ-boz atlu, ağ ələmlü bəg dəmir [1] donlu Oğuzuñ
öñincə gəldi. Çadırın dikdirdi. Alay [2] bağladı durdı. Anuñ
ardınca Qaragünə gəldi, alay bağladı [3] durdı. Haman burada
Qazan at meydana sürdi, qırım [4] dilədi.

Boz atlu Beyrək at dəpdi, meydana girdi. Qazan [5] burada soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Qalqubanı yerindən [6] duran yigit, nə yigitsən?
Əgni bəg dəmür donın geyən yigit, [7] nə yigitsən?
Adıñ nədir, yigit, degil maña! – dedi.

Beyrək burada [8] soylamış, aydır:

Mərə kafir, sən məni bilməzmisin?
Barasarıñ [9] Bayburd hasarından parlayub uçan,
Adaxlusın ayrıqlar [10] alurkən tutub alan,
Baybörə xan oğlı Bamsı Beyrək [11] maña derlər.
Gəl bərü, mərə kafir, dögüşəlim! – dedi.

Qazan burada [12] bir dəxi soylamış, aydır:

Mərə yigit, öñincə bu çəriniñ
Bir aq sancaqlu [13] alay çıqdı.
Çadırın ildən-ögdin dikdi.
D287 Ağ-boz ata [1] binən ol yigit nə yigitdir,
kimüñ nəsidir?
Yigit, başıñçun, [2] degil maña!

Beyrək aydır: “Mərə kafir, kimüñ nəsi olsa gərək! Bəgümiz [3] Qazanıñ oğlıdır”, – dedi. Qazan könlüñdən aydır: “Əlhəmdülillah, [4] mənim oğlancığım böyük ər olmış”, – dedi.

Beyrək: “Mərə kafir, necə [5] bir onı-bunı sorarsan maña?” – dedi, Qazanıñ üzərinə at [6] saldı. Pərlü gürzini əlinə alub Qazanı çaldı. Qazan [7] kəndüyi bildirmədi, qarvadı Beyrəgi biləgindən tutdı-[8]dartdı, çomağını əlindən aldı. Beyrəgiñ əñsəsinə bir [9] çomağ urdı. Beyrək at boynın qucaqladı, qayıda [10] döndi. Qazan aydır: “Ya Beyrək, var, bəgüñə ayıt gəlsün!” – [11] dedi.

Bunı gördi, İlək qoca oğlı Dönəbilməz [12] Dülək Uran meydana girdi.

Qazan burada soylamış, aydır:

[13] Alar danla yerindən duran yigit,
nə yigitsən?
D288 Bədəvi atın oynadı [1] gələn yigit,
nə yigitsən?
Ər ərdən adın yaşurmaq eyib [2] olur.
Adıñ nədir, yigit, degil maña! – dedi.

Dülək Uran [3] aydır:

Mərə kafir, mənim adım bilməzmisən?
Öz adına xorlayan, eldən [4] çıqan,
Əlli yedi qalanıñ kəlidini alan.
İlək qoca oğlı [5] Dönəbilməz Dülək Uran
maña derlər, – dedi.

Sügüsin əlinə alub, [6] at saldı. "Qazanı sancam" dedi, sancamadı, ötə keçdi. [7] Qazan at dəpdi. Sügüsin çəküb əlindən aldı, dəpəsinə [8] urdı. Para-para oldı, ovandı, Aydır: "Mərə, qavat oğlı, [9] bəgüñə de gəlsün", – dedi. Ol dəxi qayıda döndi.

Qazan [10] yenə ər dilədi. Dözən oğlı Alp Rüstəm at dəpdi, [11] meydana girdi. Qazan burada genə soyladı, aydır:

Qalqubanı [12] yerindən durı gələn,
Qazılıq atın butun binən,
Nə yigitsən, [13] adıñ nədir, degil maña! – dedi.

Alp Rüstəm aydır:

D289 Qalqubanı yerindən [1] durı gələn,
İki qardaş bəbəgin öldürüb zəlil gəzən,
Dözən [2] oğlı Alp Rüstəm maña derlər, – dedi.

Ol dəxi Qazana [3] at saldı. "Alam" dedi, alımadı. Qazan bəg buña dəxi [4] bir zərb urdı. Aydır: "Mərə qavat, var, bəgüñə de, gəlsün", – [5] dedi.

Ol dəxi döndi. Qazan gerü ər dilədi. Uruzuñ [6] cilavısın əmmisi Qaragünə tutmışdı. Çəkdi, añsuzın [7] əlindən aldı, qılı-

cını dartdı, babasınıñ üzərinə at saldı. [8] Durundurmadı, çigninə qılıc endirdi. Geyimini kəsdi, omuzına [9] dört parmaq dəklü zəxm urdı. Alca qanı şorladı, [10] qoynına endi.

Uruz genə döndi ki, bir dəxi çala, Qazan [11] burada çağırıb oğlına soylar, görəlim, xanım, nə soylar. [12] Aydır:

Qara dağım yüksəgi oğul!
Qarañulu gözlərim [13] aydını oğul!
Alpım Uruz, aslanım Uruz,
D290 Ağ saqallu [1] babaña qıyma, oğul! – dedi.

Uruzuñ şəfqət damarları qaynadı. [2] Qara qıyma gözləri qan-yaş doldı. Atdan yerə endi, atasınıñ [3] əlin öpdi. Qazan dəxi axtarıldı, yerə endi. Oğlınıñ [4] boynın öpdi. Bəglər Qazanla oğlınıñ üzərinə at saldılar. [5] Çevrə aldılar. Cəmisi atdan enüb, Qazanıñ əlin öpdilər. [6] Yürüyübən kafirə at saldılar, qılıc urdılar. Dərələrdə, [7] dəpələrdə kafirə qırğun girdi. Qalayı aldılar. Kəlisasın yıqub [8] məscid yapdılar. Qanlu kafir əlindən babasını dartub aldı.

[9] Qalın Oğuz elinə gəlüb çıqdı. Ağca yüzli anasına muştçı [10] saldı. Qaza bəñzər qızı-gəlini Qazana qarşu gəlüb, əlin [11] öpdilər, ayağına düşdilər.

Qazan görklü çəmənə çadır otaq [12] dikdirdi. Yedi gün yedi
gecə toy-dügün edüb, yemə-[15]içmə oldı. Dədəm Qorqud gəl-
D291 di, qopuz çaldı; ğazi ərənlər [1] başına nə gəldügin söylədi:

Qanı ögdügümüz bəg ərənlər,
Dünya [2] mənim deyənlər?
Əcəl aldı, yer gizlədi.
Fani dünya kimə qaldı?
[3] Gəlimlü-gedimlü dünya!
Soñ ucı ölümlü dünya!
Ölüm vaqtı [4] gəldügində arı imandan ayırmasun!
Qadir səni namərdə möhtac [5] etməsün!
Beş kəlmə dua qıldıq, qəbul olsun!
"Amin! Amin!" [6] deyənlər didar görsün!
Günahıñızı adı görklü Məhəmməd [7] Mustafa
hörmətinə bağışlasun! Xanım, hey!

## İÇ OĞUZA [8] DAŞ OĞUZ ASİ OLUB BEYRƏK ÖLDÜGİ [9] BOYI BƏYAN EDƏR

Üç Oq, Boz Oq yığnaq olsa, [10] Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Amma [11] Daş Oğuz bilə bulınmadı. Həmin İç Oğuz yağmaladı.

[12] Qaçan Qazan evin yağmalatsa, halalınıñ əlin alur, dışra çıqardı, [13] ondan yağma edərdi.

D292 Daş Oğuz bəglərindən Aruz, Əmən və qalan [1] bəglər bunı eşitdilər, ayıtdılar ki, “Baq, baq! Şimdiyə dəkin Qazanıñ [2] evin bilə yağma edərdik. Şimdi neçün bilə olmayavuz?” – dedilər. [3] İttifaqı cəmi Daş Oğuz bəgləri Qazana gəlmədilər, ədavət [4] eylədilər.

Qılbaş deyərlər, bir kişi vardı. Qazan aydır: “Mərə Qılbaş, [5] bu Daş Oğuz bəgləri xanım bilə gəlürlərdi. Şimdi neçün gəlmədilər?” – [6] dedi. Qılbaş aydır: “Bilməzmisin, neçün gəlmədilər? Evin yağmalatdığıñ [7] dəm Daş Oğuz bilə bulınmadı, səbəb oldur”, – dedi. Qazan [8] aydır: “Ədavət bağladılar, həmi?” – dedi. Qılbaş aydır: “Xanım, mən [9] varayın, onlarıñ dostlığın-düşmənligin biləyin”, – dedi. [10] Qazan aydır: “Sən bilürsən, var!” – dedi.

Qılbaş bir qaç adam [11] ilə binüb, Qazanıñ dayısı Aruzuñ evinə gəldi. Aruz[12] dəxi altun günlügin dikmişdi, oğlanlarıyla oturmışdı. [13] Qılbaş gəlüb Aruza salam verdi, aydır: “Qazan
D293 buñlu oldı. [1] Əlbətdə, dayım Aruz maña gəlsün, – dedi. Qara
başım buñaldı, [2] üzərümə yağı gəldi. Dəvələrim bozlatdılar,
Qaraqucda [3] Qazılıq atlarım kişnətdilər. Qaza bənzər qızımız-
gəlinümiz buñlu [4] oldı. Mənim qara başıma gör nələr gəldi.
Dayım Aruz gəlsün”, – [5] dedi.

Aruz aydır: “Mərə Qılbaş, ol vaqt kim, Üç, Boz Oq [6] yığnaq olsa, ol vaqt Qazan evin yağma edərdi. Suçumuz [7] nəydi ki, yağmada bilə olmadıq? – dedi. Həmişə Qazanıñ başına [8] buñlu gəlsün, dayısı Aruzı daim aña dursun. Biz Qazana [9] düşməniz, bəllü bilsün!” – dedi.

Qılbaş burada soylamış, görəlim, [10] xanım, nə soylamış, aydır:

Mərə qavat,
Qalqubanı Qazan xan yerindən [11] durı gəldi.
Ala dağda çadırın-otağın dikdi.
Üç [12] yüz altmış altı alp ərənlər
yanına yığnaq oldı.
Yemək-içmək [13] arasında bəglər səni añdı.
Üstümüzə yağı-nəsnə gəlmədi.
D294 [1] Mən səniñ dostlığıñ-düşmənlığıñ
sınayu gəldim.
Qazana [2] düşmən imişsən, bildim! – dedi.
Qalqub “Xoş qal!” deyüb [3] getdi.

Aruz ğayət səxt oldı. Daş Oğuz bəglərinə [4] adam saldı. “Əmən gəlsün, Alp Rüstəm gəlsün, Dönəbilməz [5] Dülək Uran gəlsün, gerü qalan bəglər həb gəlsün!” – dedi.

[6] Daş Oğuz bəgləri həp yığnaq oldı. Ala bargah otaqların [7] düzə dikdi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç [8] qırdırdı. Daş Oğuz bəglərinə ağırlıq edüb toyladı. [9] Aydır: “Bəglər, mən sizi niyə qağırdım, bilürmisiz?” Ayıtdılar: “Bilməzüz”. [10] Aruz aydır: “Qazan bizə Qılbaşı göndərmiş. Elim-günüm çapıldı, [11] qara başım buñlu oldı, dayım Aruz maña gəlsün, – demiş. Qılbaşa [12] ayıtdım ki, qaçan ki Qazan evin yağmaladardı, Daş Oğuz [13] bəgləri bilə yağmalardı. Bəglər gəlür, Qazanı salamlar, gedərdi. Şimdi suçumuz nə oldı kim, bilə bulınmaduq”.

D295 [1] Əmən aydır: “Ya sən nə cavab verdiñ?” Aruz aydır ki, “Mərə qavat, biz [2] Qazana düşmənüz”, – dedim. Əmən aydır: “Eyü demişsən”.

Aruz aydır: “Bəglər, [3] ya siz nə dersiz?” Bəglər aydır: “Nə deyəlüm? Çün sən Qazana düşmən olduñ, [4] biz də düşməniz”, – dedilər.

Aruz araya Müshəf gətürdi. Həb bəglər [5] əl urub and içdilər. “Səniñ dostuña dost və düşmənüñə [6] düşmənüz”, – dedilər. Aruz cümlə bəgləri xələtlədi, döndi aydır: “Bəglər, [7] Beyrək bizdən qız almışdır, güyəgümüzdür; amma Qazanıñ inağıdır. [8] Gəlsün, bizi Qazanla barışdırsun. Deyəlüm, gətürəlim; bizə müti [9] olursa, xoş! Olmaz isə, bən saqalını tutayın,

siz qılıc [10] aşuruñ, paralañ! Aradan Beyrəgi götürəlim. Andan soñra Qazan ilə [11] işümiz xeyir ola!" – dedi.

Beyrəgə kağıd göndərdilər. Beyrək oda[12]sında yigitlərlə yeyüb-içirdi. Aruzdan adam gəldi, salam [13] verdi.

D296 Beyrək əleyk aldı. Ayıtdı: "Xanım Aruz sizə salam [1] aydar. Kərəm etsün, Beyrək gəlsün, Qazanla bizi barışdırsun!" [2] – der. Beyrək "Xoş ola!" dedi. Atın çəkdilər, bindi. Qırq yigidlə [3] Aruzuñ evinə gəldi. Daş Oğuz bəgləri oturarkən girib salam [4] verdi. Beyrəgə Aruz aydır: "Bilürmisən, səni niyə qağırdıq?" Beyrək [5] aydır: "Niyə qağırdıñız?" Aruz aydır: "Həb şol oturan bəglər Qazana [6] asi olduq, and içdik". Müshəf gətürdilər, "Sən dəxi and iç!" – [7] dedilər. "Qazana mən asi olmazam" deyü and içdi. Soyladı, [8] aydır:

Mən Qazanıñ nemətini çoq yemişəm,
Bilməzsəm, gözümə dursun!
[9] Qaraqucda Qazılıq atına çoq yilmişəm.
Bilməzsəm, maña, tabut olsun!
[10] Yaxşı qaftanların çoq geymişəm,
Bilməzsəm, kəfənim olsun!
Ala bargah [11] otağına çoq girmişəm,
Bilməzsəm, maña zindan olsun!
Mən Qazandan [12] dönməzəm, bəllü bilgil! – dedi.

Aruz qaqıdı, qarvayub Beyrəgiñ saqalını tutdı. Bəglər [13] Beyrəgə qıyamadı.

D297 Beyrək Aruz qaqıduğın burada bildi. Soylamış, [1] aydır:

Aruz, maña bu işi edəcəgiñ bilsəydim,
Qaraqucda Qazılıq [2] atuma binərdim!
Əgni bərk dəmür donum geyərdim!
Qara polad uz qılıcım [3] belümə bağlardım!
Alın-başa qunt işuğum urardım!
Qarğu dalı [4] altmış tutam sügümi
əlümə alurdım.
Ala gözlü bəgləri yanıma [5] salırdım!
Qavat, mən bu işi duysam,

saña böylə gəlürmiydim?!
[6] Aldayuban ər tutmaq övrət işidir,
Övrətiñdənmi ögrəndiñ, sən [7] bu işi, qavat?! – dedi.

Aruz aydır: “Mərə, hərzə-mərzə söyləmə, qanıña [8] su-
sanma; gəl and iç!” – dedi. Beyrək aydır: “Vallah, mən Qazan
[9] Oğuzına başım qomışam. Qazandan dönməzəm, gərəksə,
yüz para eylə!” – dedi. [10] Aruz genə qaqıdı. Beyrəgin saqalını
bərk tutdı, bəglərə baqdı. [11] Gördi kimsə gəlməz. Aruz qara
polad uz qılıcın dartub, Beyrəgiñ [12] sağ oyluğın çaldı, qara qa-
na bulaşdı. Beyrəgiñ başı [13] buñlu oldı. Bəglər həb dağıldı.
D298 Hər kişi atlu atına bindi. [1] Beyrəgi dəxi bindirdilər. Ardına
adam bindirib qucaqladılar. Qaçdılar, [2] Beyrəgi odasına ye-
türdilər. Cübbəsin üzərinə örtdilər.

Beyrək [3] burada soyladı, aydır:
Yigitlərim, yerüñüzdən uru duruñ,
[4] Ağ-boz atumuñ quyruğını kəsiñ,
Arqubeli Ala dağdan [5] dünin aşuñ,
Aqındılı görkli suyı dəlüb keçüñ.
Qazanıñ [6] divanına çapub varıñ.
Ağ çıqarıb qara geyüñ.
“Sən sağ ol, [7] Beyrək öldi” deyiñ.

Ayıdıñuz: “Namərd Aruz dayıñdan adam gəldi. [8] Beyrəgi
istəmiş, ol dəxi varmış. Həp Daş Oğuz bəgləri [9] yığnaq olmış.
Bilmədik, yemə-içmə arasında Müshəf gətürdilər. [10] “Qazana
biz asi olduq, and içdik. Gəl, sən dəxi and iç!” dedilər. [11] İç-
mədi. “Mən Qazandan dönməzəm”, – dedi. Namərd dayıñ qa-
qıdı, [12] Beyrəgi qılıcladı. Qara qana bulaşdı, buñlu oldı. Yarın [13]
qiyamət günində mənim əlüm Qazan xanıñ yaqasında olsun, [1]
D299 mənim qanım Aruza qorsa!” – dedi. Bir dəxi soylamış, aydır:

Yigitlərim, [2] Aruz oğlı Basat gəlmədin,
Elim-günim çapılmadın,
Qaytabanda [3] dəvələrim bozlatmadın,
Qaraqucda Qazılıq atım kişnətmədin,

Ağca [4] qoyunlarım məñrişmədin.
Ağca yüzlü qızım-gəlinüm əkşəşmədin,
Ağca [5] yüzli görklimi Aruz oğlı Basat
gəlüb almadın,
Elüm-günüm [6] çapmadın,
Qazan maña yetişsün,
Mənim qanım Aruza qomasun.
Ağca [7] yüzlü görklümi oğlına alı versün.
Axirət haqqını halal etsün.
[8] Beyrək padşahlar padşahı Haqqa vasil oldı,
bəllü bilsün! – [9] dedi.

Beyrəgiñ babasına-anasına xəbər oldı. Ağ evi-eşigində [10]
şivən qopdı. Qaza bəñzər qızı-gəlini ağ çıqardı, [11] qara geydi.
Ağ-boz atınıñ quyruğını kəsdilər. Qırq-əlli yigit [12] qara
geyüb-gög sarındılar. Qazan bəgə gəldilər, sarıqların yerə [13]
D300 urdılar. "Beyrək!" deyü çoq ağladılar. Qazanıñ əlin öpdilər. [1]
"Sən sağ ol, Beyrək öldi!" – dedilər. Namərd dayıñ al ey-
ləmiş. [2] Oquyuban bizi aldılar. Vardıq, Daş Oğuz bəgləri sizə
[3] asi olmışlar, bilmədik. Müshəf gətürdilər; biz Qazana asi [4]
olduq, sən dəxi bizə müti ol! – dedilər. And içdilər. Beyrək [5]
ətməgüñ basmadı. Anlara müti olmadı. Dayıñ namərd Aruz [6]
qaqıdı, Beyrəgi oturduğı yerdə qılıcladı. Bir oyluğın düşürdi. [7]
"Sən sağ ol, xanım, Beyrək Haqqa vasil oldı; mənim qanım
Aruza [8] qomasun", – dedi, – dedilər.

Qazan bu xəbəri eşitdi. Dəstmalın [9] əlinə alub ökür-ökür ağladı. Divanda zarlıq qıldı. Həp [10] anda olan bəglər ağlaşdılar. Qazan vardı, odasına girdi; [11] yedi gün divana çıqmadı, ağladı oturdı.

Bəglər yığıldı, [12] divana gəldi. Qazanıñ qardaşı Qaragünə
aydır: "Qılbaş, var [13] ayıt, ağam Qazan gəlsün-çıqsun; bir yi-
D301 gid səniñ ucuñdan [1] aramızdan əksildi. Həm vəsiyyət eyləmiş,
"Mənim qanım qomayasan, [2] alasan" – demiş. Varalım, düş-
məni haqlayalum, di!" – dedi. Qılbaş [3] aydır: "Sən qarın-
daşısan, sən var!" – dedi.

Əlhasil, ikisi bilə [4] vardılar. Qazanıñ odasına girdilər. Salam verdilər. "Sən sağ ol, [5] xanım, – dedilər. – Bir yigit ara-

mızdan əksildi, səniñ yoluñda baş [6] verdi. Derəm, qanın alalım; həm sizə ısmarlamış, “mənim qanım alsun” demiş. [7] Ağlamaqla nəsnəmi olur? Durı gəl yuqarı” – dedilər.

Qazan aydır: [8] “Məsləhətdir. Tez cəbbəxanayı yüklətsünlər. Həp bəglər həp binsünlər!” [9] dedi.

Cəmi bəglər bindi; Qazanıñ Qoñur atın çəkdilər, bindi. Borı [10] çalındı, kos uruldu. Gecə-gündüz demədilər, yortma oldı.

[11] Aruza və cəmi Daş Oğuz bəglərinə xəbər oldı. “İşdə,
Qazan gəldi”, [12] dedilər. Anlar dəxi çəri dərüb, borı ağardan
Qazana qarşu gəldilər. [13] Üç Oq, Boz Oq qarşulaşdılar. Aruz
D302 aydır: “Mənim İç Oğuzda [1] qırımım Qazan olsun!” Əmən ay-
dır: “Mənim qırımım Tərsuzamış olsun!” [2] Alp Rüstəm aydır:
“Mənim qırımım Əñsə qoca oğlı Oqçı olsun!” – [3] dedi. Hər
biri bir qırım gözətdi. Alaylar bağlandı, qoşunlar [4] düzüldi.
Borılar çalındı. Tavullar dögildi. Aruz qoca [5] meydana at
dəpdi. Qazana çağırıb “Mərə qavat, sən mənim qırımımsan, [6]
sən gəl bərü!” – dedi.

Qazan qalqan yapındı, sügüsin əlinə aldı. [7] Başı üzərinə
çevirdi. Aydır: “Mərə qavat, muxannatlıq ilə ər öldürmək [8] necə
olur, mən saña göstərəyim!” – dedi. Aruz Qazanıñ üzərinə [9] at
saldı. Qazanı qılıcladı, zərrə qədər kəsdirəmədi, ötə [10] keçdi.
Növbət Qazana dəgdi. Altmış tutam ala göndərin [11] qoltuq qısdı,
Aruza bir göndər urdı. Köksindən yalabdaq [12] ötə keçdi. At
üzərindən yerə saldı. Qarındaşı Qaragünəyə [13] işarət etdi: “Başın
D303 kəs!” – dedi. Qaragünə atdan endi. [1] Aruzuñ başın kəsdi.

Daş Oğuz bəgləri bunı görüp, [2] həp atdan endilər. Qazanıñ ayağına düşdilər, suçların dilədilər, [3] əlin öpdilər. Qazan suçların bağışladı. Beyrəgiñ qanın [4] dayısından aldı. Aruzuñ evini çapdırdı. Elini-günini [5] yağmalatdı. Yigit bəglər toyum oldı.

Qazan gög alañ çəmənə [6] çadır dikdirdi. Otağın qurdı. Dədəm Qorqud gəlübən [7] şadlıq çaldı. Qazi ərənlər başına nələr gəldügin [8] aydı-verdi:

Qanı dedigim bəg ərənlər,
Dünya mənim deyənlər?
[9] Əcəl aldı, yer gizlədi.
Fani dünya kimə qaldı?

Gəlimli-[10]gedimli dünya!
Soñ ucı ölümli dünya!
Əlaqibət, [11] uzun yaşıñ
ucı ölüm, axırı ayrılıq.

Yum verəyim, [12] xanım:

Ölüm vaqtı gəldügində
arı imandan ayırmasun!
[13] Ağ saqallu babañ yeri uçmağ olsun!
Ağ birçəklü [1] anañ yeri behişt olsun!
D304 Qadir səni namərdə [2] möhtac etməsün!
Ağ alnuñda [3] beş kəlmə dua qıldıq,
[4] qəbul olsun!
"Amin! [5] Amin!" deyənlər didar görsün!
[6] Yığışdırsun, duruşdursun
[7] Günahıñı Məhəmməd Mustafaya [8] bağışlasun!
Xanım, hey!..

# KİTABİ-DƏDƏ QORQUD

*Sadələşdirilmiş mətnlər*

**Müəlliflər: F.Zeynalov, S.Əlizadə**

# MÜQƏDDİMƏ

Məhəmməd peyğəmbərin zamanına yaxın Bayat boyunda "Qorqud ata" deyilən bir kişi vardı. O kişi oğuzların kamil bilicisi idi: nə deyirdisə, olurdu. Gələcəkdən qəribə xəbərlər söyləyirdi. Allah onun könlünə ilham verirdi...

Qorqud ata dedi: "Axırda xanlıq geriyə – Qayıya dönər, heç kim əllərindən almaz..." Qorqud atanın bu dediyi Osman nəslidir. /Qiyamət günü qopunca necə var, elə də ömür sürüb gedəcək/... və daha buna bənzər neçə söz söylədi.

Qorqud ata oğuz xalqının çətin işlərini həll edərdi. Nə olsa, Qorqud ataya danışmayınca iş görməzdilər. O nə buyursa, qəbul edirdilər, sözün tutub gedirdilər...

Dədə Qorqud soylamış:

Allah-Allah deməyincə işlər düzəlməz.
Qadir Allah verməyincə kişi varlanmaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vaxtı çatmayınca kimsə ölməz.
Ölən adam dirilməz, çıxan can geri gəlməz.
Bir igidin Qara dağ yumrusunca malı olsa,
yığar-toplayar, qismətindən artığını
yeyə bilməz.
Qovuşaraq sular daşsa, dəniz dolmaz.
Təkəbbürlük eyləyəni Tanrı sevməz.
Könlünü uca tutan adamda ağıl olmaz.
Yad oğlunu saxlamaqla oğul olmaz, –
böyüyəndə atar-gedər, gördüm deməz...
Kül təpəcik olmaz (Kürəkən oğul olmaz).
Qara eşşək başına yüyən vursan, qatır olmaz.
Qaravaşa don geydirsən də, qadın olmaz.
Lopa-lopa qarlar yağsa, yaza qalmaz.
Gül-çiçəkli göycə çəmən payıza qalmaz.
Köhnə pambıq bez olmaz.

Qarı düşmən dost olmaz.
Qaracığa qıymayınca yol alınmaz.
Böyük, iti, polad qılıncı çalmayınca döyüş bitməz.
Kişi malına qıymayınca adı çıxmaz.
Qız anadan görməyincə öyüd almaz.
Oğul atadan görməyincə süfrə çəkməz.
Oğul atanın yetirməsi, iki gözünün biridir.
Ağıllı oğul olsa, ocağının közüdür.
Oğul daha neyləsin, ata ölüb mal qalmasa.
Ata malından nə fayda, başda ağıl olmasa...
Ağılsız adamın şərindən Allah saxlasın, xanım, sizi!
Dədə Qorqud soylamış:
Bərk qaçarkən Qazlıq ata namərd igid minə bilməz,
minincə, minməsə yaxşıdır!
Çalıb-kəsən iti qılıncı müxənnətlər çalınca,
sınsa yaxşıdır!
Vura bilən igidə oxla qılıncdan bir çomaq yaxşıdır.
Qonağı gəlməyən böyük evlər yıxılsa yaxşıdır!
At yeməyən acı otlar bitincə, bitməsə yaxşıdır!
Adam içməyən acı sular sızınca, sızmasa yaxşıdır!
Ata adını ucaltmayan fərsiz oğul
ata belindən enincə, enməsə yaxşıdır.
Ana bətninə düşüncə, doğulmasa yaxşıdır.
Ata adını yaşatmaqçın ağıllı oğul yaxşıdır.
Yalan söz bu dünyada olunca, olmasa yaxşıdır.
Doğrucul adamlar yüz yaşasa yaxşıdır.
Üç yüz on yaşına çatasan;
Allah sizə yamanlıq göstərməsin,
Dövlətiniz əbədi olsun, xanım, hey!

Dədə Qorqud soylamış, görək, xanım, nə soylamışdır:

Getdiyi yerin otlaqlarını keyik tanıyar.
Uzaq yerlərin çəmənlərini qulan tanıyar.
Ayrı-ayrı yollar izini dəvə tanıyar.
Yeddi dərə qoxularını tülkü tanıyar.
Gecə ikən karvan köçdüyünü torağay bilər.
Oğulun kimdən olduğunu ana bilər.
Ərin ağzının kəsərini at bilər.

Ağır yükün zəhmətini qatır bilər.
Hansı yerdə sıyrılan varsa, çəkən bilər.
Qafil başın ağrısını beyni bilər.
Qolça qopuz götürüb eldən-elə, bəydən-bəyə
ozan gəzər;
Ər comərdini, ər namərdini ozan bilər.
Elinizdə-evinizdə çalıb-deyən ozan olsun!
Azıb gələn qəzanı Tanrı sovuşdursun, xanım, hey!

Dədə Qorqud yenə soylamış, görək, xanım, nə soylamışdır:

Ağız açıb tərifləsəm, üstümüzdə Tanrıya əhsən!
Tanrı dostu, din başçısı Məhəmmədə əhsən!
Məhəmmədin sağ yanında namaz qılan
sadiq Əbubəkrə əhsən!
Quranın son fəslində "əmmə" surəsi gözəldir!
Höccələnib düz oxunsa, yasin gözəldir!
Qılınc çaldı, din açdı mərdlər şahı Əli, – əhsən!
Əlinin oğulları – peyğəmbərin nəvələri –
Kərbəla çölündə Yezid əlində öldürülən
iki qardaşa – Həsənlə Hüseynə əhsən!
Yazılıb-düzülüb göydən enən Tanrı elmi
Qurana əhsən!
O, Quranı yazdı-düzdü, alimlər öyrənincə
ölçdü-biçdi, –
Alimlər başçısı Üffan oğlu Osmana əhsən!
Alçaq yerdə tikilibdir, Tanrı evi Məkkə gözəldir.
O Məkkəyə sağ-salamat gedib-gəlsə, sidqi
bütöv Hacıya əhsən!
Sayılan günlərdən cümə gözəldir,
Cümə günü oxunanda xütbə gözəldir.
Qulaq asıb-dinləyəndə ümmətə əhsən!
Minarədə azan verən azançıya əhsən!
Dizini yerə basıb oturanda qadın gözəldir.
Sinəsindən ağarırsa, ata gözəldir.
Ağ südünü doyunca əmizdirsə, ana gözəldir.
Yanaşıb yola girəndə qara buğur gözəldir.
Sevgili qardaş gözəldir.
Uca ev yanında qurulsa gəlin çadırı, gözəldir.

Uzunca ipi də gözəldir. Oğul gözəldir.
Heç kimə bənzəməyən, bütün aləmləri yaradan
Allaha əhsən!..
O tərifl ədiyim uca Tanrı dost olub,
sənə kömək etsin, xanım, hey!

Ozan deyir: “Arvadlar dörd cürdür: birisi soy soldurandır; birisi toy doldurandır; birisi evin dayağıdır; birisi necə desən, bayağıdır”.

Ozan, evin dayağı odur ki, çöldən-bayırdan evə bir qonaq gəlsə, əri evdə olmasa, o gələn adamı yedirir-içirir, əzizləyib-oxşayır, yola salır. O cür arvad Ayişə, Fatimə cinsidir, xanım. Onun uşaqları sağ olsun. Ocağına bu cür arvad gəlsin...Gəldin, o ki soy soldurandır, oğrunca yerindən qalxar, əl-üzünü yumadan doqquz bozlamacla bir bardaq qatığı gəvələyər, tıxıb-basıb doyunca yeyər, əlini böyrünə vurar, deyər: “Bu evi görüm, xaraba qalsın! Ərə gedəndən bəri qarnım da doymadı, üzüm də gülmədi. Ayağım başmaq, üzüm yaşmaq görmədi. Deyər: “Ah, nə olaydı, birinə də gedəydim. Umduğumdan da yaxşı-uyğun olaydı”. Onun kiminin, xanım, uşaqları böyüməsin! Ocağına bu cür arvad gəlməsin.

Gəldin, o ki toy doldurandır, tərpənincə yerindən qalxdı, əl-üzünü yumadan obanın o ucunu bu ucuna çarpışdırdı. Söz-şayiə yaydı, qapılara qulaq qoydu. Öynəyədək gəzdi. Öynədən sonra evinə gəldi. Gördü ki, oğru köpəklə yekə dana evini qatıb-qatışdırmışdır; evi toyuq komasına, inək damına dönmüşdür. Qonşularını çağırar ki: “Yetər! Zəlihə! Zibeydə! Ürüdə-can, qız-can! Paşa! Ayna Mələk! Qutlu Mələk! Ölməyə itməyə getməmişdim. Yatacaq yerim yenə bu xaraba olasıydı. Nə olardı, mənim evimə azacıq baxaydınız? “Qonşu haqqı – Tanrı haqqıdır” – deyib-söylər. Bunun kiminin, xanım, uşaqları böyüməsin! Ocağına bunun kimi arvad gəlməsin.

Gəldin, o ki necə desən, bayağıdır. Əri evdə olanda çöldən-bayırdan evinə bir abırlı qonaq gəlsə, əri desə ki, dur çörək gətir, yeyək; qonaq da yesin. Desə, bişmiş çörək daimi deyil, yemək lazımdır. Arvad deyər: “Neyləyim, bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi... Nə gəlirsə, mənim sağrıma gəlsin”,-deyə əlini yanına vurar, üzünü o tərəfə, sağrısını ərinə döndərər. Min söylərsən, birisini eşitməz, – ərin sözünü qulağına almaz. O, Nuh peyğəmbərin eşşəyi nəslindəndir. Xan, ondan da sizi Allah saxlasın! Ocağınıza belə arvad gəlməsin!

# DİRSƏ XAN OĞLU BUĞAC XAN BOYU

Bir gün Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Şami günlüyünü yer üzündə qurdurmuşdu. Hündür alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi...

Xanlar xanı Bayındır xan ildə bir dəfə şadlıq edib, oğuz bəylərini qonaq edərdi. Yenə şadlıq məclisi qurub, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurmuşdu. "Kimin oğlu-qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasından gətirin. Yeyir-yesin, yemirsə – dursun getsin" demişdi. "Oğlu olanı ağ otağa, qızı olanı qırmızı otağa yerləşdirin. Oğlu-qızı olmayanı Allah qarğıyıb, biz də qarğayarıq; qoy bilsin" demişdi.

Oğuz bəyləri bir-bir gəlib yığılmağa başladılar. Dirsə xan deyilən bir bəyin oğlu-qızı yox idi. Ozan soylamış, görək, xanım, nə soylamışdır:

Salxım-salxım dan yelləri əsdikdə,
Saqqallı, boz, ac torağay ötdükdə,
Saqqalı uzun tat kişi azan çəkəndə,
Bədəvi atlar yiyəsini görüb kişnədikdə,
"Ağlı", "qaralı" seçilən çağda,
Köksü gözəl qaya dağlara gün dəyəndə,
İgid bəylər, pəhləvanlar bir-birilə güləşəndə

Dirsə xan sübh tezdən qalxıb, yerindən durdu; qırx igidini dəstəsinə qatıb Bayındır xanın məclisinə gəldi.

Bayındır xanın igidləri Dirsə xanı qarşıladılar, gətirib qara otaqda oturtdular, altına qara keçə döşədilər, qara qoyun qovurmasından önünə gətirdilər. "Bayındır xanın əmri belədir, xanım!" dedilər. Dirsə xan deyir: "Bayındır xan mənim hansı əksikliyimi gördü? Qılıncımdanmı gördü, süfrəmdənmi gördü? Məndən alçaq kişiləri ağ otaqda, qırmızı otaqda oturtdu. Mənim günahım nə oldu ki, qara otağa yerləşdirdi?".

Dedilər: "Xanım, bu gün Bayındır xandan buyruq belədir ki, oğlu-qızı olmayanı Tanrı qarğayıbdır; biz də qarğayırıq".

Dirsə xan yerindən qalxdı: "İgidlərim, qalxıb yerinizdən durun! Bu böyük eyib mənə ya məndən, ya arvaddandır",-dedi.

Dirsə xan evinə gəldi. Çağırıb qadınını soylayır, görək, xanım, nə soylayır. Soylama. Deyir:

Bəri gəl, başımın baxtı, evimin taxtı!
Evdən çıxıb yeriyəndə sərv boylum!
Topuğuna sarmaşanda qara saçlım!
Qurulmuş yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Payız almasına bənzər al yanaqlım!
Qadınım, dayağım, döl verənim!
Görürsənmi nələr oldu?

Bayındır xan qalxıb yerindən durmuş, bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq tikdirmişdir. “Oğulluları ağ otaqda, qızlını qırmızı otaqda, oğlu-qızı olmayanı qara otaqda oturdun; altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasını gətirin: yeyir-yesin, yemirsə, dursun-getsin. Bir adamın ki, oğlu-qızı olmaya, onu Allah qarğayıbdır, biz də qarğayırıq” – demişdir.

Gəlib qarşıladılar, qara otaqda oturtdular, qara qoyun ətindən qovurmanı önümə gətirdilər. “Oğlu-qızı olmayanı Tanrı qarğayıbdır, bil ki, biz də qarğayarıq” – dedilər. “Səndənmidir, məndənmidir, nədəndir Allah bizə bir yetkin oğul vermir?” – dedi. Soyladı:

Xan qızı, yerimdən durummu?
Yaxandan-boğazından tutummu?
Qaba dizimin altına salımmı?
Böyük, iti, polad qılıncımı əlimə alımmı?
Öz gövdəndən başını kəsimmi?
Can şirinliyini sənə bildirimmi?
Alca qanını yer üzünə tökümmü?
Xan qızı, səbəbi nədir, de mənə!
Qatı cəza verərəm indi sənə! – dedi.

Dirsə xanın qadını soylamış, görək, nə soylamışdır:

Ay Dirsə xan, mənə qəzəblənmə!
İnciyib acı sözlər söyləmə!
Yerindən qalx, ayağa dur,
Yer üzündə böyük çadır qur!

Ayğır, buğra, qoç qırdır!
İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığ!
Ac görsən, doydur; çılpaq görsən, geyindir!
Borclunu borcundan qurtar!
Təpə kimi ət yığ, göl kimi qımız sağdır!
Böyük şadlıq məclisi qur, Allahdan arzunu dilə!
Bəlkə bir ağzı dualının alqışı ilə
Tanrı bizə bir yetkin övlad verə, – dedi.

Dirsə xan arvadının sözü ilə böyük məclis qurdurdu, Allahdan istəyini dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Daş Oğuz bəylərini ora topladı. Ac gördüsə, doydurdu.

Yalın gördüsə, geyindirdi. Borclunu borcundan qurtardı. Təpə kimi ət yığdı. Göl kimi qımız sağdırdı. Əl götürüb arzularını dilədilər. Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Arvadı hamilə oldu. Bir neçə müddətdən sonra isə bir oğlan doğdu. Oğlancığı dayələrə verdi, saxlatdı...

At ayağı iti, ozan dili çevik olur. Yiyəsi olan yekəlir, qabırğalı böyüyür. Oğlan on beş yaşına girdi. Oğlanın atası köçüb Bayındır xanın adamlarına qarışdı.

Deyilənə görə, Bayındır xanın bir buğası və bir də buğrası vardı. O buğa bərk daşa buynuz vursa, un kimi üyüdərdi. Bir yazda, bir də payızda buğa ilə buğranı savaşdırırdılar. Bayındır xan Qalın Oğuz bəyləri ilə tamaşaya baxır, əylənirdi.

Bir dəfə, sultanım, yenə yazda buğanı saraydan çıxardılar. Dəmir zəncirli buğanı üç kişi sağdan, üç kişi də sol yandan tutmuşdu. Gəlib meydanın ortasında qoyub getdilər. Bu vaxt Dirsə xanın oğlu üç uşaqla meydanda "aşıq-aşıq" oynayırdı. Buğanı qoyub gedəndə oğlanlara "qaç" dedilər. Oğlanların üçü qaçdı, Dirsə xanın oğlu qaçmadı. Hündür meydanın ortasında durdu-baxdı. Buğa da hücum edib oğlana sarı gəldi. İstədi ki, oğlanı həlak etsin. Oğlan buğanın alnına çəpəki bir zərbə vurdu. Buğa dal-dalı getdi, geri qayıdıb oğlana hücum etdi. Oğlan yenə buğanın alnına möhkəm bir yumruq vurdu; bu dəfə buğanın alnına yumruğunu dayadı, itələyib meydanın başına çıxardı.

Oğlanla buğa xeyli çəkişdilər. Buğanın iki kürəyi üstündə köpük durdu. Nə oğlan, nə də buğa üstün gəlirdi. Oğlan fikirləşib öz-özünə dedi: "Bir dama dirək vururlar, o dama dayaq olur. Mən niyə bunun alnına dayaq olub dururam?" Yumruğunu buğanın alnından çəkib,

yolundan atıldı. Buğa ayaq üstündə dura bilmədi, yıxıldı; təpəsi üstə düşdü. Oğlan bıçağına əl atdı. Buğanın başını kəsdi.

Oğuz bəyləri gəlib, oğlanın başına toplaşdılar, əhsən dedilər. “Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun: özüylə götürüb, atasının yanına getsin. Atasından oğlana bəylik istəsin, təxt alıb versin”- dedilər.

Çağırdılar, Dədə Qorqud gəldi. Oğlanı götürüb atasının yanına getdi. Dədə Qorqud oğlanın atasına soylamış, görək, xanım, nə soylamış – demişdir:

Hey Dirsə xan! Oğlana bəylik ver,
Təxt ver, -güclüdür, ərdəmlidir!
Boynu uzun bədəvi at ver,
Qoy minsin, hünərlidir!
Yaylağından on qoyun ver,
Bu oğlana şişlik olsun, cüssəlidir!

Qaytabandan qızılı dəvə ver bu oğlana,
Qoy yükləsin, hünərlidir!
Qızıl tağlı hündür ev ver bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çiyni quşlu cübbə-don ver sən bu oğlana,
Qoy geyinsin, hünərlidir!

Bu oğlan Bayındır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüşdür, qoy adı “Buğac” olsun. Adını mən verdim, yaşını Allah versin, -dedi.

Dirsə xan oğlana bəylik verdi, taxt verdi. Oğlan taxta çıxdı, atasının qırx igidini unutdu. O qırx igid həsəd çəkdi, kin saxladı. Bir-birinə söylədilər: “Gəlin, oğlanı atasının gözündən salaq. Bəlkə atası onu öldürə, hörmətimiz onun atası yanında yenə xoş ola, artıq ola”, -dedilər.

Bu qırx igidin iyirmisi bir yana, iyirmisi də o biri yana getdi. Əvvəlcə iyirmisi gedib, Dirsə xana bu xəbəri gətirdi: “Görürsənmi, Dirsə xan, nələr oldu? Yarımasın sənin oğlun, nankor və fərsiz çıxdı. Qırx igidini dəstəsinə qatıb, Qalın Oğuzun üstünə yürüş etdi. Harada gözəl vardısa, çəkib aldı. Ağ saqqallı qocanın ağzına, ağ birçəkli qarının südünə söydü. Axan duru sulardan, çılpaq yatan Ala dağdan söz-sov

adlayıb-keçər, xanlar xanı Bayındıra xəbər çatar. “Dirsə xanın oğlu belə yaramaz işlər görüb” desələr, yer üzündə gəzməyindən ölməyin yaxşı olar. Bayındır xan səni çağırar, sənə ağır cəza verər. Belə oğul sənin nəyinə gərəkdir? Belə oğulun olmasından olmaması yaxşıdır. Öldürsənə!”- dedilər.

Dirsə xan: “Gedin, gətirin, öldürüm!” – dedi. Belə dedikdə, xanım, o namərdlərin iyirmisi də gəlib çıxdı və bir iftira da onlar gətirdilər. Dedilər: “Dirsə xan, sənin oğlun qalxıb yerindən durdu, köksü gözəl böyük dağa ova çıxdı. Sən var ikən ov ovladı, quş vurdu. Anasının yanına götürüb gəldi. Al şərabın tündünü aldı, içdi. Anası ilə dilbir olub, atasına qəsd etmək istəyir. Sənin oğlun nankor çıxdı. Çılpaq yatan Ala dağdan ötüb, xanlar xanı Bayındıra xəbər çatar. “Dirsə xanın oğlu belə yaramaz işlər görüb” deyərlər. Səni çağırdarlar, Bayındır xanın yanında sənə cəza verərlər. Belə oğul nəyinə gərəkdir? Öldürsənə!” – dedilər.

Dirsə xan dedi: “Gedin, gətirin, öldürüm! Belə oğul mənə gərək deyil!”.

Dirsə xanın nökərləri deyir: “Biz sənin oğlunu necə gətirək? Sənin oğlun bizim sözümüzü dinləməz, bizim sözümüzlə gəlməz. Qalxıb yerindən dur. İgidlərini oxşayıb başına yığ; oğlunla görüş, yanına alıb ova çıx. Quş uçurub ov ovlayanda oğlunu oxlayıb öldür! Əgər belə öldürməsən, bil ki, başqa cür öldürə bilməzsən!”. Soylama:

Salxım-salxım dan yelləri əsdikdə,
Saqqallı boz, ac torağay ötdükdə,
Bədəvi atlar yiyəsini görüb kişnədikdə,
Saqqalı uzun tat kişi azan çəkəndə,
“Ağlı”, “qaralı” seçilən çağda,
Qalın Oğuzun gəlini-qızı bəzənən çağda,
Köksü gözəl böyük dağlara gün dəyəndə,
İgid bəylər, qəhrəmanlar bir-birilə döyüşəndə...

Dirsə xan sübh tezdən yerindən durdu. Oğlunu yanına salıb, öz qırx igidinin dəstəsinə qoşdu,ova çıxdı. Ov ovladılar, quş vurdular. O qırx namərdin bir neçəsi oğlanın yanına gəlib deyir: “Atan dedi, keyikləri qovub gətirsin, mənim qarşımda toplasın; oğlumun at səyirtməyini, qılınc çalmağını, ox atmağını görüm, sevinim, öyünüm!”.

Oğlan cavandır, nə bilsin? Keyiki qovub gətirir, atasının qarşısında qıcıqlandırıb-acıqlandırırdı ki, "atam at çapmağıma baxsın, – öyünsün; ox atmağıma baxsın, – fərəhlənsin; qılınc çalmağıma baxsın – sevinsin!".

O qırx namərd isə deyir: "Dirsə xan, görürsənmi, oğlanı? Çöldən-düzdən keyiki qovur, sənin qabağına gətirir ki, keyikə atarkən oxla səni vurub öldürsün. Oğlun səni öldürməmiş sən oğlunu öldür!".

Oğlan keyiki qovarkən atasının önündən gəlib-gedirdi. Dirsə xan Qorqud sinirli bərk yayını əlinə aldı. Üzəngiyə qalxıb möhkəm çəkdi, sərrast atdı: oğlanı iki kürəyinin arasından vurub yıxdı. Ox yarasından oğlanın qanı şoruldadı, qoynuna doldu. O, bədəvi atının boynunu qucaqlayıb yerə yıxıldı.

Dirsə kövrəlib oğlunun üstünə atılmaq istədi. O qırx namərd qoymadı. Atının cilovunu döndərib qərargahına gəldi.

Dirsə xanın arvadı "oğlancığımın ilk ovudur" deyə atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. "Ovu qanlı oğuz bəylərini yedirim-içirim, sevindirim" dedi. Özünü yığışdırıb yerindən cəld durdu. Qırx incə qızı da özü ilə götürdü. Dirsə xana tərəf getdi. Qapaq qaldırdı, Dirsə xanın üzünə baxdı. Sağına-soluna göz gəzdirdi, oğlunu görmədi. Qara bağrı sarsıldı. Ürəyi tamam yerindən oynadı. Qara qıyma gözləri qan-yaşla doldu. Çağırıb Dirsə xana soylayır, görək, xanım, nə soylayır:

Başımın baxtı, evimin taxtı, bəri gəl!
Xan atamın kürəkəni,
Xanım anamın sevilənі,
Atam-anam verdiyi,
Göz açaraq gördüyüm,
Könül verib sevdiyim, a Dirsə xan!
Qalxıb yerindən durdun,
Qara yallı gözəl Qazlıq atını mindin.
Köksü gözəl böyük dağa ova çıxdın.
İki getdin, bir gəlirsən, balam hanı?
Qara dövranda tapdığım oğul hanı?
Çıxsın mənim bu kor gözüm, a Dirsə xan,
yaman səyriyir.
Kəsilsin oğlun əmən süd damarım, yaman sızlayır.

Sarı ilan sancmadan ağca bədənim qalxıb şişir.
Təkcə-bircə oğlum görünmür, bağrım yanır.
Quru-quru çaylara suçu saldım,
Qara donlu dərvişlərə nəzirlər verdim.
Ac gördüm, -doyurdum; yalın gördüm, -geyindirdim.
Təpə kimi ət yığdım, göl kimi qımız sağdırdım.
Arzu-diləklə bir oğul güclə tapdım.
Yalnız oğlumun xəbərini, a Dirsə xan, de mənə!
Qarşıdakı Ala dağdan bir oğul uçurdunsa, de mənə!
İti axan coşğun sudan axıtdınsa, de mənə!
Aslana-qaplana oğlumu yedirtdinsə, de mənə!
Qara donlu, azğın dinli kafirlərə tutdurdunsa, de mənə!
Xan atamın yanına mən gedim,
Ağır xəzinə, böyük qoşun alım,
Azğın dinli kafir üstünə gedim,
Yaralanıb Qazlıq atımdan enməyincə,
Yenimlə, ətəyimlə al qanımı silməyincə,
Qol-bud olub yer üstünə düşməyincə,
Tək oğlumun yolundan mən dönmərəm.
Yalnız oğul xəbərini, a Dirsə xan, de mənə!
Qara başım qurban olsun bu gün sənə! – dedi, zarıldayıb ağladı.

Arvadı belə danışanda Dirsə xan cavab vermədi. O qırx namərd qabağa gələrək dedi: “Oğlun sağ-salamatdır, ovdadır. Bu gün sabah harda isə, gələr. Qorxma, qayğılanma, bəy sərxoşdur, cavab verə bilmir”.

Dirsə xanın arvadı qayıdıb geri döndü. Dözmədi, qırx incə qızı özü ilə götürüb, bədəvi ata mindi, oğlunu axtarmağa getdi. Qışda-yazda qarı-buzu əriməyən Qazlıq dağına gəldi-çıxdı. Alçaq yerləri gəzdi, çapıb uca yerlərə çıxdı. Baxdı-gördü ki, bir dərənin içində qarğa-quzğun enir-çıxır, qonur-qalxır. Bədəvi atını sürüb, o tərəfə çapdı.

Sən demə, sultanım, oğlan o arada yıxılıbmış. Qarğa-quzğun qan görüb, oğlanın üstünə qonmaq istəyirdi. Oğlanın iki ov iti vardı, qarğa-quzğunu qovurdu, qonmağa qoymurdu. Oğlan orada yıxılanda Boz atlı Xızır oğlanın yanında hazır oldu. Üç dəfə yarasını əliylə sığallayıb: “Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir”-deyib yox oldu.

Oğlanın anası çapıb, oğlanın olduğu yerə gəlib çıxdı. Baxdı gördü oğlu al qanına bulaşıb yatır. Çağıraraq oğlancığını soylayır, görək, xanım, necə soylayır:

Qara qıyma gözlərini yuxu almışdır, aç daha!
O uzanmış qol-qıçını yığışdır daha!
Tanrı verən şirin cana gəldin daha,
Üz-gözündə can qalıbsa, oğul, xəbər ver mənə!
Qara başım qurban olsun, oğul, sənə!..
Niyə axır sənin suların, Qazlıq dağı,
Belə axmaqdansa, heç axmasın!
Niyə bitir sənin otların, Qazlıq dağı,
Belə bitməkdənsə, heç bitməsin!
Keyiklərin qaçır sənin, Qazlıq dağı,
Qaçar ikən qaçmaz olsun, daşa dönsün!
Nə bilim, oğul, aslandan, yoxsa qaplandan oldu?
Nə bilim, oğul, bu qəza sənə haradan oldu?
Bədənində canın varsa, xəbər ver, oğul,
Qara başım qurban olsun, oğul, sənə!
Ağız-dildən bir neçə söz, xəbər mənə!

Belə dedikdə oğlanın qulağına səs dəydi. O, başını qaldırdı, azacıq gözünü açdı. Anasının üzünə baxdı. Soylamış, görək, xanım, nə soylamışdır:

Bəri gəl, ağ südünü əmdiyim, xanım ana!
Ağ birçəkli, hörmətli, canım ana!
"Axar sular" deyib qarğama,
Qazlıq dağının sularının günahı yoxdur.
Qaçan keyiklərini qarğama,
Qazlıq dağının günahı yoxdur.
Aslanını, qaplanını qarğama,
Qazlıq dağının günahı yoxdur.
Qarğayırsan, atamı qarğa,
Bu suç, bu günah atamındır, – dedi.

Oğlan yenə dedi: "Ana, ağlama; qorxma, bu yaradan mənə ölüm yoxdur. Boz atlı Xızır yanıma gəldi, üç dəfə yaramın üstündə əl gəz-

dirdi. "Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə anan südü sənə dərmandır", – dedi".

Oğlan belə dedikdə qırx incə qız yayılıb, dağ çiçəyi topladı. Oğlanın anası əmcəyini bir sıxdı, südü gəlmədi. İki sıxdı, südü gəlmədi. Üçüncüdə özünə bir zərbə vurdu, sıxdı, südlə qan qarışıq gəldi. Dağ çiçəyi ilə südü oğlanın yarasına çəkdilər. Oğlanı ata mindirdilər, götürüb evə gətirdilər. Oğlanı həkimlərə tapşırıb Dirsə xandan gizlətdilər.

At ayağı iti, ozan dili çevik olur, xanım! Oğlanın yarası qırx gündə sağaldı, sap-sağlam oldu. Oğlan ata minir, qılınc qurşanırdı. Ov ovlayır, quş vururdu. Dirsə xanın isə xəbəri yox idi. Oğlunu ölmüş bilirdi.

O qırx namərd bunu duydu. "Nə eyləyək?" deyə düşündülər. "Dirsə xan oğlunu görərsə, oturmaz, hamımızı qırar", – dedilər. "Gəlin, Dirsə xanı tutaq, ağ əllərini ardına bağlayaq, ağ boynuna qıl sicim taxaq, götürüb kafir ellərinə gedək", – deyə Dirsə xanı tutdular, ağ əllərini ardına bağladılar, boynuna qıl sicim taxdılar, ağ ətindən qan çıxınca döydülər. Dirsə xan piyada, bunlar atlı getdilər, qalın ellərinə yönəldilər. Dirsə xan dustaq oldu – getdi. Onun dustaqlığından oğuz bəylərinin xəbəri yox idi.

Sən demə, sultanım, Dirsə xanın arvadı bunu duyubmuş; oğlunun qarşısına gedib soylamış, görək, xanım, nə soylayıb demişdir:

Görürsənmi, ay oğul, nələr oldu?!
Sərt qayalar oynamadı, yer ovuldu.
Eldə düşmən yoxkən atanın üstünə düşmən gəldi.
Atanın o qırx namərd yoldaşı onu tutdu.
Ağ əllərini ardına bağladılar.
Ağ boynuna qıl sicim taxdılar.
Özləri atlı, atanı piyada yeritdilər.
Alıb uzaq kafir ellərinə yönəldilər.
Xan oğlum! Qalxıb yerindən ayağa dur!
Qırx igidini dəstənə qat!
Atanı o qırx namərddən qurtar!
Yeri, oğul!
Atan sənə qıydısa da, sən atana qıyma! – dedi.

Oğlan anasının sözünü sındırmadı. Buğac bəy yerindən durdu. Böyük, iti polad qılıncını belinə qurşadı. Ağ tozluca bərk yayını əlinə

aldı. Qızıl nizəsini əlinə götürdü. Gözəl bədəvi atını tutdurub mindi. Qırx igidini yanına alıb, atasının ardınca çapıb getdi.

O namərdlər də bir yerdə dayanıb dincəlirdilər. Al şərabın tündündən içirdilər. Buğac xan çapıb yetişdi. O qırx namərd onu görüb dedi: "Gəlin, gedək, o igidi tutaq gətirək. İkisini bir yerdə kafirə yetirək". Dirsə xan dedi: "Qırx yoldaşım, aman verin! Tanrının birliyinə şübhə yoxdur. Mənim əllərimi açın, qolça qopuzumu verin, o igidi geri döndərim. Sonra məni ya öldürün, ya da diri aparın!"

Əllərini açdılar, qolça qopuzunu verdilər. Dirsə xan oğlu olduğunu bilmədi, qarşıya gəlib soylayır, görək, xanım, nə soylayır:

Boynu uzun bədəvi atlar gedirsə, mənimki gedir,
İçində sənin də mindiyin varsa, igid, de mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Yaylaqdan on min qoyun gedirsə, mənimki gedir,
İçində sənin də şişliyin varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Qaytabandan qızılı dəvə gedirsə, mənimki gedir,
İçində sənin də yüklədiyin varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Qızıl tağlı uca evlər gedirsə, mənimki gedir,
İçində sənin də otağın varsa, igid, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Ağ üzlü, ala gözlü gəlinlər gedirsə, mənimki gedir,
İçində sənin də nişanlın varsa, igid, de mənə.
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Ağ saqqallı qocalar gedirsə, mənimki gedir,
İçində sənin də ağ saqqallı atan varsa, de mənə,
Savaşmadan-vuruşmadan xilas edim, qayıt geri!
Mənim üçün gəldinsə, oğlancığımı öldürmüşəm.
İgid, sənin yazığın gəlməsin, qayıt geri!

Oğlan burada atasına soylamış, görək, xanım, nə soylamışdır:

Boynu uzun bədəvi atlar gedirsə, səninki gedir;
Mənim də içində mindiyim var,
qırx namərdə qoymaram!
Qaytabandan qızılı dəvə səninki gedir,

Mənim də içində yüklədiyim var,
qırx namərdə qoymaram!
Yaylaqdan gedən min-min qoyun səninkidir,
Mənim də içində şişliyim var,
qırx namərdə qoymaram!
Sənin ağ üzlü, ala gözlü gəlinlərin gedirsə,
İçində mənim də nişanlım var,
qırx namərdə qoymaram!
Qızıl tağlı uca evlərin gedirsə,
İçində mənim də otağım var,
qırx namərdə qoymaram!
Sənin ağ saqqallı qocaların gedirsə,
İçində mənim də bir ağlı çaşmış,
Başı itmiş qoca atam var,
qırx namərdə qoymaram! – dedi;

Qırx igidinə çalmasını yellədi, əl eylədi. Qırx igid bədəvi atını oynatdı, oğlanın yanına yığıldı.

Oğlan qırx igidini götürüb, atını irəli sürdü, vuruşdu, döyüşdü. Kiminin boynunu vurdu, kimini dustaq etdi. Atasını xilas edib qayıtdı, geri döndü.

Dirsə xan burada yenə oğlunun sağ olduğunu bildi. Xanlar xanı, oğlana bəylik verdi, taxt verdi. Dədəm Qorqud boy boyladı, soy soyladı, bu oğuznaməni düzdü-qoşdu, belə dedi:

Onlar da bu dünyadan gəldi, keçdi,
Karvan kimi qondu, köçdü.
Onları da yer gizlədi, əcəl aldı.
Fani dünya yenə qaldı...
(Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!)
Qara ölüm gəldikdə keçid versin.
Sağlıqla dövlətini Allah artırsın.
O təriflədiyim uca Tanrı yar olub yardım etsin.
Xeyir-dua verək, xanım:
Yerli böyük dağların yıxılmasın!
Kölgəlicə uca ağacın kəsilməsin!

Coşğun axan gözəl suyun qurumasın!
Qanadlarının ucları qırılmasın!
Çaparkən ağ-boz atın büdrəməsin!
Döyüşəndə böyük, iti polad qılıncın gödəlməsin!
Vuruşarkən uzun nizən əyilməsin!
Ağ birçəkli ananın yeri behişt olsun!
Ağ saqqallı atanın yeri cənnət olsun!
Haqq yandıran çırağın daim yansın!
Qadir Tanrı səni namərdə möhtac eyləməsin,
xanım, hey!..

## SALUR QAZANIN EVİNİN YAĞMALANDIĞI BOY

Bir gün Tüklü quşun balası, yazıqların ümidi, Amit soyunun aslanı, Qaracığın qaplanı, Qonur atın yiyəsi, Uruz xanın ağası, Bayındır xanın kürəkəni, Qalın Oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətdirmişdi. Səksən yerdə küplər qoyulmuşdu. Qızıl qədəhlər-sürahilər düzülmüşdü. Doqquz qara gözlü, göyçək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları naxışlı, gözəl kafir qızları Qalın Oğuz bəylərinə şərab paylayırdılar.

Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu. O, qaba dizləri üstünə çökdü, dedi: "Sözümü dinləyin, səsimə səs verin, bəylər! Yata-yata yanımız ağrıdı. Dura-dura belimiz qurudu. Duraq gedək, a bəylər! Ov ovlayaq, quş vuraq, sığın-keyik yıxaq, qayıdıb otağımıza düşək: yeyib-içək, günümüzü xoş keçirək!".

Qıyan Səlcik oğlu Dəli Dondaz deyir: "Bəli, xan Qazan, məsləhətdir".

Qaragünə oğlu Qarabudaq deyir: "Ağam Qazan, məsləhətdir". Onlar belə dedikdə Atağızlı Aruz qoca iki dizi üstünə çöküb dedi: "Ağam Qazan, sası dinli Gürcüstan sərhəddinə gedirsən, qərargahının üstündə kimi qoyursan?".

Qazan deyir: "Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun". Qonur atını çəkdirdi, mindi. Dəli Dondaz Təpəlqaşqa ayğırını mindi. Qazan bəyin qardaşı Qaragünə Göy bədəvi atını tutdurub mindi.

Bayındır xanın düşmənini məğlub edən Şir Şəmsəddin Ağ atını çəkdirib mindi.

Parasarın Bayburd hasarından sıçrayıb aşan Beyrək Boz ayğırına mindi.

Qonur atlı Qazana "keşiş" deyən bəy Yeynək Duru ayğırına mindi.

Saymaq istəsəm, tükənən deyil; Qalın Oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı.

Kafirlərin casusu bunu gördü; çuğul gedib, Şöklü Məliyə xəbər verdi. Yeddi min qaftanının arxası cırıq, kəsik qara saçlı, sası dinli, din düşməni, alaca atlı kafir mindi çapdı, gecə yarısı Qazan bəyin düşərgəsinə gəldi. Kafirlər onun qızıl tağlı evlərini çalıb-çapdılar, qaza

bənzər qız-gəlinini çığırışdırdılar. Tövlə-tövlə şahanə atlarını mindilər. Qatar-qatar qızılı dəvələrini yedəkləyib apardılar. Qiymətli xəzinəsini, bol pulunu talan etdilər. Qırx incə belli qız ilə Boyu uzun Burla xatun əsir getdi. Qazan bəyin qarımış anası qara dəvə boynundan asılı getdi.

Qazan xanın oğlu Uruz bəy üç yüz igidlə əli bağlı, boynu bağlı getdi. İlək qoca oğlu Sarı Qalmaş Qazan bəyin evi üstündə döyüşdə həlak oldu.

Qazanın bu işlərdən xəbəri yox idi.

Kafir deyir: "Bəylər, Qazanın tövlə-tövlə şahanə atlarını minmişik, qızıl-gümüşünü talan etmişik, qırx igidlə oğlu Uruzu dustaq etmişik. Qatar-qatar dəvələrini gətirmişik, qırx incə belli qızla Qazanın arvadını tutmuşuq. Biz bu heyfləri Qazana vurmuşuq". Kafirlərdən biri dedi: "Qazan bəydə bir heyfimiz qaldı".

Şöklü Məlik dedi: "Ədə, aznavur, nə heyfimiz qaldı?".

Kafir: "Qazanın Qapılı Dərbənddə on min qoyunu vardır. O qoyunları da götürsək, Qazana çox böyük ziyan vurardıq", – dedi. Şöklü Məlik: "Altı yüz kafir getsin, qoyunu gətirsin" – dedi.

Altı yüz kafir atlandı, qoyun üzərinə yürüş etdi.

Gecə yatarkən Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü. Hövlnak ayağa durdu. Qabangücü və Dəmirgücü adlı iki qardaşını yanına çağırdı. Ağılın qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı.

Qaraca çobanın üstünü qəflətən altı yüz kafir aldı. Onlar dedilər:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qar-yağış yağanda od-ocaqlı çoban!
Südü, pendiri bol, qaymaqlı çoban!
Qazan bəyin qızıl tağlı uca evlərini biz yıxmışıq.
Tövlə-tövlə şahanə atlarını biz minmişik.
Qatar-qatar qızıl dəvəsini biz yedəkləmişik.
Qarıcıq anasını biz gətirmişik.
Qiymətli xəzinəsini, bol pulunu biz talan etmişik.
Qaza bənzər qız-gəlinini biz əsir etmişik.
Qırx igidlə Qazanın oğlunu biz tutmuşuq.
Qırx incə belli qızla Qazanın arvadını biz gətirmişik.

Ay çoban, uzaqdasan-yaxındasan, bəri gəl! Baş endirib təzim et! Bizə salam ver, öldürməyək! Səni Şöklü Məlikin yanına aparaq, bəylik alıb verək. Çoban deyir:

Boş-boş danışma, itim kafir!
İtimlə bir yalaqdan yal içən azğın kafir,
Altındakı alaca atını nə öyürsən?
Ala başlı keçimcə görünməz mənə!
Başındakı dəbilqəni nə öyürsən, ay kafir?
Başımdakı papağımca görünməz mənə!
Altmış tutam nizəni nə öyürsən, murdar kafir?
Qırmızı dəyənəyimcə görünməz mənə!
Qılıncını nə öyürsən, ay kafir?
Əyri başlı çövkanımca görünməz mənə!
Belində doxsan oxunu nə öyürsən, ay kafir?
Ala qollu sapandımca görünməz mənə!
Uzaqdasan-yaxındasan, bəri gəl!
İgidlərin zərbəsini gör, sonra get!

Kafirlər sakitcə irəli cumub ox atdılar. İgidlər igidi Qaraca çoban sapandının ağzına daş qoydu, atdı. Birini atanda ikisini-üçünü yıxdı. İkisini atanda üçünü-dördünü yıxdı. Kafirlərin gözünə qorxu düşdü. Qaraca çoban kafirin üç yüzünü sapand daşı ilə yerə yıxdı. İki qardaşı isə oxlandı, həlak oldu.

Çobanın daşı tükəndi; qoyun demir, keçi demir, sapandın ağzına qoyur atır, kafiri yıxırdı.

Kafirin gözü qorxdu, dünya-aləm başına qaranlıq oldu. Dedilər: "Arzusu gözündə qalsın, bu çoban birdən bizim hamımızı qırar?!". Daha durmayıb qaçdılar.

Çoban həlak olan qardaşlarını dəfn etdi. Kafirlərin leşindən bir böyük təpə düzəltdi, çaxmaq çaxıb odda yandırdı. Yapıncısından kəsib yandırdı, qurumunu yarasına basdı. Yolun əyrisini tutub oturdu. Ağladı, sızladı. Dedi: "Salur Qazan, bəy Qazan! Ölüsənmi, dirisənmi? Bu işlərdən xəbərin yoxdurmu?".

Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə göründü? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb, quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm.

Qara dəvənin ənsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!".

Qaragünə deyir: "Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan-qanqaralıqdır. Qalanın yoza bilmərəm, Allah yozsun".

Belə dedikdə Qazan deyir: "Mənim ovumu pozma, qoşunumu dağıtma! Mən bu gün Qonur atı çapıb, üç günlük yolu bir gündə gedərəm; evə dəymədən yurduma baş çəkərəm. Əgər salamatlıqdırsa, axşam olmadan yenə sənin yanına gələrəm. Oradakılar sağ-salamat deyilsə, başınıza çarə edin. Mən daha getdim. Qazan bəy Qonur atını mahmızladı, yola çıxdı. Gəlib-gəlib yurduna çatdı. Gördü ki, yurdunda bir tazı qalıb, quzğun dolaşır. Qazan bəy burada yurdu ilə xəbərləşib, görək xanım, necə xəbərləşib, nə demişdir:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğu yer də qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış.
Bəylərin at çapdırdığı meydan qalmış.
Qara mətbəxin yerində ocaq qalmış...

Bu halı gördükdə Qazanın qara qıyıq gözləri qan-yaş doldu. Qanı damarlarında qaynadı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi. Qazanın qarşısına bir su çıxdı. Qazan dedi: "Su, Allahın üzünü görmüşdür. Mən bu su ilə xəbərləşim!". Görək, xanım, necə xəbərləşdi. Qazan deyir:

Çağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanın zinəti su!
Ayişə ilə Fatimənin baxışı su!
Şahanə atların içdiyi su!

Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, suyum, sənə!

Su necə xəbər versin?! Sudan keçdi, bu dəfə bir qurda rast gəldi. "Qurd üzü uğurludur, qurdla bir xəbərləşim", – dedi. Görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda günü doğulan!
Qarla yağış yağanda ər kimi duran!
Qaracıq atları kişnəşdirən!
Qızıl dəvə gördükdə inləşdirən!
Ağca qoyun görəndə quyruğuyla qamçı çəkən!
Arxasıyla vurub, bərk ağılın ardını sökən!
Burma-axta kök qoçları alıb-tutan!
Qanlı quyruq üzüb şap-şap udan
Ulaşması köpəkləri təşvişə salan!
Əldə məşəl çobanları gecə vaxtı yüyürdən!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, qurdum, sənə! – dedi.

Qurd necə xəbər versin?! Qurddan da ötüb-keçdi. Qaraca çobanın qara köpəyi Qazanın qarşısına gəldi. Qazan qara köpəklə xəbərləşdi, görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda hav-hav hürən!
Turş ayran töküləndə şap-şap içən!
Gələn yadı, oğrunu qorxudan!
Hürməyiylə qorxudaraq hürküdən!
Yurdumun xəbərini bilirsənsə, de mənə!
Dərdli başım sağ olduqca
yaxşılıqlar edim, köpək, sənə! – dedi.

Köpək necə xəbər versin?! Köpək Qazanın atının ayağına atılıb-düşür, zing-zing zingildəyir. Qazan qamçı ilə köpəyi vurdu. Köpək çəkildi, gəldiyi yolla getdi. Qazan köpəyi qovlayıb, Qaraca çobanın

yanına gəldi. Çobanı gördükdə xəbərləşdi, görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda qayğılı çoban!
Qarla yağış yağanda od-ocaqlı çoban!
Səsimi anla, sözümü dinlə!
Evimin buradan keçdiyini gördünmü, de mənə!
Dərdli başım qurban olsun, çoban sənə! -dedi.

Çoban deyir:

Ölmüşdünmü, itmişdinmi, a Qazan!
Harda gəzirdin, haradaydın, a Qazan!
Dünən yox, o biri gün evin buradan keçdi.
Qoca anan qara dəvə boynundan asılı keçdi.
Qırx incə belli qızla arvadın –
Boyu uzun Burla xatun ağlayıb burdan keçdi.
Qırx igidlə oğlun Uruz başı açıq, ayağı yalın
kafirlərin yanınca dustaq getdi.
Tövlə-tövlə atlarını kafir minmiş.
Qatar-qatar qızıl dəvələrini kafir yedəkləmiş,
Qızıl-gümüş, pul xəzinəni kafir talamışdır!..

Çoban belə deyərkən Qazan ah çəkdi, ağlı başından çıxdı. Dünya-aləm başına qaranlıq oldu. Dedi: "Ağzın qurusun, çoban! Dilin çürüsün, çoban! Allah sənin alnına bəla yazsın, çoban!". Qazan belə deyəndə çoban deyir:

Nə danlayırsan məni, ağam Qazan?
Yoxsa heç köksündə yoxmudur iman?

Altı yüz kafir də mənim üstümə gəldi. İki qardaşım həlak oldu. Üç yüz kafiri öldürdüm, cəzasına çatdırdım. Sənin qapından bir kök qoyun, arıq toğlu da kafirlərə vermədim. Üç yerdən yaralandım, dərdli başım dumanlandı, yalqız qaldım. Günahım budurmu?". Sonra çoban deyir:

Qonur atını mənə ver!
Altmış tutamlıq nizəni mənə ver!
At o böyük qalxanını, mənə ver!

Böyük, iti, polad qılıncını mənə ver!
Oxqabından səksən oxunu mənə ver!
Ağ tozluca tutacaqlı bərk yayını mənə ver!
Gedim kafirin qolundakı şahinini öldürüm.
Paltarımın qolu ilə alnımın qanını silim.
Ölərsəm, qoy sənin uğrunda mən ölüm!
Allah qoyarsa, evini mən xilas eləyim!

Çoban belə dedikdə Qazan qəhərləndi. Yola düzəlib götürüldü. Çoban da Qazanın ardından yetişdi. Qazan dönüb baxdı, soruşdu: "Oğul çoban, hara gedirsən?" Çoban dedi: "Ağam Qazan, sən evini-ailəni xilas etməyə gedirsən, mən də qardaşımın qanını almağa gedi-rəm".

Belə dedikdə Qazan soruşdu: "Oğul çoban, qarnım acdır. Yeməyə bir şeyin vardırmı?" Çoban dedi: "Bəli, ağam Qazan, gecədən bir quzu bişirib qoymuşam. Gəl bu ağacın dibində oturaq, yeyək".

Endilər. Çoban dağarcığını çıxardı. Yedilər. Qazan fikirləşdi, dedi: "Əgər çobanla getməli olsam, Qalın Oğuz bəyləri bunu başıma qaxınc edərlər. Çobanla olmasaydı, Qazan kafiri məğlub etməzdi deyərlər".

Qazana qeyrət gəldi. Çobanı bir böyük ağaca sarıya-sarıya möhkəm bağladı. Atlandı getdi. Çobana dedi: "Ədə, çoban! Qarnın acmamış, gözün qaralmamışkən bu ağacı qopar! Yoxsa səni burda qurd-quş yeyər".

Qaraca çoban güc elədi, iri ağacı yeriylə-yurduyla qopardı, arxasına alıb Qazanın ardınca düşdü.

Qazan baxdı gördü, çoban ağacı arxasına alıb gəlir. Qazan soruşdu: "Ədə, çoban, bu ağac nədir?". Çoban deyir: "Ağam Qazan, bu ağac ona görədir ki, sən kafiri basarsan, qarnın acar, mən də sənə bu ağacla yemək bişirərəm".

Bu söz Qazana xoş gəldi. Atından endi, çobanın əllərini açdı. Bir dəfə alnından öpüb dedi: "Allah mənim evimi bəladan qurtararsa, səni bütün ilxılarıma başçı qoyaram.". İkisi birlikdə yola düzəldi.

Bu yanda Şöklü Məlik keyfi kök, kafirlərlə yeyib-içib oturmuşdu. Dedi: "Bəylər, bilirsizmi, Qazana necə heyif vurmaq lazımdır? Boyu uzun Burla xatununu gətirdək, badə paylasın!".

Boyu uzun Burla bunu eşitdi, ürəyinə-canına od düşdü. Qırx incə belli qızın içinə girib, məsləhət verdi, dedi: "Qazan bəyin xatunu hansınızdır?"-deyə hansınıza yapışarlarsa, qırx yerdən səs verərsiz".

Şöklü Məlikdən adam gəldi: "Qazan bəyin xatunu hansınızdır?" deyə soruşdu. Qırx yerdən səs gəldi. Hansıdır, bilmədilər. Kafirə xə-

bər verdilər: “Birinə yapışdıq, qırx yerdən avaz gəldi. Bilmədik, hansıdır”, – dedilər.

Kafir dedi: “Ədə, gedin Qazanın oğlu Uruzu dartıb çəngəldən asın. Ağ ətindən qıyma-qıyma çəkin; qara qovurma bişirib, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil, hər kim yemədi, odur. Götürün-gəlin, şərab paylasın!”.

Boyu uzun Burla xatun oğlunun yanına gəldi. Çağırıb oğlunu soylayır, görək, xanım, nə soylayır:

Oğul, oğul, ay oğul!
Bilirsənmi, nələr oldu?
Söyləşdilər xısın-xısın,
Duydum işini kafirin.
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
On ay deyəndə dünyaya gətirdiyim oğul!
Bələyini beşikdə bələdiyim oğul!

Kafirlər fikirlərini dəyişiblər; deyiblər ki, Qazan oğlu Uruzu həbsdən çıxarıb, örkənlə boğazından asın. İki kürəyindən çəngələ sancın, qıyma-qıyma ağ ətindən çəkin. Qara qovurma edib, qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Hər kim yemədi, o Qazanın xatunudur; çəkin-gətirin, döşəyimizə salaq, şərab paylatdıraq! “Sənin ətindən, ay oğul, yeyimmi? Yoxsa iyrənc dinli kafirin döşəyinə girimmi? Ağan Qazanın namusunu tapdayımmı? Neyləyim, ay oğul?!” – dedi.

Uruz deyir: “Ağzın qurusun, ana! Dilin çürüsün, ana! “Ana haqqı – Tanrı haqqı” - deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından-üzündən qan şoruldayardı. Can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, xanım ana, çəngələ sancsınlar! Qoy ətimdən çəksinlər; qara qovurma edib, qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki dəfə ye. Kafirlər duymasınlar, səni tanımasınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən. Onlara şərab paylayıb, atam Qazanın namusunu sındırmayasan. Saqın!”.

Oğlan belə deyəndə gözünün yaşı gildir-gildir axdı. Boyu uzun, beli incə Burla xatun boyun-qulağını tutdu, yıxıldı. Payız alması kimi al yanağını yırtdı-dağıtdı. Qarğı kimi qara saçını yoldu. "Oğul!", "Oğul!" deyib, zar-zar ağladı. Uruz deyir:

Xanım ana! Qabağımı kəsib nə inləyirsən?
Niyə zarıyırsan, niyə ağlayırsan?
Bağrımı, ürəyimi nə dağlayırsan?
Keçmiş günlərimi nə andırırsan?
Ay ana! Ərəb atları olan yerdə
bir qulunu tapılmazmı?
Qızıl dəvələr olan yerdə
bir köşək tapılmazmı?
Ağca qoyunlar olan yerdə
bir quzusu tapılmazmı?
Sən sağ ol, xanım ana! Atam sağ olsun!
Bir mənim kimi oğul tapılmazmı?!

Belə dedikdə anası dözə bilmədi. Ana gedib, qırx incə belli qızın arasına girdi.

Kafirlər Uruzu tutub qənarə dibinə gətirdilər. Uruz dedi: "Ay kafir, amandır, Tanrının birliyinə şübhə yoxdur! Qoyun məni, bu ağacla danışım". Çağırıb ağaca soylamış, görək, xanım, necə soylamışdır:

Sənə "Ağac!", "Ağac!" deyirəmsə, öyünmə, ağac!
Məkkə ilə Mədinənin qapısı ağac!
Museyi-Kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Nəhəng-nəhəng dənizlərin gəmisi ağac!
Əlinin Düldülünün yəhəri ağac!
Əlinin qılıncının qınıyla dəstəyi ağac!
İmam Həsənlə Hüseynin beşiyi ağac!
Ər də olsa, arvad da olsa, qorxusu ağac!
Başını tutub baxarsam, başsız ağacsan!
Dibini tutub baxarsam, dibsiz ağacsan!
Məni səndən asarlar, götürmə, ağac!
Götürsən, igidliyim səni tutsun, ağac!

Gərək bizim eldə olaydın, ağac!
Qara hindu qullarıma buyuraydım,
Səni para-para doğrayaydılar, ağac!

Sonra dedi:

Tövlə-tövlə bağlanan atlarımdan heyf!
"Qardaş" deyə sızlayan yoldaşlarımdan heyf!
Yumruğumda qanad çalan şahin quşumdan heyf!
Yetər ilə Tutan kimi tazılarımdan heyf!
Bəylikdən doymadım, özümdən heyf!
İgidlikdən yorulmayan canımdan heyf!

Uruz hönkür-hönkür ağladı, yanıq ciyərini dağladı.

Bu zaman, sultanım, Salur Qazanla Qaraca çoban çaparaq yetdi. Çobanın sapandının daşlığı üçyaşar dana dərisindən, sapandının qolları isə üç keçi tükündən düzəlmişdi. Sapandın çatısı bir keçi tükündən idi. Hər atanda on iki batman daş atardı. Atdığı daş yerə düşməzdi. Yerə düşsə də, toz kimi sovrular, kül kimi ovulardı. Üç ilədək daşının düşdüyü yerin otu bitməzdi. Bayırda kök qoyun da, arıq toğlu da qalsaydı, sapandın qorxusundan qurd gəlib yeməzdi.

Sultanım, Qaraca çoban çatan kimi, sapandını işə saldı. Dünya-aləm kafirin gözündə qaraldı. Qazan dedi: "Qaraca çoban, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın".

At ayağı iti, ozan dili çevik olur. Qazan kafiri çağırıb soylamış, görək, xanım, nə soylamışdır:

Ay Şöklü Məlik!
Qızıl tağlı uca evlərimi götürüb gəlmisən,
sənə kölgəlik olsun!
Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən,
sənə xərclik olsun!
Qırx incə belli qızla Burla xatunu gətirmisən,
sənə əsir olsun!
Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən,
sənin qulun olsun!
Tövlə-tövlə şahanə atlarımı gətirib gəlmisən,

sənin miniyin olsun!
Qatar-qatar dəvələrimi gətirib gəlmisən,
sənin yükünü daşısın.
Qoca anamı gətirmisən, ay kafir,
anamı ver mənə!
Savaşmadan-vuruşmadan qayıdım geri,
dönüb gedim!

Kafirlər dedilər:

Qızıl tağlı uca evini gətirmişik, bizimdir!
Şöklü Məlik qırx incə belli qızla Burla xatunu
gətirmişdir, bizimdir!
Qırx igidlə oğlun Uruzu gətirmişdir, bizimdir.
Tövlə-tövlə atlarını, qatar-qatar dəvələrini
gətirmişdir, bizimdir!
Qarıcıq ananı gətirmişiksə, bizimdir,
Sənə verməriк; Yayxan keşiş oğluna verərik,
Yayxan keşiş oğlundan oğlu doğular,
Biz onu sənə əvəz qoyarıq!

Belə dedikdə Qaraca çobanın acığı tutdu, dodaqları səyridi. Çoban dedi:

Ehey, dinsiz, huşsuz kafir!
Ağılsız, başsız kafir!
Qarşıdakı qarlı dağlar
Qarıyıbdır, otu bitməz.
Qan-qadalı irmaqlar
Quruyubdur, suyu gəlməz.
Şahanə-şahbaz atlar
Qarıyıbdır, qulun verməz.
Qızıl-qızıl dəvələr də
Qarıyıbdır, köşək verməz.
A kafir, Qazanın anası
Qocalıbdır, oğul verməz.

Şöklü Məlik, cins toxuma meylin varsa, qara gözlü qızını gətir Qazana ver! Ay kafir, sənin qızından oğlu doğulsun, siz onu Qazan bəyin xidmətinə göndərəsiniz!

Bu vaxt Qalın Oğuz bəyləri gəlib yetişdi, xanım, görək kimlər gəldi:

Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan, yetdim!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi.

Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Amidlə Mərdin qalasını vurub-yıxan, Dəmir yaylı Qıpçaq Məlikə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!"- dedi.

Bunun ardınca görək, xanım, kimlər yetişdi:

İcazəsiz Bayındır xanın düşmənini basan, altmış min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət qoca oğlu Şir Şəmsəddin çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək xanım, kimlər yetişdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan, al rəngli gəlin otağına qarşı gələn, yeddi qızın ümidi, Qalın Oğuzun müjdəçisi, Qazan bəyin silahdaşı, Boz ayğırlı Beyrək çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, xanım, görək kimlər yetdi:

Çalım-çarpaz çalmalı, çal qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpəli, Qalın Oğuz bəylərini bir-bir atından yıxan, Qazlıq Qoca oğlu Yegnək bəy çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, xanım, kimlər yetişdi:

Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı erkək dərisindən papağı qulağını örtməyən, qolu-budu uzunca, baldırları incə Qazan bəyin dayısı At ağızlı Aruz Qoca çaparaq yetişdi: "Çal qılıncını, bəyim Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi:

Gedib peyğəmbərin üzünü görən, gələrək oğuzlar içində ona tərəfdar çıxan, acığı tutanda bığlarından qan çıxan, bığı qanlı Bükdüz Əmən çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi:

Kafirləri it ardına qoşub-alçaldan, eldən çıxıb Ayğırgözlü suyunda at üzdürən, əlli yeddi qalanın açarını alan, Ağ Məliyin Çeşmə qızına evlənən Sufi Sandal Məlikə qan qusduran, qırx cübbə bürünüb otuz yeddi qala bəyinin gözəl qızlarını oğurlayıb bir-bir boynunu qucan, üzündən-dodağından öpən İlək qoca oğlu Alp Ərən çaparaq yetişdi: “Çal qılıncını, ağam Qazan, çatdım!” – dedi.

Sayılmaqla oğuz bəyləri tükənməz. Hamı yetişdi. Təmiz suda yuyundular. Ağ alınlarını yerə qoydular. İki rükət namaz qıldılar. Adı əziz Məhəmmədə salavat gətirdilər. Sakitcə kafirin üstünə at saldılar, qılınc çaldılar. Gumbur-gumbur nağaralar döyüldü. Burması qızıl tunc borular çalındı.

O gün cəsur ər igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. O gün bir qiyamət savaş oldu, meydan başla doldu; başlar top kimi kəsildi. Şahanə atlar qaçanda nalı düşdü. Böyük-uzun nizələr sancılıb süstəldi. Böyük, iti polad qılınclar çalındı, tiyəsi korşaldı. Üç lələkli qayın oxlar atıldı, dəmir ucluğu düşdü. O gün, elə bil, qiyamətin bir günü idi. Bəy nökərindən, nökər bəyindən ayrıldı.

Daş Oğuz bəyləri ilə Dəli Dondaz sağdan, cəsur igidlərlə Qaragünə oğlu Dəli Budaq sol yandan hücum etdi. İç Oğuz bəyləri ilə Qazan mərkəzdə düşmənlərin topasına hücum etdi. Şöklü Məlikə çatdı, böyürdüb atdan yerə saldı, qəfilcə tutub başını kəsdi. Bir zərbə ilə al qanını yer üzünə tökdü. Sağ tərəfdə Qara Tükən Məliklə Qıyan Səlcik oğlu Dəli Dondaz qarşılaşdı. Sağ yanını qılınclayıb yerə saldı. Sol tərəfdə Buğacıq Məliklə Qaragünə oğlu Dəli Budaq qarşılaşdı. Altı pərli gürz ilə təpəsinə möhkəm zərbə vurdu. Dünya-aləm Buğacıq Məlikin gözündə qaraldı: atın boynunu qucaqlayıb, yerə düşdü.

Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı. Dərələrdə, təpələrdə kafirlərə qırğın düşdü, leşlərinə quzğun toplaşdı. On iki min kafir qılıncdan keçdi. Oğuz igidlərindən beş yüzü həlak oldu. Qazan bəy qaçanı qovmadı, “aman” deyəni öldürmədi. Qalın Oğuz bəyləri böyük qənimət əldə etdilər.

Qazan bəy öz ordusunu, arvad-uşağını, xəzinəsini geri aldı, qızıl taxtında geri döndü. Yenə evlərini tikdirdi. Qaraca çobanı əmiraxur etdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qırx nəfər qulu, qırx kənizi oğlu Uruza görə azad elədi. Cəsur qoç igidlərə çoxlu torpaqlar verdi: şalvar, çuxa, arxalıq verdi...

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. Bu oğuznaməni qoşdu-düzdü, belə dedi:

Hanı dediyim bəy ərənlər?
Dünya mənimdir deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!

Xeyir-dua verək, xanım:

Qarlı uca dağların yıxılmasın!
Kölgəlik hündür ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun qurumasın!
Tanrı səni namərdə möhtac etməsin!
Çaparkən ağ-boz atın büdrəməsin!
Vuruşanda iti polad qılıncın gödəlməsin!
Sancılarkən uzun nizən əyilməsin!
Ağ saqqallı atan yeri cənnət olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Son gündə təmiz imandan ayırmasın!
"Amin!" deyənlərin üzünü görsün!
Ağ alnımızı yerə qoyub, beş kəlmə dua qıldıq,
qəbul olunsun!
Allah verən ümidin üzülməsin!
Yığışdırsın, saxlasın günahlarını
Adı gözəl Məhəmməd Mustafanın
üzü suyuna bağışlasın, xanım, hey!..

# BAYBÖRƏNİN OĞLU BAMSI BEYRƏK BOYU

Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Qara yerin üstündə hündür ağ evini tikdirmişdi. Uca alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi. İç Oğuzun, Daş Oğuzun bəyləri Bayındır xanın söhbətinə toplaşmışdı. Baybörə və onun adamları da Bayındır xanın məclisinə gəlmişdi. Bayındır xanın qarşısında oğlu Qarabudaq bəy dayanıb durmuşdu. Sağ yanında Qazanın oğlu Uruz durmuşdu. Sol yanında Qazlıq qoca oğlu Yeynək bəy durmuşdu. Baybörə bunları gördükdə ah çəkdi. Ağlı başından çıxdı. Dəsmalını əlinə alıb, hönkürə-hönkürə ağladı.

Bunu görən Qalın Oğuzun arxası, Bayındır xanın kürəkəni Salur Qazan qaba dizi üstünə çökdü. Baybörə bəyin üzünə qıyqacı baxdı. Dedi: “Baybörə bəy, niyə ağlayıb zarıyırsan?”. Baybörə bəy deyir: “Qazan xan, necə ağlamayım, necə zarımayım? Oğuldan dayağım yox, qardaşdan sayılmağım! Allah-taala məni qarğayıbdır... Bəylər, taxtım-tacım üçün ağlayıram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdumda kimsə qalmayacaq”.

Qazan deyir: “Arzun elə budurmu, Baybörə bəy?”. Deyir: “Bəli, budur. Mənim də oğlum olsun, Bayındır xanın xidmətində durub, qulluq eləsin, mən də baxıb güvənim, sevinib-fərəhlənim...”

Belə dedikdə Qalın Oğuz bəyləri göyə üz tutdular. Əl qaldırıb dua elədilər. “Allah-taala sənə bir oğul versin!” – dedilər.

O zamanlar bəylərin alqışı alqış, qarğışı qarğış idi. Duaları yerini tuturdu. Baybican bəy də yerindən durdu, dedi: “Bəylər, mənimçin də bir dua eləyin. Allah-taala mənə də bir qız versin” – dedi. Qalın Oğuz bəyləri əl qaldırdılar, dua eylədilər: “Allah-taala sənə də bir qız versin” – dedilər.

Baybican bəy deyir: “Bəylər, siz şahid olun, Allah-taala mənə bir qız verərsə, Baybörə bəyin oğluna göbəkkəsmə adaxlı olsun!”.

Bunun üstündən bir müddət keçdi. Allah Baybörə bəyə bir oğul, Baybican bəyə bir qız verdi. Qalın Oğuz bəyləri bunu eşitdilər, şad olub sevindilər.

Baybörə bəy tacirlərini yanına çağırıb əmr etdi: “Ay tacirlər, Allah mənə bir oğul verdi. Oğluma görə Rum elinə gedin, oğlum böyüyüncə

yaxşı hədiyyələr gətirin!" – dedi. Tacirlər gecə-gündüz yol getdilər. İstanbula gəldilər. Danışıq aparıb yaxşı hədiyyələr aldılar. Baybörənin oğlu üçün bir dəniz qulunu, boz ayğır aldılar. Dəstəyi ağ tozlu bir möhkəm yay aldılar, bir də altı pərli gürz aldılar. Qayıtmaq üçün yol hazırlığı gördülər.

Baybörənin oğlu beş yaşına girdi. Bir müddət sonra çaya baxanda öz əksinə şığıyan çal qaraquş ərdəmli, bir gözəl, yaxşı igid oldu.

O zamanlar bir oğlan baş kəsməsə, qan tökməsəydi, ona ad qoyulmazdı. Baybörə bəyin də oğlu atlandı, ova çıxdı. Ov ovlarkən atasının tövləsinə gəldi. Onu əmiraxurbaşı qarşıladı, atdan endirdi, qonaq etdi. Yeyib-içib otururdular. Bu yandan da tacirlər gəlib, böyük Dərbənd sərhəddində dayanmışdılar. Yarımasınlar Evnik qalasının kafirləri, onlardan casusluq etdilər. Tacirlər yatarkən qəflətən beş yüz kafir hücum edib, mallarını çaldılar çapdılar. Tacirbaşı tutuldu, tacirlərdən biri qaçaraq oğuz diyarına gəldi. Baxdı gördü ki, oğuz yurdunun ucqarında bir hündür alaçıq qurulmuş; bir yaraşıqlı, gözəl igid də sağında və solunda qırx igidlə oturmuşdur. Tacir fikirləşdi: "Oğuzun yaxşı igidlərindəndir, gedim kömək istəyim". Tacir deyir: "İgid, igid, bəy igid! Sən mənim səsimi anla, sözümü dinlə! On altı ildir ki, oğuzların içindən getmişdik. Danışıq-razılıqla kafirin malını oğuz bəylərinə gətirirdik. Böyük Dərbəndin Pasnik qalası yanında yatmışdıq. Evnik qalasının beş yüz kafiri bizə hücum etdi. Qardaşım dustaq oldu. Malımızı, azuqəmizi çalıb-çapıb getdilər. Dərdli başımı götürüb, yanına gəldim. Başına dönüm, igid, mənə kömək et!".

Bu dəfə oğlan içdiyi şərabı içmədi. Əlindəki qızıl qədəhi yerə çırpdı. Dedi: "Nə dediyimi yetirin, mənim geyimimi, şahbaz atımı gətirin! Hey! Məni sevən igidlər atlansınlar!". Tacir də qabaqlarına düşdü, bələdçi oldu.

Kafirlər də bir yerə çəkilib, pul bölüşdürməkdəydi. Bu vaxt igidlər meydanının aslanı, pəhləvanların qaplanı Boz oğlan özünü yetirdi. Nə bir dedi, nə iki, kafirləri qılıncladı. Baş qaldıranları öldürdü, cəzasına çatdırdı. Tacirlərin malını xilas etdi.

Tacirlər dedilər: "Bəy igid, sən mərdlik göstərib bizi xilas etdin. İndi gəl, bəyəndiyin malı götür!". İgidin gözü bir dəniz qulunu boz ayğırı tutdu, bir də altı pərli gürzlə dəstəyi ağ tozlu yayı. Bu üç şeyi bəyəndi. Dedi: "Ay tacirlər, bu ayğırı, bu yayı və bir də bu gürzü mənə verin!". Belə dedikdə tacirlər pərt oldular.

İgid dedi: “Ay tacirlər, çoxmu istədim?!” Tacirlər dedilər: “Niyə çoxdur?”. Amma bizim bəyimizin bir oğlu vardır, bu üç şeyi gərək ona hədiyyə aparaydıq!”.

Oğlan deyir: “Ədə, bəyinizin oğlu kimdir?”. Dedilər: “Baybörənin oğlu var, adına Bamsı deyirlər”. Baybörənin oğlu olduğunu bilmədilər.

İgid barmağını dişləyib fikirləşdi: “Burda minnətlə almaqdansa, orada atamın yanında minnətsiz almaq yaxşıdır”, – dedi. Atını qamçılayıb, yola düşdü. Tacirlər ardınca baxa-baxa qaldı. “Vallah, yaxşı igiddir, insaflı igiddir!” – dedilər.

Boz oğlan atasının evinə gəldi. Atası tacirlərin gəlməsindən xəbər tutdu, sevindi. Çətirli çadır, uca alaçıq qurdurdu. Yerə ipək xalçalar saldırdı. Keçdi oturdu. Oğlunu sağ yanında əyləşdirdi. Oğlan tacirlər barədə bircə söz söyləmədi. Kafirləri qırdığını demədi.

Gözlənilmədən tacirlər gəldilər. Baş endirib, salam verdilər. Gördülər ki, o baş kəsən, qan tökən igid Baybörə bəyin sağında oturur. Tacirlər yanaşıb igidin əlini öpdülər.

Bunlar belə etdikdə Baybörə bəyin acığı tutdu. Tacirlərə dedi: “Ədə, əbləh oğlu əbləhlər! Ata dura-dura oğulunmu əlini öpərlər?” Dedilər: “Xan, bu igid sənin oğlundurmu?”. “Bəli, mənim oğlumdur!” – dedi. Dedilər: “İndilikdə əvvəlcə onun əlindən öpdüyümüzdən incimə, xan. Əgər sənin oğlun olmasaydı,bizim malımız Gürcüstanda getmişdi. Hamımız dustaq olmuşduq”.

Baybörə bəy deyir: “Ədə, mənim oğlum başmı kəsib, qanmı töküb?”. “Bəli, baş kəsdi, qan tökdü, atdan adam saldı!” – dedilər. “Aha, bu oğlan ad qoymaq həddinə çatıbmı?” – dedi. “Bəli, sultanım, ondan da artıqdır!” – dedilər.

Baybörə bəy Qalın Oğuz bəylərini çağırdı, qonaq etdi. Dədəm Qorqud gəldi, oğlana ad qoydu. Dedi: “Sözümü dinlə, Baybörə bəy! Allah-taala sənə bir oğul vermişdir, əlində qalsın! Ağır bayraq götürəndə müsəlmanlara arxa olsun! Qarşı yatan uca qarlı dağlardan aşarsa, Allah sənin oğluna keçid versin! Coşğun sulardan keçərsə, keçid versin! Kafir qoşununa baş vuranda Allah-taala sənin oğluna fürsət versin! Sən oğlunu “Bamsım” – deyə oxşayırsan; onun adı Boz ayğırlı Bamsı Beyrək olsun! Adını mən dedim, yaşını Allah versin!”.

Qalın Oğuz bəyləri əl götürüb dua etdilər. “Bu ad bu igid üçün uğurlu olsun!” – dedilər.

Bəylər hamı ov üçün atlandılar. Beyrək Boz ayğırını çəkdirib mindi. Böyük qoşun Ala dağa ova çıxdı. Birdən oğuz yurdunun üzərinə bir

sürü keyik gəldi. Bamsı Beyrək birini qovub getdi. Qova-qova bir yerə gəldi çıxdı. Nə görsə yaxşıdır?! Gördü ki, göy çəmənlikdə bir qırmızı çadır qurulmuşdur. "Görəsən, bu otaq kimin ola?!" – deyə fikirləşdi. Xəbəri yox idi ki, alacağı ala gözlü qızın otağıdır. Bu otağa sarı getməyə utandı. Sonra dedi: "Nə olursa-olsun, hər halda mən ovumu tutmalıyam!". Gəlib çadırın önünə çatdı, keyiki qıcıqlandırdı. Baxdı gördü ki, bu otaq onun göbəkkəsmə nişanlısı-adaxlısı olan Banıçiçəyin otağıymış.

Banıçiçək otaqdan baxırdı. Dedi: "Ay dayələr, bu əbləh oğlu əbləh bizə gücünümü göstərir? Gedin ondan bir pay diləyin, görün nə deyir?" – Qısırca yengə deyilən bir qadın vardı. İrəli gedib pay istədi. "Hey, bəy igid, bizə də bu keyikdən pay ver!" – dedi. "Ay dayə, mən ovçu deyiləm, hamınızın bəyinin oğluyam. Amma soruşmaq eyib olmasın, bu otaq kimindir?" – dedi. Qısırca yengə deyir: "İgid bəyim, bu otaq Baybican bəyin qızı Banıçiçəyindir".

Xanım, bunu eşidəndə Beyrəyin qanı qaynadı. Ədəblə yavaş-yavaş geri döndü. Qızlar keyiki götürdülər. Gözəllər şahı Banıçiçəyin önünə gətirdilər. Banıçiçək baxdı gördü ki, bu bir sultana layiq, kök sığın-keyikdir. Banıçiçək deyir: "Ay qızlar, bu igid necə igiddir?". Qızlar: "Vallah, sultanım, bu igid üzü örtüklü yaxşı igiddir. Bəy oğlu bəy imiş", – dedilər. Banıçiçək deyir: "Hey, hey, dayələr, atam həmişə mənə səni üzü niqablı Beyrəyə vermişəm, deyərdi. Olmaya, bu ola. Çağırın bir xəbərləşim",-dedi.

Çağırdılar, Beyrək gəldi. Banıçiçək yaşmaqlandı, soruşdu: "İgid, hardan gəlirsən?" Beyrək deyir: "İç Oğuzdan". "İç Oğuzda kimin nəyisən?". "Baybörə bəy oğlu Bamsı Beyrək dedikləri mənəm". Qız dedi: "Bəs nə məqsədlə gəlmisən, igid?". Beyrək deyir: "Baybican bəyin bir qızı var, onu görməyə gəldim!". Qız dedi: "O elə qız deyildir ki, sənə görünə! Amma mən Banıçiçəyin dayəsiyəm. Gəl indi səninlə ova çıxaq. Əgər sənin atın mənim atımı keçsə, onun atını da keçər. Həm də ox ataq. Məni keçsən, onu da keçərsən; həmçinin səninlə güləşək. Məni bassan, onu da basmış olursan".

Beyrək dedi: "Yaxşı, indi atlanın!". İkisi də atlanıb meydana çıxdılar. At sürdülər. Beyrəyin atı qızın atını keçdi. Ox atdılar. Beyrəyin oxu qızın oxunu ötdü.

Qız deyir: "Ay igid, heç kimin atı mənim atımı, kimsənin oxu mənim oxumu keçməyib. İndi gəl səninlə qurşaq tutaq!". Beyrək dər-

hal atdan endi. Güləşməyə başladılar; iki pəhləvan kimi bir-birinə sarmaşdılar. Gah Beyrək qızı, gah da qız Beyrəyi yerə vurmaq istəyir. Beyrək sarsıldı, fikirləşdi: "Bu qıza basılsam, Qalın Oğuz içində başıma qaxınc, üzümə rişxənd olacaq". Qeyrətə gəldi. Qarmalayıb qızın sinəbağını ələ keçirdi. Döşündən tutdu. Qız qurcandı. Bu dəfə Beyrək qızın incə belindən yapışdı, fırladıb arxası üstə yerə vurdu. Qız dedi: "İgid, Baybicanın qızı Banıçiçək mənəm!". Beyrək üç öpdü, bir dişlədi, "düyün qanlı olsun, xan qızı!" – deyə barmağından qızıl üzüyü çıxardı, qızın barmağına keçirdi. "Bu üzük aramızda nişan olsun, xan qızı!" – dedi.

Qız deyir: "Belə oldusa, indi irəli durmaq lazımdır, bəy oğlu!". Beyrək də həmçinin: "Nə deyirəm, xanım, baş üstə!" – dedi.

Beyrək qızdan ayrılıb, evlərinə gəldi. Ağ saqqallı atası qarşısına gəlib dedi: "Oğul, bu gün oğuz yurdunda nə gördün, nə eşitdin?". Deyir: "Nə görəcəkdim, oğlu olan evləndirmiş, qızı olan köçürmüşdür..." Atası deyir: "Oğul, yoxsa səni evləndirmək lazımdır?". "Bəli, ağ saqqallı əziz ata, evləndirmək lazımdır"-dedi. Atası dedi: "Oğuzda kimin qızını alıb verim?". Beyrək: "Ata, mənə bir qız alıb ver ki, mən yerimdən durmadan o durmuş olsun! Mən qaracıq atıma minmədən o minmiş olsun! Mən döyüşə getməmiş o mənə baş gətirsin! Ata, mənə belə bir qız alıb ver", – dedi.

Atası Baybörə xan deyir: "Oğul, sən qız yox, özünə bir yoldaş-silahdaş istəyirsənmiş. Oğul, bəlkə istədiyin qız Baybican bəyin qızı Banıçiçəkdir?". Beyrək: "Bəli, ağ saqqallı əziz ata, mənim istədiyim elə odur", – dedi.

Atası dedi: "Ay oğul, Banıçiçəyin bir dəli qardaşı vardır, adına Dəli Qarcar deyərlər. Qız istəyəni öldürür". Beyrək deyir: "Yaxşı, bəs nə edək?". Baybörə bəy deyir: "Oğul, Qalın Oğuz bəylərini evimizə dəvət edək, necə məsləhət görərlərsə, ona uyğun da iş görək". Bütün Qalın Oğuz bəylərini çağırıb, evlərinə yığdılar. Zəngin qonaqlıq verdilər. Qalın Oğuz bəyləri dedilər: "Bu qızı istəməyə kim gedə bilər?". Məsləhət gördülər ki, Dədə Qorqud getsin. Bu təklifə qarşı Dədə Qorqud deyir: "Dostlar, madam ki, məni göndərirsiniz, bilirsiz ki, Dəli Qarcar bacısını istəyəni öldürür; Barı Bayındır xanın tövləsindən iki şahanə yüyrək at gətirin. Bir Keçi başlı Keçər ayğırı, bir də Toğlu başlı Duru ayğırı. Birdən qaç-qov olarsa, birisini minim, o birini yedəkləyim".

Dədə Qorqudun sözü ağıllarına batdı. Getdilər, Bayındır xanın tövləsindən o iki atı gətirdilər. Dədə Qorqud birini mindi, birini yedəklədi. "Dostlar, sizi Allaha tapşırdım!" – dedi, getdi.

Sultanım, bu vaxt Dəli Qarcar da öz uca evini, hündür otağını qara yer üstündə qurdurmuşdu. Yoldaşları ilə nişan qoyub atırdı. Dədəm Qorqud da o yandan gəldi. Baş endirib təzim etdi. Dil-ağız edib, hörmətlə salam verdi. Dəli Qarcar ağzını köpükləndirdi. Dədə Qorqudun üzünə baxdı. Dedi: "Əleykəssəlam! Ay əməli azmış, yolundan dönmüş, qadir Allah ağ alnına qada yazmış! Ayaqlıların buraya gəldiyi, ağızlıların buradakı sudan içdiyi yox idi. Sənə nə oldu? Əməlinmi azdı? Ağlınmı azdı? Əcəlinmi gəldi? Bu aralarda neyləyirsən?". Dədə Qorqud deyir:

Qarşı yatan uca dağını aşmağa gəlmişəm.<br>
Coşub daşan təmiz suyunu keçməyə gəlmişəm.<br>
Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm.<br>
Tanrının əmriylə, peyğəmbərin rəyi ilə<br>
Aydan arı, gündən duru bacın Banıçiçəyi<br>
Bamsı Beyrəyə diləməyə gəlmişəm!

Dədə Qorqud belə dedikdə Dəli Qarcar deyir: "Əyə, nə dediyimi yetirin, Qara ayğırı yaraqlı gətirin!". Qara ayğırı yaraqlı gətirdilər. Dəli Qarcar atlandı. Dədə Qorqud ümidini üzüb gözləmədi, qaçdı. Dəli Qarcar ardınca düşdü. Toğlu başlı Duru ayğır yoruldu. Dədə Qorqud Keçi başlı Keçərə sıçrayıb mindi.

Dədəni qova-qova Dəli Qarcar on ox məsafəsini keçdi, arxadan Dədə Qorquda çatdı. Dədənin yaddaşı canlandı, Allaha sığınıb, ismiəzəm oxudu.

Dəli Qarcar qılıncını əlinə aldı. Qolunu yuxarı qaldırıb hücum etdi. Dəli bəy Dədəni bir anda vurmaq istədi. Dədə Qorqud dedi: "Vursan, əlin qurusun!".

Allahın əmri ilə Dəli Qarcarın əli yuxarıdan asılı qaldı. Dədə Qorqud vilayətin ruhani ağası olduğu üçün diləyi qəbul olundu. Dəli Qarcar deyir: "Amandır, kömək et! Tanrının birliyinə şübhə yoxdur! Sən mənim əlimi sağalt; Tanrının əmri ilə, peyğəmbərin rəyi ilə bacımı Beyrəyə verim". Dediyini üç dəfə təsdiq elədi. Günahına tövbə etdi. Dədə Qorqud dua eylədi. Allahın əmri ilə dəlinin əli sap-sağlam

oldu. Döndü, dedi: "Dədə, bacımın yolunda mən nə istəsəm, verərsənmi?". Dədə deyir: "Verərik, de, görək nə istəyirsən?". Dəli Qarcar deyir: "Min buğra gətirin ki, maya görməmiş olsun. Min də ayğır gətirin ki, ilxıya girməmiş olsun. Min də qoyun üzü görməmiş qoç gətirin. Min də quyruqsuz-qulaqsız köpək gətirin. Min də birə gətirin mənə! Əgər bu dediyim şeyləri gətirərsinizsə, bacımı verdim. Amma gətirməsən, bu dəfə öldürmədim, o vaxt öldürərəm!".

Dədə döndü, Baybörə bəyin evinə gəldi. Baybörə bəy deyir: "Dədə, oğlanmısan, qızmısan?". Dədə "oğlanam!" – dedi. "Bəs Dəli Qarcarın əlindən necə xilas oldun?"- dedi. Dədə deyir: "Allahın köməyi, ərənlərin səyi ilə qızı aldım".

Beyrəyə, anasına və bacılarına müjdəçi gəldi. Sevindilər, şad oldular. Baybörə bəy deyir: "Dəli nə qədər mal istədi?". Dədə dedi: "Yarımasın Dəli Qarcarı, heç mümkün olmayan mal istədi!". Baybörə bəy deyir: "Axı, nə dilədi?". Dədə deyir: "Min ayğır istəyibdir ki, ilxıya girməmiş olsun. Min də buğra istədi ki, maya görməmiş olsun. Min də qoç diləyibdir ki, qoyun üzü görməmiş olsun. Min də quyruqsuz-qulaqsız köpək istəyib. Min də qaraca-qaraca birələr dilədi. "Bu şeyləri gətirsəniz, bacımı verərəm. Gətirməsən, gözümə görünməyəsən, yoxsa səni öldürərəm!" – dedi". Baybörə bəy deyir: "Dədə, mən üçünü taparsam, ikisini sən taparsanmı?". Dədə Qorqud "Bəli, xanım, tapacağam" – dedi. Baybörə bəy: "İndi, Dədə, köpəklə birəni sən tap",-dedi. Özü də tövlə-tövlə atları üçün getdi. Min ayğır seçdi. Dəvələrinin arasından min buğra-nər seçdi. Qoyun sürülərindən min qoç seçdi.

Dədə Qorqud da min quyruqsuz-qulaqsız köpəklə min də birə tapdı. Bunları götürüb Dəli Qarcarın yanına getdi. Dəli Qarcar eşitdi, qarşısına gəldi. "Görüm, dediyimi gətirdilərmi?" – dedi. Ayğırları görəndə bəyəndi. Dəvələri də görüb bəyəndi. Qoçları bəyəndi. Köpəkləri görəndə qah-qah güldü, dedi: "Dədə, bəs mənim birələrim hanı?". Dədə Qorqud: "Hey, oğul Qarcar, o itmilçəyi kimi adamı dəli eləyər. O bir acıqlı canlıdır. Ona görə də bir yerdə yığıb saxlamışam. Gəl gedək, kökünü gətir, arığını qoy qalsın", – dedi.

Dədə Qorqud Dəli Qarcarı birə olan yerə gətirdi. Dəli Qarcarı soyundurub ağıla saldı. Birələr Dəli Qarcarın bədəninə daraşdılar. Dəli Qarcar gördü birələrlə bacarmır, dedi: "Dədə, kömək! Allah eşqinə, insaf elə! Qapını aç, çıxım". Dədə Qorqud: "Oğul, Qarcar, qarğayıb eləməyəsən, bu tapşırdığın şeydir, götür! Nə oldu, belə özünü itirdin? Köklərini seç, arığını qoy!" – dedi.

Dəli Qarcar deyir: “Vay, Dədə sultan, Allah bunların kökünü də götürsün, arığını da! Bir məni qapıdan çölə çıxar, kömək elə”. Dədə qapını açdı. Dəli Qarcar çıxdı. Dədə gördü ki, birələr Dəlinin canına keçmişdir; başı-bədəni birədən görünmür. Üz-gözü bəlli deyil. Dəli Qarcar Dədənin ayağına düşdü: “Allah eşqinə, məni xilas et!” dedi. Dədə Qorqud “Get, oğul, özünü suya vur!” – dedi.

Dəli Qarcar qaçaraq getdi, suya düşdü. Birədir də, suda axdı getdi. Gəldi paltarını geydi, evinə getdi. Böyük toy hazırlığını gördü.

Oğuz zamanında evlənən hər igid ox atardı. Oxu düşən yerdə də gəlin otağı qurardı. Beyrək xan da oxunu atdı, oxu sancılan yerdə otağını qurdurdu. Adaxlısından bir bəylik qırmızı qaftan gəldi. Beyrək geydi. Bu iş yoldaşlarına xoş gəlmədi. Pərt oldular. Beyrək deyir: “Niyə pərt oldunuz?” Dedilər: “Necə pərt olmayaq? Sən qırmızı qaftan geyirsən, biz isə ağ qaftan!”. Beyrək: “Belə şeydən ötrü niyə halınızı pozursunuz? Bu gün mən geymişəm, sabah naibim geysin. Qırx günədək sıra ilə geyinək. Ondan sonra bir dərvişə verək!” – dedi. Qırx igidlə yeyib-içib oturmuşdular.

Yarımasın kafirin casusu, bunları görüb, getdi Bayburd hasarının bəyinə xəbər verdi. Deyir: “Nə oturursan, sultanım, Baybican bəy o sənə verəcəyi qızı Beyrəyə verdi. Bu gecə gəlin gedəcəkdir”.

O məlun yeddi yüz kafirlə atlanıb yürüşə çıxdı. Beyrək ap-alaca gəlin otağında yeyib-içib xəbərsiz oturmuşdu. Gecə yuxusu vaxtı kafirlər hücum etdi. Naib qılıncını siyirdi, əlinə aldı. “Mənim başım Beyrəyin başına qurban olsun!” – dedi. Naib yaralandı, həlak oldu.

Dərinlik gizlədər, çoxluq qorxudar.

At işləyər, ər öyünər...

Atsız kişinin ümidi olmaz.

Otuz doqquz igidlə Beyrək dustaq getdi. Dan yeri qızardı, günəş doğdu. Beyrəyin atası-anası baxıb gördü ki, gəlin otağı görünməz olmuşdur. Ah-vay etdilər, ağılları başlarından çıxdı. Gördülər ki, yurdda bir quzğun, bir tazı dolaşır. Otaq yerlə-yeksan, naib isə həlak olmuşdur. Beyrəyin atası böyük çalmasını götürüb yerə çırpdı. Dartdı, yaxasını yırtdı. “Oğul, oğul!” – deyib yüyürdü, zarıldadı. Ağ birçəkli anası ağladı, gildir-gildir göz yaşını tökdü, ağ üzünə acı dırnaq çaldı. Al yanağını dartdı, qarğı kimi qara saçını yoldu. Ağlayıb-sızlayıb evinə gəldi.

Baybörə bəyin qızıl tağlı hündür evinə şivən düşdü. Qız-gəlininin qəhqəhəli gülüşü kəsildi. Ağ əllərə qızıl xına yaxmadılar. Yeddi bacı

ağ çıxarıb, qara donlarını geydilər. “Vay, bəy qardaşımız! Muradına-arzusuna çatmayan yalqız qardaş!” – deyib hönkür-hönkür ağlaşdılar.

Beyrəyin nişanlısına xəbər çatdı. Banıçiçək qaralar geydi, ağ qaftanını çıxardı. Payız alması kimi al yanağını dartdı, yırtdı. “Vay, al duvağımın yiyəsi! Vay, alnımın-başımın ümidi! Vay, şah igidim, şahzadə igidim. Doyunca üzünə baxmadığım, igid xanım! Hara getdin, məni yalqız qoyub igid xanım?! Göz açaraq gördüyüm, könül verib sevdiyim, bir yasdıqda baş qoyacağım! Yolunda öldüyüm! Qurban olduğum! Vay, Qazan bəyin dostu! Vay, Qalın Oğuzun sevimlisi Beyrək!” – deyib zar-zar ağladı. Bunu eşidən Qıyan Səlcik oğlu Dəli Dondaz ağ çıxardı, qara geydi. Beyrəyin yar-yoldaşları ağ çıxarıb qara geydilər. Qalın Oğuz bəyləri Beyrək üçün böyük yas tutdular. Ümidlərini üzdülər.

Bu hadisədən on altı il keçdi. Beyrəyin ölü-dirisini bilmədilər. Bir gün qızın qardaşı Dəli Qarcar Bayındır xanın divanına gəldi. Diz çöküb dedi: “Ağıllı xanın ömrü uzun olsun! Beyrək diri olsaydı, on altı ildən bəri gələrdi. Beyrəyin diri olduğu xəbərini gətirən bir igid olsa, qızılı tikişli, naxışlı çuxa, qızıl-gümüş verərəm. Ölüm xəbərini gətirənə bacımı verərəm”.

Belə dedikdə, muradı gözündə qalsın, Yalançı oğlu Yalancığ dedi: “Sultanım, mən gedim, ölüsü-dirisi xəbərini gətirim!”.

Sən demə, Beyrək Yalançı oğluna bir köynək bağışlayıbmış; geyməyib saxlayırmış. Getdi, həmin köynəyi qana-mana batırdı, gətirib Bayındır xanın önünə atdı. Bayındır xan deyir: “Ədə, bu nə köynəkdir?” Yalıncıq: “Beyrəyi Dərbənddə öldürmüşlər, bu da nişanıdır, sultanım!” -dedi.

Bəylər köynəyi görəndə hönkür-hönkür ağlaşdılar, zarıldadılar. Bayındır xan deyir: “Əyə, niyə ağlayırsınız, biz bunu tanımarıq. Adaxlısına aparın, görsün. O yaxşı bilər. Çünki o tikibdir, yenə o tanıyar”.

Getdilər, köynəyi Banıçiçəyə apardılar. Gördü, tanıdı. “Odur!” dedi. Dartdı, yaxasını yırtdı. İti dırnaq ilə ağ üzünü aldı-cırdı. Payız alması kimi al yanağını yırtdı. “Vay, göz açıb gördüyüm, könül verib sevdiyim! Vay, al duvağımın sahibi! Vay, alnımın-başımın ümidi, Beyrək xan!” – deyə ağladı.

Beyrəyin ata-anasına xəbər çatdı. Baybörənin böyük düşərgəsinə şivən düşdü. Ağ çıxardılar, qara geydilər. Qalın Oğuz bəyləri Beyrəkdən bütün ümidlərini üzdülər.

Yalançı oğlu kiçik nişanını eylədi. Böyük toy günü üçün vaxt qoydu. Beyrəyin atası da tacirləri çağırdı, yanına gətirib dedi: "Ay tacirlər, gedin iqlim-iqlim arayın, Beyrəyin xəbərini gətirib deyin, görüm, doğrudanmı ölmüşdür?".

Tacirlər hazırlıq gördülər. Gecə-gündüz deməyib yol getdilər. Təsadüfən Parasarın Bayburd hasarına gəlib çatdılar. Kafirlərin şadlıq günləri idi. Hər biri yeməkdə-içməkdə idi. Beyrəyi də gətirib qopuz çaldırırdılar. Beyrək uca çardağdan baxdı, tacirləri gördü. Bunları gördükdə xəbərləşdi. Görək, xanım, necə xəbərləşdi, nə dedi:

Hündür-alçaq yerlərdən gələn karvan!<br>
Bəy atamın, xanım anamın sovqatı karvan!<br>
Ayağı uzun şah atına minən sarvan!<br>
Səsimi anla, sözümü dinlə, sarvan.<br>
Qalın Oğuz diyarında Ulaş oğlu Salur Qazanı<br>
Mən soruşsam, sağmı, sarvan?<br>
Qıyan Səlcik oğlu Dəli Dondazı<br>
Mən soruşsam, sağmı, sarvan?<br>
Ağ saqqallı atamı, ağ birçəkli anamı<br>
Mən soruşsam, sağmı, sarvan?<br>
Göz açaraq gördüyüm, könüllücə sevdiyim<br>
Baybican qızı Banıçiçək evdəmi, sarvan,<br>
yoxsa gordamı, sarvan?<br>
De mənə,<br>
Dərdli başım qurban olsun, sarvan, sənə!

Tacir dedi:

Sağ-salamatsanmı, canım Bamsı!<br>
Qıyan Səlcik oğlu Dəli Dondazı soruşursan,<br>
sağdır, Bamsı!<br>
Qaragünə oğlu Budağı soruşursan,<br>
sağdır, Bamsı!<br>
O bəylər ağ çıxarıb qara geydi səninçin, Bamsı!<br>
Ağ saqqallı atanı, ağ birçəkli ananı soruşursan,<br>
sağdır, Bamsı!<br>
Ağ çıxarıb qara geydilər səninçin, Bamsı!<br>
Yeddi bacını yeddi yol ayrıcında<br>
ağlar gördüm, Bamsı!

Payız almasıtək al yanaqlarını
yırtar gördüm, Bamsı!
“Gedib gəlməyən qardaş!” – deyə
inləyən gördüm, Bamsı!
Göz açaraq gördüyün, könül verib sevdiyin
Baybican qızı Banıçiçək
kiçik nişanını eylədi,
böyük toyu üçün vaxt qoydu.
Yalançı oğlu Yalancığa gedən gördüm,
xan Beyrək!
Parasarın Bayburd hasarından sıçrayıb aş,
Ap-alaca gəlin otağına yetiş, gəl!
Gəlməzsənsə, öz sevgilin Banıçiçəyi
Həmişəlik itirərsən, yəqin bil!

Beyrək qalxdı, ağlaya-ağlaya qırx igid yoldaşının yanına gəldi. İri çalmasını götürüb yerə çırpdı. Dedi: “Hey, mənim qırx yoldaşım! Bilirsizmi nələr olub? Yalançı oğlu Yalancıq mənim ölüm xəbərimi aparmışdır. Atamın qızıl tağlı hündür evinə şivən düşüb. Qaza bənzər qızı-gəlini ağ çıxarıb qara geymişdir. Göz açaraq gördüyüm, könül verib sevdiyim Banıçiçək Yalançı oğlu Yalancığa getməli olmuşdur.

Bunu eşitdikdə qırx igid böyük çalmalarını götürüb yerə vurdu, hıçqıra-hıçqıra ağlaşdı, inlədi.

Deyirlər ki, kafir bəyinin bir bakirə qızı vardı. Hər gün Beyrəyi görməyə gəlirdi. O gün yenə gəldi. Baxdı gördü Beyrək pərtdir. Qız dedi: “Niyə pərtsən, xan igidim? Həmişə gələndə səni şən görürdüm. Gülərdin, oynardın. İndi nə oldu sənə?”. Beyrək dedi: “Necə pərt olmayım? On altı ildir ki, sənin atanın dustağıyam. Ata-anaya, qohum-qardaşa həsrətəm; bir də bir qara gözlü sevgilim vardı; Yalançı oğlu Yalancıq deyilən bir kişi var, gedib yalandan mənim öldüyümü demiş, sevdiyim qız da ona getməli olmuşdur”.

Qız Beyrəyə aşiq olmuşdu, ona görə də dedi: “Əgər səni hasardan örkənlə aşağı sallasam, sağ-salamat ata-ananın yanına getsən, məni burda gəlib halallıqla alarsanmı? Beyrək and içdi: “Oğuz yurduna salamat çatsam, gəlib səni halallıqla almasam, qılıncımla doğranım! Oxuma sancılım! Yer kimi çatlayım, torpaq kimi sovrulum!”. Qız da örkən gətirib, Beyrəyi hasardan aşağı sallandırdı. Beyrək aşağı baxdı. Özünü

yer üzündə gördü. Allaha şükür etdi. Yola düşdü. Gedəndə kafirin ilxısına gəldi. “Bir at tapa bilsəm, tutum minim!” – dedi. Baxdı gördü öz dəniz qulunu Boz ayğır burada otlamaqdadır. Boz ayğır da Beyrəyi görüb dayandı, şahə qalxıb iki ayağının üstündə durdu, kişnədi. Beyrək də atını öyüb-tərifləmiş, görək, xanım, necə öymüş, nə demişdir:

Açıq-açıq meydanlara bənzər sənin alnın.
İki gecə çırağıdır sənin gözlərin.
Yumşaq ipəyə bənzəyir sənin yalın.
Qoşa qardaşa bənzər sənin qulaqların.
Mərdi muradına çatdırar sənin belin.
Mən sənə at demərəm, qardaş deyərəm,
qardaşımdan artıq!
Başıma iş gələndə yoldaş deyərəm,
yoldaşımdan artıq!

At başını yuxarı tutub bir qulağını qaldırdı, Beyrəyin qabağına gəldi. Beyrək atın köksünü qucaqladı. İki gözündən öpdü. Sıçrayıb mindi. Qala hasarının qapısına gəldi. Otuz doqquz yoldaşını tapşırdı, görək, xanım, necə tapşırdı:

Ey murdar dinli kafir!
Mənim ağzıma söyüb durdun, anlamadım,
Qara donuz ətindən xörək yedirtdin, dözə bilmədim.
Allah mənə yol verdi, gedəsi oldum, ay kafir!
Otuz doqquz igidim əmanət qalsın, ay kafir!
Birini əskik görsəm, yerinə onunu öldürərəm.
Onunu əskik görsəm, yerinə yüzünü öldürərəm, ay kafir!
Otuz doqquz igidim əmanət olsun, ay kafir! –
belə deyib dayanmadı, atını çapdı.

Qırx nəfər kafir atlandı, ardınca düşdü; qova-qova getdilər, çata bilməyib geri döndülər.

Beyrək oğuz diyarına gəldi. Gördü bir ozan gedir, dedi: “Ay ozan, hara gedirsən?”. Ozan deyir: “Bəy igid, toya gedirəm”. Beyrək dedi: “Kimin toyudur?”. “Yalançı oğlu Yalancığın”, - dedi. “Əyə, kimin qızını alır?”. Ozan deyir: “Xan Beyrəyin adaxlısını alır”. Beyrək deyir: “Ay ozan, qopuzunu mənə ver, atımı sənə verim; saxla, gəlim, dəyər-

ini-qiymətini gətirim, alım”. Ozan deyir: “Avazım qısalmadan, səsim boğulmadan bir atdır əlimə keçib, aparıb saxlayım”. Ozan qopuzu Beyrəyə verdi. Beyrək qopuzu aldı, atasının düşərgəsinə yaxınlaşdı. Baxdı gördü ki, bir neçə çoban yol ayrıcında oturub ağlayırlar, həm də durmadan daş yığırlar. Beyrək deyir: “Ay çobanlar, bir adam yolda daş tapsa, çölə atar. Siz niyə bu daşı yola yığırsınız?”. Çobanlar deyir: “Eh, sənin ancaq özündən xəbərin var, bizim halımızdan xəbərin yoxdur”. “Halınıza nə olub ki?”. Çobanlar dedi: “Bəyimizin bir oğlu vardı, on altı ildir ki, ölüsü-dirisi xəbərini kimsə bilmir. Yalançı oğlu Yalancıq deyilən birisi onun ölüm xəbərini gətirdi. Adaxlısını ona verməli oldular: Qız gəlib buradan keçəcək. Daşlayacağıq onu ki, Yalancığa getməsin, tayına-tuşuna getsin”. Beyrək deyir: “Əyə, üzünüz ağ olsun! Ağanızın çörəyi sizə halal olsun!”. Sonra atasının evinə gəldi. Evlərinin önündə bir böyük ağac vardı, dibində də bir yaxşı bulaq. Beyrək baxdı gördü ki, kiçik bacısı bulaqdan su götürməyə gəlir, “Beyrək, qardaşım!” – deyə ağlayıb-inləyir. “Toy-düyünün qara oldu”, – deyə ağlayır.

Ayrılıq Beyrəyə yaman təsir elədi, dözmədi, göz yaşı gildir-gildir axdı. Burada çağırıb soylayır, görək, xanım, nə soylayır; deyir:

Ay qız, “ağa” deyib nə ağlayıb-inlərsən,
Yandı bağrım, göynədi içim.
Yoxsa ağan yoxa çıxıb, ölübdür?
Ürəyinə qaynar yağlar tökübdür?
Qara bağrın didilibdir,
“ağa” deyə nə ağlayıb-inlərsən?
Yandı bağrım; göynədi içim...
Qarşıdakı uca dağı soruşarsam,
yaylaqları kimindir?
Soyuq-soyuq sularını soruşarsam,
bulaqları kimindir?
Tövlə-tövlə atlarını soruşarsam,
kimin miniyidir?
Qatar-qatar dəvəsini soruşarsam,
kimin yüklüyüdür?
Yaylaqlarda ağ qoyunu soruşarsam,
şülənliyi kimindir?

Qaralı-göylü çadırları soruşarsam,
kölgəliyi kimindir?
Öz dilində bir xəbər ver, ay qız mənə!
Dərdli başım qurban olsun bu gün sənə!

Qız deyir:

Çalma, ozan, danışma, ozan!
Nəyinə gərək qara geymiş bir qızın?!
Qarşı yatan uca dağı soruşursansa,
Ağam Beyrəyin yaylağıydı,
Ağam Beyrək gedəndən yaylaq bilmərəm.
Soyuq-soyuq suları soruşursansa,
Ağam Beyrəyin içdiyi sudandır.
Ağam Beyrək gedəndən o sulardan içmərəm.
Tövlə-tövlə atını soruşursansa,
Ağam Beyrəyin mindiyidir.
Ağam Beyrək gedəndən o atlara minmərəm.
Qatar-qatar dəvələri soruşursansa,
Ağam Beyrəyin yüklədiyidir.
Ağam gedəndən o dəvələri yükləmərəm.
Yaylaqdakı ağ qoyunu soruşursansa,
Ağam Beyrəyin şülənidir.
Ağam gedəndən şülənlərdə şənlənmərəm.
Qaralı-göylü çadırları soruşursansa,
Ağam Beyrəyindir...
Ağam Beyrəksiz o çadırlara köçmərəm.

Qız yenə deyir:

Ay ozan! Qarşıda uca dağları
aşıb gəldikdə, keçdikdə sən
Beyrək adlı bir igidlə rastlaşmadınmı?
Daşqın-daşqın suları
aşıb gəldikdə, keçdikdə sən
Beyrək adlı bir igidə rast gəldinmi?
Böyük, adlı şəhərlərdən gəldikdə sən
Beyrək adlı bir igidlə rastlaşmadınmı?
Ay ozan, gördünsə, söylə mənə!
Dərdli başım qurban olsun, ozan, sənə!

Qız yenə deyir:

Qarşıdakı uca dağım yıxılıbdır,
Ozan, sənin xəbərin yox!
Bir kölgəli uca ağacım kəsilibdir,
Ozan, sənin xəbərin yox!
Bu dünyada bir qardaşım tutulubdur,
Ozan, sənin xəbərin yox!
Çalma, ozan, danışma, ozan,
Nəyinə gərək qara geymiş bir qızın?!
İrəlidə toy-düyün var,
Toya gedib, oxu-çal!

Beyrək kiçik bacısının yanından keçdi. Böyük bacılarının yanına gəldi. Baxdı-gördü bacıları göy-qara geyinib oturmuşlar. Beyrək çağırıb soylayır, görək, xanım, nə soylayır; deyir:

Sübh tezdən öz yerindən duran qızlar!
Ağ otaqdan qara otağa girən qızlar!
Ağ çıxarıb, qara paltar geyən qızlar!
Ciyər rəngli sərnicdə qatıq varmı?
Qara sac altında köməciniz varmı?
Tabağınızda çörəyiniz varmı?
Üç gündür yoldan gəlmişəm,
doyurun məni.
Üç gün keçməsin, Allah sevindirsin sizi!

Qızlar getdilər, yemək gətirdilər. Beyrəyin qarnını doydurdular. Beyrək dedi: "Qardaşınızın baş-gözünə sədəqə olsun, köhnə bir qaftanınız varsa, verin geyim, toya gedim. Toyda əlimə qaftan keçər, qaftanınızı qaytararam".

Getdilər, bir qaftanı varmış, gətirib ona verdilər. Aldı, geydi. Boyu boyuna, beli belinə, qolu qoluna yaraşdı. Böyük bacısı onu Beyrəyə bənzətdi. Qara, qıyılmış gözləri qan-yaş doldu. Soyladı, görək, xanım, nə soylayıb dedi:

Qara qıyma gözlərin çökməsəydi,
"Ağam Beyrək" deyərdim, ozan, sənə!

Üzünü qara saçın örtməsəydi,
“Ağam Beyrək” deyərdim, ozan, sənə!
Ətli-canlı biləklərin boşalmasaydı,
“Ağam Beyrək” deyərdim, ozan, sənə!
İti-iti yerişindən,
Aslan kimi duruşundan,
Qanrılaraq baxışından
Ağam Beyrəyə bənzədirəm, ozan, səni!
Sevindirdin, qəmləndirmə, ozan, məni!

Qız bir daha soylamış – demişdir:

Belə çalma-oxuma, ozan!
Beyrək gedəndən bəri bizə ozan gəlməmiş.
Əynimizdən paltarımızı almamış.
Başımızdan çadırımızı istəməmiş,
Buynuzu burma qoçumuzu almamış.

Beyrək fikirləşdi: “Gördünmü, qızlar bu qaftanda məni tanıdılar. Qalın Oğuz bəyləri də tanıyarlar. Görək Oğuz yurdunda mənim dostum, düşmənim kimdir?” – dedi. Qaftanı sıyırıb, qızların üstünə atdı: “Nə sən qal, nə Beyrək qalsın! Bir köhnə qaftan verdiniz, mənim baş-beynimi apardınız”, – dedi. Bir köhnə dəvə çuvalı tapdı; dəldi, boynuna keçirdi. Özünü dəliliyə vurdu, toy yerinə gəldi. Gördü ki, burada kürəkən ox atır. Qaragünə oğlu Budaq, Qazan bəyin oğlu Uruz, bəylərbəyi Yeynək, Qəflət Qoca oğlu Şir Şəmsəddin, qızın qardaşı Dəli Qarcarla ox atırdılar.

Budaq ox atanda Beyrək “Əlin var olsun!” – dedi. Uruz atanda “Əlin var olsun!” – dedi. Yeynək də atanda “Əlin var olsun!” – dedi. Şir Şəmsəddin atdı, “Əlin var olsun!” – dedi. Elə ki, kürəkən atdı, “Əlin qurusun, barmaqların çürüsün, hey, donuz oğlu donuz, bu bəylərə qurban ol!” – dedi.

Yalançı oğlu Yalancığın acığı tutdu, dedi: “Ədə, əbləh oğlu əbləh, mənə belə sözlər deməyə sənin haqqın varmı? Gəl, əbləh oğlu, mənim yayımı çək, yoxsa indi boynunu vuraram!”.

Belə dedikdə, Beyrək yayı aldı, çəkdi. Yay dəstəyindən iki para oldu. Götürüb qabağına atdı. “Quru yerdə torağaya atmağa yaxşıdır”, – dedi. Yalançı oğlu Yalancıq yay sındığı üçün bərk qəzəbləndi. Dedi:

“Əyə, Beyrəyin yayı vardır, gətirin!”. Getdilər, gətirdilər. Beyrək yayı gördükdə yoldaşlarını xatırladı, ağladı. Dedi:

Neçə-neçə döyüşlərə girdiyim,
Hər yaraqlı toxarlını45 qovduğum,
Düşmən yordu qıl kişli yayım,
Ayğır cinsli ayğır verib aldığım
Dəstəyi ağ tozlu, möhkəm yayım...
Buğa verib aldığım boğan kirişim,
Dar yerdə qoyub-gəldim sirdaşımı, –
İki sarvan, otuz doqquz yoldaşımı!

Bundan sonra Beyrək dedi: “Bəylər, sizin eşqinizə bu yayı çəkib, oxu atıram”. Bu vaxt kürəkənin üzüyünü nişan alıb atırdılar. Beyrək oxla üzüyü vurdu, paraladı. Oğuz bəyləri bunu görəndə əl çaldılar, gülüşdülər.

Qazan bəy baxıb tamaşa edirdi. Adam göndərdi. Beyrəyi çağırdı. Dəli ozan gəldi; baş endirib təzim etdi, salam verdi. Beyrək deyir:

Sübh tezdən sərt yerdə qurulmuş hündür otaqlı,
Atlaslardan tikilmiş göy çardaqlı,
Tövlə-tövlə çəkilən şahanə atlı,
Çağıranda haya yetən yolu çavuşlu,
Yağ içində yayxanan, bol nemətli!
İgidlərin arxası, yazıqların ümidi!
Bayındır xanın kürəkəni!
Tüklü quşun balası, Türküstanın dirəyi!
Amit soyunun aslanı, Qaracığın qaplanı!
Qonur atın yiyəsi, Uruz xanın atası!
Ay Qazan xan, səsimi anla,sözümü dinlə!
Sübh erkən durmuşsan, ağ ormana girmişsən.
Ağ qovağın budağından yırğalanıb keçmişsən.
Dirəkləri basdıraraq, oxçun nişan qoymuşsan.
Bəy-gəlinçin yaraşıqlı, adlı otaq qurmuşsan.
Sağ tərəfdə əyləşən hörmətli bəylər,
Sol tərəfdə əyləşən qeyrətli bəylər,
Eşikdəki yavərlər! Dibdə oturan dost bəylər,
Dövlətiniz güclü olsun, uğurlar sizə!

Bunu söylədikdə Qazan bəy dedi: “Ay dəli ozan, məndən nə istəyirsən? Arzun çətirli çadırdırmı? Qul-qaravaşmı istəyirsən? Qızıl-gümüşmü istəyirsən, verim?”.

Beyrək deyir: “Sultanım, məni qoysana toy süfrəsinin yanına gedim. Qarnım acdır, doydursana!”. Qazan dedi: “Dəli ozan, bəxtin gətirdi. Bəylər, bu günkü bəyliyim bunun olsun. Qoyun haraya gedirsə-getsin, neyləyirsə, eyləsin”.

Beyrək toy süfrəsinin üstünə gəldi. Qarnını doyuzdurduqdan sonra qazanları vurdu-tökdü, çevirdi. Qovurmanı kiminin sağına, kiminin soluna atırdı. Sağdan gedəni sağdan, soldan gedəni soldan tutur, haqlıya toxunmur, haqsızı təhqir edib alçaldırdı...

Qazan bəyə xəbər çatdı: “Sultanım, bu dəli ozan bütün yeməyi tökdü, – dedilər – indi də qızların yanına getmək istəyir”. Qazan deyir: “Əyə, qoyunuz qızların yanına da getsin!”. Beyrək qalxdı, qızların yanına getdi. Zurnaçıları qovdu, nağaraçıları qovdu. Kimini döydü, kiminin başını yardı, qızlar oturan otağa gəldi; qapının ağzını kəsib oturdu.

Bunu görən Boyu uzun Burla xatun qəzəblənib dedi: “Ədə, əbləh oğlu, sənə layiqdirmi çəkinmədən mən olan yerə gələsən? Beyrək deyir: “Xanım, mənə Qazan bəy icadə verib. Mənə kimsə dəyib-dolaşmır”. Burla xatun dedi: “Qazan bəy icazə veribsə, qoyun otursun!”. Yenə döndü Beyrəyə, dedi: “Ay dəli ozan, bəs mətləbin nədir?”. Dedi: “Xanım, mətləbim odur ki, ərə gedən qız qalxıb oynasın, mən qopuz çalım”. Qısırca yengə deyilən bir qadın vardı, ona dedilər: “Ay Qısırca yengə, dəli ozan nə bilir, dur sən oyna!” Qısırca yengə durub deyir:”Ay dəli ozan, ərə gedən qız mənəm!”. Oynamağa başladı. Beyrək qopuz çaldı, soyladı, görək, xanım, nə soylayıb dedi:

“And içmişəm, qısır ata minmirəm.
Qısır atın belində döyüşlərə getmirəm.
Evinizin arxasında sarvanlar,
Sənə baxar onlar.
Gildir-gildir göz yaşın axar,
Sən onların yanına get,
Muradını verənlər çoxdur!
Mənim səninlə işim yoxdur!

Ərə gedən qız qalxsın,
qol sallayıb oynasın,
mən də qopuz çalım."

Qısırca yengə: "Buy, bu zavala gəlmiş dəli məni görmüş kimi söyləyir", – dedi. Gedib yerində oturdu.

Bundan sonra Boğazca Fatma deyilən bir qadın vardı "Qalx, sən oyna!" – dedilər. "Ey, bu dəli mən yazığa da birdən o cür sözlər söyləyər" – deyə qorxudan qızın qaftanını geydi, "Çal, ay dəli ozan, ərə gedən qız mənəm, oynayım!" – dedi. Dəli ozan deyir:

And içirəm, boğaz ata minmərəm,
Minsəm belə, döyüşlərə getmərəm.
Evinizin ardı dərəlik deyildimi?
İtinizin adı Burax deyildimi?
Adın da Qırx oynaşlı Boğazca Fatma deyildimi?
Daha da eybini açaram, yəqin bil!
Mənim sənlə nə oyunum,
Get bu qaftanı soyun,
Ərə gedən qız dursun,
Mən qopuz çalım ona,
Qol sallayıb oynasın!

Beyrək belə dedikdə Boğazca Fatma deyir: "Buy, dəli boğma çıxarmış nə qədər eybimiz varsa, açıb-tökdü. Dur, ay qız oynayırsan, oyna; oynamırsan, cəhənnəmə oyna! Beyrəkdən sonra başına belə iş gələcəyini bilirdin".

Burla xatun dedi: "Qız, qalx oyna, daha əlindən nə gələr?". Banıçiçək qırmızı qaftanını geydi. Görünməsin deyə əllərini içəriyə – qaftanının qoluna çəkdi, oyuna girib dedi: "Ay dəli ozan, di çal!". Dəli ozan çalıb dedi:

Mən bu yerdən gedəli dəli olubsan, dəlim!..
Çoxlu ağca qarlar yağıb dizə çıxmışdır,
Xan qızının evində qul da yoxa çıxmışdır...
Səhəng alıb soyuqda, suya getmişdir, –

On barmağı soyuqdan donub itmişdir.
Qızıl-gümüş gətirib, dırnaq yonun gəlinə,
Eyibli ərə getmək eyibdir ər evinə.

Bunu eşitcək Banıçiçək qəzəbləndi: “Ədə, dəli ozan, mən eyibliyəm ki, mənə eyib qoşursan?” – dedi. Gümüş kimi ağ biləyini açdı, əlini çıxartdı. Beyrəyin keçirdiyi üzük göründü. Beyrək üzüyü tanıdı. Burada soylamış, görək, xanım, nə soylamış, nə demişdir:

Beyrək gedəli Bam-bam təpəyə çıxmısanmı qız?!
Boylanıb heç dörd yanına baxmısanmı, qız?!
Qarğı kimi qara saçını yolmusanmı qız?!
Qara gözdən acı yaşlar tökmüsənmi qız?!
Alma kimi al yanağını yırtmısanmı qız!
Sən ərə gedirsən, qızıl üzük mənimdir,
qaytar mənə, qız!

Qız dedi:

Beyrək gedəli Bam-bam təpə başına çox çıxmışam,
Qarğı kimi qara saçımı çox yolmuşam.
Alma kimi ağ yanağımı çox yırtmışam.
Gələndən-gedəndən çox soruşmuşam.
“Getdi, gəlməz bəy igidim, xan igidim
Beyrək” – deyə çox ağlamışam.
Sevişdiyim Bamsı Beyrək sən deyilsən.
Qızıl üzük də sənin deyildir.
Qızıl üzüyün çox nişanı var
Qızıl üzüyü istəyirsən, nişanını de!

Beyrək deyir:

Xan qızı, səhər tezdən yerimdən durmadımmı?
Boz ayğırın belində oturmadımmı?
Çadırının yanında bir keyik yıxmadımmı?
Sən də məni yanına çağırmadınmı?
Biz səninlə meydanda at çapmadıqmı?
Güləşəndə mən səni yıxmadımmı?
Üç öpüb-bir dişləyib, qızıl üzüyü

sənin barmağına taxmadımmı?
Sevişdiyin Bamsı Beyrək mən deyiləmmi?

Belə dedikdə qız tanıdı-bildi ki, Beyrəkdir. Cübbə çuxası əynində Beyrəyin ayağına düşdü. Dayələr Beyrəyə təzə qaftan geyindirdilər. Bu anda qız sıçrayıb ata mindi, çaparaq muştuluq üçün Beyrəyin ata-anasına xəbərə getdi. Qız deyir:

Sıra dağların yıxılmışdı, ucaldı axır!
Aşıb-daşan suların axmırdı, çağladı axır!
Böyük ağacın qurumuşdu, göyərdi axır!
Gözəl atın qarımışdı, qulun verdi axır!
Dəvələrin qarımışdı, köşək verdi axır!
Qoyunların qarımışdı, quzu verdi axır!
On altı illik həsrətin – oğlun Beyrək gəldi axır!
Qayınata, qayınana, nə muştuluq verərsiz mənə?

Beyrəyin ata-anası deyir:

Dilin üçün ölüm, gəlinciyim!
Yolunda qurban olum, gəlinciyim!
Yalansa bu sözlərin, gerçək olsun, gəlinciyim!
Sağ-salamat gəlib çıxsa,
Qarşıdakı dağlar yaylağın olsun!
Soyuq-soyuq sular bulağın olsun!
Qulum-qaravaşım sənin xidmətçin olsun!
Şaha layiq atlarım sənin miniyin olsun!
Qatar-qatar dəvələrim yüklüyün olsun!
Yaylaqdakı qoyunumu sərf eylə şülənliyə,
Qızılımı-gümüşümü xərclə sən şənliyə!
Qızıl tağlı hündür evim olsun sənin kölgəliyin!
Bu bəlalı başım sənə qurban olsun, gəlinciyim!

Bu zaman bəylər Beyrəyi gətirdilər. Qazan bəy dedi: "Baybörə bəy, muştuluq! Oğlun gəldi!" Baybörə bəy dedi: "Oğlum olduğun ondan bilərəm ki, kiçik barmağını qanatsın, qanını dəsmala silsin, gözümə çəkim: gözüm açılsa, oğlum Beyrəkdir!".

Baybörənin gözləri ağlamaqdan görmürdü. Dəsmalla gözünü silən kimi Allahın qüdrəti ilə gözü açıldı. Ata-anası güldü sevindi. Beyrəyin ayağına düşdülər. Dedi:

Oğul! Qızıl tağlı evimin dayağı oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Görən gözümün işığı oğul!
Belimin tutarı, qüvvəti oğul!
Qalın Oğuzun sevimlisi, canım oğul!

-deyib çox ağladı, Allahına şükür eylədi.

Yalançı oğlu Yalancıq bunu eşitdi. Beyrəyin qorxusundan qaçdı, özünü "Dana sazı" deyilən qamışlığa saldı. Beyrək onun ardınca düşdü. Qovub qamışlıqda yaxaladı. Dedi: "Ədə, od gətirin!" Gətirdilər, qamışlığa od vurdular.

Yalançı oğlu gördü ki, yanır, qamışlıqdan çıxdı. Beyrəyin ayağına yıxıldı, qılıncının altından keçdi. Beyrək də günahından keçdi.

Qazan bəy deyir: "Gəl, muradına yetiş!" Beyrək deyir: "Yoldaşlarımı qurtarmayınca, Bayburd qalasını almayınca muradıma çatmayım!". Qazan bəy: "Məni sevən yetişsin!" -dedi. Qalın Oğuz bəyləri atlandılar. Çaparaq Bayburd hasarına çatdılar. Kafirlər də bunları qarşıladılar.

Qalın Oğuz bəyləri təmiz suda yuyunub, ağ alınların yerə qoydular. İki rükət namaz qıldılar. Adı gözəl Məhəmmədi yada gətirdilər. Gumbur-gumbur nağaralar döyüldü. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu.

Şöklü Məliki Qazan bəy böyürdüb atdan saldı. Qara Təküri Dəli Dondaz qılınclayıb yerə saldı. Qara Arslan Məliki Qarabudaq yerə saldı. Dərələrdə kafirlərə qırğın düşdü. Yeddi kafir bəyi qılıncdan keçirildi.

Beyrək, Yeynək, Qazan bəy, Qarabudaq, Dəli Dondaz, Qazanın oğlu Uruz bəy hasara yürüş etdilər. Beyrək otuz doqquz igidin yanına gəldi. Onları sağ-salamat görüb, Allaha şükür eylədi.

Kafirin kilsəsini yıxdılar, yerində məscid tikdilər. Keşişi öldürdülər. Əziz Tanrı adına xütbə oxutdurub, azan verdirdilər...Ov ovlayan quşların ən yaxşısını, qumaşın gözəlini, qızın göyçəyini, doqquzlama qızıl naxışlı çuxanı xanlar xanı Bayındır üçün hədiyyə ayırdılar.

Baybörə bəyin oğlu Beyrək Baybican bəyin qızını aldı, hündür evlərinə, ağ otağına qayıtdı. Toy şənliyinə başladı. Bu qırx igidin bir neçəsinə Qazan xan, bir neçəsinə Bayındır xan qız verdilər. Beyrək də yeddi bacısını yeddi igidə verdi. Qırx yerdə otaq tikdirdi. Otuz doqquz qız hərə bəxtinə-taleyinə görə bir-bir ox atdı. Otuz doqquz igidin hər biri öz oxunun ardınca getdi. Qırx gün-qırx gecə toy-düyün etdilər.

Beyrək igidlərlə birlikdə öz muradına çatdı. Dədəm Qorqud gəldi, qopuz çaldı. Boy boyladı, soy soyladı. İgid ərlərin başına nə gəldiyini söylədi. "Bu oğuznamə Beyrəyin olsun!" dedi. Xeyir-dua verək, xanım:

Uca dağların yıxılmasın!
Böyük kölgəlik ağacın kəsilməsin!
Ağ saqqallı atanın yeri cənnət olsun!
Ağ birçəkli ananın yeri cənnət olsun!
Oğuldan, qardaşdan ayırmasın!
Axır vaxtında təmiz imandan ayırmasın!
"Amin! Amin!" deyən üzlər görsün!
Yığışdırıb saxlasın günahınızı
Adı gözəl Məhəmməd Mustafanın
Üzü suyuna bağışlasın, xanım, hey!..

# QAZAN BƏYİN OĞLU URUZ BƏYİN DUSTAQ OLDUĞU BOY

Bir gün Ulaş oğlu Qazan bəy yerindən durmuşdu. Qara yer üzərində otaqlarını tikdirmişdi. Min yerdə ipək xalça döşətmişdi. Hündür alaçıq göy üzünə dirənmişdi. Doxsan dəstə gənc oğuz məclisinə toplaşmışdı. Ağzı böyük şərab küpləri ortalığa qoyulmuşdu. Doqquz yerdə kef məclisi qurulmuşdu, qızıl qədəhlər, sürahilər düzülmüşdü. Doqquz qara gözlü, hörmə saçlı, əlləri biləyindən xınalı, barmaqları naxışlı, boğazları bir qarış kafir qızları al şərabı qızıl qədəhlə Qalın Oğuz bəylərinə paylayırdılar. Ulaş oğlu Salur Qazan hər bir şərab küpündən içmişdi. Qızılı sapla tikilmiş çadır-otaqlar, qatar-qatar dəvələr bağışlayırdı. Oğlu Uruz, qarşısında yay kimi söykənib durmuşdu. Sağ yanında qardaşı Qaragünə oturmuşdu. Sol yanında dayısı Aruz oturmuşdu.

Qazan sağına baxdı, qah-qah güldü. Soluna baxdı, çox sevindi. Qarşısına baxdı, oğlu Uruzu gördü. Əlini əlinə çalıb ağladı. Oğlu Uruza bu iş xoş gəlmədi. İrəli gəldi, diz çökdü. Çağırıb atasına soylayır, görək, xanım, nə soylayıb deyir:

Sözümü anla mənim, sözümü dinlə, ağam Qazan
Sağına baxdın qah-qahla güldün.
Soluna baxdın, çox sevindin.
Qarşıya baxdın, məni görüb ağladın.
Səbəbi nədir, söylə mənə,
Qara başım qurban olsun, ata, sənə!
Deməzsənsə, qalxıb yerimdən duraram,
Qara gözlü igidlərimi öz dəstəmə qataram,
Qanlı Abxaz elinə mən gedərəm,
Qızıl xaça mən əl basaram,
Pilon geyən keşişin əlini öpərəm,
Qara gözlü kafir qızını mən alaram,
Daha sənin üzünə mən gəlmərəm.
Ağlamağına səbəb nədir? Söylə mənə!
Qara başım qurban olsun, ağam, sənə!

Qazan bəy qızardı. Oğlanın üzünə baxdı. Çağırıb soylayır, xanım, görək, nə soylayır:

Bəri gəl, qulunum oğul!
Sağ tərəfə baxanda mən
Qardaşım Qaragünəni gördüm –
Baş kəsib – qan töükübdür,
haqqın alıb, ad qazanıbdır.
Sol tərəfə baxdıqda dayım Aruzu gördüm, –
Baş kəsib – qan töükübdür,
haqqın alıb, ad qazanıbdır.
Qarşıma baxanda səni gördüm.
On altı yaşın oldu
Bir gün ola, düşüb öləm, sən qalarsan, –
Yay çəkməmisən, ox atmayıbsan,
baş kəsməyibsən, qan tökməyibsən.
Qanlı Oğuz yurdunda bir mükafat almayıbsan.

Sabahkı gün vaxt gələr, mən ölüb sən qalanda taxt-tacımı birdən sənə verməzlər, – deyə sonumu andım, ağladım, oğul, – dedi.

Uruz burada soylamış, görək, xanım, nə soylamışdır:
Dəvəcə böyümüşsən, köşəkcə ağlın yox!
Təpəcə böyümüşsən, darıca beynin yox!
Hünəri oğul atadanmı görər, öyrənər,
Yoxsa atalar oğuldanmı öyrənir?
Sən məni götürüb haçan kafir sərhədinə çıxardın,
qılınc çalıb baş kəsdin?
Mən səndən nə gördüm, nə öyrənim? – dedi.

Qazan bəy əlini əlinə vurub qah-qah güldü. Dedi: “Ay bəylər, Uruz yaxşı deyir. Siz yeyiniz-içiniz, söhbətinizi eləyin. Mən bu oğlanı götürüb ova gedim. Yeddi günlük azuqə ilə çıxaq. Ox atdığım yerləri, qılınc çalıb baş kəsdiyim yerləri göstərim. Kafir sərhədində Cızıqlara, Ağlağana, Göycə dağa götürüb aparım. Sonra oğlana gərək olar, a bəylər!” Qonur atını çəkdirdi, mindi. Donu qaş-daşla bəzənmiş üç yüz igidi seçdi, öz dəstəsinə qoşdu. Uruz da qırx ala gözlü igidini özü ilə

apardı. Qazan oğlunu götürüb uca dağlar üzərinə ova çıxdı. Ov ovladı, quş vurdu. Sığın-keyik yıxdı. Hündür və gözəl göy çəmənlikdə çadır qurdu. Bir neçə gün bəylər eləcə yeyib-içdi.

Sən demə, Başı açığın Dadiani qalasından, Aq-saqa qalasından kafirin casusu bunları görüb, təkura dedi: "Hey, nə oturursan, ay itini ulatmayan, pişiyini miyoldatmayan! Albanların başçısı Qazan öz oğlu ilə sərxoş olub yatır".

On altı min qara donlu kafir ata mindi. Qazanın üzərinə irəlilədi. Baxıb gördülər altı bölük toz endi. Kimi dedi: "Keyik tozudur", kimisi dedi: "Düşmən gəlir". Qazan dedi: "Keyik olsaydı, bir ya iki bölük olardı. Bilin ki, bu gələn düşməndir". Toz yarıldı, gün kimi parıldadı, dəniz kimi yayxandı, meşə kimi qaraldı. On altı min ip üzəngili, keçə papaqlı, azğın dinli, quzğun dilli kafir gəlib çıxdı. Qazan Qonur atını çəkdirdi, mindi. Oğlu Uruz bədəvi atının cilovunu çəkib oynatdı, onun qarşısına gəldi, dedi:

Bəri gəl, ağam Qazan!
Dəniz kimi qaralıb gələn nədir?
Od kimi işarıb, ulduz tək parlayıb
gələn nədir?
Öz dilinlə beş kəlmə xəbər ver mənə!
Qara başım qurban olsun, atam, sənə!

Qazan deyir:

Bəri gəl, aslanım oğul!
Böyük dəniz kimi yayxanıb gələn
kafirin qoşunudur.
Gün kimi parlayıb gələn
kafirin papağındakı işıqdır.
Ulduz kimi işarıb gələn
kafirin nizəsidir.
Azğın dinli yağıdır, düşməndir, oğul!

Oğlan deyir: "Yağı" deyəndə nəyə deyirlər? Qazan dedi: "Oğul, ona görə yağı deyirlər ki, biz onlara yetsək, öldürərik; onlar bizə yetsə, öldürərlər".

Uruz deyir: "Ata, onların içində bəy igidlərdən öldürülsə, qan haqqı tələb edərlərmi?". Qazan deyir: "Oğul, min kafir öldürsən də, kimsə səndən qan iddiasında olmaz. Amma bunlar azğın dinli kafirdirlər, yaxşı yerdə rast gəldilər. Ancaq sən yaman yerdə mənə buxov oldun, oğul!".

Uruz burada soylamışdır, görək, xanım, nə soylayıb demişdir:

Bəri gəl, ağam Qazan!
Qalxıb yerimdən
bədəvi atımı saxlayırdım bu gün üçün.
Günü gəldi, hündür meydanda səyirdim mən sənin üçün!
Uzaq vuran sür nizəmi
saxlayırdım bu gün üçün.
Günü gəldi, qarınlara-kökslərə sancım mən sənin üçün.
Böyük, iti polad qılıncımı saxlayırdım bu gün üçün,
Günü gəldi, murdar dinli kafir başın kəsdirim sənin üçün!
Əynimdə bərk dəmir donumu saxlayırdım bu gün üçün.
Günü gəldi, qolçaq-yaxa tikdirib-taxım sənin üçün!
Günü gəldi, qaba toppuz altında yoğurdum sənin üçün
Qırx igidimi saxlayırdım bu gün üçün.
Günü gəldi, kafir başını kəsdirim sənin üçün!
Aslan adımı saxlayırdım sənin üçün.
Kafirlə əlbəyaxa tutaşım mən sənin üçün!
Ağız-dildən bir neçə söz söylə mənə!
Qara başım qurban olsun, ağam, sənə!

Qazan burada soylamış, görək, xanım, nə soylamışdır, – deyir:

Oğul, oğul, ay oğul!
Səsimi anla, sözümü dinlə!
O kafirin oxçusu var,
atdığı üç oxdan biri boşa çıxmaz.
"Hı!" demədən başlar kəsən cəlladı var.
Adam ətindən qovurma edən aşbazı var.
Bu, sən deyən düşmən deyil,
Mən yerimdən qalxıb durum.
Qonur atın belinə qoy mən minim.
Düşmən mənimçin gəlir, qoy mən gedim.

Böyük, iti polad qılıncı mən çalım.
Kafir azğın dinlidir, başların kəsim.
Dönə-dönə savaşım, dönə-dönə döyüşüm.
Qılınc çalıb baş kəsməyi gör, öyrən.
Başın bəlaya düşsə, gərəyin olar...

Uruz burada soylamış, görək, xanım, nə soylamış, nə demişdir:

A bəy ata, eşidirəm,
Ərafatda erkək quzu qurban kəsilər.
Ata oğul qazanar ad üçün.
Oğul da qılınc qurşanar ata qeyrəti üçün.
Mənim də başım qurban olsun səninçün.

Qazan burada soylamış, görək, xanım nə soylamış. Qazan dedi:

Oğul, oğul, ay oğul!
Düşmən arasına girib baş kəsməyibsən,
Adam öldürüb qan tökməyibsən,
Ala gözlü qırx igidi götür özünlə,
Köksü gözəl dağ başına çıx.
Mənim necə savaşaraq döyüşdüyümə,
Mənim necə qılınc çalıb çəkişdiyimə
Həm bax, öyrən, həm göz olub, pusquda dur sən!

Uruz atasının sözünü sındırmadı, geri döndü. Yoldaşlarını da götürüb uca dağların başına çıxdı. O zamanlar oğul, ata sözünü iki eləməzdi. İki eləsəydi, o cür oğulu qəbul etməzdilər. Uruz süngüsünü gen yaxasından keçirib, yerə sancdı, durdu.

Qazan bəy gördü ki, kafir yaxınlaşdı. Atından endi, təmiz suda yuyundu. Ağ alnını yerə qoydu, iki rükət namaz qıldı. Adı gözəl Məhəmmədi yada saldı. Qara dinli kafirin gözünə qaranlıq çökdürdü. Hayqırıb at sürdü, irəli gedib qılınc vurdu.

Gumbur-gumbur nağaralar çalındı,
Burması qızıl tunc borular çalındı.
O gün igid bəy ərənlər dönə-dönə savaşdı.
O gün iti polad qılınclar çalındı.
O gün qarğı dilli bərk oxlar atıldı.
Uzaq vuran sür nizələr sancıldı.

O gün namərdlər xəlvət yer gözlədi.
O gün Uruz baxa-baxa cuşə gəldi.
Dedi: “Bəri gəlin, qırx yoldaşım,
Qurban getsin yolunuzda mənim başım!”

Görürsünüz ki, ağam Qazan baş kəsdi, qan tökdü. Mənə də heç oğul-uşağın yeməyi qədər təsir etmir. Amma atam, elə bil, bəzi kafirləri bağışlayır. Məni sevən igidlərim, nə durmusuz, düşmən qoşununun bir ucuna hücum edək!” Qaracıq atını oynatdı. Uruz kafirin sağ cinahına at sürdü. Sağlı-sollu düşməni yaxşıca dağıtdı. Sanki dar yolda dolu düşdü, ya qaz sürüsünə şahin girdi. Kafirin bir cinahı basıldı. Azğın dinli kafir əldən düşüb ox atmağa başladı. Qovulanlardan biri Uruzun bədəvi atını oxladı. At yıxıldı. Kafirlər qayıdıb Uruzun üstünə yığışdılar. Uruzun qırx igidi atdan endi. Böyük qalxan bağını qısa düyünlədilər. Qılınc siyirdilər. Uruzun üstündə çox vuruşdular. Lakin çoxluq qorxudur, dərinlik batırır. Piyada yolçunun ümidi olmaz. Uruza sağdan-soldan hücum etdilər, qırx yoldaşını həlak etdilər. Oğlanın üstünə düşüb tutdular. Qollarını bağladılar. Ağ boynuna qıl örkən taxdılar. Üzü üstə salıb sürüdülər. Ağ ətindən qan çıxınca döydülər. “Ata” deyə ağlatdılar, “ana” deyə inlətdilər. Əli bağlı, boynu bağlı, üzü üstə salıb sürüyərək apardılar. Uruz dustaq oldu. Qazan xəbər tutmadı. Elə sandı ki, düşmən basılıb. Atın yüyənini döndərib geri qayıtdı. Gəldi, oğlanı qoyduğu yerdə tapa bilmədi. “A bəylər, oğlan hara getmiş ola?” – dedi. Bəylər dedilər: “Oğlan quş ürəkli olur. Qaçıb anası yanına getmişdir”. Qazan qaraldı döndü. Dedi: “Bəylər, Allah bizə bir fərasətsiz oğul vermişdir. Gedək, onu anası yanından alaq, qılıncla paralayaq, altı bölük edək, altı yolun ayrıcına ataq. Bir daha kimsə çöllük yerdə yoldaş qoyub qaçmasın!”. Sonra Qonur atını dizləri ilə vurub yola düşdü. Evinə gəldi.

Xan qızı Boyu uzun Burla xatun Qazanın gəldiyini eşitdi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. “Oğlancığımın ilk ovudur, ovu qanlı oğuz bəylərini sevindirib-şənləndirim!” – dedi. Xan qızı gördü ki, Qazan gəlir, özünü yığışdırıb yerindən cəld durdu. Samur cübbəsini əyninə geydi. Qazanın qarşısına gəlib üz örtüyünü qaldırdı. Qazanın üzünə sarı baxdı. Sağ-soluna göz gəzdirdi. Oğlu Uruzu görmədi. Qara bağrı sarsıldı, ürəyi yerindən oynadı, qara qıyılmış gözləri qan-yaşla doldu. Qazana soylamış, görək, xanım, nə soylamış, demişdir:

Bəri gəl, Salur bəyi, Salur göyçəyi!
Başımın bəxti, evimin taxtı!
Xan atamın kürəkəni,
Xanım anamın seviləni,
Ata-anamın verdiyi,
Göz açaraq gördüyüm,
Könül verib sevdiyim.
İgid bəyim Qazan!
Qalxıb yerindən sən durdun,
Oğlunla gözəl qara yallı Qazlıq atını mindin.
Boynu uzun vəhşi keyiki vurub-yıxdın,
Sən atını yüklətdin, geri döndün?
İki getdin, bir gəlirsən, balam hanı?
Qara dövranda tapdığım oğlum hanı?
Təkcə bəyim görünmür, bağrım yanır.
Asılan uçurum qayalardan
Qazan, oğlumu uçurdunmu?
Talı sazın aslanına yedirtdinmi?
Ağ əllərini qollarından sarıtdınmı?
Kafirlər önündə qaçırtdınmı?
Dörd yanına baxdırdınmı?
Dil-damağını qurutdunmu?
Qara gözdən acı yaşlar axıtdınmı?
"Xanım ana, bəy ata!" – deyib ağlatdınmı?

Yenə soylayıb deyir:

Oğul, oğul, ay oğul! Evimin dirəyi oğul!
Qarşı yatan qara dağın yüksəyi, oğul!
Qaralıca gözlərimin işığı, oğul!
Acı yellər əsmədən, Qazan, qulağım cingildəyir.
Sarımsaq otunu yemədən, Qazan, içim göynəyir.
Sarı ilan sancmadan ağ bədənim qalxır-şişir.
Qurumuşca sinəmdə südüm oynayır.
Yalqızca oğul görünmür, bağrım yanır.
Yalnız oğul xəbərini, Qazan, söylə mənə!
Deməzsənsə, yana-yana qarğayaram, Qazan, sənə!

Anası bir soy daha soylayıb deyir:

Qarğı nizə oynadanlar getdi, gəldi.
Qızıl nizə oynadana, yarəb, nə oldu?
Qaracıq ata minənlər getdi, gəldi.
Bədəvi atlı bir oğula, yarəb, nə oldu?
Nökər gəldi, naib gəldi.
Yalnız bir oğula, yarəb, nə oldu?
Yalnız oğul xəbərini, Qazan, söylə mənə!
Deməzsənsə, yana-yana qarğayaram sənə!

Bir daha soylamışdır:

Quru-quru çaylara su buraxdım;
Qara donlu dərvişlərə nəzir verdim.
Yan-yörəmə baxdıqda qonşuma yaxşı baxdım.
Umub-küsənə, dilənçiyə yemək verdim.
Ac görsəm, doyurdum; çılpaq görsəm, geyindirdim.
Dilək ilə bircə oğul güclə tapdım.
Yalnız oğul xəbərini, a Qazan, söylə mənə!
Deməzsənsə, yana-yana qarğayaram sənə!

Bir daha soylamışdır:

Qarşı yatan uca dağdan
Bir oğul uçurdunsa, de mənə,
külünglə yıxdırım!
Coşğun axan yüyrək sudan
Bir oğul uçurub-axıtdınsa, de mənə,
Mənbəyini-mənsəbini dağıdım!
Azğın dinli kafirlərə
Bir oğul tutdurdunsa, de mənə;
Xan atamın yanına gedim mən,
Böyük qoşun, bol xəzinə alım mən.
Yaralanıb Qazlıq atımdan enməyincə,
Ətəyimlə alca qanımı silməyincə,
Qol-bud olub yer üzünə düşməyincə,
Bircə oğlumun xəbərini almayınca
Kafir yollarından dönməyim mən! – dedi.
Yoxsa, a Qazan, ayaqdan başmağımı çıxarım?

Ağ üzümə uzunca dırnaqlarımı çalım?
Payız alması kimi yanağımı yırtımmı?
Öz çadrama, donuma qanımı axıdımmı?
Sənin yurduna ağır bir şivən salmayımmı?
"Oğul, oğul!" deyərək hamını ağladımmı?
Qızıl dəvə sürüsüylə burdan keçdi;
Köşəkləri mələyərək ordan keçdi.
Balacığazımı itirmişəm, mələyimmi?
Bir Qaracıq Qazlıq at da burdan keçdi,
Quluncuğu kişnəyərək ordan keçdi.
Quluncuğumu itirmişəm, kişnəyimmi?
Yaylaqdakı ağca qoyun burdan keçdi,
Quzucuğu mələşərək ordan keçdi.
Quzu balamı itirmişəm mələyimmi?
"Oğul" deyə hıçqırımmı, inləyimmi?

Bir daha soylamışdır:

Qalxıb yerimdən durum, deyirdim.
Qara yallı Qazlıq atıma minim, deyirdim.
Qalın Oğuz içində gəzim-arayım, deyirdim, –
Oğluma bir ala gözlü gəlin alım, deyirdim.
Qara yerdə ağ otaqlı çadırlar qurdurum, deyirdim.
Oğlumu həvəslə bəy otağına keçirim, deyirdim.
Muradına, mətləbinə yetirim, deyirdim.
Muradıma, arzuma yetirmədin məni,
Dərdli başımın qarğışı tutsun, Qazan, səni!
Bir bəyim görünmür, bağrım yanır,
Neylədin, söylə mənə!
Deməzsənsə, yana-yana qarğaram, Qazan, sənə!

Oğlanın anası belə dedikdə Qazanın ağlı başından getdi. Qara bağrı sarsıldı, ürəyi yerindən oynadı. Qaranlıq çökmüş gözləri qan-yaşla doldu. Dedi: "Əzizim, oğul gəlsəydi, səndənmi soruşardım? Qorxma, fikir eləmə, ovdadır. Ovda qalan oğul üçün qəmlənmə! Mən Qazana yeddi gün möhlət ver! Yerdə isə oğlunu yerdən çıxarım; göydə isə, göydən endirim. Tapa bildim, tapdım; tapmasam, Tanrı verdi, Tanrı aldı, neyləyək? Səninlə birlikdə qara şivənə girək".

Xan qızı deyir: “Qazan, oğlanın ovda olduğuna onda inanaram ki, yorğun atınla, kütləşmiş nizənlə ardına düşəsən”.

Qazan geri döndü. Gəldiyi yolu alıb çapdı. Gecəni gündüzə qatdı. Oğlanın anası duymadan əlaltı buyurdu: “Doxsan dəstə gənc oğuz ardımca gəlsin! Bəylər bilsin ki, Uruz dustaqdır”, – dedi.

...O yerə gəldi ki, düşmən basılmışdı. Gördü oğlanın ala gözlü qırx igidi qırılmışdır. Oğlanın bədəvi atı oxlanmış yatır. Meyitlər arasında oğlunu tapmadı. Qızıl dəstəkli qamçısını tapdı. Yəqin bildi ki, oğlu kafirlərə dustaqdır, ağladı:

Uca dağımın zirvəsi oğul!
Coşğun sularımın daşqını oğul!
Qocalığımda itirdiyim yalnız oğul! – dedi,

hıçqırdı. Kafirin izinə düşdü. Kafir Dərbənddə sakin olmuşdu. Oğlana qara yapıncı geydirmişdilər. Eşikdə, qapı ağzında quru yerdə qoymuşdular; girən basır, çıxan basırdı. Fikirləşirdilər: “Bu qarı düşmən, yad oğlu əlimizə düşmüşkən əzabla öldürək!”. Uruzun belə quru yerdə atıldığı vaxtda Qazan xan yetişdi. Qonur atını oynatdı. Kafirlər Qazanın gəldiyini görüb təşvişə düşdülər. Kimi at minir, kimisi zirehli paltar geyir. Oğlan başını qaldırıb soruşdu: “Ədə, kafir, nə olub?” Kafir dedi: “Atan gəlib, tutmaq istəyirik.” Oğlan deyir: “Aman, ay kafir, aman! Tanrının birliyinə şübhə yoxdur!”. Kafirlər oğlana aman verdilər, əlini-gözünü açdılar. Oğlan atasına qarşı gəldi, soyladı, görək, nə soyladı;

Uruz dedi:

Bəri gəl, a bəy ata!
Haradan bildin dustaqlığımı?
Ağ əllərimin bağlandığını?
Ağ boynuma qıl sicimin taxıldığını?
Qaragöz igidlərimin qırıldığını?
Sən gəlincə, ata, kafirlər danışdılar:
“Qonur atlı Qazanı tutun,
Ağ əllərini, qollarını bağlayın.
Səs-səmirsiz gözəl başını kəsin.
Alca qanını yer üzünə tökün.

Oğlu ilə özünü bir yerdə öldürün.
“Ocağını söndürün!” – deyə söylədilər.
Xan ata, qorxuram səyirdərkən
Qonur atını sürüşdürəsən,
Vuruşarkən özünü tutdurasan,
Xəbərsizcə gözəl başını kəsdirəsən.
Ağ birçəkli anamı “oğul” deyərkən
“Başım bəxti Qazan” – deyə ağladasan.
Qayıdaraq, ata, geriyə dön!
Sür atını, qızıl tağlı evinə get!
Qocalmış anamın ümidi ol!
Qara gözlü bacımı ağlatma!
Qarımış dərdli anamı sızlatma!
Ata ölsə oğlu üçün, eyibdir,
Yaradana and verirəm səni, ata,
Qayıdaraq geriyə dön, evinə get!
Qoca anam qarşılayıb soruşsa,
ata, doğru xəbər ver:
Sənin oğlunu dustaq gördüm, de!
Ağ əllərini qollarından bağlı gördüm, de!
Qıl sicimi ağ boynuna taxılı gördüm, de!
Qara donuz damında yatırdırlar, de!
Qıl yapıncı boynunu sürtmüşdür, de!
Ağır buxov topuğunu döyənək edib, de!
Yanmış arpa çörəyi, acı soğandır yeməyi, de!
Anam məni özü üçün dərd etməsin!
Bir ay yola baxsın, gəlməsəm, iki ay baxsın!
İki ayda gəlməsəm, üç ay baxsın!
Üç ayda gəlməsəm, o vaxt bilsin ölmüşəm.
Ayğır atımı kəsdirib, aşımı versin!
Yad qızıdır, arvadıma izn versin,
Mənim bəy otağıma ayrısı girsin!
Mənim anam göy geyinib qara sarınsın!
Qalın Oğuz elində yasımı tutsun!
Mənim başım sənin yolunda qurban olsun!
Geri dön, ata!

Oğlan bir daha soylamışdır, görək, xanım, nə soylamışdır:

Qarşı yatan uca dağlar istəsə, el yaylar.
Aşqın-daşqın sellər-sular istəsə, axar-çağlar.
Qaracıq atlar sağlam olsa, qulun verər.
Qaytabanda qızıl dəvə sağlam olsa, doğar-törər.
Yaylaqdakı ağca qoyun sağlam olsa, quzulayar.
İgid bəylər sağlam olsa, oğlu doğular.
Sən sağ ol, anam sağ olsun,
Allah sizə məndən yaxşı oğul verər.
Anam mənə halal etsin ağ südünü,
Vuruşma, sən, qayıt, ata, qayıt geri!

Qazan xan burada soylamış, görək, xanım, nə soylayıb demişdir:

Oğul, oğul, ay oğul!
Qarşıdakı uca dağımın zirvəsi oğul!
Güclü belimin qüvvəti, canım oğul!
Qaranlıq gözlərimin işığı oğul!
Dan sökülәndə yerimdən səninçin durmuşam.
Qonur atı çaparaq səninçin yormuşam.
Kirə-toza sənə görə bulamışam ağ donumu.
Qurban verim qoy səninçin mən başımı, bu canımı.
Sən gedəli uca taxtım göydə ikən yerə endi.
Nağaralar, təbillər də gumbur-gumbur döyülmədi.
Əzəmətli divanımda bütün işlərim dayandı.
Tanıdığım bəyzadələr ağ çıxarıb qara geydi.
Qaza bənzər qız-gəlinim ağ çıxardı, qara geydi.
Qarımış anan qan-yaş tökdü.
Ağsaqqal atanın huşu başından getdi.
Oğul, burdan qayıdaraq evə getsəm,
Ağca üzlü anan gəlib “oğul” desə,
Deyimmi ki, qıl örkən də ağ boynuna taxılıdır?
Deyimmi ki, ağ əlləri arxasında bağlıdır?
Deyimmi ki, necə səni yüyürdürlər ayaqla?
Onda mənim bəs namusum hara getsin, de, bala?
Qıl yapıncı necə sürtmüş boyuncuğunu, deyimmi?
Ağır buxov necə döyüb topuğunu, deyimmi?
Arpa çörəyi, acı soğan naharıdır, deyimmi?

Qazan yenə deyir:

Qarşıdakı uca dağlar.
Qurusa, otu bitməz, el yaylamaz.
Axıntılı gözəl sular
Qurusa, aşıb-daşmaz.
Dəvələr qarısa, nəsil verməz.
Qaracıq atlar qarısa, qulun verməz.
İgid ərlər qocalsa, oğlu olmaz.
Atan qoca, anan qarı
Səndən yaxşı Allah bizə oğul verməz.
Versə belə, sənin yerini tuta bilməz.
Qara bulud olub göy asimanda,
Kafirin üstündə qoy gurlayım mən.
Ağ ildırım olub qoy çaxım mən.
Kafiri qamış kimi od olub yandırım.
Bir nəfərin yerinə doqquzunu saydırım.
Vuruş, döyüş səsiylə qoy aləmi doldurum.
Yaradan Allah köməyim olsun!

Qonur atından yerə endi, axıb gedən təmiz suda yuyundu. Ağ alnını yerə qoydu. Namaz qıldı, ağladı. Qadir Allahdan güc istədi. Məhəmmədə salavat çəkdi. Dəvə kimi kükrədi. Aslan kimi nərə çəkib hayqırdı. Ata kafirlərə yalqız hücum etdi, at sürüb qılınc vurdu. Dönə-dönə yaxşıca vuruşdu, kafiri məğlub etmək istədi, bacarmadı. Bir saat ərzində atla üç dəfə hücum etdi. Birdən göz qapağına qılınc toxundu. Qara qanı şoruldayıb, gözünə töküldü. Özünü xəlvət yerlərə saldı. Görək, indi yaradan neyləyir.

Boyu uzun Burla xatun oğlunu andıqca qərarı qalmadı. Qırx incə belli qız-oğlanla Qara ayğırını çəkdirib mindi. Böyük qılıncına qurşandı. “Başımın tacı Qazan gəlmədi”, – deyə izinə düşüb getdi. Gəlib, gəlib Qazana yaxınlaşdı. Qazan öz arvadını tanıya bilmədi. Deyir:

Qara ayğırın cilovunu mənə ver, igid!
Ayaq saxla, üzümə bax bir, igid!
Altındakı qara ayğırı mənə ver, igid!
Əlindəki sür nizəni
Yanındakı göy polad silahı mənə ver, igid!

Bu günümdə kömək ol mənə!
Qala-ölkə verim sənə!

Burla xatun deyir:

Qarşımı alıb, igid, məni nə saxlayırsan?
Mənim keçmiş günümü nə yadıma salırsan?
Qalxıb yerindən duran Qazan!
Qaragöz atın belinə yatan Qazan!
Apararaq uca dağımı yıxan Qazan!
Kölgəsi tək iri ağacımı kəsən Qazan!
Bıçaq alıb qanadlarımı qıran Qazan!
Yalnız oğlum Uruza qıyan Qazan!
At üstündə oturmayıb, ayaq üstə çapan Qazan!
Üzəngiyə yığışmazdı dizin sənin
Xan qızını, – arvadını tanımayır gözün sənin!
Nə olmuşdur sənə belə, öz huşunu itirmisən?
Çal qılıncını, yetdim, Qazan!

Bu zaman oğuz igidləri bir-bir yetişdi. Görək, xanım, kimlər yetişdi:

Qaradərə ağzında Allah verən, qara buğa dərisindən beşiyinin örtüyü olan, acığı tutanda qara daşı kül eyləyən, qara bığını ənsəsində düyünləyən, Qazanın qardaşı Qaragünə çapar yetdi: "Çal qılıncını, Qazan qardaş, çatdım!" – dedi.

Onun ardınca görək, xanım, kimlər yetişdi:

Dəmir qapı Dərbənddəki dəmir qapını alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən, Qazan kimi pəhləvanı bir savaşda üç dəfə atından yıxan Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Onun ardınca, görək kimlər yetdi:

Gedib Bayındır xanın düşmənini icazəsiz basan, altmış min kafirə qan qusduran Qəflət qoca oğlu Şir Şəmsəddin çaparaq yetdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Onun ardınca, görək, kimlər yetdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan, atı böyük gəlin otağının qarşısına gələn, Qalın Oğuz sevimlisi, Qazan bəyin dostu – silahdaşı Boz ayğırlı Beyrək çaparaq yetişdi: "Çal qılıncını, xanım Qazan, çatdım!" – dedi.

Onun ardınca, görək, kimlər yetişdi:

Çaya baxsa, qılınc çalan, qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpəli, Qalın Oğuz bəylərini bir-bir atdan yıxan Qazılıq qoca oğlu Yeynək bəy çaparaq yetdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Onun ardınca, görək, kimlər yetişdi:

İyirmi dörd boyunu tərif edib oxşayan Dəli Dondaz yetdi. Onun ardınca min nəfərin başçısı Düyər yetdi. Onun ardınca minbaşı Bügdüz Əmən yetdi. Onun ardınca doqquz tayfanın başçısı Aruz yetdi. Saydıqca Oğuz bəyləri tükənən deyil.

Qazanın bütün bəyləri yetdi, ətrafına yığıldılar. Təmiz suda yuyundular. İki rükət namaz qıldılar. Adı gözəl Məhəmmədə salavat gətirdilər. Cəsarətlə kafirin üstünə at saldılar, qılınc çaldılar. O gün ciyərli, cəsur igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. Bir qiyamət savaş oldu, meydan başla doldu. Bir qiyamət günü oldu, bəy nökərdən, nökər bəydən ayrıldı.

Oğuz bəyləri ilə Dəli Dondaz sağdan hücum etdi. Cəsur igidlərlə Qarabudaq soldan hücum etdi. Qazan özü düşmən qoşununun mərkəzinə hücum etdi. Təkur ilə Şöklü Məlikə çatdı. Böyürdüb atdan saldı. Al qanını yer üzərinə tökdü.

Sağ tərəfdə Dondaz Qara Tükənə qarşı gəldi. Qılınclayıb yerə saldı. Sol tərəfdə Buğacıq Məlikə qarşı Qarabudaq gəldi. Nizəsiylə sancıb yerə çaldı, bir anda başın kəsdi.

Boyu uzun Burla xatun kafirin qara bayrağını qılıncladı, yerə saldı. Təkur basıldı, qalan düşmənlər qaçdı. Dərələrdə kafirlərə qırğın düşdü. On beş min kafirdən kimi qırıldı, kimisi tutuldu.

Qazan, oğlunun yanına gəldi. Atından düşüb, əllərini açdı. Ata ilə oğul qucaqlaşıb görüşdülər. Oğuzlardan üç yüz igid həlak oldu. Qazan, öz oğlunu xilas edib geri döndü. Hamı bir-birini təbrik etdi. Oğuz bəyləri sevindilər, böyük qənimət əldə etdilər.

Qazan Ağca qala Sürməliyə gəlib, qırx otaq tikdirdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qazan qırx evli qulla qırx xidmətçi qızı oğlunun başına çevirib azad eylədi. Qəhrəmanlıq göstərənlərə böyük ölkə verdi, cübbə-çuxa verdi.

Dədəm Qorqud gəlib qopuz çaldı, oxudu: bu Oğuznaməni düzdü qoşdu. Belə dedi:

İndi hanı o dediyim bəy ərənlər?
Dünya mənimdir deyənlər!
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!

Xeyir-dua verək, xanım:

Yerli uca dağın yıxılmasın!
Kölgəli iri ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun qurumasın!
Qanadlarının ucu qırılmasın!
Allah səni namərdə möhtac etməsin!
Çaparkən ağ-boz atın büdrəməsin!
Vuruşanda iti polad qılıncın gödəlməsin!
Allah verən ümidin üzülməsin!
Axır gündə arı imandan ayırmasın!
Ağ alnımızı yerə qoyub beş kəlmə dua etdik, qəbul olsun!
Ulu Tanrı yığışdırsın, saxlasın günahınızı,
Adı gözəl Məhəmmədə bağışlasın, xanım, hey!!!

## DUXA QOCA OĞLU DƏLİ DOMRUL BOYU

Deyilənə görə, xanım, oğuzların arasında Duxa qoca oğlu Dəli Domrul deyilən bir igid vardı. Quru bir çayın üzərində bir körpü saldırmışdı. Körpüdən keçəndən otuz üç axça, keçmək istəməyəndən qırx axça alırdı. Bunu niyə belə edirdi? Ona görə ki, "Məndən cəsur, məndən güclü bir igid varmı ki, çıxıb mənimlə savaşsın? – deyirdi; mənim cəsurluğumun pəhləvanlıq və igidliyimin şöhrəti Ruma, Şama gedib çatmışdır", – deyirdi.

Bir gün körpünün yanında obanın bir bölük camaatı çadır qurmuşdu. Həmin obada bir gözəl igid xəstələnmişdi. Allahın əmri ilə o igid öldü. Kimi "oğul" – deyə, kimi "qardaş" – deyə ağladı. O igidin üstündə bərk qara şivən qopdu. Gözlənilmədən Dəli Domrul çaparaq yetişdi, dedi: "Ay əbləhlər, nə ağlayırsız? Mənim körpümün yanında bu hay-küy nədir, niyə şivən salmısız?". "Xan, bir yaxşı igidimiz öldü, ona ağlayırıq", – dedilər. Dəli Domrul deyir: "Aya, igidinizi kimi öldürdü?". Dedilər: "Vallah, igid bəy, Allah-taaladan buyruq oldu. Al qanadlı Əzrayıl o igidin canını aldı". Dəli Domrul deyir: "Eh, Əzrayıl dediyiniz nə kişidir ki, adamın canını alır? Ya qadir Allah, birliyin, varlığın xatirinə, Əzrayılı mənim gözümə göstər, vuruşum, güləşim, döyüşüm – yaxşı igidlərin canını qurtarım. Bir daha yaxşı igidlərin canını almasın". Dəli Domrul qayıtdı, evinə gəldi.

Allah-taalaya Domrulun sözü xoş gəlmədi.

"Bax bir, dəli axmaq mənim birliyimi tanımır, köməyimə-kərəmimə şükür eləmir. Mənim böyük sarayımda gəzib məğrurluq eləyir?" – dedi. Əzrayıla əmr etdi ki, ey Əzrayıl, get o dəli əbləhin də gözünə görün, bənizini saralt, xırıldadıb canını al!

Dəli Domrul qırx igidlə yeyib-içib oturarkən birdən Əzrayıl gəlib çıxdı. Əzrayılı nə qapıçı gördü, nə gözətçi. Dəli Domrulun görən gözü görmədi, tutan əllərində qüvvət qalmadı. Dünya-aləm Dəli Domrulun gözündə qaraldı. Dəli Domrul çağırıb soylayır, görək, xanım, nə soylayır, – deyir:

Vay, nə heybətli qocasan?
Qapıçılar səni görmədi.

Gözətçilər də duymadı.
Görən gözüm qaraldı,
Tutan əlim yoruldu.
Canıma titrətmə düşdü,
Qızıl qədəh əlimdən yerə düşdü.
Ağzım dondu buz kimi,
Sümüklərim ovuldu duz kimi,
Ay saqqallı ağ qoca,
Gözləri domba qoca,
Vay, nə qorxunc qocasan, de mənə!
Qadam-balam toxunar bu gün sənə!

Belə deyəndə Əzrayılın acığı tutdu. Deyir:

Ədə, dəli əbləh!
Gözümün dombalığını nə bəyənmirsən?
Göyçək gözlü qızların-gəlinlərin, canını çox almışam!
Saqqalımın ağlığını nə bəyənmirsən?
Ağsaqqal, qarasaqqal igidlərin canını çox almışam!
Saqqalımın ağardığının mənası budur!

Ay dəli axmaq, öyünüb deyirdin "al qanadlı Əzrayıl mənim əlimə düşəydi, öldürəydim; yaxşı igidin canını onun əlindən qurtaraydım". İndi, ay dəli, gəlmişəm ki, sənin canını alım. Verirsənmi, yoxsa mənimlə döyüşürsən?

Dəli Domrul deyir: "Aya, al qanadlı Əzrayıl sənsənmi?". "Bəli, mənəm!" – dedi. "Bu yaxşı igidlərin canını sənmi alırsan?" – dedi. "Bəli, mən alıram", – dedi. Dəli Domrul deyir: "Ədə, qapıçılar, qapını örtün! Ay Əzrayıl, mən səni gen yerdə axtarırdım, dar yerdə yaxşı əlimə keçmisən, deyəsən? Mən indi səni öldürüm, yaxşı igidlərin canını qurtarım!". Böyük qılıncını siyirdi, əlinə aldı. Hücum etdi ki, Əzrayılı vursun. Əzrayıl bir göyərçin olub, pəncərədən uçdu-getdi.

İgid Dəli Domrul əlini əlinə çaldı, qah-qah güldü. Dedi: "İgidlərim, Əzrayılın gözünü elə qorxutdum ki, gen qapını qoydu, dar bacadan qaçdı. Mənim əlimdən göyərçin kimi bir quş olub uçdu. Ay hay, mən onu qızılquşa aldırmayınca qoyarammı canını qurtarsın?!" Durdu, atına mindi. Şahini əlinə alıb, ardınca düşdü. Bir-iki göyərçin öldürdü, döndü evinə gələrkən Əzrayıl onun atının gözünə göründü.

At ürkdü. Dəli Domrulu götürüb yerə vurdu. Qara başı fırlandı, huşsuz qaldı. Əzrayıl ağ köksünün üstünə qondu. Dəli Domrula mırıldanırdı. Sonra onu boğmağa başladı.

Dəli Domrul deyir:

Ay Əzrayıl, aman!
Tanrının birliyinə şübhə yox, inan!
Mən səni belə bilməz idim.
Oğru kimi can aldığını duymaz idim.
Bizim böyük sahəli dağlarımız olur,
O dağlarımızda bağlarımız olur.
O bağların qara salxımlı üzümü olur.
O üzümü sıxırlar, al şərabı olur.
O şərabdan içən sərxoş olur.
Sərxoşdum, duymadım; nə dediyimi bilmədim.
Bəylikdən usanmadım, igidlikdən doymadım.
Canımı alma, Əzrayıl, aman ver!

Əzrayıl deyir: "Ay dəli axmaq, mənə nə yalvarırsan, Allah-taalaya yalvar. Mənim əlimdə nə var? Mən buyruq quluyam". Dəli Domrul deyir: "Bəs can verən, can alan da Allahdırmı?". "Bəli, odur!" dedi. Əzrayıla dönüb dedi: "Bəs sən nə iş görürsən? Sən aradan çıx, mən Allah-taala ilə xəbərləşim". Dəli Domrul burada soylamış, görək, xanım, nə soylamışdır:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən.
Gözəl Tanrı!
Neçə cahillər səni
Göydə arar, yerdə istər.
Sən möminlər könlündəsən.
Sən böyüksən, qüdrətlisən,
Əbədi sirr sahibisən.
Canımı alsan, özün al.
Qoyma, Əzrayıl alsın!

Dəli Domrulun sözü burada Allah-taalaya xoş gəldi. Əzrayılı çağırıb dedi ki, bu dəli mənim birliyimi bildiyi, birliyimə şükür etdiyi üçün onun canı əvəzinə can tap; qoy Dəli Domrulun canı azad olsun!

Əzrayıl deyir: “Ay Dəli Domrul, Allahın əmri belə oldu ki, Dəli Domrul öz canı yerinə can tapsın, onun canı azad olsun!”. Dəli Domrul deyir: “Mən canı necə tapım? Bir qoca atam, bir qarı anam var, gəl gedək, ikisindən biri bəlkə canını verdi, al, mənim canım qalsın!”.

Dəli Domrul durub atasının yanına gəldi. Atasının əlini öpüb soylamış, görək, xanım, nə soylamışdır; dedi:

Ağ saqqallı əziz, hörmətli, canım ata!
Bilirsənmi, nələr oldu?
Günah söz söylədim, –
Allaha xoş gəlmədi,
Göydə al qanadlı Əzrayıla
Əmr elədi, uçub gəldi.
Basıb qonmuş ağ köksümə,
Şirin canı alır məndən.
Ata, səndən can istərəm, verərsənmi?
Yoxsa “oğul, Domrul!” deyə ağlarsanmı?

Atası deyir:

Oğul, oğul, ay oğul!
Canımın bir parası oğul!
Doğulanda doqquz buğra öldürdüyüm aslan oğul!
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Qarşı yatan uca dağım gərəksə,
Söylə, olsun Əzrayılın yaylağı!
Soyuq-soyuq bulaqlarım gərəksə,
Onlar olsun Əzrayılın bulağı!
Tövlə-tövlə şah atlarım gərəksə, onun miniyi olsun!
Qatar-qatar dəvələrim gərəksə, onun yüklüyü olsun!
Yaylaqdakı ağ qoyunum gərəksə,
Mətbəxlərdə olsun ona şülənlik!
Qızıl-gümüş pul gərəksə,
Xərcləsin, qursun böyük bir şənlik!
Dünya şirin, can əzizdir,
Canımı qıya bilmərəm!
Məndən əziz, məndən yaxın
Anan vardır, get yanına!

Dəli Domrul, atasından ümidi üzülüb, atını sürdü, anasının yanına gəldi. Deyir:

Ana, bilirsənmi nələr oldu?
Al qanadlı Əzrayıl göy üzündən uçub gəldi.
Mənim ağca köksümü basıb qondu,
Xırıldadıb canımı alır indi.
Atamdan can istədim, amma vermədi.
Səndən can istəyirəm, ana, canını mənə verərsənmi,
yoxsa "Oğul, Domrul!" – deyə ağlarsan?
Ağ üzünə iti dırnaq çalarsan?
Qarğı kimi qara saçını yolarsan, ana?

Anası burada soylamış, görək, xanım, nə soylamışdır. Anası dedi:

Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
Bələyini beşiklərdə bələdiyim oğul!
On ay deyəndə yer üzünə gətirdiyim oğul!
Doyunca ağ südümü əmizdirdiyim oğul!
Ağca bürclü hasarlarda tutulsaydın, oğul!
İyrənc dinli kafir əlində dustaq olsaydın, oğul,
Qızıl-gümüş gücünə səni qurtarardım, oğul!
Yaman yerə gedibsən; gedə bilmərəm,
Dünya şirin, can əzizdir,
Canımı qıya bilmərəm, yəqin bil!-dedi.

Anası da canını vermədi. Belə deyəndə Əzrayıl Dəli Domrulun canını almağa gəldi. Dəli Domrul deyir:

Ay Əzrayıl, aman!
Allahın birliyinə yox şübhə, inan.

Əzrayıl deyir: "Ay dəli axmaq! Daha nə aman istəyirsən? Ağ saqqallı atanın yanına getdin, canını vermədi. Ağ birçəkli ananın yanına getdin, can vermədi. Daha kim verəcəkdir? Dəli Domrul deyir: "Həsrətlim vardır, onunla görüşüm". Əzrayıl deyir: "Ay dəli, həsrətlin kimdir?" Deyir: "Yad qızı arvadım var, ondan iki oğlum var; əmanətim var, onlara tapşırım, ondan sonra mənim canımı alarsan". Atını sürüb arvadının yanına gəldi. Dedi:

Bilirsənmi nələr oldu?
Al qanadlı Əzrayıl göy üzündən uçub gəldi.
Mənim ağca köksümü basıb qondu.
Mənim şirin canımı alır indi.
Atama dedim, canını vermədi,
Anama dedim, canını vermədi,
"Dünya şirin, can şirin!" – dedilər.
İndi uca-uca dağlarım yaylağın olsun!
Soyuq-soyuq sularım bulağın olsun!
Tövlə-tövlə şahanə atlarım sənin miniyin olsun!
Qızıl tağlı uca evim sənin kölgəliyin olsun!
Qatar-qatar dəvələrim sənin yüklüyün olsun!
Yaylaqdakı ağ qoyunum sənin şülənliyin olsun!
Gözün kimi tutursa,
Könlün kimi sevirsə, ona ərə get!
İki oğlancığı yetim qoyma!

Arvad burada soylamışdır, görək, xanım, nə soylamışdır – demişdir:

Nə deyirsən, nə ötürsən,
Göz açaraq gördüyüm!
Könül verib sevdiyim!
Qoç igidim, şah igidim,
Şirin damağ verib öpüşdüyüm,
Bir yasdıqda baş qoyduğum,
Qarşı yatan uca dağları
Səndən sonra mən neylərəm?
Yaylayarsam, gorum olsun!
Soyuq-soyuq sularını mən içərsəm, mənim qanım olsun!
Qızılını-gümüşünü xərcləsəm, kəfənliyim olsun!
Tövlə-tövlə atlarını mən minsəm, mənim tabutum olsun!
Səndən sonra bir igidi sevib seçsəm,
ərə getsəm, birgə yatsam,
Bir əjdaha ilan olub, məni çalsın!
O müxənnət, etibarsız atan-anan
Can nədir ki, sənə qıya bilməmişlər?

Yerlər şahid olsun, göy şahid olsun,
Qüdrətli Allah şahid olsun, qurbanam sənə,
Mənim canım qurban olsun sənin canına!

Əzrayıl razılaşdı, qadının canını almağa gəldi. İgid Domrul ömür yoldaşına qıya bilmədi. Burada Allaha yalvarmış, görək, necə yalvarmışdır, deyir:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən!
Gözəl Tanrı, çox cahillər
Səni göydə arar, yerdə arzular.
Sən möminlərin könlündəsən.
Sən əbədi hökmransan.
Böyük yollar üzərində
İmarətlər yapım-qurum səninçin.
Harda görsəm, ac doyurum səninçin.
Çılpaq görsəm, don geydirim səninçin.
Alırsansa, ikimizin canını birgə al!
Sağ qoyursan, ikimizə də rəhm et!
Kərəmi çox, Qadir Allah!

Dəli Domrulun sözü Allaha xoş gəldi. Əzrayıla əmr etdi: "Dəli Domrulun ata-anasının canını al! Dəli Domrula və arvadına yüz qırx il ömür verdim", – dedi. Əzrayıl da dərhal onun atasının-anasının canını aldı. Dəli Domrul ömür yoldaşı ilə yüz qırx il də yaşadı.

Dədə Qorqud gəlib boy boyladı, soy soyladı. "Bu dastan Dəli Domrulun olsun. Məndən sonra igid ozanlar söyləsinlər! Alnıaçıq, əliaçıq igid şəxslər dinləsinlər!" – dedi.

Xeyir-dua verək, xanım:

Köklü uca dağların yıxılmasın!
Kölgəli iri ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun qurumasın!
Allah səni namərdə möhtac etməsin!
Ağ üzün qarşısında beş kəlmə dua qıldıq qəbul, olunsun!
Yığışdırıb saxlasın günahınızı,
Gözəl adlı Məhəmmədə bağışlasın, xanım, hey!!!

# QANLI QOCA OĞLU QANTURALI BOYU

Oğuzların vaxtında Qanlı qoca deyilən bir müdrik kişi vardı. Bir yetişmiş igid oğlu vardı. Adına Qanturalı deyirdilər. Qanlı qoca deyir: "Dostlar, atam öldü, mən qaldım. Yerini-yurdunu tutdum. Sabahkı gün mən ölərəm, oğlum qalar. Bundan yaxşı nə ola bilər ki, oğul, nə qədər ki, sağam, gəl səni evləndirim!". Oğlan deyir: "Ata, məni evləndirmək istəyirsənsə, bilirsənmi mənə layiq qız necə olmalıdır?... Mən yerimdən durmadan o durmuş olsun! Mən Qaracıq atıma minmədən o minmiş olsun! Mən qanlı kafir elinə getməmiş o gedib mənə baş gətirmiş olsun!".

Qanlı qoca deyir: "Oğul, sən qız istəmirsənmiş, bir cəsur pəhləvan istəyirsənmiş, onun arxasında yeyəsən-içəsən, gününü xoş keçirəsən!". Dedi: "Bəli, ata can, eləsini istəyirəm! Bəs gedəsən, bir cici-mici türkman qızını alasan, birdən sürüşüb üzərinə düşəm, qarnı yırtıla?". Qanlı qoca deyir: "Oğul, qız görmək səndən, mal-pul xərcləmək məndən!".

Atası belə deyəndə igidlər igidi Qanturalı durdu. Qırx igidini özü ilə götürdü. İç Oğuzu gəzdi, qız tapa bilmədi, qayıtdı, geri döndü. Evlərinə gəldi. Atası deyir: "Oğul, qız tapdınmı?". Qanturalı deyir: "Yıxılsın Oğuz elləri, mənə yarayan qız tapa bilmədim, ata!". Atası deyir: "Hey, oğul! Qız almaq üçün gedən belə getməz". Qanturalı deyir: "Bəs necə gedər, ata?". Qanlı Qoca deyir: "Oğul, səhər vaxtı gedib günorta gəlmək olmaz. Günorta gedib axşam gəlmək olmaz. Oğul, sən tələs, mal yığ, mən sənə gedim qız axtarım!".

Qanlı Qoca sevincək, fərəhlə ayağa durdu. Ağ saqqallı pirani qocaları da yanına saldı. İç Oğuzu axtardı, qız tapmadı. Dolandı, Daş Oğuza gəldi, tapa bilmədi. Dolandı, Trabzona gəldi. Sən demə, Trabzon təkurunun bir gözəl-göyçək, yaraşıqlı qızı varmış. Sağına-soluna iki qoşa yay çəkərdi. Atdığı ox yerə düşməzdi. O qızın "qalınlığı-qaftanlığı" üçün üç heyvan saxlanırdı. Atası vəd etmişdi ki, hər kim o üç heyvanı basıb qalib gəlsə, öldürsə, qızımı ona verəcəyəm. Basa bilməyənin başını kəsirdi. Beləliklə, otuz iki kafir bəyinin oğlanlarının başı kəsilib qala bürcündən asılmışdı. Həmin üç heyvanın biri quduz aslandı; biri qara buğa, biri də buğra idi. Bunların hər birisi bir əjdahaya bərabərdi. Başları asılan otuz iki nəfər, quduz aslanla qara buğranın üzünü görməmişdi, ancaq buğa buynuzunda həlak olmuşdu.

Qanlı qoca bu başları və heyvanları görəndə başındakı bit ayağına daraşdı. Dedi: "Gedim, oğluma düzünü deyim, hünəri varsa, gəlib alsın, yoxdursa, kimi alsaq, razı olsun".

At ayağı iti, ozan dili çevik olur. Qanlı qoca qayıdıb gəldi, oğuz yurduna çatdı. Qanturalıya xəbər verdilər, "atan gəldi" – dedilər. O, qırx igidlə atasının qarşısına gəldi. Əlini öpdü, dedi: "Ata can, mənə yarayan qız tapdınmı?". Dedi: "Oğul, hünərin varsa, tapdım". Qanturalı deyir: "Qızıl-gümüşmü istəyir? Qatır, dəvəmi istəyir?". Atası deyir: "Oğul, hünər lazımdır, hünər!". Qanturalı deyir: "Ata, qarayallı Qazılıq atımı yəhərləyim, qanlı kafir elinə hücum edim, baş kəsim, qan töküm, kafirə qan qusdurum. Qul-qaravaş gətirim, hünər göstərim".

Qanlı qoca deyir: "Hay-hay, oğul can! Hünər dediyin o deyil. O qız üçün vəhşi heyvan saxlayıblar. Kim o üç heyvanı basıb öldürsə, o qızı ona verirlər. Öldürməsə, onun başını kəsib bürcdən asırlar".

Qanturalı deyir: "Ata, bu sözü sən mənə deməməli idin. Bir halda ki, dedin, əlbəttə, getməliyəm. Başıma qaxınc, üzümə rişxənd olmasın. Xanım ana, bəy ata, salamat qalın!". Qanlı qoca fikirləşdi: "Gördünmü mən özümə nə etdim? Oğlana qorxunc xəbərlər verim, bəlkə getməsin, dönsün", – dedi.

Qanlı qoca bu zaman soylamış, görək, xanım, nə soylayıb-demişdir:

Oğul, sənin gedəcəyin o yerin
Dolambac-dolambac yolları vardır.
Atlılar batdıqca çıxa bilməyən
Keçilməz palçıqlıq, çamurluqlardır.
Əjdaha ilanlar dələ bilməyən
Qalın meşələrdir, sıx ormanlardır.
Göylərə baş çəkən dik qalalardır.
Göz vurub könül alan gözəli varsa,
"Hay!" deməmiş baş kəsən cəlladı da var.
Yiyəsinin çiynində qalxan oynayar...
Yaman yerə gedirsən, qayıt, dön geri!
Qocalmış ananı ağlatma belə,
Atanı inlətmə, qayıt, dön bəri!

Qanturalı hirslənib dedi:

Nə söyləyir, nə deyirsən, ata can?
Bu şeylərdən qorxan adam igidmi olar?

İgid ərə qorxu vermək eyib sayılar.
O dolambac yolları Allah qoysa, gecə keçim.
Atlı batan palçığına qumlar töküm, döşəyim.
Əjdahanın sökmədiyi ormanına
çaxmaq çaxıb, od vurum.
Göylərə baş vuran qalalarını Allah qoysa, vurum-yıxım.
Oğrun baxıb könül alan gözəlinin boynun öpüm.
Çiynində qalxan oynadan atasının başın kəsim.
İndi gedim, getməyim?
Gedərəm! Ya gələm, ya gəlməyəm;
Ya qara buğranın köksü altında qalam,
Ya buğanın buynuzuna sancılam,
Ya quduz aslanın caynağında didilim...
Gedim, getməyim? Gedim, ya gəlim, ya gəlməyim!...
Yenidən görüşüncə bəy ata, xanım ana, sağ-salamat qalın siz!

Gördülər ki, namus güc gəlir, əyilmir, dedilər: "Oğul, yolun açıq-uğurlu olsun! Sağ-salamat gedib-gələsən!".

Qanturalı ata-anasının əllərini öpdü. Qırx igidini yanına saldı. Yeddi gün yeddi gecə at çapdılar. Kafirin sərhədinə çatdılar. Çadır qurdular. Qanturalı yüyrək atını çaparaq gürzünü göyə atır, yerə düşmədən qapıb tutur, deyirdi:

Hey, qırx dostum, yoldaşım!
Qaçan olsaydı, yarışsaydım,
Güclü olsaydı, qapışsaydım,
Allah kömək etsəydi,
O üç heyvanı öldürsəydim,
Gözəllərin başı Sarı donlu
Selcan xanımı alsaydım,
Evimizə qayıtsaydım,
Dərdim olmaz, qırx yoldaşım!
Sizə qurban mənim başım!

Bunlar belə danışarkən təkura xəbər çatdı: "Oğuz yurdundan Qanturalı deyilən bir igid var, qızını istəməyə gəlmişdir",-dedilər. Kafirlər yeddi ağac54 gəlib onları qarşıladılar, dedilər: "İgid, de görək

niyə gəlmisiz?”. “Alışmağa-verişməyə gəlmişik”, – dedilər. Hörmət-izzət elədilər. Ağ çadır qurdular, iri xalı döşədilər, ağ qoyunlar kəsdilər, yeddiillik al şərab içirdilər. Onları götürüb təkurun yanına gətirdilər. Təkur taxt üzərində oturmuşdu. Yüz kafir altdan yaraqlanıb, üstdən geyinmişdi. Qanturalı meydanı yeddi dəfə dolanıb gəldi.

Qız meydanda bir köşk düzəltdirmişdi. Yanında olan bütün qızlar al geyinmiş, təkcə özü sarı rəngli don geymişdi. Yuxarıdan tamaşa edirdi. Qanturalı gəldi, böyük quldur dəstəli təkura salam verdi. Təkur salam aldı. İri xalı döşədilər, oturdu. Təkur deyir: “İgid, hardan gəlirsən?”. Qanturalı yerindən durub gəldi. İrəli sıçrayıb, ağ alnını açdı. Ağ biləklərini sığallayıb dedi ki:

Qarşıdakı uca dağını aşmağa gəlmişəm!
Aşqın-daşqın sularını keçməyə gəlmişəm!
Dar ətəyinə, gen qoltuğuna sığınıb gəlmişəm!
Allahın əmri ilə, peyğəmbərin rəyi ilə
Qızın Selcan xanımı almağa gəlmişəm!

Təkur deyir: “Bu igidin sözü ötkəmdir, əgər əlində hünəri də varsa... Bu igidi anadangəlmə soyundurun!”. Soyundurdular. Qanturalı qızılı incə kətan bezini belinə sarıdı. Qanturalını çəkib meydana gətirdilər.

Qanturalı gözəl və ağıllı bir igid idi. Oğuzlarda dörd igid üzörtüyü ilə gəzirdi. Biri Qanturalı, biri Qaraçəkir və oğlu Qırxqınıq, bir də Boz ayğırlı Beyrək idi. Qanturalı niqabını yana atdı. Qız köşkdən baxırdı. Belbağısı boşaldı, ehtirasdan övsəl olmuş dana kimi ağzının suyu axdı. Yanındakı qızlara dedi: “Kaş Allah-Təala atamın könlünə rəhm salsın, kəbin kəsdirib məni o igidə versin. Bunun kimi igid heyfdir ki, o heyvanların əlində həlak ola!”.

Bu zaman dəmir zəncirli buğanı gətirdilər. Buğa diz üstə çökdü, buynuzu ilə bir mərmər daşı ovdu, pendir kimi diddi. Kafirlər deyir: “İndi igidi atıb-yıxacaq, yerə sərib pırtdanağını çıxaracaq. Yıxılsın Oğuz elləri! Bir qızdan ötrü qırx igidlə bir bəy oğlunun ölməsi nəyə lazımdır?”. Bunu eşidəndə qırx igid ağlaşdı. Qanturalı sağına baxdı, qırx igidini ağlar gördü. Soluna baxdı, yenə ağlayırdılar. Dedi: “Hey, qırx dostum, qırx yoldaşım, niyə ağlayırsınız? Köklənmiş qopuzumu götürün, tərifləyin, məni!”. Burada qırx igid Qanturalını öyüb-tərifləmiş, görək, xanım, necə tərifləmişdir:

Sultanımız Qanturalı, qalxıb yerindən durmadınmı?
Qarayallı Qazlıq atını minmədinmi?
Arqubeldə, Ala dağda quş ovlayıb,
Atanın ev-eşiyinə qayıdan baş
Qaravaşları inək sağanda görmədinmi?
"Buğa, buğa!" dedikləri qara inəyin buzovu deyildirmi?
İgid ərlər sənin döyüşündən qorxurdu...
Odur, Sarı donlu Selcan xanım köşkdən baxır,
Kimə baxsa, öz eşqiylə oda yaxır!

Qanturalı Sarı donlu qızın eşqi ilə bir "hu!" dedi. "Əyə, buğanızı buraxın gəlsin", – dedi. Buğanın zəncirini açıb boş buraxdılar. Buynuzu almaz süngü kimi olan buğa, Qanturalının üstünə cumdu.

Qanturalı Məhəmmədin əziz adına salavat çəkdi. Buğanın alnına elə bir yumruq vurdu ki, dalı üstə çökdürdü. Yumruğunu alnına dayadı, sürüb meydanın başına çıxardı. Çox çalışdılar: nə buğa, nə də Qanturalı üstün gəlirdi. Buğa yavaş-yavaş yorulmağa başladı. Ağzı köpükləndi. Qanturalı deyir: "Bu dünyanı igidlər ağılla tapmışlar. Bunun önündən sıçrayım, nə hünərim varsa, bundan sonra göstərim!". Adı gözəl Məhəmmədə salavat çəkdi. Buğanın qabağından qaçdı, buğa buynuzu üstündə qalxdı. Qanturalı buğanı quyruğundan tutub, üç dəfə yerə vurdu. Buğanın sümükləri sındı. Basıb boğazladı. Bıçaq çıxarıb dərisini soydu. Ətini meydanda qoyub, dərisini təkurun qabağına gətirdi, dedi: "Sabah qızını mənə verirsən". Təkur dedi: "Aya, qızı verin, şəhərdən qovun, çıxsın-getsin!". Təkurun qardaşı oğlu vardı, dedi: "Heyvanların başı aslandır, onunla da oyun göstərsin, qızı ondan sonra verək!".

Getdilər, aslanı çıxarıb meydana gətirdilər. Aslan hayqırdı, meydanda nə qədər at vardısa, qan qaşandı. İgidlər dedilər: "Buğadan qurtardı, aslandan necə qurtulacaq?". Ağlaşdılar. Qanturalı igidlərini ağlar gördü, dedi: "Əyə, al qopuzumu ələ alıb, məni tərifləyin! Sarıdonlu qızın eşqi ilə bir aslandan dönümmü?" Yoldaşları burada soylamış, görək, xanım, nə soylamışlar:

Sultanımız Qanturalı,
Ağ qamışlıq içində
Sarı gönlü daylar basan,
Şah damarını dəlib, qanın soran,

Böyük, iti polad qılıncdan qayıtmayan,
Dəstəyi ağ tozlu bərk yaydan çəkinməyən,
Ağ lələkli kəskin oxdan qorxmayan
Heyvanların başçısı quduz aslanı qıran
İri köpək itinə özünü daladarmı?
İgid ərlər döyüş günü ölümündən qorxarmı?
Sarı donlu Selcan xanım köşkdən baxır,
Kimə baxsa, öz eşqiylə oda yaxır!

Sarı donlu qızın eşqi ilə hay çəkən Qanturalı dedi: "Ay kafir, aslanını burax gəlsin!". Sonra fikirləşib: "Böyük polad iti qılıncım yoxdur ki, çarpışarkən iki biçəydim. Sənə sığınıram, ulu Tanrı, kömək et!" – dedi.

Aslanı buraxdılar; cumdu gəldi. Qanturalı bir yapıncını diz qapağına doladı, aslanın pəncəsinə verdi. Əziz adlı Məhəmmədə salavat gətirdi. Aslanın alnını gözləyib elə bir yumruq vurdu ki, yumruq heyvanın çənəsinə dəyib parçaladı. Boynundan tutub, belini üzdü. Ondan sonra götürüb yerə vurdu; aslanın sümükləri sındı. Qanturalı təkurun qabağına gəldi. Dedi: "Sabah qızını mənə ver!". Təkur deyir: "Qızı gətirin verin, bu igidi gözüm gördü, könlüm sevdi. İstəyir dursun, istəmir, getsin!" Yenə qardaşı oğlu dedi: "Heyvanların başçısı dəvədir. Onunla da oyun göstərsin, ondan sonra qızı verək!".

Allahın köməyi ilə bəylər, paşalar Qanturalıya xeyir-dua verdilər. Təkur dedi ki, dəvənin ağzını yeddi yerdən bağlayın. Lakin kafirlər paxıllıqdan bağlamadılar, yüyən qayışını açıb buraxdılar. Qanturalı fırlanıb dəvənin qoltuğundan girir-çıxırdı. Başı qızışmış igid artıq iki heyvanla savaşmışdı. Sürüşüb yıxıldı. Altı cəllad tez başının üstünü aldı. Yalın qılınc tutdular. Burada yoldaşları soylamış, görək, xanım, nə soylamışlar:

Qanturalı, yerindən qalxıb gəldin,
Qarayallı gözəl Qazlıq atını mindin.
Ala gözlü igidlərini gətirdin.
Arqubeli, Ala dağı gecə aşdın.
Aşqın-daşqın sulardan gecə keçdin.
Qanlı kafir elinə gecə girdin.
Qara buğa gələndə xurd-xəşil etdin.

Quduz aslan gələndə belini bükdün.
Qara buğra gələndə nə yorulub-düşdün?
Uca-uca dağlardan xəbər aşar,
Qanlı, daşqın sulardan hənir keçər,
Qalın Oğuz ellərinə xəbər gedər,
Qanlı qoca oğlunun nə etdiyini deyərlər:
Qara buğaya diz çökdürməmiş,
Quduz aslan gələndə belini bükmüş,
Qara buğra gələndə nə döyükmüş?!.
Böyük-kiçik arasında söz-söhbət olar,
Qarı-qoca qalmaz, – şayiə yayılar.
Ağ saqqallı atanın beli bükülər,
Qarıcıq olmuş anan qan-yaş tökər.
Ay xan, qalxıb yerindən durmasan,
Cəllad qılıncının altındadır ənsən.
Qəflətən gözəl başını kəsərlər.
Aşağıdan yuxarıya baxmırsanmı?
Qarşına iri qaz gəlib, şahini atmırsanmı?
Selcan xanımın işarəsini görmürsənmi?
"Dəvə burnunda əzilər" dedilər, – bilmirsənmi?
Sarı donlu Selcan xanım köşkdən baxar,
Kim ona baxsa, eşqiylə oda yaxar!

Qanturalı Sarı donlu qız eşqinə bir "hu!" deyib ayağa durdu. Fikirləşdi: "Aya, mən bu dəvənin burnundan yapışsam, qızın sözü ilə yapışdı, – deyərlər. Sabahı Oğuz ellərinə xəbər gedər ki, dəvə əlində girinc olmuşdu, qız xilas elədi". Sonra dedi: "Aya, qolca qopuzumu çalın, tərifləyin məni!. Yaradan Allaha sığındım. Bir buğradan dönümmü? Allah qoysa, bunun da başını kəsim!".

İgidləri Qanturalını öyüb-tərifləmiş, görək, xanım, nə soylamışlar:

Sərt qayalar başında yuva quran,
Ulu Tanrıya yaxın uçub qanad vuran,
Mancanaq daşı tək qıjıldayıb yerə enən,
Duru gölün ördəyini şığıyıb alan,
Su dibinə girən quşu dartıb üzən,
Qarnı acan zaman qalxıb süzən,
Bütün quşların sultanı çal qaraquş

Özünü heç sağsağana vurdurarmı?
İgid ərlər döyüş günü ölümündən qorxarmı?
Sarı donlu Selcan xanım köşkdən baxar,
Kimə baxsa, öz eşqiylə oda yaxar!..

Sarı donlu qız eşqinə hayqıran Qanturalı adı gözəl Məhəmmədə salavat çəkdi. Dəvəyə çiyni ilə bir zərbə vurdu, dəvə bağırdı. Bir də vurdu, dəvə ayaq üstə dura bilmədi, yıxıldı. Qanturalı dəvəni basıb, iki yerdən kəsdi, doğradı. Arxasından iki qayış çıxartdı, təkurun qabağına tulladı. Dedi: "Döyüşçülərin oxqabısının bağı, üzəngisinin qayışı üzüləndə tikməyə gərək olar".

Təkur deyir: "Vallah, bu igidi gözüm gördü, könlüm sevdi". Qırx yerdə otaq qurdurdu. Qırx yerdə böyük, qırmızı bəy-gəlin otağı tikdirdi. Qanturalı ilə qızı gətirib otağa saldılar.

Ozan gəldi, gəlin havası çaldı. Oğuz igidinin sinəsi qabardı, qılıncını çıxarıb yeri çaldı-çapdı. Dedi ki, yer kimi çatlayım, torpaq kimi sovrulum, qılıncımla doğranım, oxuma sancılım, oğlum doğulmasın, doğularsa, on günlük olmasın, əgər bəy atamın və xanım anamın üzünü görməmiş bu otağa girib yatsam. Çadırının iplərini açdı. Dəvələrini nərildətdi, atlarını kişnətdi. Gecəni gündüzə qatdı, köçdü...

Yeddi gün yeddi gecə gedib, oğuz yurdunun sərhədinə çıxdılar. Çadır qurdular. Qanturalı deyir:

Hey, qırx dostum, yoldaşım!
Qurban sizə mənim başım!
Allah-taala yol verdi, getdim.
O üç quduz heyvanı öldürdüm.
Sarı donlu Selcan xanımı alıb gəldim.
Xəbər verin, atam məni qarşılasın!

Qanturalı baxdı gördü ki, bu dayandıqları yerdə ququ quşları, durnalar, turaclar, kəkliklər uçurlar. Soyuq-soyuq sular, çayırlar-çəmənlər... Selcan xanım bu yeri sevdi, bəyəndi. Düşdülər, kef məclisi qurdular. Yedilər, içdilər.

O zamanlar oğuz igidlərinə nə bəla gəlirdisə, yuxudan – yatmaqdan gəlirdi. Qanturalının yuxusu gəldi, yatdı. O, yatarkən qız fikirləşdi: "Mənim aşiqlərim çoxdur. Birdən xəlvətcə gəlib, igidimi tutub öldürərlər! Ağ üzlü mən gəlini tutub yenə ata-anamın evinə apararlar!". Ona görə də Qanturalının atını gizlicə yəhərlətdi. Özü də

altdan yaraqlanıb üstdən geyindi. Süngüsünü əlinə aldı, bir yüksək yerə çıxıb gözlədi.

Xanım, deyəsən, təkur peşman olmuşdu. "Elə üç heyvan öldürdüyü üçün təkcə-bircə qızcığazımı aldı getdi",- deyə fikirləşdi. Gizlincə qara donlu, göy dəmir qılınclı altı yüz kafir seçdi. Gecə-gündüz at sürdülər. Birdən gəlib Qanturalıgil düşən yerə çatdılar. Qız hazır idi. Baxdı, lap irəli gəlmişdilər. Atını oynadıb, Qanturalının üstünə gəldi. Soyladı, görək, xanım, nə soylayıb dedi:

Qafil olma, qara başını qaldır, igid!
Ala-qıyma, gözəl gözünü aç, dur, igid!
Qolların və ağ əllərin bağlanmadan,
Ağ alnın qara yerlərə çırpılmadan,
Bircə anda gözəl başın kəsilmədən,
Qızıl qanın yer üzünə tökülmədən,
Düşmən çatdı, yaxındadır,
Nə yatırsan, ayağa qalx!
Sərt qayalar oynamadan yer ovuldu.
Qoca bəylər heç ölmədən el boşaldı.
Qoşularaq-qovuşaraq dağdan endi,
Bir sırada düzülərək üzərinə düşmən gəldi.
Yatmağa yer-yurdmu tapdın, sənə nə oldu?

- deyə çağırdı. Qanturalı gərnəşib oyandı, durdu. Deyir: "Nə söylərsən, gözəlim!". Selcan xanım: "İgidim, üstünə düşmən gəlib. Oyatmaq məndən, savaşıb hünər göstərmək səndən!" dedi. Qanturalı gözünü açdı, göz qapaqlarını qaldırıb baxdı. Gördü gəlin at üzərindədir; geyinmiş, süngüsü də əlində. Yeri öpdü. Dedi: "Amənna və səddəqna! Allahın qapısında mətləbimiz yerinə yetdi". Təmiz suda yuyundu. Ağ alnını yerə qoydu, iki rükət namaz qıldı, atına mindi. Adı gözəl Məhəmmədə salavat çəkdi. Qara donlu kafirin üstünə at sürdü, irəli getdi. Selcan xanım at oynatdı. Qanturalının önünə keçdi. Qanturalı deyir: "Gözəlim, hara gedirsən?". Deyir: "İgid bəy, baş salamat olsa, papaq tapılmazmı? Bu gələn düşmən qatı düşməndir. Vuruşaq, döyüşək: ölənimiz ölsün, diri qalanımız evə gəlsin!". Burada Selcan xanım at saldı, qırılanı qırdı, qaçanı qovmadı, "aman" deyəni öldürmədi. Elə sandı ki, düşmən basıldı. Qılıncının qəbzəsi qan çadıra gəldi. Qanturalını tapa bilmədi.

Elə bu zaman Qanturalının ata-anası gəlib çıxdı. Gördülər ki, bu "gəlin" deyilən adamın qılıncının qəbzəsi qanlıdır, oğulları görünmür. Xəbər bildilər, görək, necə xəbərləşdilər. Anası deyir:

Anam gəlin, qızım gəlin,
Sübh tezdən öz yerindən durub gəldin,
oğlumuzu tutdurdunmu?
Xəbərsizcə gözəl başını kəsdirdinmi?
"Xanım ana, bəy ata!" deyib inlətdinmi?
Sən gəlirsən, bir balam görünmür,
Bağrım yanır, öz dilinlə xəbər ver mənə!
Dərdli başım qurban olsun, gəlin, sənə!

Qız bildi ki, gələnlər qayınanası və qayınatasıdır. Qamçı ilə işarə elədi ki, otağa keçin, harada qarmaqarışıqlıq varsa, toz varsa, harada qarğa-quzğun dolaşırsa, Qanturalını orada axtarım. Atını mahmızladı. Bir yüksək yerə çıxdı, gözlədi; gördü ki, bir dərənin içində toz gah yığılır, gah dağılır. Oraya gəldi; gördü ki, Qanturalının atını oxlamışlar. Gözünün qapağı sıyrılmış, üzünü qan bürümüşdür. Axmaqda olan qanını silir. Kafirlər qılınc siyirib üstünə toplaşır, o isə onları qabağına qatıb qovur.

Selcan xanım bunu belə gördü, içinə od düşdü. Bir bölük qaza şahin girən kimi kafirlərin üstünə at saldı. Kafirlərin bir ucundan qırıb o biri ucuna çıxdı. Qanturalı baxdı gördü ki, kim isə düşməni qabağına qatıb qovur. Selcan olduğunu bilmədi, qəzəbləndi. Bu vaxt soylamış, görək, xanım, nə soylayıb-demişdir:

Qalxıb yerindən duran igid, nə igidsən?
Qarayallı Qazlıq ata minən igid, nə igidsən?
Qəfildən başlar kəsən,
İzinsiz döyüşə girən igid, nə igidsən?
İzinsiz döyüşə girmək bizim eldə eyibdir.
Çıx, get! Qızılquş olaraq uçummu?
Saqqalından, boğazından tutummu?
Qəfildən sənin başını kəsimmi?
Al qanını yer üzünə tökümmü?
Qara başını atının tərkindən asımmı?
Ay xatası çatmış igid, nə igidsən, qayıt, dön geri!

Selcan xanım burada soylamış, görək, xanım, nə soylamışdır:

Hey igidim, bəy igidim!
Nər dəvələr köşəyindən dönərmi?
Heç Qaracıq, Qazlıq atlar qulununu əzərmi?
Yaylaqdakı ağ qoyunlar quzusundan bezərmi?
Ər igidlər, igid ərlər sevdiyinə qıyarmı?
İgidim, bəy igidim,
Bu düşmənin bir ucu mənim, bir ucu sənin!

Qanturalı bildi ki, bu düşməni basıb-dağıdan Selcan xanımdır. Bir tərəfdən də özü qoşuna girib qılınc çəkdi. Kafirin başını kəsdi. Düşmən basılıb məğlub oldu.

Selcan xanım Qanturalını ata mindirib, yedəyinə aldı, geri qayıtdı. Gedərkən Qanturalı öz-özünə fikirləşdi:

Selcan xanım, yerindən qalxıb-durub,
Qarayallı Qazlıq atına minib,
Atamın ev-eşiyinə gələndə,
Oğuzun ala gözlü qız-gəlini biləndə,
ətrafına yığışaraq güləndə,
Hər kəs öz sözünü söyləyəndə
Sən də durub öyünəsən,
“Qanturalı yaralıydı,
at belinə aldım, çıxdım” deyəsən!
Gözüm doydu, könlüm döndü, öldürürəm səni! – dedi.

Selcan xanım işin nə yerdə olduğunu bilib, soylamış, görək, xanım, nə soylamışdır:

İgid bəy, öyünərsə, ər öyünsün, – aslandır!
Lovğalanmaq arvad üçün nöqsandır.
Öyünməklə arvaddan kişi olmaz...
İri yorğan altında qucaqlaşmadıq,
Şirin damaq tutaraq öpüşmədik,
Al duvağım altında danışmadıq.
Tez sevdin, tez də bezdin, əbləh oğlu, əbləh!
Bir Allah bilir ki, mən sənə sirdaşam, yaram, qıyma mənə!

Qanturalı deyir: “Yox, əlbəttə, öldürməliyəm!”. Qız hirslənib dedi: “Ay əbləh oğlu, əbləh! Mən aşağı qulpa yapışıram, sən yuxarı qulpa yapışırsan. Ay əbləh oğlu, oxla ya qılıncla vuruşursan? Bəri gəl, danışaq!”. Atını sürüb bir yüksək yerə çıxdı. Oxqabından doxsan oxunu yerə tökdü. İki ox seçib, dəmir ucluqlarını çıxardı: birini gizlətdi, birini əlinə götürdü. Dəmir ucluqlu oxla atmağa ürəyi gəlmədi. Dedi: “İgid, oxunu at!” Qanturalı dedi: “Qızların yolu birincidir, əvvəlcə sən at!”. Qız bir oxu elə atdı ki, Qanturalının başındakı bit ayağına yığıldı. Qanturalı ox atmadı, irəli gəlib Selcan xanımı qucaqlayıb barışdı; öpüşdülər. Qanturalı soylamış, görək, nə soylamışdır:

Par-par yanan, parıldayan incə donlum!
Yeriyəndə yerə qədəm basmayan,
Qar üstünə qan dammış tək al yanaqlım!
Qoşa badam sığmayan dar ağızlım!
Qələm ilə rəssam çəkən qara qaşlım!
Hörükləri qırx tutamlıq qara saçlım!
Aslan nəsli, sultan qızı,
Heç mən səni öldürməyə qıyardımmı?
Öz canıma qıyardım, sənə qıymazdım;
mən səni sınayırdım, -dedi.

Selcan xanım burada soylamış, görək, xanım, nə soylamışdır:

Qalxaraq yerimdən durardım,
Qarayallı Qazlıq atıma minərdim.
Atamın dik çadırından çıxardım.
Arqubeldə, Ala dağda ov ovlardım.
O yerlərdə sığın-keyik qovardım.
Yay dartanda bir oxla neyləyərdim?
Dəmir ucluqsuz oxla, igid, səni sınardım,
Mən səni öldürməyə, igidim, heç qıyardım?..

Onlar yaxına gəldilər. Qucaqlaşıb qol-boyun oldular, şirin-şirin öpüşdülər. Ağ-boz atlarını minib çapdılar, bəy atasının yanına çatdılar. Atası oğlunu gördü, Allaha şükürlər elədi. Qanlı qoca öz oğlu və gəlini ilə oğuz yurduna girdi. Böyük və gözəl çəmənlikdə çadır qurdurdu. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. Toy etdi. Qalın Oğuz bəylərini çağırıb əzizlədi...

Qanturalı qızıl tağlı günlüyünü qurdurub, gəlin otağına girdi, muradına-arzusuna çatdı.

Dədəm Qorqud gəlib qopuz çaldı. Boy boyladı, soy soyladı. İgidlərin başına gələnləri söylədi:

İndi hanı dediyim bəy ərənlər?
Dünya mənimdir deyənlər?
Əcəl aldı, yer gizlətdi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!
Əcəl gəldikdə təmiz imandan ayırmasın, –
Allah səni namərdə möhtac etməsin!
Allah verən ümidin üzülməsin!
Ağ alnın önündə beş kəlmə dua etdik, qəbul olsun!
“Amin!” deyənlərin üzünü görəsən!
Yığışdırsın, saxlasın Allah günahınızı,
adı gözəl Məhəmməd Mustafaya bağışlasın, xanım, hey!!!

## QAZILIQ QOCA OĞLU YEYNƏK BOYU

Qam Ğam oğlu Bayındır xan yerindən durmuşdu, qara yerin üzərində uca evini tikdirmişdi. Böyük alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi. İç Oğuz və Daş Oğuz bəyləri məclisə toplaşmışdı. Yemək-içmək idi.

Qazılıq qoca deyilən bir kişi var idi. Bayındır xanın vəziri idi. Şərabın təsiri başına vurdu. Qaba dizləri üstə çöküb, Bayındır xandan yürüş üçün izin istədi. Bayındır xan icazə verdi: "Haraya istəyirsən, get!" – dedi.

Qazılıq qoca dünyagörmüş, işə yarayan adam idi. Etibarlı qocaları yanına cəmlədi. Yataq-yarağı ilə yola düşdü. Çox dağlar, dərə-təpələr keçdi. Günlərin bir günü Düzmürd qalasına gəldi. Qara dəniz kənarında idi; oraya çatıb dayandılar.

O qalanın bir təkuru vardı. Adına Arşın oğlu Dirək təkur deyərdilər. O kafirin altmış arşın qaməti vardı. Altmış batmanlıq gürz atırdı. Ən möhkəm yayı da çəkərdi...

Qazılıq qoca oraya çatan kimi döyüşə başladı. Sonra o təkur qaladan bayıra çıxdı. Meydana girdi, özünə tay igid istədi. Qazılıq qoca onu görən kimi yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin ənsəsinə bir qılınc vurdu. Zərrə qədər kəsə bilmədi. Növbə kafirə çatdı. O altmış batmanlıq gürzlə Qazılıq qocanı vurdu. Boş dünya başına dar oldu. Qanı düdük kimi şoruldadı. Qazılıq qocanı qarmalayıb-tutub qalaya saldılar. İgidləri durmayıb qaçdılar.

Qazılıq Qoca düz on altı il qalada dustaq oldu. Sonralar Əmən deyilən bir kişi altı dəfə getdi, həmin qalanı ala bilmədi.

Sən demə, Qazılıq qoca dustaq düşən vaxt bir yaşında bir oğlu varmış. On beş yaşına girdi, igid oldu. Atasını ölmüş bilirdi. Atasının dustaq olduğunu oğlandan gizlədirdilər. Həmin oğlanın adına Yeynək deyərdilər. Günlərin bir günü Yeynək oturub bəylərlə söhbət edərkən Qaragünə oğlu Budaqla sözü düz gəlmədi. Bir-birinə söz atdılar. Budaq dedi: "Burada boş-boş danışıb neyləyirsən? Dalaşmağa adam axtarırsansa, gedib atanı qurtarsana! Bəs niyə on altı ildir, dustaqdır?".

Yeynək bu xəbəri eşidəndə ürəyi oynadı, qara bağrı sarsıldı. Qalxdı, Bayındır xanın hüzuruna getdi. Üzünü yerə qoydu, dedi:

Səhər çağı sərt yerdə tikilən hündür evli!
Atlasdan yapılmış göy alaçıqlı!
Tövlə-tövlə çəkilən şahanə atlı!
Çağıranda hay verən, yolu çavuşlu!
Süfrəsindən yağ tökülən, bol nemətli!
Bütün igidlərin arxası, yoxsulların ümidi!
Türküstanın dirəyi! Tüklü quşun balası!
Amit soyunun aslanı! Qaracığın qaplanı!
Dövlətli xan, mənə kömək!
Qoşun ver, məni atamın dustaq olduğu qalaya göndər!

Bayındır xan əmr etdi: "İyirmi dörd vilayətin bəyləri gəlsin! Birincisi, Dəmir qapı Dərbənd bəyi, qarğı süngü ucunda ər böyürdən, döyüşə girəndə "kimsən" deyə soruşmayan Qıyan Səlcik oğlu Dəli Dondaz səninlə birlikdə getsin! Ayğırgözlüdə at üzdürən, əlli yeddi qalanın kilidini sındıran İlək Qoca oğlu Tüləkvuran birlikdə getsin! Qoşa bürcdən qayın oxu dayanmayan Yağrıncı oğlu Elalmış səninlə birlikdə getsin! Üç dəfə düşmən görməsə, qan ağlayan Doğsun oğlu Rüstəm səninlə getsin! Əjdahalar ağzından adam alan Dəli Vuran birlikdə getsin! "Yerin bir ucundan o biri ucuna çatım!" – deyən Savğan Sarı səninlə getsin!..."

Sayılmaqla oğuz igidləri tükənməz. Bayındır xan iyirmi dörd vilayətin pəhləvan əylərini Yeynəyə belə yoldaş etdi. Bəylər yığışıb, hazırlıq gördülər. Birdən o gecə Yeynək yuxu gördü. Yuxusunu yoldaşlarına soyladı, görək, xanım, nə dedi: "Bəylər, dərdli başım-gözüm yatmışkən yuxu gördü. Ala gözümü açanda dünyanı gördüm. Ağ-boz atlar çapdıran alpanları gördüm. Ağ işıqlı igidləri yanıma saldım. Ağ saqqallı Dədə Qorquddan öyüd aldım. Qarşıdakı uca dağları aşdım. İrəlidə uzanan Qara dənizi gördüm. Gəmi düzəltdim; köynəyimi çıxarıb, yelkən qurdum. Qabaqdakı dənizi üzüb keçdim. O tərəfdəki uca dağın bir yanında alnı-başı balqara bənzəyən bir kişi gördüm. Qalxıb yerimdən durdum. Qarğı dilli iti süngümü qapıb, o kişiyə sarı getdim. Qarşıdan o kişiyə sancmaq istədiyim zaman gözucu ona baxdım; tanıdım, dayım Əmən imiş. Dönüb o kişiyə salam verdim. "Oğuz ellərində kimlərdənsən?" – dedim. Göz qapaqlarını qaldırıb, üzümə baxdı. "Oğul, Yeynək, haraya gedirsən?" – dedi. Mən dedim: "Düzmürd qalasına gedirəm. Atam orada dustaq imiş". Burada dayım mənə soyladı:

Yetdiyim yerə yel yetməzdi.
Yeddi dəstə igidlərim
Yeni Bayırın qurduna bənzərdi.
Yeddi kişlə qurulurdu mənim yayım!
Qayın budağından yonuldu oxum,
Ləlәkli, qızılı möhürlü oxum!
Yel əsdi, yağış yağdı, tufan qopdu,
Yeddi dəfə getdimsə də, qalanı ala bilməyib geri döndüm.
Məndən igid ola bilməzsən, Yeynəyim, dön! – dedi.

Yeynək də yuxusunda dayısına soylayıb, demişdir:

Qalxıb yerindən duranda
Ala gözlü igid bəyləri yanına salmadın.
Sən tanınmış bəylərlə getmədin,
Beş axçaya qulluq edən, ot-ələf yığan
adamları özünə yoldaş elədin.
O qalanı ona görə ala bilmədin!

Yeynək yenə deyir:

Qovurmanı kəsə-kəsə yemək yaxşıdır.
Döyüş günü su içməyə çeşmə yaxşıdır.
Dövlət daim gəldiyi tək dursa yaxşıdır.
Bildiyini unutmasan, ağıl yaxşıdır.
Ölümündən qorxmasan, mərdlik yaxşıdır.

Yeynək bu yuxunu yoldaşlarına danışdı.

Sən demə, dayısı Əmən oraya yaxın imiş. Bütün bəylərlə yoldaş olub getdilər. Gedib Düzmürd qalasına çatdılar. Dairə şəklində dayandılar. Elə ki, kafirlər bunları gördü, Arşın oğlu Dirək təkura xəbər verdilər. O lənətə gəlmiş də qaladan çıxıb, bunlara qarşı gəldi və özünə uyğun döyüşçü istədi. Qıyan Səlcik oğlu Dəli Dondaz durub gəldi. Altmış tutamlıq sür nizəsini qoltuğuna qısıb, "o kafiri qabaq tərəfdən vurum", – deyə fikirləşdi, vura bilmədi. Kafir təkur onu qarmalayıb, zərbə vurdu. Süngüsünü çəkib əlindən aldı: O, altmış batmanlıq gürz ilə Dondazı bərk vurdu. Gen dünya Dondazın başına daraldı, Qazlıq atını döndərdi, qayıdıb gəldi.

Bundan sonra Dönəbilməz Tüləkvuran at üstündə altı pərli çomağı ilə hücum edib, kafiri yuxarıdan aşağı möhkəm vurdu, yıxa bilmədi.

Təkur onun da çomağını qarmalayıb aldı. Onu da gürzlə vurdu. O da Qazlıq atını döndərib qayıtdı. Xanım, iyirmi dörd vilayətin bəyi təkurun əlində məğlub oldu.

Sonra cavan, təzəcə igid olan Qazılıq Qoca oğlu Yeynək Allaha sığındı. Qüdrətli Allahı təriflədi:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən, əziz Allah!
Anadan doğulmadın, sən atadan olmadın.
Heç kimin malını yemədin,
Kimsəyə güc etmədin.
Hər yerdə əhədsən, Allahü səmədsən!
Adəmə sən tac qoydun,
Şeytana lənət etdin.
Bir günaha görə qapından qovdun.
Nəmrud göyə ox atdı.
Qarnı yarıq balığı qarşıya tutdun.
Böyüklükdə həddin yox,
Sənin boyun-qəddin yox,
ya bədənin, cəddin yox!
Vurduğunu ulatmayan ulu Tanrı!
Basdığını bildirməyən bəlli Tanrı!
Apardığını göyə yetirən əziz Tanrı!
Qəzəbləndiyini batırıb-boğan acıqlı Tanrı!
Birliyinə sığındım, qadir Tanrı!
Qara donlu kafirə qarşı at sürürəm,
İşimi sən başa vur, sən kömək et!

Həmin dəmdə atını irəli sürdü. Yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin çiyninə bir qılınc vurdu. Geyim-kecimini doğradı. Altı barmaq dərinliyində yara vurdu. Qara qanı şoruldayıb axdı. Qara inək gönündən tikilmiş çəkmələri qanla doldu. Qara başı dumanlandı, fırlandı. Dərhal döndü, qalaya qaçdı. Yeynək arxasından çatdı. Hasar qapısından girən yerdə böyük, iti polad qılıncını ənsəsinə elə vurdu ki, başı top kimi yerə düşdü. Ondan sonra Yeynək atını döndərib, qoşunun içinə gəldi.

Qazılıq qocanı dustaqlıqdan çıxartdılar. "Hey, bəy igidlər, kafiri kim öldürdü?" deyə soruşan Qazılıq qoca soylamış, görək, xanım, nə soylamış-demişdir:

Qaytabanın mayasını yüklü qoyub getmişəm,
Kaş biləydim, nərmi, mayamı doğdu?
Böyük aulda qoyunları yüklü qoyub gəlmişəm.
Kaş biləydim, erkək ya dişi doğdu?
Ala gözlü gözəlimi yüklü qoyub gəlmişəm.
Kaş biləydim, oğlu ya qızı oldu?
Ay igidlər, yaradanın eşqinə,
xəbər verin siz mənə!

Yeynək burada soylamış, görək, xanım, nə soylayıb-demişdir:

Qaytabanın mayasını yüklü qoydun, nər oldu!
Böyük aulda qoyunların yüklü qaldı, qoç doğdu!
Ala gözlü gözəlini yüklü qoydun, aslan bir oğlu oldu!

Yeynək atası ilə görüşdü. Ondan sonra qalan bəylər görüşdülər. Sonra bəylər bir anda hasara hücum etdilər, düşmən malını çalıb-çapdılar.

Yeynək və atası bir-birinə həsrət qaldıqları üçün xeyli qucaqlaşıb öpüşdülər. Sahibsiz yerlərin qurdu kimi inildədilər. Allaha çox şükür etdilər. Qalanın kilsəsini yıxıb, yerində məscid tikdilər. Əziz Tanrı adına xütbə oxutdular. Şahinlərin ən yaxşısını, qumaşın gözəlini, qızların göyçəyini doqquz cərgə zər naxışlı çuxanı Bayındır xana hədiyyə ayırdılar. Qalan şeyləri döyüşçü igidlərə bağışladılar. Dönüb evlərinə gəldilər.

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. “Bu oğuznamə Yeynəyin olsun!” dedi. Xeyir-dua verək xanım:

Yerli uca dağların yıxılmasın!
Kölgəlik iri ağacın kəsilməsin!
Ağ saqqallı atanın yeri cənnət olsun!
Ağ birçəkli ananın yeri cənnət olsun!
Axır gündə Allah sizi pak imandan ayırmasın!
Ağ alnın önündə beş kəlmə dua etdik, qəbul olunsun!
Günahınızı adı gözəl Məhəmməd Mustafa
üzü suyuna bağışlasın, xanım, hey!!!

# BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY

Xanım, bir gün oğuzlar xəbərsiz oturarkən yurdlarına düşmən gəldi. Onlar gecəylə qorxub köçdü. Qaçıb gedərkən Aruz qocanın körpə oğlu düşüb yolda qalır, bir şir tapıb götürür, bəsləyir...

Bir müddətdən sonra oğuz camaatı yenə öz yurduna qayıtdı. Oğuz xanın ilxıçısı gəlib xəbər gətirdi. Deyir: "Xanım, qamışlıqdan bir şir çıxır, sıçrayıb qaçmağı adam kimidir, atı vurub-basır, qanını sümürür".

Aruz deyir: "Xanım, bu bəlkə yerimizdən qaçanda düşüb itən körpə oğlumdur?". Bəylər atlandılar. Şirin yatağı üzərinə gəldilər. Şiri qaçırıb, oğlanı tutdular. Aruz oğlanı evinə gətirdi. Şadlıq etdilər. Yemək-içmək oldu. Amma oğlanı nə qədər saxlayıb-ovundurdularsa, durmadı, şirin yataq yerinə qaçdı. Yenidən tutub gətirdilər.

Dədəm Qorqud gəldi. Dedi: "Oğlum, sən insansan. Heyvanla həmsöhbət olma. Gəl, yaxşı atlar min, yaxşı igidlərlə iş yürüt! Böyük qardaşının adı Qıyan Səlcikdir, sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versin!".

Oğuz camaatı bir gün yaylağa köçdü. Aruzun bir çobanı vardı. Qonur Qoca Sarı çoban deyərdilər adına. Oğuzların önündə bundan əvvəl kimsə köçməzdi. Uzun bulaq deyilən məşhur bir bulaq vardı. O bulağa pərilər qonmuşdu. Birdən qoyunlar ürkdü. Çoban qabaqdakı təkəyə hirsləndi, irəli getdi. Gördü ki, pəri qızlar qanad-qanada bağlayıb uçurlar. Çoban öz yapıncısını üzərlərinə atdı. Pəri qızının birini tutdu. Tamah salıb, qucaqladı... Qoyun ürkməyə başladı. Çoban qoyunun qabağına qaçdı. Pəri qızı qanad çalıb uçdu. Dedi: "Çoban, il tamam olanda məndəki əmanətini gəl, al!. Amma oğuzların başına bəla gətirdin!" Çobanın içinə qorxu düşdü. Amma qızın ayrılığından bənizi saraldı.

Zaman gəldi, oğuzlar yenə yaylağa köçdülər. Çoban yenə bu bulağa gəldi. Yenə qoyun ürkdü. Çoban irəli gəldi. Gördü ki, bir ət toplusu yatır, par-par parıldayır. Pəri qızı gəlib dedi: "Çoban, əmanətin budur, gəl götür! Amma Oğuzun başına bəla gətirdin!" – dedi. Çoban bu ət topasını görəndə təəccübləndi. Geri dönüb, sapand daşına tutdu. Vurduqca böyüdü; çoban həmin yığnağı qoydu, qaçdı; qoyunların ardınca düşdü.

Sən demə, o zaman Bayındır xan bəylərlə gəzməyə çıxıbmış. Bu bulağın üstünə gəldilər. Gördülər ki, bir təəccüblü şey yatır, başı-

ayağı bilinmir. Çevrəyə aldılar. Bir igid atdan düşüb onu tərpətdi-vurdu. Vurduqca böyüdü. Bir neçə igid də düşüb vurdu. Onlar vurduqca böyüdü. Aruz Qoca da enib vurdu-silkələdi, birdən mahmızı həmin şeyə toxundu. Bu ət topasının pərdəsi yarıldı, içindən bir oğlan uşağı çıxdı. Gövdəsi adam gövdəsi, təpəsində bir gözü vardı. Aruz bu uşağı götürüb ətəyinə sarıdı. Dedi: "Xanım, bunu mənə verin, oğlum Basatla böyüdüm!".

Bayındır xan: "Sənin olsun!" – dedi.

Aruz Təpəgözü götürüb evinə gətirdi. Buyurdu, bir dayə gəldi. Dayə əmcəyini ağzına verdi. Uşaq bir sordu, olan südünü içdi. İkinci dəfə sordu, qanını içdi; üçüncüdə canını aldı. Bir neçə dayə gətirdilər. Təpəgöz onları həlak etdi. Gördülər olmur, "südlə bəsləyək"- dedilər. Gündə bir qazan süd çatmırdı. Bəslədilər, böyüdü, gəzməyə başladı. Oğlan uşaqları ilə oynayırdı. Uşaqların kiminin burnunu, kiminin qulağını yeməyə başladı. Xülasə, camaat bunun əlindən zara gəldi. Aciz qaldılar, Aruza şikayət edib ağlaşdılar. Aruz Təpəgözü döydü-söydü, belə hərəkətləri qadağan etdi; Təpəgöz sözünə baxmadı. Axır ki, Aruz onu evindən qovdu.

Təpəgözün pəri anası gəlib oğlanın barmağına bir üzük keçirdi. "Oğul, sənə ox batmasın, bədənini qılınc kəsməsin!" – dedi.

Təpəgöz oğuzların arasından çıxdı, bir uca dağda məskən saldı. Yol kəsdi, adam oğurladı, böyük quldur oldu. Üzərinə bir neçə adam göndərdilər. Ox atdılar, batmadı. Qılınc vurdular, kəsmədi. Süngünü sancdılar, yerimədi. Çoban-çoluq qalmadı, Təpəgöz hamını yedi. Oğuzların içində adam yeməyə başladı. Oğuzlar yığışıb onun üzərinə gəldilər. Təpəgöz görüb qəzəbləndi. Bir ağacı qoparıb yerindən atdı, əlli-altmış adam həlak elədi. İgidlərin başçısı Qazana elə zərbə vurdu, dünya başına daraldı.

Qazanın qardaşı Qaragünə Təpəgözün əlində məğlub oldu. Dözən oğlu Alp Rüstəm həlak oldu.

Uşun qoca oğlu kimi pəhləvan onun əlində öldü; onun iki qardaşı da Təpəgözün əlində pak canını tapşırdı.

Dəmir donlu Mamaq onun əlində məhv oldu. Bığı qanlı Bükdüz Əmən də Təpəgöz tərəfindən məğlub edildi. Təpəgöz ağ saqqallı Aruz qocaya qan qusdurdu. Qıyan Səlcikin ödü yarıldı. Oğuzlar Təpəgözə heç nə edə bilmədilər, vahiməyə düşüb qaçdılar. Təpəgöz onların qarşısını aldı, geri qaytardı. Xülasə, oğuzlar yeddi dəfə qaçdı,

Təpəgöz onların qarşısını alıb, yeddi dəfə geri oturtdu. Oğuz yurdu Təpəgözün əlində əsir-yesir olub qaldı. Gedib Dədə Qorqudu çağırdılar. Onunla danışdılar: “Gəlin, pay ayıraq, xərac verək!” – dedilər. Dədə Qorqudu Təpəgözün yanına göndərdilər. Gəldi, salam verdi. Deyir: “Oğul, Təpəgöz, oğuz yurdu əlində əsir olub, viran qaldı. Sənin ayağına məni göndəriblər. Sənə vaxtaşırı pay verək, deyirlər”. Təpəgöz dedi: “Gündə altmış adam yığıb verin yeməyə!”. Dədə Qorqud deyir: “Bu hesabla sən adam qoymaz, hamını qırarsan. Amma gündə iki adamla beş yüz qoyun verə bilərik!”.

Dədə Qorqud belə deyəndə Təpəgöz deyir: “Yaxşı, elə olsun! Lakin mənə həm də iki adam verin, yeməyimi bişirsin, mən yeyim!”.

Dədə Qorqud döndü, oğuz yurduna gəldi. Dedi: “Bunlu qoca ilə Yapaqlı qocanı Təpəgözə verin, xörəyini bişirsin! Bir də gündə iki adamla beş yüz qoyun istəyir”. Camaat razılaşdı. Dörd oğlu olan birini verdi, üçü qaldı. Üç oğlu olan birini verdi, ikisi qaldı. İki oğlu olan birini verdi, biri qaldı.

Qapaqqan adlı bir kişi vardı. İki oğlu vardı. Bir oğlunu vermiş, biri qalmışdı. İndi növbə dolanıb ona çatmışdı. Anası fəryad edib zar-zar ağladı. Sən demə, xanım, Aruz oğlu Basat harasa döyüşə gedibmiş; bu zaman gəlib çıxdı. Oğlanın anası dedi: “Basat indi çapqınçılıqdan gəlib. Gedim, bəlkə mənə bir əsir verdi, oğulcuğazımı qurtara bildim”.

Basat qızıl naxışlı günlüyünü qurub oturmuşdu ki, gördülər bir qadın gəlir. İçəri, Basatın yanına gəldi, salam verdi, ağladı. Dedi:

Ovuclarına sığmır lələkli oxun,
Yekə təkə buynuzundan bərk yayın var.
İç Oğuzda, Daş Oğuzda bəllidir adın,
Aruz oğlu, igid Basat, kömək et mənə!

Basat deyir: “Nə istəyirsən?”. Qadın deyir: “Vəfasız dünyada bir kişi meydana çıxıb. Oğuz elini yaylağa köçməyə qoymadı. Böyük iti polad qılınclar bir tükünü kəsə bilmədi. Qarğı nizə oynadanlar dərisini dələ bilmədi. Qayın ağacından düzəlmiş oxları atanlar ona kar etmədilər. İgidlərin başçısı Qazana bir zərbə vurdu. Qardaşı Qaragünə onun əlində əzildi. Bığı qanlı Bügdüz Əmən onun əlində döyüldü. Ağ saqqallı atan Aruza qan qusdurdu. Meydanda qardaşın Qıyan Səlcikin ödü yarıldı, can verdi. Qalın Oğuz bəylərinin də kimini şikəst etdi, ki-

mini həlak elədi. Yeddi dəfə Oğuz elini yerindən qovdu. Xərac istədi, aldı. İndi gündə iki adam, beş yüz qoyun istəyir. Bunlu qoca ilə Yapaqlı qocanı ona xidmətçi veriblər. Dörd oğlu olan birini verdi. Üç olan birini verdi, iki olan birini verdi. İki oğlum vardı, birini verdim, bir qaldı. Növbə fırlanıb, mənə çatıb. Onu da istəyirlər. Xanım, mənə kömək et!"

Basatın qaranlıq çökmüş gözləri yaşla doldu. Qardaşından ötrü soylamış, görək, xanım, nə soylamışdır:

Qayalıq yerdə tikilmiş otaqlarını
O zalım yıxmışdır yəqin, qardaş!
İti qaçan atlarını tövlədən
O zalım seçmişdir yəqin, qardaş!
Təkhürküclü dəvələri qatarından
O zalım ayırmışdır yəqin, qardaş!
Şülənlərdə qırdırdığın qoyunları
O zalım qırmışdır yəqin, qardaş!
Fərəhlənib gətirdiyin gəlinini
O zalım səndən ayırmışdır yəqin, qardaş!
Ağ saqqallı atamı "Oğul" deyə ağlatdın yəqin, qardaş!
Ağca üzlü anamı sızlatdın, yəqin qardaş!
Qarşıdakı uca dağımın zirvəsi qardaş!
İti axan gözəl suyumun daşqını qardaş!
Güclü belimin qüvvəsi,
qaranlıq çökmüş gözlərimin işığı, qardaş!

"Qardaşımdan ayrıldım!" – deyə çox ağladı, zarıldadı. Basat həmin qadına bir əsir verdi. "Get, oğlunu xilas et!" dedi.

Qadın əsiri götürüb gəldi, oğlu yerinə verdi, həm də Aruzu "oğlun gəldi!" deyə muştuluqladı. Aruz sevindi. Qalın Oğuz bəyləri Basatı qarşıladılar. Basat atasının əlini öpdü. Ağlaşdılar, hönkürdülər. Anasının evinə gəldi. Anası oğlunu qarşılayıb qucaqladı. Basat anasının əlini öpdü. Görüşüb-ağlaşdılar. Oğuz bəyləri toplaşdı. Yemək-içmək məclisləri oldu. Basat dedi: "Bəylər, qardaşımın qanını almaq üçün Təpəgözlə qarşılaşmaq istəyirəm. Nə deyirsiz?"

Qazan bəy burada soylamış, görək, xanım, necə soylamışdır:

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim, yıxa bilmədim, Basat!

Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa bilmədim, Basat!
Quduz aslana döndü Təpəgöz,
Qalın qamışlıqda yıxa bilmədim, Basat!
İgid olsan, yaxşıdır,
amma mən Qazandan artıq olmazsan, Basat!
Ağ saqqallı atanı ağlatma!
Ağ birçəkli ananı zarıldatma!

Basat deyir: "Mütləq gedəcəyəm!" Qazan deyir: "Özün bilərsən". Atası ağlayıb deyir: "Oğul, ocağımı sahibsiz qoyma, rəhm elə, getmə!". Basat deyir: "Yox, ağ saqqallı əziz ata, gedirəm". Atasını eşitmədi, paltarının qolundan bir tutam ox çıxardı, qurşağına keçirdi. Qılıncını da qurşandı. Yayını qoluna saldı. Ətəklərini yığışdırdı. Atasının-anasının əlini öpdü, halallaşdı, "salamat qalın!" – dedi. Təpəgözün olduğu Salaxana qayasına gəldi. Gördü ki, Təpəgöz arxasını günə verib yatır. Öz belindən çəkib bir ox çıxardı. Təpəgözün çiyninə bir ox vurdu. Ox keçmədi, parçalandı. Bir də atdı. O da para-para oldu. Təpəgöz qocalara dedi: "Bu yerin milçəyi bizi dilxor etdi!". Basat bir də atdı. O da parçalandı, bir parçası Təpəgözün qabağına düşdü. Təpəgöz sıçradı, baxdı. Basatı gördü, əlini əlinə çalıb qah-qahla güldü. Qocalara dedi: "Oğuzlardan bizə yenə bir yeməli-yetişmiş quzu gəlib". Basatı qabağına qatıb tutdu. Boğazından yapışıb yatağına gətirdi. Çəkməsinin boğazına soxdu. Dedi: "Ay qocalar, günorta üstü bunu mənimçin şişkabab eləyin, yeyim". Yenə yuxuya getdi.

Basatın xəncəri vardı. Çəkmənin boğazını yarıb içindən çıxdı. Dedi: "Ay qocalar, bunun ölümü nədəndir?" Dedilər: "Bilmirik. Amma gözündən başqa ayrı yerdə ət yoxdur". Basat Təpəgözün başı ucuna gəldi. Göz qapağını qaldırdı. Baxdı gördü ki, gözü ətdəndir. Deyir: "Ay qocalar, süngünü ocağa qoyun, qızsın!". Süngünü ocağa saldılar, qızardı.

Basat əlinə aldı. Adı gözəl Məhəmmədə salavat çəkdi. Süngünü Təpəgözün gözünə elə basdı ki, gözü məhv oldu. Təpəgöz elə nərə çəkdi ki, elə hayqırdı ki, dağ-daş titrədi. Basat sıçradı. Mağaraya qoyunların içinə girdi. Təpəgöz bildi ki, Basat mağaradadır. Mağaranın qapısında durub bir ayağını qapının bir yanına, birini digər yanına qoydu. Dedi: "Ay qoyunların başçıları ərkəclər, bir-bir gəlin, keçin!". Bir-bir gəlib keçdilər. Hər birinin başını sığalladı. "Toğlucuqlar, var-

dövlətim qaşqa qoç, gəlin, keçin!” - dedi. Bir qoç yerindən qalxdı, buynuzlayıb irəli cumdu. Basat bir anda qoçu basıb kəsdi, dərisini çıxardı, quyruğu ilə başını dəridən ayırmadı; dərinin içinə girdi. Basat Təpəgözün önünə gəldi. Təpəgöz bildi ki, Basat dəri içindədir. Deyir: “Ay qaşqa qoç, mənim həlak olacağımı haradan bildin? Elə vurum səni mağara divarına ki, quyruğun mağaranı yağlasın!”. Basat qoçun başını Təpəgözün əlinə uzatdı. Təpəgöz qoçun buynuzundan bərk tutdu. Qaldıranda buynuzla dəri əlində qaldı. Basat Təpəgözün ayaqları arasından sıçrayıb çıxdı. Təpəgöz buynuzu götürüb yerə çırpdı. Dedi: “Oğlan, qurtuldunmu?” Basat deyir: “Tanrım qurtardı”. Təpəgöz deyir: “Ay oğlan, al bu barmağımdakı üzüyü barmağına tax, sənə ox və qılınc kar eyləməsin”.

Basat üzüyü alıb barmağına keçirdi. Təpəgöz deyir: “Oğlan, üzüyü alıb taxdınmı?”. Basat deyir: “Taxdım”. Təpəgöz Basatın üzərinə atılıb, xəncərlə vurub-kəsdi. Basat sıçrayıb kənarda durdu, gördü ki, üzük yenə Təpəgözün ayağı altına düşüb qalıb.

Təpəgöz deyir: “Qurtuldunmu?” Basat deyir: “Tanrım qurtardı”. Təpəgöz deyir: “Oğlan, o günbəzi görürsənmi?”. Deyir: “Görürəm”. Təpəgöz deyir: “Mənim xəzinəm var. Get möhürlə, o qocalar götürməsinlər!”. Basat günbəzin içinə girdi. Gördü ki, qızıl-gümüş yığılmışdır. Baxanda hər şeyi unutdu. Təpəgöz günbəzin qapısını tutdu. Dedi: “Günbəzə girdinmi?”. Basat deyir: “Girdim”. Təpəgöz deyir: “İndi elə vurum ki, günbəzlə bir yerdə darmadağın olasan”. Basat “lailahə illallah, Məhəmmədən-rəsulallah!” – dedi. Həmin anda günbəz yarıldı, yeddi yerdən qapı açıldı. Basat qapıların birindən çıxdı.

Təpəgöz əlini günbəzə soxdu. Elə vurdu ki, günbəz alt-üst oldu. Təpəgöz deyir: “Oğlan, qurtuldunmu?” Basat deyir: ”Tanrım qurtardı”. Təpəgöz deyir: “Sənə ölüm yoxmuş! O mağaranı görürsənmi? Basat deyir: “Görürəm!”. Deyir: “Orada iki qılınc var: biri qınlı, biri qınsız. Mənim başımı o qınsız qılınc kəsər. Get götür, mənim başımı kəs!”.

Basat mağara qapısına getdi. Gördü bir qınsız qılınc durmadan enir-qalxır. Basat fikirləşdi: “Bununla ehtiyatlı olmalıyam!”. Öz qılıncını çıxardı, qarşısına tutdu. Qılıncı iki para oldu. Getdi, bir ağac gətirdi, qılıncın qabağına tutdu. Onu da iki para eylədi. Sonra yayını əlinə aldı. Oxla o qılınc asılan zənciri vurdu. Qılınc yerə düşüb kömüldü. Öz qılıncını qınına qoydu. Həmin qılıncın dəstəyindən bərk tutdu. Gəlib dedi: “Ay Tə-

pəgöz, necəsən?" Təpəgöz dedi: "Ay oğlan, yenə ölmədinmi?". Basat deyir: "Tanrım qurtardı".Təpəgöz dedi: "sənə ölüm yoxmuş!".

Təpəgöz çağırıb soylamış, görək, nə soylayıb demişdir:

Gözüm, gözüm, yalnız gözüm!
Sən yalnız gözlə mən oğuz yurdunu əsir etdim!
Ala gözümdən ayırdın, igid, məni!
Şirin candan ayırsın Allah səni!
Belə ki mən çəkirəm göz dərdini,
Heç igidə verməsin Allah göz bu günü!

Təpəgöz yenə deyir:

Hardan gəldin sən igid, yerin nə yerdir?
Qaranlıq gecədə yol azsan, ümidin nəyədir?
Böyük bayraq götürən xanınız kimdir
döyüş günü öndə?
Ağ saqqallı atanın adı nədir?
İgid əgər igid ərdən ad gizlətsə, eyibdir.
Adın nədir, igid, söylə mənə!

Basat Təpəgözə soylamış, görək, xanım, nə soylamışdır:

Olduğum yer, yurdum mənim Günortacdır!
Qaranlıq gecədə yol azsam, ümidim Allahadır.
Böyük bayraq götürən xanımız Bayındır xan,
Döyüş günü öndə gedən qəhrəmanımız Salur Qazan.
Anamın adını soruşsan, – Qaba ağacdır!
Atamın adını soruşsan, – xaqan aslandır!
Mənim adımı soruşursan, – Aruz oğlu Basatdır!

Təpəgöz deyir:

"Süd qardaşıyıq, qıyma mənə!".

Basat deyir:

Ay əbləh, ağ saqqallı atamı ağladıbsan,
Ağ birçəkli qoca anamı inlədibsən.
Doğma qardaşım Qıyan Səlciki öldürmüşsən.

Ağca üzlü gəlinimizi dul etmişsən.
Ala gözlü uşaqlarını yetim qoymuşsan.
Böyük, iti polad qılıncımı çəkməyincə,
Qafalı-papaqlı başını kəsməyincə,
Al qanını yer üzünə tökməyincə,
Qardaşım Qıyanın qanını almayınca
qoyarammı sağ qalasan, -qoymaram!

Təpəgöz də burada soylayıb demişdir:

Deyirdim ki, qalxıb yerimdən durum,
Qalın Oğuz bəyləriylə əhdimi pozum,
Qollarında şahinləri öldürüm.
Bircə dəfə adam ətindən doyum.
Qalın Oğuz bəyləri üstümə gəlsə,
Deyirdim ki, qaçıb Salaxana qayasına girim.
Mancanaqla ağır daşlar atım, -deyirdim.
Göydən başıma düşən daşla ölüm, -deyirdim.
Ala gözdən məhrum etdin, igid, məni!
Şirin candan məhrum etsin Allah səni!

Təpəgöz bir daha soylayıb demişdir:

Ağ saqqallı qocaları çox ağlatmışam,
Ağ saqqalın qarğışımı tutdu ola, gözüm səni?
Ağ birçəkli qarıları çox ağlatmışam,
Anaların göz yaşımı tutdu ola, gözüm, səni?
Bığ yeri tərləmiş cavanları çox yemişəm,
Cavanlıqlarımı tutdu ola, gözüm, səni?
Əlləri xınalı qızcığazları çox yemişəm,
Ovucları-qarışları tutdu ola, gözüm, səni?
Belə ki mən çəkirəm gözümün göynəmini,
Heç kimə verməsin Allah göz yükü, göz qəmini!
Gözüm, gözüm, ay gözüm! Yalnız gözüm!

Basat hirsləndi, yerindən durub gəldi. Təpəgözü nər dəvə kimi dizi üstünə çökdürdü. Təpəgözün öz qılıncı ilə boynunu vurdu. Başını yayın kirişinə taxdı, sürüyə-sürüyə mağara qapısına gəldi.

Basat Bunlu qoca ilə Yapaqlı qocanı oğuz elinə muştuluqçu göndərdi. Onlar ağ-boz atlar minib çapdılar. Qalın Oğuz ellərinə xəbər çatdı.

At ağızlı Aruz qocanın evinə çapar gəldi. Ona Basatın sevinc xəbərini verdi: “Muştuluq! Oğlun Təpəgözü öldürdü!”.

Qalın Oğuz bəyləri yetişdilər. Salaxana qayasına gəldilər. Təpəgözün başını ortaya gətirdilər.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Mərd igidlərin başına nə gəldiyini dedi-danışdı. Eləcə də Basata xeyir-dua verdi:

Qara dağa yetəndə sən, keçid versin!

Aşqın-daşqın sular keçsən, keçid versin! İgidliklə qardaşının qanını aldın. Qalın oğuz bəylərini fəlakətdən qurtardın. Qadir Allah üzünü ağ etsin, Basat! -dedi.

Sizə də xeyir-dua verək, xanım:

Ölüm gəldikdə sizi pak imandan ayırmasın!
Günahınızı adı əziz Məhəmməd Mustafaya
bağışlasın, xanım, hey!

# BƏKİL OĞLU İMRAN BOYU

Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Yüksək evini qara yer üzərində ucaltmışdı. Hündür alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalçalar döşətdirmişdi. İç Oğuz və Daş Oğuz bəyləri toplaşmışdılar.

Doqquz tümənlik Gürcüstanın xəracı gəldi: bir at, bir qılınc və bir çomaq gətirdilər.

Bayındır xan bərk dilxor oldu. Dədəm Qorqud gəldi, şadlıq havası çaldı. "Xanım, niyə qanın qaralıb?" – dedi. Deyir: "Necə qaralmasın, hər il qızıl-gümüş gəlirdi, cavanlara-bəylərə verirdik, xatirləri şad olurdu. İndi bunları kimə verək ki, onunçun xoş olsun?".

Dədə Qorqud deyir: "Xanım, bunun üçünü də bir igidə verək, oğuz elinə qaravul çəksin!". Bayındır xan "Kimə verək?" – dedi, sağına-soluna baxdı. Heç kim razı olmadı. Bəkil deyilən bir igid vardı. Ona baxdı, dedi: "Sən nə deyirsən?" Bəkil razı oldu. Qalxdı, yeri öpdü. Dədəm Qorqud gətirilən qılıncı onun belinə bağladı. Çomağı çiyninə saldı, yayı qoluna keçirdi.

Bəkil şahanə ayğırı çəkdirib mindi. Qohum-əqrəbasını ayırdı, ev-eşiyini yığışdırdı, oğuz elindən köçdü. Bərdəyə, Gəncəyə gedib məskən saldı. Gedib doqquz tümənlik Gürcüstan sərhəddində çadır qurdu. Qaravulçuluq elədi. Buralara yad kafir gəlsə idi, başını oğuz elinə hədiyyə göndərərdi. İldə bir dəfə Bayındır xanın divanına gedirdi.

Bir dəfə yenə Bayındır xandan adam gəldi ki, tez gəl. Bəkil də gəldi. Hədiyyələrini yerə qoydu, Bayındır xanın əlini öpdü. Xan da Bəkili qonaq etdi. Yaxşı at, yaxşı qaftan, bolluca xərclik verdi. Üç gün tam əzizlədi, hörmət etdi. "Bəkili üç gün də ov əti ilə qonaq eləyək, bəylər!" – dedi.

Ova hazırlıq üçün car çəkildi. Elə ki, ov hazırlığı tamam oldu, kimi atını, kimi qılıncını, kimisi də yay çəkib ox atmağını təriflədi. Salur Qazan nə özünü, nə atını təriflədi. Amma bəylərin hünərindən danışdı.

Üç yüz altmış altı igid ova atlansa, keyik üzərinə yürüş olsa, Bəkil yay qurmaz, ox atmazdı. Elə yayı biləyindən çıxarıb, buğanın-sığının boynuna atardı, çəkib durğuzardı. Arıq olsa, qulağını dələrdi ki, ovda bəlli olsun. Amma kök olsa, boğazlayıb kəsərdi.

Bəylər, qulağı deşik keyik ovlayanda "bu, Bəkilin nişan etdiyidir", – deyə ona göndərirdilər.

Qazan bəy dedi: "Bu hünər atındır, ya igidindir?". Dedilər: "Xanım, igidindir!". Xan dedi: "Yox, at işləməsə, ər öyünməz. Hünər atındır". Bu söz Bəkilə xoş gəlmədi. Dedi: "İgidlər içində bizi bədnam edib, quşqunumuzadək palçığa batırdın". Bayındır xanın hədiyyəsini önünə qoydu; xandan küsdü, divandan çıxdı. Atını gətirdilər. Ala gözlü igidlərini də götürüb evinə gəldi. Oğlanları qarşısına gəldi, onları oxşamadı. Ağ üzlü xanımı ilə danışmadı. Qadın burada soylamış, görək, xanım, nə soylamışdır:

Qızıl taxtımın yiyəsi, igid bəyim!
Göz açaraq gördüyüm,
Könül verib sevdiyim,
Qalxaraq yerindən durub gəldin.
Ala gözlü igidlərini yanına saldın.
Arqubeldən, Ala dağdan gecə aşdın.
Coşğun axan gözəl sudan gecə keçdin.
Ağ alınlı Bayındır xanın divanına
gecə getdin, bəylər ilə yedin-içdin.
Hərə öz qohum-qardaşı ilə deyib-güldümü?
Qəriblikdə təklənmək xətrinə dəydimi?
Hanı, xanım, altında yaxşı atın yoxdur!
Alnını örtən qızıl işıqlı zirehin yoxdur!
Ala gözlü bəylərini oxşamırsan,
Ağca üzlü sevgilinlə danışmırsan,
halın niyə belədir?

Bəkil soylamış, görək, xanım, nə soylamışdır:

Qalxaraq yerimdən durub getdim,
Qarayallı gözəl Qazlıq atı mindim.
Arqubeldən, Ala dağdan gecə keçdim.
Coşğun axan gözəl sudan ötüb-keçdim.
Ağ alınlı Bayındırın divanına çapar yetdim.
Ala gözlü bəylərlə yedim-içdim.
Hər kəsi öz qohum-qardaşıyla mehriban gördüm.
Bizdən tamam üz döndəribdir xan, gördüm.
Elimi-günümü köçürüb gəlin,
Doqquz tümənlik Gürcüstana gedək,
Oğuz elindən üz döndərdim, qəti bilin!

Arvadı deyir: “İgidim, bəy igidim! Padşahlar Allahın kölgəsidir. Padşahına ağ olanın işi düz gətirməz. Təmiz ürəkdə pas olsa, şərab açar. Sən gedəli, xanım, çılpaq qalan uca dağların ovlanmayıbdır. Ova atlan çıx, könlün açılsın!”

Bəkil gördü ki, arvadın ağlı-başı yaxşıdır. Qazlıq atını çəkdirib mindi. Ova getdi.

Ov ovlayıb gəzərkən qabağına bir yaralı keyik çıxdı. Bəkil onun üstünə at saldı. Buğanın arxasından yetişdi. Yay kirişini boynuna atdı. Buğa acıqlanmışdı. Özünü uca bir yerdən atdı. Bəkil atın cilovunu saxlaya bilməyib, keyiklə bərabər uçundu. Sağ oyluğu qayaya toxunub sındı. Bəkil ayağa durub ağladı. Dedi: “Böyük oğlum, böyük qardaşım da yoxdur!..” Sonra paltarının qolundan bez çıxarıb, atının tərkindəki qayışları dartıb qırdı. Qaftanının altından ayağını ata bərk sarıdı. Var qüvvəsi ilə atının yalına sərildi. Ovçulardan ayrı düşmüş Bəkilin sinə-bağısı sürüşüb boğazına keçdi. Yaşadığı sahəyə yaxınlaşdı. Oğlu İmran pəhləvan atasının qarşısına gəldi. Gördü bənizi saralmışdır, sinə-bağı boğazına keçmişdir. Oğlan burada Bəkilin yoldaşlarını soruşub soylamış, görək, xanım, nə soylamışdır:

Qalxaraq yerindən durub gəldin,
Qara yallı gözəl Qazlıq atını mindin.
Yalçın uca dağlar ətəyinə ova getdin.
Qara donlu kafirlərlə rastlaşdınmı?
Ala gözlü igidlərini qırdırdınmı?
Öz dilinlə bir neçə söz söylə mənə!
Qara başım qurban olsun, ağam, sənə!

Bəkil oğluna soylamış, görək, xanım, nə soylamış, demişdir:

Oğul, ay oğul!
Qalxıb yerimdən durdum, gəldim.
Uca dağların döşünə ova çıxdım.
Qara donlu kafirlərə uğramadım.
Ala gözlü igidlərimi qırdırmadım.
Sağ-salamatdır, igidlərim, qəmlənmə!
Üç gündür ki, əhvalım yox, xəstəyəm!
Oğul, at üzərindən götür məni, yatağa sal! dedi.

Aslan balası yenə aslandır. Atasını atın üstündən qamarlayıb tutdu, yatağına gətirdi; cübbəsini üzərinə atdı. Qapını örtdü.

Bu yandan igid bəylər gördülər ki, ov pozulmuşdur; hər biri öz evinə gəldi.

Bəkil beş gün öz divanına çıxmadı. Ayağının sındığını kimsəyə demədi. Bir gecə döşək üstündə bərk-bərk inlədi, ah-vay etdi. Arvadı dedi: "İgid bəyim, sürü ilə düşmən gəlsəydi qorxmazdın. Atına iti ox dəysəydi, əyilməzdin. Adam öz qucağında yatan arvadına da sirrini deməzmi? Sənə nə olub? Bəkil dedi: "Gözəlim, atdan düşdüm, ayağım sındı".

Arvad əlini əlinə vurub qaravaşa xəbər verdi. Qaravaş da çıxıb qapıçıya söylədi. Otuz iki dişdən çıxan söz bütün camaat arasında yayıldı: "Bəkil atdan yıxılıb, ayağı sınıbdır..."

Deyilənə görə, kafirin casusu vardı. Bu xəbəri eşidib getdi, təkurə xəbər verdi. Təkur deyir: "Qalxıb yerinizdən durun, yatan yerdə Bəkil bəyi tutun! Ağ əllərini qollarından bağlayın. Gecikmədən gözəl başını kəsin. Al qanını yer üzünə tökün. Elini-yurdunu çapıb talayın. Qız-gəlinini əsir edin!".

Bəkilin də orada casusu vardı. Bəkilə xəbər göndərdi. Dedi: "Başınıza çarə eyləyin, üstünüzə düşmən gəlir". Bəkil yuxarı baxdı; "Göy uzaq, yer də bərk!" deyə düşündü. Oğlunu yanına çağırıb soylamış, görək, xanım, nə soylayıb, demişdir:

Oğul, oğul, ay oğul!
Qaranlıq çökmüş gözümün işığı oğul!
Güclü belimin qüvvəsi oğul!
Gör axırda nələr oldu,
Mənim başıma nələr gəldi.
Oğul, qalxaraq yerimdən durub getdim,
Boynu sınsın, o gözəl Al ayğırı mindim,
Ov ovlayıb quş vurarkən yoruldu,
sürüşərək məni yerə vurdu.
Sağ oyluğum sındı.
Gör, bəlalı başıma nələr gəldi.
Uca dağlardan xəbər aşmışdır,
Aşqın-daşqın sulardan xəbər keçmişdir.
Dəmir Qapı Dərbənddən xəbər getmişdir.

Alca atlı Şöklü Məlik bərk pusqu qurmuşdur.
Pusduğu vaxtdan uca dağlara duman düşmüşdür.
“Yatdığı yerdə Bəkil bəyi tutun!” – demişdir,
“Ağ əllərini qollarından bağlayın!” – demişdir.
“Qan töküb yerini-yurdunu çapın!” – demişdir.
“Ağ üzlü qız-gəlinin əsir tutun!” – demişdir.
Oğul, qalxaraq yerindən dur gəl!
Qarayallı gözəl Qazlıq atını min!
Yalçın qayalı Ala dağı gecəylə aşıb,
Ağ alınlı Bayındır xanın divanına get!
Ədəb-ərkanla Bayındır xana salam ver!
Bəylər bəyi olan Qazanın əlin öp!
“Ağ saqqallı atam xəstədir”, söylə,
Qazan bəy mütləq mənə yetişsin, söylə!
Gəlməsən, yurdumuz talandı, söylə!
Qız-gəlinim əsir getdi özgə elə!

Bu yerdə oğlan atasına soylamış, görək, xanım, nə soylamış-demişdir:

Ata, nə söyləyir, nə danışırsan?
Ürəyimi, bağrımı nə dağlayırsan?
Qalxaraq öz yerimdən çox durmuşam,
Qarayallı Qazlıq atıma çox minmişəm.
Arqubeli, Ala dağı ov xətrinə aşmamışam.
Ağ alınlı Bayındırın divanına getməmişəm.
Qazan kimdir? Mən onun əlini öpməmişəm.
Altındakı Al ayğırını mənə ver,
Elə çapım, bassın onu qoy qan-tər!
Əynindəki dəmir donunu mənə ver,
Qolçaq, yaxa tikdirim mən səninçin!
Böyük, iti polad qılıncı mənə ver,
Bircə anda başlar kəsim səninçin!
Qarğı budağından olan süngünü ver mənə,
Sancım onu mən səninçin düşmən köksünə!
Ağ lələkli iti oxunu ver mənə,
Atıb sancım istədiyin düşmənə!
Ala gözlü üç yüz igid qoş mənə,
Bu döyüşü həsr eləyim Məhəmmədin dininə!

Bəkil deyir: “Ölüm ağzın üçün, oğul! Bəlkə də mənim keçmiş günlərimi xatırlatmayacaqsan...Aya, geyimimi gətirin, oğlum geysin! Al ayğırımı gətirin, oğlum minsin! El vahiməyə düşməmiş oğlum gedib döyüş meydanına girsin!”.

Oğlanı geyindirib-kecindirdilər. Gəlib ata-anası ilə görüşdü. Əllərini öpdü. Üç yüz igidi yanına salıb, döyüş meydanına getdi.

Al ayğır düşmən qoxusu hiss edəndə ayağını yerə döyərdi, tozu göyə çıxardı.

Kafirlər dedi: “Bu at Bəkilindir, biz qaçırıq”. Təkur dedi: “Ədə, yaxşı baxın. Bu gələn Bəkilsə, sizdən əvvəl mən qaçıram”.

Gözətçi gözlədi. Gördü ki, at Bəkilindir, ancaq Bəkil üzərində deyil. Atın belindəki quş kimi bir oğlandır. Gəlib təkura xəbər verdi. Deyir: “At, yaraq və işıqlı zireh Bəkilindir, Bəkil içində deyil!”. Təkur deyir: “Yüz adam seçin, gurultu qoparıb hay-küy salın, oğlanı qorxudun. Oğlan quş ürəkli olar, meydanı qoyub qaçacaq”.

Yüz kafir seçilib oğlanın üzərinə gəldi. Kafir oğlana soylamış, görək, xanım, nə soylamışdır:

Oğlan, oğlan, ay oğlan,
haramzada oğlan!
Altında Al ayğırı arıq oğlan.
Böyük, iti polad qılıncı gödək oğlan!
Əlindəki süngüsü sınıq oğlan!
Dəstəyi ağ tozlu yayı nazik oğlan!
Biləyində doxsan oxu seyrək oğlan!
Yanındakı yoldaşları çılpaq oğlan!
Qaranlıq çökmüş gözləri çökük oğlan!
Şöklü Məlik səni möhkəm pusmuş,
Meydandakı o oğlanı tutun, demiş,
Əllərini-qollarını bağlayın, demiş,
Bircə anda gözəl başın kəsin, demiş.
Al qanını üzünə axıdın, demiş...
Ağ saqqallı atan varsa, ağlatma!
Ağ birçəkli anan varsa, inlətmə!
Yalqız igid alp olmaz,
Yovşan dibi bərk olmaz.
Əcəli çatmış əbləh oğlu əbləh,
Qayıdıb, dön burdan geri!

Oğlan da burada soylamış, görək, nə soylayıb, demişdir:

Ey itim kafir, hərzə-hərzə danışma!
Altımda Al ayğırımı nə bəyənmirsən?
səni görüb oynayır.
Əynimdəki dəmir donum çiynimi qısır.
Böyük iti polad qılıncım qınını doğrayır.
Qarğı budağından süngümü nə bəyənmirsən?
Köksünü dələrək göyə fırladar.
Dəstəyi ağ tozlu bərk yayım zar-zar inləyir,
Oxlarım öz qabının kişini dəlir.
Yanımda igidlərim döyüş istəyir.
İgid adama hədə-qorxu gəlmək eyibdir.
Ay kafir, bəri gəl, döyüşək!

Kafir deyir: "Oğuzun arsızı türkmanın dəlisinə bənzəyir, buna bax a!..." Təkur deyir: "Gedin soruşun, oğlan Bəkilin nəyidir?". Kafir gəlib oğlana soylamış, görək, necə soylamışdır:

Bilirik ki, altındakı Al ayğır Bəkilindir,
Bəkil hanı?
Böyük, iti polad qılıncın Bəkilindir,
Bəkil hanı?
Əynindəki dəmir donun Bəkilindir,
Bəkil hanı?
Yanındakı igidlərin Bəkilindir,
Bəkil hanı?
Əgər Bəkil burdadırsa,
gecəyədək biz vuruşaq,
Dəstəyi ağ tozlu olan
bərk yaylar dartışdıraq.
Ağ lələkli kəskin, iti
oxlarla biz atışaq.
Sən Bəkilin, de, nəyisən,
tez ol, söylə bizə, oğlan!

Bəkilin oğlu burada soylamış, görək, xanım, nə soylamış, demişdir: "Ay kafir, sən məni tanımırsanmı? Ağ alınlı Bayındır xanın bəy-

lərbəyisi Salur Qazan, onun qardaşı Qaragünə çaparaq yetişdi. Dönəbilməz Tülək Vuran, Dözən oğlu Alp Rüstəm, Boz atlı Beyrək bəy Bəkilin evində yeyib-içirdilər; casus səndən xəbər gətirdi. Altındakı Al ayğıra Bəkil məni mindirdi. Böyük iti polad qılıncını qüvvət üçün verdi: qarğı budağından olan süngüsünü qeyrət üçün verdi; üç yüz igidini mənə yoldaş kimi qoşdu. Mən Bəkilin oğluyam, ay kafir! Bəri gəl, döyüşək!".

Kafir təkur deyir: "Hələ bir döz, əbləh oğlu, mən sənə gəlim çatım!" Altı pərli gürzünü ələ alıb, atını oğlanın üzərinə sürdü. Oğlan qalxanını gürzün qabağına tutdu. Kafir yuxarıdan aşağıya doğru oğlanı bərk vurdu: qalxanını ovdu, dəbilqəsini əzdi, üz-gözünü sıyırdı, ancaq oğlanı məğlub edə bilmədi. Gürzlə döyüşdülər, iti polad qılıncla vuruşdular, atıla-atıla meydanda qılınclaşdılar; çiyinləri doğrandı, qılıncları ovulub töküldü, bir-birinə üstün gələ bilmədilər. Qarğı budağından olan süngülərlə çarpışdılar, meydanda buynuzlarını bir-birinə sancmaq istəyən buğalar kimi döş-döşə gəldilər; süngüləri sındı, bir-birini təslim edə bilmədilər. At üzərindən bir-birilə qapışıb-dartışdılar. Kafirin gücü çox idi, oğlan əldən düşdü. Allah taalaya yalvarıb soylamış, görək, necə soylamışdır:

Ucalardan ucasan, uca Tanrı!
Kimsə bilməz necəsən, gözəl Tanrı!
Sən Adəmə tac verdin,
Şeytana lənət etdin.
Bir günahdan ötrü qapından qovdun.
İbrahimi tutdurdun.
Xam genə bürüdün.
Götürüb oda atdırdın.
Odu gülşənə döndərdin
Birliyinə sığındım, əziz Allah,
mənə kömək et!

Kafir dedi: "Oğlan, məğlub olanda Allahınamı yalvarırsan? Sənin bir allahın varsa, mənim yetmiş iki bütxanəm var!" Oğlan deyir: "Ey lənətə gəlmiş azğın, sən bütlərinə yalvarırsan, mən varlıqları yoxdan var edən Allahıma sığınıram".

Allah taala Cəbrayıla əmr etdi ki:"Ey Cəbrayıl, get, o quluma qırx kişi qüvvəsi verdim".

Oğlan kafiri götürüb yerə vurdu. Burnundan qanı düdük kimi şoruldadı. İmran sıçrayıb kafirin boğazını şahin kimi ələ keçirdi.

Kafir deyir: "İgid, aman ver, sizin dininiz hansıdır? Qəbul edirəm". Barmaq qaldırıb şəhadətini söylədi, müsəlman oldu. Qalan kafirlər bunu bildilər, meydanı qoyub qaçdılar.

İmranın yoldaşları kafirin yurd-yuvasını dağıtdılar, qızını-gəlinini əsir etdilər.

Oğlan öz atasına muştuluqçu göndərdi ki, döyüşdə qalib çıxdım. Ağ saqqallı atası onu qarşılayıb, boynunu qucaqladı.Dönüb evlərinə gəldilər. Atası uca dağda oğlan üçün yaylaq ayırdı. İti gedən Qaracıq atlar üçün tövlə ayırdı. Ağ üzlü oğluna şülənlik üçün ağca qoyunlar ayırdı. Ala gözlü oğluna al örtüklü gəlin aldı.Ağ alınlı Bayındır xan üçün pay ayırdı; oğlunu götürüb, onun divanına getdi. Əlini öpdü.

Padşah Qazan oğlu Uruzun sağ yanında ona yer göstərdi. Gözəl naxışlı cübbə-çuxa geyindirdi.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Bu oğuznaməni düzdüqoşdu. "Bəkil oğlu İmranın olsun!" – dedi. İgidlərin başına nə gəldiyini söylədi. Xeyir-dua verək, xanım!

Yerli uca dağların yıxılmasın!
Kölgəlik iri ağacın kəsilməsin!
Allah verən ümidin üzülməsin!
Günahınızı adı gözəl Məhəmmədə
bağışlasın Allah, xanım, hey!

# UŞUN QOCA OĞLU SƏYRƏK BOYU

Oğuzların zamanında Uşun qoca deyilən bir kişi vardı. Övladdan iki oğlu vardı. Böyük oğlunun adı Əyrək idi. Pəhləvan, cəsur yaxşı bir igid idi. Haçan istəsə, Bayındır xanın divanına gedib-gəlirdi. Bəylər-bəyi olan Qazanın divanında onun üçün qapı-baca yox idi. Bəyləri aşağı başda qoyub, Qazanın lap önündə otururdu. Heç kimə qaynayıb-qarışmırdı.

Xanım, yenə bir gün Əyrək bəyləri qoyub yuxarı başa keçəndə Tərsuzamış deyilən bir oğuz igidi dedi: "Ay Uşun qocanın oğlu, bu oturan bəylər hər biri oturduğu yeri qılıncı ilə, çörəyi ilə alıbdır. Əyə, sən başmı kəsdin, qanmı tökdün, acmı doyuzdurdun, yalın adammı geyindirdin?".

Əyrək deyir: "Ay Tərsuzamış, baş kəsib-qan tökmək hünərdirmi?". Dedi: "Bəli, əlbəttə, hünərdir!". Tərsuzamışın sözü Əyrəyə təsir elədi. Durdu Qazan bəydən yürüş üçün icazə istədi. İzn verildi. Çağırdılar, döyüşçülər yığıldı. Üç yüz nizəli seçmə igid Əyrəyin yanında cəmləşdi. Meyxanada beş gün yemək-içmək oldu. Ondan sonra Şirokuz kənarından Göycə dənizədək sahəni çalıb-taladılar. Böyük qənimət əldə etdilər. Əyrəyin yolu Əlincə qalasına düşdü. Qara təkur orada bir qoruq düzəltdirmişdi. Quşlardan bu dairəyə qaz, toyuq; heyvanlardan keyik, dovşan doldurub, buranı oğuz igidləri üçün tələ etmişdi.

Uşun qoca oğlunun da yolu bu qoruğa düşdü. Qoruğun qapısını sındırdılar. Sığın-keyik, qaz-toyuq qırdılar; yedilər-içdilər. Atlarının yəhərlərini götürdülər, öz geyimlərini çıxardılar.

Qara təkurun casusu vardı, bunları gördü. Gəlib deyir: "Aya, oğuzlardan bir bölük atlı gəldi. Qoruğun qapısını sındırdılar, atlarının yəhərini götürüb, geyimlərini çıxartdılar. Ədə, nə durursuz?"

Altı yüz qara donlu kafir bunların üzərinə hücum etdi. İgidləri qırdılar, Əyrəyi tutdular. Əlincə qalasında zindana saldılar.

Uca-uca dağlardan, aşqın-daşqın sulardan xəbər keçdi. Qalın Oğuz ellərinə xəbər çatdı. Uşun qocanın hündür evi önündə şivən qopdu. Qaza bənzər qızı-gəlini ağ çıxarıb qara geydi. Uşun qoca Əyrəyin ağca üzlü anası ilə "Oğul, oğul!" – deyə hönkürtü ilə ağlaşdılar.

Yiyəsi olan böyüyür, qabırğalı boy atır. Deyilənə görə, xanım, Uşun qocanın kiçik oğlu Səyrək yaxşı, pəhləvan cüssəli cəsur bir igid

oldu. Bir gün yolu bir yığıncağa düşdü, oturdular. Yeyib-içdilər. Səyrək sərxoş oldu. Bayıra – ayaq yoluna çıxdı. Gördü ki, yetim bir oğlan bir qızla dalaşır. "Əyə, sizə nə olub?" – deyə bir şillə birinə, bir şillə də o birinə vurdu. Köhnə donun biti, yetim oğlanın dili acı olar. Yetim dedi: "Ə, bizim yetimliyimiz bəs deyil? Bizi niyə vurursan? Hünərin varsa, qardaşın Əlincə qalasında əsirdir, get onu xilas elə!".

Səyrək dedi: "Ədə, qardaşımın adı nədir?". Dedi: "Əyrəkdir". Səyrək öz-özünə dedi: "Əyrəyə Səyrək yaraşır; qardaşım sağmış, daha fikir eləmərəm. Qardaşsız oğuz elində durmaram. Qaranlıq çökmüş gözlərimin işığı qardaş!" – deyib ağladı. İçəriyə – məclisə gəldi. Oturanlardan icazə istədi. "Bəylər, salamat qalın!" – dedi. Atını gətirdilər, mindi; çapıb atasının evinə gəldi. Atından düşdü. Anasının dilini arayıb, bir söz eşitmək istədi. Səyrək burada görək nə soylamış, nə soylayıb demişdir:

Qalxaraq, ay ana, yerimdən durub
Qarayallı gözəl Qazlıq atımı mindim.
Çarpaz yatan Ala dağın
ətəyinə getdim.
Qalın Oğuz elində bir məclis varmış,
ora düşdüm.
Yemək-içmək vaxtı ağ-boz atlı
bir çapar gəldi.
Dedi, "Əyrək" adlı bir igid çoxdan əsir idi,
Allahın köməyilə dustaqlıqdan çıxıb gəlib.
Böyük-kiçik qalmayıb;
hamı getdi o igidin qarşısına.
Ana, mən də gedimmi, nə deyirsən?

Anası burada soylamış, görək, xanım, nə soylamışdır:

Ağzın üçün ölüm, oğul!
Dilin üçün ölüm, oğul!
Qarşıdakı uca dağın yıxılmışdı,
ucaldı axır!
Coşğun axan gözəl suyun qurumuşdu,
çağladı axır!
İri ağacda qol-budağın qurumuşdu,
cücərib göyərdi axır!

Qalın Oğuz bəyləri ilə sən də get, oğul!
O igidə çatan kimi ağ atından en, oğul!
Əllə görüş, o igidə salam ver,
Əlini öpüb, boynunu da qucaqla!
Uca dağımın başısan, söylə!
Nə durmusan, oğul, atını çap, get!

Oğlan anasına soylamış, görək, nə soylayıb demişdir:

Ana, ağzın qurusun!
Ana, dilin çürüsün!
Mənim öz qardaşım varmış,
yolumdan qayıtmaram!
Oğuz elində qardaşsız durmaram!
Ana haqqı Tanrı haqqı olmasaydı,
Böyük iti polad qılıncımı götürərdim,
Bircə anda gözəl başını kəsərdim,
Ağ qanını yer üzünə tökərdim,
ana, zalım ana!

Atası deyir: "Yanlış xəbərdir, oğul. Qaçıb gələn sənin böyük qardaşın deyil, ayrısıdır. Mənim kimi ağ saqqallı atanı ağlatma! Qocalmış ananı inlətmə!" Oğlan burada soylayıb demişdir:

Üç yüz altmış altı igid ova çıxsa,
Keyik sürüsü üstündə hay-küy qalxsa,
Qardaşlı igidlər inamla qalxıb vurur.
Qardaşsızın ənsəsinə yumruq vursalar,
Ağladıqca dörd yanına baxıb durur,
Gözlərindən dayanmadan acı yaşlar axıdır.
Ala gözlü oğlunuzla görüşənədək
Bəy baba, xanım ana, salamat qalın!

Ata-ana "yanlış xəbərdir, getmə, oğul!" – dedilər. Oğlan: "Məni yolumdan eləməyin. Qardaşım tutulan qalaya getməyincə, onun ölü ya diri olduğunu bilməyincə, ölübsə, qanını almayınca Qalın Oğuz elinə qayıtmaram!" – dedi.

Ata-ana ağlaşıb Qazan üçün adam saldılar. "Oğlan qardaşını yada salıb gedir. Bizə nə məsləhət verirsən?" – dedilər. Qazan deyir: "Ayağına ət tuşağı vurun!".

Nişanlısı vardı, tez yır-yığış edib, Səyrəyi evləndirdilər. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdilər. Oğlanı gəlin otağına saldılar. Qızla yorğan-döşəyə girəndə oğlan qılıncını çıxardı, qızla özü arasında qoydu. Qız dedi: "Qılıncını qınına qoy, igid, murad ver, murad al, bir-birimizə sarılaq!". Oğlan dedi: "Ay yaramaz qızı, qardaşımın üzünü görməyincə, ölmüşsə, qanını almayınca muradıma çatsam, qoy qılıncımla doğranım, oxuma sancılım, oğlum doğulmasın, doğularsa on yaşına çatmasın!". Dedi və ayağa durdu, tövlədən bir şahanə at çıxardı, yəhərlədi, döyüş paltarını geyindi. Dizlərinə, qollarına zireh qapaqlar bağladı. Dedi: "Qız, sən mənim üçün bir il yola bax! Bir ildə gəlməsəm, iki il bax! İki ildə gəlməsəm, üç il bax! Gəlməsəm, o vaxt bil ki, ölmüşəm. Ayğır atımı kəsdirib, ehsanımı ver! Gözün kimi tutarsa, könlün kimi sevərsə, ona get!". Qız burada soylamış, görək, xanım, nə soylamışdır:

İgidim, mən səni bir il gözlərəm,
Bir ilə gəlməsən, iki il gözlərəm.
İki ilə gəlməsən, üç-dörd il gözlərəm.
Dörd il yox, beş-altı il gözlərəm.
Altı yolun ayrıcında çadır quraram,
Gedəndən-gələndən xəbər soruşaram.
Xeyir xəbər gətirənə at, don verərəm,
qaftanlar geydirərəm.
Şər xəbər gətirənin başını kəsərəm.
Erkək bir milçək də sinəmə qondurmaram.
Murad verib, murad al, sonra get, igidim!

Oğlan deyir: "Ay yaramaz qızı, qardaşımın başına and içmişəm, dediyimdən dönmərəm!".

Qız öz-özünə deyir: "Mənə qədəmi uğursuz gəlin deyincə, utanmaz-arsız gəlin desinlər. Qayınatama, qayınanama xəbər verim gərək". Soylamış, görək nə demişdir:

Atamdan yaxşı qayınata!
Anamdan yaxşı qayınana!
Qaytabanın buğrası ürküb gedir,
Sarvan önünü aldı, döndərə bilmir,
Qaracıq ayğırın ürküb gedir,

İlxıçı önünü aldı, döndərə bilmir.
Yaylağın qoçları ürküb gedir,
Çoban önünü aldı, döndərə bilmir.
Ala gözlü oğlun qardaşını anıb gedir,
Ağca üzlü gəlinin döndərə bilmir,
sizə məlum olsun!

Ata-ana ah etdilər, yerlərindən qalxdılar. "Oğul, getmə!" – dedilər. Gördülər, çarə olmadı. Oğlan "Qardaşım tutulan o qalaya getməyə bilmərəm!" – dedi. Ata-anası: "Get, oğul. Yolun uğurlu olsun! Gedib-qayıtmaq qismətində varsa, sağ salamat gedib gələsən!" -dedilər.

Əyrək ata-anasının əlini öpdü. Sıçrayıb Qaracıq atına mindi. Gecəni gündüzə qatıb atını çapdı. Üç gün gecəli-gündüzlü at çapdı. Dərəşam sərhədindən keçib, o qardaşının tutulduğu qoruğa gəldi. Gördü ki, ilxıçı kafirlər day güdürlər. Qılınc çəkib altı kafiri yerə sərdi. Atla fırlanıb dayları ürkütdü; qovub həmin qoruğa saldı. Üç gün gecə-gündüz at çapmış yorğun igidin gözlərini yuxu basdı. Səyrək atının yüyənini biləyinə bağladı, yatıb yuxuya getdi.

Kafirin casusu vardı. Gəlib təkura dedi: "Oğuzdan bir dəli igid gəldi. İlxıçıları öldürdü, dayları ürkütdü-qovdu, gətirib qoruğa saldı".

Təkur deyir: "Altmış yaraqlı adam seçin; getsinlər, tutub gətirsinlər".

Altmış yaraqlı adam seçib getdilər. Gözlənilmədən altmış dəmir donlu kafir oğlanın üzərinə gəldi. Səyrəyin mindiyi ayğır yaxşı atlardandı; at qulağı tez eşidər. Atların kişnərtisini, geyim-kecimlərin qıcıltısını eşidən ayğır çəkib oğlanı oyatdı. Oğlan gördü ki, bir alay atlı gəlir, yerindən sıçradı. Adı gözəl Məhəmmədə salavat çəkdi. Atına mindi. Qaradonlu kafirləri qılınclayıb, qalaya saldı. Yenə yuxusundan əl çəkə bilməyib yerinə getdi, yatdı. Yenə atının yüyənini biləyinə keçirtdi.

Kafirlərin sağ qalanları qaçaraq təkurun yanına gəldilər. Təkur deyir: "Tfu, üzünüzə! Altmış adam bir oğlanı tuta bilmədiniz!". Bu dəfə oğlanın üzərinə yüz kafir gəldi. Ayğır yenə oğlanı oyatdı. Səyrək gördü ki, bir alay atlı gəlir. Durdu, atına mindi. Adı gözəl Məhəmmədə salavat çəkdi. Kafirləri qılıncdan keçirib qalaya basdı; atını döndərib, yenə öz yerinə gəldi. Yuxusu gəldi, yenə yatdı. Atının yüyənini yenə biləyinə keçirdi. Bu dəfə at oğlanın qolundan açılıb qaçdı...

Kafirlər yenə təkurun yanına gəldilər. Təkur deyir: "Bu dəfə üç yüz adamla gedin!".

Kafirlər dedi: "Getmirik, kökümüzü kəsib, hamımızı qırar!". Təkur deyir: "Bəs necə eləyək? Gedin o dustaq igidi çıxarıb gətirin. "Təpəyənin köpünü süsəyən yatırar". At verin, geyindirin!".

Gəldilər, Əyrəyə dedilər: "İgid, təkur sənin gücünə-qeyrətinə sığındı. Burada bir dəli igid yolçunun-dilənçinin, çoban-çoluğun çörəyini əlindən alır. Tut o igidi öldür, səni azad eləyək, çıx get!". Əyrək "Yaxşı, olsun!" – dedi.

Əyrəyi zindandan çıxardılar. Saç-saqqalını ülgüclədilər. Bir at, bir qılınc verdilər. Üç yüz kafiri də ona yoldaş kimi qoşdular. Səyrəyin üzərinə gəldilər. Üç yüz kafir kənarda durdu.

Əyrək deyir: "Hanı o dəli igid?". Uzaqdan göstərdilər. Əyrək deyir: "Gəlin gedək, tutaq!". Kafirlər deyir: "Təkur sənə əmr eləyib, sən get!". Əyrək deyir: "Odur, yatır, gəlin gedək!". Kafirlər deyir: "Hay-hay, nə yatmaq, qoltuğunun altından baxır. Qalxar, gen dünyanı başımıza daraldar". Əyrək dedi: "İndi mən gedim, əl-ayağını bağlayım, ondan sonra siz gələrsiz". Sıçrayıb kafirlərin arasından çıxdı. Atını sürüb, Səyrəyin üzərinə gəldi. Atından düşüb, yüyəni bir budağa ilişdirdi. Baxdı gördü ki, bu cavan on dörd gecəlik aya bənzəyir. Bu gözəl, ala gözlü gənc igid puçur-puçur tərləyib yatır. Gələndən-gedəndən xəbəri yoxdur. Əyrək dolanıb, cavanın başı ucuna gəldi. Gördü ki, belində qopuzu var. Çıxarıb əlinə aldı. Soylamış, görək, xanım, nə soylamış-demişdir:

Qalxaraq yerindən duran igid,
Qarayallı gözəl Qazlıq atı minən,
Arqubeli, Ala dağı gecə aşan,
Coşqun axan gözəl suyu üzüb keçən,
Qəribliyə gələn belə yatarmı?
Mənim kimi qollarını, əllərini
bağladaraq donuz damında yatarmı?
Ağ saqqallı atasını, ağ birçəkli anasını
inlədərmi, ağladarmı?
Niyə yatırsan, igid?
Qafil olma, gözəl başını qaldır, igid!
Ala gözlərini aç, igid!

Allah verən şirin canını yuxu almış,
İgid, əllərini qollarından bağlatma!
Ağ saqqallı atanı, qarı ananı ağlatma!
Qalın Oğuzdan gələn igid, necə igidsən?
Səni yaradan haqqı üçün durub gəl!
Dörd yanını kafir tutubdur bil!

Oğlan gərnəşib ayağa durdu. Qılıncının dəstəyindən yapışdı ki, onu vura, gördü ki, onun əlində qopuz vardır. Dedi: "Ay kafir, Dədəm Qorqudun qopuzuna hörmət edib vurmadım. Əgər əlində qopuz olmasaydı, qardaşımın başına and olsun, səni iki para edərdim. Səyrək burada çəkib qopuzu onun əlindən aldı, soyladı, görək, xanım, nə soyladı:

Sübh tezdən yerimdən durmağım qardaş üçündür,
Ağ-boz atları yormağım qardaş üçündür.
Qalanızda dustaq varmı, kafir, de mənə?!
Dərdli başım qurban olsun, kafir sənə!

Böyük qardaşı Əyrək burada soylamış, görək, xanım, nə soylamışdır:

Ağzın üçün ölüm, qardaş!
Dilin üçün ölüm, qardaş!
Yerini-yurdunu soruşsam, nə yerdir?
Qaranlıqda azıb, yol arasan,
ümidin nəyədir?
Böyük bayraq götürən xanınız kimdir?
Döyüş günü öndə duran igidiniz kimdir?
İgid, sənin atan kimdir?
İgid adamın igiddən ad gizlətməsi eyibdir,
igid, söylə, adın nədir?

Bir daha soylayıb demişdir:

Qaytabanımı güdən sarvanımsanmı?
Qaracıq atımı güdən ilxıçımsanmı?
Yaylağımı güdən çobanımsanmı?
Qulluğumda dayanan naibimsənmi?
Beşikdə qoyub getdiyim qardaşımsanmı?
İgid, söylə mənə!
Dərdli başım qurban olsun bu gün sənə!

Səyrək burada böyük qardaşına soylayıb dedi:

Qara dövranda yol azsam, ümidim Allahdır,
Böyük bayraq götürən xanımız Bayındır xandır!
Döyüş günü öndə duran igidimiz Salur Qazandır!
Atamın adını soruşursan, Uşun qocadır!
Mənim adımı bilmək istəsən, Səyrəkdir!
Qardaşım varmış, deyirlər, adı Əyrəkdir!

Bir daha soylayıb demişdir:

Qaytabanını güdən sarvanınam,
Qaracıq atını güdən ilxıçınam.
Beşikdə qoyub gəldiyin qardaşınam.

Böyük qardaş Əyrək burada soylamış, görək, xanım, necə soylayıb demişdir:

Ağzın üçün ölüm, qardaş!
Dilin üçün ölüm, qardaş!
Ərmi, igidmi oldun, qardaş!
Qəribliyə qardaşın üçün sənmi gəldin, qardaş?

İki qardaş qalxıb qucaqlaşıb görüşdülər. Əyrək kiçik qardaşının boynunu öpdü. Səyrək isə böyük qardaşının əlini öpdü.

Qabaq tərəfdən kafirlər baxışıb deyirlər: "Deyəsən, güləşdilər? Kaş ki, bizimki bassın!". Gördülər ki, qucaqlaşıb görüşdülər, Qazlıq atlarını mindilər.

İki qardaş qara donlu kafirlərin üstünə at sürüb qılınc çaldı; onları qırıb çatdılar, qovub qalaya saldılar. Sonra gəlib həmin qoruğa girdilər. Atları bayıra çıxardılar. Hərlədib-fırladıb atları qabaqlarına qatdılar. Dərəşam suyunu üzüb keçdilər. Gecəni gündüzə qatıb, Oğuz yurdunun sərhədinə yetişdilər.

Səyrək qanlı kafirlərin əlindən qardaşını xilas etdi. Ağ saqqallı atasına muştuluqçu göndərdi. "Atam qabağıma gəlsin!" – dedi.

Uşun qocanın qapısına çapar gəldi: "Muştuluq! Gözün aydın! Oğullarının ikisi də birlikdə sağ-salamat gəldi", – dedilər.

Qoca eşidib şad oldu. Gumbur-gumbur təbillər çalındı. Qızıl-tunc borular göyə ucaldıldı. O gün böyük, geniş otaqlar tikildi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirildi.

Qoca bəy oğullarının qarşısına gəldi. Atından endi, oğlanları ilə qucaqlaşıb görüşdü: “Sağ-salamatsızmı, yaxşısızmı, oğullar?” – dedi. Günlüyü qızıl tağlı evlərinə gəldilər. Şadlıq, yemək-içmək oldu.

Uşun qoca böyük oğlu üçün də gözəl gəlin gətirdi. İki qardaş bir-birinə sağdış oldu; atlarını çapıb gəlin otaqlarına getdilər. Öz muradlarına yetişdilər.

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı:

Əvvəl-axır uzun ömrün sonu ölümdür!
Ölüm gəldikdə Allah sizi təmiz imandan ayırmasın!
Günahınızı Məhəmmədin üzü suyuna bağışlasın!
“Amin” deyənlərin üzünü görəsən,
xanım, hey!

# SALUR QAZANIN DUSTAQ OLDUĞU VƏ OĞLU URUZUN ONU XİLAS ETDİYİ BOY

Deyilənə görə, xanım, Trabzon təkuru bəylər bəyi olan Qazan xana bir şahin göndərmişdi. Bir gecə yeyib-içib oturarkən şahinçibaşıya deyir: "Əyə, sabah şahinləri götür, xəlvətcə ova çıxaq!"

Səhər erkən atlara minib, ov yerinə getdilər. Bir sürü qaz gördülər. Qazan şahini buraxdı, qazları ovlaya bilmədi. Şahin uçub göyə qalxdı. Gözlədilər, şahin Tumanın qalasına endi. Qazan çox pərt oldu. Şahinin ardınca düşdü, dərə-təpə aşdı. Kafir elinə gəldi. Gedərkən Qazanın gözünü yuxu tutdu. Bəylər dedilər: "Ay xan, qayıdaq!". Qazan dedi: "Bir az da irəli gedək!". Baxdı, bir qala gördü. Dedi: "Bəylər, gəlin yataq!".

Qazanı "kiçik ölüm" tutdu, uyudu. Oğuz bəyləri yeddi gün yatardı, ona görə də yuxuya "kiçik ölüm" deyirdilər.

Sən demə, o gün Tumanın qalasının təkuru ova çıxıbmış. Casus gəlib deyir: "Bir bölük atlı gəldi, bəyləri yatdı, yuxuya getdi". Təkur adam göndərdi ki, kim olduğunu bilin!

Gələnlər bildi ki, bunlar oğuzlardandır. Gəlib təkurə xəbər verdilər. Təkur da dərhal qoşunu yığdı, bunların üzərinə gəldi. Qazanın bəyləri baxıb gördülər ki, düşmən gəlir, dedilər: "Qazanı qoyub getsək,evində bizi qırarlar. Yaxşısı budur ki, burada qırılaq!". Kafiri qarşıladılar, döyüşdülər. Qazanın iyirmi beş bəyini həlak etdilər. Qazanın üstünə düşdülər. Yatdığı yerdə tutdular. Əl-ayağını bərk bağladılar, bir arabaya qoyub, örkənlə möhkəm sarıdılar. Arabanı çəkib, yola düşdülər.

Gedərkən araba qıcırtısından Qazan oyandı, gərnəşdi, qollarındakı örkəni tamam qırdı. Arabanın üstündə oturdu. Əlini əlinə çalıb, qahqahla güldü. Kafirlər dedilər: "Nə gülürsən?" Qazan dedi: "Ay kafirlər, bu arabanı beşiyim sandım. Sizi yamrı-yumru dayəm sandım".

Qazanı bu cür gətirdilər. Tumanın qalasında bir quyuya atdılar. Quyunun ağzına bir dəyirman daşı qoydular. Yemək-içməyini dəyirman daşının deşiyindən verirdilər.

Bir gün təkurun arvadı deyir: "Gedim, Qazanı görüm, necə kişidir ki, bu qədər adamlara zərbə vururmuş?". Arvad gəlib zindançıya qapını açdırdı. Çağırıb deyir: "Qazan bəy, halın necədir? Güzəranın yer altında xoşdur, yoxsa yer üzündə? İndi nə yeyirsən, nə içirsən və nəyə minirsən?". Qazan deyir: "Ölülərinə xörək verdiyin vaxt əllə-

rindən alıram. Həm də ölülərinizin yorğasını minirəm, tənbəllərini yedəkləyirəm".

Təkurun arvadı deyir: "Qazan bəy, səni dininə and verirəm, yeddi yaşında bir qızcığazım ölmüşdür, rəhm eylə, ona minmə!".

Qazan deyir: "Ölülərinizin arasında ondan yorğası yoxdur, elə ona minirəm!". Arvad deyir: "Vay, sənin əlindən nə yer üzündə dirimiz, nə də yer altında ölümüz xilas olurmuş!". Gəldi, təkurə dedi: "Rəhm eylə, o yad oğlunu quyudan çıxar. Yer altında qızcığazımı minirmiş; qızcığazın belini üzər. Qalan ölülərimizi bir yerə yığıb, onlar üçün verdiyimiz xörəyi-yeməyi əllərindən çəkib alır, yeyirmiş. Onun əlindən nə ölümüz, nə dirimiz xilas olurmuş! Dinin eşqinə, o kişini quyudan çıxar".

Təkur bəylərini topladı. Deyir: "Gəlin Qazanı quyudan çıxarın, bizi tərifləsin, oğuz elini pisləsin. Bundan sonra şərt qoysun ki, bizim elimizə düşmənçiliyə gəlməyəcək".

Getdilər, Qazanı quyudan çıxarıb gətirdilər. Dedilər: "And iç ki, bizim elimizə düşmənçiliyə gəlməyəcəksən. Həm də bizi təriflə, oğuz elini xəcil elə, ucuz tut; səni buraxaq, çıx get!". Qazan deyir: "Vallah, billah, doğru yolu görürkən əyri yoldan gəlmərəm!". Dedilər: "Vallah, Qazan yaxşı and içdi". "İndi, Qazan bəy, di, bizi təriflə!" – dedilər. Qazan deyir: "Mən yer üstündə adam təriflərəm. Bir adam gətirin, minim, sizi tərifləyim". Getdilər, kafirlərdən bir kişini gətirdilər. "Bir yəhər, bir yüyən", – dedi, gətirdilər. Qazan, kafirin belinə yəhər saldı, ağzına yüyən vurdu. "Qolanını" çəkdi, sıçrayıb belinə mindi. Dizlərini onun dizlərinə vurdu. Qabırğasını qarnına yapışdırdı. Yüyənini çəkdi, ağzını ayırdı, kafiri öldürdü. Əyilib üzərində oturdu. Deyir: "Ay kafirlər, qopuzumu gətirin, sizi tərifləyim!".

Getdilər, qopuzu gətirdilər. Qazan qopuzu əlinə alıb burada soylamış, görək, xanım, nə soylayıb demişdir:

On min düşmən gördümsə, "oyunum" dedim.
İyirmi min düşmən gördümsə, qaçmadım.
Otuz min düşmən gördümsə, ot saydım.
Qırx min düşmən gördümsə, qıya baxdım.
Əlli min düşmən gördümsə, əl vermədim.
Altmış min düşmən gördümsə, dindirmədim.
Səksən min düşmən gördümsə, səksənmədim.
Doxsan min düşmən gördümsə, silahlanmadım.

Yüz min düşmən gördümsə, üz döndərmədim.
Üzü dönməz, kütləşməyən qılıncımı ələ aldım.
Məhəmmədin dini eşqinə qılınc çaldım.
Hündür yerdə yumru başı top tək kəsdim.
Onda belə "ərəm, bəyəm" deyə öyünmədim.
Çox öyünən kişilərdə bir kişilik görmədim!
Əlinə düşmüş ikən ey kafir, öldür məni,
Böyük qılıncını sal boynuma, kəs başımı,
qılıncından qorxan deyiləm!
Öz əslimə, öz kökümə xain çıxan deyiləm!

Bir soy da soylayıb demişdir:

Yüksək-yüksək böyük dağdan daş yuvarlansa,
Öz dizini – oyluğunu qarşısına tutan mənəm.
Fironun sütunu tək yerdə yüklər qalansa,
O tayları dizi ilə tutub duran Qazan mənəm.
Böyük-böyük bəylərin oğlanları dalaşanda
Qamçı altına salıb döyən-vuran Qazan mənəm.
Uca dağda dolu yağsa, qara-qatı duman dursa,
Qaracıq atın qulaqları çovğunluqda görünməsə,
Bələdçisiz qorxu çəkən igidlər də yol yanılsa,
Bələdçisiz yol tanıyan, yol bacaran Qazan mənəm.
Yeddi başlı əjdahaya rast gəlib yetişdim.
Heybətindən, qorxusundan bu sol gözüm yaşardı.
"Hey gözüm? Bir ilanda nə var belə, qorxdun!" – dedim.
Mən onda da "ərəm, bəyəm" deyə öyünmədim,
Çox öyünən kişilərdə bir kişilik görmədim.
Əlinə düşmüş ikən, ay kafir, öldür məni,
Çək qılıncı, kəs başımı, mən ki qorxan deyiləm!
Öz əslimə, öz kökümə xain çıxan deyiləm!
Oğuzun igidləri dura-dura mən sənin
Şərəfinə, şəninə tərif yaxan deyiləm!

Qazan burada bir daha soylamışdır:

Qayalıqda salınmışdır kafirin bir şəhəri,
Əmmanın sularında yuyunur sahilləri.
Sağa-sola çırpınıb baş vurur üzgüçülər,

Su dibində fırlanıb dönürdü dənizçilər.
"Tanrı mənəm!" deyirlər su dibində azğınlar.
Düzü qoyub, tərsini söyləyir qız-gəlinlər.
Qızıl aşıq oynadır Sancıdanın bəyləri;
Altı dəfə oğuzlar getdi, ala bilmədi.
Altı nəfər igidlə ora mən Qazan getdim.
Altı gündə qalanı mən aldım, məğlub etdim.
Kilsəsini yıxaraq, yerində məscid tikdim,
dua-namaz oxutdum.
Qızını-gəlinini ağ köksümdə oynatdım,
bəylərini qul etdim.
Mən onda da "ərəm, bəyəm" deyə öyünmədim!
Çox öyünən kişilərdə bir kişilik görmədim!
Əlinə keçmiş ikən, ey kafir, öldür məni,
Çal qılıncı, kəs başımı, mən ki, qorxan deyiləm!
Öz əslimə, öz kökümə xain çıxan deyiləm!

Qazan yenə soylayıb demişdir:

Dağda-daşda qabağımdan çox qaçıbdır,
ey kafir, atan sənin.
Oynatmışam qabağımda, çox fırlanıb
qız-gəlinin...
Ağca qala Sürməlidə at oynatdım.
Atla Harun elinə çapdım, çatdım.
Ağ hasarın qalasının bürcünü yıxdım.
Ağ gümüş gətirdilər, "heçdir, puçdur" söylədim.
Qızıl-altun gətirdilər, adicə "misdir" dedim.
Ala gözlü qız-gəlini gətirdilər, aldanmadım.
Kilsəsini yıxıb orda məscid tikdim,
Qızılını-gümüşünü talan etdim.
Onda da mən "ərəm, bəyəm" deyə öyünmədim.
Çox öyünən kişilərdə bir kişilik görmədim!
Əlinə düşmüş ikən, ey kafir, öldür məni,
Öz əslimə, kökümə xain çıxan deyiləm!
Şərəfinə, şəninə tərif yaxan deyiləm!

Qazan bəy burada bir daha soylayıb demişdir:

Ağ qayanın qaplanının erkəyində bir köküm var,
Ortac qırda sizin keyik sürünüzü rahat qoymaz.

Ağ sazın aslanından bir köküm var,
Ala qaz tək otlamağa düzlərində bir at qoymaz.
Qorxu bilməz qurd balası erkəyindən bir köküm var.
Qorxusundan çobanların qoyunları otarammaz.
Ağ sunqur quşunun erkəyi tək bir köküm var,
Qorxusundan ala ördək, qara qazın suya qonmaz.
Uruz adlı oğul verdim Qalın Oğuz elinə,
Bir qardaşım var ki mənim, adı igid Qaragünə,
Xəbər tutub, qolundakı şahinini sağ qoymazlar!
Əlinə düşmüş ikən, ey kafir, öldür məni!
Mən ki, sənin qılıncından qorxan deyiləm!
Öz əslimə, öz kökümə xain çıxan deyiləm!

Bir daha soylayıb demişdir:

İt kimi mırıldayan
Çərkəz donuzlusan sən.
Kiçik donuz şülənin,
Torba saman döşəyin,
Yarım kərpic yasdığın,
Yonma ağac tanrındır,
Mənim köpəyim kafir!
Oğuzlar dura-dura,
Səni tərifləmərəm!
Sonra öldürəcəksən,
İndicə öldür məni.
Onsuz da mən ölümdən,
qandan qorxan deyiləm!
Allah qoysa, sağ qalsam,
Mən səni öldürərəm!

Kafirlər dedi: “Bu bizi tərifləmədi. Gəlin, bunu öldürək!”. Kafir bəyləri yığışıb gəldilər. Yenə dedilər: “Bunun oğlu var, qardaşı var, bunu öldürmək olmaz”. Gətirib donuz damına saldılar.

At ayağı iti, ozan dili çevik olur. Qazanın öldüyünü-qaldığını heç kim bilmədi...

Sən demə, xanım, Qazanın kiçik bir oğlu varmış; böyüyüb bir igid oldu. Bir gün ata minib divana gəlirkən bir kişi deyir: “Məgər sən

Qazan xanın oğlu deyilsən?”. Uruz hirslənib deyir: “Ay yaramaz, mənim atam Bayındır xan deyildirmi?”. Deyir: “Yox, o, ananın atasıdır, sənin babandır”. Uruz: “Əyə, bəs mənim atam ölüdür, ya diri?” – deyə soruşur. Deyir: “Diridir, Tumanın qalasında dustaqdır”. Belə deyəndə oğlan utanmış halda atını qaytarıb geri döndü, anasının yanına gəldi. Burada anasına soylamış, görək, xanım, nə soylamışdır:

Ay ana, mən xan oğlu deyiləmmiş,
Qazan xanın oğluyammış...
Bunu mənə niyə əvvəl demirdin?
Ana haqqı – Tanrı haqqı olmasaydı,
Qara polad iti qılıncı çəkərdim,
Qəfilcədən gözəl başını kəsərdim,
Al qanını yer üzünə tökərdim!

Anası ağlayıb deyir: “Oğul, atan sağdır, amma söyləməyə qorxurdum, kafir elinə gedəsən, özünü vurdurub həlak olasan. Canım oğul, ona görə sənə demirdim; ancaq əmin üçün adam sal, gəlsin, görək, nə deyir”.

Adam göndərdi, əmisini çağırtdırdı; o da gəldi. Uruz deyir: “Mən atamın dustaq olduğu qalaya gedirəm”. Birlikdə danışdılar. Bütün bəylərə xəbər çatdı: “Uruz atası üçün gedir, yaraqlanıb gəlin!”.

Qoşun toplanıb gəldi. İgid Uruz qurduğu çadırları açdırdı, silah yüklərini hazırlatdırdı. Qaragünə qoşunun başçısı oldu. Boruları göyə ucaldıb köçdülər. Yola düşdülər.

Yol üzərində kafirin Aya Sofya adlı kilsəsi vardı. Keşişlər qoruyur, nəzarət edirdilər. Çox keçilməz-alınmaz kilsə idi. Atdan düşüb tacir donu geyindilər. Tacir qiyafəsində qatır-dəvələrini çəkib gəldilər.

Kafirlər gördülər ki, gələnlər tacirə bənzəmir, qaçıb qalaya girdilər, qapılarını bağladılar. Bürcə çıxıb “kimlərsiz?” – dedilər. Bunlar: “Tacirlərik” – dedilər. Kafirlər “Yalan söyləyirsiz” – deyə daşa tutdular. Uruz atdan düşüb deyir: “Atamın qızıl qədəhindən şərab içən, məni sevən kimdirsə, atdan düşsün! Bunların qapısına bir-bir gürz vuraq!”. On altı igid sıçrayıb atdan düşdü. Qalxan tutdular. Gürzlərini çiyinlərinə saldılar. Qapıya gəldilər, bir-bir gürz vurub qapını sındırdılar, içəri girdilər. Kafirlərin hamısını qırdılar, bir nəfəri sağ qoymadılar ki, gedib özününkülərə xəbər versin. Malını talan etdilər. Öz qoşunlarının üzərinə qayıtdılar.

Kafirlərin bir malotaranı vardı. Gördü ki, qalanı aldılar. Qaçıb təkurun yanına getdi, Aya Soyfanın alındığını xəbər verdi: "Nə oturursuz, üzərinizə düşmən gəlib, başınıza çarə eləyin!" -dedi.

Təkur, bəyləri bir yerə yığdı. "Bunlarla neyləyək?"- dedi. Bəylər dedilər: "Bunun yolu odur ki, Qazanı onların qabağına çıxaraq". Bu fikri bəyəndilər. Gedib Qazanı çıxartdılar, təkurun qabağına gətirdilər. Təkur dedi: "Qazan bəy, üstümüzə düşmən gəlib. Bizi bu düşməndən qorusan, səni buraxarıq. Həm də xərac verməyə razı olarıq. Ancaq sən də and iç ki, bizim bu elimizə düşmənçiliklə gəlməyəcəksən". Qazan deyir: "Vallah, billah doğru yolu görə-görə əyri yolla gəlmərəm!". Kafirlər "Qazan yaxşı and içdi", – deyə sevindilər. Təkur qoşunun seçmə dəstələrini yığıb meydana gəldi. Çadır qurdurdu. Kafirin qoşunu Qazanın ətrafına yığıldı. Qazana geyim-keci gətirdilər; qılınc, süngü və sair döyüş silahları ilə onu yaraqlandırdılar.

Bu zaman oğuz igidləri alay-alay gəldi, gumbur-gumbur təbillər, nağaralar çalındı.

Qazan gördü ki, bir ağ-boz atlı, ağ bayraqlı, dəmir donlu bəy oğuz qoşununun önündə gəldi. Çadırını qurdurdu. Alay bağlayıb durdu. Onun ardınca Qaragünə gəldi, o da öz dəstəsini düzüb durdu. Elə bu zaman Qazan atını meydana sürüb, özünə tay döyüşçü istədi.

Boz atlı Beyrək at çapıb meydana girdi. Qazan burada soylamış, görək, xanım, nə soylayıb, demişdir:

Yerindən qalxaraq duran igid, nə igidsən?
Əyninə bəy dəmir donu geyən igid, nə igidsən?
Adın nədir, igid, söylə mənə!

Beyrək burada soylayıb demişdir:

Aya, kafir, sən məni tanımırsanmı?
Parasarın Bayburd hasarından sıçrayıb uçan,
Adaxlısını ayrısı alırkən tutub alan
Baybörə xan oğlu Bamsı Beyrək deyirlər mənə,
Bəri gəl, ay kafir, döyüşək!

Qazan burada bir daha soylayıb deyir:

İgid, qoşunun önündə ağ bayraqlı alay durdu,
Başçı düzüb dəstəsini, çadırını öndə qurdu.

Ağ-boz ata minən igid nə igiddir, kimlərdəndir?
And verirəm öz başına, igid bunu söylə mənə!

Beyrək deyir: "Ay kafir, kimlərdən olacaq, bəyimiz Qazanın oğludur!". Qazan ürəyində dedi: "Allaha şükür, mənim oğlancığım böyük igid olub".

Beyrək: "Ay kafir, nə onu-bunu soruşursan məndən?"- dedi. Qazanın üzərinə at sürdü. Qanadlı gürzünü qaldırıb Qazanı vurdu. Qazan özünü tanıtdırmadı, qarmalayıb Beyrəyin biləyindən tutdu, dartıb dəyənəyini əlindən aldı. Beyrəyin ənsəsinə bir dəyənək zərbəsi vurdu. Beyrək atın boynunu qucaqlayıb, geri qayıtdı. Qazan dedi: "Ey Beyrək, get, bəyinə de gəlsin!".

Bunu gördü, İlək qoca oğlu Dönəbilməz Tüləkvuran meydana girdi. Qazan burada soylayıb deyir:

Sübh tezdən öz yerindən duran igid, nə igidsən?
Bədəvi atını oynadaraq gələn igid, nə igidsən?
İgidin iguddən ad gizlətməsi eyibdir,
Adın nədir, igid, söylə mənə!

Tüləkvuran deyir:

Ay kafir, mənim adımı bilmirsənmi?
Öz adına xor baxıb eldən çıxan,
Əlli yeddi qalanın kilidini alan
İlək qoca oğlu Dönəbilməz Tüləkvuran
mənə deyirlər!

O, süngüsünü əlinə alıb, atını irəli sürdü. "Qazana sancım", – deyə fikirləşdi, ancaq sanca bilmədi, yan keçdi. Qazan atla irəli cumdu. Süngüsünü çəkib əlindən aldı, təpəsinə vurdu. Süngü para-para olub ovuldu. Dedi: "Əyə, əbləh oğlu, bəyinə de gəlsin!". O da qayıtdı. Qazan yenə igid istədi. Dözən oğlu Alp Rüstəm at sürüb meydana girdi. Qazan burada yenə dedi:

Qalxaraq yerindən durub gələn,
Gözəl Qazlıq atını minən,
Nə igidsən, adın nədir, de mənə!

Alp Rüstəm deyir:
Qalxıb yerindən duran-gələn,
İki qardaş uşağını
öldürüb zəlil gəzən,
Dözən oğlu Alp Rüstəm mənə deyərlər!

O da Qazana hücum etdi. "Məğlub edim" dedi, edə bilmədi. Qazan bəy buna da bir zərbə vurdu. Dedi: "Ay yaramaz, get, bəyinə de, gəlsin!".

O da döndü. Qazan yenidən igid istədi. Uruzun atının yüyənini əmisi Qaragünə tutmuşdu. Uruz yüyəni çəkib bir anda əlindən aldı, qılınc çəkib, atasının üzərinə at saldı. Durmayıb çiyninə qılınc endirdi. Qılınc Qazanın geyimini kəsib, çiyninə dörd barmağadək yara vurdu. Al qanı şoruldayıb qoynuna axdı.

Uruz yenə döndü ki, bir də vursun, Qazan burada çağırıb oğluna soyladı, görək, xanım, nə soyladı:

Uca dağımın zirvəsi, qüruru oğul!
Qaranlıq çökmüş gözlərimin
işığı, nuru oğul!
İgidim Uruz, aslanım Uruz,
Ağ saqqallı atana qıyma, oğul!

Uruzun damarlarındakı qan şəfqətlə qaynadı. Qara qıyma gözləri qan-yaşla doldu. Atdan yerə düşüb, atasının əlini öpdü. Qazan atdan endirildi. O, oğlunun boynunu öpdü. Bəylər Qazanla oğlunun yanına at sürüb, onları çevrəyə aldılar. Hamı atdan düşüb, Qazanın əlini öpdü. Hücum edib kafirlərin üstünə at saldılar, qılınc çaldılar. Dərələrdə-təpələrdə kafirlərə qırğın düşdü. Qalanı aldılar. Kilsəni yıxıb, məscid tikdilər. Uruz qanlı kafir əlindən atasını xilas etdi.

Qalın Oğuz elinə gəlib çıxdılar. Uruz ağca üzlü anasına muştuluqçu göndərdi. Qaza bənzər qız-gəlin Qazanın qarşısına gəlib, əlini öpdülər, ayağına düşdülər.

Qazan gözəl çəmənlikdə çadırlar-otaqlar qurdurdu. Yeddi gün yeddi gecə toy-düyün etdilər, yemək-içmək oldu.

Dədəm Qorqud gəldi, qopuz çaldı. İgid döyüşçülərin başına nə gəldiyini söylədi:

Hanı o tərifli bəy igidlər,
Dünya mənimdir deyənlər?
Əcəl gəldi, yer gizlətdi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya!
Son ucu ölümlü dünya!
Ölüm gəldikdə səni təmiz imandan ayırmasın!
Allah səni namərdə möhtac etməsin!
Beş kəlmə dua etdik, qəbul olunsun!
“Amin! Amin!” deyənlərin üzünü görəsən!
Günahınızı adı gözəl Məhəmməd Müstafaya
bağışlasın, xanım, hey!

## İÇ OĞUZA DAŞ OĞUZUN DÖNÜK ÇIXMASI VƏ BEYRƏYİN ÖLDÜYÜ BOY

Üç ox və Boz ox tayfaları bir yerə toplaşanda Qazan adət üzrə evini talan elətdirər, şey-şüyünü bölüşdürərdi. Amma bu dəfə Qazanın şeyləri talan edildikdə Daş Oğuz orada deyildi. Talanda ancaq İç Oğuz iştirak etdi.

Qazan öz şeylərini talan elətdirərkən arvadının əlindən tutub kənara çıxar, ondan sonra ev-eşiyini oğuz əhlinin ixtiyarına verərdi.

Daş Oğuz bəylərindən Aruz, Əmən və qalan bəylər bunu eşidib dedilər: "Bax, bax! İndiyədək Qazanın evini birlikdə talan edərdik. İndi nə üçün birlikdə olmayaq?" Daş Oğuz bəyləri müttəfiq olub, Qazanın yanına gəlmədilər, ədavət saxladılar.

Qılbaş deyilən bir kişi vardı. Qazan dedi: "Ay Qılbaş, bu Daş Oğuz bəyləri həmişə birlikdə gəlirdilər. İndi nə üçün gəlmədilər?" Qılbaş deyir: "Bilmirsənmi niyə gəlmədilər? Evini talan etdirdiyin vaxt Daş Oğuz burada yox idi, səbəbi budur". Qazan deyir: "Hə, deməli, ədavət saxlayırlar?". Qılbaş deyir: "Xanım, mən gedim, onların dostluğunu-düşmənliyini bilim". Qazan deyir: "Sən yaxşı bilirsən, get!".

Qılbaş bir neçə adamla atlanıb, Qazanın dayısı evinə gəldi. Aruz da qızılı günlüyünü qurdurub oğlanları ilə oturmuşdu.

Qılbaş gəlib Aruza salam verdi, dedi: "Qazanın başı bəlalıdır. Dedi ki, mütləq dayım Aruz yanıma gəlsin, üstümə düşmən gəlib; dəvələrimi nərildətdilər, qaracıq Qazlıq atlarımı kişnətdilər. Qaza bənzər qızımız-gəlinimiz dərdə düşdü. Mənim dərdli başıma gör nələr gəldi. Dayım Aruz gəlsin, – dedi".

Aruz deyir: "Ay Qılbaş, Qazan öz evini həmişə Üç ox və Boz ox tayfaları bir yerə yığılanda talan elətdirərdi. Bizim günahımız nə idi ki, bu işdə iştirak etmədik? Qazanın başına qoy həmişə bəla gəlsin. Dayısı Aruz daim ona qarşı olacaq. Biz Qazanın düşməniyik, qəti bilsin!".Qılbaş burada soylamış, görək, xanım, nə soylayıb demişdir:

Ay əbləh,
Qazan xan yerindən durub gəldi,
Ala dağda çadırı-otağı dikəldi.
Üç yüz altmış altı igid

söhbətinə yığıldı.
Yemək-içmək arasında bəylər səni andı.
Üstümüzə heç bir düşmən-zad gəlmədi.
Mən sənin dostluğunu-düşmənliyini
sınamaq üçün gəldim.
Qazana düşmən olduğunu bildim!
Qılbaş qalxıb "Salamat qalın!" – deyib getdi.

Aruzun qanı çox qaraldı. Daş Oğuz bəyləri üçün adam saldı: "Əmən gəlsin, Alp Rüstəm gəlsin, Dönəbilməz Tüləkvuran gəlsin...Qalan bəylər də hamı gəlsin!".

Daş Oğuzun bütün bəyləri yığıldı. Aruz böyük və geniş otaqlarını düzdə tikdirdi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. Daş Oğuz bəylərini əzizləyib qonaq etdi. Dedi: "Bəylər, bilirsizmi, mən sizi niyə çağırtdırdım?". Dedilər: "Bilmirik". Aruz deyir: "Qazan bizə Qılbaşı göndərib, elim-günüm çapıldı, başıma bəla gəldi, dayım Aruz yanıma gəlsin, demişdir. Qılbaşa dedim ki, Qazan həmişə malını Daş oğuz bəylərinin iştirakı ilə talan elətdirərdi. Bəylər gələr, Qazanı salamlayıb gedərdi".

Əmən dedi: "Bəs sən axır ona nə cavab verdin?" Aruz: "Ay əbləh, biz Qazana düşmənik", dedim. Əmən deyir: "Yaxşı demisən". Aruz deyir: "Bəylər, bəs siz nə deyirsiz?". Bəylər dedi: "Nə deyəcəyik? Sən Qazana düşmən oldunsa, biz də düşmənik", – dedilər. Aruz araya müqəddəs kitabı gətirdi. Bütün bəylər əl basıb and içdilər, "Sənin dostuna dost, düşməninə düşmənik!" – dedilər. Aruz bütün bəylərə xələt verdi, dönüb dedi: "Bəylər, Beyrək bizdən qız almışdır, yeznəmizdir, amma Qazanın da dostudur. Gəlsin, bizi Qazanla barışdırsın. Çağırtdıraq, gətirdək; bizə tabe olarsa, çox yaxşı! Olmazsa, mən saqqalını tutum, siz qılınc çəkib vurun! Beyrəyi aradan götürək. Ondan sonra Qazanla işimiz yaxşı olar!".

Beyrəyə kağız göndərdilər. Beyrək öz otağında igidlərlə yeyib-içirdi. Aruzdan adam gəldi, salam verdi. Beyrək də salam verdi. Gələn adam dedi: "Aruz xan sizə salam göndərir. Deyir, Beyrək gəlsin, lütf edib, bizi Qazanla barışdırsın!".

Beyrək: "Yaxşı, olsun!" – dedi. Atını çəkdilər, mindi. Qırx igidlə Aruzun evinə gəldi. Daş Oğuz bəyləri otururkən girib salam verdi. Aruz Beyrəyə dedi: "Bilirsənmi, səni niyə çağırmışıq?". Beyrək dedi:

“Niyə çağırmısız?”. Aruz dedi: “Biz, bütün bu oturan bəylər Qazandan üz döndərmişik, and içmişik”. Kitab gətirdilər ki, sən də and iç! Beyrək “Mən Qazana dönük çıxmaram!” – deyə and içdi. Soylayıb deyir:

Mən Qazanın nemətini çox yemişəm,
bilməzsəm, gözümü tutsun!
Qaracıqda Qazlıq atına çox minmişəm,
bilməzsəm, tabutum olsun!
Yaxşı qaftanlarını çox geymişəm,
bilməzsəm, kəfənim olsun!
Böyük, geniş otağına çox girmişəm,
bilməzsəm, zindanım olsun!
Mən Qazana dönük çıxmaram, qəti bilin!

Aruz Beyrəyin saqqalından tutdu. Bəylər Beyrəyə qıya bilmədilər. Beyrək burada bildi ki, Aruz çox qəzəblənmişdir. Soylayıb dedi:

Aruz, mən bilsəydim bu niyyətini,
Qaracıqda Qazlıq ata minərdim!
Əynimə bərk dəmir donu geyərdim!
Böyük iti polad qılınc bağlardım!
Öz alnıma parlaq zireh vurardım!
Altmış tutam süngümü götürərdim!
Alagözlü bəyləri gətirərdim!
Ay yaramaz, mən bu işi duysaydım,
Sənin görüşünə belə gələrdim?!
İgidi aldatmaq arvad işidir,
Bu işi arvaddan öyrəndinmi sən?

Aruz deyir: “Ədə, hərzə-hərzə danışma. Qanına susama, gəl and iç!”. Beyrək deyir: “Vallah, mən Qazanın və İç Oğuzun yolunda başımı qoymuşam. İstəyirsiniz, yüz para eləyin, mən Qazana xain çıxmaram!”. Aruz yenidən hirsləndi, Beyrəyin saqqalından bərk tutub, bəylərə baxdı. Gördü kimsə gəlmir, qara polad iti qılıncı çəkib, Beyrəyin sağ oyluğunu çapdı. Beyrək qara qanına boyandı, başı dumanlandı. Bütün bəylər dağılışdı. Hər kəs öz atına mindi. Beyrəyi də mindirdilər. Bir nəfər tərkinə minib, onu qucaqladı. Beyrəyi gətirənlər atlarını ça-

paraq, onu öz evinə çatdırdılar. Cübbəsini üzərinə örtdülər. Beyrək burada soylayıb dedi:

İgidlərim, yerinizdən qalxın, durun!
Boz atımın quyruğunu tutun, kəsin!
Ala dağdan Arqubeli gecə aşın.
İti axan gözəl suyu üzüb keçin.
Qazan xanın divanına çapıb gedin.
Siz hamınız ağ çıxarıb, qara geyin.
"Qazan, tək sən sağ ol, Beyrək öldü!" deyin...

Danışın ki, namərd Aruz dayın adam göndərib, Beyrəyi istəmişdir, o da getmişdir. Daş Oğuzun bütün bəyləri bir yerə yığılıbmış. Bilmədik, yemək-içmək arasında müqəddəs kitab gətirdilər, Beyrəyə "Biz and içib, Qazandan üz döndərmişik. Gəl, sən də and iç!" – dedilər. And içmədi. "Mən Qazandan dönmərəm!" – dedi. Namərd dayın qəzəblənib, Beyrəyi qılıncladı. Beyrək huşunu itirib, qara qanına boyandı. Sonra dedi ki, mənim qanımı Qazan Aruzda qoyarsa, sabah qiyamət günündə əlim onun yaxasında olacaqdır!

Beyrək bir daha soylayıb demişdir:

İgidlərim, Aruz oğlu Basat gəlmədən,
Elim-günüm çapılmadan,
Qaytabanda dəvələrimi bağırtmadan,
Qaracıqda Qazlıq atımı kişnətmədən,
Ağca qoyunlarım mələşmədən,
Ağca üzlü qız-gəlinə sataşmadan,
Ağca üzlü sevgilimi Basat gəlib almadan,
Elimi-günümü çapmadan, Qazan mənə yetişsin,
Mənim qanımı Aruzda qoymasın,
Ağ bənizli sevgilimi oğluna alıb versin,
Axirətin haqqını mənə halal etsin,
Bilsin ki, bəy oğlu bəyzadə Beyrək
Ömrünü bağışlayıb, Allahına qovuşdu!

Beyrəyin ata-anasına xəbər çatdı. Uca ev-eşiklərində şivən qopdu. Qaza bənzər qız-gəlin ağ çıxarıb, qara geydi. Ağ-boz atının quyruğunu kəsdilər. Qırx-əlli igid qara geyib göy sarındı. Qazan bəyin yanına

gəlib, çalmalarını yerə vurdular. "Beyrək!" deyə çox ağlaşdılar. Qazanın əlini öpdülər. "Sən sağ ol, Beyrək öldü!" dedilər. Dedilər ki, namərd dayın hiylə işlətdi. Çağırtdırıb bizi aldatdılar. Getdik; bilmədik ki, Daş Oğuz bəyləri sizdən üz döndəriblər. Müqəddəs kitab gətirdilər. "Biz Qazana düşmənik, sən də biz deyənə boyun əy!" dedilər. And içdilər. Beyrək sənin çörəyini basmadı. Onlara boyun əymədi. Dayın namərd Aruz qəzəblənib, Beyrəyi oturduğu yerdə qılıncladı, bir oyluğunu saldı. Sən sağ ol, xanım, Beyrək Allaha qovuşdu; dedi ki, mənim qanımı Aruzda qoymasın.

Qazan bu xəbəri eşitdi, dəsmalını əlinə alıb, hönkür-hönkür ağladı. Divanda oturub zarıldadı. Orada olan bütün bəylər ağlaşdılar!

Qazan getdi, öz evinə girdi. Yeddi gün divana çıxmadı, oturub ağladı.

Bəylər yığışıb, divana gəldilər. Qazanın qardaşı Qaragünə deyir: "Qılbaş, get de, ağam Qazan gəlib çıxsın. De ki, sənin ucundan bir igid aramızdan əksildi. Həm də vəsiyyət eləyib ki, qanını düşməndə qoymayıb alasan. Di, gedək, düşməni haqlayaq!". Qılbaş deyir: "Sən qardaşısan, sən get!".

Nəhayət, ikisi birlikdə getdilər. Qazanın evinə girdilər. Salam verib dedilər: "Sən sağ ol, ay xan, bir igid aramızdan əksildi, sənin yolunda baş verdi. Deyirəm, qanını alaq; həm də sizə tapşırmışdır ki, qanını alasız. Ağlamaqla bir şeymi olur? Dur gəl yuxarı".

Qazan deyir: "Doğru məsləhətdir. Tez silahları hazırlasınlar. Bütün bəylər atlansınlar!".

Bəylərin hamısı atlara mindi. Qazanın Qonur atını çəkib gətirdilər, mindi. Boru çalındı, nağaralar döyüldü. Gecə-gündüz bilmədən atlarını çapdılar.

Aruza və Daş Oğuzun bəylərinə xəbər çatdı. "Budur, Qazan gəldi!" – dedilər. Onlar da qoşun yığıb, boru ucaldan Qazana qarşı gəldilər.

Üç ox və Boz oxun qoşunları qarşılaşdı. Aruz deyir: "İç Oğuzda mənim döyüşçü rəqibim Qazan olsun!". Əmən deyir: "Mənim rəqibim Tərsuzamış olsun!". Alp Rüstəm deyir: "Mənim rəqibim Ənsə qoca oğlu Oxçu olsun!". Hər kəs öz rəqibini gözlədi. Alaylar bağlandı, qoşunlar düzüldü. Borular çalındı. Təbillər döyüldü. Aruz qoca öz atını meydana sürdü. Qazanı çağırıb dedi: "Ey yaramaz, sən mənim rəqibimsən, sən bəri gəl!". Qazan qalxanını çəkdi, süngüsünü əlinə alıb başı üzərində fırlatdı. Dedi: "Ay əbləh, namərdliklə igid öldürməyin nə demək olduğunu indi mən sənə göstərərəm!". Aruz Qazanın üzə-

rinə at sürüb, onu qılıncladı; zərbəsi zərrə qədər də Qazanı kəsmədi, yan keçdi. Növbə Qazana yetişdi. Altmış tutamlıq iri nizəsini qoltuğuna qısan Qazan, Aruza bir nizə vurdu. Nizə alov tək Aruzun köksündən o tərəfə keçdi, onu at üstündən yerə saldı. Qazan öz qardaşı Qaragünəyə işarə etdi: “Başını kəs!”. Qaragünə atdan düşüb Aruzun başını kəsdi.

Daş Oğuz bəyləri bunu görüb, hamı atdan düşdü. Qazanın ayağına yıxıldılar, günahlarından keçməyi xahiş etdilər, əlini öpdülər. Qazan onların günahını bağışladı. Beyrəyin qanını dayısından aldı. Sonra Aruzun evini çalıb-çapdırdı. Elini-gününü talan elətdirdi. İgid bəylər böyük qənimət qazandılar.

Qazan hündür göy çəmənlərdə çadırlar qurdurdu.

Dədəm Qorqud gəlib şadlıq mahnısı çaldı. İgid döyüşçülərin başına nə gəldiyini danışdı. Dedi:

Hanı dediyim bəy ərənlər,
Dünya mənimdir deyənlər?
Əcəl gəldi, yer gizlətdi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!
Ən nəhayət, uzun yaşın
Sonu ölüm, axırı ayrılıq.

Xeyir-dua verək, xanım:

Ölüm gəldikdə səni
Pak imandan ayırmasın!
Ağ saqqallı atan yeri,
Ağ birçəkli anan yeri
cənnət olsun!
Allah səni namərdə möhtac etməsin!
Ağ alnın önündə beş kəlmə dua etdik
qəbul olunsun!
“Amin! Amin!” deyənlərin üzünü görəsən!
Yığışdırsın, saxlasın Allah günahınızı,
Məhəmməd Mustafaya bağışlasın, xanım, hey!

# LÜĞƏT VƏ İNDEKS

**Tərtib edəni:** **Tofiq Hacıyev**

## A

| | |
|---|---|
| **Abdəst (f.)** | ‑ Dəstəmaz. |
| **Acı** | ‑ Acı; duzlu; turş. |
| **Acıq** | ‑ Acıq; acıqlı; kədər, güc; acı, hiddət, övkəli; hirs, qeyz, qəzəb; Acığı tutmaq – acıqlanmaq, hirslənmək. |
| **Acıqmaq** | ‑ Acmaq. |
| **Acımaq** | ‑ Acıqlanmaq; hirslənmək. |
| **Acmaq** | ‑ Acıqlanmaq. |
| **Adaxlu** | ‑ Adaxlı; nişanlı. |
| **Adəm (ə.)** | ‑ İlk insan; peyğəmbər. |
| **Adəm** | ‑ İnsan; Adəmilər evrəni‑cəsur insan. |
| **Ağ I** | ‑ Tələ; tor. |
| **Ağ II** | ‑ Hündür yer. |
| **Ağa** | ‑ Ağa; ata; böyük qardaş. |
| **Ağac** | ‑ Ağac (bitki); uzunluq ölçüsü (8 km ətrafında). |
| **Ağca** | ‑ Təmiz, ağappaq; Ağca bürclü‑bürcü ağ olan; Ağca saz‑ağappaq çöllər; Ağ yünlü – ağ yunlu; Ağca yüzlü – ağ üzlü. |
| **Ağ sunqur** | ‑ Şahin cinsindən ov quşu. |
| **Ağayıl // ağıl** | ‑ Ağıl, qoyun sürüsünün yığışdığı və ya salındığı üstü açıq, ətrafı bağlı yer. |
| **Ağca saz** | ‑ Ağca saz (y.a.). |
| **Ağılmaq** | ‑ Asılmaq; ucalmaq. |
| **Ağır** | ‑ Ağır; dəyərli; əziz. |
| **Ağırlamaq** | ‑ Əzizləmək; hörmət göstərmək. |
| **Ağırmaq** | ‑ Ucaltmaq; yüksəltmək; qaldırmaq. |
| **Ağız** | ‑ Ağız. Uc, kənar, başlanğıc. |
| **Ağmaq** | ‑ Bax: Ağırmaq. |
| **Ağrılmaq** | ‑ ucalmaq. |
| **Axır (ə.)** | ‑ Axur (malqaraya ot tökülən qurum). |
| **Axıtrılmaq** | ‑ Enmək, sürüşüb düşmək. |
| **Axirət (ə.)** | ‑ Axirət; o dünya; Axirət haqqı – o dünyada sorulacaq haqq. |
| **Axtarmaq** | ‑ Devirmək, alt‑üst etmək, yerə yıxmaq, başı aşağı çevirmək. |

| | |
|---|---|
| **Aqar** | – Axar su, çeşmə, çay və s. |
| **Aqça** | – Axça. |
| **Aqçaluq** | – Axçaya dəyər əmtəə. |
| **Aq hasar** | – Ağ hasar (y.a.) – Ağ hasar qələsi. |
| **Aqın** | – Basqın, hücum. |
| **Aqınçı** | – Talançı; basqınçı. |
| **Aqındılı** | – Axar, çoşğun axan. |
| **Aqmaq** | – 1. Axmaq; 2. basqın etmək. |
| **Aqsaqa** | – Ağsaka (y.a.) – etnotoponim: ağsaklar – ağ hunlar – eftalitlər. |
| **Al I** | – al, qırmızı. |
| **Al II** | – Hiylə, yalan; Al eyləmək – hiylə qurmaq, aldatmaq. |
| **Al III** | – Ön tərəf (əl sözündən). |
| **Ala I** | – ala, başqa rənglə ağın qarışığı. |
| **Ala II** | – Tərəf, doğru; Yanım ala; Qarşım ala. |
| **Alaca I** | – Ala-bula. Rəngbərəng, əlvan, qarışıq rəngli, naxışlı. |
| **Alaca II** | – Keçi qəzilindən toxunmuş kilim. |
| **Alalmaq** | – Qızarmaq, rəngdən rəngə girmək. |
| **Alan** | – Düzənlik, meydan. |
| **Alar** | – Aydınlıq; Alar sabah – sübh çağı; Alar tanıla – dan yeri ağararkən. |
| **Alat (ə.)** | – Alətlər, vasitələr; Alati-döyüş vasitələri, silahlar. |
| **Alay** | – Alay, ordu hissəsi. |
| **Alca** | – Qırmızıca, al rəngdə olan; Alca atlı; Alca qopuz. |
| **Alçaq** | – Alçaq, rəzil, ləyaqətsiz; vadi; münasib. |
| **Alçaqdan** | – Aşağıdan, düz yerdən. |
| **Aldamaq** | – Aldatmaq, yalan söyləmək. |
| **Aldırmaq** | – Əlindən vermək; itirmək, döyüşdə itirmək, əsir vermək. |
| **Alın** | – Alın; Bir dağın ön tərəfi; Öndə olan, ön, qabaq, qarşı, müqabil tərəf. Alın-başa gün işığı urmaq; Alnına qada yazmaq; Alnına şərabın istisi çıqmaq; Alnını yerə qoymaq; Alnım-başım umudu. |
| **Alınmaq** | – Alınmaq, zəbt edilmək, tutulmaq; Tutulmaq, yaxalanmaq, əsir edilmək; Alı vermək – başqası üçün bir şey almaq; Alı qoymaq-tutmaq, saxlamaq. |
| **Alim (ə.)** | – Bilici, oxumuş; Alimlər sərvəri. |
| **Alqar** | – Yürüş; Alqar varmaq – yürüş etmək. |

**Alqış** - Alqış; xeyir-dua.
**Alınmaq** - Gücdən düşmək.
**Alışmaq** - Alıb-vermək.
**“Allahu səməd”** - Qurandan İxlas surəsindən – Allahü səmədsən; “Hər yerdə əbədi var olan tək Allahsan”.
**Almaq** - Almaq, zəbt etmək.
**Alp** - İgid, cəsur.
**Alpan** - Alban.
**Altun** - Qızıl; Altunlu; Altunluca; Altun başlı – qızıl başlı.
**Aman (ə.)** - 1. Daxili rahatlıq, əmin olma, 2. sığınma, yardım diləmə, yalvarma; Aman diləmək; Aman demək.
**Amənna (ə.)** - İnandıq, Allahın dediklərinə inandıq, iman gətirdik.
**Amin (ə.)** - amin. “Tanrım, qəbul et!”
**Anaru** - O biri, o tərəf, əks tərəf.
**Ancılayın** - elə, onun kimi.
**And** - And, əhd-peyman, söz vermə; And içmək.
**Anda** - Orada, o yanda.
**Andan** - 1. Sonra, ondan sonra, 2. onun üçün, o səbəbdən.
**Anı I** - Heyrət, şaşqınlıq: “anı uçdu”, yəni bihuş olub qaldı, ağlı başından getdi.
**Anı II** - Onu.
**Anıtmaq** - Bir vaqeə, bir mənzərə qarşısında çaşıb qalmaq; Sen. anımaq, anıtmaq; Tutulub qalmaq, çaşıb qalmaq.
**Anramaq** - Kükrəmək, hayqırmaq; kükrəmək, (aslan kimi heyvanlar) gurultulu, qorxunc səslər çıxarmaq; (kiçik, bala heyvanlar) inləmək, mızıldamaq.
**Ansuzun** - Dərhal.
**Apul-apul** -Ləngər vura-vura.
**Aramaq** - Aramaq, axtarmaq.
**Arğab** - Həlqə.
**Arğış** - Karvan, qəriblikdə olanın yanına göndərilən şəxs, xəbər aparan.
**Arğun** - Sıçan-siçovul qəbilindən heyvan.
**Arxa** - 1. Arxa, ard, dal, 2. kömək, köməkçi.
**Arı** - Təmiz, saf.
**Arqa** - Bax: arxa.
**Arqıç** - Arxac; yazda sürünün dincəldiyi yer; ətəyi; Arqıç qır.

**Arqu** – İnad, sözə qulaq asmayan; iki divar və ya iki dirək arasına qoyulan ağac.
**Arquru** – Köndələn, çarpaz.
**Arlanmaq** – Arlanmaq, utanmaq, həya etmək.
**Arslan** – Aslan.
**Arşun** – Arşın, uzunluq ölçüsü.
**Art** – Ard, arxa, bel.
**Artuq** – Artıq, ziyadə, çox, lazım olmayan.
**Arturmaq** – Artırmaq. Geriyə buraxmaq, sağ buraxmaq.
**Aru** – Bax: arı.
**Aruq** – Arıq.
**Asılan** – Asılan sıldırım.
**Asi (ə.)** – Asi; Asi olmaq – buyruq eşitməmək, itaətdən çıxmaq.
**Asmaq** – 1. Asmaq, sallatmaq, yüksək bir yerdən aşağı sallatmaq, 2. dar ağacına çəkmək, asaraq öldürmək.
**Asuman (f.)** – Asiman, səma, göy.
**Asumanlu** – Tavanlı; Asmanlu gög, tavanı olan.
**Aş** – Yemək.
**Aşağa** – 1. Ayaq tərəf, alçaq tərəf, aşağı, alt, 2. adi, alçaq, bayağı, dəyərsiz.
**Aşanmaq** – Qalxmaq, ucalmaq, dirənmək; Göy yüzinə aşanmaq.
**Aşıqlamaq** – Aşiq olmaq, sevmək, vurulmaq.
**Aşıt** – Gədik, keçid.
**Aşpaz (t.f.aşpəz)** – Yemək bişirən, aşpaz.

**Aşuq** – Aşıq; diz qapaqlarından çıxan oynaq sümüyü, diz qapağı.
**Aşut** – Bax: aşıt. Aşut vermək – yol vermək.
**Atış** – Atışma.
**Atışmaq** – Atışmaq, deyişmək.
**Atlas (ə.)** – Atlas; Parlaq ipək parça; üzü ipək, astarı pambıq parça.
**Av** – Ov.
**Avanmaq** – Dirənmək, göy üzünə dirənmək, ucalmaq.
**Avaz (f.)** – Uca səs.
**Avlanmaq** – Ovlanmaq.
**Avlayu** – Ovlayaraq, ovlanaraq.
**Avsal** – Dabaq xəstəliyi.

**Avuc** – Ovuc; Əlin iç tərəfi, əl dolusu.
**Aya** – İç, əlin ayası – əlin içi; sapanın ayası – içi.
**Ayaq I** – Ayaq; Ayağına at tuşagını vurmaq – evləndirmək, başını bağlamaq.
**Ayaq II** – Qədəh, kasa, fincan.
**Ayaqlu** – Ayağı olan, ayaqlı.
**Ayaqlular** – İnsanlar, adamlar.
**Aydına** – Söz-sözbət, şayiə.
**Ayıb (ə.)** – Nəyinsə dəyərini azaldan şey, eyib, qüsur.
**Ayıblu** – Qüsurlu, eyibli.
**Ayıbluca** – Bax: ayıblu; çox ayıblı.
**Ayırd** – Ayrıc, yolun ayrıcı.
**Ayıtmaq** – Demək.
**Ayqır** – Ayqır. Döl üçün seçilmiş erkək at.
**Ayqırlı** – Ayqırı olan.
**Ayna** – Cümə günü.
**Ayran** – Ayran, içki; Qatıqdan hazırlanmış ağartı.
**Ayrıq** – Ayrısı, özgəsi.
**Ayru** – Ayrı.
**Ayruq** – Ayrı; başqa; bir başqası.
**Aytışmaq** – Deyişmək, höcətləşmək.
**Azğun** – Azğın; Azqın dinlü-dini doğru olmayan, kafir, haqq dinindən ayrı dinə qulluq edən.
**Azim (ə.)** – 1. Böyük, ulu, uca; 2. çox.
**Azmaq** – Amaq. 1. Haqq yolundan çıxmaq, dindən çıxmaq, yolunu azmaq, 2. qudurmaq, həyasızlaşmaq; Azın gəlmək – yolunu itirib gəlmək.
**Aznavur** – Heybətli adam; əsilzadə.
**Azuğ** – Gündəlik yemək, yeyiləcək şeylər, qida, yol yeməyi.

## B

**Baba** – Ata, dədə.
**Babacuq** – Atacıq.
**Baca** – Baca. Yeraltı qazmalarda, yaxud daxmalarda tüstünün çıxması, havanın dəyişməsi və işıq düşməsi üçün qoyulan deşik.

**Bacuq** – Bədənin beldən topuğa qədər hissəsi.
**Badya** – Badya; mis vedrə, misdən süd və su qabı.
**Bağdama** – Badalaq.
**Bağdamaq** – Badalaq vurmaq; qucaqlamaq, sarılmaq, fırlatmaq.
**Bağır** – Bağır, ciyər, köks.
**Bağlu** – Bağlı.
**Bağşurmaq** – Razılaşmaq.
**Bahadur** – Bahadır, qəhrəman.
**Bahadurluq** – Cəsurluq, igidlik, qəhrəmanlıq, cəsarət.
**Baqır** – Mis.
**Baqi (ə.)** – Ölümsüz, əbədi qalan, ölməyən, daimi.
**Baqisi** – Qalan.
**Baqmaq** – 1. Baxmaq, 2. gözləmək, 3. bir şeyə maraq etmək.
**Balçaq** – Qəbzə; qılıncın dəstəsi, tutacağı qəbzəsindəki əli qoruyan dəmir.
**Balçıq** – Palçıq, ayağa yapışan palçıq, gil, gilli torpaq; Balçığa baturmaq – ləyaqətini alçaltmaq.
**Balkır** – Yaralı.
**Balqımaq** – Parlamaq.
**Bam** – Dik, təpə; bam-bam təpə.
**Bam-bam** – Dik-dik.
**Ban I** – Əzan; Ban banlatmaq – əzan vermək.
**Ban II** – Çadırın qurulması üçün işi görən hündür ağac; arabanın təkərdən yuxarı hissəsi, qutusu, arabanın qabağına qoşmaq üçün uzun ağac, arabanın oxu.
**Banlamaq** – Banlamaq; əzan vermək.
**Banu** – Xanım.
**Baraq** – İt adı.
**Bargah** – Ev, otaq.
**Barı (f.)** – Barı, hasar.
**Başarmaq** – Başarmaq, bacarmaq.
**Başlı** – Başçı; qüdrət sahibi olan, ağıllı.
**Başmaq** – Başmaq, ayaqqabı.
**Batman** – Batman; çəki, ölçü vahidi.
**Bayağı** – Bayağı, xoşa gəlməyən.
**Bayaq** – Bayaq, bir az bundan əvvəl.
**Baymaq** – Varlanmaq.

**Bayır** - Bayır, eşik.
**Bazirgan (f.)** - Tacir, tacir dəstəsi.
**Bazlamac (bozlamac)** - Bazlamac, yağlı çörək.
**Becid** - Tez, cəld.
**Behişt (f.)** - Cənnət.
**Belinleyü** - Çaşaraq, qorxub sıçrayaraq.
**Belinləmək** - Qəflətən qorxmaq, qorxub sıçramaq, qorxaraq oyanmaq.
**Beşikkərtmə** - Göbəkkəsmə, nişanlı.
**Bezə (f)** - Miskin, fağır.
**Bəbək** - Bala, övlad.
**Bədəvi** - Bədöy.
**Bəg** - Bəy.
**Bəgənmək** - Bəyənmək, yaxşı və gözəl görmək, xoşa gəlmək.
**Bəglik** - Bəylik.
**Bəgzadə** - Bəyzadə.
**Bəha (f.)** - Dəyər, qiymət, ekvivalent; bəhasini gətirmək – öz dəyərində bir əvəz gətirmək.
**Bəhri** - Su quşu.
**Bək** - Bərk.
**Bəkil** - Gözətçi.
**Bəkləmək** - 1. Qorumaq, 2. gözləmək.
**Bəqa (ə.)** - Əbədilik, ölümsüzlük, davam etmə.
**Bələmək** - Bələmək, uşağı bürümək, sarımaq.
**Bəlki (f.)** - Bəlkə.
**Bəllü** - Bəlli məlum.
**Bəlürmək** - Bəlli olmaq.
**Bəlürsüz** - Məlum olmayan.
**Bən** - Mən (I şəxsin təki).
**Bərü** - Bəri.
**Bəsərək** - Tüklü dəvə cinsi, gənc və qüvvətli dəvə, iki hürgüclü dəvə və ərəb dəvəsindən olan nər dəvə.
**Bəyan (ə.)** - Anlatma, bildirmə; Bəyan etmək – bildirmək.
**Bığ** - Bığ.
**Bığçağ** - Bığ yeri.
**Bıldır-bıldır** - Bıldır-bıldır, gildir-gildir.

**Bıraqmaq** - Buraxmaq, əldən boşlamak, burakmak, atmaq, vaz keçmək.

**Bıyıq** - Bığ; Bıyacığı kararmaq – bığ yeri tərləmək.

**Bici** - Cici-bici, zəif, çəlimsiz.

**Bidət (ə.)** - bidət. 1. Dində olmadığı halda sonradan daxil olan, dinin əslində olmayan artım və ya əskiklik; Dindən kənara çıxma.

**Bixəbər (f)** - Xəbərsiz.

**Bilə** - Birlikdə, ilə.

**Biləsi** - Özü.

**Bınar** - Bulaq.

**Binət** - Minik.

**Binmək** - Minmək.

**Birçək** - Birçək.

**Birçəkli** - Birçəyi olan.

**Birə** - Birə, bit cinsindən sıçrayan parazit.

**Birər** - Bir-bir.

**Birlik** - Təklik, tək olma; Birlik, vəhdət, Allah birliyi, yalnızlıq.

**Bismillah (ə)** - Allahın adı ilə.

**Bit** - Bit (parazit, həşərat).

**Bitəkəllüf (ə)** - 1. Salamsız-kəlamsız, 2. dərhal, hazırlanmadan, olduğu kimi.

**Bitərli** - 1. Bitən şeylər, bitkilər, bitənlər, 2. bollu, münbit, verimli.

**Bitmək** - Olmaq, doğulmaq.

**Bizə** - Bax: Bezə.

**Bizəval (f.ə.)** - Ölümsüz, sonu olmayan, zavalsız, əbədi.

**Boğaz** - Hamilə, ikicanlı.

**Boğazca** - Hamilə (Bax: boğaz).

**Boğazlamaq** - Boğazlamaq. Boğazını (başını) kəsmək, öldürmək; Dalaşarkən boğazdan yapışmaq, boğmaq.

**Bolay ki** - Olsun ki.

**Boru** - Boru – musiqi aləti.

**Bostan (f.)** - Güllük, gül bağçası, xoş qoxulu meyvə bağçası, bağça.

**Boşanmaq** - Açılmaq.

**Boy I** - Soy, kök; tayfa, qəbilə.

**Boy II** - Dastan, hekayət.

**Boylamaq** – Dastan söyləmək, hekayət danışmaq.
**Boyuncuq** – Boyundan asılan bəzək, muncuq.
**Bozac** – Bozumtul, boz rəngə çalan.
**Bozlamaq** – Yanıqlı ağlamaq, dəvənin balasını axtarıb böyürməsi.
**Bozmaq** – Pozmaq. Dağıtmaq.
**Bögələk** – Həşərat adı.
**Bögür** – Böyür, yan tərəf.
**Bögürmək** – Böyürmək.
**Börk** – Papaq, dəri papaq; sərpuş; başlıq; uzun keçə sərpuşun bir növü.
**Böylə** – Belə, bunun kimi, buna bənzər, bu şəkildə.
**Bucuq** – Yarı, para.
**Bud** – Bud, bədən üzvü.
**Buğa** – Buğa, toxumluq iri buynuzlu heyvan.
**Buğra** – Erkək dəvə.
**Buğur** – (Bax: Buğra).
**Buqağu** – Cilov.
**Bulmaq** – Tapmaq.
**Buluşmaq** – 1. Qarşılaşmaq, təsadüf etmək, rastlaşmaq, 2. görüşmək, üz-üzə gəlmək.
**Bun** – Sıxıntı, əzab.
**Bunalmaq** – Halı pis olmaq.
**Buncılayın** – Belə, bunun kimi, buna bənzər.
**Bunda** – Burada.
**Bunlu** – Qəmli, kədərli.
**Burçuq** – Puçur-puçur.
**Burma** – Burma (saç).
**Bustan** – Gülşən.
**Buta** – Buta; nişanə; hədəf.
**Buyruq** – Əmr, hökm, fərman, iradə, buyurma.
**Buyurmaq** – 1. Əmr etmək, söyləmək, demək, 2. bir yerə gəlib oranı şərəfləndirmək, təşrif gətirmək.
**Buzağı** – Buzov.
**Bükmək** – 1. Burub qoparmaq, 2. həlak etmək.
**Bürc (ə.)** – Qala başındakı qüllə, qala, hasar.
**Bürçək** – Birçək, başın ortasını qırxdırıb yanlarında saxlanan tüklər; uzun saçlı qadınların qulaqlarının üstündə buraxdıqları kəsik tüklər.

**Bürə** - Birə (parazit, həşarat).
**Büsərək** - Bax: Bəsərək. Qızmış dəvə, tox, azğın dəvə.
**Bütün** - 1. Bütün, bütöv; 2. cəld, sıçrayışla.

## C

**Cahil (ə.)** - Biliksiz, bir şey bilməyən, qəflətdə olan.
**Camal** - Gözəllik, üz, sifət, sima.
**Canvər** - Canavar, qurd, yırtıcı, yadquzaq, vəhşi heyvan; Canavarlar sərhəngi (yırtıcı heyvanların başı); Canavarlar sərvəri (heyvanların şahı).
**Cariyə (ə.)** - Gənc qadın xidmətçi, qaravaş, kəniz.
**Casus (ə.)** - Gizli şeyləri arayıb axtaran, casus, xəfiyyə.
**Casuslamaq** - Kəşfiyyat aparmaq. Gizli şeyləri araşdırmaq, soruşmaq, gizlidən arayıb soruşmaq, casusluq etmək.
**Cəbbar (ə.)** - Allahın adlarından biri, qüdrət sahibi.
**Cəbbəxana** - 1. Silah anbarı, döyüş vasitələrinin olduğu yer, 2. döyüş vasitələri, döyüş üçün lazımlı şeylər.
**Cəbrayıl** - Dörd böyük mələkdən biri, Allahla peyğəmbərləri arasında elçilik etməyə, Allahın buyruq və vəhylərini bildirməyə xidmət edir.
**Cədd (ə.)** - 1. Ata, 2. dədə, 3. baba, əcdad.
**Cəhənnəm** - Axirətdə əzab yerinin adı, tamu.
**Cəllad (ə.)** - Cəllad; ölüm hökmünü icra edən adam; Qaniçən, qəddar, mərhəmətsiz adam.
**Cəm (ə.)** - Cəm, yığın; Cəm etmək – toplamaq.
**Cəmi** - Bütün, hamısı.
**Cəmisi** - Hamısı.
**Cəng (f.)** - Vuruş, döyüş, savaş; Cəng aləti – silah; Cəng etmək, döyüşmək; Cəng və savaş etmək – müharibə etmək.
**Cənnət (ə.)** - Axirətdə nemətlər yurdu, yaxşılar və Allahdan qorxanlar üçün axirətdə hazırlanmış olan şənlik və istirahət yerinin adı, behişt.
**Cəza (ə.)** - 1. Əziyyət, işgəncə, 2. bir günahın əvəzi.
**Cığır** - 1. Gediş-gəlişdən əmələ gələn ensiz, dar yol – cığır. 2. nişan, iz, xətt.
**Cılasun** - İgid, qəhrəman.

| | |
|---|---|
| **Cılasunluq** | - Qəhrəmanlıq, igidlik, bahadırlıq. |
| **Cılbır** | - Yüyən. |
| **Cici** | - Kiçik, zəif, cici-bacı. |
| **Cici-bici** | - Xoş, gözəl, incə, gövdəli. |
| **Cida** | - Mızraq; nizə, süngü. |
| **Cidalu** | - Mizraqlı, nizəli, süngülü. |
| **Cilavı** | - Cilov. |
| **Cima (ə.)** | - Cinsi əlaqədə olma, cütləşmə. |
| **Cisim (ə.)** | - Cisim; Eni, uzunu və hündürlüyü olan şey. |
| **Comərd** | - Əliaçıq; Comərd ərənlər; Comərdlər comərdi. |
| **Cövşən (f.)** | - Zireh. |
| **Cuş (f.)** | - Coşğunluq, qanı qaynama. |
| **Cübbə** | - 1. Qolsuz və ətəkləri qısa geyim, minik atına geydirilən dar fəracə, bürüncək. |
| **Cümlə (ə.)** | - Bütün, hamı. |

## Ç

| | |
|---|---|
| **Çadır** | - Çadır. Mərasim və tədbir üçün kecədən qurulmuş geniş alaçıq, otaq. |
| **Çağ** | - Çağ, vaxt. |
| **Çağırmaq** | - Çağırmaq. Dəvət etmək. |
| **Çağlamaq** | - Çağlamaq (su haqqında); şırıl-şırıl axmaq, şırıldamaq. |
| **Çağnam-çağnam** | - Çağlayaraq. |
| **Çak (f.)** | - Yırtıq; Çak etmək – yırtmaq. |
| **Çaqmaq I** | - Çaxmaq. |
| **Çaqmaq II** | - Çaxmaq daşı. |
| **Çaqmaqlu** | - Çaxmaqlı. |
| **Çal I** | - Boz, ağlı-qaralı rəng. |
| **Çal II** | - Xoruz. |
| **Çalımlu** | - Lovğa. |
| **Çalış** | - Zərbə, vuruş, döyüş. |
| **Çalışmaq** | - Zərbə vurmaq; silahla döyüşmək, silahla çarpışmaq, çarpışmaq, savaşmaq. |
| **Çalqara** | - Ala-bula; Ab. çal; ağlı-qaralı saqqal, iki rəngli mənasında. |

**Çalmaq** – Vurmaq.
**Çap-çap** – Şap-şap.
**Çapar** – Qasid, çapa çaparaq, tez, cəld; poçt sürücüsü, mənzil, poçt yeri, qonaq yeri; Qonşu, çapar, poçtalyon; (çapar ulak) xəbəri tez yetişdirmək üzrə hər mənzildə atı və minicisi dəyişən poçt, çapar; poçt çaparı; Çapar gəlmək; Çapar getmək – tez, sürətlə getmək; Çapar varmaq – tez çatmaq.
**Çapdırmaq I** – Atı çapmaq.
**Çapdırmaq II** – Talan etmək.
**Çapılma** – Vurulma, 2. çarpılma, 3. vurulub yaralanma.
**Çapqun** – Dördnala çapma.
**Çapmaq I** – Parçalamaq; baş kəsmək.
**Çapmaq II** – Atda sürətlə getmək.
**Çapmaq III** – Qarət etmək.
**Çardaq (f.)** – Bir otaq içində ayrılmış yüksək yer; gözətçi hücrəsi; dörd dirək üstündə üstü açıq və yüksək yer.
**Çarə (f.)** – Kömək, dərman, tədbir.
**Çarqağı** – Qarovul; qabaqcıl əsgər.
**Çarpışdırmaq** – Çarpışdırmaq, bir-birinə qarışdırmaq, aranı vuruşdurmaq.
**Çarpmaq** – Qəsb etmək, talan etmək, qarət etmək.
**Çat-çat** – Səs təqlidi – çat-çat çatlamaq.
**Çatlaquç** – Çatlamış; yarıq, çatlaq.
**Çatlatmaq** – Ayırmaq, partlatmaq, yarıq açmaq.
**Çavlanmaq** – Şöhrətlənmək, ad çıxarmaq.
**Çavuş** – Gözətçi, nəzarət məmuru, saray mühafizə komandanı.
**Çavuşlu** – Başçısı olan.
**Çay** – Vəhşi xoruz.
**Çaya** – Dönərək; sürətli, çevik, mütəhərrik.
**Çayır** – Çayır (bitki), çəmən.
**Çevirmək** – Dövrələmək, sarmaq, alt-üst etmək, devirmək, döndərmək.
**Çevrə** – Dörd yan, ətraf, dairə; Çevrə almaq – dövrəyə almaq.
**Çəkişmək** – Döyüşmək, savaşmaq.
**Çələb** – Allah. Tanrı.
**Çənbər** – Dairəvi, qurşaq.

**Çəngəl** – Qarmaq, bir neçə dişi olan qarmaq, yabaşəkilli alət.
**Çəri** – Əsgər; Çəri dərmək – əsgər toplamaq; Çəri başı – komandan, baş komandan.
**Çərkəz** – Çərkəz; mahir döyüşçü.
**Çətir** – Çadır.
**Çətirlü** – Çadırlı. Çətirli.
**Çətük** – Pişik.
**Çığırtmaq** – Bağırtmaq.
**Çığnam-çığnam** – Şırıl-şırıl, çağlaya-çağlaya.
**Çıqa** – Çıxaraq.
**Çıqarmaq** – Çıxarmaq.
**Çıqmaq** – Çıxmaq.
**Çılbır** – Yüyən.
**Çığrı** – Çadırın qumaş dəliyinin ağac halqası.
**Çınlamaq** – Səslənmək, cingildəmək.
**Çıplaq** – 1. Çılpaq, soyunmuş, üryan, 2. (məc.) fağır, möhtac, yoxsul.
**Çırçıplaq** – Soyunmuş, lüt, çılpaq.
**Çırğab** – Qızılla bəzənmiş paltar və başqa şeylər.
**Çırpındı** – Çırpıntı.
**Çigin** – Çiyin.
**Çilbər** – Yüyən.
**Çoxmaq** – Çoxalmaq.
**Çoqramaq** – Qaynamaq, fışqırmaq.
**Çoq** – Çox.
**Çoluq** – Çoluq – çoban-çoluq. cocuq, evdəkilər, ailə (ev adamları); Övlad və arvad, evdəkilər; uşaq, uşaqlar.
**Çomaq** – Çomaq, iri kötək və dəyənək; toppuz, toxmaq, əsa, dəyənək; ağacdan başı toppuz kimi yuvarlaq olan dəyənək; (vurmaq üçün) ucunda bir yumrusu olan uzun bir dəyənək; Ucu gürz kimi yuvarlaq olan; ucu yumru kötək, ucu toppuzlu kötək.
**Çovuxmaq** – Düşmək, üstünə düşmək.
**Çökmək** – Çökmək, çömbəlmək.
**Çöldi** – Hədiyyə; elə ənama deyərlər ki, bir dilavər cəngdə bahadırlıq edə və ya vəzifəsində mahir bir adam nadir bir şey işləyə, müqabilində verilər; Qəbul edilmiş şey,

bəxşiş və mükafat olaraq aldığı qənimət, yaxşı bir iş, göstərilən bir cəsarət əvəzində verilən bir mükafat, bir hədiyyə; bəxşiş, ərməğan, hədiyyə.

**Çöngə** – Zəif, tavanasız.

**Çöngəlmək** – Zəifləmək, çevrilmək.

**Çovqan** – Çovkan. Başı əyri mizraq, meydanda onunla top oynayırlar.

**Çözmək** – Açmaq, izah etmək.

**Çuxa** – Yundan hazırlanmış üst geyimi.

**Çuqa** – Bax: Çuxa.

**Çulğamaq** – Bürümək, əhatə etmək, sarmaq, culğamaq.

**Çuval** – Çuval; Un, dən yığmaq üçün toxunmuş kisə.

**Çün** – 1. Bir halda ki, 2. madam ki, 3. çünki.

**Çürümək** – Çürümək.

## D

**Dad (f.)** – 1. ədalət, 2. imdad, imdad deyə çağırma, yardım istəmə.

**Dadı** – Dayə.

**Dağ və taş** – Hər yer, bütün çevrə, hər tərəf.

**Dağarcıq** – Dağarcıq.

**Daxı** – Dəxi, daha.

**Daqınmaq** – Taxmaq, geyinmək.

**Dal** – Budaq, pöhrə, ağacın kolun düz çıxmış qanadları.

**Dalamaq // talamaq** – Qudurmuş itin dişləməsi.

**Dalusı** – İki kürəyin arası, arxası.

**Dam (f.)** – Tələ.

**Dan (dan-dansux)** – Qəribə, təəccüblü; sövdələşmə.

**Danış** – Tövsiyə, öyüd, məsləhət, müzakirə.

**Danışıq** – Öyüd, məşvərət, müşavirə, müzakirə, məsləhət.

**Danışmaq** – Məşvərət etmək, öyüd almaq, müşavirə etmək.

**Dansux** – Bax: Dan; müstəsna, son dərəcə gözəl bir şey; hədiyyə, ərməğan.

**Dardağan** – Dağınıq.

**Darı** – Dənli bitki (arpa, buğda cinsindən).
**Darımaq** – Talan etmək.
**Dartmaq** – Dartmaq; Çəkmək, söymək; "...ağ birçəklü qarınun südin dartdı".
**Daşqun-daşqun** – Daşqın-daşqın.
**Davul** – Davul. Hər iki tərəfi dəri ilə tutulmuş musiqi aləti (nağaranın böyük forması).
**Davul urmaq** – Davul çalmaq, davul döymək.
**Davulbaz** – Bax: Davul.
**Dayaq** – Dayaq, dəstək ola biləcək ağac, dayanacaq şey, dayaq, dəstək; dayaq, dirək, ağac, kömək, arxa, himayə, özül.
**Dayamaq** – Dayaq olmaq; dəstək qoymaq, dirək vurmaq.
**Dayanmaq** – 1. Dayanmaq, ehtiyat etmək, 3. yüklənmək, ağırlığını vermək.
**Dayə (f)** – Dayə; əmizdirmədən uşağa baxan dayə.
**Daz** – Daz, keçəl.
**Degəc** – Dedikdə.
**Degil** – Deyil.
**Devlət** – Sərvət.
**Deyindi** – Haydı.
**Dədə I** – 1. Baba, ananın və ya atanın atası, 2. ata, 3. dərvişlərin piri, 4. ixtiyar yaşlı; hörmət mənasında ixtiyar kişilərə müraciət.
**Dədə II** – Ləqəb – Dədə Qorqud (k.a.).
**Dəgin** – -dək, qədər.
**Dəfi (ə.)** – Dərhal, birdən.
**Dəgəndə** – Gəldiyi zaman, işıq vurduğu zaman, əks etdiyi vaxt.
**Dəgənək** – Dəyənək, iri əl ağacı.
**Dəgirman** – Dəyirman.
**Dəgmək** – Çatmaq, yetişmək, vasil olmaq.
**Dəklü** – Qədər, kimi.
**Dəli** – Qəhrəman, qorxusuz.
**Dəlim** – Çoxlu.
**Dəlmək** – 1. Dəlik açmaq, 2. göz-göz etmək.
**Dəlü** – (Bax: dəli).
**Dəlük** – Dəlik-deşik.

**Dəlülük** – Dəlilik.
**Dəm (f.)** – An. vaxt, zaman.
**Dəmrən** – Oxun dəmir ucluğu.
**Dəmrənsüz** – Ucluqsuz. Dəmir olmayan, ucuna dəmir taxılmamış olan.
**Dəmür** – Dəmir, dəmirdən; Dəmür don – zireh; dəmür donlu – zirehli, zirehlənmiş; Dəmürlü – zirehli.
**Dənəmək** – Sınamaq, təcrübə etmək.
**Dənlü** – Qədər.
**Dəpə** – 1. Təpə, kiçik dağ, 2. uc, zirvə.
**Dəpəcük** – Təpəcik.
**Dəpəgən** – Təpəyən, cuman.
**Dəpələmək** – Təpələmək.
**Dəpər** – Baltaya bənzər döyüş silahı.
**Dəpilmək** – Təpik altında qalmaq.
**Dəpmə** – Təpik atma, təpik, qoşa; Dəpmə urmaq – şıllaq atmaq, təpikləmək.
**Dəpmək** – Şıllaqlamaq, ayaqla vurmaq, heyvanın arxa ayaqla geri vurması.
**Dəprənmək** – Tərpənmək; silkələnmək, silkələnib qalxmaq; Dəpdiklərincə – ayaqlarını vurduqca.
**Dəprətmək** – Tərpətmək.
**Dərəcik** – Kiçik dərə.
**Dərgah (f.)** – 1. Astana, kandar, qapı önü; saray, iqamətgah, 2. Allahın mərhəməti, şəfqəti, köməyi, inayəti mənasında.
**Dəri** – Dəri; Heyvanın tüklə örtülü dərisi; Gön.
**Dərib durmaq** – Toplamaq.
**Dərilmək** – Toplanmaq.
**Dərləmək** – Tərləmək, qan-tər içində olmaq.
**Dərmək** – Toplamaq.
**Dərnək** – Məclis, qanunvericilik yeri.
**Dərnəksiz** – Qanun-qaydasız, başı pozuq.
**Dərsinmək** – Çəkilməyən, çətin dartılan (ox-yay).
**Dərvənd (f.)** – Dağ keçidi.
**Dərviş (f.)** – Dərviş; Qapı-qapı gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və

Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyan sufi.

**Dəstur (ə.)** - Müsaidə, izin, icazə.

**Dəstursızca** - İcazəsiz, izinsiz.

**Dəviləmək** - Dava etmək, haqqı aramaq, hesab soruşmaq.

**Didar // dizar (f.)** - 1. Üz, çöhrə, 2. camal, Allahın camalı, üzü.

**Dikilmək** - Tikilmək, qurulmaq.

**Dikmək** - Tikmək.

**Dil** - Dil, ağızda olan dil; əsir, dustaq, düşmən haqqında xəbər almaq, düşmənin vəziyyətini söylətmək üçün alınan əsir.

**Dilbənd** - Çalma.

**Dilək** - İstək, arzu, xahiş, tələb, təmənna.

**Diləmək** - İstəmək, arzu etmək, rica etmək.

**Dilmək** - Dilimləmək; uzun-uzun yarmaq, uzun və ensiz dilimlərə bölmək, yastı kəsmək, yarmaq, kəsmək, kəsik-kəsik etmək.

**Dilkü** - Tülkü.

**Din** - Qeybət. Arxadan pisləmə, birini arxasınca qınama, dedi-qodu etmək; Din dinləmək – iki adamın danışığına gizlicə qulaq asmaq.

**Dinləmək** - 1. Qulaq vermək, 2. saymaq, 3. öyüd almaq, itaət etmək.

**Dinli** - Dinə qulluq edən.

**Diraz (f.)** - Uzun; Diraz etmək – uzatmaq.

**Dirək** - Dirək, dayaq, paya; dirək urmaq – dayaq vurmaq; (Bir şeyi saxlamaq üçün altına vurulan tir, sütun, dayaq).

**Dirgürmək** - 1. Diriltmək, 2. sağ buraxmaq.

**Dirim** - Dirilik, həyat.

**Dirlük** - Bax: Dirim.

**Dişi** - Dişi; Dişi əhli – qadın, qadın cinsi.

**Ditmək** - Didmək, xırdalamaq.

**Ditrəmək** - Titrəmək.

**Divan (ə.)** - Məclis, böyüklərin toplandığı yer, hökumət məclisi.

**Divşirmək** - Yığmaq, dərmək, döşürmək.

**Dizar** - Bax: didar.

**Doğan** - Möhkəm əyri dimdikli, uzun, iti qanadlı, iti caynaqlı yırtıcı ov quşu.

**Doğmaq** – Dünyaya gəlmək, doğulmaq.
**Doxarlı** – Toxarlar (xalq adı).
**Dola** – Bələk.
**Dolab** – Çox, bol; Dolab-dolab ağ süd – bol süd, məmədən gələn gur süd.
**Dolama** – Geyim adı.
**Dolamac** – Dolambac.
**Doqunmaq** – Toxunmaq, dəymək, ilişmək, rast gəlmək.
**Doquzlama** – Qədim türk adətlərindən birinin ifadəsidir. Qədim türklər birinə hədiyyə verərkən yaxud bir günahkarı cəzalandırarkən doqquz dənə qiymətli əşya verərlər və ya alardılar.
**Don** – Geiym.
**Donanma** – Geyinmə.
**Donatma** – Geyindirmə.
**Donlu** – Donlu, geyimli.
**Dop** – Mərkəz, orta; Dopa dəpmək – mərkəzə cummaq.
**Dopa** – Topa.
**Doru** – At cinsi.
**Doymaq** – Dözmək, səbr etmək.
**Doyum** – Qənimət.
**Dögmək** – Döymək, çalmaq; Davullar dögmək.
**Dögüşmək** – Savaşmaq, mübahisə etmək, döyüş etmək, müharibə etmək.
**Dökdürmək** – Tökdürmək, axıtmaq.
**Dökmək** – Tökmək.
**Döl** – Döl; törəmə; nəsil.
**Dölbənd** – Çox incə və sıx toxunmuş pambıqlı qumaş, nazik batist, ağ incə bez çalma.
**Dölək** – Gözəl cins.
**Dölüm** – Döl yeri.
**Dövlət (ə.)** – Ağıl. Bəxt, iqbal, uğur, xeyir, səadət.
**Dövlətlü** – 1. Bəxtli, xeyirli, 2. uca, ulu, 3. ağıllı.
**Dövlətsüz** – Uğursuz, xeyirsiz.
**Dövşürmək // döşürmək** – Yığmaq, toplamaq, dərmək, dərib gətirmək.
**Durğurma** – Durquzma, qaldırma.

**Durı** - Duru, aydın, bulanıq olmayan, şəffaf.
**Duru gəlmək** - Ayağa qalxmaq, dikəlmək, qiyam etmək.
**Duruş** - Duruş.
**Duruşdurmaq** - Üz-üzə qoymaq, haqq-hesab çəkmək (məhşərdə).
**Duş I** - Yuxu, röya.
**Duş II** - Tuş, rast gəlmə.
**Duşaq** - Tuşaq, çidar. Ayaq bağı, ata vurulan ayaq bağı, atların qabaq ayağına vurulan zəncir.
**Dutsaq** - Dustaq.
**Duvaxlu** - Duvaqlı.
**Duvaq** - Duvaq, üz örtüyü.
**Duymaq** - 1. Eşitmək, 2. hiss etmək, 3. sezmək, 4. anlamaq.
**Dügmə** - Düymə, ilgək.
**Dügmək** - Düymək, bağlamaq.
**Dügün** - Toy, şənlik, düyün.
**Dükənmək** - Tükənmək, bitmək, qurtarmaq.
**Düldül** - Həzrəti Əlinin atının adı.
**Düm** - Bütün.
**Dün I** - Dünən.
**Dün II** - Gecə. Dün bucağı – axşam üstü.
**Dünlük** - Pəncərə, baca.
**Dünlə** - Gecəikən, gecə vaxtı.
**Dünün** - Gecə ikən.
**Dürişmək** - Çalışmaq, cəhd etmək, vuruşmaq.
**Dürlü** - Növ, tip, fərqləndirici əlamət, cürbəcür, çoxlu, növbənöv, qəribə.
**Dürsinmək** - Qorxmaq.
**Dürtüşmək** - Vuruşmaq, bir-birin itələmək.

## E

**Edicək** - Edincə.
**Edigəc** - Edincə, etcək, edən kimi.
**El** - Ölkə; el; dövlət.
**Emdi** - İndi.
**Emrənmək** - Sevmək, istəmək.
**Erişmək** - Birləşmək, yetişmək, çatmaq.

**Erkək** – 1. Mərd, kişi, 2. igid, cəsur, bahadır.
**Erkən** – Tezdən, ertədən.
**Ermək** – Çatmaq, birləşmək, yetişmək.
**Erüşdürmək** – Meydana gətirmək, (yara) açmaq.
**Esləmək** – Dinləmək, itaət etmək.
**Eş** – Dost, yoldaş.
**Eşək** – Eşşək, ulaq.
**Eşik** – Eşik; qapı; çöl.
**Eşmək** – Çapmaq, yortmaq (atı).
**Ev** – Otaq, yaşayış yeri, olacaq.
**Evərmək** – Evləndirmək.
**Evlü** – Evli, ailəli; Evlü evinə gəlmək – hər kəsin yerinə qayıtması.
**Eyilik** – Nəciblik, lütf, xeyir, yaxşılıq.
**Eylə** – Elə (işarə əvəzliyi).
**Eylənmək** – Yola düzəlmək.
**Eyü** – Yaxşı; Eyi olmaq – yaxşı olmaq.

## Ə

**Əbrişim (f.)** – İpək, ipək parça.
**Ədəblənmək** – Utanmaq, çəkinmək, ədəbə zidd olmamaq.
**Ədük** – Ayaqqabı, çəkmə, məst.
**Əgin** – Əyin, bədən.
**Əglənmək** – Əylənmək.
**Əgmək** – Əymək, bir yana yatırmaq, meyl etdirmək.
**Əgri** – Əyri.
**Əhd (ə.)** – Söz vermə, and, vəd; Əhdini bozmaq – vədini pozmaq.
**Əhəd (ə.)** – Bir tək; Allahın adlarından biri.
**Əhl** – Ailədə olanlar; ər, arvad, uşaqlar; Ailə.
**Əhval (ə.)** – Hallar, başa gələnlər; Ruhi vəziyyət.
**Əjdərha (f.)** – Əjdaha; böyük ilan, insan yeyən ilan.
**Əksig** – Əksik, kəm.
**Əksilmək** – Ayrılmaq, qeyb olmaq, ölüb ayrılmaq, sayı azalmaq.
**Əksüglüg** – Qüsur, əksiklik, nöqsan, eyib.
**Əkşəşmək** – Sataşmaq, əylənmək, oynaşmaq.
**Əlaqibət** – Sonunda, nəhayətində.

**Əlaman (ə.)** – 1. Mərhəmət, 2. sənə sığındım, 3. bağışla məni, 4. amandır.

**Əlbəttə** – Mütləq, hər halda, şübhəsiz, doğru, qətiyyən, tərəddüdsüz, labüd.

**Əleyhissəlam (ə.)** – Peyğəmbərlərin adı çəkilən zaman "ona salam olsun" mənasında bir dua.

**Ələm (ə.)** – Bayraq (dini məzmunda, qara rəngli parçadan, yas əlaməti bildirir).

**Əlhasil (ə.)** – Xülasə.

**Əlhəmdülillah (ə.)** – Mövlaya şükür, Allaha şükr olsun.

**Əlüfəçi** – Süvari; Ata minmiş, atlı.

**Əlük** – Dağ keçisi, əlik.

**Əlüklü** – Əlikli.

**Əmanət** – Zərərsiz olan bir kimsəyə tapşırılan şey, sonradan almaq üzrə saxlanmaq və qorunmaq üçün bir kimsəyə tapşırılan cisim.

**Əməkdar** – Əmək sərf edən qul və ya məmur, ixtiyar və sədaqətli xidmətçi.

**Əmiraxur** – Sultanın və ya bəyin heyvanlarına, sürüsünə, başqa işlərinə baxan şəxs, axura baxan bəy; əmiraxur başı – əmir-axurların böyüyü.

**Əmmə (ə.)** – Nəyi? Quranda 30-cu cüzün başındakı Nəbə surəsinin ilk ayəsi olan "əmmə yetəsa-əlun"un (onlar bir-birindən nəyi soruşurlar?) ilk kəlməsidir. Ona görə bu cüz "Əmmə cüzü" adlandırılmışdır.

**Əmmi** – (Ərəbcə "əmm" sözünün təhrifi); Atanın qardaşı, əmi.

**Əmr (ə.)** – Buyruq; Əmr eyləmək – buyurmaq.

**Əmzirmək** – Əmizdirmək; Döşdən süd vermək.

**Ənik** – Vəhşi heyvan balası; köpək.

**Ənsə** – Boyun.

**Ənşişmək** – Bərabər işləmək, birlikdə işləmək.

**Ənük** – Bax: ənik.

**Ər** – 1. kişi, 2. həddi buluğa çatmış kişi, 3. ər, igid, 4. mərd, qəhrəman.

**Ərcəl** – Bədxasiyyət, pozğun.

**Ərdəm** – Fəzilət, mərifət.

**Ərdəmli** – Fəzilətli, mərifətli, hünərli.
**Ərdəmlü** – Bax: ərdəmli.
**Ərdil** – Ürəkli, cəsur.
**Ərəbə** – Araba.
**Ərəbi (ə.)** – Ərəblərə məxsus; Ərəbi atlar – ərəb atları, cins atlar.
**Ərəfat** – Ərəfat (y.a.) – Məkkə yaxınlığında dağ.
**Ərən** – İgid, cəsur, mərd, yaxşı yetişmiş kamil, müqəddəs, pir.
**Ərənlər** – Ululular, ulu qəhrəmanlar.
**Ərgənlik** – Qadının kişiyə hədiyyəsi.
**Ərkəc** – Erkəc; keçinin iki yaşından sonrakı erkək balası.
**Ərlik** – Kişilik.
**Ərməğan** – Ərməğan, hədiyyə, peşkəş, sovqat, yadigar.
**Ərş** – Yer-göy, göyün yeddinci qatı, asiman.
**Ərzani (f.)** – Lütf, yaxşılıq; Ərzani qılmaq – lütf etmək, yaxşılıq etmək.
**Əsa (ə.)** – Dəyənək, zopa, çomaq.
**Əsbab (ə.)** – Gərəkli şeylər.
**Əsən** – Sağ, salamat.
**Əsil** – Əsil-nəsil, törəmə.
**Əsirgəmək** – Bir şeyin yoxluğuna heyfsilənmək.
**Əski** – 1. Qədimdən qalmış, köhnə, köhnəlmiş, 2. qədim, köhnə.
**Əsmədin** – Əsmədən, əsmədiyi halda.
**Əsrük** – Sərxoş.
**Əsrükmək** – Sərxoş etmək, sərsəmlətmək.
**Ətmək** – Çörək.
**Əvət** – Bəli.
**Əvrən** – Aləm.
**Əvvəl-axır** – Əvvəl-axır, aqibət.
**Əyal (ə.)** – Övlad. Arvad; ailə.
**Əyər** – Yəhər.
**Əyərləmək** – Atın belinə yəhər qoymaq.
**Əyyamla** – Bir neçə gün sonra, bir vaxt sonra, bir müddət sonra.
**Əzəl (ə.)** – 1. Əvvəli olmamaq, əvvəli olmayan zaman, 2. insanların ruhlarının yaradıldığı zaman; Əzəldən yazılmaq – insan taleyinin ilk yaradıldığı zaman təyin edilmiş olmaq.

| | |
|---|---|
| **Əzim (ə.)** | - Böyük, ulu, uca. |
| **Əziz (ə.)** | - Şərəfli, ulu, uca, əziz, qüdrətli; Vəzifə – mənsəb sahibi. |
| **Əzrayıl** | - Əzrayıl (mələk adı). |

## F

| | |
|---|---|
| **Faidə** | - fayda, qazanc, münasib, münasiblik. |
| **Fani (ə.)** | - Fani. Ölümlü, sonu olan, daimi olmayan, keçici. |
| **Fel (ə.)** | - Hərəkət, iş, davranış; Feli dönmək – nə etdiyini bilməmək, tərs iş görmək. |
| **Fəqih (ə.)** | - Din elmini, şəriət elmlərini bilən, oxumuş, müəllim. |
| **Fəraq (ə.)** | - Ayrılıq, ayrılıq acısı; Fəraq gəlmək – ayrılıq acısının gəlməsi. |
| **Fəryad (f.)** | - Ağlayıb sızlama, ah-vay etmə, bağırma, hayqırma, inilti. |
| **Fırlamaq** | - Atılmaq, atılıb şiddətlə tullanmaq. |
| **Fısıl-fısıl** | - Pıçıltı ilə, yavaş səslə, yavaş-yavaş. |
| **Fürsət (ə.)** | - Fürsət, əlverişlilik, uyğunluq, |

## G

| | |
|---|---|
| **Gah... Gah** | - Bəzi-bəzi, bir... bir, zaman-zaman, hərdən-hərdən. |
| **Gah (f.)** | - Bəzən. |
| **Gavur** | - Kafir. |
| **Gecəlik** | - Örpək, ləçək. |
| **Gecim** | - Geyim-kecim. |
| **Gedə** | - Qısa, küt. |
| **Gedərmək** | - Kənar etmək, dəf etmək. |
| **Gedicək** | - Gedincə, ortadan qalxınca. |
| **Gedimlü** | - Getməli olan, ölümlü, sonu olan. |
| **Gen** | - Geniş. |
| **Genə** | - Bir daha, yenə, təkrar. |
| **Genəz** | - Asan. |
| **Gerü** | - Geri. |
| **Geyəsi** | - Geyəcək, paltar. |

**Geyim** – (Geyim) paltar, libas, paltar, ev paltarı.
**Geyürmək** – 1. Geydirmək, bəzətmək, 2. zirehləmək, zireh geydirmək; Geyər olmaq – geymək.
**Geymək** – Geymək, geyinmək, paltar geymək.
**Gələci** – (məc.) ağlı-başı (ağlı gələcisi – ağlı gələcisi).
**Gəlincük** – Gəlin (əzizləmə) – gəlinciyim! Kiçik gəlin, sevgili gəlin.
**Gəliş** – Gəlmə, gəliş.
**Gəlişmək** – Qarşılıqlı gedib-gəlmək.
**Gənəşmək** – Gənəşmək. Məsləhətləşmək, soruşmaq, müşahidə etmək.
**Gərdək** – Gərdək, zifaf evi, toy evi.
**Gərdəkxana** – Təzə evlənənlər üçün ev.
**Gərdun** – Dövran; qara gərdun – ana bətni.
**Gərəkmək** – Gərək olmaq; vacib, zəruri görünmək; lazım olmaq.
**Gərinmək** – Gərilmək, tarım çəkilmək.
**Gərmək** – Gərmək.
**Gətürmək** – 1. Gətirmək, 2. qaldırmaq.
**Gəvəzləmək** – Kobud yemək. Yanmış kömürdə bişirmək, odda bişirmək.
**Gəz I** – Dəfə, kərə.
**Gəz II** – Gəz (kiçik yarıq); oxun yarığı; yay gəzi.
**Gəzləmək** – Nişan almaq, oxu gəzinə qoymaq, oxu kərtiyində yerləşdirmək.
**Gizlü** – Gizli.
**Gor (f.)** – Qəbir, məzar, gor.
**Gödə** – Gövdə.
**Gödək** – Gödək, qısa.
**Gödəlmək** – Qısalmaq, gödəlmək.
**Gög I** – Göy, səma.
**Gög II** – Göy, mavi.
**Gögcə** – Gömgöy.
**Gögcə tağ** – Gömgöy dağ.
**Gögərçin** – Göyərçin.
**Gökcək** – Qeyri-adi gözəl, yeganə gözəl.
**Gölgəlücə** – Kölgəli olan, kölgəsi olan.
**Gömülmək** – Yerə batmaq, yerdə qeyb olmaq, torpaqla örtülmək.

**Gön** – Gön; inək, öküz və kəl dərisindən palıd qozası ilə işlənən ağ dəri.

**Göndər** – Mızraq, qarğı, nizə.

**Görk** – Gözəllik.

**Görkli** – Gözəl, yaraşıqlı.

**Göstək** – Çidar; müxtəlif bağ, bənd və zəncir; heyvanların ayağına vurulan gödək bağ; Göstəgi üzmək – ayağa vurulmuş ipi qırmaq.

**Göygi // göygü** – Kürəkən.

**Göynəmək** – Dərdlənmək, dərd çəkmək, üzülmək, yanmaq.

**Gözcigəz** – 1. Kiçik göz, 2. qəşəng göz.

**Gözçi** – Kəşfiyyatçı, casus, xəfiyyə.

**Gözətmək** – Gözləmək.

**Gözükmək** – Görünmək.

**Gumbur-gumbur** – Gumbultulu; uğuldayan və gurlayan səs; Gumbur-gumbur davullar çalınmaq.

**Günbəd (f.)** – Gümbəz, konusvari formada tavanı olan yuvarlaq bina, qübbəli hər hansı bir bina, qübbə.

**Günlük** – Çətir; kölgə salmaq üçün yarıyan pərdə.

**Günü** – Günü (qadın). Qısqanma, qısqanclıq.

**Gürbüz (f.)** – Zirək, çevik, güclü.

**Gürəş** – Güləş. Tutaşmaq, güləş; Gürəş tutmaq – güləşmək.

**Gürəşmək** – Güləşmək, bir-biri ilə güc sınamaq, pəhləvanların güləşməsi.

**Gürləmək** – Guruldamaq. Gurultu salmaq, nərə çəkmək.

**Gürz (f.)** – Gürz. Qədim silah növü; Dəmirdən çomaq; toppuz, şeşpər.

**Güvənc** – Güvənc, sevinc, öyünmə; dayaq, söykəniləcək şey; fərəh; Sevinc duyumu, daxili açılma; etimad, ümid, güvənilən şey; sevincli, dayanacaq, güvənmək, öyünmək; Arzu, əməl, güvənmə, lovğalanma, öyünmə, qürur, vüqar, əzəmət.

**Güvənmək** – Güvənmək, arxalanmaq.

**Güyəgü** – Bax: göygi.

**Güz** – Payız; Güz alması – payız alması.

**Güzin** – Payızda.

## Ğ

**Ğafil (ə.)** – Bir şeyin fərqinə varmayan, diqqətsiz, xəbərsiz; Qafil olmaq.

**Ğafillə** – Xəbəri olmadan, xəbərsizcə, fərqinə varmadan.

**Ğafillücə** – Məlumatı olmayan, xəbərsiz.

**Ğaib (ə.)** – Məlum olmayan, görünməyən, meydanda olmayan.

**Gayət(ə.)** – Çox; nəticədə.

**Ğazi (ə.)** – Qazi. Din uğrunda savaşan; düşmənə həmlə edən, İslam düşməni ilə döyüşən müsəlman.

**Ğəza (ə.)** – Din yolunda vuruşma.

**Ğeyrət (ə.)** – Qeyrət.

**Ğeyri (ə.)** – Qeyri, başqa.

**Ğəni (ə.)** – Allahın adlarından biri, bir kimsəyə və ya bir şeyə möhtac olmayan, zəngin; Ğəni Tanrı.

**Ğərim (ə.)** – Rəqib, qarşılıq.

**Ğızıldamaq** – Qıjıldamaq, vıyıldamaq.

**Ğırım (ə.)** – Rəqib; Ğırım qoymaq – meydan oxutmaq üçün döyüşçü seçmək; Ğırıma yetmək – düşmənlə qarşılaşmaq.

## H

**Hacət (ə.)** – 1. Gərək, ehtiyac, 2. yerinə yetirilməsi müqəddəs bir qüvvətdən istənilən dilək.

**Hacı (ə.)** – Məkkəni ziyarət etmiş müsəlmanlara verilən ad.

**Haqq (ə.)** – Allah.

**Haqlamaq** – Öhdəsindən gəlmək; cəzasını vermək.

**Halal I** – Həyat yoldaşı – ər və arvad.

**Halal II (ə.)** – İslam dininin ehkamlarına görə yeyilməsinə, zişlədilməsinə və ya özünə mal edilməsinə icazə verilən; Kəbinli, nikahlı; Qanuni.

**Haman (f.)** – 1. Göz önündə olmayan və ya uzaqda olan bir şeyi və ya şəxsi göstərmək üçün işlədilən əvəzlik – o, özü. 2. Dərhal.

**Hampa (f.)** – Yoldaş, sirdaş, silahdaş.

**Haramzadə** – (Ər. həram və f. zadə) fırıldaqçı, kələkbaz, hiyləbaz, bic, yaramaz.

**Hecasınlayın** – Heca, höccələmək.

**Heybət (ə.)** – Heybət, qorxu.

**Heybətlü** – Qorxunc, heybətli, əcaib görünüşlü.

**Həlal (ə.)** – Halal; haramın ziddi.

**Həlallaşmaq** – Haqsızlıqlarını bir-birinə bağışlamaq.

**Həmail (ə.)** – Boyunbağı, çiyindən asılan bağ; qılınc asqısı; Həmail quşanmaq – qılıncın bağını çiyindən ataraq – çarpaz taxmaq.

**Həmən** – Dərhal, həmin.

**Hə mi** – Beləmi? Deyilmi? Belə deyilmi?

**Həmlə (ə.)** – Hücum, döyüşdə düşmən üstünə tullanmaq.

**Həmta (f.)** – Sirdaş, yoldaş, yaxın dost, yaşıd, tay.

**Hənir** – Yavaş səs, qulağa dəyən anlaşılmaz səs.

**Həp** – Tamam, bütün.

**Hərami (ə.)** – 1. Haram yeyən, 2. quldur, soyğunçu, xırsız, yolkəsən.

**Hərif (ə.)** – yoldaş; əsnaf , işə yaramaz adam, utanmaz, təkəbbürlü, özünü bəyənmiş, kobud; ortaq, yaxın yoldaş, düşmən, müxalif, rəqib (həqarət və nifrət etmə mənası ilə) adam.

**Hərzə (f.)** – Boşboğazlıq, əbəs, nahaq.

**Həsəd (ə.)** – Paxıllıq; Həsəd etmək – qibtə etmək.

**Həsud (ə.)** – Qibtə edən, paxıl; Həsud kafir – xəbis kafir.

**Həvala (ə.)** – Yönəlmə.

**Həzrət (ə.)** – Cənab.

**Hiç** – 1. Əsla, qətiyyən, kəskin olaraq, 2. məgər?

**Himmət** – Səy, cəhd, kömək, qeyrət.

**Hindu** – Hindli, qulluqçu, kölə, qara rəngli adam.

**Hisar (ə.)** – Hasar, bir yeri qorumaq üçün çəkilən divar, barı, sədd.

**Holə** – Bir cismin çevrəsi; ov yeri, qoruq.

**Hotaz // xotaz** – Qotaz.

**Hu (ə.)** – Allaha (O) işarə edən kəlmə.

# X

**Xaç** – Xristianların, həzrəti İsanın asılmış şəklini təmsil etdiyinə inandıqları əlamət, büt.
**Xalicə (xalıca)** – kiçik xalı, kiçik türk xalısı, məbəd xalısı.
**Xanlıq** – Xanlıq. Hakimiyyət, dövlət.
**Xanum** – Xanım (xitab: ey xanım, ey mənim xanım).
**Xarac (ə.)** – (Bax: xərac).
**Xas (ə.)** – Adlı-sanlı, seçilmiş, seçilmiş və adı bəlli adam; Xas bəglər – adlı-sanlı bəylər.
**Xatir (ə.)** – Könül, qəlb; Xatiri xoş olmaq – sevinmək.
**Xatun** – Qadın, həyat yoldaşı, arvad, xanım, Xanın və ya hökmdarın qadını.
**Xəbərləşmək** – Xəbərləşmək. 1. Sözləşmək, 2. xəbər almaq, 3. xəbər alıb vermək, 4. xitab etmək, danışmaq, söyləmək.
**Xəlayiq (ə.)** – Xəlq olunmuşlar, xidmətçi qadın; cariyə, kölə qadın.
**Xələtləmək** – Hədiyyə vermək, xələt vermək; Xələt geydirmək, hökmdarın könlünü xoş etmək.
**Xəlvətcə** – Diz-dizə, baş-başa, yalnızca.
**Xərac (ə.)** – 1. Müsəlman olmayanlardan alınan vergi, 2. güc ilə alınan pul.
**Xəsm** – Qarşı tərəf, düşmən.
**Xıra** – Kiçik, zəif.
**Xırancə** – Bax: xıra.
**Xırlamaq** – Üzə qabarmaq, xorlamaq, donquldamaq, mırıldanmaq.
**Xırsız** – Fırıldaqçı, quldur.
**Xırslı** – Tamahkar, xəsis; donuzu olan.
**Xizmətkar (ə. f.)** – Xidmətçi.
**Xoca (f. Xacə)** – Ağsaqqal, yolgöstərən, əfəndi.
**Xorlamaq** – Xor baxmaq, təhqir etmək.
**Xoyrad** – Qaba, tərbiyəsiz, bədxasiyyət.
**Xub (f.)** – Yaxşı.
**Xud (f.)** – Özü.
**Xuda (f.)** – Tanrı.
**Xurd (f.)** – Xırda, kıçık.
**Xümrə (f.)** – Kiçik küp.
**Xürrəm** – Şad. Fərəhlənmə, sevinmə, şən olma.
**Xüsus (ə.)** – Haqqında, barəsində.

## I

| | |
|---|---|
| **Ildırım** | - İldırım. |
| **Ildız** | - Ulduz. |
| **Irmaq** | - Axar su, dənizə tökülən axar su, çay. |
| **Isırmaq** | - Dişləmək. |
| **Ismarlamaq** | - Əmanət vermək, tapşırmaq. |
| **Işıq // aşıq** | - Dəmir başlıq. |

## İ

| | |
|---|---|
| **İbrət (ə.)** | - 1. Örnək sayılacaq şey, 2. ehtiyat ediləcək şey, 3. əcayib, qəribə şey. |
| **İbrişim (f. Əbrişim)** | - Burulmuş ipək tel, incə ipək bükməsi. |
| **İcazət (ə.)** | - İcazə vermə, izin, rüsxət. |
| **İçərü** | - İçəri. |
| **İçət** | - İçəcək şey, içiləcək şey, su. |
| **İçin** | - İçin-için (ağlamaq). |
| **İçmə** | - İçki, içmə. |
| **İçrə** | - 1. Arasında, 2. İçəri, 3. içində. |
| **İçün** | - Üçün. |
| **İçürmək** | - İçirmək, sərxoş etmək. |
| **İdügi** | - Olduğu. |
| **İxtiyar (ə.)** | - 1. Bəyənmə, seçmə, üstünlük. 2. qoca, yaşlı, pirani. |
| **İkindi** | - Günün yarısı, günün ikinci yarısı, günün yarısından sonrası. |
| **İqrar (ə.)** | - Açıqca söyləmə, inkar etməmə; Etiraf, qəbul. |
| **İldən** | - Eldən öndə (çadırını eldən öndə tikdi). |
| **İldirmək** | - Sancmaq, dəlib keçirmək. |
| **İləm** | - Bax: ilən. |
| **İlən** | - 1. ilə, bərabər birlikdə, 2. vasitəsi ilə, 3. də, 4. habelə. |
| **İləri** | - İrəli. |
| **İlətmək** | - Yetirmək, çatdırmaq. |
| **İləyü** | - Ön, qarşı. |
| **İlğar** | - Basqın, hücum. |
| **İlğımaq** | - Atla çapa-çapa hücum etmə. |

**İlxı // ılxı** – İlxı.
**İlxıçı // ilqıçı** – İlxıçı, ata baxan, at otaran.
**İlləllah** – "Nədir bu çəkdiyim", "yandım əlindən" mənasında işlədilir.
**İlmək** – İlmək – ipdən halqa düzəltmək.
**İltifat (ə.)** – Gülər üz göstərmək, birinin könlünü xoş etmək, incə və zərif davranmaq.
**İmarət (ə.)** – Xeyirli iş, yoxsullara kömək üçün qurulmuş yer, kasıblara yemək verilən yer, yoxsullar yeməkxanası; İmarətlər yapmaq – səadət evləri tikmək.
**İmdi** – İndi. Artıq.
**İmək** – Köməkçi fel.
**İmirzə** – Bəy oğlu, bəy uşağı, bəyzadə.
**İmrənci** – Arzu olunan şəxs və ya əşya, qibtə edilən kimsə və ya əşya.
**İmrənmək** – Ağzının suyu axmaq, ağız sulanmaq, arzu etmək, arzulamaq, şiddətlə arzu etmək.
**İnaq** – Ən yaxın adam.
**İnayət (ə.)** – 1. Bir kimsəyə Allahın iltifat etdiyi lütf, kərəm, yardım, 2. Kərəm, yaxşılıq, iltifat, yardım.
**İncinmək** – Könüldən yaralanmaq, könlü sındırılmaq.
**İnramaq** – İnləmək.
**İnrəmək** – İnramaq; böyürmək, içini çəkmək.
**İnşallah** – 1. Allah dilərsə, Allah istərsə, 2. qismət olsa.
**İraq // ıraq** – Uzaq.
**İrişmək // irmək** – Çatmaq, yetişmək.
**İrgürmək** – Yetirmək, çatdırmaq.
**İrz (ə.)** – İnsanın namusu və hörməti, şərəfi.
**İs** – Yiyə, sahib.
**İsmi-əzəm** – Haqqın bütün adlarını özündə toplayan ad, Allah.
**İsnamaq** – Həşərat.
**İssüz** – Boş, sahibsiz.
**İstihsan (ə.)** – Bəyənmə, xoşa gəlmə, yaxşı, yaxud gözəl olduğunu söyləmə.
**İşdə** – Daha, artıq, budur (ədat).
**İşrət (ə.)** – Yeyib içmə, sərxoşluq verən hər hansı bir içki.
**İttifaq (ə.)** – Birlik, anlaşma, qarşılıqlı anlaşma, uyuşma.

**İyə** – Yiyə, sahib.
**İyəgü** – Qabırğa.
**İzzət (ə.)** – 1. Dəyərli olma, 2. az və nadir olma, 3. qüdrətli olma, 4. şan və şərəf, 5. əzəmət, qüdrət.
**İzzətlü** – Etibarlı; Hörmətə layiq, çox dəyərli, çox bəyənilmiş.

## K

**Kafir (ə.)** – 1. Allahın varlığına inanmayan, imansız.
**Kağıt (f.)** – Kağız.
**Kahil (ə.)** – Tənbəl.
**Keçə** – Keçə, təpilmiş yun, keçə.
**Kedi** – Pişik.
**Keyik** – Ceyran, keyik.
**Kəbin** – İzdivac, nikah; Evlənmənin qanuni şəklə salınması.
**Kəlbücügəz (ə.)**– İt, ov iti.
**Kəlicə** – Laqqırtı, söz, söhbət, müsahibə, mükalimə.
**Kəlid** – Qıfıl, kilid.
**Kəlisa** – Kilsə.
**Kəndirik** – Dəri süfrə. 1. qadınlar təndir çörəyi yaparkən xəmir taxtasının altına sərdikləri dəridən düzəldilən yayqı, xəmir açarkən yerə sərilən bez və ya dəridən düzəlmiş yayqı, üzərinə un ələmək üçün gön dəri, 2. yerə sərilən və masa yerinə işlədilən dəri, 3. dəridən süfrə.
**Kəndi // kəndü** – Şəxsi, özü.
**Kəndözü** – Özü.
**Kəpənək** – Yapıncı; çobanların qışda geydikləri döymə yundan keçə, keçədən tikilən qolsuz çoban plaşı, çoban yapıncısı.
**Kərəm (ə.)** – Kərəm, insaf.
**Kərrə (ə.)** – Dəfə, kərə, səfər, yol.
**Kərtmə** – Çərtmə, kəsmə.
**Kərtmək** – Kəsmək.
**Kəsim** – Qərarlaşma.
**Kibi** – Kimi, tək.

**Kiçi** - Kiçik.
**Kimsənə** - Bir kəs.
**Kir** - Çirk, murdarlıq, pislik, pis, kir.
**Kiriş** - Kiriş, qırlanmış ip.
**Kiş** - Dəridən ox qabı.
**Kişi** - Adam.
**Koma** - Toyuqların qaldığı yer, toyuq hini.
**Kos** - Zərb aləti; Nağaranın bir növü; İri təbil.
**Köb** - Köp, çox.
**Köçürmək** - Evləndirmək.
**Kök** - 1. Soyun əsli, əsil, təməl.
**Köməc** - Kökə, kömbə.
**Kömlək** - Köynək.
**Könlək** - Bax: kömlək.
**Köpri** - Körpü.
**Köpür-köpür** - Gumbur-gumbur.
**Köşək** - Köşək; altı aylıq dəvənin balası.
**Köşk** - Köşk, qəsr.
**Köymək** - Göynəmək.
**Kuma** - Ərləri ortaq olan qadınlar.
**Kübə // küpə** - Sırğa.
**Küçücük** - Kiçikcə, balaca.
**Küfr (ə.)** - 1. İmanın əksi, dinsizlik.
**Külah (f.)** - Başa qoyulan qalpaq, baş geyimi, konusvari formada başlıq, tatar başlığı.
**Külük** - Tez, çevik, cəld.
**Külüng** - Külüng, düsər; iki ucu sivri və kəskin, daş yonmaq üçün alət.
**Küpəli** - Sırğalı, küpəsi olan.
**Kür** - Dəcəl, narahat adam.
**Kürsi (ə.)** - 1. Göyün səkkizinci qatı, 2. ərş, 3. Allahın səltənəti, qüdrəti.
**Kürüm** - Nəsil, törəmə.
**Küt-küt** - Yavaş-yavaş, keyləşərək.
**Küvlək** - Su qabı.

# Q

**Qaba** – Böyük, kobud.
**Qabaq** – Örtük.
**Qabırğalu** – Qabırğalı, iməci bədəni bərkimiş.
**Qaç** – Nə qədər, neçə, neçə dəfə.
**Qaçan** – Haçan, nə vaxt.
**Qada** – Qada, bəla.
**Qadir (ə.)** – 1. Allahın adlarından biri, 2. güclü, qüdrətli; Qadir verən.
**Qadun** – Qadın.
**Qaftan** – Geyim, qaftan.
**Qaftanlıq** – Qaftanlıq parça, gəlinlik parça.
**Qağan** – Kükrəmiş, qəzəblənmiş.
**Qağırmaq** – Çığırmaq.
**Qaqmaq** – Qızmaq, qəzəblənmək, vurmaq.
**Qaxınc** – 1. Danlaq, qınama, başa qaxma, 2. zərbə.
**Qaxışdın** – Danqıltı, gurultu.
**Qaim I** – Allahın adlarından biri.
**Qaim II** – Qüvvətli, sağlam, möhkəm, uzunömürlü.
**Qaqınc** – Qaxınc, üzə vurma, tənə etmə.
**Qaqmaq** – Vurmaq; Göz vurmaq.
**Qaquban** – Qaxaraq; qaxıb.
**Qalaba** – Qələbəlik, çoxluq.
**Qalabalıq** – Çoxluq, qarmaqarışıq hər hansı bir kütlə.
**Qalaq** – Toy gecəsi gəlinlərin başına geydirilən bir növ taxtadan olan tac, gəlin tacı.
**Qalanısı** – Qalanı. Digərləri, özgələr, geri qalanlar.
**Qaldırıcaq** – Qaldırınca.
**Qalqan** – Qalxan.
**Qalqmaq** – Qalxmaq, ayağa qalxmaq.
**Qalı** – Xalı, gəbə, xalça.
**Qalıcaq** – Qalınca.
**Qalın** – Qalın, böyük; toyun başlandığı gün oğlan tərəfindən qız tərəfinə göndərilən hədiyyələr.
**Qalınlıq** – Toyda verilən başlıq.
**Qalmış** – Sınıq düşmüş. aciz, düşgün.

**Qama** – Qəmə, iki ağızlı bıçaq, kiçik xəncər.
**Qamu** – Hamı, bütün, hər kəs.
**Qan // ğan** – Xan.
**Qancaru** – Hara, necə.
**Qanda** – Harada.
**Qanı** – Hanı.
**Qan qaşınmaq** – Sidiyə qan getmək.
**Qanğı** – Hansı.
**Qanlu** – Qanlı.
**Qap** – Qaya.
**Qapaq** – Qapaq; qapaq qaldurmaq – gözünü açmaq.
**Qaparmaq** – Qabarmaq.
**Qaplan** – İsti ölkələrdə olan dərisi xallı yırtıcı heyvan, qaplan, pələng.
**Qapu** – Qapı, qala və şəhər darvazası.
**Qapuçı** – Qapı gözətçisi, qapıda keşik çəkən, qoruyucu.
**Qapurğa** – Qabırğa.
**Qapurğalı** – Qabırğalı, güclü.
**Qara** – Böyük.
**Qaraquca** – Ağsaqqal, hörmət sahibi yaşlı kişi, ata; baba.
**Qaralıq** – Eyib, ləkə, şərəfsizlik.
**Qaralu** – Talesiz, yasda olan.
**Qaraluca** – Bax: qaralu.
**Qaranqu** – Qaranlıq.
**Qararmaq** – Qaralmaq, kədərlənmək.
**Qaravaş** – Qaravaş, qul, xidmətçi.
**Qaravul** – Qaravul, gözətçi, keşikçi.
**Qardaş** – “Qarındaş” sözünün fonetik dəyişməyə uğramış formasıdır.
**Qardaşlu** – Qardaşı olan, qardaşı yanında olan.
**Qarğamaq** – Qarğamaq, lənətləmək.
**Qarğaşa** – Qarğaşa, çətinlik.
**Qarı** – Qarı, yaşlı, qoca qadın.
**Qarıcıq** – Qarıcıq (əzizləmə).
**Qarımaq** – Qocalmaq, qarımaq.
**Qarındaş** – Bax: Qardaş.
**Qarğu** – Qarğı, qarğı-qamış.

**Qarmalamaq** - Qarmalamaq, əllə bərk-bərk tutmaq.
**Qarma-bügəc** - Burma, axta – axtalanmış qoç.
**Qarşu** - Qarşı, üz-üzə.
**Qaru** - Qolun bazu sümüyü.
**Qarucıq** - Qolbaq, bazubənd.
**Qarvamaq** - Yaxalamaq.
**Qarvaşmaq** - Tutaşmaq.
**Qas-qas** - Qəhqəhə ilə – qas-qas gülmək.
**Qaşanmaq** - Qorxudan sidik buraxmaq.
**Qaşqa** - Qaşqa – atın alnında ağ xal.
**Qat** - Yan – Qatında: yanında, qarşısında.
**Qatı** - Sərt, möhkəm.
**Qatır** - Eşşəyin madyandan olan balası, qatır.
**Qatla** - Dəfə.
**Qatlanmaq** - Dözmək.
**Qaurma** - Qovurma.
**Qavat (ə. Kavvad)** - Oğraş, pozğun.
**Qavğa (f.)** - Dalaşma, bağırtı, döyüş.
**Qavğa basılmaq**- Sona çatan döyüş, bitən gurultu.
**Qavramaq** - Qucaqlamaq.
**Qavşurmaq** - Birləşdirmək, qovuşdurmaq.
**Qavum** - Qohum-əqrəba; qövm.
**Qavum-qardaş** - Qohum-qardaş.
**Qavun** - Qovun.
**Qayət (ə.)** - Çox, lap, lap çox, son dərəcə, nəticədə.
**Qayğulu** - Qəmli, narahat, qayğılı.
**Qayıqmaq** - Yana çəkilmək.
**Qayırı** - Qeyri.
**Qayib** - Qeyb, qeyb olma, yoxa çıxma, gələcək.
**Qaymaq** - Sapmaq, çəkinmək.
**Qaytaban** - Dəvə sürüsü, dəvə qatarı; dəvə saxlanan yer.
**Qayurmaq** - Qayğılanmaq. 1. əsirgəmək, gözləmək, himayə etmək, qorumaq; 2. içinə dərd salmaq, buradan narahat olmaq, qəm yemək, qayğılanmaq, fikir etmək, qəm çəkmək, 3. maraqlanmaq, muğayat olmaq, məna vermək.

**Qaz** – Su quşlarının bir növü, qaz.
**Qazlıq at** – Qazlıq dağında yetişən cins at, qaçağan, güclü cins at.
**Qəbzə (ə.)** – Qəbzə, sap; bir bıçağın və ya qılıncın tutacaq yeri, dəstək, sap, qulp.
**Qədəm (ə.)** – Ayaq, addım, xoşbəxtlik, uğur; Qədəmi qutsuz – ayağı uğursuz, gəldiyi yerə uğursuzluq gətirən.
**Qədər I** – 1. Say, 2. dərəcə, 3. ölçü.
**Qədər II (ə.)** – Qəza və hökm yazısı, bəxt, tale.
**Qədim** – Xədim, xidmətçi.
**Qəhhar (ə.)** – Qəhr edən.
**Qələmçi** – Katib, yazan, rəssam.
**Qənarə** – Heyvan kəsilən yer; heyvan asılan qarmaq.
**Qərayib** – Əcayib, qəribəlik.
**Qəza i (ə.)** – Cihad.
**Qəza ii (ə.)** – Qəza-qədər.
**Qəzab (ə.)** – Qəzəb.
**Qəzavat** – Bax: qəza II.
**Qəziyə (ə. Kəziyyə)** – Hadisə, qəziyyə.
**Qıcırdı** – Qıcırtı. Qıcır-qıcır etmə, qıcıqlayan səs.
**Qıl** – Tük.
**Qılağuz** – Bələdçi, yol göstərən, irəlidə gedən.
**Qılıc** – Qılınc.
**Qılmaq** – Etmək.
**Qımız** – At südündən içki.
**Qın** – Qın, qılınc, bıçaq və başqa kəsici alətlərin qilafı, silah qabı.
**Qına** – Həna.
**Qınalı** – Hənalı.
**Qınlu** – Qınlı.
**Qınsuz** – Qını olmayan.
**Qır** – Çöl, tarla.
**Qıran** – Böyük epidemiya.
**Qırğun** – Qırğın, ölüm, çox sayda ölüm.
**Qırım** – Müqabil.
**Qırış** – Müharibə, müharibədə bir-birini öldürmə, vuruşma; qırış günü – savaş günü.

**Qırq** – Qırx sayı, qırx.
**Qırnaq** – Xidmətçi, nökər.
**Qısır** – Qısır, doğmayan, bətnində bala olmayan.
**Qısmaq** – Çəkib daraltmaq, daraltmaq, gərmək, qısaltmaq, qısmaq, sıxışdırmaq, sıxıb tutmaq.
**Qısraq** – Qısır, doğmayan dişi at.
**Qıvanmaq** – Güvənmək, fəxr etmək.
**Qıvırmaq** – Burmaq, qıvrım etmək.
**Qıya** – Çəpəki.
**Qıyı** – Kənar, sahil.
**Qıyma** – Çəkik, qıyılmış.
**Qıynaq** – Caynaq.
**Qızan** – Qızmaq felindən, gənc, dəliqanlı, oğlan uşağı; uşaq, qız uşağı.
**Qızğun** – Odla qızmış, qızğın.
**Qızıl** – Qırmızı.
**Qızılçıq** – Zoğal ağa.
**Qızlamaq** – Xəlvəti hərəkət etmək.
**Qızmaq** – İsinmək, qəzəblənmək, coşmaq.
**Qissə (ə.)** – Hekayə, vaqiə.
**Qiyamət (ə.)** – Dünyanın, həyatın sonu, ölülərin qalxması, ölülərin qalxacağı zaman.
**Qoç** – 1. Axtalanmamış erkək qoyun. 2. igid adam, cəsur; Qoç yigit – cəsur.
**Qolan** – Atın yəhərini bərkidən qayış.
**Qolca** – Qolça; (qolça qopuz).
**Qomaq** – 1. Qoymaq, 2. buraxmaq, tərk etmək.
**Qonaqlamaq** – 1. Qonaq etmək, hörmət göstərmək, 2. qonaq qəbul etmək, ziyafət vermək.
**Qondurmaq** – Məskun etmək.
**Qonmaq** – 1. Bir yerə, bir şeyin üzərinə enmək, yerləşmək, 2. bir yerə enib oturmaq, gecələmək, 3. bir yerdə qonaq qalmaq, 4. qonaq olmaq, 5. ordu qurmaq.
**Qonuq** – 1. Mehman, müsafir, qonaq. 2. qonağa verilən hədiyyə və yeməklər, 3. məskən, yer.
**Qonur** – Qonur; qəhvə rəngi.
**Qopmaq** – Ayağa qalxmaq; meydana çıxmaq, zühur etmək.

**Qopuz** – Ud kimi, fəqət yayla çalınan üç telli qədim saz; Leh. ud növündən yumru saz.

**Qorı** – Qoruq (meşə və s.).

**Qoşlıq** – Xoşluq, xoş əhval.

**Qoşmaq** – Getmək.

**Qoymaq** – 1. Buraxmaq, gətirmək, qoymaq, 2. icazə vermək, 3. soxmaq, 4. yanına vermək, Qoyu vermək – qoymaq, buraxmaq.

**Qoyulmaq** – Basqın etmək.

**Qövl (ə.)** – Söz.

**Qövm (ə. Kavm)** – Camaat, xalq, qohum-əqraba.

**Qucanmaq** – Tərpənmək, qurcalanmaq.

**Qudbə (2)** – Xütbə; Xətibin minbərdən camaata xitabən söylədiyi nəsihətamiz sözlər.

**Quduz** – Quduz; 1. qudurmuş köpək, azğın köpək, 2. qudurmuş canavar, yalquzaq.

**Quğı** – Uzun boyunlu gözəl su quşu, qu quşu.

**Qul** – Kölə, qul, itaət edən.

**Qulağız** – Bələdçi.

**Qulan** – Vəhşi at və vəhşi eşşək.

**Qul-qaravaş** – Xidmətçi və cariyə.

**Qulun** – Qulun; atın balası.

**Quluncıq** – Kiçik dayça, bala dayça.

**Quma** – Koma.

**Qumaş (ə.)** – İpək, kətan, pambıq və yun toxuma.

**Qun I** – Balaca sərt dənələr şəklində olan daş qırıntısı, qum.

**Qun II** – Qan kəlməsilə birlikdə “qanqun” şəklində işlənmişdir, bugünkü dildəki qarşılığı qan-mandır.

**Qunc** – Künc. Heybənin, xurcunun, torbanın, çəkmənin boğazı.

**Qunt** – Sağlam, qüvvətli.

**Qunt-qunt** – Düyün-düyün.

**Qur** – Qurşaq, kəmər.

**Qurğuşmaq** – Uğraşmaq, qoşulmaq, qovuşmaq.

**Qurımaq** – Qurumaq.

**Qurqurma** – Başda saçın yuxarı toplanması; bəzəkli.

**Qurma** – Hörük.

**Qurt** - Yırtıcı, vəhşi canavar, qurd, yalquzaq.
**Qurtlar-quşlar** - Bütün yırtıcı heyvanlar, yerdəki və göydəki yırtıcılar.
**Qurulu** - Qurulmuş, gərilmiş.
**Qurumsı** - Qurum; Qurum, bacada hasil olan qalın his.
**Quşaq** - Qurşaq.
**Quşaqlu** - Qurşaq bağlamış, qurşağı olan.
**Quşanmaq** - 1. Geyinmək, geyinib qurşanmaq, 2. qılınc və sairə taxmaq.
**Quşqun** - Yəhər və palanın arxasında olan və quyruq altından keçirilən qayış.
**Quşlamaq** - Quş ovlamaq.
**Quşluq** - Səhər erkən.
**Qutlu (ə.)** - Mübarək, müqəddəs.
**Qutsuz** - Uğuruz.
**Quv** - Şayiə, qeybət, iftira, arxasınca danışma.
**Quvlamaq // quvalamaq** - Söz gəzdirmək. Şeytanlıq etmək.
**Quymaq (quymaz)** - Qorxmaq.
**Qüdrət (ə.)** - Güc, qüvvət, iqtidar, taqət.
**Qütbə** - Bax: xütbə.

## L

**Laf (f.)** - Çiy söz, mənasız iddia, lovğalıq, öyünmə; Laf urmaq – öyünmək, lovğalanmaq.
**Leş (f. Laşə)** - Pis və qoxulu cəsəd, düşmən və heyvan ölüsü, leş.
**Ləhzə (ə.)** - Zaman, vaxt, dəm, an.
**Lənət (ə.)** - Qovma, rədd etmə, tərk etmə; Lənət qılmaq – qovmaq.
**Ləşkər (f.)** - 1. Əsgər, ordu, 2. düşərgə, qərargah.
**Lütf (ə.)** - Yaxşı davranma, yumşaq davranma; lütf etmək.

## M

**Mahmuz** - Mahmız; Atı mahmızlamaq üçün çəkmənin dabanına taxılan şiş dişli kiçicik dəmir çarx.
**Mahmuzı** - Zərif ipək parça.

**Mahmuzlamaq** – Atı sürmək üçün qarnına vurmaq, ata mahmız vurmaq.
**Mancılaq** – Mancanaq (daş atmaq üçün qurğu).
**Maya** – Dişi dəvə.
**Mavlamaq** – Mıyoldamaq, həsrətini çəkmək.
**Məbud (ə.)** – Sitayiş edilən, varlıq, Allah, Tanrı.
**Mədəd (ə.)** – Yardım, imdad.
**Məgər** – 1. Amma, fəqət, lakin, 2. bəlkə, 3. ancaq, yalnız, 4. bundan başqa, 5. olmaya, bəs, yoxsa.
**Məğmun** – Aldanmış, zərər çəkmiş, uduzmuş.
**Məhbub (ə.)** – Gözəl, sevimli, yaraşıqlı, istəkli.
**Məhəl (ə.)** – 1. Əsr, 2. ara, 3. sıra, 4. zaman, 5. fürsət, 6. diqqət.
**Məqbul (ə.)** – Bəyənilən, xoş, mötəbər; Məqbul gəlmək – xoşa gəlmək.
**Məqsud (ə.)** – 1. Məqsəd, 2. arzu, dilək, 3. məqsəd, niyyət, murad.
**Məlhəm (ə.)** – Məlhəm, yara üzərinə yaxılacaq yumşaq dəva-dərman.
**Məlik (ə.)** – Hökmdar, kral, şah, şahzadə.
**Məlul** – Qəmli.
**Məni (ə.)** – Məna, məfhum, anlayış; Məzmun, mahiyyət.
**Mənal (ə.)** – Əldə edilən, yaxud malik olunan hər hansı bir şey, 2. mal, mülk, sərvət.
**Mənləmək** – Ağlayıb inləmək, sızlamaq; (munlamaq) məhzun olmaq.
**Mənlik** – Ləyaqət, mənlik, qürur.
**Mənrətmək** – Bağırtmaq, böyürtmək.
**Mərdan (f.)** – Kişilər, mərdlər, igidlər.
**Mərə** – Hey!
**Mərzə** – Hərzə-mərzə.
**Məst (f.)** – sərxoş, kefli.
**Məşrəb (ə.)** – İçki qabı.
**Mırlamaq** – Mırıldanmaq.
**Miskin (ə.)** – Heç bir şeyə malik olmayan, 2. qəhrə uğramış, 3. zəif.
**Mil** – Dağın beli.
**Miz** – Biz (I şəxs əvəzliyinin cəm forması).
**Molatmaq (mavlamaq)** – Miyoldamaq, pişiklərin çıxardığı səs; Miyovultu.
**Möhüb (ə.)** – Sevən, aşiq, vurulmuş.
**Möhürləmək** – Kilidləmək, möhür vurmaq, bağlamaq.

**Mu** - Bu (işarə əvəzliyi).
**Mudbaq (ə.)** - Mətbəx, yemək evi, yemək bişirilən yer.
**Munis (ə.)** - Ünsiyyətli, istiqanlı, mehriban.
**Muştçı (f-t)** - Müjdəçi.
**Muştulamaq** - Müştuluqlamaq.
**Muştulayu** - Muştuluqlayaraq, müjdələyərək.
**Muştuluq** - Yaxşı xəbər gətirdiyinə görə verilən hədiyyə, qarşılıq, bəxşiş; müjdə, şad xəbər.
**Mübarək (ə.)** - Mübarək. 1. Əziz, bərəkətli, 2. xoşbəxt, 3. müqəddəs, 4. uğurlu.
**Müdara (ə.)** - Davranış. Yola getmə.
**Müxənnət (ə.)** - Xainlik edən, aldadan, namərd.
**Müqabil (ə.)** - Qarşı, qarşı tərəf.
**Mürəvvət (ə.)** - Mürvət. Adamlıq, kişilik, mərdlik, yaxşılıq.
**Mürəssə (ə.)** - Bəzəkli, bəzənmiş, qiymətli daşlarla bəzədilmiş.
**Mürüvvətlü** - Mürvətli. Yaxşılıq edən, mərd, insaniyyətli.
**Müsahib (ə.)** - Həmdəm, həmsöhbət, yoldaş, dost.
**Müshəf (ə.)** - Səhifələnmiş. Səhifələrdən meydana gələn şəridlənmiş kitab, 2. Müshəfi-Şərif, Quran.
**Müstəcab (ə.)** - Qəbul olunmuş; Diləyi, istəyi yerinə yetirilmiş.
**Müşkil (ə.)** - Müşkül. Çətin, əngəlli, zor, əngəl.
**Müti (ə.)** - Baş əyən, itaətli, söz dinləyən, tabe.

## N

**Nagah (f.)** - Qəflətən, birdən-birə.
**Nagahi (f.)** - Qəflətən, gözlənilmədən, birdən-birə.
**Nağaraçu** - Nağaraçı.
**Naib (ə.)** - Birinin yerini tutan, qəza başçısı, vəkil; Canişin.
**Nakəs (f.)** - Alçaq, dəyərsiz, çox simic, xəsis, rəzil, şərəfsiz, yaramaz.
**Nayib (ə.)** - Bax: naib.
**Necədəyin** - Necə edək?
**Neçün** - Nə üçün, niyə.
**Nerə** - Hara?
**Nəñ** - Nəyinə?

**Nə hallu** – Necə? nə cür?
**Nə idügin** – Necə olduğunu, nə olduğunu.
**Nəqaraçu** – Nağaraçı, nağara çalan.
**Nəmləmək** – Hədəfə vurmaq.
**Nə** – Nəyinə.
**Nər (f.)** – Nər, erkək dəvə.
**Nərə (ə.)** – Hayqırış, hayqırma, gurlama; Nərə urmaq – hayqırmaq.
**Nəsib (ə.)** – Hissə, qismən, pay.
**Nəsnə** – Hər hansı bir şey, filan, birisi.
**Nəstəin (ə.)** – Yardım dilərik, yardımına güvənərik.
**Nəvalə (ə.)** – Bağışlama, bəhrə, nəsib; nəvə.
**Nida (ə.)** – Avaz, səs, çağırış; nida eyləmək – səslənmək.
**Nigah (f.)** – Baxış.
**Nigar (f.)** – Əllərə və ayaqlara xına ilə vurulmuş şəkillər, bəzəklər, xına.
**Nigarlı** – Xınalı, xına yaxılmış.
**Nikah (ə.)** – Kəbin.
**Niqab (ə.)** – Rübənd, örtü, üz örtüsü; Niqabını sərpmək – üzünü açmaq.
**Niqablu** – Rübəndli, örtülü.
**Niza (ə.)** – Çəkişmə, laqqırtı mübahisəsi, ağız mübahisəsi.
**Nola** – Nə olur? nə var? nə çıxar?
**Nolmaq** – Nə olmaq.
**Nolur** – Nəyə yarayar? nə üçün?
**Nökər (f.)** – Nökər, qul; Ev xidmətçisi.

## O

**Obrılmaq** – Oyulmaq; çökmək.
**Oda** – Otaq.
**Oğlancuq** – Kiçik oğlan.
**Oğlan-uşaq** – Çoluq-cocuq qələbəliyi, tünlüyü.
**Oğramaq** – Atın yavaş kişnəməsi.
**Oğrı** – Oğru.
**Oğurlayın** – Gizlicə, yavaşca.

**Oğuznamə** - Oğuz dastanı.
**Oq** - Ox.
**Oqçı** - Oxçu.
**Oqçuğaz** - Kiçik ox, gözəl ox.
**Oqımaq** - Oxumaq, dua etmək, dua oxumaq.
**Oxşamaq** - Öymək, vəsf etmək.
**Oxumaq** - Çağırmaq.
**Ol** - O (şəxs əvəzliyi).
**Olanca** - Bütün, hər şey, hamısı.
**Omuz** - Çiyin.
**Onarmaq** - İşi aşırmaq, düzəltmək, yaxşılaşdırmaq, yoluna qoymaq.
**Onat** - Doğru, sağlam.
**Onmaq** - Yaxşılaşmaq.
**Ordu** - Camaat, qərargah, yurd.
**Orqan** - Qalın ip; kəndir, örkən.
**Orman** - Meşə, sıx ağaclıq.
**Ortac** - Atanın yerini tutacaq olan, varis; (irtaş) şərik, ortaq, bərabər, birlikdə.
**Ortalıq** - Yer üzü, meydan, açıqlıq.
**Otaq (otağ, otax)** - Otaq, böyük çadır.
**Ovatmaq** - Bölük-bölük etmək, parçalamaq, qırmaq.
**Oyarmaq** - Oyatmaq, yuxudan oyatmaq, oyandırmaq.
**Oyluq** - Bud çuxuru.
**Oyun** - 1. Oyun, rəqs, 2. hiylə, 3. məharət; Oyununu oynamaq – döyüşmək, hünər göstərmək.
**Ozan** - Qopuz çalan və şeir söyləyən adam, aşıq.

## Ö

**Ög** - Ön, doğma.
**Ögəc** - Üçyaşar erkək qoyun.
**Ögmək** - Öymək, mədh etmək, tərif etmək.
**Ögünmək** - Öyünmək, özünü öymək, özünü tərifləmək; Lovğalanmaq.
**Ögüt** - Öyüt.

**Ökcə** – Diz.
**Oksüz** – Yetim, anasız.
**Öksüzlük** – Yetimlik, anasızlıq.
**Ökür-ökür** – Hönkür-hönkür, bağıra-bağıra.
**Ölümlü** – İçində ölüm olan, fani, keçici; Ölümlü dünya – fani dünya.
**Öncə** – Topuq, topuq arxası.
**Önçələmək** – Yorğalamaq, yorğa getmək; məhmizləmək.
**Önəlmək** – Yaxşılaşmaq, şəfa tapmaq.
**Öpmək** – Busə almaq, öpmək.
**Örmə** – Hörük, hörülmüş; Örmə saçlu – hörülmüş uzun saçlı.
**Ötə** – O tərəf.
**Ötəgi** – Əvvəlki, başqa, qeyrisi.
**Ötkün** – Güclü təsiri olan, sərt.
**Ötri** – Örtü (qoşma).
**Övrət** – Arvad, zövcə, həyat yoldaşı, qadın.
**Öykə (öykən)** – Öfkə, ağciyər.
**Öylə** – 1. O cür, elə, 2. günorta.
**Öynəcik** – Yemək, aşağı normada, kasıb yemək.
**Öyün** – Yemək norması.

## P

**Panbuq** – Pambıq.
**Parmaq** – Barmaq; imana gəlmək.
**Pas (f.)** – Pas; kin, küdurət.
**Paşa** – Paşa. Rəsmi yüksək titul; Hərbi rütbə.
**Payəndə (f.)** – Daimi, həmişəlik.
**Penir (f.)** – Pendir.
**Pəhlu (f.)** – Yan, böyür.
**Pəncyek** – Beşdə bir.
**Pər (f.)** – Pər, taxtadan, dəmirdən dilim, qanad.
**Pərçin (f.)** – Barı, hasar.
**Pəri (f.)** – Pəri, cinlərin çox gözəl və cazibəli qadın şəklində təsəvvür olunan qismi.
**Pərlü** – Dilimli, pərli, qanadlı.
**Pəs (f.)** – Bəs; bundan başqa.

**Pıçaq** – Bıçaq.
**Pırlamaq** – Fırlamaq, uçmaq.
**Pişkeş (f.)** – Peşkəş, hədiyyə.
**Pilon** – Keşiş cübbəsi, keşişlərin geydikləri qara cübbə.
**Pir (f.)** – Qoca, yaşlı; Pir-qocalar – yaşlı böyüklər ixtiyar qocalar.
**Pişürmək** – Bişirmək.
**Pul** – Misdən kəsilmiş sikkə.
**Pusarıq** – Duman, sis. Tutqun hava.
**Pusu** – Pusqu; Pusu olmaq – busquda durmaq.
**Put (f. Büt)** – Bütpərəstlərin öz əlləri ilə düzəldib özlərinə Tanrı etdikləri şəkil, heykəl.
**Puta (f. Butə)** – Hədəf, nişangah.
**Putxana // bütxana** – Bütlərə ibadət olunan ev, bütpərəstlərin ibadətxanası.

## R

**Raslamaq** – Nişan almaq, hədəfə götürmək.
**Rəb (ə. Rəbb)** – Varlığı, aləmləri yaradan, bəsləyib böyüdən, maddi və mənəvi kamilliyə aparan Allah.
**Rəhim (ə.)** – Dünyada iman edən və etməyən hər kəsi, hər məxluqu himayə edən, onlara şəfqət və mərhəmət göstərən demək olub, Allahın adlarındandır.
**Rəhman (ə.)** – Allahın adlarından olub, axirətdə yalnız iman edənləri qoruyan deməkdir.
**Rəhmət (ə.)** – Qorumaq, şəfqət eləmək.
**Rəsul (ə.)** – Elçi, peyğəmbər; Xəbər gətirən, Tanrı elçisi (mətndə Məhəmmədi bildirir).
**Rəvan (f.)** – Axıcı, axan, gedən.
**Rikət (ə.)** – Namazın rükünlərindən biri.
**Rizq (ə.)** – Pay, yeyəcək.

## S

**Sadaq** – Ox qabı, ox çantası, tirkeş.
**Sağdıc** – Sağdış; Vəfadar dost.

**Sağınc** – Düşüncə, ümid.
**Sağış** – Hesab; məhşər.
**Sağraq** – Badə.
**Sağrı** – Sağrı, paça.
**Saq** – Sağ (salamat), sağ tərəf.
**Saqac** – Üzərində çörək bişirilən yuvarlaq sac.
**Saqal** – 1. Saqqal, 2. keçinin çənəsi altında bitən tüklər.
**Saqar** – Qaşqa.
**Saqın** – Aman! diqqət! gözlə! bax! etmə! Saqınmaq.
**Saqlamaq** – Saxlamaq.
**Saqsağan** – Sağsağan; Qarğalar fəsiləsindən quş; Qəcələ.
**Salam (ə.)** – Salam. Salamat, sağlamlıq.
**Salavat (ə.)** – Məhəmməd peyğəmbər və imamların şəninə oxunan dua.
**Salxım** – Salxım, asqı.
**Salındırmaq** – Bir şeyi sallamaq, sallatmaq, asmaq; buraxmaq, endirmək.
**Salınmaq** – Dağılmaq, düzülmək, yerləşdirmək.
**Salı vermək** – Nişan vermək.
**Salqum-salqum** – Sərin-sərin.
**Samur** – Dərisindən qiymətli kürklər hazırlanan xəzli heyvan.
**Sancaq** – Bayraq, sancaq, tuğ.
**Sapa** – Sapmaq felinin kökü; Saparaq, sapıb.
**Sapan** – Sapand.
**Sara-sara** – Sarıya-sarıya, dolaya-dolaya.
**Sararmaq** – Saralmaq, sarı olmaq.
**Sarmaq** – Sarımaq, ip ilə dövrələmə dolamaq.
**Sarp // sarb** – Sərt, dik.
**Saru** – Sarı; Saru yalan (müq. et.: ağ yalan).
**Sarvan (f.)** – Dəvəçi, dəvə otaran.
**Sası** – İyrənc.
**Savaş** – Döyüş, cəng, hərb, müharibə.
**Savaşmaq** – Döyüşmək, vuruşmaq.
**Savmaq** – Sovmaq, ötüşmək, kənar etmək.
**Savrılmaq** – Sovulmaq, dağılmaq.
**Savulmaq** – Sovulmaq, aradan çıxmaq.
**Say** – Düz., düzgün, cilalı.

**Saymaq** - Saymaq, hesablamaq.
**Sayramaq** - Ötmək, oxumaq (quş), (sıramaq).
**Sayru** - Xəstə.
**Sayvan (f. Sayeban)** - Kölgəlik.
**Saz** - Qamışlıq.
**Seçiləcəkləyin** - Ayrılacaq kimi, seçiləcək kimi.
**Seyran (ə.)** - Zövq almaq üçün at və ya araba ilə gəzinti, seyrə çıxma.
**Səddəqna (ə.)** - Qurandan: "Düz olduğunu bildik, düz olduğuna inandıq".
**Səgirdiş** - Səyirtmə (at üçün).
**Səgirdmək** - Səyirtmək.
**Səgirmək** - Sıçramaq.
**Səhabə (ə.)** - 1. Yoldaş, 2. Peyğəmbərimizin yoldaşları, yaxın ətrafı.
**Səhih (ə.)** - Doğru, tam düzgün, səhvsiz.
**Səxt (f.)** - Pərtlik, sərt.
**Səlvi (f. Sərv)** - Sərv; Həmişə yaşıl, hündür boylu ağac; Səlvi boylu – boyu sərv kimi olan, uzunboylu gözəl.
**Səmüz** - Kök.
**Sərib** - Sərib-pırtmaq – yerləşdirib əzmək.
**Sərhəd** - Sərhəd boyu, qonşuluqda olan yer.
**Sərhəng (f.)** - Sərdar, komandan.
**Sərmərmək** - Yuxudan birdən-birə sıçrayaraq oyanmaq, sayıqlayaraq oyanmaq.
**Sərmüzə (f.)** - Çəkmə (ayaqqabı), qaloş tipli yapı.
**Sərpə-sərpə** - Səpə-səpə.
**Sərpmək** - Sıyırmaq; səpmək.
**Sərvər (f.)** - Rəis, hökmdar, şah, başçı, yüksək ali şəxs.
**Səttar (ə.)** - Allahın adlarından biri; İnsanların qusurlarını, eyiblərini örtüb gizləyən, onları bağışlayan deməkdir; Səttar Tanrı – eyibləri örtən, bağışlayan Allah.
**Sığamaq** - Sığamaq, sıxmaq.
**Sığın** - Sığır, dağ keçisi.
**Sığınu** - Sığınaraq, sığınıb.
**Sığır** - Sığır, buğa, öküz və inək növündən olan yetişmiş mal-qara.

**Sığırı** - Mal-qara gönündən tikilmiş uzunboğaz çəkmə.
**Sığırtmac** - Sığır otaran, çoban.
**Sığmaq** - Yerləşmək, uyuşmaq.
**Sıqlamaq** - Sıtqamaq.
**Sıqmaq** - 1. Sıxmaq, təzyiq etmək, 2. suyunu çıxarmaq.
**Sımaq** - Sındırmaq, qırmaq, parçalamaq; məğlub etmək, məhv olmaq, qırılmaq, məğlub olmaq.
**Sınamaq** - Sınamaq, (sinəmək); təcrübə etmək; Sınayu gəlmək – sınamağa gəlmək, sınayaraq gəlmək.
**Sındırmaq** - Bir kövrək şeyi sındırmaq, qırmaq, alçaltmaq, yenmək, yox etmək.
**Sınırlı** - Kirişli. Köşə sarılmış, köşə ilə bərkidilmiş, möhkəm.
**Sınmaq** - Sınmaq, qırılmaq.
**Sınırlamaq** - Kirişləmək.
**Sıravardı** - Sıra ilə, növbələşərək; bir cərgədə, bir sırada, bir-birinin ardınca.
**Sırça** - Şüşə.
**Sırılmaq** - Sıyrılmaq.
**Sırt** - Kürək.
**Sicim** - Sicim, bir neçə qat, qəzildən (keçi, at tükündən) toxunmuş uzun ip.
**Sidq (ə.)** - Gerçək, gerçəklik, sədaqət, səmimiyyət; Sidqi bitün – tam səmimiyyətli, möhkəm inamlı.
**Siddiq** - Doğruçu; Siddiq – birinci xəlifə Əbubəkrin ləqəbi.
**Silcək** - Silincə, silən kimi.
**Sin-sin** - İtlərin ağlayırmış kimi çıxardıqları səsin təqlidi, zingildəmə; Sin-sin sinləmə – itin yanıqlı zingildəməsi.
**Sinək** - Milçək.
**Sinləmək** - Sızıldamaq; zingildəmək.
**Sipara (f. Siparə)** - Quranın bölündüyü 30 cüzdən hər biri.
**Sivri** - Kəskin uclu, sivri, şiş.
**Soğuk** - Soyuq.
**Soğultmaq i** - Sorulmaq, qurumaq.
**Soğultmaq ii** - Südün çəkilməsi; quruması.
**Soqmaq** - Sancmaq, çalmaq.

**Soqman** – Çəkmə – ayaqqabı, yalın ayağa geyilən, dəri və ya tumacdan qısaboğaz çəkmə; bir növ uzunboğaz çəkmə.

**Sop** – Nəsil mənsubiyyəti, soy, sülalə, bir adamın əsli-nəsli.

**Sovğılmaq** – Qurumaq, kəsilmək (suya aiddir), sovulmaq.

**Sovulmaq (solmaq)** – Gücünü itirmək, sovuşmaq, qurtarmaq, keçmək.

**Soy** – Soy, nəsil.

**Soylama** – Söyləmə, demə.

**Soylamaq** – Söyləmək, demək (dastan, hekayət).

**Sögmək** – Pis söz söyləmək, söymək.

**Söyləşmək** – 1. Döyüşmək, qarşılaşmaq, 2. danışmaq, müzakirə etmək.

**Suç** – Günah, xəta, qəbahət.

**Suçu** – Su yolunun təmirçisi.

**Sulb (ə.)** – Bel, kürək.

**Sultan (ə.)** – Sultan; Xaqan, xan, bəy.

**Sultanım** – Kişi cinsindən olan hörmətli adama xitab kimi işlənir.

**Sum** – Dolu, tamam, içi dolu, bütün, külçə; Sum altun – içi və xarici qızıl, külçə qızıl.

**Sunqur** – Yırtıcı quşdur (Bax: ağ sunqur).

**Sunmaq** – Vermək, təqdim etmək.

**Surnaçı** – Zurnaçı.

**Susanmaq** – Susamaq.

**Subhanəhü (ə.)** – Ona (Allaha) eşq olsun.

**Sügilik** – Şiş; süngü.

**Sügsün** – Ənsə.

**Sünici** – Nişanlanmış, damğalı.

**Sünmək** – Nişanlamaq. Uzanmaq.

**Sünü** – Süngü, (süqü); (süqü və sünü); Süngü, mizraq, qarğı.

**Sünücük** – Kiçik süngü.

**Sünük** – Sünük, kəmik.

**Sür** – Sür cida; Çoxillik qamışın yoğun gövdəsindən hazırlanan nizə.

**Sürdürmək** – Saqilik etdirmək, şərab gəzdirmək.

**Süri** – Sürü, heyvan dəstəsi, toplusu.

**Sürimək** – Sürümək.

**Sürmək** – 1. Çıxarmaq, qovmaq.
**Sürücmək** – Sürüşmək.
**Sürülmək** – Davam etmək, sürüb getmək.
**Sürülə-sürülə** – Yerin üstü ilə bir şeyi çəkə-çəkə aparmaq, sürüyə-sürüyə.
**Süsəgən** – Buynuzlu. 1. buynuzu ilə vuran, buynuzlayan, 2. azğın sığır.
**Süsəlmək** – Batırılmaq, dürtülmək, saplanmaq.
**Süsəşmək** – Buynuzlaşmaq.
**Süsilmək** – Sancılmaq.
**Süsmək** – Buynuzlamaq.
**Süvar (f.)** – Süvari, at minən, atlı, süvari.

## Ş

**Şadman (f.)** – Şən, sevincli, məmnun.
**Şahbaz (f.)** – Şahin, məc. qoçaq.
**Şahin** – Şahin. Qaraguz cinsindən ov quşu, əksərən onunla durna ovlayırlar.
**Şahi-mərdan** – Mərdlərin şahı – əsli: Həzrət Əliyə işarədir.
**Şahınçibaşı** – Ov quşlarına baxan xidmətçilərin başçısı.
**Şah yigit** – Böyük bahadır, böyük qəhrəman.
**Şaqımaq** – Çaxmaq (şimşək).
**Şaqır** – Şığıyan.
**Şamata** – Hürmək.
**Şami** – Şam şəhərinə aid.
**Şami günlük** – Şamda (Suriyada) tikilən çadır növü. Bu gün Pakistanda işlənməkdədir, al və qara rənglidir.
**Şaşmaq** – Çaşmaq.
**Şayəd (f.)** – Ola bilər ki, bəlkə, ehtimal ki.
**Şapqa** – Papaq, şapqa.
**Şeşmək** – Açmaq.
**Şəbçiraq** – Qaranlıqda parıltı verən daş. Bur. gecə çıraq kimi yanan gövhər.
**Şəfi (ə.)** – Şəfaət sahibi, köməkçi.
**Şəfqət (ə.)** – Şəfqət.

| | |
|---|---|
| **Şəqaq** | – Gicgah; gözlə qulaq arasında üzərində saç olan yer, yanaq. |
| **Şən-şadman** | – Gülə-gülə, nəşəli, sevincli. |
| **Şərablu** | – Sərxoş, kefli. |
| **Şılamaq** | – İşıldamaq. |
| **Şırşımaq** | – Şıqqıldamaq. |
| **Şikar (f.)** | – Ov. |
| **Şimdi** | – İndi, bu anda. |
| **Şiri-mərdan** | – İgidlərin aslanı, qəhrəman və bahadırların başçısı (həzrət Əlinin ləqəbi). |
| **Şol** | – O (işarə əvəzliyi). |
| **Şorlamaq** | – Şır-şır axmaq. |
| **Şorlatmaq** | – Şırıl-şırıl axıtmaq. |
| **Şöylə** | – Elə, onun kimi. |
| **Şu** | – Bu. |
| **Şunda** | – Burada. |

## T

| | |
|---|---|
| **Taala** | – Allah-Taala. Leh., St. alp olsun, uca olsun, ulu olsun. Çox zaman Allahın adı ilə yanaşı sifət vəzifəsində işlədilir. "Allah-təala" kəlməsində "Allah iki uca olsun", yəni "ulu Tanrı" deməkdir. |
| **Taqılmaq** | – Taxılmaq, asılmaq, ilişmək. |
| **Taqılu** | – Taxılmış. |
| **Taqınmaq** | – Barmağına keçirmək. |
| **Taqmaq** | – Taxmaq. |
| **Talbınmaq** | – Çırpınmaq. |
| **Tal** | – Budaq. |
| **Tammaq** | – Dammaq. |
| **Tan** | – Dan. |
| **Tanığ olmaq** | – Bax: tanıq olmaq. |
| **Tanıq** | – Şahid. |
| **Tanıq olmaq** | – Şahid olmaq. |
| **Tanla** | – Sabah, səhərisi. |
| **Tanrı** | – Allah (tenri); Leh., Rad., Şs. (tinri); Allah, Çələb, Rəbb, Yaradan; Tanrı-təala – ulu Tanrı; Tanrı elmi – |

Quran; Tanrı haqqı – Allahın haqqı; Tanrı evi – Məkkədə Kəbə; Tanrı dostu – Peyğəmbərə verilən adlardan.

**Taraqa (ə.)** – Partlama, çatlama, gurultu, partlayış səsi.
**Taraqlıq** – Bel, qurşaq əsəbləri.
**Tartmaq** – Dartmaq.
**Taş** – Daş.
**Taşqun** – Daşqın.
**Taşmaq** – Daşmaq.
**Taşra** – Çöl, bayır, dış.
**Tat əri** – Özgə dindən olan.
**Tatlu** – Dadlı.
**Tavla** – Tövlə.
**Tavşan** – Dovşan.
**Tavuq** – Toyuq.
**Tay** – Day.
**Tayaq** – Dayaq.
**Tayınmaq** – Büdrəmək, sürüşmək.
**Tazə** – Təzə.
**Tazı** – Ov iti.
**Təbər** – Xəbər.
**Təbərrük** – Uğur, bərəkət.
**Təbsirmək** – Ürəyi atlanmaq.
**Təcri** – Çirkab içən.
**Təfərrüc (ə.)** – Ürəyi açılmaq; təfərrüc etmək – seyr etmək.
**Təhsin (ə.)** – Əhsən, afərin.
**Təhsinləmək** – Alqışlamaq, bəyənmək, öymək.
**Təkbir (ə.)** – Təzim etmək; "Allahu əkbər" söyləmək.
**Təkə** – Erkək keçi.
**Təkəllüf (ə.)** – Zəhmətə qatlaşma.
**Təkür** – Kafirin başçısı.
**Təkyə** – Söykənmə.
**Tən (f.)** – Bədən, cisim, gövdə, vücüd.
**Tənəf (ə. Tinab, tunub)** – Çadır ipi; pambıq ip.
**Tənmək** – At sırmək.
**Təpəl** – Təpəl.
**Tərki** – Yəhərin torba qoyulmaq üçün olan arxa hissəsi, yəhərin arxası.

**Tıqamaq** – Tıxanmaq.
**Tırnaq** – Dırnaq.
**Tindürmək** – Təskinlik vermək, əmin etmək.
**Tir (f.)** – Ox.
**Tirkəş (f.)** – Ox qabı, sadaq.
**Toğan** – Şahin, qızıl quş.
**Toxınc** – Qaxınc, danlaq.
**Toqlı** – Toğlu (altı aylıq qoyun balası).
**Toqunmaq** – Toxunmaq.
**Tolamac** – Dolanbac.
**Tolar // tol-tolar** – Qovhaqov, sıklıq.
**Ton** – Don.
**Tonuz** – Donuz.
**Topca** – Top kimi.
**Topraq** – Torpaq.
**Topucaq** – Kiçicik topuq.
**Torum** – Dəvə balası.
**Torumcıq** – Kiçicik, dəvə balası.
**Toyam** – Qənimət, təmin olunmauş, şad.
**Toylamaq** – Yedirib-içirmək, ziyafət vermək.
**Toz** – Toz, yayların üzərinə yapışdırılan şey, yaya sarılan ağac qabığı.
**Tozlu** – Dəstəyinə qayın ağacının qabığı sarılmış olan.
**Tuc** – Tunc.
**Tuğ** – Bayraq.
**Tuğulğa** – Dəbilqə.
**Tul ı** – Dul.
**Tul ıı** – Qarşı tərəf (Osman Sərtqaya).
**Tumar** – Qamçı.
**Turğac** – Duranda.
**Turi** – Qəhvəyi, səmənd rəng.
**Turğay** – Torağay, kəkilli kiçik quş.
**Turğurma** – Dayandırma.
**Turna** – Durna.
**Tuş** – Rast, tuş.
**Tuşaq** – Tuşaq, ayaq bağı, buxovu, atların qabaq ayaqlarına vurulan buxov.

**Tut** – Zərbə.
**Tutam** – Tutam, bir tutum, bir sıxma.
**Tutsaq** – Dustaq.
**Tü** – Tük.
**Tülü** – Tülü quş.
**Tümən** – On min; qeyri-müəyyən çoxluq.
**Türfəndə** – Qəribə, nadir.
**Tüy** – Tük, qıl.

## U

**Uçar** – Quşlar, uçan heyvanlar.
**Uçmağ** – Uçmaq.
**Uçmaq** – Cənnət.
**Udlu** – Utancaq, həyalı.
**Udsuz** – Həyasız, utanmaz.
**Ufanmaq** – Parçalanmaq, ovulmaq.
**Uğramaq** – Getmək, rast gəlmək.
**Uğraşmaq** – Rastlaşmaq.
**Uğur** – Uğur, yol.
**Ulalmaq** – Ulu olmaq, böyümək.
**Ulaşmaq** – Çatmaq, qovuşmaq.
**Ulı** – Ulu, böyük.
**Uman** – Gözləyən, uman.
**Umar** – Ümid edilən, umulan.
**Umar // umur** – Ümid edilən, umulan.
**Umız** – Çiyin.
**Umu** – Ümid.
**Umud** – Ümid.
**Urğun** – Talan, qarət.
**Urmaq** – Vurmaq.
**Uru** – Yuxarı, ayağa (durmaq).
**Uruq** – Nəsil.
**Urulmaq** – Çalınmaq, vurulmaq.
**Uruşmaq** – Döyüşmək, vuruşmaq.
**Us** – Ağıl.

**Usanmaq** – Bezmək, usanmaq.
**Usmaq** – Sanmaq, ummaq.
**Uş** – Bu (işarə əvəzliyi).
**Uşaq** – Nökər.
**Uvanmaq** – Bax: Ufanmaq.
**Uyan** – Yüyən.
**Uyxu** – Yuxu.
**Uymaq** – Uymaq, müvafiq olmaq.
**Uyumaq** – Yatmaq.
**Uyunmaq** – Uyumaq, südün uyunması.
**Uz** – Uzun, uzaq, uyğun.
**Uzamaq** – Uzun olmaq, böyümək, uzanmaq.

## Ü

**Üçüncüdə** – Üçüncü dəfədə.
**Ügitmək** – Üyütmək.
**Üləma (ə.)** – Alimlər, bilənlər.
**Ülüşmək** – Paylaşmaq, payı bölüşdürmək.
**Ümmət (ə.)** – Peyğəmbərin Dininə mənsub insanlar.
**Ün** – Səs.
**Ürkmək** – Hürkmək.
**Ürmək** – Hürmək.
**Üşəndürmək** – Əndişəyə salmaq.
**Üşmək** – Toplanmaq, yığışmaq.
**Üştə** – Bax: İştə.
**Üyişmək** – Siyirmək.

## V

**Vafir (ə.)** – Bol, çox, lap çox, bir çox.
**Vaf-vaf** – İt hürməsi, ham-ham; Vaf-vaf ürmək.
**Vaqeə (ə.)** – Vaqiyə, hadisə, yuxu, röya; Vaqeə görmək.
**Vaqtın** – Vaxtında, zamanında.
**Varmaq** – Getmək.
**Vasil (ə.)** – Qovuşan, çatan.

**Verək** – Dayaq, arxa.
**Vəchilə** – Belə, şəkildə, surətdə.
**Vəlhasil (ə.)** – Xülasə. Leh. xülasə, əlqissə, nəhayət.
**Vəli (f.)** – Amma, bununla bərabər, fəqət, lakin.
**Vəzir (ə.)** – Vəzir.
**Vilayət (ə.)** – 1.Bölgə. 2. şahlıq, hakimiyyət.

## Y

**Ya** – Ey, əlbəttə, o halda ki.
**Ya pəs** – Deməli, demək, bu halda, belə isə, indi.
**Yaban** – Yabanı, vəhşi.
**Yab-yab** – Asta, yavaş-yavaş.
**Yadıq** – Yaraq, ləvazimat.
**Yağı** – Yağı, düşmən.
**Yağılıq** – Düşmənlik.
**Yağma** – Talan, qarət, soyğun, talan; Yağma etmək – talan etmək.
**Yaqmaq // yaxmaq** – Yandırmaq.
**Yağmalamaq** – Talan etmək.
**Yaxnı** – Ət qovurması.
**Yağrın** – Arxa, kürək.
**Yaqa** – Yaxa.
**Yaqın** – Yaxın.
**Yaqışmaq** – Yaraşmaq.
**Yaqlanmaq** – Yaxınlaşmaq.
**Yalab-yalab** – Par-par (parlamaq).
**Yalabdaq** – Alov kimi.
**Yalabımaq** – Parıldamaq.
**Yalaq** – Yalaq, itlərə yem verilmək üçün yerdə qazılmış çala.
**Yalman** – Atın yalı.
**Yamrı** – Yumru.
**Yanal** – Yan, ətraf.
**Yanqulanmaq** – Əks-səda vermək.
**Yapa-yapa** – Yapa-yapa-yalnız. Lopa-lopa; Yapa-yapa qarlar yağmaq.

**Yapağlu** – Sıx, gur yunlu.
**Yapdırmaq** – İnşa etdirmək, tikdirmək, düzəltdirmək.
**Yapılmaq** – Emal edilmək, inşa edilmək, hazırlanmaq, edilmək.
**Yapınmaq** – Sipərlənmək.
**Yapmaq** – Etmək, qurmaq.
**Yapuq** – Yəhər, gül.
**Yaradan** – Allah, Tanrı, Xaliq.
**Yaraq** – Silah.
**Yaralu** – Yaralı.
**Yaran** – Dostlar.
**Yarçımaq** – Xoşbəxt olmaq. Bərəkət tapmaq, sağalmaq.
**Yarın** – Gələcəkdə, sabah.
**Yasaq** – Qadağa.
**Yasanmaq** – Qərar vermək, hazırlanmaq.
**Yasin** – Quranın 36-cı surəsinin adı; Əsasən ölü üçün oxunur.
**Yaşarmaq I** – Yaşıllanmaq, yarpaqlanmaq.
**Yaşarmaq II** – Yaşarmaq, göz.
**Yaşlamaq** – Ömür sürmək, yaşamaq.
**Yaşmaq** – Yaşmaq, örtük.
**Yaşmaqlanmaq** – Yaşmaqlanmaq, yaşmaq örtmək, örtünmək.
**Yaşurmaq** – Gizləmək.
**Yatduğı** – Yatdığı, yatmağı adət etdiyi.
**Yatlu** – Pis, yaramaz, fəna, adi.
**Yavrı** – Quş və heyvan balası.
**Yavuqlu** – Nişanlı, deyikli.
**Yavuz** – Pis, xoşa gəlməyən.
**Yavuzlamaq** – Pisləmək.
**Yaya** – Piyada.
**Yayaq** – Bax: Yaya.
**Yayan** – Piyada, ayaqla.
**Yayqanmaq** – Yaxalanmaq, çalxalanmaq.
**Yayla** – Yaylaq.
**Yaylamaq** – Yaylağa çıxmaq.
**Yaylar** – Yaylaqlanan, yaylayacaq, yaylayacaq olan.
**Yaylım** – Heyvan otlayan yer, otlaq, genişlik, düzəngah.
**Yazı** – Çöl.
**Yazıx** – Günah və suç.

**Yazılıb-dizilmək** – Meydana gətirilmək, tərtib edilmək.
**Yazın** – Yazda.
**Yazu** – Bax: yazı.
**Yedmək** – Yedəyə almaq.
**Yeg** – Yaxşı.
**Yegil** – Ye (təkidlə).
**Yegrək** – Çox yaxşı, daha üstün.
**Yekə** – Böyük, iri.
**Yelək** – Lələk, oxun tükləri.
**Yeləklü** – Yeləyi olan.
**Yeləm** – Yapışan ot.
**Yelətmə** – Qızışdırmaq (odu, çırağı), coşqun oyun havası.
**Yeli** – Yalı, lələyi.
**Yeltənmək** – Qurşanmaq (kəmər, qılınc), həvəslənmək, meyl etmək.
**Yemiş** – Məhsul, yeməli şeylər.
**Yen** – Paltarın qolu.
**Yenəməmək** – Qalib gələ bilməmək, zəbt edə bilməmək.
**Yengə** – Böyük qardaşın arvadı.
**Yenmək** – Qələbə çalmaq, üstün gəlmək.
**Yerindirmək** – Uzaqlaşdırmaq, qovmaq.
**Yerlü** – Münasib, yerində.
**Yesir** – Əsir.
**Yeşil** – Yaşıl.
**Yetdügində** – Yetdiyi zaman, çatdıqda.
**Yetman** – Yetişmiş, kamala yetmiş.
**Yetürmək** – Götürmək, çatdırmaq, böyüdüb meydana çıxarmaq, yetişdirmək.
**Yeyni** – Yüngül.
**Yəlicik** – Gözəl yal.
**Yığanaq** – Toplantı yeri, yığın, kütlə, topa.
**Yığışdurmaq** – Yığışdırmaq; haqq-hesab etmək (məhşərdə).
**Yığnaq** – Toplu.
**Yıqanmaq** – Yuyunmaq, yaxanmaq.
**Yıqıcı** – Yıxan, atdan aşağı salan.
**Yıqılmaq** – Yerə sərilmək, xarab olmaq, yerə batmaq.
**Yıqmaq** – Yıxmaq.

**Yılan** - İlan.
**Yıldırım** - İldırım, şimşək.
**Yıldırmaq** - Parıldamaq.
**Yıldır-yıldır** - Par-par.
**Yıldız** - Ulduz, bəxt, tale.
**Yılğamaq** - Çapmaq, at çapmaq.
**Yıllıq** - Üstündən... il keçmiş.
**Yırğamaq** - Yırğalanmaq; yırğalınıb keçmək.
**Yigit** - Yigid.
**Yigirmi** - İyirmi.
**Yigitcik** - Gözəl dəliqanlı, yaraşıqlı gənc.
**Yigitlik** - İgidlik.
**Yil** - İl.
**Yiləmək** - Qaçmaq.
**Yimək** - 1. Yemək, 2. qida, 3. azuqə.
**Yitmək** - İtmək, görünməz olmaq, qeyb olmaq, yox olmaq.
**Yoğ** - Yox.
**Yoğur** - Qatıq, yoğurt.
**Yoğurmaq // yoğramaq** - Əzib bükmək, xəmir kimi yoğurmaq, əzmək.
**Yoq** - Yox.
**Yolıqçı** - Yolçu.
**Yoluna** - 1. Uğrunda, 2. üçün.
**Yorğa** - Yorğa, iti sürətli və rəvan yeriş.
**Yortma** - Bax: Yorğa.
**Yortmaq** - Atın sürətlə getməsi.
**Yortuşmaq** - Atların bərabər yortması.
**Yuca** - Uca.
**Yucalmaq** - Ucalmaq.
**Yudmaq** - Udmaq.
**Yuqaru** - Yuxarı, baş tərəf, üst.
**Yum** - Xeyir-dua, son söz.
**Yumrı** - Yumru.
**Yumuş** - Mələk, buyruqçu, xəbərçi.
**Yund** - At.
**Yundu** - Yaxantı.
**Yurd** - Yurd, çadır, oba, ev, məskən.

**Yügrək** – Yüyrək, çaparaq.
**Yügürmək** – Yüyürmək.
**Yügürtmək** – Yüyürtmək, çapdırmaq, səyirtmək.
**Yüklət** – Yük heyvanı, yük daşıyan heyvan.
**Yüklü** – Hamilə, ikicanlı.
**Yülər** – Cilov, heyvanın başına, boğazına keçirilən ipdən başlıq, yüyən; Yülərini sıyırmaq.
**Yülmək** – Qırxmaq, saç və tükləri yolmaq, təraş etmək.
**Yürək** – Ürək, qəlb.
**Yürəklü** – Ürəkli.
**Yürir** – Quşlardan başqa ov heyvanı, yerdə yeriyən, uçmayan.
**Yüriş** – Yüyürüş.
**Yürümək** – Getmək.
**Yürütmək** – Ucalmaq, irəliyə, gələcəyə aparmaq, şərəfləndirmək.
**Yüz I** – Üz, sifət.
**Yüz II** – Say (100).
**Yüzmək** – 1. Soymaq, dərisini çıxarmaq, 2. üzmək.
**Yüzük** – Üzük. Barmaq halqası.

## Z

**Zahir (ə.)** – Aşkar, görünən.
**Zarılıq** – Fəryad, fəğan, ağlayıb-inləmə.
**Zarı-zarı** – Ağlayıb inləyərək, ah-vay edərək.
**Zaval (ə.)** – Ziyan, zərər, təbii fəlakət, afət.
**Zəbun (f.)** – Biçarə, natəvan və nalan, məhkum, zəif.
**Zəxm (f)** – Yara.
**Zira (f.)** – Çünki, ona görə ki, madam ki.
**Zirü-zəbər (f.)** – Alt-üst, baş aşağı.
**Zindançı** – Zindan gözətçisi, həbsxana baxıcısı.
**Ziyadə (ə.)** – Çox, artıq.
**Zühur (ə.)** – Meydana çıxma, bəlli olma, görünmə, çıxma.
**Zülfüqar (ə.)** – Zülfüqar – ucu haça qılınc. Həzrət Əliyə məxsus olmuşdur.

# İNDEKS

## Coğrafi adlar – yer, ölkə, dövlət adları


Abqaz eli
Ağcaqala
Ağcaqala Sürməli
Ağca saz
Ağ Hasar (qala)
Ağ Qaya
Ağlağan
Ağsaqa
Aqhasar qalası
Ala tağ
Amit qalası
Arqıç qır (çay)
Arqubel
Aslan yatağı
Aya Sofya
Ayqırgözlü
Bam-bam təpə
Barasar
Başıaçıq Tatyan qalası
Bayburd Hasarı (qalası)
Cızıxlar
Dəmirqapı Dərbənd
Dərbənd
Dərəşam
Dış Oğuz
Düzmürd qalası
Evnik qalası
Əlincə qalası
Əmman dənizi
Gəncə
Gögcə dəniz
Günortac
İç Oğuz
İstanbul
Kan Abxaz eli
Kərbəla
Qalın Oğuz

Qapılar Dərbəndi
Qara dəniz
Qaraquc
Qara dərə
Qara Dərvənd
Qara tağ
Qarun eli
Qazılıq dağı
Qıpçaqlar (toponim)
Mədinə
Məkkə
Mərdin qalası
Oğuz eli
Parasarın Bayburt hasarı
Pasinik
Rum eli
Sallaxana
Sancıdan
Sürməli
Talı
Tana sazı
Tatyan qalası
Taş Oğuz
Trabuzon
Tuman qalası
Türkistan
Şam
Şirokuz

## Tayfalar, nəsillər, damğalar

Aqsaqa (ağ saka > axısqa)
Bayat boyu
Bozoqlar
Eləklər (iləklər)
Qanqlılar (Qanlı Qoca)
Qayılar
Qıpçaqlar
Oğuzlar
Salurlar
Səlcüklər

Tatarlar
Təkurlar
Türkmənlər
Uşunlar
Üçoqlar

## At adları

Al ayğır (Bəkilin atı)
Alca at (Şöklü Məlikin atı)
Boz ayğır (Bamsı Beyrəyin atı)
Keçi başlı Keçər at (Bayandırın atı)
Qaragöz at (Qazanın atı)
Qaraquc (Uruzun//Səgrəyin atı)
Qazlıq at (Burlanın atı)
Qonur at (Qazanın atı)
Toğlu başlı Turı ayğır (Bayandırın atı)
Yelisi qara Qazlıq at (Qanturalının atı)

## Gerçək və mifoloji şəxs adları

Ağ Məlik Çeşmə
Alp Ərən
Alp Rüstəm (Dözən oğlu Alp Rüstəm)
Alp Uran (İlək Qoca oğlu Alp Uran)
Arşın oğlu Dirək
Aruz (Aruz Qoca, Atağızlı Aruz Qoca)
Ayişə
Ayna Mələk
Bamsı (Baybörə oğlu Bamsı Beyrək)
Banıçiçək (Baybican qızı Banıçiçək)
Basat (Aruz Qoca oğlu Basat)
Baybican
Baybörə
Bayındır xan (Qam Ğan oğlu xan Bayındır)
Beyrək (Boz ayğırlı Beyrək)
Bəkil
Boğazca Fatma
Buğac (Dirsə xan oğlu Buğac)
Buğacıq Məlik
Bunlu Qoca

Burla Xatun (Boyu Uzun Burla xarun)
Bügdüz Əmən (Bığı qanlı Bügdüz Əmən)
Cəbrayıl
Dədə Qorqud
Dəli Domrul (Duxa Qoca oğlu Dəli Domrul)
Dəli Dondar (Qıyan Səlcük oğlu Dəli Dondar)
Dəli Qarcar (Baybican oğlu Dəli Qarcar)
Dəli Uran
Dəmir Donlu Mamaq
Dirsə xan
Dözən
Duxa Qoca
Dügər
Dülək Uran (İlək Qoca oğlu Dönəbilməz Dülək Uran)
Düyər
Əgrək
Əli (Şahi-mərdan)
Əmən (Bügdüz)
Əmran (Bəkil oğlu Əmran)
Ənsə Qoca
Əzrail
Fatimə
Həsən
Hüseyn
Xızır
Xızır İlyas
İlalmış (Yağrıncı oğlu İlalmış)
İlək Qoca
Qaba Ağac (mifoloji ana)
Qağan Aslan (mifoloji ata)
Qanlı Qoca
Qanturalı (Qanlı Qoca oğlu Qanturalı)
Qapaqqan
Qara Arslan Məlik
Qarabudaq (Qaragünə oğlu Qarabudaq)
Qaracuq Çoban
Qaraçəkür
Qaragünə
Qara Təkür
Qara Tükən Məlik
Qazan xan (Ulaş oğlu Salur Qazan//Salur bəgi xan Qazan)

Qazılıq Qoca
Qəflət Qoca
Qılbaş
Qıpçaq Məlik
Qırqqınıq (Qaraçəkür oğlu Qırqqınıq)
Qısırğa Yengə
Qıyan Səlcük (Aruz oğlu Qıyan Səlcük)
Qorqud Ata
Qutlu Mələk
Məhəmməd Mustafa
Nuh (peyğəmbər)
Oqçı (Ənsə Qoca oğlu Oqçı)
Osman
Osman Üffət oğlu
Paşa
Rəsul əleyhüssəlam
Rüstəm (Toğsun oğlu Rüstəm)
Sarı Çoban
Savqan Sarı
Selcən xatun (Sarı donlu Selcən xatun)
Segrək (Uşun Qoca oğlu Səgrək)
Sufi Sandal Məlik
Şir Şəmsəddin (Qəflət Qoca oğlu Şirşəmsəddin)
Şöklü Məlik
Təpəgöz
Tərs Uzamış
Toğsun
Trabizon Təkuru
Ulaş (oğlu Qazan)
Uruz (xan Uruz//Qazan oğlu Uruz bəg)
Uşun Qoca oğlu
Ürüydə
Yağrıncı
Yalançı
Yalançuq (Yalançı oğlu Yalancuq)
Yapağlı Qoca
Yegnək (Qazılıq Qoca oğlu bəg Yegnək)
Yetər
Zəlixə
Zübeydə

## MÜNDƏRİCAT

### KİTABİ-DƏDƏ QORQUD
(əsil mətn)


"Dədə Qorqud kitabı" ilk yazılı yaddaşımızdır . . . . . . . . . . . . . . . . . . . . . .4
Bismillah ir-rəhman ir-rəhim və bihi nəstəin . . . . . . . . . . . . . . . . . . . . . . . .19
Dirsə xan oğlı Buğac xan boyını bəyan edər, xanım, hey! . . . . . . . . . . . . .24
Salur Qazanıñ evi yağmalandığı boyı bəyan edər . . . . . . . . . . . . . . . . . . . .37
Qam Börəniñ oğlı Bamsı Beyrək boyını bəyan edər, xanım, hey... . . . . . . .52
Qazan bəg oğlı Uruz bəgiñ tutsaq oldığı boyı bəyan edər, xanım, hey! . . . . .78
Duxa Qoca oğlı Dəli Domrul boyını bəyan edər, xanım, hey! . . . . . . . . . .95
Qañlı Qoca oğlı Qanturalı boyını bəyan edər, xanım, hey-hey! . . . . . . . .104
Qazılıq Qoca oğlı Yegnək boyını bəyan edər, xanım, hey! . . . . . . . . . . .119
Basat Dəpəgözi öldürdügi boyı bəyan edər, xanım, hey! . . . . . . . . . . . . .125
Bəkil oğlı əmranıñ boyını bəyan edər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .135
Uşun Qoca oğlı Səgrək boyını bəyan edər . . . . . . . . . . . . . . . . . . . . . . .145
Salur Qazan tutsaq olub oğlı Uruz çıqardığı boyı bəyan edər . . . . . . . . .154
İç oğuza daş oğuz asi olub Beyrək öldügi boyı bəyan edər . . . . . . . . . . .164


### KİTABİ-DƏDƏ QORQUD
(sadələşdirilmiş mətn)


Müqəddimə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .172
Dirsə xan oğlu Buğac xan boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .176
Salur Qazanın evinin yağmalandığı boy . . . . . . . . . . . . . . . . . . . . . . . . . .188
Baybörənin oğlu Bamsı Beyrək boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .202
Qazan bəin oğlu Uruz bəyin dustaq olduğu boy . . . . . . . . . . . . . . . . . . . .225
Duxa Qoca oğlu Dəli Domrul boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .241
Qanlı Qoca oğlu Qanturalı boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .248
Qazılıq Qoca oğlu Yeynək boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .261
Basatın Təpəgözü öldürdüyü boy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .266
Bəkil oğlu İmran boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .275
Uşun Qoca oğlu Səyrək boyu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .284
Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu
xilas etdiyi boy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .293
İç oğuza Daş oğuzun dönük çıxması və Beyrəyin
öldüyü boy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .303


### Lüğət və indeks


Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .310
İndeks . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .370

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 26.08.2004. Çapa imzalanmışdır 19.11.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 23,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 154.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.